ƏLİ NƏZMİ

# SEÇİLMİŞ ƏSƏRLƏRİ

M.F.Axundov adına
Azərbaycan Milli
Kitabxanası

"ŞƏRQ-QƏRB"
BAKI-2006

*Bu kitab "Əli Nəzmi. Seçilmiş əsərləri" (Bakı, Yazıçı, 1979) nəşri əsasında təkrar nəşrə hazırlanmışdır*

Tərtib edəni və ön sözün müəllifi: **Firidun Hüseynov**

Redaktoru: **Elmira Qasımova**

**894.3613-dc22**
**AZE**
**Əli Nəzmi. Seçilmiş əsərləri.** Bakı, "Şərq-Qərb", 2006, 544 səh.

Mollanəsrəddinçi-şair, M.Ə.Sabirlə çiyin-çiyinə yazıb-yaradan, Sabir ədəbi məktəbinin ən görkəmli davamçısı olan Əli Nəzmi XX əsr Azərbaycan ədəbiyyatında satirik şerin məşhur nümayəndələrindən biridir. Azərbaycan mətbuatında fəal çıxış edən Əli Nəzmi öz güclü qələmi ilə cəhalətə, geriliyə, dini fanatizmə, istibdada və imperializmə qarşı kəskin mübarizə aparmışdır.

Bu kitabda Əli Nəzminin zəngin ədəbi irsindən bir hissəsi, şeirləri, felyetonları və ərəb əlifbası ilə yazılmış "Keçmiş günlər" əsəri əlyazmasından transliterasiya edilərək ilk dəfə kitaba daxil edilmişdir.

**ISBN10 9952-34-036-2**
**ISBN13 978-9952-34-036-5**

© "ŞƏRQ-QƏRB", 2006

Azərbaycan Respublikasının Prezidenti
İLHAM ƏLİYEVİN
**"Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında"**
12 yanvar 2004-cü il tarixli sərəncamı ilə nəşr olunur və ölkə kitabxanalarına hədiyyə edilir

# HƏQİQİ "MOLLA NƏSRƏDDİN" ŞAİRİ

Əli Nəzmi (1878-1946) Azərbaycanda inqilabi-demokratik ədəbiyyatın yaradıcılarından biridir. Görkəmli şair və mühərririn doğulduğu vaxtdan yüz otuz il, "Sijimqulunamə" adlı şeirlər külliyyatının çap olunduğu zamandan səksən il keçməsinə baxmayaraq bu istedadlı şairin, qüdrətli satirik qələm sahibinin zəngin ədəbi irsi nəsillərin ideya və bədii-estetik tərbiyəsinə xidmət etməkdən geri qalmır. Həmişə olduğu kimi, bu gün də müasir səslənir, sevilə-sevilə oxunur, təqdir olunur. Ömrünün təxminən əlli ilini bədii yaradıcılığa həsr edən sənətkarın odlu satiraları, duzlu-məzəli felyetonları sosialist inqilabından əvvəlki Azərbaycan mətbuatının bəzəyi olmuşdur. "Molla Nəsrəddin", "Zənbur" və başqa satirik-yumoristik jurnallarımız onun əsərlərini çox vaxt ilk səhifələrində, baş məqalə yerində dərc etmişlər. Çünki Əli Nəzmi də, böyük demokrat Cəlil Məmmədquluzadə, poeziyamızda inqilabi satiranın banisi Mirzə Ələkbər Sabir kimi, bütün ömrünü xalq azadlığı hərəkatına, vətənin tərəqqisinə, mədəniyyət və maarifin çiçəklənməsinə, qadın azadlığı uğrunda mübarizəyə, geriliyin, din və mövhumatın, milli zülmün aradan qaldırması yolunda qələm döyüşünə həsr etmiş görkəmli sənətkar, fədakar şair-vətəndaş, məslək adamı idi. Müəllimi, qələm və ideya dostu C.Məmmədquluzadə şairin "Sijimqulunamə" kitabına dərin məzmunlu, qiymətli ön sözündə yazırdı: "Biz bunu qəti deyə bilərik ki, "Molla Nəsrəddin"ə yaraşan şivənin məzəliliyi və duzluluğunda, məharət və lətafətdə Sabirə yavuq gələn və ona əvəz olan birinci Məşədi Sijimqulu-Kefsiz olubdur... Sabirin vəfatından sonra ikinci Sabirimiz birincisinin yerini boş qoymadı. Məşədi Sijimqulu-Kefsizin zövq və səfalı, məzə və duzlu şerinin heç bir vaxt dalı kəsilmədi. O özü cismən qocaldısa da, onun kəlamının lətafəti bir zərrə qədər əskilmədi".

Əli Nəzmi 1898-ci ildən yazmağa başlamış, sonralar "Şərqi-rus"da, "Molla Nəsrəddin"də, "Zənbur"da və onlarla başqa mətbuat orqanlarında öz əsərlərini Bikəs, Əlidəyənəkli, Həcamətverdi, Ə.S., Əli Məhəmmədzadə Sərabi, Məşədi Sijimqulu, Kefsiz, Sərsəri, Qanacaqsız, Şəmşir, Şəmşirək, Peşiman qoca, Gəncə cavanları, Mütəşair, Şallax, Gav-mahi, Qoca zığ-zığ, Papirosçəkən, Hekayəçi və s. otuzdan artıq müxtəlif gizli və açıq imzalarla çap etdirmişdir. O, Mirzə Cəlil, Sabir, Ə.Haqverdiyevin adı ilə bağlı olan realist, inqilabi-demokratik ədəbiyyatın döyüşkən əsgərlərindən, XX əsrin əvvəllərində bütün Yaxın Şərqə səs salan, həqiqət carçısı, məzlum xalqın ictimai-mənəvi həyatını, arzu və istəklərini bir güzgü kimi əks etdirən "Molla Nəsrəddin" jurnalının əsas sütunlarından biri olmuşdur. Təsadüfi deyil ki, jurnalın yaradıcısı və redaktoru



C.Məmmədquluzadə sonralar Təbrizdən Bakıya qayıdıb yenidən fəaliyyətə başlarkən (1922) "Molla Nəsrəddin"də maraqlı bir elan vermişdir: "Neçə il ayrı düşəndən sora yada salırıq yoldaşımız və ikinci Sabirimiz Kefsizi (Məşədi Sijimqulunu) harada olduğunu bilmədiyimiz üçün ondan bir xəbər tuta bilmədik. Ümidvarıq ki, tez vəqtdə öz lətafətli şeirləri ilə məcmuəmizi zinətləndirəcəkdir".

Beləliklə, inqilabdan əvvəl olduğu kimi, sonrakı illərdə də, Əli Nəzminin satirik şeir və felyetonları "Molla Nəsrəddin" jurnalının bəzəyi olmuş, 1946-cı ilə qədər gərgin və səmərəli yaradıcılıqla məşğul olan şairdən bizə çox zəngin ədəbi irs qalmışdır. Bu irsi onun saysız-hesabsız satirik şeirləri, maraqlı felyetonları, mənzum hekayələri, poemaları, xatirələri, tərcümə və məqalələri bütövləyir.

* * *

Əli Nəzmi, hər şeydən əvvəl, inqilabçı-satirik şairdir. Yaradıcılığının başlıca ruhunu inqilab, azadlıq, vətən, xalq, beynəlmiləlçilik, insanseverlik, milli dil və mədəniyyət uğrunda inadlı mübarizə kimi bəşəri problemlər təşkil edir. Onun yaradıcılığı maarifpərvər şeirlərdən ictimai-inqilabi satiraya doğru inkişaf edib yüksəlmişdir. XX əsrin birinci rübünün son dərəcə mürəkkəb ictimai-siyasi şəraiti şairin yaradıcılığına güclü təsir göstərmiş və satiralarında parlaq əks olunmuşdur. Əli Nəzmi məhz bu mühüm ictimai-siyasi hadisələrin güclü təsiri ilə yoxsul kəndlilərin dözülməz həyatından, ağır mülkədar zülmü və istismarından, çarizmin müstəmləkəçilik siyasətindən, burjua cəmiyyətində pulun hakim, pozucu mövqeyindən, din xadimlərinin fitnə-fəsadından, qadın azadlığı düşmənlərindən, gerilik və ətalətdən, vaxtı ötən adət və ənənələrdən yazır, xalqı oyanışa, xoş gələcəyə, aydın sabaha səsləyirdi.

1903-1906-cı illərdə qələmə aldığı "Fələkdən giley", "Şikayət", "Kəndə ibtida", "İstibdad" və s. ilk şeirlər Əli Nəzminin hələ o zaman ictimai haqsızlıqlara qarşı barışmaz yol tutduğunu, vətənin, xalqın taleyini düşündüyünü, sənət və ədəbiyyatda tərif deyil, tənqidə meyil etdiyini deməyə imkan verir. Yenicə yazmağa başlayan gənc şair doğma xalqın dözülməz ictimai zülmə məruz qaldığını görüb dərindən kədərlənir və "Şikayət" şerində öz zəmanəsini belə səciyyələndirir:

*Məskənim dəhrdə neyistandır,*
*Süknəsi həm köhnəpərəstandır.*
*Nur zülmət dalında pünhandır,*
*Şəbpərə pəhlivanə dönmüşdür.*

Çarizmin müstəbidliyi, azlıqda olan millətlərə qarşı sonsuz zülm və işgəncəsi həssas təbiətli, iti və kəskin qələmli Əli Nəzminin ilk şeirlərindən tutmuş 1920-ci ilə qədərki bütün yaradıcılığında yanıqlı dillə təsvir olunur. Şair Peterburq hökumətinin Qafqaz müsəlmanlarına etdiyi zülmü "Həsəd" şerində miskin bir tarixi həqiqət kimi ustalıqla qələmə almışdır. Qəzəl formasında yazdığı "İstibdad" şerində o, vətənin sağalmaz dərdlərini, fəna halını göz qabağına gətirir, dərin, sonsuz vətən eşqi və məhəbbətini, onun səadəti üçün sızlayan könül çırpıntılarını həzin lirika ilə qəlbə axıdır, bu yolda rahatlıq bilməyən ürəyinin dərdini təsirli misralara çevirir:

*Çürüsə çeşmim əgər xaki-siyəh altında,*
*Yenə hürriyyət olur hər əməlim, hər süxənim.*
*Bikəsa, rahətim olmaz yerim olsa cənnət,*
*Pişi-çeşmimdə əgər böylə fənadə vətənim.*

"İstibdad" şairin ilk qələm təcrübələrindəndir. Bu şeirdən tutmuş, ta 1944-cü ildə yazdığı "Vətənim" əsərinə, alman faşizmi üzərində xalqımızın tarixi qələbəsi günündə yazdığı "Gülür, aləm bu gün" şerinə qədər, vətən və onun dərdləri, millət sözü ilə dönə-dönə təkrar olunan xalqın taleyi, onun dili, mənəvi birliyi, gələcək səadəti, azadlığı bir ictimai problem kimi, Əli Nəzmi yaradıcılığının mərkəzində durmuşdur. "Tarac edildi zinəti-pürqiymətivətən", "Deməm ki, indilik bənzər vətən səhni-gülüstanə", "Payimali-iyşizülm olmuş vətən biabü tab" – deyə fəryad edən şair dil bilən, söz anlayanları ana Vətənin dözülməz, ağır dərdlərini düşünməyə, onu dağılıb məhv olmaqdan xilas etmək yolunda fəal mübarizəyə səsləyirdi. Vətənin ictimai dərdlərinə göz yuman, biganəlik azarına tutulan daxili düşmənləri, öz şəxsi mənfəətindən qeyri şey düşünməyənləri, vətən və millət məhəbbətini, duyğusunu itirənləri, hakim sinfin təmsilçilərini acı kinayə ilə, gülüşlə damğalayırdı.

"Mənim sevdiyim" şerində şair belələrinin konkret səciyyəsini, adını, ünvanını dürüst göstərir:

*Bir malades versən, evindən çıxar,*
*Bir "prixod" alsa, dinindən çıxar,*
*Bircə manata vətənindən çıxar.*
*Molladı, bəy, xandı mənim sevdiyim!*
*Biri gözəl insandı, mənim sevdiyim!*

Şairin dərin kinayə, sarkazm dərəcəsinə qalxan acı gülüş və məsxərə ilə "sevdiyi" bu mənfi tiplər "özləri özlərinə qan qusdurur", "özgələrə millətini



basdırır", təhlükədə olan, torpağı qızıl qana boyanan vətənin qəmlərinə əsla şərik olmurlar, əksinə, bu köhnə dünya bayquşları, cahillik dövrünün çalğıçıları səs-səsə verərək, bir ağızdan deyirlər:

*Çal, çal, vətəni, milləti viran edəlim, çal!*

Vətən dərdi Əli Nəzminin inqilabdan əvvəlki bütün yaradıcılığına hopmuşdur. Xüsusilə, irtica illərində onun dünyagörüşünün, bəzən hətta bədbinlik notları sezilən şeirlərinin əsasında həmin ictimai kədər durmuşdur. "Bu da bir bahar" əsərində vətən yaraları ümidsiz, qəmli xallarla ifadə olunmuşdur:

*Qırmızı qan ilə əlvandır bu gün lövhi-vətən,*
*Çəngi-istibdaddə qəbz olmada ruhi-vətən.*
*Tiri-əğyar ilə dolmuş qəlbi-məcruhi-vətən,*
*Kəştiyi-hifzü xilasə minməyir Nuhi-vətən,*
*Bikəsa, qəlbi-vətəntək zəxmdar olmuş könül.*

Şair öz əsərlərində "dilbəri-hürriyyəti", yəni azadlıq dilbərini bir növ vəsf edir. Vətənin gələcək səadəti üçün onun hava və su kimi gərəkli olduğunu dönə-dönə, coşqun ilhamla təsvir edir. Azadlığa olan ümid ağacını barsız görəndə, xəzan yelləri şairin ümid ağacını vuranda, irticanın qara əlləri ilə hər şey alt-üst ediləndə Əli Nəzmi:

*Od tutub odlandı vətən sərbəsər,*
*Olmadı övladi-vətən bəxtəvər –*

deyə xalqın həsrətini ürəyində qoyanları nifrətlə damğalayır, "Hürriyyətdən kim nə pay aparsın?" şerində azadlıq arzu və istəyini təəssüflə yoğrulmuş misralarda ifadə edir:

*...Qreklərə hər nə desə çal çəpik,*
*Azərbaycan türklərinə vur təpik.*
*Uruslara mümtaziyyət, ağalıq,*
*Ermənıyə imperiyada darğalıq!*

İrtica illərində yazdığı "Zindan", "Əşari-məhzunanə", "Qorxuram" və başqa şeirlərində də şairi düşündürən əsas məsələ Vətən və xalq yolunda canını qurban verənlərin taleyi məsələsi idi. Ümumiyyətlə, Əli Nəzmi nikbin şairdir. Onun əsərlərində xalqın arzusu, gələcəyə dərin inamı real əks olunmuşdur.

Gülüş, tənqid satira yolunu tutan görkəmli söz ustasının sənətində müsbət ideal çox güclüdür. Bu ideal onun əsərlərində çox zaman gizli, bəzi hallarda isə açıq şəkildə özünü aydın göstərir. "Könlümdə yox ki, möhnəti-millətdən özgə dərd" deyən şairin qəlbində mənfiliklərini tənqid hədəfinə çevirdiyi millətə dərin bir hörmət və məhəbbət var. Onun ilhamını dilə gətirən məhz bu sonsuz eşqdir, məhəbbətdir. Şair öz xalqını canından əziz tutur, onu şama, özünü pərvanəyə bənzədir, doğma xalqa olan sevgisini təsirli və orijinal misralarla ifadə edir:

*Gözünün yaşı suyum, dərdi-dili danəmdir,*
*Yuva sevgisi üçün bu dili-viranəmdir.*

Cəlil Məmmədquluzadə, N.Nərimanov, Sabir kimi Əli Nəzmi də xalqını tərəqqidə, yüksəlişdə, qabaqcıl millətlər sırasında görmək istəyirdi. İctimai eybəcərliklərə, tökülən nahaq qanlara, mövhumat əsiri olanlara, maarif düşmənlərinə, cəhalət və nadanlığa, qeyri-bərabər evlənməyə, çoxarvadlılığa, milli lovğalığa, əcnəbilər qarşısında mütiliyə, vətənə, millətə biganəliyə və başqa qəbahətlərə acı-acı gülürdü, göz yaşları içində gülürdü. Şairin gülüşü aşkar, göz yaşları gizli idi. Ancaq bir sıra əsərlərində o, mənalı gülüş arxasında göz yaşlarını da gizlətmir, açıq bildirirdi ("Sirişki-dərunim gözümdən rəvandır", "Kefsizi ağlatdınız, ağlaşmayın" və s.). Şairin əsərlərində realizmin bütün tələbləri ilə yanaşı, qüvvətli bədii ümumiləşmə, azadlığa, gələcəyə ümidlə baxmaq, vətəni və xalqı xoşbəxt görmək arzu və istəyi vardır. "Olacaqmı?" şerində müəllif bu müqəddəs idealı həzin bir lirika ilə, mənalı bədii suallarla bildirməklə yanaşı tərəddüdünü də gizlədə bilmir:

*Zənnincə sənin, millətimiz şad olacaqmı?*
*Viranə qalan mülkümüz abad olacaqmı?*
*Talanə gedən haqqımız, insanlığımız tək*
*Quldur adı da puç və bərbad olacaqmı?..*
*Daim qalacaq qeydi-əsarətdə müsəlman,*
*Ya bircə bu zəncirdən azad olacaqmı?..*
*Barani-bəla üstümüzə hey yağacaqmı?*
*Ya gün doğaraq bizlərə imdad olacaqmı?*
*Hürriyyət, ədalət və müsavat cəmalı*
*Bu ölkədə də cilvələnib dad olacaqmı?*

Rusiya burjua inqilablarının, Böyük Oktyabr sosialist inqilabının, İran inqilabının ictimai həyata, müsəlman aləmi və məişətinə müsbət, oyadıcı təsirinə



inamını əks etdirən şeirlər Əli Nəzminin ədəbi irsində yer tutmuşdur. "Amali-hürriyyət", "Füqərə", "Ey füqərə", "Muxtar", "Olarmış" kimi şeirlərində şair əzilən kütlənin mübariz ideoloqu kimi çıxış edir, burjua-demokratik inqilabın müəyyən cəhətlərini özünəməxsus satirik üslubda əks etdirir. Şair İran inqilabı, İran Azərbaycanı həyatından bəhs edən otuzdan artıq dərin siyasi məzmunlu lirik şeir və felyeton yazmışdır. Bu əsərlərində inqilab fədailərinə tükənməz məhəbbət duyğuları, azadlıq uğrunda mübarizənin qələbəsinə dərin inam, mürtəce qüvvələrə odlu nifrət hissləri təlqin olunur. İrticanın dayağı olan şahlar, sultanlar, mülkədar və kapitalistlərin tipik bədii obrazı yaradılır. İnqilabi mövzuda yazdığı əsərlərin çoxunda şair irticanı kəskin tənqid edir, sinfi bərabərsizliyi, ictimai ədalətsizliyi mövcud cəmiyyətin ən dəhşətli bəlası kimi səciyyələndirir:

*Demə bu ölkə müsəlmanlıqdır,*
*"Həbəş ormanlığı, heyvanlıqdır",*
*Mülkədarlıq, ağalıq, xanlıqdır.*

Yaxud

*Halva qapanlar ölülərtək baxır,*
*Var ağa, əyanlarımız bir naxır.*

Ya da

*Məclisə ancaq ağa, bəy, xan gəlir,*
*Ac gözü qan-yaşdı, yazım, yazmıyım?*
*Qəmlərə yoldaşdı, yazım, yazmıyım?*

Bu misralar müəllifin mövcud sinifli cəmiyyəti real səciyyələndirmək meyli və məharətini, ayrı-ayrı zümrə və ictimai təbəqələrin hazırkı mövqeyini, maddi və mənəvi baxımdan bir-biri ilə qarşılıqlı münasibətlərini bədii gülüşün aynasında ustalıqla əks etdirir. "Əmu" şerinin hər bir misrasında məzlumların fəryadı eşidilir. "Yorğunlamışıq" əsərində ictimai haqsızlığın son həddi, vətən, xalq qarşısında əslində heç bir xidməti olmayanların quru-boş iftixarı, cinayətkar hərəkətləri bir neçə misrada tənqid hədəflərinin məhz öz dilindən böyük ustalıqla ümumiləşdirilir:

*Bir nəfər zalimə məzlumdən olmubdu zərər,*
*Əğniyayə füqəradən nə olub xofü xətər.*

*Adət üzrə yetişib gündə bizə qanlı xəbər,*
*Öləni quylamışıq, öldürəni danlamışıq,*
*Gücsüzü tapdamışıq, güclünü mehmanlamışıq,*
*Daxi bəsdir, daxi bəsdir, daxi yorğunlamışıq.*

Şairin "Fəxriyyə", "Pul", "İrsi-pədər" kimi qiymətli satira nümunələrində biz müsəlman aləminin bütün rəzalətlərini, qardaş qırğınını, pulun törətdiyi cinayətləri, haqsızlığı, onun hər şeyə hakim olduğunu, milli lovğalığın meydana gətirdiyi bəlaları, xalqı yoxluğa sürüklədiyini aşkar görürük. Bu şeirlərdə şairin qəzəbi, nifrəti dərin hüzn, kədər, təəssüf hissləri ilə birləşərək, öldürücü sarkazm ilə ifadə olunmuşdur. Ülfət və ünsiyyət, xalq dərdi, azadlıq istəyini qəlbindən bir yolluq silib atan, ana-bacıları gözü yaşlı qoyan, insanlıqla bir araya sığmayan vəhşi hərəkətləri ilə mütərəqqi dünyanı özünə güldürən nadanlar şairin "Fəxriyyə"sində yer üzünün ən vəhşi, cahil adamları kimi lənətlənir. Vətənin hər guşəsində doğma qardaşlarını qanına bulayan, oğurluq "elmində alim", mərifət dünyasında cahillərdə:

*Mürüvvət yox, həya yox, nəngü namus ilə qeyrət yox,*
*Ədəb yox, elm yoxdur, rəsmü ayinü şəriət yox.*
*Könül yox, eşq yox, qardaşə, həmcinsə məhəbbət yox,*
*Beyin yox, əql yox, hissü şüurü şuri-fikrət yox.*
*Sözü – öldürrəm-öldürrəm, xəyalü fikri qan-qandır,*
*Dolansın keyfimizcə işbu dövran, yaxşı dövrandır.*

*Damədəm Qafqazın hər guşəsi qan ilə əlvandır,*
*Qazaxda, Gəncədə, yaylaqda məhşərlər nümayandır.*
*Ataatdır, vurhavurdur, qırhaqırdır, özgə meydandır,*
*Öləndir, zülm olandır, ağlayandır, cismi-bicandır.*
*Ölənlər, öldürənlər həp müsəlman, əhli-Qurandır,*
*Dolansın keyfimizcə işbu dövran, yaxşı dövrandır.*

Əli Nəzminin ilk mətbu şeri "Şərqi-rus" qəzetinə ithaf etdiyi "Kəndə ibtida" əseridir. Bu şeir qəzetin ilk dəfə Azərbaycan kəndinə gəlməsi münasibəti ilə yazılmışdır. "Molla Nəsrəddin" jurnalında əvvəllər nəsr əsərləri ilə çıxış edən şair, ilk dəfə Sabirin "Töməyi-nəhar"ına cavab olaraq yazdığı şeri burada çap etdirmişdir. Şairin "Molla Nəsrəddin"ə gəlişi onun üslubunu, məsləkini, ədəbi yaradıcılıq yolunu müəyyən etmişdir. Onun ən güclü əsərləri məhz "Molla Nəsrəddin" və onun təsiri ilə çıxan "Zənbur", "Məzəli" satirik jurnallarında çap olunmuşdur:



*Ey dil, daxi dinmə və sükut et, səni tarı,*
*lal ol və danışma,*
*Sal başını aşağə və heç baxma yuxarı,*
*mal ol və danışma.*

"Necə ki məlumdur bu şeri yazan əsla şair deyildi, bu bir nümunə idi ki, bunu birinci nömrədə dərc etməkdə biz həqiqi "Molla Nəsrəddin" şairini axtarırdıq. Biz Sabiri və Məşədi Sijimqulunu axtarırdıq" (C.Məmmədquluzadə).

"Molla Nəsrəddin"lə Mirzə Cəlil və Sabir ayrılmaz olduğu kimi, Əli Nəzmi də əsil mollanəsrəddinçi-realist şair kimi, bu böyük xalq jurnalından ayrı təsəvvür edilə bilməz. Əli Nəzmi "Molla Nəsrəddin"in ən səbatlı şair və mühərrirlərindən biri, sovet dövründə isə bilavasitə əməkdaşı olmuşdur. Şairin əsərlərində əvvəldən axıra iki Molla diqqəti cəlb edir: Molla Nəsrəddin, bir də Molla Xəsrəddin. Xeyirli molla və zərərli molla. İkincini əsas tənqid hədəfinə çevirən şair, vətən və xalq aşiqi Molla Nəsrəddinə – Mirzə Cəlilə əqidəcə, məsləkcə qırılmaz mənəvi tellərlə bağlı olmuş, bir çox əsərlərini məhz ona xitabən yazmışdır. Bu şeirlərdə, şairin əsas məsləhətçisi, ağsaqqalı, dərdini bölüşdüyü, ilham və qüvvət aldığı Molla Nəsrəddindir – Mirzə Cəlildir. Mollaya xitabən yazdığı şeirlərdə Əli Nəzmi nə qədər sadə, səmimi, xəlqi və millidir. Bu silsilədən, yaxud da şairin hüquqlarının müdafiəsinə qalxdığı obrazlarının (azyaşlı qızların, qadınların, fəqirlərin) Molla Nəsrəddinə müraciəti ilə başlayan silsilə əsərləri canlı mübahisəni xatırladır. Belə əsərlər xalq ifadələri, canlı dilin obrazlı kəlamı, atalar sözü və məsəllərlə çox zəngindir. "Yanmışam, vallah, sənin başın üçün, odlarə mən" ("Nisgil"), yaxud "And verirəm mən səni imanına" ("Məsləhət") misraları və yüzlərlə belə sadə və adi söhbəti xatırladan misralar öz təbiilik və səmimiliyi ilə heyrət doğurur, nəzəri cəlb edir. Eyni fikri Əli Nəzmi ilə Əli Razinin müşairələri haqqında da demək olar. Məlumdur ki, Əli Nəzmi kişilərin dilindən, Əli Razi isə "Dabanı çatdax xala" imzası ilə qadınların dilindən silsilə şeirlər yazmışdır. Bu əsərlərdə həyat həqiqəti, Azərbaycan milli məişətinin, ailə münasibətlərinin təsviri o qədər real, elə güclü, dil, ifadə, satirik yazı manerası elə yerli-yerindədir, sərrastdır ki, oxucu qələmin qüdrətinə, sözün təsir gücünə heyrət edir, misraları dərhal əzbərləməli olur.

Qadın azadlığı, ümumən, XX əsr Azərbaycan ədəbiyyatının baş mövzularındandır. Bu mühüm ictimai problem Mirzə Cəlil, Sabir, Ə.Haqverdiyev, M.Ə.Möcüz, M.S.Ordubadi, Y.V.Çəmənzəminli kimi realist sənətkarları da, H.Cavid və M.Hadi kimi görkəmli romantik şairləri də ciddi məşğul etmişdir. Əli Nəzmi bu mövzuya inqilabdan əvvəl də, sonra da onlarla əsər həsr etmişdir. "Məsləhət", "Kişilərimiz", "Dabanı çatdax xalaya", "Vətən gülləri",

"Evlənmərəm", "Nisgil", "Evlənməz idim", "Yeddi yaşındakı qızıma", "Bir qızın Molla Nəsrəddinə ərzi-halı", "Bizim qız", "Bizim arvad" və sair şeirlər mövzu aktuallığı, axıcılığı, bədii kamilliyi və estetik təsir gücü ilə seçilir. Bu əsərlərdə qaragünlü qadınların, günü göy əsgiyə düyülmüş balaca, məsum qızların bədbəxt taleyi, köhnəpərəstlər tərəfindən "kəc qabırğa", "kəm əql", fitnə-fəsad, xəyanət, vəfasızlıq mənbəyi və rəmzi adlandırılması, onların savadsızlığı, ev dustağı olması gülüş hədəfinə çevrilir. Siğə, mütə, çoxarvadlılıq, qeyri-bərabər evlənmək, qadını ev dustağı edən şəriət qanunları kəskin satira atəşinə tutulur. Azərbaycan qadınının ismət və ləyaqəti, heysiyyət və mənliyi, mənəvi paklıq və ucalığı müdafiə olunur. Bu şeirlərin çoxunda qadını insan yerinə qoymayan köhnəpərəst ərlərin, hiyləgər və ikiüzlü ruhanilərin satirik bədii portreti çəkilir. Az yaşlı bədbəxt qızların ah-naləsi, fəryadı, göz yaşları yanıqlı bir dillə təsvir olunur.

*Biz almışıq arvad, alaq çəkməyə,*
*Almamışıq, zülfə daraq çəkməyə.*
*Biz almışıq arvad ola cariyə,*
*Almamışıq, xanım olub yariyə –*

deyə meydan oxuyan nadanlara, "din ilə imanı cibişdana satan" şəriət dəllallarına qarşı Əli Nəzmi qızları oxutmaq, qadınlarla insan kimi rəftar etmək ideyasını ardıcıl müdafiə və təbliğ edir. "A qızlar" şerində o, dərin kədər hissi, ürək ağrısı ilə deyir:

*Heyvan kimi çəkdik sizi bazarə, a qızlar!*
*Satdıq sizi hər köhnəyə, kaftarə, a qızlar!*
*İstəkli vətən gülləri! Sizsiz yaz açılmaz,*
*Siz elmsizin nuri-məarif də saçılmaz,*
*Gün çıxmasa zülmati-şəbistan qaçırılmaz,*
*Sizdən umulur çarə bu azarə, a qızlar!*
*Həm tərbiyə, təlim uşaqlarə, a qızlar!*

1908-ci ildə "Molla Nəsrəddin"də çap olunan "Məsləhət" şeri bütün ölkəyə səs salmış, Azərbaycan satirik mətbuatında bu məşhur əsərə onlarla nəzirə və cavab meydana çıxmışdır. Mövzu aktuallığı, hədəfi sərrast nişan alması, sadəlik və təbiiliyi, sənətkarlıq qüdrəti ilə seçilən "Məsləhət"ə böyük xalq şairi Sabir də maraqlı bir cavab şeri yazmışdır.

Qadın azadlığı yolunda qələm çalanlar, mütərəqqi fikir və düşüncə sahibləri şairin satirasında, bir qayda olaraq, köhnəpərəstlərlə, ruhanilərlə, şəriət



ehkamının kor-koranə təbliğatçıları ilə üz-üzə gəlir, kəskin məfkurə döyüşünə çıxırlar. Ariflə zahid bu iki bir-birinə zidd cəbhənin konkret təmsilçisidir: biri işığı, elmi, məktəb və maarifi, yenilik və tərəqqini, o birisi isə zülməti, ata-baba yolunu, məscidi, şəriət qanunlarını, köhnəliyi təmsil və təşviq edir. Biri Vətəni, xalqı, ümumin mənafeyini, o birisi isə ancaq öz xeyrini, cibini, "qarın anbarını" doldurmağı düşünür.

"Molla Nəsrəddin"in realist qələm ordusu köhnəliyin bütün təzahürlərinə qarşı amansız mübarizə aparırdı. Xalqın məişətində, təfəkkür tərzində bir yenilik, dönüş yaratmaq istəyirdi. Mollanəsrəddinçilərin yaradıcılığında dini mövhumatın, ruhaniliyin kəskin tənqidinə geniş yer verilməsi də məhz bununla bağlıdır. Jurnal "Böyük adamların tərcümeyi-halı", "Bir müsəlmanın tərcümeyi-halı" silsiləsindən çap etdiyi yazılarda, karikaturalarda dövrün nüfuzlu din xadimlərini də amansız şəkildə ifşa edirdi. Əli Nəzminin bir sıra satiraları öz məzmununa, şəkli xüsusiyyətlərinə, məqsəd və ideyasına görə bu silsiləni tamamlayır: "Rəcəz" adlı şeirdə İran şahının, "Mənəm" sərlövhəli iki məşhur şerində bütün ruhanilərin siyasi-mənəvi tərcümeyi-halı verilir. Onların kamil bədii-satirik portreti yaradılır.

Əli Nəzmi şeirlərində tərəqqiyə, inkişafa əngəl olan ruhani tiplərinin qalereyasına rast gəlirik. Elmin qabağına çəpər çəkən, qızları oxumağa qoymayan, qadınların ictimai yerlərə ayaq basmasına aman verməyən, mütərəqqi Avropa və rus mədəniyyətindən qorxan, qabaqcıl ziyalılara qarşı danosbazlıq edən, vicdanını qara pula, məsləkini şəxsi mənafeyinə qurban verən oba-qobalı quldurların eybəcər siması şairin satirik gülüşünə maraqlı mövzu, qida və cila verir. Belə tiplərin bilavasitə özləri danışanda, öz yaltaqlığı, hiyləgərliyi, mənəvi puçluğu barədə lovğalıqla fikir yürüdəndə şerin bədii təsiri, inandırıcılığı daha da artır. Məsələn, belə tiplərdən biri özü haqqında iftixarla deyir:

*Sifətdə abidəm, paltarda seyyid, başda bambaşqa,*
*Ədəbdə cahiləm, elmim də yoxdur, pək süxəndanəm.*
*Ağızdan heyvərə, dildən acı, qəlbim qəsavətli,*
*Qərəzli, kinli, fikrim hilə, məsləkdə xuliqanəm.*

Xalqın intibaha meyli, maarif və mədəniyyətə həvəsi artdıqca, ruhanilərin də müqaviməti güclənir, "həmmal ilə əyanın bamüsavi" olacağı qorxusu onların canını üşütməyə salır. "Paltarından müsəlmanlıq", "surətindən şeytanlıq" yağan bu tiplər, Mirzə Cəlilin dediyi kimi, zəhmətkeş xalqın canına daraşan mikroblardır. Əli Nəzmi isə bir taziyanəsində onları əzraildən qabaq millətin canını alan dəhşətli bəla kimi təsvir edir.

Şairin "Ey baxanlar", "İşə keçmoz", "Köhnələr", "Nümuneyi-mazi", "Ağaya cavab", "Onu gözlər gözlərim", "Dilsuzdan" və başqa satiralarında konkretlik, vətəndaşlıq cəsarəti, ifşaçılıq çox güclüdür. Bu əsərlərdə o, çox zaman xalqı açıq mübarizəyə çağırır, din xadimlərinin hiyləgər örtüyünü üzündən götürüb, əməllərinin mürtəce mahiyyətini meydana qoyur. "Ey baxanlar" satirası bu baxımdan mənalı və ibrətlidir:

*Ey baxanlar, mollanın ləbbadeyi-qurşağina,*
*Uymayın, qurşaq deyildir, bir yoğun əfsardır.*
*Başını on yeddi arşın ağə bükmüş məkr ilə,*
*Adını qoymuş ki, bu əmmamədir, dəstardır.*
*Bir nəzər sal, sağ tərəfdən sallanır təhtülhənək,*
*Bu deyil təhtülhənək, adəm çalan şəhmardır.*

"Dilsuzdan" şerində müəllif hiyləgər, "gündə otuz arifin qətlinə fitva" verən, şəxsi mənfəəti üçün "qarğa kimi başını möhürə döyən", saqqalının hər tükündən bir şeytan balası sallanan ruhanilərin ümumiləşdirilmiş surətini yaradır. Onların bütün eyiblərini, yaramaz, mənfi sifətlərini satirik "tərif" yolu ilə, kinayə və lağ eləməklə açıb göstərir. Nəticədə isə onu Ərəstu ilə müqayisə edərək, satiranın kinayə ruhunu daha da tündləşdirir:

*Mənqəbətü mədhini yazmağa aciz qələm,*
*Hankı cəhan əhlinin boylə Ərəstası var?!*

"Molla Nəsrəddin" şairlərinin ümumi tənqid hədəfləri sırasında Məhəmmədəli şah, sultan Əbdülhəmid, Nikolay, Stolıpin, Purişkeviç kimi tarixi şəxsiyyətlərlə yanaşı, o dövrün elə nüfuzlu ruhaniləri var ki, bunlar da konkret ədəbi-tarixi tiplər, xarakterlər və jurnalın baş mənfi qəhrəmanlarıdır: Qafqaz şeyxül-islamı, qubalı Molla Hacı Baba, naxçıvanlı Molla Mahmud Çakər, gəncəli Seyid Mir Bağır ağa. Gəncə mahalında Allah məqamına qaldırılan Seyid Mir Bağır jurnalda bir silsilə karikatura, felyeton, satirik şerin mərkəzində durur. Avam camaatın hətta xəstə qızları bu ağaya nəzir deməsi Əli Nəzmini qeyzə gətirmiş, "Ağaya cavab" adlı məşhur satiranın yaranmasına səbəb olmuşdur. Burada şair, ümumən yeniliyin köhnəlik, maarifin cəhalət, haqqın "zümreyi-şeytan" üzərində qələbə çalacağına dərin inam hissləri ifadə edir. Köhnə fikirlərin xalq zehninə artıq yol tapa bilmədiyini sevinclə bildirir, Ağaya öz kəskin satirik qələmi ilə divan tutur, onu mənəvi cəhətdən sarsıdıb, el arasında hörmətdən salır:



*Atılıb-düşməyin əfsanədir, əfsanə, sən öl!*
*Daha təsir eləməz sözlərin insanə, sən öl!*

*Hacısan, məşhədisən, sahibimizsən, ağasan,*
*İstəyirsən hami qırxıb bizi, həm də sağasan.*
*Mən ölüm, nizəni çək, yoxsa uşaqsan, çağasan,*
*Gəlmişik lap əlinizdən, a canım, canə, sən öl!*

*Verirəm and səni siğeyi-üxviyyətə mən,*
*Söymə məşrutəyə, məcmuəyə, hürriyyətə sən.*
*Söyləsən ziddi-şəriətdi, gəlib lənətə sən,*
*Qoyaram adını məcmuədə meydanə, sən öl!*

"Molla Nəsrəddin" jurnalı və Mirzə Cəlilin öz tənqid hədəflərini axıra qədər, dönə-dönə qamçılaması kimi mühüm satirik xüsusiyyət Əli Nəzmidə də vardır. Onun bir çox şeir və felyetonlarında biz yuxarıda adı çəkilən seyidin təkrar-təkrar ifşa olunduğunu görürük. Şairin bilavasitə "Molla Nəsrəddin"ə həsr etdiyi, daxili qafiyələrlə zəngin və maraqlı bir şerində mənfi tip bir daha yada salınıb gülüş və istehza obyektinə döndərilir:

*Danışma hərzə şair tək, qonuşma əsli kafir tək,*
*Ağa Mir Hacı Bağır tək, rəvayəti-yalan etmə!*

Şair təkcə ruhaniləri deyil, hakim sinfin də din və şəriət ayinlərindən təhrif olunmuş şəkildə öz mənafelərinə istifadə etdiklərini konkret bədii detallarla açıb göstərməkdən çəkinmirdi.

Xurafatın mənəvi cəhətdən şikəst etdiyi adamların, zülmə, istismara məzlumcasına dözüb səbr edənlərin miskin taleyi, "Allaha təvəkkül" şerində deyildiyi kimi, "Atlara saman, itlərə yal, malə yem" olan, "xanlara talanan" müsəlmanların gülünc halı da Əli Nəzmi satirasının odlu təsirindən kənarda qalmamışdır. "İstixarə", "Acıdır", "Uyma dünyayə", "Ey mütribeyi-dövri-təcahil", "Bizimki deyil", "Küsmüşəm", "Ay kişi", "Olur olsun", "Vədə", "Ar etməsin" və sair bir çox əsərlərində şair avamlığa, nadanlığa, cəhalətdən yaxa qurtara bilməyənlərə acı-acı gülür. Tənqid hədəflərini ayılmağa, sağlam əxlaq və məişətə, xalqa xeyir verməyə, özgələrdən ibrət götürməyə çağırır. Bəzən dərdin çoxluğundan "Yetişməz dərdim itmamə", bəzən də:

*İki min kəlmə de həqiqətdən,*
*Bircə insan dili qanan yoxdur, –*

deyə şikayətlənən dərdli-ələmli şair, qara qüvvələrə, yaramaz ictimai mühitə, çar hökumətinin mütərəqqi ziyalılara tutduğu divana qarşı çıxır. "Fikrini nitqində bəyan edən"lərin ("Zindan"), N.Nərimanov kimi millətsevərlərin ("Qorxuram") haqq, azadlıq işi yolunda sürgün edildiyini qəzəblə yada salır, xalqın ləyaqətli övladlarını, azadlıq, yenilik aşiqlərini ayıq-sayıq, ehtiyatlı olmağa səsləyir. Nəhayət, inqilabi satiranın gözəl nümunələri olan bir çox şeirləri ilə xalqı açıqdan-açığa intibah və mübarizəyə çağırır.

Əli Nəzmi yaradıcılığında elmin, məktəbin, maarif və mədəniyyətin təbliği xüsusilə diqqəti cəlb edir. "Məktəb", "Nə idi", "Olsun", "Molla arifə deyir" kimi şeirlərdə müəllif bir-birinə zidd iki aləmi, qaranlıqla işığı, cahillə alimi, nadanla arifi qarşı-qarşıya qoyur. Dövrün zəruri tələbindən doğan yeniləşmək, maariflənmək, zamanla ayaqlaşmağı bacarmaq duyğularını ön plana çəkir. Şair həyatın bütün sahələrində bir dəyişmə, yenilik, təbəddülat görür ("Dəyşilir") və sənətin, ədəbiyyatın, mətbuatın da qarşısında yeni vəzifələr qoyur. Əli Nəzmi şeirlərinin forması əsasən klassik Şərq poeziyası ənənələri ilə bağlı olsa da, məzmunu tamamilə yenidir. İnqilabi-demokratik ədəbiyyatın, zamanın ruhunu düzgün əks etdirən inqilabi-siyasi satira və lirika nümunələridir. Şairin İran mövzusunda və bəzi başqa şeirlərinin dilindəki qəlizlik də ədəbi ənənəyə əsaslanır, bəzi mətbuat orqanlarının tələbindən irəli gəlir. Dildə və üslubda sadəlik, millilik, xalq dilinin gözəlliyini, varlığını, təmizliyini qoruyub saxlamaq tələbi Əli Nəzmi ədəbi irsinin, dilə dair arzu və tələblərinin əsasında durur. Dilimizə xor baxan, onu korlayanlara qarşı amansız olan şair "Dil məsələsi" şerində bu mühüm məfkurə cəbhəsində apardığı ardıcıl, inadlı mübarizəyə bir növ yekun vurmuş olur:

*Dil var ikən, gəlin lisan deməyək,*
*Döndərib farscaya, zəban deməyək.*
*Hər kəsin var sözü, dili, ağzı,*
*Ağıza, and içək, dəhan deməyək.*
*Ərəbi göndərək öz evlərinə,*
*Farsa, qal bizdə mehman deməyək.*

Milli ədəbiyyat və dilimizin varlığı, saflığı uğrunda kəskin məfkurə döyüşlərində Əli Nəzmi C.Məmmədquluzadənin ən yaxın silahdaşı, məsləkdaşı olmuşdur. Əli Nəzmi realist ədəbiyyatımızın tarixində, "Molla Nəsrəddin" aləmində həm odlu qılınc kimi kəsərli satirik şeirləri ilə, həm də güclü nəsr qələmi ilə yazdığı alovlu publisist felyetonları ilə məşhurdur. Bütün yaradıcılığı boyu şeirlə nəsri bir vəhdət halında müvazi şəkildə bacarıqla davam etdirən



sənətkarın şeirləri ilə felyetonları mövzu, məram, üslub baxımından bir-birinə çox yaxındır. Əli Nəzminin nəsri yığcamlığı, daxili lirizmi və axıcılığı, konkretliyi, duzlu-məzəliliyi ilə seçilir. Böyük ədibimiz Mirzə Cəlil qələm dostunun mənsur yazılarına yüksək məna və qiymət verirdi: "Bu bir neçə sətirdə, doğrudur ki, vəzn və qafiyə yoxdur, bununla bərabər Məşədi Sijimqulunun qələmindən törəyən belə-belə duzlu rəvayətlərin və zərif məzhəkələrin vəzn və qafiyəyə heç ehtiyacı yoxdur".

Əli Nəzmi sovet dövründə də çoxlu mənzum hekayələr, satirik şeirlər yazmış, "Molla Nəsrəddin" ədəbi məktəbinin tənqid, satira, həqiqətpərəstlik, vətəndaşlıq cəsarəti ənənələrinə son nəfəsinədək sadiq qalmışdır. Böyük Vətən müharibəsi illərində yazdığı satiralar şairin ədəbi irsində ayrıca mərhələdir, bu əsərlər "Satira mərmiləri" adı ilə çap olunmuşdur. Onun keçdiyi mürəkkəb həyat və mübarizə yolu xalqa təmənnasız xidmət nümunəsidir.

***Firidun Hüseynov***

## REDAKTORDAN

Azərbaycan ədəbiyyatı memuar janrı ilə zəngindir. C.Məmmədquluzadə, Ö.F.Nemanzadə, H.Məmmədquluzadə, A.Şaiq, M.S.Ordubadi və başqalarının neçə-neçə xatirələri XX əsrin ədəbi və ictimai mühitini özündə əks etdirən qiymətli nümunələrdir. Bu siyahını C.Məmmədquluzadə, M.Ə.Sabir, H.Cavid və başqaları haqqında olan xatirələr toplularını əlavə etməklə genişləndirmək olar. Xatirələr xəzinəsini nəzərdən keçirdikdə məlum olur ki, onların bir qismi artıq ayrıca kitab halında nəşr olunmuş, ikinci qismi müxtəlif mətbuat səhifələrində dərc edilmiş, üçüncü qismi isə əlyazmalar halında müxtəlif şəxsi arxivlərin saxlanğıcında qalmaqdadır. Ə.Nəzminin "Keçmiş günlər" əsəri əlyazması halında olub memuar ədəbiyyatı tarixində iri həcmli yeganə mənzum xatirədir. Əsərin əlyazmasının naqis və səliqəsiz nüsxəsi Respublika Əlyazmaları İnstitutunda şairin şəxsi arxivində (RƏİ, arx. 12, s.v. 50), üzü köçürülmüş tam nüsxəsi isə Nizami adına Ədəbiyyat İnstitutunun elmi arxivindədir (inv. № 196). Məlum olur ki, müəllif Əlyazmaları İnstitutunda olan nüsxə – ilk variant üzərində işləmiş, köçürülmüş səliqəli surəti isə Ədəbiyyat İnstitutunun elmi arxivinə təhvil vermişdir. İri formatlı (29×19,5) kağızda müəllifin öz əl xətti ilə ərəb əlifbasında olan bu əsər, şairin öz qeydinə görə, 4178 xəttdən ibarətdir. Əsər onbirliklə yazılmış, cüt-cüt (aa, bb, vv...) qafiyələnmişdir.

Əsərin qələmə alınması şairə prof. M.S.Paşayev tərəfindən tövsiyə edilmiş və bu xüsusda əlyazmanın sonunda AR MEA-nın müxbir üzvü Ə.Mirəhmədovun xətti ilə belə bir qeyd vardır:

"*Bu xatirə 1944-cü ildə Mir Cəlalın sifarişi ilə yazılmışdır. Müəllifin dəstixəttidir. Xatirə üçün müəllifə 5500 (beş min beş yüz) manat verildi.*

M.Əziz".

Nəzərə alınsa ki, bu əsər 1944-cü ildə yazılmış, yaxud tamamlanmışdır, onda Ə.Nəzminin əlyazmanın sonunda etdiyi "1932" qeydini əsərdəki hadisələrin yekunlaşdığı, tamamlandığı ilə işarə kimi qəbul etmək olar. Çünki əsər 19-cu yüzilliyin son illərindən başlayaraq yarım əsrlik bir zaman kəsiyinin mətbuat tarixi, ədəbi mühiti, ictimai-siyasi hadisələri, əsasən "Molla Nəsrəddin" jurnalının nəşri tarixi, iştirakçıları, son olaraq C.Məmmədquluzadənin vəfatı ilə bağlı dəyərli məlumatlarla tamamlanır. "Keçmiş günlər" əsərinin nəşrə daxil edilməsi həm Ə.Nəzminin ədəbi irsini bütövləmək, həm də memuar



ədəbiyyatı xəzinəmizi bu mənzum xatirə ilə zənginləşdirmək və onu geniş oxucu kütləsinə çatdırmaq istədiyinə xidmət edir.

Əsər dövrün 100-dən artıq görkəmli şəxsiyyəti, 40-a qədər qəzet və jurnalın nəşri ilə bağlı maraqlı faktlar mövcudluğu ilə diqqəti cəlb edir.

Hər bir memuar-xatirə müəllifin özünün həyat təcrübəsi, bilavasitə gördüyü, eşitdiyi, şahidi və iştirakçısı olduğu ictimai-siyasi hadisələrə məntiqi, düşüncəsi, təfəkkür və dünyagörüşü prizmasından yanaşma üsulu əsasında yaranır. "Keçmiş günlər" əsərinin dəyəri ondadır ki, Ə.Nəzmi hadisələr, şəxsiyyətlər və sair ilə bağlı məlumatların şərhində başqalarının yaddaşına, başqalarından eşitdiklərinə əsaslanmır. O bilavasitə özünün şahidi olduğu, iştirakçısı olduğu hadisələri qələmə alır. İndiyə kimi mətbuat tarixinə dair tədqiqatlarda bu və ya digər fikrin təsdiqi üçün "Keçmiş günlər" əsərinə mütəmadi istinad edilməsi də bu inamdan irəli gəlmişdir. Ə.Nəzmi dövr üçün səciyyəvi hadisələri seçib göstərmiş, mövcud həyat həqiqətlərinin təsvirində bədii uydurma və xəyala yol verməmiş, mümkün qədər dəqiqliyə riayət etməyə çalışmış və buna əsasən müvəffəq olmuşdur.

"Keçmiş günlər" ilk növbədə şairin özünün həyatı, yaradıcılığı, ictimai fəaliyyəti, dünyagörüşü, bu və ya digər hadisələrə baxışı və mövqeyinin tədqiqi üçün zəngin material mənbəyidir. "Keçmiş günlər" Ə.Nəzminin özü tərəfindən qələmə alınmış tərcümeyi-halı kimi dəyərlidir. Təsadüfi deyil ki, F.Hüseynov Ə.Nəzminin həyat və fəaliyyətinin tədqiqinə həsr etdiyi monoqrafiyasında (F.Hüseynov. Əli Nəzmi. Bakı, 1970) şairin "Keçmiş günlər" əsərinə istinad etmiş və ondan etibarlı bir mənbə kimi yararlanmışdır.

"Keçmiş günlər"də Əli Nəzminin uşaqlıq illəri, təhsili, ailə-məişət qayğıları, Buxara, Səmərqənd səfərləri, kitab məşğuliyyəti, şeir yaradıcılığının ilk mətbu nümunələri, mətbuat aləmi ilə tanışlığı, "Şərqi-Rus" qəzeti ilə əlaqəsi və qəzetin nəşrinin dayandırılması səbəbləri, C.Məmmədquluzadə, Ö.F.Nemanzadə ilə tanışlığı, "Qeyrət" mətbəəsinin yaranması, "Molla Nəsrəddin" jurnalının nəşri, "Bəhlul", "Tuti", "Məzəli", "Babayi-Əmir" və digər satirik jurnallarda iştirakı, dövri mətbuat orqanları arasındakı çəkişmələr, "Molla Nəsrəddin"ə edilən təqiblər, M.Ə.Sabir, A.Səhhət, Ə.Qəmküsar, M.S.Ordubadi, M.Ə.Sidqi, S.Mümtaz, Ə.Müznib, Ə.R.Şəmçizadə, K.Ünsizadə, Ə.Hüseynzadə, M.Hadi, B.Talıblı, C.Bünyadzadə və digər onlarca mətbuat xadimləri, özünün "Yeni yol", "Yeni Gəncə", "Kommunist", "Kəndçi" qəzetləri ilə əməkdaşlığı, "Sijimqulunamə"nin nəşri çətinlikləri, M.Ə.Sabir, A.Səhhət, Ə.Qəmküsar, M.Hadi, Mirzə Cəlilin ölümü ilə bağlı məqamların şərhi ədəbiyyat və mətbuat araşdırıcıları üçün istinad edilə biləcək qiymətli məlumatlardır.

XIX əsrin sonu XX əsrin əvvəli Azərbaycan mətbuatına nəzər saldıqda saysız-hesabsız anonim və gizli imzalı yazılara rast gəlinir. Bu hal ideoloji

mübarizənin kəskin sahəsi olan satirik mətbuatda – "Molla Nəsrəddin" və onun təsiri ilə çıxan digər gülgü məcmuələrində diqqəti daha çox cəlb edir. Bəzən bir gizli imzadan bir neçə müəllifin istifadə etdiyi, bəzən bir müəllifin yüzdən artıq gizli imzaya müraciət etdiyi, bəzən isə bir gizli imza ilə bir neçə yazının olduğu nəzərə alınarsa, həmin müəlliflərin əsərlərinin seçilib, bir yerə toplanıb nəşr olunmaq çətinliyini qismən də olsa dərk etmək mümkündür. Bu baxımdan imzasız və gizli imzalı əsərlərin müəlliflərinin müəyyən edilməsi, onların yaranma səbəbləri və üsulları qədər mürəkkəb bir prosesdir. "Bir həqiqəti etiraf etmək lazımdır ki, "Molla Nəsrəddin" jurnalının səhifələrindəki yüzlərcə örtülü imza, kriptonim və ləqəbin heç olmazsa əksəriyyəti açılmayınca, mollanəsrəddinçi yazıçılardan çoxunun irsini mükəmməl nəşr etmək də mümkün olmayacaqdır (Ə.Mirəhmədov).

Ə.Nəzminin "Keçmiş günlər" əsərinin böyük xidmətlərindən biri imzasız və gizli imzalı əsərlərin müəyyən edilməsində biblioqrafik sənədli məxəz əhəmiyyəti daşımasıdır. "Keçmiş günlər" ilk növbədə Ə.Nəzminin özünün gizli imza və əsərlərini müəyyənləşdirən əsaslı, inandırıcı dəlillərlə zəngindir. Məsələn, C.Məmmədquluzadənin "Elə yadıma gəlir ki, Sabirin "Molla Nəsrəddin"in zühurundan il yarıma qədər Məşədi Sijimqulunun əsərləri idarəmizə gəlib çatmadı" – fikri, Ə.Nəzminin xatiratının "Mən "Molla Nəsrəddin"in birinci ilində nə üçün nəzmən iştirak edə bilmədim" bağlığı altında gedən hissədə nəsr ilə çıxış etməyinin səbəbi başına gələn faciələrlə izah olunur. Yaxud, C.Məmmədquluzadənin səbəb kimi qəbul etdiyi "...Mən elə qanıram ki, Sabir kimi hünərpərvər şairin qabağına çıxmaq o qədər də asan olmaya gərək", – qənaəti əslində sonralar şairə həsr olunmuş tədqiqatlarda Ə.Nəzminin xatiratında olduğu kimi dürüst təsdiqini tapmışdır.

Ə.Nəzmi "Keçmiş günlər" xatiratında təkcə "il yarım" müddətində yazdığı nəsr əsərlərinin mövzularını qeyd etməklə kifayətlənmir, müxtəlif dövrlərdə "Molla Nəsrəddin" jurnalı ilə əlaqəsini, digər satirik məcmuələrdəki fəaliyyətini, hansı gizli imzalara müraciət etdiyini dəqiq faktlarla əsaslandırır.

Ə.Nəzmi xatirələrində jurnalın iştirakçıları ilə əlaqədar hadisələrin şərhi ilə yanaşı, həm də bir çox məqamlarda bu və ya digər müəllifin imzasız və gizli imzalı əsərlərinin taleyi ilə bağlı qənaət və nigarançılığını bir növ gələcək nəslə çatdırmaq məqsədi güdmüşdür. Görünür, əsərlərini gizli imza ilə nəşr etdirən müasirlərinin yaradıcılıqlarının gələcək taleyi ömrünün son illərini yaşayan Ə.Nəzmini düşündürmüş və yaddaşının imkanı daxilində bu sahədə bəzi təşəbbüslər göstərmiş, jurnalın iyirmidən artıq yazarlarının siyahısını vermişdir:

*Qələm silahını aldılar ələ,*
*Köhnə yığıncağa düşdü vəlvələ.*
*İlk dövrdə Həqqi, Həbib, "Naümid",*



*Sabir, Nəzmi, Razi, Məhəmməd Səid,*
*Məhzun, Haqverdiyev, həm Salman Mümtaz,*
*Şövqü, Əsgərzadə, Hatif, "Binamaz",*
*Sidqi, Hacınski, Nemət, Qəmküsar,*
*Rüstəm, Məhəmməd Said, Xuraman, Memar,*
*Hətta qocalardan Mirzə İsmayıl,*
*Olmuşdu şadlıqla orduya daxil.*

Ə.Nəzmi səhifənin sonundaca etdiyi "Bunlar "Molla Nəsrəddin"də az-çox yazanlardır ki, mən ancaq onları tanıdım" – qeydindən sonra adları çəkilənlərin dolğun ad, soyad, gizli imza və haradan yazdıqlarını da göstərməklə tədqiqatçıya məsələnin həlli üçün istiqamət vermişdir.

Təbii ki, gündəliklər, yol qeydləri və məktublardan fərqli olaraq xatirələr hadisələr baş verdiyi gündə yox, sonralar müəllifin daha çox yaddaşına əsaslanaraq yaranır. Nəzərə alınmalıdır ki, müəllif xatirəni hadisələrə yaxın bir zamanda da qələmə ala bilər, ömrünün axır illərində də. İkinci halda hadisələri təhrif edə biləcək zaman məsafəsinə və bu məsafənin yarada biləcəyi fikir, münasibət dəyişikliyinə də imkan yaranır. Heç şübhəsiz, uzaq zaman məsafəsindən sonra, ömrünün son illərində qələmə alınan xatirəyə hafizə çalpaşıqlığı da, yaddaş xətası da, səhhət pozuntusu da təsir edə bilər. Şair özü də bu haqda yazır:

*Mən də deyim bunu gəlmişkən yeri,*
*İndi heç qalmıram Hadidən geri.*
*Axşam çıxır yaddan səhər yediyim,*
*Bu gün bir mazidir, dünən dediyim.*

Şairin bu etirafı xatirələrdə hadisələrin tarixi ilə bağlı bəzi məqamların şərhində özünü göstərməkdədir. Məsələn, "Molla Nəsrəddin" jurnalının Bakıda həbsi ilə bağlı yazır:

*Doqquz [yüz] yeddidə Bakıdayam mən,*
*Olmuşdur mənzilim bir beytül-həzən.*
*Canişin əmr etmiş qapanmış jurnal,*
*Etdi bu iş məni çox pərişanhal.*
*Lakin on beş gündən sonra Mollamız,*
*Çıxmışdı küçəyə qırmızıyanız.*
*Polis bu qırmızı rəngdən qorxmuşdu,*
*Tutub Mollamızı dama soxmuşdu.*

Haqqında danışılan hadisə ("Çıxmışdı küçəyə qırmızıyanız") şairin yazdığı kimi, "Molla Nəsrəddin" jurnalının 1907-ci yox, 1906-cı ilin ikinci sayına aiddir.

"Keçmiş günlər" əsərində hadisələrin təsviri tarixi-xronoloji bir ardıcıllıqla davam etdirilir. Şairin özünün şəxsi həyatı, yaradıcılığı, oxucuya dövrün, mühitin, ictimai-siyasi, ədəbi hadisələrinin inkişafı axarında təqdim edilir və dilinin sadəliyi və axıcılığı əsəri oxunaqlı edir.

Ə.Nəzmi mollanəsrəddinçilər içərisində "bəxti gətirən" şair olmuşdur. Əsərləri əsasən bir qayda olaraq gizli imza və imzasız nəşr olunan başqa mollanəsrəddinçi şairlərlə müqayisədə yaradıcılığının toplanılıb, nəşr edilməsi tədqiqatçı və mətnşünaslar qarşısında həllolunmaz mürəkkəblik yaratmamışdır. Çünki əsərlərinin böyük bir hissəsinin nəşrinə hələ sağlığında nail olan Ə.Nəzminin 1908-ci il Gəncədə "Şərabçı" adlı ilk kitabı çap olunmuşdur (bu kitabı əldə etmək hələ ki mümkün olmamışdır). Adı gizli imzasından alınan "Sijimqulunamə" (1927), "Bəlkə bu yaxşı oldu" (1932), "Üç məşədi" (1935), nəhayət, "Satira mərmiləri" (1945) şeir topluları şairin sağlığında, "Seçilmiş şeirlər" (1950), "Seçilmiş əsərləri" (1959), "Şeirlər" (1963) adlı kitabları da ölümündən sonra nəşr olunmuşdur. Ə.Nəzminin əsərlərinin ən təkmil nəşri isə onun 1979-cu ildə oxuculara təqdim olunan "Seçilmiş əsərləri"dir (tərtibçi F.Hüseynov, redaktor H.Məmmədzadə). Kitaba daxil edilən 300-ə qədər əsərin təxminən 130-u "Sijimqulunamə"dən götürülmüş, arxivlərdən, dövri mətbuat səhifələrindən toplanmış 170-ə qədər əsər isə nəşrə ilk dəfə daxil edilmişdi. Nəşrin ilk mənbələr, tarixi-xronoloji prinsip əsasında çapı, əsərlərin yazılış və nəşr tarixinin, gizli imzaların göstərilməsi, şübhəsiz ki, çox faydalıdır. İlk mənbələrdə "Ədəbiyyat" ümumi sərlövhəsi altında çap olunmuş şeirlərə burada ümumi ad verilmişdir.

Əlyazmalardan götürülüb ilk dəfə çap olunan şeirlərin altında yazılma tarixi qeyd olunmuşdur. Nəşr tarixi və ilk mənbəyi məlum olmayan bir sıra əsərlər "Sijimqulunamə"dən götürülmüş və yeri göstərilmişdir. Axırda yalnız ilk mənbə və nəşr tarixi yazılan əsərlər isə mətbuatda imzasız çap olunanlardır.

Oxucuya təqdim olunan bu yeni kitab həmin nəşrin əsasında çapa hazırlanmışdır. Hazırlıq prosesində mətnin orfoqrafiyası üzərində iş aparılmış, bəzi mənbə və imzalar dəqiqləşdirilmiş, mövzu, ideya, sənətkarlıq bədii dəyər və siqləti baxımından, tədqiqatlarda öz təsdiqini tapmış iri həcmli "Keçmiş günlər" mənzum xatirəsi ilk dəfə olaraq nəşrə daxil edilmişdir. "Keçmiş günlər" əsərindəki bəzi ərəb, fars tərkibli sözlərin mənası "Lüğət"ə əlavə edilmişdir.

Ömrünü-gününü, bütün istedad və bacarığını doğma vətəninə, xalqına təmənnasız həsr edən Əli Nəzminin əsərləri bu gün də oxucuların qəlbinə yol tapacaq və həmişə sevitəcəkdir.



# Şeirlər

## FƏLƏKDƏN GİLEY

Ey fələk, rəhm elə bir, bax bu nə halət, nədi, nə?
Baş-ayaq seyr elə gör bu nə zəlalət, nədi, nə?

Dad əlindən sənin, etdin bəni yüz dərdə düçar,
Ruzü şəb virdim olub ahü nəva, naləvü zar.
Fəqr alıb tabü təvanımı dəxi hər nə ki var,
"Özü" fikr ilə salıbsan, bu xəyalət nədi, nə?

Əriyib buteyi-ömrüm, tən olub xakistər,
Mənə aləmdə bu bir parça çörək oldu zəhər.
Xoş bu növ ilə dolanmaqdan isə nari-səğər,
Endirirsən, mənə yüz tənü şəmatət nədi, nə?

Ey fələk, kaş nola bir yetə eyvanına əl,
Cəng uram ta ki, giribanına bən, ey bəd əməl,
Soruşam ta ki, bənimlə nədi bu rəddü bədəl?
Göstərirsən bənə bu hövli-qiyamət nədi, nə?

Eyliyibsən bəni pabəndi-əyali-zarə,
Yandırıb-yaxmısan aləmdə bəni odlarə.
Həm tüfeyli eləyibsən bəni hər biarə,
Söylə bircə bu qədər bənlə ədavət nədi, nə?

Yox məgər zərrəcə insafü mürüvvət səndə,
Eyləyibsən bu cəhan içrə bəni şərməndə.
Deyil, anla, sənə hərgiz bu əməl zibəndə
Kim, bənimlə edəsən boylə zərafət nədi, nə?

Hər dənizadəyə əl açmağa məcbur elədin,
Bəni hər süfləyə pamal eləyib mur elədin.
Yazığın gəlməyib əsla, nə qədər cor elədin,
Yanaram, Tanrı bilir, suzü hərarət nədi, nə?

Yox vəfa səndə, fələk, sinəmi qıldın min çak,
Edəcəksən bəni bu təng məişətlə həlak.
Həq bilir, eyləmərəm mərgdən əsla bən bak,
Mərg xoşdur bənə, xoş, öylə əsarət nədi, nə?

Hər qədər kəsbdə bən eyliyirəm səyü təlaş,
Nə qədər naxuni-qeyrətlə edib sinə xəraş.
Cəhd edib, istiyirəm ta düzələ əmri-məaş
Sən vurursan dilə hər ləhzə cərahət nədi, nə?

Ey fələk, kaş bu könlüm kibi viran olasan,
Bax bu qəlbim kibi bir dəmdə dönüb qan olasan.
Dağıla tağinü bu xakilə yeksan olasan,
Yox məgər bir bu qədər zülmə nəhayət, nədi, nə?

Qarğıyım hansı dil ilə sənə ey məkkarə,
Sən də yan bən kibi, ey dun, görüm odlarə.
Görmürəm hər yana meyl eyləyirəmsə, çarə,
Kövkəbi-bəxtdə bu nəhs, bətalət nədi, nə?

*1903*

## ŞİKAYƏT

Dərdü qəmdən bu qəlbi-məhzunim
Badə rənginde qanə dönmüşdür.
Hatifa, əşgi-çeşmi-pürxunim,
Rudi-Nili-rəvanə dönmüşdür.

Var böyük şikvəm, ey böyük şair,
Rubəru olsam, eylərəm zahir.
Firqətindən usanmışam axir,
Sudi-eşqim ziyanə dönmüşdür.

Məskənim dəhrdə neyistandır,
Süknəsi həp köhnəpərəstandır.



Nur zülmət dalında pünhandır,
Şəbpərə pəhlivanə dönmüşdür.

Ruh bitab, gözlərim giryan,
Əşk cari üzariyə hər an.
Bəhri-qəm bikənar, bipayan,
Rast qəddim kəmanə dönmüşdür.

Nabələd rahü rövşəna, bilməm,
Cism ğərqabdə şina bilməm.
Harada yar, aşina, bilməm,
Xəsm fili-dəmanə dönmüşdür.

Sinə püriztirab, püraməl,
Əməlim arzuyi-istiqbal.
Ağlaram, yetmədi zəmani-vüsal,
Gözlərim navdanə dönmüşdür.

Kəsilibdir günüm şəbi-yəlda,
Zülmət içrə işim təbahü fəna.
Hər tərəfdən gəlir də qəmli səda,
Novbaharım xəzanə dönmüşdür.

*1903*

## KƏNDƏ İBTİDA

Eylədi çün şəhri-Tiflis içrə süknа "Şərqi-rus"
Saldı sayə aləmə çün nəxli-tuba "Şərqi-rus".
Rəşki-aləm eylədi bu şəhri ol alicənab,
Türfə mətləb, türfə məqsəd, türfə məva "Şərqi-rus".
Açdı çox nitqi-göhərbarü dürəfşani-məqal,
Əhli-aləm eylədi kəsbi-təcəlla "Şərqi-rus".
Zülməti-heyrətdə qalmışdı təmam islamiyan,
Oldu bu zülmətsəradə nuri-beyza "Şərqi-rus".
Qeyri millətlər içində qalmış idik kur tək,

Türfə bəxş etdi bizə bir fəxri-üzma "Şərqi-rus".
Qadiri-həyyi-əzəldən cümlə eylər arizu,
Payidar olmaxluğun pir ilə bürna "Şərqi-rus".
Bu cəridə gündəlik olmaqla, aləm sərbəsər,
Xürrəmü məsrur olub əlavü ədna "Şərqi-rus".
Bəs bizə vacib deyilmi, boylə bir millətpərəst
Şəxsə etməklik təmənna ömri-tula "Şərqi-rus".
Şükrilillah, bəxtəvər millətlərə həmta edib,
Təneyi-əğyardən qıldı mübərra "Şərqi-rus"...
Malü can millət yolunda bəs ki, tərkü sərf edib,
Aşiqi-millətdi bu safü müsəffa "Şərqi-rus".
Sətrlər çün zülfi-mişkinsayi-yari-dilrüba,
Aşiqi-canda dili kim, eylər əhya "Şərqi-rus".
Maşallah, cilvəli əbruyi-canan tək müdam
Mərhəmətlə eyləyir hər ləhzə iyma "Şərqi-rus".
Əhsənullah, əhsənullah, əhsənullah, mərhəba,
Həm cəzakəllahu xeyrən yövmi-üqba, "Şərqi-rus".
Qədrü qiymət hiss edən ariflərə izhardır
Kim, bu millət dərdinə eylər müdava "Şərqi-rus".
Xaliqi-aləm Məhəmməd Mustafanın həqqinə
Günbəgün, saətbəsaət etsin əla "Şərqi-rus".
Eyləsin cümlə həsudin dəhrara xarü zəlil,
Kəsməsin icabdən lütfini əsla "Şərqi-rus".
Var ümidim, Bikəsa, bu nəzmi-pürsəhvü qələt
Kim, ola məqbuli-dərgahi-əhibba "Şərqi-rus".

*Əli Məhəmmədov (S.)*
*"Şərqi-rus", 1904, № 137*

## HÜRRİYYƏTİN LÜZUMU

İrişmək istəyə, güc, ölkədə hürriyyət olmasa,
Azadiyi-kəlam ilə cəmiyyət olmasa.
Hübbülbəşər xəyalinə düşmək olur məgər,
Hürriyyəti-ülum ilə qüdsiyyət olmasa.



Ədlü ədalət olmasa, olmaz vətən vətən,
Nəxli-səadət olmasa, olmaz çəmən çəmən.
Hürriyyət olmasa, olmaz kəsbi-elmü fənn,
Bunlar olurmu, onlar ilə ülfət olmasa.

Gülşəndə, söylə, gül açılırmı baharsız?
Ya dövr edirmi il gecəsiz, ya naharsız?
Azad olunsa şir, durarmı şikarsız?
Azad olurmu olmaq əgər qeyrət olmasa?

Hürriyyət ilə yetmək olur çox mənazilə,
Hürriyyət ilə çatmaq olur həddi-kamilə.
Hürriyyət olsa, tez yetişir elm hasilə,
Elmü ədəb olurmu, əgər himmət olmasa.

Hürriyyət olsa, ölkə işıqlansa misli-nur,
Zülmati-cəhl məhv olaraq, elm edər zühur.
Elm ilə cahilani-zəman cümlə bilmürür,
İnsan olur xumarmı, qəflət olmasa.

*1904*

## ATANIN OĞLUNA VƏSİYYƏTİ

Ey mənim ruhi-rəvanım, ey oğul.
Ey mənim cismdə canım, ey oğul.
Ey mənim sərvi-rəvanım, ey oğul.
Ey mənim tabü təvanım, ey oğul.
Ey olan dideyi-binurimə nur,
Ey verən bu dili-məhzunə sürur.
Ey mənim mayeyi-izzü şərəfim,
Ey həyatım səməri, vey xələfim.
Ömrümün gülşəninin sən gülüsən,
Dirilik bağımızın bülbülüsən.
Sən mənim bu cigərim parəsisən,
Könlümün dilbəri-məhparəsisən.

Ey mənim baisi hər eyşim, oğul.
Qüvveyi-samieyi-guşim, oğul.
Oğul, ey bağı-həyatımda nəhal.
Oğul, ey sahibi-iqbali-cəmal,
Eşidib bu sözümü dərguş et,
Badeyi-pəndimi al da, nuş et.
Sənə məndən bu vəsiyyətdir, oğul.
Qulaq as, yaxşı nəsihətdir, oğul:
Olgilən elmə tələbkar, oğlum.
Elm oxu, ol belə huşyar, oğlum.
Elm, insanlara zinətdir, bil,
Elm, nuri-bəşəriyyətdir, bil.
Eylə, növrəstə balam, kəsbi-ülum,
Adəm ol elmlə, adəm, yavrum.
Nuri-elm ilə işıqlanmalıdır.
Cəhlü zülmətdən uzaqlanmalıdır.
Elmdir baisi-üqba və həyat,
Elmdir mənbəyi-feyzü bərəkat,
Elmdir kaşifi-əsrari-nihan,
Elmdir ruh, bədəndir insan.
Elm ilə fəxr eləyir növi-bəşər,
Elmdir vasiteyi-müxtəriat,
Elmlə kəşf edilir rahi-nicat.
Əlqərəz, elmlədir dövri-cəhan,
Ey oğul, elmlədir rahəti-can.
Kişinin zinətidir elm ilə fənn,
Olur abad ülum ilə vətən.
Elmlə millət olur şən, məsrur,
Elmlə kütlə alır qüvvətü zur.
Aç qulaq, dinlə bu söhbətlərimi,
Saxla yadında vəsiyyətlərimi.
Elmsiz qiymətin olmaz, anla,
Qüvvətin, qüdrətin olmaz, anla
Yaşamaq istər isən, can oğlum,
Elm kəsb eylə firavan, oğlum,
Eylə əxlaqını elm ilə qəşəng,
Eyləmə kəndini bikar, cəfəng,



Elmlə helmi qəbul et, mum ol,
Nə ki bədxülq olaraq, məzlum ol.
Atma bu sözləri canım, pedərim,
Söylədim, anla əzizim, pesərim.

*"Sijimqulunamə"*, *1904*

## İSTİBDAD

Titrəyir pənceyi-cəlladi-qəzadə bədənim,
Qəti-ümmidi-həyat etməyə amadə tənim.

Ziri-şəmşiri-cəfadə edirəm tərki-həyat,
Olur əfsürdə gülüm gülşəni-dünyadə mənim.

Ruhi-hürriyyətimi qəbz eləyib istibdad,
Biçilibdir boyuma şəhri-bəladə kəfənim.

Ah, ey nuri-ədalət, qəməri-hürriyyət,
Parlayın kim, qapanır dəsti-sitəmlə dəhənim.

Çürüsə cismim əgər xaki-siyəh altında,
Yenə hürriyyət olur hər əməlim, hər süxənim.

Qılsa da ruhimi qəbz, etsə də yüz parə bəni,
Aqibət olmalıdır kuyi başında həvənim.

Bikəsa, rahətim olmaz yerim olsa cənnət,
Pişi-çeşmimdə əgər boylə fənadə vətənim.

*1906*

## QƏZƏL

Söyürlər isə sənə, dinmə, dur hırılda, balam.
Boğurlar isə, nə çarə, boğul, xırılda, balam.

Qapazlı isə başın, ya üzün tüpürcəkli,
Canın sağ olsun, utanma həman, fırılda, balam.

Hüquqi-dinü dilin uğrasa təcavüzə gər,
Nə eybi var, dalısınca özün bırılda, balam.

Başında işləsə yüz min kələk dəyirmanı,
Usanma, bəs demə, çax-çax kibi cırılda balam.

Əlaltı ol, döyül, əl intiqamə qalxızma,
Necə babasız oğul, ah çək, zırılda balam.

Tənindən alsa da əğyar ruhini, səbr et,
İlan dişinə keçən ğuk tək qurulda balam.

Vəli qəbul eləmə qardaşın nəsihətini,
Sənə nə söyləsə baxma, fəqət mırılda balam.

*"Sijimqulunamə", 1906*

## CAVAB

*Çayda çapana*

Çayda çapan qardaşım,
Ağlama, ağları gör,
Fikr elə bir az, qadam,
Xəlqi, sora karı gör.
Bilmirəm axır nolub,
Bircə quzum, bizlərə



Evdecə gizlənməyək
Çıxmıyıban düzlərə.
Cami-səfahət, atam,
Kim içirib sizlərə,
Bir bunun əqvalını,
Yazdığı əşarı gör.
Zəngəzura bircə bax,
Gör hara, sən hardasan,
Əpməgi çox, dərdi yox,
Sən niyə qur-qurdasan?
Cümlə əbəs ağlaşır,
Qəm yemə heç, burdasan.
Əzm elə Yevlağa sən,
Orda vaqonları gör.
Neyləsin, ay qardaşım,
Mollalar axır belə.
Çərxi-zəbun onları,
Saldı belə əngələ.
Əqlini yığ başına,
Rəhm elə, insaf elə.
Məxrəci-pakindəcə,
Yağlı plovları gör.
Milləti-nadanının,
İşləri canın alıb,
Cümlə müridi qaçıb,
Ərsədə yalqız qalıb.
Tayifeyi-bivəfa,
Bunları yemdən salıb,
Taxçada tozlar basan,
Ağca səmavarı gör.
Bilmirəm axır nədir
Fikrin, a Çayda çapan?
Müflis olaq bizdəmi?
Halımız olsun yaman?
Onda deyərlər bizə,
Vot tebe, başqa saman
Yox, lələ, vallah məni
Əfv elə, əğyarı gör.

Neyliyib axır sizə
İntiligentlər, balam,
Sən danışan sözlərə
Səbr eliyər kim, adam.
Ta ki peşiman olur
Bir lütə vermir səlam.
İndi təmaşayə gəl,
Hərzəni, göftarı gör.
Tari də şahid, bular
Kim, nə cəfa çəkdilər.
Millət adın əldəcə
Dami-hiyəl tikdilər.
Ac adına pul yığıb
Qoltuğa bərkitdilər.
İndi ac-ucdan gələn
Ahü fəğanları gör.

*Həcamətverdi*
*"Molla Nəsrəddin", 1907, № 38*

## MOLLA

Nə olar ki, dinməyib sən,
Durasan kənarə, Molla.
Yığasan qələm-kitabın,
Qapayıb... idarə, Molla.
Qayıdıb da əsri-mazi,
Gələ ta dübarə, Molla.
Genə biz edək idarə,
Yapışıb da karə, Molla.
Özümüz çəkib riyazət,
İşi bir salaq nizamə.
Vuruban təməddünə pa,
Hamını qoyaq qiyamə.
Eşiyə çıxan qınından,
Qılıcı soxax niyamə.



Genə pas basıb beşüz il,
Bulana ğübarə, Molla.
Ay axund, evin yıxılsın,
Adına baxıb utan bir.
Bu qədər ləcacət olmaz,
Şu qəbahətini qan bir.
Dediyin çərən-pərəndən,
Yorulub dəxi usan bir.
Dolaşıb sataşma bunca,
Ağaya... kübarə, Molla.
Adə, ay yeni müsəlman,
Nə soxulmusan ərayə.
Yapışıb boğazımızdan,
Bizi salmısan bəlayə.
Füqərayə yan basıb həm,
Edirsən bəyə kinayə.
Deyirsən nə olsa şeyxə,
Həmi maldarə, Molla.
Mən ölüm ki, sən atıbsan,
Kişi, məzhəb ilə... dini.
Azıdıb edibsən iğva,
Alagözlü müslimani.
Oxuyanların da jurnal,
Nə zəkası var, nə beyni.
Oların da əqlin almış,
Bu yazı, bu qarə, Molla.
Kişilər, bilin, aradan,
Götürüldü dinü iman.
Bizə indi vaiz olmuş,
Başı şapqalı Nəriman.
Bizə məsxərə yazan kim?
Bu, bu Faiq ibn-Neman.
Nə bilim, filan, filanlar,
Yanıram şərarə, Molla.
Hələ bu qəzetçilər gör,
Yenidən nələr yapırlar.

Nədi şiə, sünni ləfzi?
Deyib atların çapırlar.
Nərədə bir əksi-adət
İş olursa, tez tapırlar.
Sığışarmı ya bu bidət.
Söylə, nəngü arə, Molla.

*Məşədi Sijimqulu*
*"Molla Nəsrəddin", 1908, № 5*

## KİŞİLƏRİMİZ[1]

*6-cı nömrədə Dabanı çatdax xalaya cavab*

Boşla, xala, cəfəngini,
Müftəcə yorma əngini,
At dalına səhəngini.
Elmü ədəbli qız gərək,
İnci sədəfli qız gərək.

Kaftarı qoyma töhmətə,
Həm qocanı məzəmmətə,
Salma bizi əziyyətə.
Elmü ədəbli qız gərək,
İnci sədəfli qız gərək.

Hacı Xəmamı pisləmə,
Kəblə Qulamı hisləmə,
Məşədini də mizləmə.
Sizlərə öylə ər gərək,
Misli-himarü xər gərək.

Heç nədir öz vücudunuz,
Elm ilə yox süudunuz,

[1] "Sijimqulunamə"də "Boşla" adı ilə getmiş və bu qeyd verilmişdir: "Yenə Dabanı çatdax xalanın "Mən bu dərədən getmərəm, çadramı yellətmərəm" mətləli şerinə cavab".



Qırdı bizi qüyudunuz.
Sizlərə biz tək ər gərək,
Sən kibi dəngəsər gərək.

İndi nədir xəyalınız,
Söhbətiniz, səvalınız,
Bədmi gəlibdi falınız?
Sizlərə öylə ər gərək,
Ta döyə hər səfər gərək.

Tovlama bu cavanları,
Tapsana aldananları,
Saqqala rəng yaxanları.
Bizlərə dəmli qız gərək,
Xətli, qələmli qız gərək.

İndi olarmı bir xələf,
Kim, edə ömrünü tələf,
Keçdi zəmaneyi-sələf.
Şimdi ədalı qız gərək,
Fəhmü zəkalı qız gərək.

Elm, hünərli bir cavan,
Elmli qız alar, inan.
Qart qocadır sənə qalan.
Elmü ədəbli qız gərək,
İnci sədəfli qız gərək.

Nəymə gərəkdi Xanpəri,
Xoşgəbəyim, nə Gülpəri,
Gijdi, səfihdi, sərsəri,
Elmü ədəbli qız gərək,
İnci sədəfli qız gərək.

*Məşədi Sijimqulu dayı*
*"Molla Nəsrəddin", 1908, № 9*

## İSTİXARƏ

Fikr edirik biz də bir iş başlayaq,
Eyləyirik istixarə, bəd gəlir.
Səbr edirik ki, bir saat xoşlayaq,
Xoşlayırıq: istixarə bəd gəlir.

İstəyirik biz övladi-ümmətə
Açıb məktəb, çataq dadi-millətə.
Cəmiyyətin təşkilinə, himmətə,
Qalxışırıq: istixarə bəd gəlir.

Cəm oluruq bir məclisə yüz nəfər,
İşlədirik neçə batman çay, şəkər,
Danışırıq, bitişirik... müxtəsər
Eyləyəndə... istixarə bəd gəlir.

Sonra bir də eyləyirik məsləhət,
Cəmləşirik həm çay olur, həm də ət.
Təsbihə də molla edir məşvərət,
Andır genə istixarə bəd gəlir.

Üç ay, beş ay gedib genə yatırıq,
Çaysız, aşsız lakin itib-batırıq,
Ortalığa tazə bir söz atırıq
Ki, etməyin istixarə bəd gəlir.

Səbarə biz bu şuraya cəmləşib,
Ən lazımlı məktəb işin səsləşib,
Düzəldirik, zəhmət çəkib əlləşib,
Pul deyəndə istixarə bəd gəlir.

Söyləyirik: elm, məktəb, ittihad,
Saylayırıq cümləsini adbaad,
Boylə edir neçə məclis iniqad.
Axırında: istixarə bəd gəlir.

*"Molla Nəsrəddin", 1908, № 9*



## BEYT

*Oğul və ata*

**Oğul**

Ay dədə, qoy məni gedim
Məktəbə, orda elm oxum.

**Ata**

Kəs səsini, a naxələf,
Pis süd əməncə, bij toxum.

**Oğul**

Ay dədə, rəhm qıl mənə,
Sən kibi cahil olmuyum.

**Ata**

Adə, çəkil kənarə get,
Ay səni qəbrə quyluyum.

**Oğul**

Tazə üsul ilə verir
Dərsi-ədəb müəlliman.

**Ata**

Öylə yeni müəllimə...
Mən səni verməm, inan.

**Oğul**

Versən, o məktəbə məni,
Səncə günah olur, məgər?

**Ata**

Bəlkə günah olur nədir,
Küfr oluram yerim səğər.

**Oğul**

Ay dədə, söyləmə əbəs,
Kafir edərmi şəxsi elm?

**Ata**

Ay qoducaq, axund deyir,
Adəmi azdırır bu elm.

**Oğul**

Qorxma, ata, bu məktəbin
Nəfi də çoxdu, xərci az.

**Ata**

Vallah, itil, vuracağam,
Başına bir yekə qapaz.

**Oğul**

Ay dədə, elmsiz nasıl,
Mən bu zəmanda iş görüm?

**Ata**

Ay vələdüzzina, səni...
Odda, ocaqda piş görüm.

**Oğul**

Ay ata, elmü fənsiz
Şəxs qəni olarmı ya?

**Ata**

Pul məgər elm ilə olur?
Qurbağa oğlu, qurbağa.

**Oğul**

Ay ata, elmsiz... məgər
Var ulaq ilə fərqimiz?



**Ata**

Heç be cəhənnəm, olmasın,
Boylədi səbkü rəngimiz...

**Oğul**

Durmaq olurmu boş-bekar?
Bəs mənə söylə, neyləyim?

**Ata**

Get mal oğurla, adəm at,
Kəsb elə, mən nə eyləyim?

**Oğul**

Müxtəsəri, qoyurmusan,
Mən də bu məktəbə gedim?

**Ata**

Şümrü Yezid olum, əgər
Mən bu günahə əmr edim.

**Ata**

Bircə baxın, bu naxələf
Söylədiyi cəfənglərə.
Gör kimə tay edir məni,
Bir para lağ səfehlərə.
Yox, yox, amandı, qoymanam
Bu işə mən heç uymanam.
Min desələr də qanmanam,
Atəşi-"veylə" yanmanam,
Molla Qurut deyib mənə
Özgə sözə inanmanam.

*"Molla Nəsrəddin", 1908, № 9*

## KİŞİLƏRİMİZ

Biz almışıq arvad, alaq çəkməyə,
Almamışıq, zülfə daraq çəkməyə.
Biz almışıq arvad ola cariyə,
Almamışıq, xanım olub yariyə.
Biz almışıq övrəti iş görməyə,
Almamışıq, gündə saçın hörməyə.
Biz almışıq qayınana saxlasın,
Almamışıq, gecə-gündüz yuxlasın.
Biz almışıq övrəti əppək yapa,
Almamışıq, düzməyə mıncıq sapa.
Biz almışıq saqqala rəng yaxmağa,
Almamışıq, qızıl, şəvə taxmağa.
Biz almışıq övrəti ev saxlaya,
Almamışıq, vel gəzə, sarsaqlaya.
Biz almışıq yırtıq-yamaq sağlaya,
Almamışıq, ağlaşmada ağlaya.
Biz almışıq arvadı duz əzməyə,
Almamışıq, gündə gedə gəzməyə.
Biz almışıq qulluq edə quş kimi,
Almamışıq, bannıya bayquş kimi.
Biz almışıq övrəti oğlan doğa,
Almamışıq, qız doğa bərbadlığa.
Biz almışıq başmaqları cütdəsin,
Almamışıq, hey özünü bitdəsin.
Biz almışıq tək oturub gözləsin,
Almamışıq, xala-mama cəmləsin.
Biz almışıq nehrəmizi çalxasın,
Almamışıq, uşaqlara qarğasın.
Biz almışıq gül bəzəsin güldana,
Almamışıq, baldıza donquldana.
Biz almışıq övrəti gülsün, desin,
Almamışıq, it kimi zingildəsin.
Biz almışıq övrəti, bozbaş yesin,
Almamışıq, gündə qazan aş yesin.
Biz almışıq övrəti can-baş desin,
Almamışıq, hey bizə külbaş desin.



Biz arvad aldıq ki, olaq bir kişi,
Almamışıq, pis bişirə bişmişi.
Biz almışıq övrət, olaq bextəvər
Almamışıq, gündə çəkək dərd-sər.
Biz almışıq övrət ola doğrusu,
Almamışıq, olsun evin oğrusu...

*Məşədi Sijimqulu dayı*
*"Molla Nəsrəddin", 1908, № 12*

## MƏSLƏHƏT

Molla! Sənə eyləyirəm məsləhət:
Söylə görüm, evlənim, evlənməyim?
Altmışı sinnim eləyibdir güzəşt,
Bir qız alım, evlənim, evlənməyim?

Evdə varımdır biri lap köhnədən,
Sonra da aldım birini tazədən,
Boşlamışam tazəni hərçənd mən,
Bir də gülüm! Evlənim, evlənməyim?

Var tamahım, doğrusu, bir düxtərə,
Elçi də saldım Məşədi Səfdərə,
Həm də vurub mollaları bir-birə,
De, mən ölüm! Evlənim, evlənməyim?

On ikicə sinni qızın var tamam,
Öz nəvəm Əsmər kimicə, vəssalam.
Yaşlı ola, bil ki, yəqin almanam,
Bircə büküm! Evlənim, evlənməyim?

Molla dayı! Oğluma bax sən hələ,
Gör nə deyir bircə bu kərtənkələ.
Kim, mənə bu qız yaraşar, ay lələ,
Sənə ölüm, evlənim, evlənməyim?

And verirəm mən səni imanına,
Saqqalına, şalına, həm canına;
Yazma bu cür kağızı jurnalına,
Xəlvət oxu, evlənim, evlənməyim?

*Məşədi Sijimqulu*
*"Molla Nəsrəddin", 1908, № 12*

## BİR QIZIN MOLLA NƏSRƏDDİNƏ ƏRZİ-HALI

Babacığım! Olsa da zəhmət sənə,
Halıma bax, eylə şəfəqqət mənə;
Sənsə də lütf eylə məhəbbət mənə,
Qılmadı çün kimsə mürüvvət mənə.
Mən yazıq oldum, məni aldatdılar,
Beş quruşa bir qocaya satdılar.

Bir qız idim doqquza çatmış yaşım,
Çıxmaz idi var ilə yoxdan başım;
Bir gün atam, bir də anam, qardaşım,
Çünki mənim atmalı idi daşım.
Əlbir olub da daşımı atdılar,
Beş quruşa bir qocaya satdılar.

Hərçi mən inkar elədim, getmədim,
Onlar edən əmri qəbul etmədim,
Qılmadım iqrar, işə bitmədim,
Ax... Niyə bir dəfə ölüb itmədim?
Zor ilə qol-qılçamı bağlatdılar,
Qarə pula bir keçələ satdılar.

Verdilər mən zarı nə cür bir ərə,
Dördünü almış bir öküz peysərə,
Molla da uydu, baba, simü zərə,
Kəbinimi kəsdi, salıb dəftərə.
Kabla Qulama məni yalvartdılar,
Gəh alıb, gəh məni satdılar.



Çün ərimin var imiş evdə genə,
Bir, iki, üç övrəti ərzim sənə.
Üç qızı, dörd oğlu ilə bir nənə,
Saldı məni on birinin çənginə;
Hər biri bir söz sözümə qatdılar,
Hər gecə kəl peysərə tapdatdılar.

Bu nə ər-övrətlik idi, bilmirəm,
Ta gələli bu evə gün görmürəm;
Şanə çəkib zülfümü bir hörmürəm,
Sirrimi də qardaşıma vermirəm,
Çünki olar ədlə xələl qatdılar,
Mən yazığı mal kimicə satdılar.

Mən deyiləm bircə qara bəxt olan,
Yüz mini var mən kibi kəm talean,
Zalxa, Tükəzban və Pəri, Hürcəhan,
Leyk mənim tək hanı ağlar qalan?
Ağlamaz idim, məni ağlatdılar,
Müftəcə bir çal qırığa satdılar.

Adinə axşamı qopar cəngimiz,
Bir kişi, dörd övrət, olur həngimiz;
Axırı qalxar qoca sərhəngimiz,
Çoxca kötəklər, əzilər, əngimiz,
Gündə vurub əngimi laxlatdılar,
Sübhdən axşamə dama qatdılar.

Baba, uşaqlarına qurban olum,
Söylə, nə vəqtə kimi heyvan olum?
Mən nə edim, daxili-insan olum?
Ta nə zəman böyləcə giryan olum?
Elmsiz ədnalığa uğratdılar,
İsməti, insafı ayaqlatdılar.

*"Molla Nəsrəddin", 1908, № 18*

# MƏKTƏB

Məktəb demə, ondan sarı qəlbim dolu qandır,
Bu, darüledəbdir desə hər kimsə, yalandır,
Cəfər bitirib dərsi, gəlib xeyli zamandır,
Baş tüklü, ayaq çəkməli, guya ki, qabandır,
Saldat balası, bax, deyəsən lap malağandır.

Qanmaz hələ murdarü təmiz, eyləməz idrak,
Bilməz də nədir gürcü, yəhudi nə bu napak,
Onda görürəm girdi evə çəkməli bibak,
Murdarladı paltar-palası, sanki İvandır,
Saldat balası, bax, deyəsən lap malağandır.

Yüz dəfə söyüb söylənirəm, bir tikə qanmır,
"Murdar" deyirəm, çəkmə də, çernil də, inanmır,
Hey qışqırıram, danlayıram, bircə utanmır,
Guya ki, bu heyvan nəvəsi zırca çobandır,
Saldat balası, bax, deyəsən lap malağandır.

Var idi mənim uşqolaya özgə gümanım,
Yoldan çıxacaqmış, nə bilim, tazə cavanım,
Ağzımda qalır söz, deməyə vermir amanım,
Söz torbasıdır, bic qoducaq, ya "mizəqan"dır,
Saldat balası, bax, deyəsən lap malağandır.

Nə qorxu bilir, həm nə olur kimsəyə xaze
Nə mollaya eylər, nə də hükkamə təvaze!
Heyf olsun o pullara ki, bu eylədi zaye
Şüğli: yazı, məcmuə, qəzet, virdi-zəbandır,
Saldat balası, bax, deyəsən lap malağandır.

Bilmir belə işlər həmyanə ziyandır,
Öz nəfini qanmır, elm ilə piyandır,
Millət deyə ağlar, bir mərsiyəxandır,
Anlar hələ sonra, əlhal cavandır.

*Məşədi Sijimqulu*
*"Molla Nəsrəddin", 1908, № 22*



# NƏ İDİ?

A kişi, andıra qalmış bu dəbistan nə idi?
Saldılar ortalığa, bu ədəbistan nə idi?
Nədi bu tazə üsul ilə oxu, yazı, kitab?
Dosqa, istollu, yeni məktəbi-ürfan nə idi?
Mağıl əyyami-sələfdə var idi mədrəsələr,
Belə bir bijxana, bir məktəbi-şeytan nə idi?
Getdilər, yoxdu müəllim deyib, İstanbuldan,
Burada, bəs bu yekə molla Süleyman nə idi?
Kisəmizdə dəxi pul qalmadı, aldı ürəfa,
Məktəbə əlli *manat* hədyə və *ehsan nə idi?*
Molla Yusif, sən öl a... Yoxdu əlacım, yoxsa
Gedəni qoymaz idim uşkola, viran nə idi?
Oxunur coğrafiya orda, təvarixü hesab,
Babadanqalma bə "Əbvab", "Gülüstan" nə idi?
Fırlanır Yer, yeriyir Gün, durur əncüm derlər,
Yerin altında öküz var, nə də heyvan, nə idi?
Zərəbə Zeyd nədir, cəmü bu tərhü təqsim
Bundan ötrü çəkə zəhmət, məgər insan nə idi?
Molla Sadıq verməzdi bizə bu cür məşq fəqət;
Yazdırardı: Əli bir fund, quluncan nə idi?
Çün dua yazmağa lazımdı hesabi-əbcəd,
Öyrədirdi daha təsbih ilə asan, nə idi?
Evini yıxdılar xəlqin, a canım, bu ürəfa.
Beylə cəmiyyəti-məktəbdə, müsəlman nə idi?
Pak, pakizə, qaraqaş, alagöz səbyanı,
Bu mürəbbilər edib münsəlib iman, nə idi?
Heç də xoşlanmayıram məktəbi-ruhanidən,
Sünnidir cümlə müəllimləri topdan, nə idi?
Daha qorxum budur işlər ola bundan bedtər,
Bamüsavi ola həmmal ilə əyan, nə idi?
Becəhənnəm, hələ bunlar, ay axund, ağrın alım,
Açılır indi də bu məktəbi-nisvan, nə idi?

*Məşədi Sijimqulu*
*"Molla Nəsrəddin", 1908, № 23*

## KEFİMDİ

Əhməd yekəlib bircə qoçaq olsa, kefimdi!
Bir at belinə minsə, qaçaq olsa, kefimdi!

Çoxdandı itib izzətü şanım aralıqda,
Heç kim nə sayır, hörmət edir, nə qaralıqda.
Üstümə ayaq almadadır kök də, arıq da,
Fərzəndim əgər əldə çomaq olsa, kefimdi!
Bir at belinə minsə, qaçaq olsa, kefimdi!

Cüt sürməgilə sərvətü samanım olarmı?
Bu kəsbi-həlal ilə də milyanım olarmı?
Bu olmasa, Koroğlu da mehmanım olarmı?
Oğlum bu igitlərlə qonaq olsa, kefimdi!
Bir at belinə minsə, qaçaq olsa, kefimdi!

Gəlmir qara pul, doğrusu, doğru ələ əldən,
Olsa, olacaqdır genə təzvirü həyəldən
Fikrim budu, bir dəstə yığam bij, bədəməldən,
Amma pesərim işdə səyaq olsa, kefimdi!
Bir at belinə minsə, qaçaq olsa, kefimdi!

Pambıqdan, üzümdən nə muradım olu hasil?
Nə elmilə, sənətlə olur teyyi-mənazil,
Sağ əldə tüfəngi xələfin, solda həmayil,
Quldurluğa zatında maraq olsa, kefimdi!
Bir at belinə minsə, qaçaq olsa, kefimdi!

Rəhzənlik edib də dağıda cümlə dehatı,
Həm qətl eliyib qarət edə çöllünü, tatı,
Ta dolduruban ciblərinə ağça, manatı,
Bu növ ilə xalqa dadanaq olsa, kefimdi!
Bir at belinə minsə, qaçaq olsa, kefimdi!

Bu vəchilə ta üqdeyi hər karım açılsın,
Min töhfə və peşkəşlər ayağıma saçılsın.



Hacı Şükürün də qızı bir gün qaçırılsın,
Boz kürkümə atlas yamamaq olsa, kefimdi!
Bədzata əsili calamaq olsa, kefimdi!

Axırda əlimdə qala məzhəb, nə də iman,
Bir gün qoya növrəstə balam xanəmi viran.
Bir gülləyə sirqətdə verə canını qurban,
Tazə gəlinim qaraduvaq olsa, kefimdi!
Namus ilə qeyrətdən uzaq olsa, kefimdi!
Bir at belinə minsə, qaçaq olsa, kefimdi!

*Məşədi Sijimqulu*
*"Molla Nəsrəddin", 1908, № 24*

## EVLƏNMƏZ İDİM

Molla, bilsəydim işi, adı mən evlənməz idim!
Gər biləydim ki, budur dadı, mən evlənməz idim!

Getdi əqlim mənim əyyami-cəvanlıq dəminə
Ki, nədir mən dözərəm zövcələrin hər qəminə.
Bilsə idim ki, dözəməm bularn çəmxəminə,
Heç qoyub üstümə bu adı, mən evlənməz idim!

Mən dedim: evlənərəm, ta iki arvadım olar,
Biri fikr ilə xəyalım, biri övradım olar,
Az keçər, hər birisindən neçə övladım olar,
Qansa idim hamı bicadı, mən evlənməz idim!

Bilmədim, tazə gələn köhnəyə hədyan deyəcək...
Köhnə də tazəyə "heyvan qızı heyvan" deyəcək,
Axırı bir-birinə min cürə böhtan deyəcək,
Güləcək qonşusu, həm yadı, mən evlənməz idim!

Nə bilim, Zalxa dua yazdıracaq at nalına,
Tazə arvad da bunun əl qatacaqdır yalına,

Söyəcək hər ikisi mən yazığın saqqalına,
Sinnimin saleyi-həftadı, mən evlənməz idim!

Bilmədim dərdi-vərəmdən ürəyim partdıyacaq,
Qocalıqdan bədənimdə sümüyüm xartdıyacaq,
Madəxərlər qızıxıb, nərrə xəri tapdıyacaq,
Döyəcəklər qoca damadı, mən evlənməz idim!

Molla, rəhm eylə mənə, hali-pərişanıma bax!
Ağaran saqqalıma, əngimə, dəndanıma bax!
Qövlümə, felimə, təsbihimə, qəlyanıma bax!
Oxusaydım əgər "İrşad"ı, mən evlənməz idim!

*Peşiman qoca*
*"Molla Nəsrəddin", 1908, № 25*

## SİZƏ NƏ

Eybgулuq nə idi eylədiniz pişə, əmu!
Bu işin aqibətin etməyib əndişə, əmu!
Bu fəna iş nə idi tulladınız ortalığa!
Sizi kim qoydu bizim üstümüzə dərğalığa!
Yaraşarmı belə işlər, de görüm, mollalığa?
Salmısız aləmi siz qorxuya, təşvişə, əmu!

Nə ricuiz var, atam, milləti çapdı ağalar,
Sizə nə üstümüzə saldı qıçın qurbağalar.
Ya bizə sahib olubdur başı saçlı çağalar,
Cücələrtək bizi çəkməkdədilər şişə, əmu!

Gəncədə bir-birini qırdı müsəlman, sizə nə?
Buna çarə aramır polisa, nə divan, sizə nə?
Nə də tədbir eləyir molla və bəy, xan, sizə nə?
Siz nə dürtülmüsünüz ortaya, hər işə, əmu!

Nafilə şəhrimizə seyrə gəlibdir Mozalan!
Hər nə gördükcə yazır jurnala bilcümlə yalan!



Ona nə borc, yaza qəsdində iki dəstə cavan!
Məst, pişto atılır, əl qırılır, şişə, əmu!

Sizə nə Gəncə belə, Baku belə, həm İrəvan?
Qarabağ, həm Nuxu, Dərbənd, Quba, ya Şirvan?
Sizə nə, ay baba, canım, sizə nə, ay atacan!
Siz deyirsiz ki, ola xali gərək mişə, əmu!

Get yıxıl yat, ay atam, xaneyi-viranında,
Saxla həm bir neçə gij-bijləri də yanında.
Millətin qeydini çəkmək var isə canında,
Sən duanı, falı, cindarlığı et pişə, əmu!

*Məşədi Sijir*
*"Molla Nəsrəddin", 1908,.*

## ZİNDAN[1]

Guşeyi-zindan sənə, ey nocəvan!
Oldumu amalına qarşı məkan?
Söyləmədimmi sənə faşü nəhan
Çəkmə bu millət qəmini, əlaman,
Şimdi təəssüflər ola halına,
Dəydi bəla tiri pərü balına.

Ey xələfi-alimi-bimisl... ta,
Qəddini millət qəmi etdin duta.
Söylədiyin nağılı "va millətа!"
Millətinə etdimi təsir... ta:
Şimdi təəssüflər ola... halına,
Dəydi bəla tiri pərü balına.

Yetdimi kami-dilə əhli-qərəz!
Verdimi amalına layiq əvəz!
Qabili-behbud deyil bu mərəz!

[1] Şair Mirzə Məhəmməd Hatifin sürgün olunması münasibətilə yazılıb.

Heyf, bu zəhmətləriniz... əlqərəz,
Şimdi təəssüflər ola halıma,
Dəydi bəla tiri pərü balına!

Var idimi cürmü xəta karınız?
Gördilər zindanə səzavarınız!
Qəmlərinə oldumu qəmxarınız?
Güldümü ya milləti-biarınız?
Yandımı millət dediyin halına?
Dəydi bəla tiri pərü balına!

Bilmiş idim eyliyəcəklər füzun
Dərdi-vətənxahlari qövmi-dun.
Qaç xuliqan məsləkü mərdi-zəbun,
Aqibət etdirdi işi sernigun.
Səddi-cəfa çəkdilər amalına,
Dəydi bəla tiri pərü balına!

Vəhşi nədir, bilmirəm insan nədir?
Zülm nədir, ədl nə, vicdan nədir?
Kafirü mürtəd, müsəlman nədir?
Hiylə, danosbaz nədir, iman nədir?
Verdimi təğyir danos halına?
Vurdumu zəncir pərü balına?

Mən deməktimmi ki, fəğan eyləmə!
Eybini mollanın əyan eyləmə!
Şeyxi tanı, sufini qan eyləmə!
Fikrini nitqində bəyan eyləmə!
Baxmadın, əfsus, bu gün halına!
Dəydi bəla tiri pərü balına!

*Məşədi Sijimqulu*
*"Molla Nəsrəddin", 1908, № 27*



## ƏŞARİ-MƏHZUNANƏ

*M.M.Axundzadənin sürgündə olduğu zaman Tehrandan yazmış olduğu "Nələr çəkdim bu qürbətdə, əzizim!" mətləli şerinə cavab*

Qış fəslidir, çağlamayır irmaqlar;
Örtülmüşdür, qarla yaşıl yaylaqlar.
Qəmgin bir tövr almış xəndan tarlalar,
Məhzun durur süslü bağlar, bağçalar.
Tökmüş vərəq, sərv oxşayır qədidə,
Yar-yarpaqsız əşcari-növrəsidə,
Pozğun çəmən, yaşıl otlar qurumuş,
Ortalığı qarğa səsi bürümüş
Uçmuş getmiş gülüstandan kələbək,
Çiçəklikdə yox, solmamış bir çiçək,
Yox sədayi-dilrübası bülbülün,
Var nişanı qönçənin, nə sünbülün.

Durmaqsızın dövr eyləyir xakdan,
Hər gün yeni bir rəng alır bu cəhan.
Bir gün Günəş çıxır bir saf üfüqdən,
Bir gün üfüq, müzlim buludlu ikən.
Bir gün tökür soyuq qarlar, buludlar,
Bir gün ondan şəbnəm alır göy otlar.
Bir gün edir buz yığını təcəssüm,
Bir gün olur bahar edir təbəssüm,
Bir gün olur aşiq düşür kənarə,
Bir gün alır məşuqəsin kənarə.
Gəhi olur qan ağlayır didələr,
Gəh doldurur kaşanəyi xəndələr.
Gəhi gedir, gəh ləng olur karvan,
Gəh puç olur, gəh sud edir, gəh ziyan.
Xəndan edir annasına gəh naz,
Gəh ağlayır, bir məsumə qızcığaz,
Gəh mələyir mini-mini bir quzi,

Gəh görürsən otlağında yox izi.
Gəh kükrəyir bir avulda beş igit,
Gəh bayquşlar o evlərdə verir "fit"!

Gəh gülşəndə gül yığır bir nazlı yar,
Gəh o yarı, qucaqlayır bir məzar.
Şerim gəhi güldürüyor qələmi
Gəhi qələm tedad edir ələmi.
Hər fərd bir ümid ilə yaşayır,
Hər yürəgi bir arzu oxşayır.
Hər gənc yürək bəsləyir gənc ideal,
Hər arzu olmayır hər qəlbə mal,
Hər zəhmətin aqibət var rahəti,
Hər rahətin olmaz deyil zəhməti.
Hər aşiq öz sevdiyinin quludur,
İşbu təriq eşq əhlinin yoludur.
Hər könüldə yox deyildir qəm, ələm,
Birində çox, digərində olur kəm.
Yazmışdınız kəndiniz də "səbr, cəbr"!
Əvət, evet, əvət, əvət, bəradər!

Siz düşəli yurdumuzdan uzağə,
Yandıralı bizi nari-fərağə,
Məlumdur çəkdiyiniz əziyyət,
Etmədiyi millətinin həmiyyət.
Lakin sənə yaxın yoldaş, yar olan,
Etməmişdir bivəfalıq, cən inan,
Yox mühitü millətində qədrdan,
Sözlərimiz həp laqırtı, boş, yalan,
Qövl vardır, fel yox – "var sanmayın",
"Səndəl" iyi "söyüddən" siz ummayın.
Haşa, sizə söz öyrədir deyiləm,
Gəlmiş sıra, eyləyirəm şərhi-qəm.

Qəmdir, bütün türk[1] aləmin bürümüş,
Arzular könüllərdə çürümüş.

[1] Azərbaycan



Gündə yüz-yüz, yeni-yeni hadisat,
Başımızda partlayırlar, yox nicat.
Türk yurdunun sağ qanadı kəsilir,
Türk milləti gündən-günə əskilir.
Türk bəsləyən, türk qadını, türk qızı,
Bədnam oldu, ar öldürməzmiş bizi,
Türk milləti, türk vətəni, türk eli,
Türk ocağı, türk ölkəsi, türk dili,
Məhv oluyor, gələcəyi ağlatır,
Millətimin şərbətinə zəhr atır.

*"Sijimqulunamə", 1908*

## ŞAH

Dutub söz yox ki, indi nami-nikim külli-dünyanı,
Neçün kim, eylədim bir zərbilə viranə İranı,
Gəlib namusə axır, eylədim mən qeyrətin kanı,
Əcəb gülzarlıq xuni-şəhidan ilə Tehranı.
Atıb namusü nəngi, boşladım din ilə imanı,
Dağıtdım, parçalatdım zülmilə ayati-Quranı.

Görün bir, mən ölüm, çəkdimmi yaxşı, işlərə saman?
Qırıb əzaların, qıldımmı millət məclisin viran.
Yatır Məlikülmütəkəllimlər ilə qan içrə Cahangir xan.
Daha bir xeyli hürriyyətpərəstan qanına qəltan,
Dübarə, güllələtdim yüzlər ilə tifli, nisvani,
Qanımda yoxdu çün bir qətrə də xuni-müsəlmani.

Elətdim, eylədim hər bir qəbahət varsa, dünyadə,
Rəhimi, Şeyx Fəzlullahı qıldım hürrü azadə,
Hacı Mirzə Həsən, Mir Haşım, Əsgər döndü cəlladə
Genə qayim-məqam oldu yerində hər zinazadə.
Məkani-bum, gərkəs eylədim təxti-Süleymani,
Özümdən eyliyib bizar ruhi-paki-xaqani.

*Məşədi Sijimqulu*
*"Molla Nəsrəddin", 1908, № 31*

## YAZIM, YAZMIYIM?

Molla! İşim yaşdı – yazım, yazmıyım?
Huşü başım çaşdı, yazım, yazmıyım?

Əqlimi puç etdi kitabət, yazı,
Xaməni atdım, buraxıb kağızı;
Sən də sevirsən hələ çoxdan azı.
İndi buyur, baqqalı, ya bəzzazı.
Bir yekə fərraşdı yazım, yazmıyım?
Qəlbləri daşdı, yazım, yazmıyım?

Kari buraxdım, kefimə başladım,
Jurnalını, həm qəzeti daşladım;
Halvanı çaldım, həmi lavaşladım;
Bir neçə molla qarını aşladım,
Yekcə kələmbaşdı, yazım, yazmıyım?
Cümləsi qardaşdı, yazım, yazmıyım?

Getdi rəcəb, indi də şəban gəlir,
Cisminə kor mollaların can gəlir,
Məclisə ancaq ağa, bəy, xan gəlir,
Ac gözü qan-yaşdı, yazım, yazmıyım?
Qəmlərə yoldaşdı, yazım, yazmıyım?

Doğrusu, baxdıqca müsəlmanlığa
Az qalıram üz qoyum ormanlığa,
Bənzəməyir yurdumuz insanlığa,
Cümlə verib özünü yovşanlığa,
Vəhşətə ağnaşdı, yazım, yazmıyım?
Zillətə uğraşdı, yazım, yazmıyım?

Bax, necə insan qanı su tək axır;
Mənzərəsi ruh ilə canı yaxır,
Halva qapanlar ölülərtək baxır,
Var ağa, əyanlarımız bir naxır,
Leyk palanbaşdı, yazım, yazmıyım?
Sariqə sirdaşdı, yazım, yazmıyım?



Məncə, əbəsdir bu qəzet-məsxərə;
Beynimə batmaz, ha, oxu min kərə,
Kar eləməz möcüzə gavə, xərə,
Üz dəxi öyrəşdi tüpürcəklərə
Qeyrət uzaqlaşdı, yazım, yazmıyım?
Məzhəb iraxlaşdı, yazım, yazmıyım?
Canım alovlaşdı yazım, yazmıyım?

*Məşədi Sijimqulu*
*"Molla Nəsrəddin", 1908, № 33*

## ORUCLUQ

Gəldi orucluq, a balam, ağlama,
Səngi-qənaət belinə bağlama.

Çar tərəfdən gəlir ehsan iyi,
Çorpa plov, palda, badımcan iyi.
Paxlava, bal, firni, fisincan iyi,
Lap eliyir adəmi bican iyi.
İndi dəxi pendiri barmaxlama,
Səngi-qənaət belinə bağlama.

Hər gecə iftarə buyur xangilə,
Məşhədi, hacı, ağa, əyangilə,
Sən gəl, atam, baxma fəqirangilə,
Ey füqəra! Sən qapıda yangilə,
Bir tikə bozbaşdan ötür ağlama,
Umma, şişərsən, bala, sarsaqlama!

Qurşağı aç boşla, soyun caməni,
Gəl otu məclisdə sərib daməni.
Çimrə qolun, qoy yerə əmmaməni,
Yadına sal onda sən imamini
Ey füqəra, bəsdi dəxi ağlama,
Umma, şişərsən, bala, sarsaqlama!

Mahi-mübarəkdir ibadət ayı,
Türkiyə, İranda bir adət ayı
Misirdə, Qafqazda səyahət ayı,
Şəhri-Buxarada şətarət ayı,
İftara lənət oxuma, qarğama
Çox da müsəlmanlara bel bağlama,
Ahin ilə qəlbləri dağlama,
Gəldi orucluq, ay axund, ağlama![1]

*Məşədi Sijimqulu*
*"Molla Nəsrəddin", 1908, № 35*

## ALLAHƏ TƏVƏKKÜL

Hər yanə dolandım, dedim, Allahə təvəkkül,
Atəşlərə yandım, dedim, Allahə təvəkkül!

Qoydum başımı əllərimin üstünə yatdım,
Meyyittək uzandım, dedim, Allahə təvəkkül!

Çalındı döhül, köçdü bütün qafilələr, mən
Köçdən aralandım, dedim, Allahə təvəkkül!

Lap dalda qalan qafilələr də gəlib ötdü,
Tozlara bulandım, dedim, Allahə təvəkkül!

Pamali-süturanü xəran oldum özüm də,
Odlara qalandım, dedim, Allahə təvəkkül!

Sail donutək əlli yerimdən büzələndim,
Şalvarə yamandım, dedim, Allahə təvəkkül!

Atlara saman, itlərə yal, malə yem oldum,
Xanlarə talandım, dedim, Allahə təvəkkül!

[1] Sonuncu bənd jurnalda yoxdur. "Sijimqulunamə"dən götürülmüşdür.



Girdabi-cəhalətdə gözüm kəlləmə çıxdı,
Ğərqə yaxalandım, dedim, Allahə təvəkkül!

Meydani-mübarizdə qılıncım yavalandı,
Başdan yaralandım, dedim, Allahə təvəkkül!

Aslan kimi meydani-şəhadətdə yıxıldım,
Mərgimə inandım, dedim, Allahə təvəkkül!

İmdadə çağırdımsa da millət vükəlasın,
Sağdan paralandım, dedim, Allahə təvəkkül!

Çün gəlmədi molla, ağa, dövlətli hərayə,
Canımdan usandım, dedim, Allahə təvəkkül!

Filcümlə, nə gəldi başıma səbr elədim mən,
Hər rəngə bulandım, dedim, Allahə təvəkkül!

*Məşədi Sijimqulu*
*"Molla Nəsrəddin", 1908, № 36*[1]

## ACIDIR

Kim deyir zülmü sitəm ədlü vəfadən acıdır?
Hiyləvü kibrü riya sidqü səfadən acıdır?

Qanmıyan kimdi şərü xeyrini aləmdə bu gün?
Kim deyir büxlü həsəd cudü səxadən acıdır?

Cürbəcür sənətə sahibdi cəhan əhli təmam,
Kim deyir mərsiyəxanlar üdəbadən acıdır?

Bircə kəs turş deməz aləmdə yəqin ayranına,
Tap bir adəm, deməsin xəndə bükadən acıdır?

[1] 1908-ci ildə "Tərcüman" qəzeti (№ 68) həmin şeri "Molla Nəsrəddin"dən götürüb xüsusi qeydlə çap etmişdir.

Tazələr-köhnələr adilə bölünmüş islam,
Hanı bir köhnə, desin, cəhl ürəfadən acıdır?

Yügürürlər ileri cümlə qonum-qonşu təmam,
Biz də müstəqbələ deyriz ki, məzadən acıdır.

Çəkibən burnumuza kürkü, əbanı hamımız,
Deməriz kim, bu fəna hal bəqadən acıdır.

Ürəfalar danışır hey bizə məktəb, sənət,
Onların zəhməti bu dərdü bəladən acıdır.

Hey deyirlər ki, bu qəflət yuxusundan oyanın
Ki, bu şirin yuxu min zəhrü dəvadən acıdır.

Zahirən doğrusa da cümlə bu sözlər, lakin,
Doğru söz başımıza bərqi-səmadən acıdır.

Nasehin pəndini dərguş eləmək istəməriz,
Dustun tənəsi çün nari-xudadən acıdır.

Acıdır qəndi-məarif, acıdır hübbi-vətən,
Möhnəti-elmü hünər dərdi-vəbadən acıdır!..

*Məşədi Sijimqulu*
*"Molla Nəsrəddin", 1908, № 41*

## OLACAQMI?

Zənnincə sənin, millətimiz şad olacaqmı?
Viranə qalan mülkümüz abad olacaqmı?
Talanə gedən haqqımız, insanlığımıztək
Quldur adı da puç və bərbad olacaqmı?
Şərh et, mən ölüm, sən mənə bu sirri bəyan et,
Bu köhnə papaqlar yeni icad olacaqmı?
Peysərlərimiz ləbləbitək qırmızı, göy, boz
Malidə yeri olmağa münqad olacaqmı?



Daim qalacaq qeydi-əsarətdə müsəlman?
Ya bircə bu zəncirdən azad olacaqmı?
Hər gün ürəfayə tökülən lənətə qarşı,
Heç olmasa, bir dəfə də irad olacaqmı?
Barani-bəla üstümüzə hey yağacaqmı?
Ya gün doğaraq bizlərə imdad olacaqmı?
Hürriyyət, ədalət və müsavat cəmalı
Bu ölkədə də cilvələnib dad olacaqmı?

*Məşədi Sijimqulu*
*"Molla Nəsrəddin", 1908, № 43*

## ÇƏK DAŞA

Usta, sən öz ülgücünü çək daşa,
Sürt qayışa, eylə həvalə başa.
Baxma, nə lazım, quruya, nə yaşa,
Nə qulağa, nə gözə nəm, nə qaşa,
Qonşuya, nə yarə, nə də yoldaşa!

Al əlinə müştərinin başını,
Tök yüzünə gözlərinin yaşını,
Çünki bişirdin yazığın aşını,
Barı qonaq eyləgilən bozbaşa!
Sürt qayışa ülgücünü, çək daşa!

Feyzi-təraşi danışırsan hələ,
Müştəriyə çox da demə məsələ.
Qırx başını, al pulunu, sal çölə!
Baxma rəfiqə, qohuma, qardaşa,
Kortalıb, ülgüclərini çək daşa!

Söyləmə dəllakə dəbistan nədir?
Elm, sənaye, ədəbistan nədir?
Ağrın alım, tülkü nə, meydan nədir?
Yığ sürünü bir yerə çat baş-başa,
Çarxa ver ülgüclərini, çək daşa!

İşləməsə sənətin, olsa kəsad,
Eylə təbabət, qazanıb tazə ad;
Vermə fəqirə, pulun olsun ziyad.
Qoyma gedə məktəbə oğlun Paşa,
Ta ki, məbada aza yoldan, çaşa!

*Kefsiz*
*"Molla Nəsrəddin", 1908, № 44*

## QIZLARIMIZ

*Bir qızın "Molla Nəsrəddin"ə bəyani-halı*

Verdi məni, ay Molla, atam bir dəli dəngə,
Bir boynu yoğun, əqli gödək, zorlu nəhəngə!

On bir yaşına yetməmiş idim hələ, Molla!
Hər yanda qurulmuşdu mənə min tələ, Molla!
Axırda məni saldılar əldən-ələ, Molla!
Getdim ərə bir sahibi-qəddarə, fişəngə,
Satdı məni ağsaqqal atam bir dəli dəngə!

Mən bilməz idim fərqini pir ilə cəvanın,
Əsla tanımazdım necədir rəngi hənanın,
Xilqətdə yazıbmış qələmi dəsti-qəzanın
Kim, eyliyə pabənd məni piri-cəfəngə!
Ah eyləmədən ta ki, bu canım gələ təngə!

Gəldim evinə arvad olum mən bu həpəndin,
Oldum qarabaş arvadına köhnə pəsəndin,
Düşdüm içinə mərəkeyi-hiyləvü fəndin,
Hər şamü səhər əzdi məni saldı həvəngə!
Verdi məni, ay Molla, atam bir dəli dəngə!

Bir dürri-girənmayə idim, qiymətim itdi,
Tazə gül idim, buyi-ünasiyyətim itdi,
Bielm, hüququm, şərəfim, ismətim itdi,



Əfsus, şikar indi də oldum bu pələngə!
Satdı məni, ay Molla, atam bir dəli dəngə!

Azad, əsir olmağımı bilməyirəm mən,
Zülmətdə, əsarətdə qalıb ölməyirəm mən,
Qan yaşlarını gözlərimin silməyirəm mən,
Təsir eliyir hali-ğəmim rusü firəngə!
Heyhat... əsərbəxş ola bu sinəsi səngə!

Zülmət çəkilib, sübhi-səadət olacaq ya?
Xurşidi-müsavatü ədalət doğacaq ya?
Təbli-əməli dəsti-bəşarət çalacaq ya?
Ya kim, qalacaqdır hələ bu qafilə ləngə?
Bu cismdə canım gələcəkdir belə təngə!?

*"Sijimqulunamə"*

## AĞAYA CAVAB

Atılıb-düşməyin əfsanədir, əfsanə, sən öl!
Daha təsir eləməz sözlərin insanə, sən öl!

Köhnə əfkarını əfkarımıza qatmagilən,
Çürümüş məsləkini xalqa baha satmagilən.
İşə keçməz bu mətaın, bizi aldatmagilən,
Pul verilməz daha bu hərzəyə, hədyanə, sən öl!

Ələ salma daha bir bunca əvamı, mən ölüm,
Nəql edib Rüstəmü Keykavusü Samı, mən ölüm.
Vermə xərcə belə bihudə kəlamı, mən ölüm,
Deyirəm mən sənə, bəsdir daha, mərdanə, sən öl!

Hacısan, məşhədisən, sahibimizsən, ağasan,
İstəyirsən həmi qırxıb bizi, həm də sağasan.
Mən ölüm, nizəni çək, yoxsa uşaqsan, çağasan,
Gəlmişik lap əlinizdən, a canım, canə, sən öl!

Verirəm and səni siğeyi-üxviyyətə mən,
Söymə məşrutəyə, məcmuəyə, hürriyyətə sən.
Söyləsən ziddi-şəriətdi, gəlib lənətə sən,
Qoyaram adını məcmuədə meydanə, sən öl!

Qonma quzğun kimi ol minbəri-pak üstündə,
Düş yerə, laşəni dimdiklə də xak üstündə,
Xaneyi-həqqə nə qovğa, bu xörak üstündə,
Satmısan din ilə imanı cibişdanə, sən öl!

Gəl eşit ərzimi, təkfirimi ağaz eləmə!
Adəm ol, qan sözümü, əsləhəni saz eləmə;
Atina quşlarıtək üstümə pərvaz eləmə,
Həqq faiq gələcək zümreyi-şeytanə, sən öl!

*Gəncə cavanları*
*"Molla Nəsrəddin", 1908, № 46*

## ARVADLARIMIZ

Bax, səni tarı, necə arvatdılar?
Yekcəsi huri kimi bir zatdılar!
Kim deməz övrət bizim övrətlərə,
Gözləri gər düşsə bu surətlərə,
*Baxmagilən çox da qoca, qartdılar?*
Ay kişi, gəl gör necə arvatdılar?

Sübh yerindən duracaq mal kimi,
Ağzı, gözü bumbulaşıq yal kimi,
Çadrəsin başə salıb lal kimi,
Evdən uzaqlaşdı, itib batdılar,
Ay kişi, gəl gör necə arvatdılar?

Evdə uşaq bir-birini dağlayır,
Kabla Vəli bağrına daş bağlayır,
"Güllü" xala yasda gedib ağlayır,



Gəh də görürsən ki, gəlib yatdılar,
Ay kişi, gəl gör necə arvatdılar?
Cümləsi huri kibi bir zatdılar!

Yasa gedib-gəlmələri quş kimi,
Sözləri, söhbətləri bayquş kimi,
Onda görürsən ki, qudurmuş kimi!
Körpələri bir-birinə qatdılar,
Ay kişi, gəl gör necə arvatdılar?

Məhrəmi görməz yüzünü bir kərə,
Falçı, duaçı görəcək yeksərə,
Dilləri pis, əlləri xain ərə;
Ev-eşiyi, qab-qacağı satdılar,
Ay kişi, gəl gör necə arvatdılar?

Bunları oxşatmaram insanə mən,
Bənzədirəm bir yekə heyvanə mən,
Cəldim əlindən buların canə mən,
Veyl uşağı, bağrımı çatdatdılar,
Ay kişi, gəl gör necə arvatdılar?
Yekcəsi huri kimi bir zatdılar!

*Məşədi Sijimqulu*
*"Molla Nəsrəddin", 1908, № 48*

## BAKI

Adə, bu şəhrdə gəl gör nələr, nələr varimiş!
Nə şeytənət, nə dəsais, nə hiylələr varimiş!

Qulağım ilə sizintək eşitmiş idim mən;
Gözümlə görməmiş idim, əcəb xəbər varimiş!

Şəhərdə gəzməyə bindən ziyadə faytonlar,
Nə qədr axtafabil, çoxlu konkələr varimiş!

Cəmaətin arasında nə təfriqə, nə nifaq,
Nə əyrilik, nə oğruluq, nə kisəbər varimiş!

Tazapirskidə bir yaxşı məscidi-ali...
Yanında mədrəsədən ötrü hücrələr varimiş!

O hücrələrdə oxurmuş neçə düjün tələbə,
Mağıl müsəlman işi, əsil xeyir-şər varimiş!

"Nicat"ə, "Nəşri-məarif"lərə nə hacət var,
Üsuli-köhnə məkatib və zir-zəbər varimiş!

Neçünki, Bakudə xalis müsəlman artıqdır:
Olarda əql, fərasət, bilik, hünər varimiş.

Əgərçi bir parası onların da tovlandı,
Üsuli-tazəyə; heç bilmədi zərər varimiş!

Vəli ki, gəncəlilərtək hanı evi yıxılan,
Nə Molla Sadiqi, ondan nə bir əsər varimiş!

Yeni üsulə uyuşdu ümumi-Gəncə hələ;
Nə yaxşı bir Hacı Bağır, o mötəbər varimiş!

Xülasə, Bakuni gəzdim, ürəkdə xofü həras,
Cəhanda, mən nə bilim, şəhri-pürxətər varimiş!

Əgərçi yazmağa söz çox, vəli qəribəm mən,
Yatıbdı Dəmdəməki, Qırxayaq, məgər varimiş!

*"Molla Nəsrəddin", 1908, № 50*



## GİMNAZİYADA

*Molla və şagirdlər*

Molla
Keçən ustadınız elə idi, ya mən, balalar?

Şagirdlər
Bilmirik biz hələ əmmamənin altında nə var.

Molla
O sizin fikr və əxlaqınızı pozdumu, ya?

Şagirdlər
Xayır, o pozmadı, şimdi pozacaqdır bu əba.

Molla
Nə əcəb vurmadı imanınıza bəs o, xələl?

Şagirdlər
O, müsəlman idi, səndən olur, olsa bu əməl.

Molla
Gədə, bijlər, bu nə sözdür ki, deyirsiz mənə siz?

Şagirdlər
Ay axund, ağrın alaq, doğrunu biz gizləməriz.

Molla
Yaxşı, bundan sora mən gündə sizə çat qoyaram...

Şagirdlər
Becəhənnəm, nə qoyarsan, ona razı olaram.

Molla
Yazaram indi danos mən o direktor ağaya.

Şagirdlər
O sözü söylə gedəndə evinizdə çağaya.

Molla
Misyonerlər sizi yoldan çıxarıbdır, a bala.

Şagirdlər
Olur, əlbəttə, olanda bizə sən tək molla...

*Kefsiz*
*"Molla Nəsrəddin", 1908, № 51*

## EVLƏNMƏRƏM[1]

Tavlama hər gün xala, mən hələ evlənmərəm!
Salmayıb öz başımı əngələ, evlənmərəm!

Gündə edib vəsvəsə, əqlimi çaşdırma sən!
Torbalayıb başımı, dərdimi daşdırma sən!
Eyləmə tərifini, həddən aşdırma sən!
Anla ki, aldanmaram hər dilə, evlənmərəm!
Salmayıb öz başımı əngələ, evlənmərəm!

Yox, yox, amandır, xala, mən su olub axmaram!
Huriyi-dünya ola, elmsizə baxmaram!
Cahiləyə etmərəm meyl, "nişan" taxmaram!
Ömrümü puç eyləyər cahilə, evlənmərəm!
Yol başımın tüklərin, çəngələ, evlənmərəm!

[1] Əli Razi (Dabanı çatdax xala) məşhur "Məsləhət" şerinə
Sijimqulu, eyləmisən məsləhət,
Utanma heç, gəl səni evləndirim.
Eyləmişəm istixarə, yaxşıdır,
Beş-on günə gəl səni evləndirim
– bəndi ilə başlayan cavab yazmış ki, Əli Nəzminin bu şeri də ona cavabdır.



Tərbiyəsiz, elmsiz yar qəşəng olsa da,
Sinəsi mərmər, beli incə və təng olsa da,
Zülfi-mütərrələri dopdolu rəng olsa da,
Hər nə ola vermiyib əl-ələ, evlənmərəm!
Salmayıb öz başımı əngələ, evlənmərəm!

Duz yerinə sən "ağu" qatmagilən aşıma,
Zalxa gözəldir deyib, kül ələmə başıma,
Mən baxıram hər yana; yarıma, yoldaşıma,
Bircəsini görmürəm ki, gülə, evlənmərəm!
Mən də salıb başımı əngələ, evlənmərəm!

Qaş-gözünü oynadıb, alnına endirmə bənd,
Ağzını burma mənə, etməgilən rişxənd,
Küs və nə də inci sən, eyləmirəm mən pəsənd,
Bunca əbəsdir nağıl, məsələ, evlənmərəm!
Salmayıb öz başımı əngələ, evlənmərəm!

İmdi olarmı mənə söylə görüm bir xələf
Kim, edə dünyada öz ömrünü zaye, tələf,
Keçdi sənin dəmlərin, əsrü zəmani-sələf,
Vermə əziyyət mənə, nafilə, evlənmərəm!
Danla, dalaş, tulla "tor", qur "tələ", evlənmərəm!

Olmasa yarım əgər kamilə, evlənmərəm!
*Ömrümü puç eyliyər cahilə, evlənmərəm!*

*"Sijimqulunamə"*

## ƏLVİDA

Qoymuyur andır məni dərdi-sədə,
Köhnə ilə bircə deyim əlvida!

Ey məni bədxab eləyən köhnə il,
Düşməni ərbab eləyən köhnə il,

Dəhri gəhi bab eləyən köhnə il,
Ax, məni bitab eləyən köhnə il,
Bircə qoyur kim, məni dərdi-səda,
Ta ki, səninlən eləyim əlvida!

Çünki gedirsən, besəlamət, yeri,
Eyləmədin bircə kəramət, yeri,
Oylə durur kisə, həcamət, yeri,
Eylədin İranı məlamət, yeri.
Şeytənəti eyləmədin sən difa,
Oldu olan, keçdi keçən, əlvida!

Getdi əbəs, bitmədi amalımız,
Boyləmidir həm gələcək salımız?
Yoxdur ümidim, qara iqbalımız
Parlıya, pərtövlənə bu halımız,
Çünki cəhanı bürüyüb irtica,
Söylədim hürriyyətə mən "əlvida"!

On iki aydır elədin bidirəng,
Hər günü aldın yeni bir ruy-rəng,
Eylədin ürfanə bu dünyanı təng
Zülm oxu, təkfir ağacı, çubü səng,
Keçmədi tək bircə günün biniza,
Mən necə eylim sən ilə əlvida?

*Kefsiz*
*"Molla Nəsrəddin", 1908, № 52*



## HƏSƏD

***Peterburq şəhərində bir cəmiyyət təşkil olunub, pişikləri himayə edəcəyini elan etmişdir***

**Ey ölkəmizin sevməli heyvanı, pişiklər!**
**Vey xanəmizin yaxşı nigəhbanı, pişiklər!**
**Derlər ki, Peterburqda bir cəmiyət açılmış,**
**Heyvanları hifz etmək üçün bayraq asılmış,**
**Rəhm, ədl işığı hər pişiyin üstə saçılmış,**
**Hürr avlayacaq kuçədə siçqanı, pişiklər!**
**Ey ölkəmizin sevməli heyvanı, pişiklər!**

**Ey ölkənin azadələri, bəxtəvərani,**
**Könlüm doludur atəşi-rəşk ilə nəhani.**
**Məmnudur etmək sizə hər dürlü cəfanı,**
**İncitməyə yox kimsənin imkanı, pişiklər!**
**Ey ölkəmizin sevməli heyvanı, pişiklər!**

**Kim döysə sizi, vursa sizi, qılsa əziyyət,**
**Tənbeh və cərimə edəcək, bilsə, hökumət.**
**Bəh, bəh, bu nə tale, bu necə bəxt, nə nemət!**
**Vallah bu həsəd yandırır insanı, pişiklər!**
**Ey ölkəmizin sevməli heyvanı, pişiklər!**

**Lap doğrusu, baxdıqca sizə, heyrətim artar,**
**Xoşbəxt sizi gördükcə qəmim, həsrətim artar.**
**Hətta nə sizə, itlərə də rəğbətim artar,**
**Var çünki sizə bircə yanan canı, pişiklər!**
**Ey ölkəmizin sevməli heyvanı, pişiklər!**

**Hakimlərimiz bizləri saymazlar sərasər,**
**Bais nəsə insanə, nə heyvanə bərabər.**
**Əvvəldən olubdurmu, nədir boylə müqəddər?!**
**Kim, müft axa hər yanda onun qanı, pişiklər!**
**Qafqazda bunun olmadı dərmanı, pişiklər!**

Hər yanda görürlərsə müsəlmanı, döyürlər,
Həm oylə döyürlər, necə heyvanı döyürlər,
Dinmir də hökumət ki, görür anı döyürlər,
Yox bircə himayə edən insanı, pişiklər!
Kaş olmaya idi belə dünyanı, pişiklər!
Ey rəhmlilər xanəsi mehmanı, pişiklər!

*"Sijimqulunamə", 1909*[1]

## MƏNƏM

Ey firqeyi-noməsləkan, bir alimi-nadan mənəm!
İslamı cəhlə uğradan bir natiqi-kodan mənəm!

Mən xəlqi dəvət eylərəm, müştaqi-qəflət eylərəm,
Qərqi-cəhalət eylərəm, bu rəzmdə aslan mənəm!

Zahirdə mən xud aliməm, həm rəhnümayi-aləməm,
Batində lakin zalıməm, hər iş tutan pünhan mənəm.

Qoymam sizi kam almağa, elm öyrənib, nam almağa,
Xəlqi sizə ram olmağa yol verməyən heyvan mənəm!

Kin və qərəzdir tiynətim, büxlü həsəddir fitrətim,
Var tazələrdən nifrətim, xilqətdə çün şeytan mənəm!

Qoymam əvamı aldana, dünyada ta var-yox qana,
Əhli-məarifdən yana min söz deyən böhtan mənəm!

Mən qanmaram xaric miləl, dinə vurur hər dəm xələl,
Gəlməz əlimdən hər əməl, ancaq baxan bican mənəm!

*"Molla Nəsrəddin", 1909, № 2*

[1] "Sijimqulunamə"də səhv olaraq 1919-cu ildə yazıldığı göstərilmişdir. Halbuki 1909-cu ildə "Molla Nəsrəddin" jurnalının 34-cü nömrəsində, "Poçt qutusu" bölməsində belə mənalı və eyhamlı bir qeyd var: "Şairimizə": "Pişiklər" mənzuməsinin mənasını başa düşmədik".



## FÜQƏRA

Bir neyistanda qalmışam tənha,
Dadü fəryadimə çatan yoxdur.
Vəhşilər içrə etmişəm məva,
Ah, bir halimə yanan yoxdur.

Pək yaman xofnakdır vətənim,
Xəsü xaşakdır gülüm, çəmənim.
Qəlbim uçqundu, titrəyir bədənim,
Oluram böylə bir məkanda fəna,
Vay, bir dərdimə qalan yoxdur.

Məskənimdir tikanlı bir səhra,
Sakinatı tamam bisərü pa.
Cümlə bədkar, cümlə bədsima,
Rəbbəna, rəbbəna, xudavənda!
Can xilas etməyə güman yoxdur.

Vətənimdən uzaqdır insanlıq,
Buradır guya əsl heyvanlıq.
Dərə xəlvət, şəğəl edir xanlıq,
Edilir bəs ki, ruhimə iza,
Kəsilib taqətim, təvan yoxdur.

Yox nişan zərrə adəmiyyətdən,
Mərifətdən, nə qabiliyyətdən.
İki min kəlmə də həqiqətdən,
Eşidilməz olur cəfa hətta
Bircə insan dili qanan yoxdur.

Barkeşlikdə cümləsi xərdir,
Zülmə tab eyləməkdə əstərdir.
Qətlü sirqətdə leyk əjdərdir,
Hiyləgərlikdə alimü dana,
Ədəbü elmdən nişan yoxdur.

Hamısı köhnəxah, köhnəpərəst,
Badeyi-qəflət ilə yeksər məst.
Oluram hər günü giriban-dəst,
Cahil ilə mürid, ya molla...
Bikəsəm, yarü kardan yoxdur.

*Kefsiz*
*"Molla Nəsrəddin", 1909, № 5*

## EY FÜQƏRA

Ey füqəra, boş yerə ağlaşmayın;
Hər kəsi görcək ona sallaşmayın;
Şeyxə, bəyə, pulluya sarmaşmayın;
Qışdı deyib, bunca qırıldaşmayın!
Qarğa kimi çox da qağıldaşmayın;
Ay cücələr, bəsdi, cırıldaşmayın!

Kiş! Kiş! Ay andır, yeri, get gir hinə!
Baxma, şişərsən, hacının əngin̈ə!
Pul hanı versin sizə hər gün dənə.
Borclu deyildir ki, a heyvan, yenə!
Bunca qabağında cıvıldaşmayın!
Ey cücələr, bəsdi, cırıldaşmayın!

Söyləmə, acdır uşağım, arvadım,
Ağlır acından Nəcəfim, Hurzadım,
Qış qatıdır, örtməyə yox bir zadım,
Çarə nədir, mətləbini annadım.
Səbr eləyin, şükr eləyin, çaşmayın,
Ney kimi hər yerdə sızıldaşmayın!

Şamü səhər xan qapısın kəsməyin
Gəh həyəti, gəh bacanı pusmayın;
Taleyinizdən hələ bir küsməyin,
Müftə, söyüd yaprağıtək əsməyin,
Titrəməyin, bəsdi, zığıldaşmayın!
Qışdı, deyib, bunca qırıldaşmayın!



Olmayınız pullulara çox ümid,
Kibr, qururi olarındır məzid.
Çox da nə lazım belə göftü şənid,
Hali-şüma taqətü səbrəm borid.
Kefsizi ağlatdınız, ağlaşmayın,
Ney kimi hər yerdə sızıldaşmayın!
Titrəməyin, bəsdi, zığıldaşmayın!

*Kefsiz*
*"Molla Nəsrəddin", 1909, № 6*

## LALSƏN

Sən hələ dillənməmisən, lalsən,
Tiflsən... a; sən hələ nosalsən.

Bilmə hələ sən özünü kardan,
Olma özündən, a çocuq, bədgüman,
Ortalığa çıxma, əzizim, dayan,
Çünki, balam, sən hələ nosalsən,
Dəyməmisən, yetməmisən, kalsən.

Soxma qabağə özünü anqalı,
Gözlə gələn növbəni daldan, dalı,
Ay beli palanlı, başı noxtalı,
Sən keçisən, sən quzusan, malsən,
Sən hələ dillənməmisən, lalsən.

Erməniyə kəndini tay eyləmə,
Gürcüyə, nə rusə gilay eyləmə.
Üstümə qışqırma, həray eyləmə,
Dəstəni qaytar, yeri daldal sən,
Qıl hələ təhsil, elə ikmal sən.

*Məşədi Sijimqulu*
*"Molla Nəsrəddin", 1909, № 13*

## DABANI ÇATDAX XALAYA

*Cavab*[1]

Ağrın alım, Dabanı çatdax xala,
Sən niyə düşdün belə qiylü qala?
İstəyir axmaq ərin övrət ala?
Eyləmə təşviş, ona baxdır fala,
Caduya saldır, adı dillənməsin,
Ta ki, sənin üstünə evlənməsin.

Çox qocalıbsan, baxıram halına,
Dən də düşüb birçəyinə, yalına,
Qırx kişini qatlamısan dalına,
Çünki çıxıb şövhəri-bəd falına,
İndi zəban-bənd elə, dillənməsin
Ta ki, sənin üstünə evlənməsin.

Beş şahı ver, bir dua yazdır nala
Sonra alıxla kişini, noxtala,
Tut yaxasından itələ, çalxala,
Gəh də qabağında gəzib, yorğala,
Ta ki, sənin üstünə evlənməsin,
Olmasın azürdə, nə dillənməsin.

Dannama bihudə o biçarəni,
Tazələmə sinədəki yarəni
*Qonşuda görsün Sənəmi, Sarəni,*
Saxlasın ifritəni, məkkarəni?
Eyləsin imsak, meyillənməsin?
Axırı-ömründə bə hellənməsin?

Yalın ağarmış, yox ağızda dişin,
Sir-sifətin pis, daha pisdir işin,

[1] Əli Razinin (Dabanı çatdax xala)
Molla Dadaş, yaz bunu jurnalına,
Qurban olum bığına, saqqalına,
Məsləkinə, fikrinə, amalına
İstəyir evlənsin o axmaq kişi
– misraları ilə başlanan satirasına cavabdır.



Ev-eşiyin, qab-qacağın, pişmişin,
Get-gəl, otur-dur, hərəkət, gərdişin,
Yekcəsi bikarədi, pəs neyləsin?!
Bir-iki övrət alıb evlənməsin?

Ay qoca Fartdax! Sənə mən yüz kərə;
Söyləmədimmi eləmə məsxərə?
Bəsdir, ay arvad, həyasız heyvərə,
Eyləmə bir bunca şəqavət ərə,
Ər, bə qonum-qonşuda əylənməsin?
Siğeyü mütə edib evlənməsin?

At ilə övrətdə tapılmaz vəfa,
Yaxşı məsəldir deyib ata-baba,
Yekcə əli əyri, uzun dil, yava,
Bit-birəli, sünsəli, həm bihəya,
Bəs bu başıdaşlı kişi dinməsin?
Eyləməsin siğə, həm evlənməsin?

Ay yatağan, əqli gödək, cahilə,
Biqanacaq, tənbələ və kahilə,
Lağ eləyirsən bu qədər ahilə,
Felinə də fəxr eləyirsən hələ?
Çək dilini bir belə zillənməsin,
Ağzını pak eylə, zibillənməsin.

*Məşədi Sijimqulu*
*"Molla Nəsrəddin", 1909, № 14*

## ƏCƏB

Əcəb halın var, ay Molla, əcəbcə ruzigarın var!
Əcəb əsrü zəmanın həm, əcəb şüğlü şüarın var!

Əcəb məslək, əcəb fikrin, əcəb virdin, əcəb zikrin,
Əcəb surət, əcəb şəklin, əcəb dövrün, mədarın var!

Əcəb sima və saqqalın, əcəb rəngi-rüxü alın,
Əcəb xirqə, əcəb şalın və təmkinü vüqarın var!

Əcəb vəzin, əcəb pəndin, əcəb nöğlün, əcəb qəndin,
Əcəb hiylən, əcəb fəndin, əcəbcə girü darın var!

Əcəb alimnümayanın, əcəb cahil müridanın,
Əcəb vəhşi və heyvanın, otuz milyon himarın var!

Biyabani əcəb qulun, cünunun, qeyri-məqulun,
Əcəb məğmum, məsulun, nihanın, aşikarın var!

Gözündə seyli-qəm yaşın, vətən amalı yoldaşın,
Qarışmış zəhr ilə aşın, əcəb leylü neharın var!

Əcəb niyyət, əcəb amal, əcəb təmini-istiqbal,
Əcəb təğyiri-vəzü hal, əcəbdir, ixtiyarın var!

Əcəb, ay Molla Nəsrəddin, bu xəlqi eylədin bidin,
Təəccübdür ki, yox həqbin, görə bir hansı karın var!

Danışma gavü mahidən, uzaqsan sən ilahidən,
Danış meydən, sürahidən, o yolda iştiharın var!

Demə, bu Yer müdəvvərdir, Günəş Yerdən də əkbərdir,
Bu əncümdür, bu kövkəbdir, nə nurun var, nə narın var!

Edirsənmi hələ diqqət, nə cövhərlər doğur millət?
Edir təkfir, oxur lənət, nə qədri kurü karın var!

A nainsaf, lənətxan, belə getməz belə dövran,
Yalan söylə, danış böhtan, nə qədri iqtidarın var!

Uzaq getməz, verərsən can, olarsan vasili-niran,
Səni orda tapar Xortdan, Səğərdə murü marın var!

Zəmanə dəyşilər bir gün, gözün millət silər bir gün,
Vurar başın əzər bir gün, nə izzü etibarın var!



A molla, bəd gəlib falın, dəyişdir fikrü amalın,
Nə tək sən, cümlə əmsalın və illa, intiharın var!

Sataşdın xas ilə amə, toxundun qeyrətə, namə,
Hazırlan qətlə, edamə, əcəb gurin, məzarın var!

Yığ övraqın, qələmdanın, həlakətdən qutar canın,
Demə, var ibn-Nemanın, demə çox cannisarın var!

*Məşədi Sijimqulu*
*"Molla Nəsrəddin", 1909, № 14*

## ƏTTÖVBƏ

İmdadə sən yet, ey adil Allah,
Pis gündəyiz çox, rəhm eylə eyvah.
Bu xəlqi etdi kim böylə gümrah?
Gör bir nə söylər bu qövmi-bədxah:
Övrət – müsavat, əqvalə bah, bah,
Əttövbə, tövbə, əstəğfürullah!

Hürriyyət olsun, getsin əsarət,
Həm tərk edilsin, hali-bədavət,
Övrətlər etsin kəsbi-şərafət.
Qızlar məkatib, elmü sənaət,
Yarəb, nə bidət, bu nə cəhalət,
Əttövbə, tövbə, əstəğfürullah.

Hansı günahı etdik cahanda,
Qıldıq təsadüf böylə zamanda
Qaldıq necə gör biz əl-amanda,
Küllən rəiyyət, həm bəy də, xan da,
İstər ədalət pirü cavan da,
Əttövbə, tövbə, əstəğfürullah.

Dərdim daşıbdır, dinmə, filani,
Qanmır bu firqə yaxşı-yamani,
Derlər ki, getsin cümlə zənani,

Təhsili-elmə faşü nihani,
Billah atıbdır bunlar həyani,
Əttövbə, tövbə, estəğfürullah!

Getsinlər dərsə Fatma və Zöhrə,
Bundan mana de, olsun nə bəhrə?
Qalsın bucaqda bu paslı cəhrə,
Bunlar uyuşsun coğraf, cəfrə,
Qeyrət olarmı razı bu əmrə?
Əttövbə, tövbə, əstəğfürullah!

Ax, ey müşəvviq, lal olsan ey kaş,
Qıldın neçün sən hər mətləbi faş?
Gər olsa qızlar elm ilə sirdaş,
Onda kim oynar qəcmə və beşdaş?
Böylə gedirsə, işlər olur yaş,
Əttövbə, tövbə, əstəğfürullah!

Yox, yox, olammaz belə zərafət,
Bərdar edənməz bu nəngi millət,
Qızlar sərasər bilsin kitabət?
Etməz cəmaət böylə qəbahət
Kim, xaricilər etsin şəmatət,
Əttövbə, tövbə, əstəğfürullah!
Heyranü matəm, vallah və billah!

*Kefsiz*
*"Molla Nəsrəddin", 1909, № 15*

## KÖHNƏLƏR

Oldu siyahpuş bütün köhnələr!
Dərdü qəmə tuş bütün köhnələr!

Qıldı fələk bəxtlərin vajgun,
Dolma, badımcan qabını sərnigun.



Oldu ədəm ölkəsinə rəhnimun,
İşləri məğşuş bütün köhnələr!
Dərdü qəmə tuş bütün köhnələr!

Hər gün itib-batmadadır xanları,
Mollaları, şeyx və işanları,
Bəyləri, sahibləri, sultanları,
Məşəli xamuş bütün köhnələr!
Oldu siyəhpuş bütün köhnələr!

Kamlarınca yerimir işləri,
Batmayır andır bu ətə dişləri,
Oxları, nə nizələri, şişləri,
Oldular mədhuş bütün köhnələr!
Hər işə sərpuş bütün köhnələr!

Bilmədilər elm nə, ürfan nədir,
Hübbi-bəşər, rəhməti-vicdan nədir,
Həqq, hüquqi-zənü nisvan nədir,
Cəhlə həmağuş bütün köhnələr!
Zalimə papuş bütün köhnələr!

Təzələr aldanmadı övradinə,
Sərvətü şövkətlərinə, adinə,
Düşməyir əsla birinin yadinə,
Oldu fəramuş bütün köhnələr!
İşləri məğşuş bütün köhnələr!

Gəh fədai, gəhi lap müstəbid,
Gəh axır qanı, gəhi müncəmid,
Gəhi də bihuş bütün köhnələr!
Bisərü biguş bütün köhnələr!
Süst və mədhuş bütün köhnələr!

*Kefsiz*
*"Molla Nəsrəddin", 1909, № 17*

## ALDANMAYIN

Ay yazıq iranlılar, aldanmayın!
Hər sözə, hər vədəyə tovlanmayın!

Tez elə tovlanmayınız hər sözə,
Bir tələdir bəlkə qurullar sizə
Çıxmasa asari-sədaqət üzə,
Hər sözə, hər vədəyə tovlanmayın!
Atəşi-zülmə yaxılıb-yanmayın!

Dam üzərində görərək danəni,
Verməyin əldən dili-divanəni,
Yadə salıb məclisi-viranəni
Aqibətəndiş olun, aldanmayın!
Ay yazıq iranlılar, odlanmayın!

Görmədinizmi hələ Tehranı da,
Məclisi-millidə axan qanı da,
Parçalanan ayeyi-Quranı da,
Bir daha icmaə qığıldanmayın!
Ay yazıq iranlılar, aldanmayın!

Ey vətən övladı, nədir bu şitab?
Bu nə kəşakəşdi, bu nə inqilab?
Ax, nə parilman, nə hesabü kitab?
Ədl, ədalət deyə odlanmayın!
Ay yazıq iranlılar, aldanmayın!

Ey vükəla! Sizdə nədir bu həvəs,
Ölməyə amadəsiniz hər nəfəs.
Qorxuram axır sizə olsun qəfəs:
Gülşəni-Tehranə qanatlanmayın!
Dərdü qəmi-millətə qatlanmayın!
Ay yazıq iranlılar, atlanmayın!

*Kefsiz*
*"Molla Nəsrəddin", 1909, № 19*



## ƏBƏSDİR AHIN...

Əbəsdir ahın, ay Molla, əbəs şurü fəğan etmə!
Əbəsdir əşki-çün lalə, əbəs gözdən rəvan etmə!

Əbəsdir atəşin, narın, əbəsdir girye və zarın,
Əbəsdir bəhsi-əxtarın, əbəsdir dərmiyan etmə!

Əbəsdir fikri-istiqbal, əbəsdir arizuyi-bal,
Olur rənc ilə istehsal, onu müftə güman etmə!

Əbəs dərdü qəmü möhnət, əbəs sevda, əbəs zəhmət,
Əbəsdir banın – "va millət", əbəsdir, qəlbi qan etmə!

Əbəs ərzü səmavatı gəzib qılma xəyalatı,
Budur təbi, budur zatı deyib, şərhü bəyan etmə!

Atılma, düşmə meydanə, çalışma mərdü mərdanə,
Nə məcmuə, nə çapxanə, əlində ərmağan etmə!

Səvalı eyləmə, təcdid, əbəsdir məsxərə, tənqid,
Əbəs əsrar, əbəs təkid, əbəs virdi-zəban etmə!

Demə təlimi-nisvanı, hicabı saxla pünhanı,
Darıxdırma müsəlmanı, yazıqsan, tərki-can etmə!

Səma məxluqunu təsvir edib, sərd eyləmə təqrir,
O batil fikrini bir-bir cəhan içrə əyan etmə!

Səri-ərşə ürüc etdin? Siyahati-büruc etdin?
Nüzul etdin, xüruc etdin, di nəql eylə, nihan etmə!

Danışma təbi-hikmətdən, təqazeyi-təbiətdən,
Demə söz elmi-heyətdən, əbəs tuli-lisan etmə!

Sən əhli-intiqad oldun, əcəb ümmül-fəsad oldun,
Əbəs kəmetiqad oldun, od içrə aşiyan etmə!

Fəsad etsə əgər alim, fəsad eylər hamı zalim,
Vurub qırma pərü balin, cəvan bəxtin xəzan etmə!

Danışma hərzə şairtək, qonuşma əsli kafirtək,
Ağa Mir Hacı Bağırtək rəvayəti-yalan etmə!

Dolaşma Şeyxülislamə, qəzavətxaneyi-amə,
Hə əzayə, nə əcsamə, nə nəqli-digəran etmə!

*Kefsiz*
*"Molla Nəsrəddin", 1909, № 25*

## OLMUŞAM

Bax mənə bir gör nə cəvan olmuşam,
Lap yekəlib bir pəlvan olmuşam.

Şir gələ, rubah olur cəngimə,
Kimsə müqabil duramaz səngimə.
Baxsa əgər "Rüstəm" olar, rəngimə,
Tab eləməz, pili-zəman olmuşam,
Lap yekəlib bir pəlvan olmuşam.

Bığlarımı bursam edib həlhələ,
Qurbağalar içrə düşər vəlvələ,
Göy yeriyər, Yer eliyər zəlzələ,
Xəlq durar, görsə rəvan olmuşam,
Lap yekəlib bir pəlvan olmuşam.

Bir neçə il bundan əzəl kur idim,
Məclisi-ovbaşdə məxmur idim.
Hər kəsə pamal olaraq mur idim,
İndi qoçaqlıqda yaman olmuşam,
Lap yekəlib bir pəlvan olmuşam.

Qalmış idim küncdə veylanə mən,
Kuçadə, kol-kosda rəzilanə mən



İndi çıxıb ərseyi-meydanə mən
Zurdə məşhuri-cəhan olmuşam,
Lap yekəlib bir pəlvan olmuşam.

İndi basıb heybətim insanları,
Divi, şəyatini, musurmanları,
Bəs ki, töküb yer üzünə qanları,
Zülmdə Zöhhaki-zəman olmuşam,
Lap yekəlib bir pəlvan olmuşam.

Qarət edib, yol kəsib, ev çapmışam,
Hər nə musurman işi var, yapmışam,
Alma xəbər kim, haradan tapmışam,
Hər nə deyirdiksə, həman olmuşam,
Lap yekəlib bir pəlvan olmuşam.

Var öküzüm millətí-nadan kimi,
Barbərim xeyli, müsəlman kimi,
Bir neçə həmməsləkim əslan kimi,
Kəlleyi-əğnamə çoban olmuşam,
Lap yekəlib bir pəlvan olmuşam.

İndi kefim kök, damağım çağdır,
Geydiyim ətlas, yediyim yağdır,
Qışda – aran, yayda yerim dağdır,
Molla nədir, bəy nədir, xan olmuşam,
Lap yekəlib bir pəlvan olmuşam!

Ayda bir övrət alıram, tazə tər,
Köhnəsini rədd edirəm hər səfər.
Ar ilə namusu atıb, müxtəsər,
Pərdeyi-qeyrətdə nihan olmuşam,
Şəhri-cəhalətdə əyan olmuşam,
Barkəşi-tirü kəman olmuşam,
Gör necə məğrurü piyan olmuşam,
Lap yekəlib bir pəlvan olmuşam.

*Kefsiz*
*"Molla Nəsrəddin", 1909, № 26*

## RƏCƏZ

Mənəm mərdi-məşhur, binəngü ar
– bu gizli deyil ki, edəm aşikar,
Rəayamə hökmüm rəvandır mənim,
– çe sail, diləncі, keçəl, kur, kar.
Ümuri-siyasətdə pək mahirəm,
– fərasətdə mən etmişəm iştihar.
Kamalımda yox zərrə nöqsan mənim
– həmi aqiləm, aliməm, huşyar.
Xülasə, başım çox böyükdür mənim,
– hələ peysərim, qol-qıçım bir kənar.
Əsasən: ədalət, sədaqətliyəm
– mənimtək hanı rəhmli hökmdar.
Xilaf olmaz əsla sözümdə mənim,
– mənəm əhdü peymanda pək üstvar,
İçəm and Qurana, sındırmanam
– mənim andıma xəlq edir, etibar.
Özüm talibəm çünki hürriyyətə
– o hürriyyətə kim, edəm rəxnədar,
Əlavə: sözüm, söhbətim tünddür
– yüzümdən-gözümdən yağır zəhrimar,
Tənumənd, pürzur, pürqüvvətəm
– nəhəngəm, pələngəm, yeli-ruzigar,
Önümdə Rəhim xan, dalımda Səməd
– dübarə otuz min nəfər xərsüvar.
Əgər istəsəm şəhri-Tehranı mən
– iki həmlədə eylərəm tar-mar.
Nə Təbriz, Səlmas, Xoy, Ərdəbil
– Ürumi, Mərənd, anigəh Səbzvar,
Nə Qəzvin, Rəşt, Ənzəli, İsfahan
– nə Şiraz, ya kim, xorasanlılar.
Nə Bağır, nə Səttar, kimdir bular?
– Nə Sərdar Əsəd, nə də Bəxtiyar,
Vəli, mən özüm qorxuram, doğrusu
– ürək durmur, titrəyir bidvar.
Odur ki, rəfiqi-şəfiqim mənim
– məni qoymadı kim, olam xarü zar.



İşarəmlə Təbrizi işğal edib
– yeritdi cərad, piyan, xumar,
Olub indi yeksər o saydıqlarım
– təmami kəməndi-bəlayə düçar,
Nə var ixtiyarı dönüb söyləsin
– qalıb sinədə qəmləri bişümar,
İlahim salıb onları müşkülə
– məni eylədi yaxşıca kamkar
O Təbriz, o Təbriz, o viran şüdə
– edib sinəmi lalətək dağdar
O kani-ədüvv, mənbəyi-inqilab
– o osmanlı türkaninə rəhgüzar.
O qafqazlı kafirlərin mədəni
– o babi yığıncaq əhrarlar,
O qıldı məni aləm içrə zəbun
– o etdi məni halimə əşkbar,
O məşrutəxah əncümən, əncümən
– orada vəkillik edən nabəkar
Vurub canıma od Azərbaycan
– ərir peysərim dəmbədəm dümbəvar.
Bu gün tazə bir söz eşitdim genə
– qulaqlarımı qavzadım çün himar,
Ölüm qorxusu düşdü əndamimə
– qazıldı mənə hər tərəfdən məzar,
Deyirlər, gəlir üstümə çox qoşun
– fədai, mücahid, səğarü kübar.
Olublar bütün yekdilü yekcəhət
– ki, bu yolda etsin hamı cannisar,
Ediblər qəsəm yad yeksər məni
– salıb təxtdən, eyləsinlər kənar,
Onunçün dolub sinəmə iztirab
– alovlandı canım olub pürşərar.
Əgər mümkün olsa, bu gün durmuyub,
– çıxıb məskənimdən edərdim fərar.
Bu cür şahlıqdansa, çox yaxşıdır
– ola qismət olsam ğəribəl-diyar.
Özüm bilmişəm axırı eyliyir
– bu millət məni azimi-guri-nar.

Ax, ay qardaşım Kabla Əbdülhəmid!
– Ey aləmdə mən qəmliyə qəmküsar.
Üzüldü sənintək mənim də əlim
– hərəmxanədən, olmuşam biqərar.
Əcəb dar günümdür, yetiş dadimə
– salırlar məni təxtdən, ay havar!
Əsir əllərim, cəmdəyim titrəyir
– alıb dövrəmi bir neçə namdar,
İtibdir başım, əqlü huşum gedib
– gülüb, ağlaram, gəh divanəvar.
Nə ruhum çıxır cismi-murdardən
– nə də dincəlir, qalmışam intizar.
Nə pis qulluq etdim ki, bu millətə
– məni hərliyirlər, a pərvərdigar!
Əcəb yerdə axşamladım, əlğərəz
– gecəm oldu zülmət, günüm tirə tar,
Hələ böyləcə eylədim şərhi-hal
– şəb hamilə, ta görək nə doğar.
Yazıb eylərəm nəşr mabədini
– necə dövr edərsə fələk kəcmədar.

*Nazimi: Məşədi Sijimqulu*
*"Molla Nəsrəddin", 1909, № 27*

## MƏMƏDƏLİNİN VİDAI

Mən istəmirəm, qoy, baba, İran sizin olsun!
Verdim sizə, bu kişvəri-viran sizin olsun!

Yoxdur təməim təxtilə tacında bu mülkün!
Nə vardı gözüm bacü xəracında bu mülkün!
Nə pullu, nə dövlətlisi, acında bu mülkün!
Mən getməli oldum, hələ Tehran sizin olsun!
Verdim sizə, bu kişvəri-viran sizin olsun!

Mən təxtə çıxan gündə qopub şurü qiyamət,
Saldı məni min dərdü bəlayə bu vilayət,



Bir gün nə əhali mana göstərdi sədaqət,
Etdi təbəiyyət nə gəda, xan, sizin olsun!
Mən istəmirəm, qoy baba, İran sizin olsun!

Hər gün məni təhdid eləyib etdiniz azar,
İğva elədi cümlənizi Bağırü Səttar.
Axır məni saldı yerə Əsədlə Süpəhdar,
Mən istəmədim, məsnədi-xaqan sizin olsun!
Verdim sizə, bu kişvəri-viran sizin olsun!

Çün getməliyəm, indi yolum düşdü uzağə,
Yandırdınız aləmdə məni nari-fərağə,
Barı dolaşıb dəyməyiniz "qəmli qonağə".
Bu Mir Bahadır – bu da əyan, sizin olsun!
Mən istəmirəm, qoy, baba, İran sizin olsun!

Əfsus, muradımca mürur etmədi dövran,
Saldı məni təxtimdən edib zar, pərişan.
Bais! Balan ölsün, nə xəcalət, nə peşiman,
Qaldım əliboş, kiseyi-həmyan sizin olsun!
Gilanü Əraqilə Sistan sizin olsun!

Lənət sizə, ey Mirzə Həsən, şeyx Fəzullah,
Siz saldınız odlarə məni, olmadım agah.
Heyhat, atılan ox yerinə gəlmiyəcək ah,
Ah ilə yanan bu dili-büryan sizin olsun!
Verdim sizə, bu kişvəri-viran sizin olsun!

Ax! Sevgili xanə, a gözəl Şəmsi-imarə,
Heyfa ki, vida eyləyirəm ba dili-parə!
Əfsus, sana yol tapa bilməm ki, dübarə.
İranlılar, atmış neçə oğlan sizin olsun!
İstəklilərimdən də Rəhim xan sizin olsun!

*Məşədi Sijimqulu*
*"Molla Nəsrəddin", 1909, № 33*

## MƏHƏMMƏDƏLİ ŞAHIN TEHRANDAN RƏŞTƏ TƏRƏF HƏRƏKƏTİ

Səltənətdən məni dur eylədi dövran, gedirəm,
Qafiləm Rəştə tərəf oldu şitaban, gedirəm!

Daha düşməz, bilirəm, bir də yolum İranə,
Həsrət oldum həmi Təbrizə, həmi Tehranə.
Böyük İranda mənə vermədilər bir xanə,
Etdilər xanə və əmlakımı viran, gedirəm,
Qafiləm Rəştə tərəf oldu şitaban, gedirəm.

Təxtimi, tacımı tarac və qəsb eylədilər,
Yerimə ağladaraq oğlumu nəsb eylədilər,
Babadanqalma bütün varımı kəsb eylədilər,
İmdi bu hal ilə Rusiyyəyə mehman gedirəm,
Qafiləm Rəştə tərəf oldu şitaban, gedirəm.

Bilmədi qiymətimi, qədrimi iranlı mənim,
Oldular *nəfyimə yekdil*, gədəli-xanlı mənim,
Dikəlib üstümə cansız, həmi də canlı mənim,
Verdilər hər biri ixracimə fərman, gedirəm.
Qafiləm Rəştə tərəf oldu şitaban, gedirəm.

Mən dedim, burda qalıb olmayım artıq məqhur,
İmdi ki, qoymadılar qalmağa, oldum məzur.
Gedərəm mən də, odur qonşu durur, dust durur,
Bər cəhənnəm ki, belə kor və peşiman gedirəm,
Qafiləm Rəştə tərəf oldu şitaban, gedirəm.

Getdi bilcümlə əlimdən qoşunum, sərhəngim,
Dutmadı hərçe çalışdımsa da bir neyrəngim.
Sıxılıb qoltuğuma Mir Bəhadır cəngim,
Bir böyük əhli-əyal ilə pərişan gedirəm,
Qafiləm Rəştə tərəf oldu şitaban, gedirəm.



Ax!.. Necə millətimi görməyə mən kur oldum,
Xaini-millət özüm olmada məşhur oldum,
Təxti-izzətdə hümakən, bu cürə mur oldum,
Əriyib cismü tənim, didəsi giryan gedirəm,
Qafiləm Rəştə tərəf oldu şitaban, gedirəm.

*"Sijimqulunamə"*

## HİSS, ZÖVQ YOX

Ruyi-səmayi-qəlbimi dutmuş səhabi-qəm,
Püriztirab, pürxələcandır misali-yəm.
Etmiş əhatə şəhri-dili ləşgəri-ələm,
Biixtiyar əşk tökür didə dəmbədəm,
Öksüz əsirlər kibi qan ağlayır qələm!

Möhtac, ac, üsrətə amac, didə tər,
Qəmli, həzin pürmihənü qüssəvü kədər.
Məhcur bir qərib, dilazürdə, dərbədər,
Məzlum bir yetim kibi qəlbi pürşərər,
Xunabələr tökər yüzümə bağlayıb vərəm.

Gördükcə özgələrdəki şanı, fəxarəti,
Elmi, fünunu, muxtəriatı, məharəti,
Biləks, millətimdə də boylə cəhaləti,
Artar kəmali-yəs ilə hər ləhzə riqqəti,
Ağlar çəməndə quşlar, əninimdən etdi rəm.

Könlümdə yox ki, möhnəti-millətdən özgə dərd,
Etmiş vücudi-milləti zənciri-cəhl, bənd.
Əbnayi-millət olmadadır məhv, fərd-fərd,
İslahi-halə yox çalışan əğniyayi-mərd,
Bir hali-dərdnak ilə olmaqdadır ədəm.

Millət atıb vücudini ağuşi-qəflətə,
Təslim edib də kəndini divi-cəhalətə.

Şayani-dərd-qüssə, yaxındır həlakətə,
Əfsus, bu zəvalə, təəssüf bu halətə,
Fəryadə, dadə sən yetiş, ey sahibi-kərəm!

Atmaz, dönüb qabağə bir addım təməddünə,
Getməkdədir geri-geri, ifnayə, gün-günə.
Açmaz gözün hələ oyanıb, keçdi min sənə.
Xaki-səfalət üzrə düşüb, sərnigun yenə,
Çahi-tənəzzülə düşüyor lalü bəstədəm.

Bir kütleyi-cəmad kibi "hiss, zövq yox",
Təhsili-elmü mərifətə eşq, şövq yox.
Amali-ittihadi-vəfaq ilə tövq yox,
Bir kimsədə hələ ona nisbət və sövq yox,
Bir heykəli-mücəssəmi-biruhdir üməm.

Tarac edildi zinəti-pürqiyməti vətən,
Amaci-tiri-təneyi-əğyar oldu tən,
Qarşımda atiyi düşünürəm dərin, mən,
Olmazsa ittihad ilə yekrəy, yeksüxən,
Bu millət, aqibət olacaqdır cəhanda kəm!

İşlər gedərsə bir neçə illərdə boylə gər,
Bu tayifə yatarsa belə məstü bixəbər,
Bişübhə, cəhl oduyla yanar zar, xüşkü tər.
Bu halı görmədən daha çox yaxşıdır səqər,
İnsan olur bu halə könülxun və didə nəm!

Aləm yetişdi mənzili-məqsudə yektəriq,
Qalmaqdayıq üsuli-ətiq üzrə biz ətiq.
Boş, bilüzum bəhslər ilə əriz, əmiq,
Uğraşmada, toquşmadayıq qeyri-müttəfiq.
Əhval pək vəximdir, olmuş füzun "həm"!

Hər millət oldu naili-elmü əməl, məram,
İfrazi-rütbə eylədilər, iktisabi-nam.
Hikmət, fəlasifə və riyaziyyə bittəmam
Məxsus imiş əcanibə, olmuş bizə həram,
Alimnümalər etdi bizə olmazın sitəm.



"Elmi tələb edin" deyə əmr eyləmiş nəbi,
Ta məhddən məzarə, budur anla mətləbi.
İslamə fərzdir, qadın-ər, su, həva kibi,
Mollaların da əks bu fərmanə əğləbi,
Zülmətpəsənd, şəbpərəxu, bəndeyi-şikəm!

"Elmi-bədən və din" deyilmişdir aşkar,
Əvvəl bədən və sonra da din elmi üstvar,
Oldu nə bais, imdi belə olmuşuq kənar?
Olmuş siyah çeşmimizə nuri-ruzgar,
Xəstə düşüb elin bədəni, həm bulandı dəm!

Elmi-bədən müqəddəm ikən elmi-dindən,
Təhsilə bəs girişmiyəlim boylə biz nədən?
Elmi-bədən ki, olmadı, olmaz həyat şən,
Ummaq olurmu qüvveyi-imdad xəstədən,
Yatma, oyan, maarifə doğru qoyub qədəm!

Nisvani-binəvalərimiz can deyilmidir?
Nisfi-bədən, mürəbbiyi-səbyan deyilmidir?
Ağuşi-madərisi dəbistan deyilmidir?
Bizlərlə bir hüquqda insan deyilmidir?
Qeydi-əsarətə sarıdıq biz fəna şiyəm!

Azdır məkatib, artıraraq çoxlu açmalı,
Erkək, qadın, çocuqları cümlə oxutmalı.
Qızlar üçün müəllimeyi-pak tapmalı,
İcab edərsə əsr necə, oylə yapmalı,
Gər ittifaq edilsə, cibalı yıxar himəm!

Qardaş, amandır, aç gözünü bir oyangilan!
İnsan kibi bu halını bir anla, yangilan!
Eylə təsəvvür öz işini, bir utangilan!
Bəsdir, yetər bu boyda cəhalət, usangilan!
Bəsdir təhəmmül etdiyiniz dərdə, bişü kəm!

*"Sijimqulunamə"*

## EHSAN

Molla, gəlir orucluq, keçdi rəcəblə şəban,
Bu mahi-meymənətbəxş oldu yenə nümayan.
Bu ayı həq yaratmış həp aylar içrə sultan,
Mahi-seyamdır bu, ruzi olur firavan.
Hər yanda, hər tərəfdə ehsan, plov, fisincan.
Bax bir nə dilrübadır, bangı sapılca, qazğan,
Nəğəmati-şişəhayi-qəndabü qəhvə-qəlyan.
Bir bəzmi-xubi-dilxah,
Pəh, pəh, təbarəkallah.

Dövlətli dəsti-cudin açmış, təlafişandır,
Hər şam nəzirü ehsan, bəzmi-gərm əyandır.
Mehmansəra bəzənmiş, bir rövzeyi-cinandır.
Süfrə açıq sərasər, hər dürlü qüti-candır,
Ən başda əyləşənlər əyandı, bəydi, xandır,
Bəh, bəh, təmami-məclis molla və rövzəxandır,
Bircə nəfər tapılmaz miskin və natəvandır.
Bir bəzmi-xubi-dilxah,
Pəh, pəh, təbarəkallah.

Ey biəlac, miskin, bilməm nədir bu ahın,
Biixtiyar giryən, yorğun, yazıq nigahın.
Ətfalın ağlayırmı, sat, xərc elə külahın.
Rəhm istəmə qənidən, get versin öz Allahın,
Umma, yazıq, şişərsən, var bunda iştibahın.
Bir gün deyil, ay oğlan, həm boylə salü mahın,
Ağla, sızılda, yalvar, yoxdur ümidgahın.
Çək, çək dərunidən ah,
Əlhökmü hökmi-Allah.

Açmış zəbanı vəzin islamiyanə molla,
Söylər ki, uymayın ha, baqi deyil bu dünya!
Bir dari-hüznü qəmdir, yoxdur sürur, haşa!



Təşviqi-ürəfanı guş etməyin, məbada!
Bunlardır əsl kafir, əğva edillə ha, ha,
Xod nikxahi-millət, xod rəhnümadı guya,
Gör bir nələr yumurtlar, alimnüma axundlar.
Əqlü kəmalə pah, pah,
Əlhökmü hökmi-Allah.

*Kefsiz*
*"Molla Nəsrəddin", 1909, № 36*

## DİLSUZDAN

Molla, bizimtək kimin bir belə mollası var?
Bir belə molla, belə alimü danası var?

Loğalanıb öymürəm mən hələ mollamızı,
Hiylə və təzvirdə lap yədi-beyzası var.

Hər kəsin aləmdə gər olsa belə mollası
Olmasa dünyası gər qəm yeməz, üqbası var.

Sözlərinin hər biri bircə qızıl, əşrəfi,
Nitqi-göhərbarının min cürə mənası var.

Əldəki təsbihinin min dənədir danəsi,
Gövhərü alması var, lölövü lalası var.

Vird ilə zikri onun lənətü təkfirdir,
Gündə otuz arifin qətlinə fitvası var.

Cəhli sevir qəlbdən, cahilə meyl eyləyir,
Arifü huşyardən həm də təbərrası var.

Məkr ilə salmış ələ köhnə və möminləri,
Çün yenim əsləklərin dideyi-binası var.

Qarğa kimi başını möhrə döyür dəmbədəm,
Qəsdi ibadət deyil, özgə təmənnası var.

Bəs ki, riyazət çəkib, cismi dönübdür çöpə,
Çünki riyakardır, mətləbi-dünyası var.

Ol kosa saqqalına canımız olsun fəda,
Hər tükünə bənd olan gör neçə xənnası var.

Cümlə müridanı o, bənd eləyib vəzinə,
Yaxşıca torbası var, yaxşıca noxtası var.

Toplayıb ətrafına cümlə behişt əhlini,
Hər birinə verməyə min dənə hurası var.

Bir kişiyə əlli min hur eliyir pişkəş,
Bir neçə min cariyə, bir daha tubası var.

Bircə manat ver səni daxil edib cənnətə,
Əhli-behişt eyləsin, həm otu, arpası var.

Yaxşı ticarətdimi, sən nə deyirsən buna?
Yaxşıca bol müştəri, yaxşı da kalası var.

Canım o İysadəmin canına qurban mənim,
Mərdümi-sədsaleyə mordeyi-əhyası var.

Kim ki, dutub damənin, qorxusu yox kimsədən,
Cinnü şəyatini var, rəmli, həmi tası var.

Mənqəbətü mədhini yazmağa aciz qələm,
Hankı cəhan əhlinin böylə Ərəstası var?!

*Kefsiz*
*"Molla Nəsrəddin", 1909, № 39*



## URRA

Molla, coşub daşmağını qoy nəmə,
Ağzını bas qazğanının, qoy dəmə!

Bu rəmazandır, hələ tətil qıl,
Məsləkini, fikrini təbdil qıl,
Etmə tərəddüd, baba, təcil qıl,
Bax, necə gör millət edir həmhəmə!
Ağzını bas qazğanının, qoy dəmə!

At qələmi, boşla qələmdanını,
Qoy yerə əfsaneyi-dəstanını,
Salma cəhənnəm oduna canını,
Eylə mürüvvət, eləmə zümzümə!
Ağzını bas qazğanının, qoy dəmə!

Çünki deyildir belə meydan sənin,
Məscid, minbər, nə müsəlman sənin,
Moizə, nə nəfi-cibişdan sənin,
Mərsiyəxanlar verəcək dəmdəmə!
Sən hələ bildiklərini qoy dəmə!

Lovğalanıb eyləmə kim, iddia,
Qabili-behbud olacaq müddəa
*Mərsiyəxanlar eləyir bəddua;*
Mollanümalar ələ almış qəmə!
Ağzını bas qazğanının, qoy dəmə!

Bu rəmazanlıqda nə ver-aldı bu?
Ax! Nə qazetdir bu, nə jurnaldı bu?
Pəs nə əbadır bu, nə saqqaldı bu?
Ağzı oruc xəlqi salıbsan qəmə!
Ağzını bas qazğanının, qoy dəmə!

Kim baxar indi qazetə, dəftərə?
Çap eliyib nəşr edəsən min kərə!

Ruzəni batil eləyir məsxərə!
Qiybət, tənqid, qiraət-həmə!
Ağzını bas qazğanının, qoy dəmə!

Gəl baba, məscidlərə, ehsanı gör!
Şamü səhər aşı, fisincanı gör!
Moizeyi-həzrəti-mollanı gör!
Nazü əda, işvəyə bax, çəmxəmə!
Yarə, müridə, ədəbə, həmdəmə!

Mollaların görgilə şurasını,
Xəlqə əta etdiyi hurasını,
Dinlə behişt əhlinin "urrasını"
Dil-diledir, zil-ziledir, bəm-bəmə!
Sən hələ bildiklərini qoy nəmə!

*Məşədi Sijimqulu*
*"Molla Nəsrəddin", 1909, № 39*

## İNAN

Nədir bilməm, a Molla, bunca söhbət, söhbət üstündən,
Edirsən boş yerə bir boylə qiybət, qiybət üstündən.

Söyürsən, danlıyırsan, incidirsən bu müsəlmanı,
Deyirsən, öyrədirsən, göstərirsən şeyxü mollanı,
Bəlayi-nagəhantək qaplamışsan əhli-imanı,
Vurursan sineyi-mollayə zərbət, zərbət üstündən,
Edirsən boş yerə bir belə qiybət, qiybət üstündən.

Ağarmış saqqalın, ağzında yoxdur bir dişin, Molla,
Bükülmüş qamətin, piranədir də gərdişin, Molla,
Yenə əl çəkmiyirsən, həllə huşəkdir işin, Molla,
Basıb ağ nöqtəni qəlbində zülmət, zülmət üstündən,
Edirsən boş yerə bir belə qiybət, qiybət üstündən.



Duanı, cinni, tası səhl sandın, qıldın istehza,
Əvamı incidib, cadunəvisə eylədin iyza,
Əlindən təngə gəldi hacı və molla ilə mirza,
Atıb vurdun dəmadəm səngi-nifrət, nifrət üstündən,
Peyapey yağdırırsan tiri-möhnət, möhnət üstündən.

Təmamən söyləyib yazdıqların əfsanə, hədyandır,
Bütün əkdiklərin, tökdüklərin həm töxmi-şeytandır,
Əfəndi, şeyx, vaiz, rövzəxandır, şahü sultandır,
Qazancın, qismətin, nəfindi lənət, lənət üstündən,
Salıbsan üstünə yorğani-qəflət, qəflət üstündən.

Çəkil, canım, nədir bu kar, bu əfkari-məzmumə?
Əyirsən ağzını həm Bağırə, həm molla Məsumə.
İnan, bundan sora yazmam sana bir sətr mənzumə,
Töküldü başimə "gərmab"i-xiclət, xiclət üstündən,
Əhali eyləyir min gunə töhmət, töhmət üstündən.

Baba, Allahı istərsən, belə rəftardən xof et,
Əbanı qavzama, altındakı şəhmardən xof et,
De, əttövbə, yanarsan axirətdə, nardən xof et,
Çəkərsən ah, ah üstündən, həsrət, həsrət üstündən,
Əzabi-dərdnak etdikcə şiddət, şiddət üstündən.

*Kefsiz*
*"Molla Nəsrəddin", 1909, № 44*

## TAZƏLƏR

Həmdülillah, dönüb iqbalı bizim tazələrin,
Qarışıbdır yenə əhvalı bizim tazələrin.

Qarışıb bir-birinə, işləri viran görünür,
Alınıb ruhları, cümləsi bican görünür,
Ölüb a... dinmə, nə var ruhi, nə də can görünür;

Qırılıb rişteyi-amali bizim tazələrin,
Həmdülillah, dönüb iqbalı bizim tazələrin.

İstəyirlərdi ki, iğva edərək bu ürəfa
Doğru yoldan azıdıb eyliyələr cövrü cəfa,
Leyk, səd şükr ki, zəhmətləri həp oldu həba
Sındı bilcümlə pərü balı bizim tazələrin,
Həmdülillah, dönüb iqbalı bizim tazələrin.

Gəh "Təkamül", gəhi "İrşad"ü "Dəbistan" yazılır,
Gəh "Füyuzat", gəhi "Rəhbər"ü "Bustan" yazılır,
Gəh "Tərəqqi", gəhi "Yoldaş", gəhi dəstan yazılır,
Gəhi də bəd gətirir falı bizim tazələrin,
Həmdülillah, dönüb iqbalı bizim tazələrin.

Salmıyıbdırmı, de, bunlar elə öz-özlərini
Ki, deyirlər qazetə xəlqin açır gözlərini?
Hardadır? Onlara mən göstərəm öz sözlərini;
İşləmir, yerdə qalıb malı bizim tazələrin.
Quruyub gün-günə əfalı bizim tazələrin,
Həmdülillah, dönüb iqbalı bizim tazələrin!

*Məşədi Sijimqulu*
*"Molla Nəsrəddin", 1909, № 45*

## KƏC QABIRĞA

*Dabanı çatdax xalaya*

Niyə, bilməm, yenə bu karə bulaşdın, a xala!
Atılıb ortaya bir mərəkə aşdın, a xala?
Qaynayıb sönmüş idin, bir daha daşdın, a xala?
Cızığından çıxıban həddini aşdın, a xala?
Nə həya qaldı, nə ismət, yavalaşdın, a xala!
Əsl şəhrah təriqindən uzaşdın, a xala!



Demədimmi sənə çadrşəbi atma dalına?
Verme təğyir nə başmağına, nə paltarına,
Ağarıb bomboz olub, bircə hənə qoy yalına,
Sözlərim etmədi bir zərrə təfavüt halına,
Get-gedə ermeniyə, rusə yanaşdın, a xala!
Əsl şəhrah təriqindən uzaşdın, a xala!

Gəh sataşdın Sənəmə, gəh Tükəzban bacıya,
Gəh bəyə, xanə, gəhi şeyxə və gahi hacıya.
Gəhi seyyidlərə, mollalara, molla Ağıya...
Molla Mədumə və Məyubə və Bağır Hacıya,
Abidə, zahidə, əyanə dolaşdın, a xala!
Əsl şəhrah təriqindən uzaşdın, a xala!

Mən ölüm! Sən də müsəlmanmı deyirsən özünə,
Çadran yox, nə də rubəndə salırsan üzünə.
Ağrım olsun o həyasız üzünə, pis sözünə,
Yaxşı çəkdin qabağa milləti, küllər gözünə,
Gündə bir mömünə övrətlə dolaşdın, a xala!
Əsl şəhrah təriqindən uzaşdın, a xala!

Qırışıb arının, a batmış, bükülübdür kəmərin,
Çöküb ordun, əyilibdir çənən, olsun xəbərin,
Sallanır bir ayağın qəbrə, var axır səfərin,
Eyləmə öylə ki, söysün sənə qırx altı ərin,
Eylədin onları təhqir, savaşdın, a xala!
Əsl şəhrah təriqindən uzaşdın, a xala!

Demə hürriyyəti-nisvanı, məhal işdi, məhal,
Açma bu məsələni, yoxdu lüzum, etmə səval,
Abrın olsun, a məlunəyi-bieqlü kəmal,
Söyləmə, söyləmə, kəs, kəs səsini, lal ol, lal,
Dinmə, yum ağzını kim, dinə sataşdın, a xala!
Əsl şəhrah təriqindən uzaşdın, a xala!

Gər qalırsa mana: nisvan daşını atmalıdır,
Kəc qabırğalıları həbsə, dama qatmalıdır.

Kəc qabırğanı vurub, sındırıb axsatmalıdır,
Kəc qabırğayə tərəfdar olanı atmalıdır...
Yoxsa İranə baxıb səndəmi çaşdın, a xala!
Əsl şəhrah təriqindən uzaşdın, a xala?!!

*Dostunuz Məşədi Sijimqulu*
*"Molla Nəsrəddin", 1909, № 49*

## VƏSSƏLAM

Məktəbə olmam riza hərgiz xüram etsin qızım,
Haşalilləh, qoymaram dərsə dəvam etsin qızım.

Qoymaram, əl çək yaxamdan, üstümə bu adı mən
Kim, desinlər uşkola qoydu qızın Hacı Həsən.
İstəməm, boşla baba, laməzhəbə övladı mən,
Vurram öldürrəm elə övladı mən, arvadı mən.
Olmaram razı məni binəngü nam etsin qızım,
Haşalilləh, məktəbə, dərsə dəvam etsin qızım.

Mən nə rusəm, gürcüyəm, nə bütpərəstəm, ermənəm,
Mən nə ruməm, nə yapon, mən nə firəngəm, cermənəm,
O odur, sən də ki sənsən, babısan, mən də mənəm,
Adını zikr etmə elmin, sənətin, mən bilmənəm,
Qoymaram, əstəğfürullah, təlxkam etsin qızım,
Haşalilləh, məktəbə, dərsə dəvam etsin qızım.

Oğlumu qoydum, nə gördüm, mən nə ləzzət anladım?
Azdı yoldan hər gecə söydüm, dolaşdım, danladım,
Dəmbədəm hürdüm köpəklərtək, xoruztək banladım
Etmədi pəndim əsər, dindirmədim, pozğunladım.
İmdi də qoymam həlalımı həram etsin qızım,
Haşalilləh, məktəbə, dərsə dəvam etsin qızım.

Arifa! Durma, çəkil get, mən dalınca getmərəm,
Mən, o sən sərd etdiyin əfsanəyə guş etmərəm.
Min desən aldanmaram, yüz min desən də bitmərəm,



Eybdir, övladıma yazı, oxu öyrətmərəm,
Sübhünü qoymam gedib məktəbdə şam etsin qızım,
Haşalilləh, məktəbə, dərsə dəvam etsin qızım.

Tar-mar olsun görüm məktəbləri Şirvan kibi,
Azdırıb yoldan çıxardı xəlqi bir şeytan kibi.
Etiqadın süst edir səbyanın o, moltan kibi,
Məktəbə daxil olur insan, çıxır heyvan kibi,
Qoymaram, qəri-cəhənnəmdə məqam etsin qızım,
Qoymaram, oğlum kibi bir fikri-xam etsin qızım.

Uşkola qurtarmışın kəm əql olurmuş əğləbi,
Boşluyarmış köhnə adatı, atarmış məzhəbi.
İmdi də bir-bir açırlar şəhrdə qız məktəbi,
Kəsbi-elm eylərsə arvadlar, atar çadrşəbi,
Vermərəm rüxsət, oxu, yazı təmam etsin qızım,
Qoymaram gültək açılsın, ibtsam etsin qızım,
Guşeyi-zindanı məskən, vəssəlam, etsin qızım!

*"Sijimqulunamə"*

## TƏRİFİ-GƏNCƏ

Vəh, nə yaxşı xəbərnigarın var,
*Mərhəba Gəncə, mərhəba Gəncə!*
Pəh, pəh, aləmdə etibarın var,
Mərhəba Gəncə, mərhəba Gəncə!

Afərin abinə, həvanə sənin,
Elmlilər yatan yuvanə sənin.
Müxbiri-bəəba-qəbanə sənin,
Ümdə bir şəxsi-hiyləkarın var,
Mərhəba Gəncə, mərhəba Gəncə!

Qələm əhli olubdur obaşın,
Bişirir bir çanaqda bozbaşın,

İndi şəxsi-qərəzlə külbaşın,
Oynadır xamə, iştiharın var,
Mərhəba Gəncə, mərhəba Gəncə!

Olmuş indi mühərririn anan,
Fikri ifsad, məsləki-xuliqan,
Mərhəba, ay can, mərhəba, ay can,
Nə deyim ki, qərəzşüarın var,
Mərhəba Gəncə, mərhəba Gəncə!

*Kefsiz*
*"Molla Nəsrəddin", 1909, № 50*

## BU NƏDİR?

Yarəb, bu dərdi-nagəhan, bu zəxmi-bidərman nədir?
Bu girdbadi-xakiyan, bu zülm, bu tüğyan nədir?
Bu məclisi-osmaniyan, o məhfili-İran nədir?
Məşrutə, hürriyyət-filan, Ənvər və Səttarxan nədir?
Axır təmamən bəndəgan etdikləri üsyan nədir?
Rəftari-millətpərvəran, göftari-bipayan nədir?
İstər bütün nəməsləkan hürriyyəti-nisvan nədir?
Məktəb və təhsili-zənan, övrət nədir, meydan nədir?
Göndər bəla, məhv et həman, bu qövmi-biiman nədir?

Allahu əkbər! Tazələr gör bir nələr söylər, nələr!
Bihudə, bica yavələr batil sözü təkrar elər!
Dövlətli, fələ, kargər olsun, deyirlər, xeyri şər,
Həp bilmüsavi övrət-ər, Hacı Səfər, həm Xanşəkər.
Eyvah, bu millət məgər heç anlamır nəfü zərər?
Hürr olsa övrətlər əgər, rubənd, çadır köhnələr.
İman və din əldən gedər, ey bədməal, ey bədgöhər!
Ey xaliqi-nöhasiman, bu yer nədir, insan nədir?
Göndər bəla, məhv et həman, bu qövmi-biiman nədir?

Adati-əcdadım mənim bir-bir əlimdən getdilər,
Çıxdı göyə dadım mənim, alimləri ürkütdülər.



Dillərdə yox adım mənim, iqbalü şanım itdilər,
İş görmür övradım mənim, babi-səmanı örtdülər.
Tərk oldu hər zadım mənim, məşrutəni bərkitdilər.
Həqq istər arvadım mənim, bunlar məgər övrətdilər?
Övladü əhfadım mənim biar, biqeyrətdilər.
Ey xaliqi-kövnü məkan, bu ins nə, bu can nədir?
Göndər bəla, məhv et həman, bu qövmi-biiman nədir?

Əstəğfürullah, baxmaram bu söhbəti-hürriyyətə,
Hər yana sutək axmaram, ziddəm də məşrutiyyətə.
Kəndimi narə yaxmaram, hürriyyət olmaz övrətə,
Bir feildir, felülhəram, əsla sığışmaz qeyrətə.
Əyri qabırğa, ay balam, kəcdir, düzəlməz, at itə.
Naqisdir əqli, olma xam, övrət yaraşmaz millətə.
Etmə şitab, eylə dəvam, azğınladın, gəl lənətə.
Dolmuş sərasər xakdan, yarəb, bu vəhşistan nədir?
Göndər bəla, məhv et həman, bu qövmi-biiman nədir?

Təmini-istiqbal üçün düşdükləri sövdayə bax!
Mazi keçibdir, hal üçün satdıqları kalayə bax!
Miskin üçün, həmmal üçün etdikləri qovğayə bax!
Nisvani-bədiqbal üçün açdıqları dəvayə bax!
Rəngü həna, səqqal üçün tikdikləri torbayə bax!
Bax, bax! Bu qövmi-zal üçün çaldıqları zurnayə bax!
Eyzən qazet-jurnal üçün molla verən fitvayə bax!
Heyrətdədir əflakiyan ya rəbbəna, qan, qan, nədir?
Göndər bəla, məhv et həman, bu qövmi-biiman nədir?

Heyvan nədir, insan nədir, molla nədir, ürfan nədir?
Huri nədir, qılman nədir, cənnət nədir, niyran nədir?
Cənnətdəki şeyxan nədir, duzəxdəki ürfan nədir?
Qəbrimdəki xortdan nədir, qəlbimdəki şeytan nədir?
Matü məəttəl qalmışam, bu nəql, bu dəstan nədir?

*Məşədi Sijimqulu*
*"Molla Nəsrəddin", 1909, № 51*

## XUDAHAFİZ

Veribən əl-ələ, xudahafiz
Eylədik bu ilə xudahafiz.

On iki ay, əlli həftə bütün,
Üç yüz altmış beş, altı saət, gün
Məşvərət, istixarə, tas, dügün,
Gəh elə, gəh belə, xudahafiz,
Eylədik bu ilə xudahafiz.

Ordubad ilə Nəxçvan, İrəvan,
Gəncə, Baku, Batum, Nuxu, Şirvan,
Qars, Axalsıx, filan və yerdə qalan,
Yeksüxən, yekdilə, xudahafiz,
Eylədik bu ilə xudahafiz.

Nəxçvanda açıldı bir migidan,
Aldı Bakudə şeytənət meydan.
Çənbərə, Heybət, Angəhi[1], Suraxan,
Keşlə, həm Bülbülə, xudahafiz,
Eylədik bu ilə xudahafiz.

Gəncədə bir ədibi-biəmsal,
Açdı bir ruznamə "İstiqbal",
Bir kitabxanə, bir də zurna-qaval,
Düşdü dildən-dilə, xudahafiz,
Eylədik bu ilə xudahafiz.

Bu il osmanlı zülm təhtindən,
Çıxdı köhnə libas rəxtindən.
Endirildi Həmid təxtindən,
İzzətə, Kamalə, xudahafiz,
Eylədik bu ilə xudahafiz.

Qopdu İranda da həman tufan,
Tazələndi hökuməti-Tehran,

[1] Bilgəh



Gərçe ixrac olundu Mədəli xan,
Bitmədi məsələ, xudahafiz,
Eylədik bu ilə xudahafiz.

Etdi Qafqazın əhli-islamı,
İttihad, ittifaq, yeknamı.
Şiə, sünni kəlami-övhamı
İşləməkdə hələ, xudahafiz,
Eylədik bu ilə xudahafiz.

Mollalar kəndin etməyə təthir,
Etdilər aləmi bütün təkfir.
İşləri oldu bijlikü təzvir,
Düşmüşük əngələ, xudahafiz,
Eylədik bu ilə xudahafiz.

Aləmi gəzdi yerbəyer "Mozalan",
Getdi hətta cəhənnəmə "Xortdan",
Oldu nayab illətə dərman,
Uğradıq müşkülə, xudahafiz,
Eylədik bu ilə xudahafiz.

Molla, Hərdəmxəyal, Şeybani,
Kefsiz, angah yarü əvani,
Yazdılar hərzə, nəql, dastani,
Etdilər məşğələ, xudahafiz,
Eylədik bu ilə xudahafiz.

Dəli, Çatdax daban xala, Gülegən,
Qırxayax, Yoncaçı və Qeydçəkən,
Köhnə Qızdırmalı, Sijimqulu, mən
Həp bir avaz ilə xudahafiz,
Eylədik bu ilə xudahafiz.

*Məşədi Sijimqulu*
*"Molla Nəsrəddin", 1909, № 52*

## QƏZƏLƏ BƏNZƏTMƏ

Bütün vücudi-zəifim bəla ilən doludur,
Bu qəlbi-pürəməlim ah-vay ilən doludur.

Yetər qulağıma hər ləhzə bangi-puçapuç,
Mühat olub bədənim bu səda ilən doludur.

Təmam aləmi-islamı yandıran atəş,
Düşüb də ruhimə suzü nəva ilən doludur.

Güləndə özgələri, ağlıyar müsəlmanlıq,
O yanda xəndə, bu yan hay-hay ilən doludur.

Dəli kibi hərə bir səmtə döndərib yüzini,
Piyan "mujik" kibi başlar həva ilən doludur.

Deyir mənəm biri sünni, biri deyir şiə,
Belə elə-belə çunü çəra ilən doludur.

Nə ittihad iyi, nə buyi-ittifaq gəlir,
Riyadır işlərimiz, həp riya ilən doludur.

*"Sijimqulunamə"*, *1909*

## QORXURAM

Bilmirəm, bunca nədir ah ilə əfğanın sənin,
Söyləməkdən az qalıbdır ki, çıxa canın sənin,
Bitmədi, qurtarmadı bu hərzə-hədyanın sənin,
Getdi bir dibli əlindən dinü imanın sənin
Qorxuram, Molla, tökülsün axırı qanın sənin.

Qan içənlərdən saqın, gəzmə, o yerlərdən çəkil,
Can alanlardan həras eylə, kühənlərdən çəkil,



Laf uranlardan da imən olma, onlardan çəkil,
Görməyirsənmi dolub qurd ilə hər yanın sənin?

Çıxmısan meydana, yalqızsan, tərəfdarın hanı?
Həmsüxən, həmrəy, həmkarü həməfkarın hanı?
Can verib xof etməyən yari-vəfadarın hanı?
Ya hanı simin, zərin, heştad milyanın sənin?

Dəsti-istibdad hər gün qarparaq arifləri,
Tərd edir el, yurd içində çarparaq arifləri,
Həm edir təhqir hər kəs qalxaraq, arifləri,
Qəlbini incitməsin nahəqcə vicdanın sənin!

Eylər istibdadə indi pişvalar xəfyəlik,
Zalimə, cəbbarə indi kəndxudalar xəfyəlik,
Həm danosbazlıq edir mollanümalar xəfyəlik,
Keçməsin çəngalına gözlə giribanın sənin!

Sanma zülmati-cəhalət içrə el avarədir,
Öylə fikr etmə ki, həp nadan, həmi bikarədir,
Yox, bütün şeytanxəyal, on firqədir, yüz parədir,
Parə-parə eyləyərlər qəlbi-büryanın sənin!

Dinmə, vallahi, dinənlərtək alarlar canını,
Vəslinə həsrət qoyarlar yarını, əvanını,
Tərkə məcbur eyləyərlər xanəni, övtanını,
Çox güvənmə kim, varındır ibn-Nemanın sənin!
De hanı indi Nərimanov Nərimanın sənin?

*"Sijimqulunamə"*, *1909*

## NƏSİHƏT

Dilini saxla, əlaman, "Zənbur"!
Elə getmə, bir az dayan, "Zənbur"!

Atını sürmə qanlı meydanə,
Nişini vurma xanə, əyanə,
Məsxərə yazma şahə, sultanə,
Eyləmə naləvü fəğan, "Zənbur"!
Elə getmə, bir az dayan, "Zənbur"!

Özünə düşmən etmə milləti sən,
Abrudan düşürmə ümməti sən,
Çıxarammazsan işbu illəti sən,
Hələ bu cismidən, inan, "Zənbur"!
Dilini saxla, əlaman "Zənbur"!

Dolaşıb şeyxə, dəymə mollayə,
Qoçu, oğru, dəni, nə əlayə,
Bax axundun əlində fitvayə,
Səni təkfir edər həman, "Zənbur"!
Oxuyar lən əbləhan, "Zənbur"!

Hanı "Yoldaş", "Rəhbər"ü "Bəhlul"?
Həm "Dəbistan", "Təkamül"ü "Kəşkül"?
Biz "Füyuzat"ı bağladıq, ay oğul,
Aşikara, deyil nihan, "Zənbur"!
Olacaqmı sənə əyan, "Zənbur"!

Olunursan bu gün-sabah təkfir,
Edilirsən bu şəhrdə təhqir.
Eylənir məsləhət, olur tədbir,
Oxunur nitqlər əyan, "Zənbur"!
Eyləmə nitqini bəyan, "Zənbur"!

Görmüyürsənmi "Molla Nəsrəddin",
Oldu əndində millətin bidin



Qisməti "od", qazandığı nifrin,
Əli qoynunda, bağrı qan, "Zənbur"!
Olacaq fövt nagəhan "Zənbur"!

Eyləmə sən dəxi fəğan, "Zənbur"!
Dilini saxla, əlaman, "Zənbur"!

*Şəmşir*
*"Zənbur", 1909, №*

## UYMA DÜNYAYƏ...

Uyma dünyayə, ey dili-qafil!
Nə olur bu əcuzədən hasil!
Əlivi vurma, dur kənardə bax
Ola, biçarə, cifəyə mail.

Yemə! Əl-ağzını bulaşdırma,
Gəh onu, gəh bunu dolaşdırma.
Üstüvə itləri ulaşdırma,
Eylə dəryuzəlik olub sail.

İstəmə, pənc ruzədir dünya:
Nədi bu vurhavur, nə bu sövda,
Çünki baqidir axirət, üqba!
Bu fəna ruzgarə bağlama dil.

Dinmə, qoy yolsun özgələr tüküvü,
Sən də sat yorğanuvi, örtügüvü.
Yüngül eylə, səfərdəsən yüküvü,
Eylə bil ki, gəlibdir Əzrail.

Satgilən, evdə qoy nə qab, nə qazan,
Övrətə bəsdi bir mitil yorğan.

Gedib ol kərbəlayı, Hacı İman,
Vara bənd olma! Adə ol mail.

Lacərəm, mərdi-tənbəlü kahil,
Nə nəhəd bər bəqayi-millət dil.[1]

*Şəmşirək*
*"Zənbur", 1909, № 9*

## OD TUTUB ODLANDI VƏTƏN...

Şahidi-hürriyyət əzakar imiş,
Ax, bu gözəl türfə dilazar imiş!

Dil verə kim dilbəri-hürriyyətə,
Bəlkə düşərmiş ələmə, möhnətə!
Bilsə idim uymaz idim söhbətə
Vəsli ilə düşməz idim niyyətə!
Mən nə bilim böylə cəfakar imiş,
Ax, bu pəriveş nə dilazar imiş!

Aşiqi-rüxsarı o hurin məgər,
Etməlidir tərki-bədən, canü sər?
Od tutub odlandı vətən sərbəsər,
Olmadı evladi-vətən bəxtəvər.
Nəxli-ümid bibərü bibar imiş,
Şahidi-Hürriyyət əzakar imiş!

El hələ məşrutəni təqdir edir,
Aşiqi-hürriyyəti təhqir edir.
Molla çıxır minbərə təkfir edir,
Babi, bəhayi deyə təbir edir.
Ax, bu yazıqlar özü bidar imiş!
Yekcə xuda bəndəsi, dindar imiş!

[1] Millətin yaşamasına könül verməz.



Nəxli-əməl gəlməyəcək hasilə,
Kəştiyi-qəm çıxmayacaq sahilə,
Yüz ilə durmaz hələ bu qafilə,
Dursa da yetməz, bilirəm, mənzilə,
Mollanüma millətə sərdar imiş,
Ax, bu kühənlər necə biar imiş!

*Şəmşirək*
*"Zənbur", 1909, № 10*

## OLSUN

Dilər ürfani-noməslək
Cahan bir laləzar olsun.
Açılsın qəlblər gül tək,
Çiçəklənsin, bahar olsun!

Açılsın lalələr, güllər
Şəqayiqlər, qərənfillər.
Doluşsun bağə bülbüllər,
Həzarilər həzar olsun!

Uzaqlansın qəmü möhnət,
Silinsin dideyi-qəflət.
*Ayılsın xabdən millət,*
Oyansın, huşyar olsun!

Edilsin himmətü qeyrət,
Tikilsin məktəbi-ibrət...
Verilsin dərsi-ünsiyyət,
Fəzilət aşikar olsun!

Vətən övladı-səbyanı
Edib məskən dəbistanı
Alıb təlimi-ürfanı
Onunla rəstgar olsun!

Olan insafü vicdanı,
Bilən əhvali-dünyanı,
Sevər elm ilə insanı
Ki, aləm bəxtiyar olsun!

Müqəddəs bir əməldir bu,
Olubdur müntəşir hər su.
Cəvanani-təməddüncu
Gərəkdir cannisar olsun.

Edilsə min kərə təkfir,
Olunsa aqibət təhqir,
Edərmi aqilə təsir,
Otuz min hiyləkar olsun!

Aman, bu əhrimənlərdən,
Xərü cahil, gühənlərdən,
Münafiq, lafzənlərdən,
O birəhmanə ar olsun!

Bəsa cahil, bəsa kodan,
Bəsa əhməq, zehi nadan,
Bəsa fasiq və laiman,
Ona de hər nə var, olsun.

Cahan yekparə zülmətdir,
Kühənlər zülmə qüvvətdir.
Təmami ğərqi-qəflətdir
Səğar olsun, kübar olsun!

Nə fözlü elmü sənət var,
Nə də himmət, həmiyyət var.
Nə həmcinsə məhəbbət var,
Fəqirü maldar olsun!

Səvalı bəddi-xilqətdə,
Xəyalı huri-cənnətdə,
Öküzdür lap təbiətdə,
Qəni, ya mülkədar olsun!



Edər söhbət səxavətdən,
Basar, bağlar şücaətdən.
Desən pul ver, xəsasətdən
Deyər: millət kənar olsun!

Baxırsan yalü kupalə,
Müləvvən bığla, saqqalə,
Rədayə, xirqəyə, şalə.
Edirsən, iftixar olsun!

Demə dami-hiyəldir bu,
Müzəyyən bir dəğəldir bu,
Riyadır, bədəməldir bu,
Nə sidqü etibar olsun!

Hələ böylə xəbasətlə
Baxır ürfanə nifrətlə,
Edir təqbih şiddətlə,
Qoy etsin, xar-zar olsun!

Yoruldu, yuxladı xamə,
Yazıldı, bitdi şəbnamə.
Yetişməz dərdim itmamə,
Genə mabədi var olsun!

*Şəmşirək*
*"Zənbur", 1909, № 10-11*

## HƏNUZ

Xabi-qəflətdə yatıb, cəhl ilə dünyadə, hənuz,
Arizu etmədəyik cənnəti üqbadə, hənuz!

Badeyi-cəhlü cəhalətlə dolubdur sərimiz,
Aləmi çulğalayıb zülmü qəbahət, şərimiz.
Məhaza yenə huri sözüdür əzbərimiz.
Həm ayıqlıqda, həmi xabdə, röyadə, hənuz.

Nəfsi-əmmarə bizim əqlimizə fayiqdir,
Əbdi-şəhvət desələr kəndimizə layiqdir.
Kim deyir bir kişi dörd övrətə nalayiqdir?
Cənnətin ayqırı olmağı da sal yadə, hənuz.

Şairəm mən, nə işim var, baba, hürriyyət ilə,
Qəhrəmanan, Niyazi, o biri Şövkət ilə.
Nə bilim Ənvər ilə, Əhməd ilə, Tələt ilə,
Dəstgirəm mən özüm pənceyi-molladə, hənuz.

Mənə nə, oldu ləgədkubi-əcanib İran,
Ya ki, məşrutəni aldı yenidən Səttarxan.
Bu Sipəhdar, bu Səmsam, bu da Bağır xan,
Mən ki can verməDəyəm xəncəri-cəlladə, hənuz.

Demə məşrutəni aldıq, dəxi yoxdur qəmimiz,
De ki, hə, varmı bütün yaralərə mərhəmimiz
Rahi-ahənlərimiz, fabrikalar, mədənimiz,
Hanı cəngi gəmilər sahili-dəryadə, hənuz.

Mülkümüzdə hanı de: müntəzəm əsgərlərimiz,
Məktəbü mədrəsələr, gənc müəllimlərimiz,
Tiyatr, dari-şəfa, sənətimiz, fənlərimiz,
Hanı, tək bircəsi yox hazırü amadə, hənuz.

Məncə, bunlar nəyə lazımdı, behişt olmalıdır,
Huri, qılman təməi qəlbə sirişt olmalıdır.
Səri-dəftərdə pilov ləfzi nəvişt olmalıdır,
Çünki molla çalışır: qarnını abadə, hənuz.

Söyləmə, hakimi-mütləq o şəhi-ədnadır,
Söylə: hər gün mənə hakim kəsilən molladır.
Molla Qəmbərdi yenə, mollanüma Yəhyadır,
Başıma noxta vuran, payimə qəlladə, hənuz.

*Şəmşirək*
*"Zənbur", 1909, № 12*



## ALMASA GƏR QIZLARIMIZ TƏRBİYƏ

Almasa gər qızlarımız tərbiyə,
Görməsə məktəb Səfiyə, Mərziyə,
Qalsa gər iş təkcə Pirimverdiyə,
Çatmayacaq əllərimiz kərdiyə!

Məktəb isə xaneyi-imanımız!
Elm isə gər cismimizə canımız,
Getməlidir məktəbə səbyanımız,
Cümləsi qızlar, həmi oğlanımız,
İş qala gər təkcə Pirimverdiyə,
Çatmayacaq əllərimiz kərdiyə!

Çünki tərəqqi iki ünsürdədir,
Zalxa, Tükəzban, həmi Qənbərdədir.
Sən demə yox, yox, bizim Əjdərdədir,
Madər olur tiflə verən tərbiyə,
Validə eylər vələdin tərziyə!

Olsa əgər elmli mərd ilə zən,
Millət edər kəsbi-sənaye və fən,
Çıxmasa meydanə əqiqi-Yəmən,
Harda tərəqqi edər əhli-vətən
Ta ki, girib nuri-əməl pərdiyə,
Çatmayacaq əllərimiz kərdiyə.

Olmasa təğyirü təbəddül bu hal,
Etməsə qızlar hamı kəsbi-kəmal,
Oylə qalarsa yenə binitqü lal,
Bəncə, tərəqqi olacaqdır məhal.
İş qala gər təkcə Pirimverdiyə,
Çatmayacaq əllərimiz kərdiyə!

*Şəmşirək*
*"Zənbur", 1909, № 14*

## MİFTAHÜLFƏRƏC

Düşmən çoxaldı seyltək,
Əssəbrü miftahülfərəc!

Qızdı camaat filtək,
Əssəbrü miftahülfərəc!

Səbr eylə, "Zənbur", ağlama,
Qəlbi-fikarı dağlama,
Kağız-kitabı bağlama,
Müstəqbəli lağlağlama,
Əssəbrü miftahülfərəc!

Eylə təhəmmül zillətə!
Təkfirə, tənə, lənətə,
Baş ol beyinsiz millətə,
Bəlkə çıxar əmniyyətə,
Əssəbrü miftahülfərəc!

Batmışdı bir gün bir ulaq
Palçıqda biquyruq, qulaq,
Həm sahibi qoldan çolaq,
Barı genə söylərdi lağ
Əssəbrü miftahülfərəc!

Nəs-nəs dinib asqırma tək,
Yanmış şama vurma ətək.
Şan-şan da olsan çün pətək,
Səbr et, yesən də min kötək,
Əssəbrü miftahülfərəc!
Ay səbri-miftahülfərəc!

*Şəmşirək*
*"Zənbur", 1909, № 15*



## QAZET YAZANLAR...

Pozdu işi bu qazet yazanlar!
Çoxdandı ki, qaynamır qazanlar!

İşlər dolaşıb, dönüb zəmanə,
Yel əsdi, dağıldı aşiyanə!
Gəlmir, kəsilibdir abü danə.
Çoxdandı ki, qaynamır qazanlar!
Pozdu işi bu qazet yazanlar!

Çıxdı əli paxlalı plovdan,
Dolma, küküdən, kabab, çilovdan.
Minbərdə deyirdi Molla Qurban.
Çoxdandı ki, qaynamır qazanlar!
Pozdu işi bu qazet yazanlar!

Gəldi rəcəb ayı, mahi-ehsan,
Ardınca gəlir bunun da şəban.
Keçmişdəkilər hanı, de, əlan?
Möminləri azdırıb, azanlar!
Pozdu işi bu qazet yazanlar!

Keçmişdə bu ayları müsəlman,
Hazırlar idi pilov, fisincan,
Moizə elərdi Molla Qurban:
İndi dəxi qaynamır qazanlar!
Pozdu işi bu qazet yazanlar!

Bu qurbağalar, ilan-çayanlar,
Hər bir əməli lağa qoyanlar.
Ax, bu qazetə-zada uyanlar!
Mollalığa lap quyu qazanlar!
Pozdu işi məsxərə yazanlar!

Hardan ki, ona olurdu hasil!
Beş şahi: ora çəkildi hail,
Yoxdur, kəsilib rəhi-mədaxil,
İndi dəxi qaynamır qazanlar!
Pozdu işi bu qazet yazanlar!

*Şəmşirək*
*"Zənbur", 1909, № 16*

## BİARSƏN

Mən oylə bilirdim ki, mana yarsən,
Aqilü fərzanəvü huşyarsən.
Əhdli, peymanlı, vəfadarsən.
Mən nə bilim şeyxlə həmkarsən,
Tənbəlü biqeyrətü biarsən!

Parçalayır sinəni İran səsi,
Milləti-məzlum, pərişan səsi.
Gündə gəlir qan səsi, viran səsi,
Yoxsa eşitmir qulağın, karsən,
Ax, necə bihimmətü biarsən!

Sən hələ məxmuri-meyü çərsü bəng,
Ümməti-biçarədə yox ruhü rəng.
Hey atılır ərzimizə tir, səng.
Səktələnir: olma xəbərdar sən,
Çünki özün zülmə tərəfdarsən!

Qaldı vətən təhlükədə, xofnak,
Batdı qızıl qanə o torpaği-pak.
Etmədin əsla qəminə iştirak.
Abdəsən, nəxleyi-bibarsən,
Ölməyə, billahi, səzavarsən!

Bilmədim istəklisən əğyar ilən,
Şah ilə, həm şeyx ilə, əşrar ilən,
Qurbağa, kərtənkələ, şəhmar ilən,



Zalimü cabbarla həməfkarsən!
Fitnə-fəsad əhlinə sərkarsən!

Fasiqü bidinə həvadarsən!
Əskicə kalayə xridarsən!
Alimi-bimənntiqü biarsən!

*Şəmşirək*
*"Zənbur", 1909, № 17*

## EY MÜTRÜBEYİ-DÖVRİ-TƏCAHİL

*"Ey mütrübeyi-dövri-təməddün"*
*ünvanlı əşarə nəzirə*

Çal zurnavi, hürriyyəti mədhuş edəlim, çal!
Ver cami-səfalət, alalım, nuş edəlim, çal!
Həp köhnələri məst və bihuş edəlim, çal!
Müstəqbəli mətruk, fəramuş edəlim, çal!
Yanmaqda olan şəmi fəramuş edəlim, çal!
Çal, üstümüzə aləmi xəndan edəlim, çal!
Çal, düşməni-müstəqbəli şadan edəlim, çal!

Ey dilbəri-mazi! A gözəl quli-biyaban!
Sal çadireyi-zülmətini, etgilə pünhan!
Qoyma ola xurşidi-cahantabı nümayan,
Sən eylə qaranlıq, qoy ola nur gürizan,
Dərdü qəmi-millətdə ikən tazəpərəstan,
Çal, onları hər ləhzə pərişan edəlim, çal!
Çal, zülmət ikən aləmi talan edəlim, çal!

Qoyma, səni birdən yaxalar bu mədəniyyət,
Pamali-həqiqət olar-a... qeyri-həqiqət.
Xoşdur bizə bu geydiyimiz cildi-xəriyyət,
Var qorxusu, göstərsə üzün feyzi-təbiət
Bir xətvə qabağə gedə, qoyma bəşəriyyət.
Çal, çal, vətəni, milləti viran edəlim, çal!
Çal, qəflət ilə ömrü də payan edəlim, çal!

Əsdikcə nəsimi-şəbi-deycuri-cəhalət,
Ənfasimizə bəxş eləyir zülmü zəlalət.
Yatdıqca müyəssər olur insanə səadət,
Hətta oyanır cismdəki xuni-ləamət.
Ey xoş ona kim, annamayır sudü xəsarət.
Çal, faidəmizdir, hələ dövran edəlim, çal!
Çal, mütrübə! Məmurəni viran edəlim, çal!

Çal, mütrübə! Könlümdəki alamı bütün sil,
Çal, oynayalım, rəqs edəlim, qalmaya nisgil,
Çal zurnavı, vur dümbəyini, olgilə xoşdil,
Çal, eyləmə təqsir, a bədruy, a bədgil,
Çal, arifi-bidinin ola işləri müşkil.
Çal, aşiqi-müstəqbəli heyran edəlim, çal!
Çal, hamımıza hər kəsi girdan edəlim, çal!

Təkfir edəriz zümreyi-əhrari-cəhani,
Təlin edəriz tazəpərəstani-zəmani.
Nifrin edəriz kim ki, bəyənməz üləmani,
Biz də görərizmiş belə bir əsri-fənani?
İmdad elə mazi! Ələ al çəngi, çəğani,
Çal, nəğmeyi-məhudunu üman edəlim, çal!
Çal, atəşi-Nəmrudunu suzan edəlim, çal!

Əslafımızı yad ilə gəldikcə xəyalı,
Alqışlayalım, yığmayalım vizrü vəbalı.
Əbdül Hamidin, boynu yoğun şahi-şəğalı,
Şeyxani-hüda, vəhdəti, fəzli, nə kəmalı,
Çal, mütrübə! Çal, çəngü neyü sazü qəvalı,
Kamilləri də vasili-niran edəlim, çal!
Qəbrində Atabəkləri suzan edəlim, çal!
Çal, düşməni-hürriyyəti rəqsan edəlim, çal!
Çal, üstümüzə aləmi xəndan edəlim, çal!
Çal, tazəpərəstanı peşiman edəlim, çal!

*Şəmşirək*
*"Zənbur", 1909, №18*



## MƏDƏLİ

Vah, bu imiş, bəs, hünərin Mədəli?!
Qışqırığın, şurü şərin Mədəli?!

Aləmi basmışdı səsin, sövlətin,
Sinələrə dolmuş idi heybətin.
Titrədir idi hamını sətvətin,
Gündə gəlirdi xəbərin, Mədəli?!
Vah, bu imiş bəs hünərin, Mədəli?!

Biz elə bildik ki, sən agahsən,
Təxti-Cəmin sahibisən, şahsən,
Zillüllahi və Yədullahsən...
İndi hanı? Yox əsərin, Mədəli?!
Vah, bu imiş bəs hünərin, Mədəli?!

Biz səni fikr eylər idik əjdəha,
Niyyətimiz oldu bütün bərhəva.
İndi edibsən nərəyə iltica,
Arvad, uşağın, pəsərin, Mədəli!
Vah, bu imiş bəs hünərin, Mədəli?!

Annamıram mən hələ bu illəti
Kim, niyə məhv eyləmədin milləti?
Axırı çəkdin bu yerə ümməti:
Düşdü ələ taci-zərin, Mədəli!
Harda qalıb taci-sərin, Mədəli?

Oldu siyəhpuş bütün irtica,
Yekcəsini qapladı dərdi-səda.
Eylədilən səltənətə əlvida,
Düşdü uzağə səfərin, Mədəli!
Vah, bu imiş bəs hünərin, Mədəli?!

Qalmış idi harda Bəhadır cəfəng
Eylədilər başına dünyanı təng,

Eyləmə İranda təfəqqüf, dirəng,
Oldu Krım rahgüzərin Mədəli!
Düşdü uzağə səfərin, Mədəli!

*Şəmşirək*
*"Zənbur", 1909, № 20*

## BİZİMKİ DEYİL

Çəkmə qeydi-bəşəriyyət, nə sənindir, nə mənim,
Kəndinə vermə əziyyət, nə sənindir, nə mənim.

Gecələr fikr eliyib, gündüzü bihuş olma,
Sübhdən şamə kimi məst və mədhuş olma.
Nizeyi-dərdü ğəmi-millətə sən tuş olma,
Eyləmə boş yerə söhbət, nə sənindir, nə mənim,
Demə nəqli-mədəniyyət, nə sənindir, nə mənim.

Özünü sən gətirib qatmagilən islamə,
Başına şapqa geyib, əyninə rusi camə,
Hanı çiynində əba, başda səfid əmmamə?
Demə, ey vay şəriət, nə sənindir, nə mənim,
Ağlama halına, millət nə sənindir, nə mənim.

Sən qarışma, baba, bilmərrə müsəlman işinə,
Hacı Osman, Kuzəçi Molla Süleyman işinə,
Babisən, babini tap, girmə bu nadan işinə,
Bacarırsan elə sirqət, nə sənindir, nə mənim,
Çəkmə qeydi-bəşəriyyət, nə sənindir, nə mənim.

Bilmirəm mən nəyə lazımdı cəhani-fani,
Buraxım bundan ötür huriləri, qılmani,
Gözümə dikməgilən məsələyi-nisvani,
Sözümə qıl təbəiyyət, nə sənindir, nə mənim,
Çəkmə qeydi-bəşəriyyət, nə sənindir, nə mənim.



Nədi qanuni-əsasi, nədi bu hürriyyət,
Nə müsavat, nə ədalətdi, nə insaniyyət,
Nə yığıncaqdı, nə məclisdi, nə məşrutiyyət,
Nə şərafətdi, fəzilət nə sənindir, nə mənim,
Çəkmə qeydi-bəşəriyyət, nə sənindir, nə mənim.

Baxma, qəlbin bulanar, mərəkeyi-İranə,
Eyşü nuş ilə gedib sür kefini məstanə,
Çünki dünyadə bu yatmaq qalacaq insanə,
Nəyə lazımdır əziyyət, nə sənindir, nə mənim,
Eylə dərguşi-nəsihət, nə sənindir, nə mənim.

*Şəmşirək*
*"Zənbur", 1909, № 27*

## A QIZLAR

Ey elmsiz aləmdə yanan narə, a qızlar!
Taleləri mənhus, günü qarə, a qızlar!

Hər dəm sizi gördükcə bu növ ilə ləkənti,
Bielmü ədəb, yeksərə murdar və pinti,
Gəh evdə, gəhi kuçədə işsiz, səpələnti,
Veylanə, zəlilanə və avarə, a qızlar!
Yannam belə gördükcə mən odlarə, a qızlar!

Ey milləti-islamın edən nisfini təşkil,
Etməzmisiniz siz bu fəna şivəni təbdil.
Olduqca belə elmü hünərsiz, qara məndil,
Təsir edəcək pisliyiniz yarə, a qızlar!
Ey qəsb olunan həqləri, biçarə, a qızlar!

Təhsilinizə mədrəsə təyin edirizmi?
Ayəndənizi biz hələ təmin edirizmi?
Bu fikri bütün millətə təlqin edirizmi?
Yox! Millət uyuşmaz belə göftarə, a qızlar!
Lənət oxunur sahibi-əfkarə, a qızlar!

Çox sinədə var dağı-siyəhrəng, çü lalə,
Çün hali-bədavət sizi yetdirdi zevalə,
Bundan da yaman hal gəlirmi, de, xəyalə?
Heyvan kimi çəkdik sizi bazarə, a qızlar,
Satdıq sizi hər köhnəyə, kaftarə, a qızlar!

İstəkli vətən gülləri! Sizsiz yaz açılmaz,
Siz elmsizin nuri-məarif də saçılmaz,
Gün çıxmasa zülmati-şəbistan qaçırılmaz,
Sizdən umulur çarə bu azarə, a qızlar!
Həm tərbiyə, təlim uşaqlarə, a qızlar!

*Şəmşirək*
*"Zənbur", 1909, № 33*

## ƏLHƏMDÜLİLLAH

Əlhəmdülillah, işlər yubandı,
Dövri-zəmanə tərsə dolandı.
İl karvanı qaldı, dayandı,
Oldu qaranlıq, gün daldalandı.
Hər gün çapıldı, hər gün talandı,
Axır "Tərəqqi" işdən usandı.
Çün "İttifaq"ı cəbrə qapandı:
Şad oldu millət, ay maşaallah,
İşlər yubandı, əlhəmdülillah...

Hər ildə çıxdı bir ruznamə,
Elan olundu xasü əvamə.
Olduq qazetli! İrdik də kamə,
Beş gün yazıldı, yetdi təmamə,
Qurtardı kağız, həm sındı xamə,
Çılpaq qılınctək girdi niyamə,
Bağlandı, işlər çatdı xitamə.
Çünki ziyandır, vallah və billah,
İşlər yubandı əlhəmdülillah...



Bilməm, həqiqət, kimdir müqəssir?
İşlər gedir həp bərəksi-tədbir!
Olmuş əzəldən ya boylə təqdir?
Boş-boş nədir bu göftarü təqrir?
Lafü kəzafü təbirü təfsir?
Etdi qənilər iflas bir-bir,
Ya kim, deyildir millət qəzetgir?
Yansın bu millət, batsın görüm, ah,
İşlər yubandı, əlhəmdülillah...
Əlhəmdülillah... əlhəmdülillah...

*Şəmşir*
*"Zənbur", 1909, № 3*

## ƏDƏBİYYAT, YAXUD MİNACAT

Çubi-"Mollayə", nişi-"Zənbur"ə
Aqila, bir dəva tapılmazmı?
Bu bəlayi-əzimi-məşhurə,
Alima, bir dua tapılmazmı?

Əsri-axırda "Molla Nəsrəddin",
Etdi iğva cəmaəti, bidin.
İşbu "Zənbur" bihəya və ləin,
İndi də qoydu payi-mənşurə
Vay, bir rəhnüma tapılmazmı?

Yoxmu, zi iqtidar bir cindar,
Tas elmində alimü huşyar.
Eyləsin cinn qövmünü ehzar,
Eyləsinlər əlac rəncurə,
Bircə alimnüma tapılmazmı?

Aldı ətrafi-ümməti qəmlər,
Getdi əldən şəriəti-əthər,

Hardadır Giv, Tus, Rüstəmlər
Payimal oldu mollalar murə,
Ah, bir canfəda tapılmazmı?

Ah, əfsus, olduq avarə,
Abru getdi, yandıq odlarə.
Yoxmu bu mübtəlayə bir çarə?
Oldu viranə qəlbi-məmurə...
Bu qəmə intəha tapılmazmı?
Bircə möcüznüma tapılmazmı?
Rəbbəna, rəbbəna! Tapılmazmı?

*Şəmşirək*
*"Zənbur", 1909, № 36*

## VİRAN GÖRÜRƏM

Baxıram hər tərəfə, işləri viran görürəm,
Gedirəm hər yana, əhvalı pərişan görürəm.
Batili həqq, həqqi batil, işi əyri, düzü pis,
Aləmi-Gəncədə nadanları sədri-məclis,
Elmsiz firqəni varlı, qələm əhlin müflis,
Ürəfanı, üdəbanı belə heyran görürəm,
Baxıram hər tərəfə, işləri viran görürəm.

Hər tərəfdə durur işlər elə əvvəlki sayaq;
Əski dövr, əski rəviş, əski həmam, əski çanaq,
İstəmir bir qədəm atsın iləri üzdəniraq
Ermənilər kimi barı, bu müsəlman görürəm,
Baxıram hər tərəfə, işləri viran görürəm.

Hər kimə nəql eləyirsən mədəniyyət sözünü,
Qabarıb üstünə, hiddətlə bərəldir gözünü,
Əğniya məktəb üçün xərcə salammaz özünü,
Onların malına mollanı nigəhban görürəm,
Baxıram hər tərəfə, işləri viran görürəm.



Əlqərəz, işlərimiz məsxərəyə şayandır,
Millətin qibləsi molla ilə bəydir, xandır,
Afiyətbəxş deyil, illəti bidərmandır,
Molla baziçəsidir, xeyli müsəlman görürəm,
Adəmiyyət yolunun səddini şeytan görürəm.
Aşikar eyləmirəm, yaxşıdı pünhan görürəm...
Baxıram hər tərəfə, işləri viran görürəm.

*Şəmşirək*
*"Zənbur", 1909, № 37*

## LÖVHİ-MƏKATİB

Məkatib bir təzəlzülgahi-şərü elmi-ədyandır,
Məkatib bir təcəlligahi-bidinani-küfrandır.

Məkatib bir tədənnigah, zülmətgahi-ümmətdir,
Məkatib cilvəgahi-milləti-biəqlü imandır.

Məkatib bir zəlalətxanədir kim, məşqü təlimi
Hiylədir, fitnədir, bijlik, bütün əmali-şeytandır.

Məkatib bir bəlayi-nagəhan mazipərəstanə,
Məkatib bir ziyabəxşayi-qəlbi-növpərəstandır.

Məkatib bir dikəndir çeşmi-nahəqbini-mollayə,
Məkatib bir dəvayi-dərdi-çeşmi-nopərəstandır.

Məkatib kim deyir ki, mənbəyi-nuri-maarifdir?
Məkatib rəhnümayi-inqilabü kani-üsyandır.

Məkatib gülşənistani-ədəbdir – derlər, amma kim,
Məkatib möhnətəfza, bircə xaristani-xəsrandır.

Məkatib baisi-ibqayi-millətdir demə, haşa!
Məkatib başlıca alati-təxribati-kənkandır.

Məkatib dandırır, əstəğfürullah, gavü mahini,
Məkatibdə müəllimlər deyirsənmi müsəlmandır?

Məkatibdə edir təhsil uşaqlar xarici elmi,
Olur süst etiqadı, sanki erməη, rus, yunandır.

Məkatibdə bütün adati-əslafın olur fani,
Nə işdir bu, nə bidətdir, babam, məktəb nə virandır?

Məkatib qurtaran tərcih edər dünyanı üqbayə,
Məkatib qurtaranlar münkiri-cənnati-rizvandır.

Üsuli-tazə məktəb? Ax bu məktəblər, bu viranlar,
Bulardır mənbəyi-mürtəd, babi, küfrü moltandır.

Nədir, Allahu əkbər, bunca tüğyan, bunca küfranlıq?
Deyirlər hərlənir Yer, fırlanır Gün, əql heyrandır.

Edirlər iddia bəziləri kim, Ay, ulduzlar
Ziyayi kəsb edir Gündən, yalandır, məhz böhtandır.

Sığarmı əqlinə bir zərrə imanı olan şəxsin,
Batarmı beyninə bunlar?! Bu işlər sirri-pünhandır!

Vəli, məktəblər artdıqca, mənim də qəmlərim artır,
Çoxaldıqca həvəskarı, mənim halım pərişandır.

Məkatib qurtaranlar istəyir hürriyyəti-nisvan,
Bu məşrutə, bu hürriyyət filandır, bir də behmandır.

Bu istəklər bütün ziddi-şəriətdir, təriqətdir,
Hicabı sevməyənlər hər vilayətdə nümayandır.

Şəriət istəyənlər hər tərəfdə xarü zar oldu,
Yazıq "dini-məşəqqət" dəmbədəm çaki-giribandır.

Xülasə, məktəbə allanmayın siz, ay müsəlmanlar!
Kim olsa aşiqü talib ona, axır peşimandır.

Yazıqdır, verməyin məktəblərə biçarə səbyanı
Deyil məktəb, deyil məktəb, bu viranxanə zindandır.

*Şamşirək*
*"Zənbur", 1909, № 42*



## DE

Bakı demə, şəhri-mülazəl füqəra de!
Bakı demə, bir mənbəyi-molla, füqəha de!
Bakı demə, bir kaşifi-əsrari-xəfa de!
Bakı demə, bir mədəni-ənduhü bəla de!

Bakı deyirəm, bak edirəm yol kəsənindən,
Xof eyləyirəm həm yağanından, osənindən.
Mən qorxuram Allahqulusundan, Həsənindən,
Əfsanə demə, sözlərimə sidqü səfa de!
Bakı demə, bir mədəni-ənduhü bəla de!

Canım sıxılır Məşhədi Abbasını görcək,
Rəngim qaçır a... beldə kərastasını görcək,
Halım pozulur seyyidü mollasını görcək,
Molla demə, ağayi-əmirilümərə de!
Bakı demə, bir mənbeyi-molla, füqəha de!

Bakı sözü Avropada övradi-zəbandır,
Bakı qoçusu sərvəri-əşrari-zəmandır.
Bakı, Quba meydanına bax, dopdolu qandır,
Bakılı demə, əhlinə, pamali-cəfa de!
Bakı demə, bir mədəni-ənduhü bəla de!

Bakıda gedibdir qabağa xeyli maarif...
Artıb nə qədər intiligent, alimü arif,
Olmuş neçə milyon bu cənabanə məsarif
Bakıya de, bunlarda tapılmazmı dəva, de?
Bakı demə, bir məcmeyi-əhli-ürəfa de!

Mollalıq ibarətdi əba ilə qəbadan,
Ariflik özü büxlü həsəd, şürbü zinadan
Kim der ki, əsər yox belə Bakıda vəfadan?
Bakı demə, cövlangəhi-əşyaxi-səba de!
Bakı demə, illətlər üçün dari-şəfa de!

Bakı demə, almış yeni bir rəng, yeni bu,
Bakıya de, əski, yeni pir, kaşifidir bu.

Bakıda demə dilbəri-hürriyyət açar ru,
Bakıda əsarətdədi bilfeil nisa de!
Bakı demə, bir məskəni-cəlladü cəfa de!

Bakı demə, darül-ələmi-fəqrü gəda de!
Bakı demə, bir məxzəni-ərbabü ğina de!
Bakı demə, bir mərhəmətü lütfi-xuda de!

*Şəmşir*
*"Zənbur", 1909, № 42*

## AMALİ-HÜRRİYYƏT

*Möhtərəm Sabirin bir şerinə nəzirə*

Münadi qeybdən hər gün deyir təkbiri-hürriyyət!
Verir hatif bizə hər ləhzədə təbşiri-hürriyyət!

Əgərçi zahirən meydani-hürriyyət dolu qandır,
Axır xuni-şəhidan seyltək bipayü payandır,
Bütün ətrafı ədlin, gərçi adəmxar heyvandır,
Üşünmə, qorxma, onlar cümləsi biruh, bicandır,
Müqabildə duranlar şirdən qüvvətli insandır!
Demə, hürriyyət olmaz ölkəmizdə, qeyri-imkandır,
Münadi qeybdən hər gün deyir təkbiri-hürriyyət!
Verir hatif bizə hər ləhzədə təbşiri-hürriyyət!

Amandır, eyləmə hər gün məni amaldən növmid!
Olan cari bu gün İrandakı əhvaldən növmid,
Demə, mən olmaram hər sözlə istiqbaldən növmid,
Hərasan olmam istibdaddən, iqbaldən növmid,
Olurmu aşiqi-hürriyyəti-nosaldən növmnd?
Olum, söylə, necə zibayi-biəmsaldən növmid?
Verir hatif bizə hər ləhzədə təbşiri-hürriyyət!
Münadi qeybdən hər gün deyir təkbiri-hürriyyət!



İnan, minbəd olmaz dəhrdə xoşbəxt, istibdad,
Uzaq getməz, yüzi quylu düşər həm bəxti-istibdad,
Olur da cilvəgahi-ədl, tacü təxti-istibdad,
Alır pişi-ədalətdə cəzayi-səxt istibdad,
Olur hürriyyətin pamalı, əsrü vəqti-istibdad,
Ədəm dünyasına etməkdə nəql, rəxti-istibdad,
Verir hatif bizə hər ləhzədə təbşiri-hürriyyət!
Münadi qeybdən hər gün deyir təkbiri-hürriyyət!

Deməm ki, imdilik bənzər vətən səhni-gülüstanə,
Deməm ki, düşməyib əhli-vətən kuhü biyabanə,
Deməm ki, batmayıb xaki-vətən yaquttək qanə
Vəli, əhrari-İran bir təsəlli bəxş edif canə,
Keçibdir malü canından diliran mərdü mərdanə,
Həqiqət cadəsində gör nə eylər piri-hürriyyət!
Vətən məxrubəsin abad edər tədbiri-hürriyyət!

Deyil İran, bütün afaqı dutmuşdu şu istibdad,
Edildi bilmürur Avropa işbu qeyddən azad.
Dünən çəngali-istibdaddə etmirdimi fəryad?!
Olundu iştə osmanlı bu gün hürriyyət ilə şad!
Olur bir gün, görür aləm, olub İranzəmin abad,
Dağılmazsa, yığılmaz, bir məsəldir, söyləmiş əcdad.
Verir əhvali-halə büsbütün təğyir hürriyyət!
Qələm azad olur, Bikəs yazar təbşiri-hürriyyət!

*Əli Məhəmmədzadə Sərabi*
*"Tərəqqi", 1909, № 144*

## BU DA BİR BAHAR

Fəsli-güldür, aləm içrə nobahar olmuş, könül!
Bülbülü qumri çəməndə biqərar olmuş, könül!

Əndəlibasa, könül, bir sən də dəmsaz ol da gəl!
Çıx yuvandan, gülşəni-millətdə pərvaz ol da gəl!
Aşiqi-dildadələrtək nəğməpərdaz ol da gəl!
Bülbüli-gülzar ilə həmrəng, avaz ol da gəl!
Çünki gülşənlərdə gül həmrazi-xar olmuş, könül!

Aldı əldən əqlimi ahü nəvası bülbülün,
Huşu tarac etdi ləhni-dilrübası bülbülün,
Səbrimi yəğma edib suzü bükası bülbülün,
Qıldı dilxun naleyi-biintihası bülbülün,
Od vurub yandırdı canı, dağdar olmuş könül!

Cismimi yaxmaqda hərdəm nari-cansuzi-fəraq
İxtiyarım tellərin kəsməkdə tiği-iştiyaq,
Dilbəri-hürriyyət atmaz gül cəmalından duvaq.
Ah, ey dildari-məhvəş, dilbəri-huri səyaq!
Firqətində qəlb pürxun, əşkbar olmuş könül!

Sinədə ənduhü möhnət, canda suziş, iztirab,
Eldəki cəhlü cəhalət qəlbimi qılmış xərab,
Aləmi-ətraki yeksər qaplamış xeyli-əzab,
Payimali-eyşü zülm olmuş vətən biabü tab,
Əsri qəmdir, seyli-alamə düçar olmuş könül!

Qırmızı qan ilə əlvandır bu gün lövhi-vətən,
Çəngi-istibdaddə qəbz olmada ruhi-vətən.
Tiri-əğyar ilə dolmuş qəlbi-məcruhi-vətən,
Kəştiyi-hifzü xilasə minməyir Nuhi-vətən,
Bikəsa, qəlbi-vətəntək zəxmdar olmuş könül![1]

*Əli Məhəmmədzadə Sərabi*
*"Tərəqqi", 1909, № 144*

[1] "Sijimqulunamə"də: Qəlbi-məcruhi-vətəntək zəxmdar olmuş könül!



## AMANDIR

*"Molla Nəsrəddin"ə xitabən yazılmışdır*

Amandır, bəhsi kəs, Molla, amandır, biqərar olma,
Amandır, eylə bəs, Molla, amandır, xarü zar olma!

Amandır, eyləmə hiddət, gəlib qeyzə, edib şiddət,
Müsəlmanə edib nifrət, aman, tənqidkar olma!

Amandır, binəva Molla, qaranlıqdır həva, Molla,
Cahanda yox vəfa, Molla, aman, qiybətşüar olma!

Nə cövhər, nə ərəzdir bu, vücudində mərəzdir bu,
Məgər səndə qərəzdir bu, aman, biixtiyar olma!

Amandır, eyləmə bidad, ucaldıb naleyi-fəryad,
Əhali dərdini tedad edib də dilfikar olma!

Bizə nə ataşə yandın, səməndərvar odlandın,
Bəhayi, kafir adlandın, qəmü dərdə düçar olma!

Dilində söhbəti-məktəb, edirsən vird ruzü şəb,
Nədir məqsəd, nədir mətləb, əyan et, şərmsar olma!

Büründün şeyx əbasına, girib molla libasına,
Soxuldun xəlq arasına, kənar ol, biqərar olma!

Çəkil, dürtülmə ortayə, sataşma şeyxə, mollayə,
Verilməz pul bu kalayə, aman, qiybətnigar olma!

Kəsilmiş səbrü aramın, dolubdur zəhr ilə camın,
Yatıbdır qövmi-yamyamın, ayılmaz, intizar olma!..

Demə bu əbdi-mollayə, ki dursunlar təmaşayə,
Balonla övci-əlayə uçurlar, didədar olma!

Olarda nə rücuin var, sənin əslən füruin var,
Sücudin var, rükuin var, şəriətdən kənar olma!

Nədir xud əhli-Yevropa, edirsən vəsf sər ta pa,
Nə oldu həzrəti-papa, buyur, bietibar olma!

Demə kim, xamdır millət, danış, biz də edək diqqət,
Nədir qəlbindəki niyyət, de, söylə, lalü kar olma!

Əbəsdir nəqli-hürriyyət, duyubdur fikrini ümmət,
Gərək təhsil edə övrət? – Ona ümmidvar olma!

A birəhmü cəfa göstər, deyibdir hansı peyğəmbər
Ki, getsin məktəbə düxtər? – Belə binəngü ar olma!

Bax İncilə və Tövratə, əhadisə, rəvayatə,
Nədir hürriyyət övratə, amandır, qərqi-nar olma!

Ağarmış saqqalın, başın, keçibdir yetmişi yaşın,
Qırıldı yarü yoldaşın, dayanma, payidar olma!

Keçər bir gün giribanın əlinə əhli-imanın,
Qalar cismin, gedər canın, amandır, biməzar olma!

Düşərsən dəsti-cəlladə, yetişməz kimsə imdadə,
Gedərsən yoxluqabadə, ənisi-murü mar olma!

Eşit vəzim, eşit pəndim, sana zəhr olmasın qəndim,
Eşitdim mən də əyləndim, eşit sən də, fərar olma!

Amandır, eyləmə xidmət, verilməz xidmətə qiymət,
Götür, mollayə bax ibrət, nihan ol, aşikar olma!

İnanma qövmi-kəmnamə, bu əhli-Kufə və Şamə,
Düşərsən axırı damə, amandır, qəmküsar olma!

Budur, dörd il tamam oldu, sana kim, söylə, ram oldu,
Eşit, xətmi-kəlam oldu, piyan olma, xumar olma!

*Məşədi Sijimqulu*
*"Molla Nəsrəddin", 1910, № 3*



## VAİZLƏRƏ BAX...

Vaizlərə bax, gör necə təqrir ediyorlər!
Möminləri qılman ilə təbşir ediyorlər!

Ruhin çıxarır cismdən ərbabi-behiştin,
Bəhcət verərək dillərə, təmir ediyorlər!

Bir tac qoyub başına cənnətdə qızıldan,
Ləbbadəni, həm camənі təğyir ediyorlər!

Məşruəçilər cəm olunur ziri-əbayə,
Məşrutəni məhv etməyə tədbir ediyorlər!

Derlər ki, cəhalətdədir, üqbayi-təməddün
Cahilləri də boylecə təbxir ediyorlər!

Arifləri, alimləri bidin oxuyurlar,
Ahilləri, gahilləri təthir ediyorlər!

Köhnə, çürümüş sözlərini nəqdə satırlar,
Milliyyəni söhbətləri təkdir ediyorlər!

Jurnal, qəzetə səddi-şəriətdi, deyirlər,
Qarelərini yeksərə təkfir ediyorlər!

Zahidləri sər süfrədə əyləşdiriyorlər,
Bir nəhv ilə əmsalını təksir ediyorlər!

Mollalara irad edəni tapdalıyorlər,
Kəndi günəhin hər biri təstir ediyorlər!

Minbərdə fəsad əhlinə lənət oxuyurlar,
Xud molla danosbazları təqdir ediyorlər!

Bin gunə təməllüq ediyorlər ümərayə,
Adabi-təvazö deyə təbir ediyorlər!

Hürriyyeti-nisvan deyəni həbsə alırlar,
Arifləri hər növ ilə dilgir ediyorlər!

Bundan sora jurnalları gizlin oxuyun ha...
Həp qətlinizə hökm də təhrir ediyorlər!

*Kefsiz*
*"Molla Nəsrəddin", 1910, № 4*

## NİSGİL

Sən deyirsən, Molla, mən biçarə arvad almayım?
Evdə bir ifritə vardır, bir pərizad almayım?

Neyləyim bəs, almayım bir dilbəri-məhparə mən?
Gəlmişəm bu adi arvadın əlindən zarə mən.
Olmuşam pabənd bu heyvanə, bu kaftarə mən,
Yanmışam, vallah, sənin başın üçün, odlarə mən.
Bəs gedib bir dilbəri-xoşru alıb, dad almayım?
Evdə bir ifritə vardır, bir pərizad almayım?

Molla! İnsaf eylə, yarım-yoldaşım evləndilər,
Tazə arvad aldılar, aldıqda siğələndilər,
İş görüb ad aldılar, zövqə baxıb kefləndilər,
Bir pəriru tapdılar, ifritədən iyrəndilər,
Mən hələ onlardan artıq iş görüb, ad almayım?
Evdə bir ifritə vardır, bir pərizad almayım?

Gəlmişəm təngə əlindən, bil ki, canə doymuşam,
Yarmışam başın vurub, qıç-qolların sındırmışam,
Bu yavuqlarda hələ bir qat günündən soymuşam.
Əngini laxlatmışam, həm gözlərini oymuşam,
İndi bir siminbədən, mən xanəbərbad almayım?
Evdə bir ifritə vardır, bir pərizad almayım?

Gün deyil, həftə deyil, bir ay deyil, bir il deyil,
Bir belə dərdə, qəmə dözmək məgər müşkül deyil?



Ömr azaldı, bel büküldü, Molla! Bəs nisgil deyil?!
Nazı küsmək, söhbəti acı, dili bir dil deyil,
Dilbilən, bir canalan, bir qəddi şümşad almayım?
Ömrümün axır dəmində olmayım şad, almayım?
Evdə bir ifritə vardır, bir pərizad almayım?

*Məşədi Sijimqulu*
*"Molla Nəsrəddin", 1910, № 5*

## RƏHİMXANIN MƏHƏMMƏDƏLİYƏ ƏRZİ-HALI

Tacidarım! Yanına gör necə şadan gəlirəm!
Mal, dövlət götürüb, xürrəmü xəndan gəlirəm!

Sən gedəndən bəri İranda çox andım da səni,
Fitnədə, zülmdə hətta belə dandım da səni,
Mindirə bilmədim öz təxtinə, yandım da səni;
Mülki-İranə vurub atəşi-suzan, gəlirəm!
Mal, dövlət götürüb, xürrəmü xəndan gəlirəm.

Ərdəbili, Əhəri, Əkrəni viran elədim,
Dağıdıb cümlə dehat əhlini talan elədim;
İki-üç min kişini qanına qəltan elədim;
Qılıcım qanlı, əlim qan ilə əlvan gəlirəm!
Mal, dövlət götürüb, xürrəmü xəndan gəlirəm!

Yanıma gəlmiş idi çoxlu tərəfdarların,
Molla Qurbanəlilər, bir neçə həmkarların.
Şahsevən atlıları, firqeyi-biarların,
Eylədim cümləsini mən sənə qurban, gəlirəm!
Mal, dövlət götürüb, xürrəmü xəndan gəlirəm!

İstədim bir də səni şah eləyim İranə,
Olmadı mümkün, edəm məmləkəti viranə,
Qənim olsun çörəyin Yefremə, Bağır xanə,
Etdilər işləri hər yanda pərişan, gəlirəm!
Mal, dövlət götürüb, xürrəmü şadan gəlirəm!

Qaradağda sayılırdım iki qurdun biri mən,
Nə edim ki, elə hər yanda basıldım geri mən.
Qırılıb batdı qoşun, təkcə qutardım diri mən;
Dirilərtək demə, çün mürdeyi-bican gəlirəm!
Mal, dövlət götürüb, xürrəmü xəndan gəlirəm!

Üstümə oldu hücumavər, o məşrutəçilər,
Döndülər şirə qotur qəhvəçilər, kuzəçilər,
Etmədi tab müqabildəki məşruəçilər,
Xanlığım getdi, belim sındı, gürizan gəlirəm!
Mal, dövlət götürüb, xürrəmü xəndan gəlirəm!

Vermədim mən yaxayı milləti-İran əlinə,
Bələdəm qonşuların çünki bu gün hər dilinə,
İltica eylədim axırda keçib rus elinə,
Ruhsuz bir bədənəm, valehü heyran gəlirəm,
Mat, məbhut, pərişan, peşiman gəlirəm!
Mal, dövlət götürüb, xürrəmü xəndan gəlirəm!
Qılıcım qanlı, əlim qan ilə əlvan gəlirəm![1]

*Məşədi Sijimqulu*
*"Molla Nəsrəddin", 1910, № 6*

## GÜLMƏYİM GƏLİR

Gördükcə qilü qalınızı, gülməyim gəlir!
Etdikcə seyr halınızı, gülməyim gəlir!

Gördükcə elmə, sənətə sizdə birudəti,
Duyduqca qəlbinizdəki kini, küdurəti,
Bir yanda ittifaqı, o biri yanda xüsuməti,
Bir yanda da zəvalınızı, gülməyim gəlir!
Etdikcə seyr halınızı, gülməyim gəlir!

Gördükcə hökmran sizə alimnümaləri,
Zülmətə sövq edən cühəla rəhnümaləri.
Düzdi-təriqi, rast olan hər kəcnümaləri.

[1] Misra jurnalda yoxdur, sonra əlavə olunub.



Həm də yeni xəyalınızı, gülməyim gəlir!
Etdikcə seyr halınızı, gülməyim gəlir!

Söylə, bica deyilmi edəm xəndə, qəhqəhə,
Etdikcə sən sitayiş özündən də əbləhə?
Həm aldanıb quru sözə, bisud pəh-pəhə
Verdikcə mülkü malınızı, gülməyim gəlir!
Etdikcə seyr halınızı, gülməyim gəlir!

Cadu, duanəvisilə etdikcə iftixar,
Etdikcə tasbaz və cindarə etibar,
Əfsaneyi-qələndərə olduqca guşdar,
Açdıqca molla falınızı, gülməyim gəlir!
Etdikcə seyr halınızı, gülməyim gəlir!

Gördükcə sizdə sirqətü qətlü dənaəti,
Pamali-zülm, irzü hüquqi-cəmaəti...
Həm bir tərəfdə zöhd, nəmazü itaəti,
Həm xirqə, həm də şalınızı, gülməyim gəlir!
Etdikcə seyr halınızı, gülməyim gəlir!

Bir yanda pənd, moizə, bir yanda girdar,
Hər yan nifaqü təfriqə, hər yanda intihar,
Minbərdə molla, yerdə də cibgirü hiyləkar,
Gördükcə infialınızı, gülməyim gəlir!
Həm söhbətü səvalınızı, gülməyim gəlir!
Etdikcə seyr halınızı, gülməyim gəlir!

Zülm ilə irtihalınızı, gülməyim gəlir,
Çox müxtəlif məqalınızı, gülməyim gəlir,
Dağlar qədər vəbalınızı, gülməyim gəlir,
Şümrü keçən cəlalınızı, gülməyim gəlir,
Dustaq olan əyalınızı, gülməyim gəlir,
Boş kisə, boş çuvalınızı, gülməyim gəlir!
Etdikcə seyr halınızı, gülməyim gəlir![1]

*Məşədi Sijimqulu*
*"Molla Nəsrəddin", 1910, № 9*

[1] Sonuncu bənd jurnalda yoxdur.

## QOCALDIM

Qocaldım, gedibdir zəmani-şəbabım,
Alınmaz səvalım, verilməz cəvabım!

Qocalmazdı könlüm, qocaltdı zəmanə,
Əyilməzdi qəddim, dönübdür kəmanə,
Ağarmağı muyin olurmuş bəhanə?
Yaxan yox hənanı, edən yox xəzabım!
Alınmaz səvalım, verilməz cəvabım!

Nə munis, nə həmdəm, qapımdan girən yox,
Qocalmış bu arvad, məni dindirən yox,
Nə mütə, nə siğə, bir evləndirən yox,
Çoxalmış günahım, azalmış səvabım!
Alınmaz səvalım, verilməz cəvabım!

Mənabirdə molla edir bu xitabı,
Yazılmış kitabə ki, çoxdur səvabı,
Edən mütə görməz cəhənnəm əzabı!
Qiyamətdə olmaz hesabım, kitabım!
Alınmaz səvalım, verilməz cəvabım!

Budur fikrim: indi alım bircə övrət,
Kühənsalü pirəm, edim eyşü işrət,
Bu aləmdə ləzzət, o aləmdə cənnət!
Bu həqqü hesabım, o karü səvabım!
Gərəkdir şitabım, nədir ictinabım!

*Kefsiz*
*"Molla Nəsrəddin", 1910, № 12*

## AY KİŞİ!

Çəkməyi qeydi-milləti, eyləmə adət, ay kişi!
Batsa tamami-millətin, etmə səxavət, ay kişi!
Dərdü məlali-ümmətə olsa nəhayət, ay kişi,
Etmək olurmu onda bəs kəsbi-şərafət, ay kişi?!



Durma ayağə, çeşmini açma bu xabdən hələ,
Dursan ayağə, başını, bil, salacaqsan əngələ.
Yuxla xorultu ilə sən əlli sənə elə belə.
Xabi-cəhalət içrə həm keyf elə çorsü bəng ilə
Xoşdu bu cəhlü qəflət, çirkü kəsalət, ay kişi!
Batsa tamami-millətin, etmə səxavət, ay kişi!

Uyma qəzet yazanların söhbətinə, səvalına,
Baxma fəqiri-müztərin yanıqlı ərzi-halına.
Vermə pulun uşaqların elmü ədəb, kəmalına,
Xərc elə balü qaymağa, börkə və tirmə şalına,
Beşcə günü ye, iç, kökəl, sağü səlamət, ay kişi!
Batsa tamami-millətin, etmə səxavət, ay kişi!

Alma qəzet, həramdır, jurnala vermə dirhəmi,
Ruzi-cəzadə annına çəsb edəcəkdilər həmi...
Rəngü həna yaxıb qızart, cəm elə rişi-bərhəmi.
Qoyma cərahəti-dili-millətə elm mərhəmi,
Dərdinə qalma bir kəsin, qopsa qiyamət, ay kişi!
Batsa tamami-millətin, etmə səxavət, ay kişi!

Əzbər elə dilindəcə kəlmeyi-küfrü dəmbədəm,
Aləti-kəsb əlindəcə eylə şəriəti, nə qəm.
Qurşağı bağla, kürkü sal çiyninə, ol da möhtərəm,
Qüslü təharət ilə hey dəng elə xalqi, lacərəm,
İstəsələr də bir qəpik, vermə ianət, ay kişi!
Batsa tamami-millətin, etmə səxavət, ay kişi!

*Kefsiz*
*"Molla Nəsrəddin", 1910, № 13*

## QOYMA HA!

Molla, özün işləri təsvib qıl,
Lənətə gəlmişləri tədib qıl.

Lap yekəlib tazələr artmaqdadır,
Köhnələri dərdi saraltmaqdadır.
Məktəbə səbyanları dartmaqdadır.

Olma riza, layihə tərtib qıl,
Lənətə gəlmişləri tədib qıl!

Millət uyub onlara, azğınladı,
Fikr, əqidə, hamı pozğunladı.
İş böyüdü, mərəkə qızğınladı,
Lən ilə, təkfir ilə təzib qıl,
Lənətə gəlmişləri tədib qıl!

Yığ başına Bakı revolbazların,
Gəncə, Nuxa, Qələ qumarbazların.
Həm İrəvan məscidi qanmazların,
Əmr ilə bir xanəli təxrib qıl,
Lənətə gəlmişləri tədib qıl!

Mömine böylə yaşamaq ardır,
Rahət olarmı o ki, dindardır.
Mətləbimiz dirhəmü dinardır,
Eylə kərəm, pulları dərcib qıl!
Lənətə gəlmişləri tədib qıl!

Müşkülə salma işi, təhsil elə,
Eylə danos hakimə, təcil elə,
Səy elə, imanını təkmil elə.
Mollasan, əxlaqını təhzib qıl,
Mömin, özün işləri təsvib qıl!

Çəkmə camaatdən ötür dərdi-sər,
Çək önünə elmü fünunun çəpər,
Sazla cibişdanını, ol bəxtəvər,
Kəndini məclislər üçün zib qıl,
Zinət üçün pulları dərcib qıl,
Lənətə gəlmişləri tədib qıl!

*Məşədi Sijimqulu*
*"Molla Nəsrəddin", 1910, № 17*



## MƏNİM SEVDİYİM

Bir gözəl insandı mənim sevdiyim,
Cismimə bir candı mənim sevdiyim...

İl uzunu dərdini çəkməkdəyəm,
Aylar ilə göz yaşı tökməkdəyəm;
Aşiqiyəm, boynumu bükməkdəyəm.
Dərdimə dərmandı mənim sevdiyim!
Bir gözəl insandı mənim sevdiyim!

Bığları sünbül, yanağı lalədir,
Telləri qırxıx, qabağı malədir,
Saqqalı gül, fırtılığı jalədir,
Peysəri qalxandı mənim sevdiyim,
Bir gözəl insandı mənim sevdiyim.

Qaşı oraxdır, başı çəprəngədir.
Kirpiyi oxdur, səsi berdənkədir,
Ağzı çərək, burnu da girvənkədir.
Rəngi badımcandı mənim sevdiyim!
Bir gözəl insandı mənim sevdiyim!

Qarnı xaşal, qurşağı örkən kimi,
Gözləri göy, sinəsi xərmən kimi,
Həm uzunu, həm eni bəhmən kimi.
Rüstəmi-dəstandı mənim sevdiyim!
Bir gözəl insandı mənim sevdiyim!

Məşhədi, molla, hacı nəqqaldır,
Molla Nəbi, beyzeyi-dəccaldır,
Qəlbi qara, qırmızı saqqaldır.
Quli-biyabandı mənim sevdiyim!
Bir gözəl insandı mənim sevdiyim!

Həsrətini yarımın alman çəkir,
Rus, italyan hərə bir yan çəkir,
Şah belə, sultan belə, bəy, xan çəkir,

Hər baxışı qandı mənim sevdiyim!
Bir gözəl insandı mənim sevdiyim!

Hind, Buxaradadır, Əfğandadır,
Çinü Kiridü Həbəşistandadır,
Fasdə, hər yandadı, İrandadır.
Kabla Süleymandı mənim sevdiyim!
Bir gözəl insandı mənim sevdiyim!

Bir malades versən, evindən çıxar,
Bir "prixod" alsa, dinindən çıxar,
Birce manata vətənindən çıxar.
Molladı, bəy, xandı mənim sevdiyim!
Bir gözəl insandı mənim sevdiyim!

Özgələrə millətini basdırar,
Gənc həvəskarların asdırar,
Özlərini özləri qan qusdurar,
Dininə düşməndı mənim sevdiyim!
Qanına qəltandı mənim sevdiyim!
Nütfeyi-şeytandı mənim sevdiyim!
Bir sürü heyvandı mənim sevdiyim!
Bir gözəl insandı mənim sevdiyim!

*Məşədi Sijimqulu*
*"Molla Nəsrəddin"*, *1910, № 20*

## BAX!

Ay könül, aç didəni, hər yanə bax!
Əsrə bax, ovqatə bax, dövranə bax!
Bir dayan, Təbrizə bax, Tehranə bax!
Əlqərəz, İranə bax, viranə bax!

Rəştə bax, Qəzvinə bax, Kaşanı gör,
Məşhədə, Şirazə bax, Kirmanı gör,



Ənzəli, Behşəhrə bax, Zənganı gör,
İsfahanə qıl nəzər, Gilanə bax!
Əlqərəz, İranə bax, viranə bax!

Baxgilən məşrutəyə, hürriyyətə,
Alimə, alimliyə, ünsiyyətə,
Hiyləyə, təzvirə, iblisiyyətə,
Sonra da bir firqeyi-şeytanə bax!
Əlqərəz, İranə bax, viranə bax!

Gör nə meydangir olubdur köhnələr,
Hər biri bir əjdəha, bir nərrə xər,
O nə əmr eylər, bu nə ifa edər,
Hakimi-Gilanə bax, Tehranə bax!
Əlqərəz, İranə bax, viranə bax!

Gəh olur iranlılar məşrutəçi,
Etidaliyyun, gəhi məşruəçi,
Əsl istibdadçı, məxrubəçi,
Müctəhid, mollanı gör, əyanə bax!
Əlqərəz, İranə bax, viranə bax!

Gəh mücahiddir görürsən qəhrəman,
Gəhi bir cəlladi-zalim, şarlatan,
Gəh elə, gəhi belə, gəhi filan,
Məsləkə, imanə bax, vicdanə bax!
Əlqərəz, İranə bax, viranə bax!

Təsliyətbəxşa deyil yarın işi,
Daxilü xaricdə əğyarın işi,
Düz deyil hətta Sipəhdarın işi,
Məmləkətdə kanə bax, kənkanə bax!
Rusə bax, İngiltərə, Almanə bax!

İrticaə zidd imiş "İrani-no",
"Şərq" tənqid eyləyirmiş nobəno,
Xainin eybin açırmış mubəmu,

Bağlanır yeksər qəzet, çapxanə, bax!
Əlqərəz, İranə bax, viranə bax!

Bu necə məşrutədir, nə əncümən?
Həp rəisi molla, əzası kühən,
Bülbüli-şeydaləri zağü zəğən,
Bənzəyir bir şəhri-hiçistanə, bax!
Ey könül, bu mülkə bax, divanə bax!
Daima dərdindən ol divanə, bax!
Əlqərəz, İranə bax, viranə bax!

*Məşədi Sijimqulu*
*"Molla Nəsrəddin", 1910, № 22*

## NƏZM

Çıxma səhrayə, dikanlar vardır,
Gəzmə çün sayə, yilanlar vardır.

Bu neyistanə gəlib girməməli,
Bu təmaşayı baxıb görməməli.
Hələ ömr eyləməli, ölməməli,
Çünki bir özgə zamanlar vardır,
Gəzmə çün sayə, yilanlar vardır.

Demə bu ölkə müsəlmanlıqdır,
"Həbəş ormanlığı, heyvanlıqdır".
Mülkədarlıq, ağalıq, xanlıqdır,
İti xəncər pəhləvanlar vardır,
Gəlmə bu yanə, yilanlar vardır.

Gürcülər içrə qalıb, rahət elə,
Gözəl insanlar ilə ülfət elə.
Nə gəlib gör bizi, nə lənət elə,
Nə də gör yaşlı cəvanlar vardır,
Gəzmə çün sayə, yilanlar vardır.



Nə işin var, baba, Bakudə sənin,
Qələdə, Gəncədə, hər sudə sənin
Meşədə, qəryədə, həm kudə sənin,
Tökülən su kimi qanlar vardır,
Gəzmə çün sayə, yilanlar vardır.

Ya deyirsənmi rəcəbdir, şəban,
Gəlir ardınca bunun da rəməzan.
Olacaqsan gedibən mərsiyəxan,
Sana yer yox, neçə canlar vardır,
İki min mərsiyəxanlar vardır.

Əcəba, səndə o təqrir hanı?
Hər sözü tərsinə təfsir hanı?
Aləti-hərbeyi-təkfir hanı?
Nə qədər yaxşı-yamanlar vardır,
Neçə imanı satanlar vardır.

Varisi-məsnədi-peyğəmbərimiz,
Zinəti-məscidimiz, minbərimiz,
Ağamız, sahibi-taci-sərimiz,
Hacı Mir molla filanlar vardır,
Yaşıl əmmamə qoyanlar vardır.
Nizəvü tirü kəmanlar vardır,
Gəzmə çün sayə, yilanlar vardır.

*Kefsiz*
*"Molla Nəsrəddin", 1910, № 28*

## YORĞUNLAMIŞIQ

Hər sözü söyləmişik, hər işi sahmanlamışıq,
Salmışıq qaidəyə, düzləmişik, yanlamışıq,
Gecəni, gündüzü əlləşmədə buzğunlamışıq,
Ölən öldü, qalanın dərdini dərmanlamışıq,
Dəxi bəsdir, dəxi bəsdir, dəxi yorğunlamışıq.

Budur indi neçə ildir elə gündə çalışıb,
Bulaşıb zəhmətə, nari-qəmü dərdə alışıb,
İşləyib, can çürüdüb, yaxşı-yamanə qarışıb,
Yetirib milləti sərmənzilə, samanlamışıq!
Dəxi bəsdir, dəxi bəsdir, dəxi yorğunlamışıq.

Qayeyi-fikrimiz əhyayi-dili-ümmət idi,
Pişrəftü bəqayi-vətənü millət idi,
Cəhdimiz, himmətimiz mətləb idi, sənət idi,
Arzu aşı bişib, dəmdədi, qazğanlamışıq,
Dəxi bəsdir, dəxi bəsdir, dəxi yorğunlamışıq.

Neçə məktəblərimiz var, neçə cəmiyyətimiz,
Zərimiz, zivərimiz, qüvvətimiz, qüdrətimiz,
Oldu bu yolda bütün sərf bizim qeyrətimiz.
Şükr, sərf oldusa da müşkülü asanlamışıq,
Dəxi bəsdir, dəxi bəsdir, dəxi yorğunlamışıq.

Bitirib şəhrlərin hər cürə iş-güclərini,
Yığmışıq kəndlilərin məktəbə biveclərini,
Oğru, əyri, dələduz, giclərini, biclərini,
Can alan, qan axıdanlarını zindanlamışıq,
Dəxi bəsdir, dəxi bəsdir, dəxi yorğunlamışıq.

Bir nəfər zalimə məzlumdən olmubdu zərər,
Əğniyayə füqəradən nə olub xofü xətər,
Adət üzrə yetişib gündə bizə qanlı xəbər,
Öləni quylamışıq, öldürəni danlamışıq!
Gücsüzü tapdamışıq, güclünü mehmanlamışıq.

Qalmayıb bir işimizdə deyəsən zərrə qüsur,
Etmişik gözlərini düşməni-bədbinin kur,
Cümləmiz elmli, sənətli, xüdavəndi-şüur
Mədəniyyət nə, tərəqqi necədir? Anlamışıq,
Dəxi bəsdir, dəxi bəsdir, dəxi yorğunlamışıq.

*Kefsiz*
*"Molla Nəsrəddin", 1910, № 29*



## VƏQTDİR

Gəldi orucluq, genə bir fənd elə,
Söhbətinə aləmi həsbənd elə.

Aç dəhəni-pakını, eylə nisar,
Məxzəni-sinəndə nə cövhər ki var,
Ləli-Bədəxşanü düri-şahvar,
Məclisi çün qəndi-Səmərqənd elə,
Söhbətinə aləmi pabənd elə.

Vədeyi-cənnət verib əyanlara,
Bəxş elə huriləri nadanlara.
Cud ilə can ver bu yarımcanlara,
Möcüzi-isalara manənd elə,
Söhbətinə aləmi həsbənd elə.

Fikrini vəzinlə qarışdırgilən,
Yatma özün, xəlqi yatışdırgilən,
Bir-birə dünyanı qarışdırgilən.
Lənəti təkfir ilə peyvənd elə,
Söhbətinə aləmi həsbənd elə.

Sövq elə bu tayifəni yatmağa,
Cəhd elə yuxlatmağa, allatmağa.
Soymağa, çulbəndinə əl qatmağa,
Boş söz ilə onları xürsənd elə,
Söhbətinə aləmi həsbənd elə.

Ərzü səma, lövhü qələmdən danış,
Ağ dəvədən, baği-İrəmdən danış,
Lap düzü, dinarü dirəmdən danış.
Şivəni bir tövr xoşayənd elə,
Söhbətinə aləmi həsbənd elə.

Əlqərəz, aç söhbəti ehsandan,
Söylə bütün fırni, fisincandan.
Kəlmə demə elmdən, ürfandan,

Həm də qəzet, jurnala rişxənd elə,
Söhbətinə aləmi həsbənd elə!

İşləmə əbnayi-müsəlman üçün,
Məsələyi-məktəbi-nisvan üçün.
İşlə fəqət nəfi-cibişdan üçün.
Qəsbi-hüquqi-zənü fərzənd elə,
Yığ hamını bir dama qat, bənd elə.
Molla kişi, moizə qıl, pənd elə,
Hiylə elə, bijlik elə, fənd elə,
Söhbətinə aləmi həsbənd elə.

*Kefsiz*
*"Molla Nəsrəddin", 1910, № 32*

## İRANLIDIR

Hər məkanda görsəniz bir biqərar, iranlıdır,
Qürbət eldə sinəçakü dağidar, iranlıdır,
Həsrəti-əhli-əyalü intizar, iranlıdır,
Amirə, məmurə, fərraşə düçar, iranlıdır,
Naibə, xanə, əmirə mərdi-kar iranlıdır!

Zülmə tab etməkdə bu qövmin yədi-tulası var,
Hər cəfa ilə əyilməz, qaməti-balası var.
Keyfini pozma: onun tiryakı var, hoqqası var,
Rahətü məstü xərabü xar-zar, iranlıdır,
Hər məkanda görsəniz bir biqərar, iranlıdır!

Gah hürriyyətçidir, çünki buna möhtacdır,
Canfəda, Səttar, Bağıra, başlarında tacdır,
Qəhbə istibdad əlində gəhi də qırbacdır,
Gündə bir rəngə düşən bietibar, iranlıdır.
Bivəfalıqda cəhanə aşikar, iranlıdır!

Qaldıran Səttarı min izzətlə gəhi başına,
Gəh Sipəhdarı çəkən yüz naz ilə ağuşuna,



Gəh çəkib tiği-xüsumət canfəda qardaşına,
Qəhrəmanın tapdadan binəngü ar, iranlıdır,
Mollası, şahı, vəziri hiyləkar, iranlıdır!

Öldürən bunlar, ölən bunlar, yanan bunlardır,
Odlayan bunlar deyildir, odlanan bunlardır,
Xainə, şeytanə hər dəm aldanan bunlardır.
Alimi-cahilfəribü fitnəkar, iranlıdır,
Sahibi-əqli və təmkinü vüqar, iranlıdır!

Haq yaratmış, başqulaqlı, bir cürə insandır,
Sanki İran içrə bunlar gəlmə, ya mehmandır,
Şiri-püstani-vətən boldur, fəqət ətşandır.
Özgələr sirab, o püstandan kənar, iranlıdır,
Öz evində görsəniz, bir dilfikar, iranlıdır!

Anlamaz nəfü zərər, kimdir ona düşmən və dust,
Fəxr ilə baş qavzamaz, daim xəcalət, sərfrust,
Əski dövr, əski idarə, əski adəm ust-ust;
Halı mazidən acı, bir zəhrmar, iranlıdır,
Məsləkində, həm sözündə "payidar", iranlıdır,
Aləmi-islamə çayü "iftixar", iranlıdır!
Layiqi-dünya deyil, gorü məzar, iranlıdır!

*Kefsiz*
*"Molla Nəsrəddin", 1910, № 33*[1]

## TAZİYANƏ

Mali-dünyayə kişi bənd olmaz,
Mayili-cifə, xirədmənd olmaz.
Dedi minbərdə bu gün molla Namaz;
Nari-cənnət belə peyvənd olmaz.
Cahili-sırf, müsəlman bəndə
İki dünyada da xürsənd olmaz.

[1] "İranlıdır" şeri "Günəş" qəzetində də çap olunmuşdur.

İstə ya cənnəti, ya ərafı,
Həm Buxara, həmi Koqənd olmaz.
Nədi bir bunca həvəs, hirs, təmə,
Sana bundan da gözəl pənd olmaz.
Mən "bəyəndim" sözünü mollanın,
Xəlqi soymağa belə fənd olmaz.

*Kefsiz*
*"Molla Nəsrəddin", 1910, № 33*

## İKİ SƏS

Nədir, ah, ah, bilməm, genə bu sədayi-dilkəş,
Bu nəvayi-dilxəraşü o simai-sövti-sərkəş.
Bu inilti, bu sızıltı, bu qiyafəti-müşəvvəş,
O büsati-dilgüşai, sərə, xaneyi-münəqqəş.
Bu nə cangüdaz səsdir, eşidənlər eliyir ğəşş,
O büsat içində hazır, bütün eyş, pak, biğəş
O həzin, o ac kimdir!
Belə xoşməzac kimdir?!

Düzülüb süfufi-mehman, gediyor şətarət ilə,
Geyinibdir ağ molla, yeriyir nəzakət ilə.
Tələbə, mürid, gəllə dalıda məharət ilə,
Neçə hacı, kərbəlayı, məşədi təharət ilə.
Dəxi bircə dilşikəstə sürünür nə halət ilə,
Edilir hücum, yarəb, nərəyə, cəmaət ilə.
Bu zəlilü ac kimdir?
O əmmamə, tac kimdir?

Genə, şübhəsiz, bir evdə olunub tədarük ehsan,
Yenə dəmlənib səmavər, qurulubdu qəhvə-qəlyan.
Salınıbdı süfrə, səngər, çəkilib plov, fisincan,
Hamıda sürurü-behcət, hamı məst, şadü xəndan,
Hamı süfrəyə müqərrəb, hamıda təlaş, həyəcan.
"Buyurun" xodu verilcək, düşəcək işə dəyirman,
Füqəranı mən üçün var qapıda iki nigəhban.
Bu həzinü ac kimdir?!
O əmmamə, tac kimdir?!



Sənin, ay fələk, cahanda nə çəkilməz işlərin var,
Nə duyulmayan əməllər, nə əcəb gəzişlərin var?
Neçə Molla Qəhrəmanın, neçə hacı məmişlərin var,
Bəyə, xanə, əğniyayə yeməyə yemişlərin var,
Füqərayi-bipənahə məşədi qəmişlərin var,
Ona qatletin, kəbabın, buna sərzənişlərin var.
O pilovturac kimdir?!
De, bu laəlac kimdir?!

*Kefsiz*
*"Molla Nəsrəddin", 1910, № 34*

## GÜLÜŞMƏ

*Molla və mürid*

Molla: – Eşidibsənmi, balam, tazə xəbər?
Mürid: – Nə, axunda, nə olubdur ki, məgər?
– Gözün aydın ki, qəzetlər qapanıb!
– Mən ölüm! Hankısı, hankı qapanıb?
– Bağlanıbdır o "Həqiqət" və "Səda",
– Həmdülillah!.. İkisi ha... xa, xa, xa!..
– Di, sevindirməmi ver, şad oldun!
– De ki, qəm-qüssədən azad oldun!
Mürid: – Ax, nə Allah tərəfi oldu bu iş!
– Çox olar, qəlbini sən saxla geniş!
– Nə səbəb oldu ki, bağlandı bular?
– Baisi oldu "zabastovqa"çılar!
– Qanmıram, söylə "zabastovqa" nədir?
– Yəni işçiləri tətil elədi!
– Elə tətil ilə tətil olunub?
– Bəli, tətil ilə tətil olunub.
Məyusanə: – Elə bildim ki, hökumət qapayıb,
Dadı yox, indi ki, millət qapayıb.
Ax! Bu qəzetlərdə necə heyfim var!
Gər hökumət qapaya keyfim var.

*Məşədi Sijimqulu*
*"Molla Nəsrəddin", 1910, № 34*

## DABANI ÇATDAX XALAYA!

Dəxi bundan sora sən bir də qırıldatma, xala!
Atılıb ortalığa düşmə, fırıldatma, xala!
Ölçə-ölçə əlini, qollarını atma, xala!
Söyləyib çox, gözünü, ağzını oynatma, xala!
Verməram sözlərinə bircə çürük qatma, xala!

Ay başı küllü, dabanı iki yerdən çatdax!
Üstü-başı tökülüntü, əl-ayağı batdax!
Ölü, tənbəl, vecə gəlməz, qoca, köhnə fartdax.
Xanım oldunmu, səsin gəlmir? Aldatma, xala!
Verməram sözlərinə bircə çürük qatma, xala!

Bilmirəm Həccə gedibsənmi, ki gəlmir xəbərin?
Ya gedibsənmi o dünyayə, uzaqdır səfərin?
Ya düşübsən əlinə Hacı Vəli Piləvərin
Necə işdir, mən ölüm, söylə, yalan satma, xala!
Verməram sözlərinə bircə çürük qatma, xala!

Pəs nə oldu ki, yazırdın bizə əhvalınızı?
Bildirirdin həvəsü xahişü amalınızı?
Qorxur isən yolalar yoxsa ki ağ yalınızı!
Qorxulu sözləri sən də yazına qatma, xala,
Verməram sözlərinə bircə çürük qatma, xala!

Sən demirdinmi gərək arvada hürriyyət ola,
Elm ola, məktəb ola, fənn oxuna, sənət ola,
Bamüsavi hamı, istər ər ola, övrət ola?
Mən demirdimmi çəkil, beynimi laxlatma, xala!
Verməram sözlərinə bircə çürük qatma, xala!

Deyəsən indi xəcalət çəkiyorsən sözünə,
Qayıdırsan dalı, lənət oxuyursan özünə,
O gurultu bumudur? Daş başına, kül gözünə,



Üstünü bax, açılar, bir də qımıldatma, xala!
Verməram sözlərinə bircə çürük qatma, xala!

Atılıb çıxdınız ortalığa kibrit kimi,
Girdiniz tez genə çadırşəbə ifrit kimi...
Gəldi bir səs, sora nazildi dalı fit kimi,
Yağmıya-yağmıya bihudə guruldatma, xala!
Bu xəcalət tərinə bizləri islatma, xala!
Qucuyub dizlərini, əllərini çatma, xala!
Sallayıb dimdiyini, mürgülüyüb yatma, xala!

*Köhnə dostun Məşədi Sijimqulu*
*"Molla Nəsrəddin", 1910, № 35*

## SEYİD ƏZİMƏ BƏNZƏTMƏ

Səni məşrutəçi bilmişdim, ay gic, bəd ədasənmiş,
Üzərdə xoş, vəli batində bir mərdi-dəğasənmiş.

Rəyasət şövqi imiş başını gərm eyliyən əvvəl,
Həvayi-zülmi-istibdad ilə beyrəqgüşasənmiş.

Səni əvvəlləri gördükcə, əhsənlər oxurdum mən,
Qələtlər etmişəm, şayesteyi-bəd, bədduasənmiş.

Səni mirati-amali-vətən bildi yazıq millət,
Bərabər durdu, amma əyri gördü, kəcnümasənmiş.

Səni iranlılar adəm bilib, qondardılar sədrə,
Fəqət adəm deyilsənmiş, gəda oğlu gədasənmiş.

Eşitcək adını əvvəl, soruşdum kimdi bu? Yaran!
Sükut etdi hamı, bildim ki, bir əhli-cəfasənmiş!

Səni hansı ana doğmuşsa da, İran böyütmüşdür,
Həram olsun sənə əmdiklərin, madərxətasənmiş!

Əcəb hürr oldu İran, əhdinə yaxşı vəfa qıldın,
Səhabi-zülm, istibdaddə bərqi-bəlasənmiş!

Qarışdırdın, pozuşdurdun, tutuşdurdun, vuruşdurdun,
Əcəb namərd, namərbut, bimehrü vəfasənmiş!

*Kefsiz*
*"Molla Nəsrəddin", 1910, № 35*

## TAZİYANƏ

Kəndini molla eyşü ləzzətdə
Bu cəhan içrə bərhəyat istər.
Mayeyi-eyşi etməyə əldə
Büsbütün milləti məmat istər.
Canını aldı vəqti-fürsətdə,
Mürdəsindən də beş mənat istər.
Mələkülmövtə hini-rəhlətdə,
Yoxdu can verməyə bu millətdə.

*Kefsiz*
*"Molla Nəsrəddin", 1910, № 36*

## QUMARIN LƏZZƏTİ

Kim deyir artıq deyil meydən qumarın ləzzəti?
Ya səfabəxşa deyil bu zəhrimarın ləzzəti?..
Udsa da, uddursa da, var bu şüarın ləzzəti,
Yox, buna olmaz əvəz hər işvəkarın ləzzəti,
Getməyir əsla dəmağımdan qumarın ləzzəti.

Oldu vəqta ki, mühəyya məclisi-virtuşka, banq,
Ortalıq filfövr pul ilə dolur zanqa-zaranq.
Gah gəlir, gahi gedir, axırda qalmır bir franq,
Onda gəl gör dadlıdır bu, ya xumarın ləzzəti,
Getməyir əsla dəmağımdan qumarın ləzzəti.



Bircə saətdə hərifin dördünü nabud edir,
Kisəni simü zər ilə doldurub, xoşnud edir.
Kim ki, bu sevdadadır, minlərlə ildə sud edir,
Bir belə nəfi olur və ehtikarın ləzzəti,
Getməyir əsla dəmağımdan qumarın ləzzəti.

Bax bu sənətdən özüm mən bir neçə mülk almışam,
Həm qızıl saət, sipiçqə, çərkəzi börk almışam,
Bir dənə zərrin kəmər, astarı xəz kürk almışam!
Hansı baqqalında var, bu bəxtiyarın ləzzəti?
Getməyir əsla dəmağımdan qumarın ləzzəti.

Gah olur, ittək hürür bir dəfə yoldaşın əli,
Boş qalır başım kimi, bir dəmdə yoldaşın əli,
On verir, beş verməli ikən, bu çaş-başın əli,
Keflidə hərgiz tapılmaz bəd qumarın ləzzəti,
Getməyir əsla dəmağımdan qumarın ləzzəti.

Ləzzəti yox udmanın, var ləzzəti uddurmanın,
Titrətmə, öskürmə bir yanda, ocaqdır bir yanın,
Əsnəmə, gərnəşmə əl çəkməz, çıxır guya canın,
Hansı pünhanındadır bu aşikarın ləzzəti?
Getməyir əsla dəmağımdan qumarın ləzzəti.

Gəncədə yaxşı tərəqqidə qumarbazın işi,
Qış: gecə-gündüz görülsün beş yayın-yazın işi.
Girli pul lazım, deyil amma azın-mazın işi,
Xalları ovcumdadır, var bunda varın ləzzəti,
Getməyir əsla dəmağımdan qumarın ləzzəti.

*Kefsiz*
*"Molla Nəsrəddin", 1910, № 38*

## 1910-cu İLƏ VİDA

Doqquz yüz onuncu il də bitdi,
Doqquz yüz on birinci yetdi.
Bəxş etdi bu il cəhaniyanə,
Min dürlü həvadisü fəsanə.

Boş qalmadı, ərseyi-siyasat,
Yüz verdi mühüm, qaç vüquat.
Əz cümlə düzəldi kari-İran,
Tək əllicə kənd olundu viran.
Bir dəfə nə iğtişaş, üsyan,
Oldu neçə qətlü qəsbü talan.
Qət eylədi ki, gələ parlaman
İranə dübarə Zilli-Sultan.
Avropaya getdi Mədəli şah,
Fikri nə isə, bilir bir Allah.
Bu ildə Tolstoyun vəfatı,
Məyus buraxdı şeş cəhatı.
Osmanlılar aldı nəqd pul qərz
Almaniyadan, olmuşdu çün fərz.
Çox qan axıdıldı Portuqalda,
Axırda qovuldu lap kral da.
Bakudə bir özgə yerli tacir
Tab etmədi, boynu sındı axir.
Qırx-əllicə min manatı uddu,
Hülqumunu pullunun qurutdu.
Həm Gəncədə qalmış idi bir az,
Sınsın beli, vardı neçə bəzzaz.
Sel gəldi, Şəki dağıldı, batdı,
Məktəb sözü elm işilə yatdı.
Namusə ədulər əl uzatdı,
Yatmışları bilmə ki, oyatdı.
Yüz min oxumuş olundu təkfir,
Məşrutəçilər edildi təhqir.
Mollalar əzəlkitək dayandı,
Məcmuəçilər işi yubandı.
Əlqissə, bu il çox işlər oldu,
Yer yoxdu yazam, səhifə doldu.
Bu həftə qurub biz ictimai,
Köhnə ilə eylədik vidai.

*Kefsiz*
*"Molla Nəsrəddin", 1910, № 42*



## ANNAMIRAM[1]

Mən annamıram, bilmirəm insan nə deməkdir!
İnsan hələ insandı, bə heyvan nə deməkdir!

Bəzi deyir insan kimi heyvan danışır, mən:
Məbhutəm, heyran, bu nə hədyan, nə deməkdir?

Seçdik hələ insanlığı, heyvanlığı, bəs bu,
Quldur nəmənə, quli-biyaban nə deməkdir?

Qurd, ayı olurdu, dolanırdı meşələrdə,
Bunlar nə deməк, şəhr, dəbistan nə deməkdir?

İndi sənə qurban olum, ay sevgili qare,
Söylə mənə sən bəs bu musurman nə deməkdir?

Çaqqal qoyunu parçalayır dişləri ilə,
İnsandakı xəncər nədi, dəndan nə deməkdir?

Ax, bidamar insan, bu nə adət, nə ədadır,
İnsanlığı qan, gör də müsəlman nə deməkdir?

Cani! Səni təfriq edəməz qurd ilə heç kim,
Qurbani-tüfəngin olan ixvan nə deməkdir?

Tüf qeyrətinə, səndə ki, iman yox imiş nə,
Namus nə, insaf nə, vicdan nə deməkdir?

*Şəmşir*
*"Zənbur", 1910, № 3*

[1] "Sijimqulunamə"də "Nə deməkdir" gedib.

## OLUR OLSUN

Bu millətə qoy hər nə şəmatət olur olsun,
Nə zülmü əziyyət, nə əhanət olur olsun.

Nabudi-cəhan olsa da bilcümlə səzadır,
Bundan da yaman günlərə gər qalsa rəvadır,
Nə tənü təcavüz ola şəxsinə bəcadır,
Xoşdur ona hər gunə zəlalət, olur olsun,
Həmcinsinin əndində xəcalət olur olsun.

Bir millət ki, əsrə görə etməyə rəftar,
Hey yuxlaya il on iki ay, olmuya bidar,
Əlbəttə, ayaqlar elə bir milləti əğyar,
Pamali-rəqib olmağa adət olur olsun,
Biğeyrət olan canda səlamət olur olsun.

Qare! Demə öz millətimi sevməyirəm mən,
Pək çox sevirəm, ərzimə guş eyləgilən sən,
Dindaşimə hərgiz olamam zərrəcə eymən,
İstər mənə hər növi məlamət olur olsun,
Göftarımız adətcə qəbahət olur olsun.

Tək bir tərəfə baxsa, könül olsa əgər şad,
Yüz yanə nəzər salsa olur bu yenə bərbad.
*Həp əski hamam, əskicə tas, əski də ustad,*
Əski kisəçi, əski həcamət olur olsun.
Əskicə qəba, əski qiyafət olur olsun.

Kəsalət olur olsun,
Bətalət olur olsun.
Bütün aləmi islam
Xəcalət olur olsun.

*Şəmşir*
*"Zənbur", 1910, № 5*



## ETİRAZ

Demə, canım ki, örtüb gözlərin qəflət müsəlmanın,
Olubdur qisməti, zənn eyləmə, möhnət müsəlmanın.

Çəkil, bir bunca töhmətləndirib islamı, xar etmə,
Oğurluq elminə alim, mürüvvətdən kənar etmə.
Nə olsa qoy olur olsun, nihan et, aşikar etmə,
Qaçaqlıq, rahzənlik, pişəsi-sirqət müsəlmanın,
Xəyanət, hiyləgərlik, bədəməl, bidət müsəlmanın.

Mürüvvətsiz! Bəyənmirsən məgər ahil müsəlmanı,
Deyirsən tənbəlü biqeyrətü kahil müsəlmanı.
Cahanə bildirirsən cahilü qafil müsəlmanı,
Və halonki iki dünyadadır rəhmət müsəlmanın,
Libasi-jendəsilə, huriyi-cənnət müsəlmanın.

A canım, bəs deyilmi bunca şuriş, ahü vaveyla,
Məgər bir cifeyi-murdarü gəndidə deyil dünya?
Bu dünyayə magər bel bağlıyar mömin kişi, la, la!
Olubdur axirətdə dövlətü nemət müsəlmanın,
Neçin dünyadə olsun qisməti zəhmət müsəlmanın?

Bu beş günlük fəna dünyayə aldanmaz müsəlmanlar,
Olub da əhli-dünya, atəşə yanmaz müsəlmanlar,
Topaldır, səsləmə hərgiz, ayaqlanmaz müsəlmanlar,
Qımıldanmaz, vücudunda hanı qüdrət müsəlmanın,
Həvəs, eşqü məhəbbət, cövhərü qüvvət müsəlmanın.

*Şəmşirək*
*"Zənbur", 1910, № 5*

## YADİ-MAZİ

Getdi mazi, ah, ölüncə anı gözlər gözlərim.
Ol səid əyyamı, ol dövranı gözlər gözlərim.

Keçdi ol izzətli, həm hörmətli, şanlı günlərim,
Kərbəlayı, hacılı, həm bəyli-xanlı günlərim,

Qəhvəli, qəlyanlı, aşlı, çaylı, dənli günlərim,
Dəmbədəm, qazmaq ilə dolmanı gözlər gözlərim.
Getdi mazi, ah, ölüncə anı gözlər gözlərim.

Ah, o günlər hardadır kim, hər işə sərkar idim,
Olsa hər iş, hər yığıncaq, lazımü dərkar idim.
Mürşid idim, molla idim, xan idim, sərdar idim,
Sədr idim hər məclisə, əyanı gözlər gözlərim.
Gctdi mazi, ah, ölüncə anı gözlər gözlərim.

Baş əyərdi, diz çökərdi şah mənə, sultan mənə,
Səslənəndə "can", "bəli" söylərdilər bəy, xan mənə.
Səcdə eylərdi bütün cahil mənə, nadan mənə,
İndi də ol firqeyi-godanı gözlər gözlərim.
Getdi mazi, ah, ölüncə anı gözlər gözlərim.

Var idi başımda on mindən ziyadə xərmürid
Həm olurdu izzətim, şanım günü-gündən məzid
Hər günü mehman naharə, həm də axşama ümid.
Töhfəni, peşkəşləri, ehsanı gözlər gözlərim.
Getdi mazi, ah, ölüncə anı gözlər gözlərim.

İznsiz daxil olammazdı bir adəm yanıma,
Töhfəsiz, paysız çıxardı kim mənim eyvanıma?
Kimsə cürət eyləməzdi girməyə meydanıma.
Girsə idi kim, axardı qanı, gözlər gözlərim.
Getdi mazi, ah, ölüncə anı gözlər gözlərim.

Çevrilib dövran, məni birdən-birə xar eylədi,
Başıma dünyanı ariflər mənim dar eylədi.
Bu qəzet, jurnal yazanlar xalqı bidar eylədi,
Saldılar dərdə, hələ halvanı gözlər gözlərim,
Getdi mazi, ah, ölüncə anı gözlər gözlərim.

*Şəmşirək*
*"Zənbur", 1910, № 6*



## MƏNƏM

Mənəm bir mömünü dindar, aqil, əhli-imanəm,
Müqəllid kəndimə, həm aliməm, həm də müsəlmanəm.
Axundam, vaizəm, şeyxəm, rəisəm əhli-islamə,
Çobanəm, nazirəm bu qusfəndanə nigəhbanəm.
Əlimdə ixtiyarım var, dolandırram biyabani,
Otarram, damlaram, həm sahibəm mən, həm də dərbanəm.
Müridə mehribanəm, mehriban olduqca dilşadəm,
Müzəyyən süfrələrdə hər gecə bir yerdə mehmanəm.
Təməllüq eylərəm bir löğməyə yağlı-yavan hər nə,
Qarın anbarını doldurmağa müftə, şitabanəm.
Təvazö eylərəm nimxiz olub yüz dəfə, min dəfə,
Ləimə, qatilə, düzdə, dəkadır çünki bikanəm.
Sifətdə abidəm, paltarda seyyid, başda bambaşqa
Ədəbdə cahiləm, elmim də yoxdur, pək süxəndanəm.
Ağızdan heyvərə, dildən acı, qəlbim qəsavətli,
Qərəzli, kinli, fikrim hilə, məsləkdə xuliqanəm.
Qanım əsla qarışmaz qatsanız da xuni-ürfanə,
Əzəl xilqətdə xəsmi-elm, əhli-elmü ürfanəm.
Yeni adətlərə, məktəblərə bilcümlə ziddəm mən,
Hələ hürriyyəti-nisvan o əşxasə düşmanəm.
Canım, osmanlılar həddindən aşdı, qaynayıb daşdı,
Bu viran olmuş İranə baxıb durduqca heyranəm.
Təmamən aləmi-islam azıb yoldan, təriqətdən,
Çıxıb izdən, şəriətdən, necə gör xanə viranəm.
Əgər boylə gedərsə puç olur mollalığın şəhri,
Cibişdan boş qalır, qaldıqca boş hali pərişanəm.
Bunu pişi-nəzərdə tutmuşam kim, fəhmi-vəhşətdən,
Dəmadəm qarğaram ariflərə, təkfir quyanəm.
Xülasə, yaşdır işlər, əskilir gündən-günə hörmət,
Peyapey izzətim, şanım gedir, çaki-giribanəm.
Nə təqsir eyləmişdimsə bu aləmdə, xudavənda,
Bağışla, tövbə etdim, cümləsindən mən peşimanəm.

*Şəmşirək*
*"Zənbur", 1910, № 17*

## DİRHƏMÜ DİNARDƏN ÖZGƏ

Yox bir əməlim, dirhəmü dinardən özgə
Vardır nə qəmim möhnəti-didardən özgə.

Dünyadə həvəskariyəm ol simü zərin mən,
Dildadəsiyəm dürr ilələlin, göhərin mən.
Pərvərdəsiyəm valideyi-bəxtəvərin mən,
Yox dildə qızıldan yana, göftardən özgə,
Yox bir əməlim, dirhəmü dinardən özgə.

Tək bir quruşa aləmi tarac edərəm mən,
Min-min ürəyi oxlara amac edərəm mən.
Yüz millət ola kəndimə möhtac edərəm mən.
Qoymam qala əynindəki şalvardən özgə,
Yox bir əməlim, dirhəmü dinardən özgə.

İnsanlara hörmət nədi, rəhmət nədi, bilməm,
Miskinlərə, yoxsullara xidmət nədi, bilməm.
Bu canlara ülfət nədi, rəfət nədi, bilməm,
Biganəliyimdir, mənim əşrardən özgə,
İstəklilərim yoxdu bədəfkardən özgə.

Quldur-qoçular mərhəmətimdən iraq olmaz,
Qatil, qan içənlər də evimdən uzaq olmaz.
Hörmət bu qədər bəsdi, daha artıraq olmaz,
Zalimlərə, fasiqlərə, bədkardən özgə,
Hər şey varımızdır, quru bir ardən özgə,
Yox bir əməlim, dirhəmü dinardən özgə.

*Şəmşirək*
*"Zənbur", 1910, № 18*



## EY BAXANLAR...

Səhl sanma, mərifət kəsb eyləmək düşvardır.
Adəm olmaqlıq böyük ğəm, bir yekə azardır.
Öylə bilmə elmü sənət oğruluq tək səhldir.
Yol kəsib ademləri soymaq kimi bir kardır.
Öylə fikr etmə ki, məktəb məclisi-obaşdır,
Ondakı yoldaşların bədkarü bədəfkardır.
Məktəbi, zənn eyləmə kim, bir gülüstandır, yazıq,
Zahiri güldür və lakin batini pürxardır.
Mollanın al pəndini, aldanma, girmə məktəbə,
*Onların fikrincə bu iş şiveyi-küffardır.*
Rahzənlik sənəti puç olsa, millət puç olur,
Adəm öldürməkliyi əldən buraxmaq ardır.
Ey baxanlar, mollanın ləbbadeyi-qurşağına
Uymayın, qurşaq deyildir, bir yoğun əfsardır.
Başını on yeddi arşın ağə bükmüş məkr ilə,
Adını qoymuş ki, bu əmmamədir, dəstardır.
Bir nəzər sal, sağ tərəfdən sallanır təhtülhənək,
Bu deyil təhtülhənək, adəm çalan şahmardır.
Rəng-roğən versə də göftarinə diqqət edək,
Eyləyək diqqət, görək əfsanədir, göftardır?
Rahi-mollada əgər qanım tökülsə Şəmşirək,
Uf deməm, bilsəm məkanım axirətdə nardır?

*"Zənbur", 1910, № 19*

## İŞƏ KEÇMƏZ

Keçmiş dəxi keçdi, bu kəmalın işə keçməz!
Moddan düşüb indi, belə malın işə keçməz!

Keçmişdəki xoş günlərini salma xəyalə,
Soncuqlama, oynaqlama, şıllaqlama dalə,
Sat mazini ayəndəyə, ayəndəni halə,
Hal əhli deyilsənsə, bu halın işə keçməz.
Moddan düşüb indi, belə malın işə keçməz.

Ətrafını ənvari-ədalət bürüyübdür.
Kaşaneyi-zülmü dağıdıbdır, sürüyübdür,
Bazarə çıxarma, bu mətaın çürüyübdür,
Əski əməlin, əski məqalın işə keçməz,
Moddan düşüb indi, belə malın işə keçməz.

Ey şəbpərə, gün çıxdı, işıqlandı, fərar ol!
Meydani-təcəddüddə durub qalma, kənar ol!
Gizlən o xəfəxaneyi-müzlimdə qərar ol.
Get, get! Qocalıbsan, məhü salın işə keçməz,
Moddan düşüb indi, belə malın işə keçməz.

Girəm ki, sənindir hələ bazari-ticarət,
Ağnaşmadadır üstünə bielm cəmaət.
Bir gün olar onlar da qanar sudü xəsarət,
Qıjqırmış aşın, qıllı motalın işə keçməz,
Moddan düşüb indi, belə malın işə keçməz.

El, tazə həvalər, yeni sözlər sevir indi,
Bir özgə nəva, özgə sədalər sevir indi,
Atəşli könül, yanqılı dillər sevir indi.
Çalma, dəxi, bu zurna-qavalın işə keçməz!
Bifaidədir cəngü cidalın, işə keçməz!
Tasın, düyünün, hərzlə falın işə keçməz!
Moddan düşüb indi, belə malın işə keçməz!

*Şəmşir*
*"Zənbur", 1910, № 19*

## TAPMACA

Kimdir o ki, qurban günü bayram edə bilməz?
Ta kəsməsə qurbanlığının başın əfəndi.
Zibh etməsə molla, iki-üç gün də kəsilməz,
Hatif! Nə üçündür? Mənə şərh eylə bu fəndi.

*Kefsiz*
*"Molla Nəsrəddin", 1911, № 6*



## ...AXUNDUN ŞƏRHİ-HALI

Didarinə bəski, şövqməndəm,
Doğru deməzəmsə gər, həpəndəm.

İstər ürəyim səninlə bir dəm,
Bir saət ola bir evdə həmdəm.
Bir eyləyə şərhi-möhnətü qəm,
Ta anlayasan ki, paybəndəm,
Doğru deməzəmsə gər, həpəndəm.

Ey qasibi-məsnədi-peyəmbər,
Ey taci-sərim, a molla Çəmbər,
Etmiş məni çərxi-dun mükəddər,
Piçideyi-dərd, çün kəməndəm,
Doğru deməzəmsə gör, həpəndəm.

Söylə, necə olmayım cigərxun,
Gözdən məni saldı, milləti-dun
Olmazmı qalan bu halə, məcnun?
Həsrətkeşi-aş, çayü qəndəm,
Doğru deməzəmsə gər, həpəndəm.

Siz bilmədiniz, nə halə qaldım,
İranda yanıb-yanıb qaraldım.
Həm Qafqaza qovdular, yol aldım,
Burdan da ki, azimi-Xocəndəm,
Doğru deməzəmsə gər, həpəndəm.

Xəlqi azıdıbdı nohəvəslər,
Təsir eləmir qoca nəfəslər.
Hətta azalıb kühənpərəstlər,
Mən tazə deyil, kühənpəsəndəm
Doğru deməzəmsə gər, həpəndəm.

Rus ölkəsi, müctəhid, nə xan yox,
Təkfirimə, föhşümə baxan yox.

Xərgahimə su kimi axan yox,
Dərdü qəmü hüznə müstməndəm,
Doğru deməzəmsə gər, həpəndəm.

Didarınız olsa gər müyəssər,
Nəql eyliyərəm sizə mükərrər.
Yıxsın evini xudayi-əkbər,
Dinsizlərə cayi-rişxəndəm,
Nəqqali-hədisü vəzü pəndəm,
Girməz cibə, nizeyi-büləndəm,
Doğru deməzəmsə gər, həpəndəm.

*Kefsiz*
*"Molla Nəsrəddin", 1911, № 8*

## DADI YOXDUR

Hər yerdə bizim Hacı Qulamın adı yoxdur,
Kasıb kişidir, dövləti, heç bir zadı yoxdur.

Vardır nə pulu, mülkü, nə də cahü cəlalı,
Özgə hacılar tək nə də var vizrü vəbalı,
Ancaq budur aləmdə onun fikrü xəyalı
Kim, Hacı Həsəntək niyə dörd arvadı yoxdur,
Kasıb kişidir, dövləti, heç bir zadı yoxdur.

Çoxdandı düşüb fikrinə bir mahliqanın,
Aludə olub eşqinə bir huri-cəhanın.
Var isə də üç arvadı yüz yaşlı cəvanın,
Əsla, üçünün bircə qəpiklik dadı yoxdur,
Kasıb kişidir, dövləti, heç bir zadı yoxdur.

Lap qonşudadır sevdiyi bu mömini-pakın,
Əllərdə qalıbdır yaxası, sinəsi çakın.
Hansı daşı salsın başına canı həlakın,
Var fürsəti yarın görə, nə imdadı yoxdur,
Biçarə, yazıq, bijliyi, fəndi-zadı yoxdur.



Molla, nədi bəs çarəsi bu dərdi-nihanın,
İstəklisi sənsən iki-üç arvad alanın.
Divanəsidir hacı o leylayi-zəmanın,
Adı, dadı, imdadı, onun arvadı yoxdur,
Kasıb kişidir, dövləti, heç bir zadı yoxdur.

*Məşədi Sijimqulu*
*"Molla Nəsrəddin", 1911, № 8*

## ƏZRAİLƏ XİTABİ-RƏBBANİ

Oldu ilhami-xudavəndi-cəlil;
Mələkülmövtə ki, ey Əzrail!
Etmə qəm, verməgilən istefa,
Səbr elə, qəlbini sıxma, əsla.
Xidmətindən səni məzul etməm,
Ol təbibi özümə qul etməm.
Qullarım həp qırıla, layiqdir,
Zəhr daruləri olsa, həqdir.
Sırf cahil, özü xər, adı həkim,
Onlara mən nə zaman göndərdim?
Hər təbibəm deyənə, aldanana,
Qul deməm, o desə də rəbb mənə.

*Kefsiz*
*"Molla Nəsrəddin", 1911, № 9*

## KEÇƏRMİŞ

Hər gunə mal olsa, bu vilayətdə, keçərmiş,
Hər cür çürümüş olsa, nəhayətdə, keçərmiş.

Adəm özünü bir neçə rəngə boyar imiş,
Gəh başına fəs, gəhi "silindr" qoyar imiş.
Hər dəfə də bir növ ilə xəlqi soyar imiş,

Boyaqçı, sarıqçı işi qayətdə keçərmiş,
Hər gunə mal olsa, bu vilayətdə keçərmiş.

Yazmamış ağa bir qəzeti, ya ki kitabı,
Elan buraxıb, xəlqə edərmiş də xitabı.
Doldurmaq imiş boylə cibişdanı, şitabı.
Bazari-ticarətdə bu adət də keçərmiş,
Hər gunə mal olsa, bu vilayətdə keçərmiş.

Dəvayə vəkil olmaq olarmış, bu qəbulim,
Dövlət də qazanmaq olar imiş, bu da təslim.
Ancaq bunu dərk etməyi, yarə, bacarar kim?
Hatəmləri kim yetsə səxavətdə keçərmiş,
Hər gunə iş olsa, bu vilayətdə keçərmiş.

Molla olar imiş birisi, həm də müəllim,
Vaiz, həmi də mərsiyəxanü mütəkəllim.
Çavuş, həm cindar, duaçı və münəccim,
Min pişəli, kəm mayəli adət də keçərmiş,
Hər gunə mal olsa, bu vilayətdə keçərmiş.

Hərgah birisi olsa imiş sahibi-sərvət,
Onda olamazmış ədəbü rəhmü mürüvvət.
Hətta ona baş əyməli imiş hamı millət,
Gər olsa zəlalətdə cəmaət də, keçərmiş,
Hər gunə mal olsa, bu vilayətdə keçərmiş.

İslam olan aləmdəki qışqırtıya baxmaz,
Gözlərdə yaşa, qəlbdə işqırtıya baxmaz.
Bir böylə gurultu, belə partıltıya baxmaz,
Baxsa, gözünün nuri o saətdə keçərmiş,
İşlər də bətalətdə, səfalətdə keçərmiş,
Hər gunə iş olsa, bu vilayətdə keçərmiş.

*Məşədi Sijimqulu*
*"Molla Nəsrəddin", 1911, № 11*



## TAPMACA

Başı dəmir toxmaq, qulağı qalxan,
Ağzı qoyun gözü, burnu badımcan.
Saqqalı şax dikən, burnu gicitkan,
Paltarı ruhani, sənəti kənkan,
Üzərdə bir quzu, dalda bir aslan,
Şəkildə insan, əsildə şeytan,
Tap, bu nədir, Hatif, mənə et bəyan.

*Kefsiz*
*"Molla Nəsrəddin", 1911, № 11*

## MÜXTƏSƏR

Molla, qulağın mana versən əgər,
Söyləyərəm bir neçə dadlı xəbər.
Başını ağrıtmayacağam uzun,
Hər nə danışsam, edərəm müxtəsər.
Əvvəl onu bil ki, bizim el genə,
Qatqarışıqdır, qudurub çoxlu xər.
Bir dənə seyyid belə şeytan olub,
Bunca bacarmaz yenə şeytan, hünər.
Bir neçə məmur dönüb yolçuya,
Fahişələrdən də umur simü zər.
Bir nəfər amir, uyub iblisə, o,
Başına xəlqin də gətirmir nələr.

Bir şələ saqqallı, papaqlı qazı,
Pişinə qıldan çəkir elmin çəpər.
Məktəbə hərgiz verə bilməz deyir:
Mollanın ehsan pulunu bir nəfər.
Ehsan ibarətdi plovdan, deyir,
Hacı və molla da yeyib gərnəşir.
Yoxsa bu bicxanələrə sərf edib,
Ehsanın eylərmi müsəlman hədər?

Bircə o məktəblərə vermək olar
Kim, orada adəm olur sırf xər.
Bir də verim mən sənə bir muştuluq,
Yekcə zabastovka edib kəndlilər.
İşlərini cümləsi əldən qoyub,
Həbsə alınmış hələ qırx beş nəfər.
Kəndlilərin yavruları ağlaşır.
Şadü fərəhnak gülür mülkədar.
Məğzini işbu xəbərin bilmədik,
Bildirərəm sonra, qalarsam əgər.

Bir də ki, ay Molla, dəxi qorxuram,
Ac və çörəksiz qala bir gün Cəfər.
Oğruluq, əlhəmd ki, az olmayır,
Acmı qalar pak müsəlman məgər?
İç, nə işin bunlar ilə, ay dəli?
Yanmayacaqsan, yana dünya əgər.
Qəmlərini çəkməməli axmağın,
Xəlq eliyən şəxs özü dərdin çəkər.
Boylə də lazımdır elə doğrudan,
Bəs niyə çəkmir qəmi molla Bəqər?
Molla dedim, yadıma düşdü genə,
Molla Hacı İsmayıl şiri-nər.
Köhnələn arvadlarını tullayıb,
Tazədən ömrün elədi tazə-tər.
Bir qız alıb yaşı tamam on iki,
Müftə, suyu qiymətinə, bəxtəvər.
İştə, mübarək bu cavanın toyu,
Kamə yetirsin çucuğu dadgər.
Yaxşı deyildir işi etmək diraz,
Molla, bağışla uzun oldu bir az.

*Kefsiz*
*"Molla Nəsrəddin", 1911, № 13*



## EY KÖNÜL

*"Arı" jurnalının 13-cü nömrəsində Çakərə... nəzirə*

Ağla, məndil al ələ, bu gün xəzandır, ey könül!
Getdi ehsanlar, qonaqlıqlar, fəğandır, ey könül!

Ərbəin keçdi, vəfat etdi, gedib bayram da həm,
Qapladı dünyanı bir qarə buluttək dərdü ğəm.
Hər yanı dutmaqdadır aclıq bəlası dəmbədəm,
Təkyələrtək boş qalan indi qazandır, ey könül!
Ağla, məndil al ələ, bu gün xəzandır, ey könül!

Çıxmış on üç şahıya sarı yağın girvənkəsi,
Beş manata heç tapılmır Lənkəran akülesi.
Rövzəxanların müxalif dövrünə qalxmır səsi.
Müftəxorluq getdi əldən, əl-amandır, ey könül!
Ağla, məndil al ələ, bu gün xəzandır, ey könül!

Ot putu dörd abbası, saman putu bircə manat,
Bu bahalıqda gərəkməz saxlamaq eşşək və at.
Molla, var isə ulağın, durma qaç, cəld elə, sat.
Çünki qaldıqca belə heyvan, ziyandır, ey könül!
Ağla, məndil al ələ, bu gün xəzandır, ey könül!

Gəncədə çox qıtdı bu saət qəzet-məcmuələr,
Bir qəzet dükkanı yox, heyfa ki, olaq bəxtəvər.
Bəxtəverdir bizlərə baxdıqda ol bakulilər,
Var "Səda", "Arı", "İşıq", açıq dükandır, ey könül
Ev, küçə, ambar dolu jurnal yazandır, ey könül!

Məzhəkə jurnalı qoymuş "Arı" jurnalı adın,
Yazmayacaqmış belə bir mədhiyyə, bir bəhsi-din,
Çox töküb istot fəqət bozbaşə, azdırmış dadın.
Aşpəzi Çakərdi, şüğlü rövzəxandır, ey könül!
Ağla, məndil al ələ, bu gün xəzandır, ey könül!

Bilməyirmi, bilmirəm, "Arı", nədir məslək, filan?
Gülgü adı, mədhiyyə o zadı, həm yaxşı-yaman.
Məsxərə jurnalı harda, hardadır gör rövzəxan?
Gör mühərrir kimdi, şair kim, nə zamandır, ey könül!

Ağla, məndil al ələ, bu gün xəzandır, ey könül!
Əsrə, mətbuatə bax, hankı zamandır, ey könül!
Nə canhacandır, ey könül!
Mətləb cibişdandırmı, de?
Məqsəd nihandır, ey könül!

*Kefsiz*
*"Molla Nəsrəddin", 1911, № 15*

## MÜSƏLMANI YARATDIN

Yarəb, sənə min şükr ki, dünyanı yaratdın,
Bir dəfə dedin: Ol! Yeri, eyvanı yaratdın.
Adəmdən əzəl tayifeyi-canı yaratdın.
Ondan sora da Adəmü Həvvanı yaratdın.
Nuhu, Zəkəriyyanı, Süleymanı yaratdın.
Fironu, həmi firqeyi-Musanı yaratdın,
Buddilər ilə qövmi-Məsihanı yaratdın,
Bir hikməti var, cümlə ki, heyvanı yaratdın.
Ancaq nədi sirri ki, müsəlmanı yaratdın?

Vardır yer üzündə neçə məzhəb, neçə millət,
Hər firqə götürmüş özünə bir cürə adət.
Hər kəs çalışır etməyə təmini-məişət,
Fənn öyrənir, kəsb eləyir elm ilə sənət.
İstər yaşasın cümləsi dünyadə fərağət.
İnsanlığa, rahətliyə var cümlədə rəğbət.
Ancaq ki, müsəlmanın olub sənəti sirqət,
Elmi qan axıtmaq, evi viranı yaratdın,
Yarəb, nədi nəfi ki, müsəlmanı yaratdın?



Cahil, qaniçən, qəlb müsəlmanları, rəbba!
Bunca yaradınca, yaratsaydın da qarışqa!
Əfzəlmi deyildir, belə bir firqədən, aya?
Xanə, meşə heyvanları, ya vəhşiyi-səhra?
İslam deyirlər bizim adımıza, amma,
İnsan deyiliz biz, nə ki, islam, sərapa.
Bu adı alıb üstünə bu taifə, heyfa.
Dünyanı bəzəndirməyəmi anı yaratdın?
Sirri nədi yainki, müsəlmanı yaratdın?

Hər gün tökülür xakə müsəlman qanı, guya
Kim, etməli imiş qanımız yerləri əşka.
Bu hala hökumət də edir məhz tamaşa –
Laqeyd, fərəhnak baxır həzrəti-molla.
Bəylər, ağalar qalibi-biruhü müqəvva,
İnsan ürəyi tab eləməz bu işə haşa.
Ey bizləri yoxdan yaradan xaliqi-yekta!
Pisliklər üçünmü bu qədər canı yaratdın?
Hikmət nədi nəinki, müsəlmanı yaratdın?
Qəm çəkməyəmi bu dili-şeydanı yaratdın?
Qan tökməyəmi dideyi-giryanı yaratdın?

*Kefsiz*
*"Molla Nəsrəddin", 1911, № 17*

## BİR DÖVLƏTLİ QOÇUYA

Mən ağlayıram, sən məni gördükcə gülürsən,
hər yerdə görürsən.
Gülmək deyil əmma bu gülüş, çünki ölürsən,
dörd qat bükülürsən.
Namusu yeyib, qeyrəti arxana atıbsan,
vicdanı satıbsan.
Arı içib, insanlara kəndini qatıbsan,
külbaşlı, yatıbsan.

Səndən ediyor nifrət, ay oğlan, bəşəriyyət,
qanun və şəriət.
İslam və insan demə kəndinə həqiqət,
ay düzdi-təriqət.
Gördükcə məni ağladıyor gülməli halın,
yoxsulca kəmalın.
Varından iki qat daha artıqdı vəbalın,
hərrac ola malın.
Dilsizlərə səndən nə qədər yetdi əziyyət,
ay gürgi-təbiət.
Səndə hanı bir zərrə həya, qan, mürüvvət,
həmkarinə lənət.
Az canları etdirməmisən qanına qəltan,
ay düşməni-yəzdan.
Felindən utanmırsan, olursan hələ xəndan,
sənsənmi müsəlman?
Sizlərdən iki min kərə əfzəldi qarışqa,
ey ağzı barışqa.
Tədbiriniz ev yıxmaq, işiniz daha başqa,
ah, ay başı boşqa.
Alma vecinə sözlərimi, olma mükəddər,
dinlə necə bir xər.
Ver peysərinə hər nə deyildikcə sərasər,
et hiyleyi-digər.
Güldükcə sana xəlq, qoşul sən də hırılda,
tərpən, nə qımılda.
Tənqid elədikcə səni, Mollayə mırılda,
üstünə gurulda.
Çıxma, qoçağım, qarşıma dəstində tapanca,
bicadı bu, bica.
Gördükcə sənin halını mən xud ölürəm ta,
başqa nə təmənna?
Etdikcə nəsihət sana, bir anla, qanan ol!
guş eylə, filan ol!
Bu qəndi-nəsihət sana zəhr olsa, həman ol!
Bir qıllı qaban ol!
Kolluqda nihan ol!



Bihiss rəvan ol!
Aludeyi-qan ol!
Bijlikdə, əzizim,
Məşhuri-cəhan ol!

*Kefsiz*
*"Molla Nəsrəddin", 1911, № 19*

## İZHARİ-QƏDRDANİ[1]

Müddət idi çahi-zülmətdə çıxırdı canımız,
Bir soyuq zülmətdi ki, həm donmuş idi qanımız.
Dolmuş idi vəhşiyani-cəhl ilə hər yanımız,
Qeydi-cansuzi-əsarətdə qalıb nisvanımız,
Getmiş idi həm fənayə dinimiz, imanımız.

Çəkməz idi hiç kəs bu hali-pürdərd ilə dəm,
Qoymaz idi bir nəfər parlaq yola hərgiz qədəm,
İzdiyad etməkdə idi cəhl, qəflət dəmbədəm,
Həmdülillah, hopladı meydanə bir əhli-qələm,
Oldu girdabi-cəhalət içrə kəştibanımız.

Zülməti-cəhl içrə ikən asimanı, bir işıq.
Doğdu güntək üstümüzdə nagəhani bir işıq.
Şəhri-Bakudən çıxıb dutdu cahanı bir işıq,
Bilmüsavi eylədi mərdü zənanı bir "İşıq",
Bu işıqda etdi istirdadi-həqq nisvanımız.

Ay müdirə, ay mənim istəklicə bacım, xanım!
Axirət dünya bacımsan, başıma tacım, xanım!
Tiri-tənqidi nikuguyanə amacım, xanım.
Oldunuz kəmhövsələ bilməm belə zaçim, xanım.
Boyləmi idi əzəldən əhdimiz, peymanımız?

[1] "Sijimqulunamə"də "Qədr bilmək" başlığı ilə gedən bu şerin əvvəlində yazılmışdır: "Vaxtilə Bakıda nəşr edilən "İşıq" məcmuəsi müdirəsi Xədicə xanıma".

Barakallah, barakallah, barakallah, mərhəba!
Bu nə məcmuə, nə jurnaldır, nə şivə, nə əda!
O nə yazı, nə söz, o nə məqalə... rəhnüma?
Yazdığın sözlər müğayirdir təmamən halına,
Bax ədalət ilə, var insafımız, vicdanımız.

Bu mürəbbilikmi, bu məcmuəçilikmi, balam?
Doldurursan jurnalı latayilat ilə təmam.
Aldada bilməzsiniz artıq, gözün açmış əvam,
Etmək olmaz bu təməllüq sayəsində kəsbi-nam,
Həp ikiyüzlülərə məsduddur meydanımız.

Sən yazırsan ki, məhərrəmdə tökürsən yaşını,
Kuçədə açıq gəzirsən, örtməyirsən başını.
İstəmirsən sən fəqət açıq gəzə yoldaşını,
Doldurub məcmuənin boşqabına bu aşını,
Qoymusan ortalığa, yox həzminə imkanımız.

Bir tərəfdən xud yüzü açıq gəzirsən, bihicab,
Bir tərəfdən də deyirsən ki, gərək qalsın hicab.
Hansıdır əyri həmin cəhərlərin, hansı səvab?
Hansı qövlünə inansınlar sənin, xanəxərab?
Get-gedə artır qəmü ənduhi-bipayanımız.

Səndə yox təqsir, Bakunun həvası boylədir,
O yerin əfkarının həp mavərası boylədir.
Mollası, şeyxi, axundu, rəhnüması boylədir.
İbtidası işbu gunə, intəhası boylədir.
Pərvərişyab olmuş əvvəldən bu gunə qanımız.

*Kefsiz*
*"Molla Nəsrəddin", 1911, № 22*



## BƏXTƏVƏR GƏNCƏ

Nə dərdin var sənin, Gəncə?
Səfalı, güllü bağın var.
Cüvənsən var yeri, bəncə
Ki, ol bağ içrə zağın var.

Gilasın çox, kefin kökdür,
Soğan, kartoflu yük-yükdür.
Məarif bəncə bir tükdür,
Cəhalət misli-dağın var.

Nə çoxdur səndə bahümmət.
Qəni və sahibi-sərvət;
Şücaətli və pürqeyrət,
Ədədsiz qolçomağın var.

Misal olmaz sənə Baku,
Mərəndü Xoy ilə Maku.
Sözün doğru, işin niku,
Sənin özgə səyağın var.

İgitdir bəylərin, xanın,
Axundun, seyyidin, canın,
Gözü aydın ki, mollanın,
Dəvə, qatır, ulağın var.

Qabaqsan dəstəbazlıqda,
Dəsisə, fitnəsazlıqda,
Əhədsən qanmamazlıqda,
Nə dalın, nə qabağın var.

Qoçubazlıq işi moddur,
Bu sənət yaxşıca xoddur.
Yanarsan ha... Saqın, oddur,
Oda yoxsa merağın var?

Gözəl işdir təkəbbürlük,
Əbəsdir əl və sözbirlik.
Qoyub əhlin papağı dik,
Bihəmdüllah, dəmağın var.

Bəyənmir bir-birin yeksər,
Çəkir yekdigərə peysər,
Piçaq, pişdov, qəmə, xəncər,
Yaman gözdən irağın var.

Sözümə etgilən diqqət,
De əhli-Gəncəyə hər vəqt;
Ələ düşməz belə fürsət,
Nədir millət, nadir rəfət.

Kəsən sərişteyi-ülfət,
Cəhan sizdən edə nifrət;
Nə insanlıq, nə minsanlıq,
Gözün, başın, qulağın var.
Ayıbdır, solü sağın var,
Təməddündən fərağın var,
Yekə başda papağın var.

*İmza: (Tut-bil)*
*"Molla Nəsrəddin", 1911, № 23*

## İRAN

*11-ci pərdə*

Aldı yeni bir rəng genə kişvəri-İran, döndü geri dövran.
Göstərdi yüzün səhnədə bir quli-biyaban, bir vəhşiyi-ğərran.
Yel əsdi, yüzündən işin örtük götürüldü, hər nöqtə görüldü.
Amal və əfkari-əməl cümlə bilindi, fitnə dəbərildi.
Rusiyyədə bir ildi yatan Mədəli mirza, müstövcibi-iza.
İranə gəlir, bir daha gəl eylə təmaşa, etməkliyə rüsva.
İranlıların başqa imiş fikrü xəyalı, amalü məalı.



Qeyrətləri var imiş əcəb, əqlü kəmalı, saysız koramalı...
Mən çaşdım əzəl gün ki, niyə şah qovuldu, işlər belə oldu.
Çün bu kişi mütləq anadan şah doğuldu, həm şahə oğuldu.
İranlılara çox elədim onda məzəmmət: kim, pisdi bu adət,
Şah olmasa, sizdə olamaz dinü şəriət, dövlət və hökumət.
Bu sözlərimə eylədi bəziləri irad, bildi sözümü bad.
Danaları, həm əksəri oldu bu sözə şad, indi edirəm yad.
Əlhəq kişilərdə var imiş fəhmü fərasət, namus və qeyrət.
Kim, qıymadılar şah edə rus içrə sükunət, həp etdilə himmət.
İranə geri istədilər ol pezəvəngi, bu firqeyi-bəngi.
Saz eylədilər atlı qoşun, top, tüfəngi, qəddarə fişəngi.
"Salar təvilə" dönərək qıllı qabanə, gəldi həyəcanə.
Türkmən, köçərilər xanı da barbəranə, yardımçıdı xanə.
Məşrutəçilər başını soxmağə gəzir yer, mədhuş, mükəddər.
Bu canəvərin dəfinə amadə sərasər, yox çareyi-digər.
Hürriyyətü məşrutəni viran edəcəklər, bican edəcəklər.
Bu mülkə genə "Mədəlini" xan edəcəklər, sultan edəcəklər.
Həp köhnələrin şad olacaq qəlbi bu işdən, asudə və iymən.
Ariflər ümumən düşəcək qəhr ilə dildən, nabud olur erkən.
Molla, nə deyirsən,
İranlılara sən?
Qeyrətli imişlər,
Himmətli imişlər,
Təqdir edirəm mən,
Əhsən, yenə əhsən.

*Kefsiz*
*"Molla Nəsrəddin", 1911, № 26*

## NÜMUNEYİ-MAZİ

Rəhmətullah... əyyühəl-qazi,
Ey yeganə nümuneyi-mazi.
Məclisin təkcə vezpərdazi,
Köhnələr həmxəyal, həmrazi!
Təzəliklərdən olmuyan razi!

Sənsən, əlhəqq, qəmişətül-üləma,
Mənbəi-cəhl, fasiqül-füsəqa
Muşi-ənban, firqeyi-büdəla,
Gürbeyi-düzdi-xaneyi-füqəra
Rəhmətullah... əyyühəl-qazi!

Ərz edir xəlqə şəklin insanlıq,
Paltarından yağır müsəlmanlıq,
Bəllidir surətində şeytanlıq,
Ən əzəldən işindi kənkanlıq
Ey yeganə nümuneyi-mazi!

Sədri-məclisdə sən dutanda məkan,
Qalmayır bir nəfərdə ruhi-rəvan.
Kim hüzurində dinsə, biiman,
Kim sana zidd getsə, lap malaqan,
Məclisin təkcə vəzpərdazi!

Vəzin ancaq hekayəti-Musa,
Nəqli-İdris, Nuhilə İsa,
Şəkk, səhv, nifas, istibra,
Mədh, tərifi-cənnətü hura,
Köhnələr həmxəyal, həmrazi!

Lən, təkfir üçün zəbanın tiz,
Ağzının kaxını şərarət riz,
Arifə söhbətin küdurətsiz,
Cümlə fitvaların fitənamiz.
Tazəliklərdən olmuyan razi!
Yoxdu mislin sənin məhal içrə,
Ey yeganə nümuneyi-mazi!

*Kefsiz*
*"Molla Nəsrəddin", 1911, № 27*



# FƏXRİYYƏ

Cəhan əhli genə yeksər bizə məbhutü heyrandır,
Açıblar göz təmaşayə, ləbani-tən xəndandır.
Yenə meydandayız, həp dəstəmizdə tiği-bürrandır,
Qarındaşlarımız şəmşirimizlə qanə qəltandır,
Neçə məsum – öksüz, övrət – ərsiz, xanə virandır,
Dolansın keyfimizcə işbu dövran, yaxşı dövrandır.

Qopardıb rişəsini atmışıq biz ülfətin dildən,
Vurub sındırmışıq ayinəsin milliyyətin dildən,
Silib pak etmişik biz rəngini hürriyyətin dildən,
Sovurub qovmuşuq biz hurisin ünsiyyətin dildən,
Bütün əfalımız, əfkarımız təlqinə şayandır,
Dolansın keyfimizcə işbu dövran, yaxşı dövrandır.

Cəhanın rübünü təşkil edir bu gün müsəlmanlıq,
Düzülmüş fasdan ta Çinə dövləti-şahlıq, xanlıq.
Quru bir ismdir ancaq, təməddün var, nə insanlıq.
Deyərsən bir neyistandır, ümumən, sırf heyvanlıq,
Xüsusən, Qafqazın heyvanları bir başqa heyvandır,
Dolansın keyfimizcə işbu dövran, yaxşı dövrandır.

Cəhanda bir cürə insanlarız, bədxülq xilqətdən,
Fənalıqlarla istəkli, fünunü elmlə düşmən,
Tapılmaz bir əməl bizlərdə olsun pakü müstəhsən,
Cinayət, qətlü sirqətdə qabağız cümlə millətdən,
Bütün millətlər aləmdə bu gün bizdən hərasandır
Dolansın keyfimizcə işbu dövran, yaxşı dövrandır.

Mürüvvət yox, həya yox, nəngü namus ilə qeyrət yox,
Ədəb yox, elm yoxdur, rəsmü ayinü şəriət yox.
Könül yox, eşq yox, qardaşə, həmcinsə məhəbbət yox,
Beyin yox, əql yox, hissü şüurü şuri-fikrət yox,
Sözü – öldürrəm-öldürrəm, xəyalü fikri qan-qandır,
Dolansın keyfimizcə işbu dövran, yaxşı dövrandır.

Dəmadəm Qafqazın hər guşəsi qan ilə əlvandır,
Qazaxda, Gəncədə, yaylaqda məhşərlər nümayandır.

Ataatdır, vurhavurdur, qırhaqırdır, özgə meydandır.
Öləndir, zülm olandır, ağlayandır, cismi-bicandır.
Ölənlər, öldürənlər həp müsəlman, əhli-Qurandır,
Dolansın keyfimizcə işbu dövran, yaxşı dövrandır.

Xülasə, mayeyi-fəxrü mübahatız biz ecdadə,
Ata, əlbəttə, fəxr eylər bizimtək saleh övladə.
Həyatı ölçəriz boylə səadət ilə dünyadə,
Həmi cənnətdə hurilər bizimdir, dari-üqbadə,
Nə qardaşlıq, nə milliyyət, nə məktəb, elm, bəhmandır,
Dolansın keyfimizcə işbu dövran, yaxşı dövrandır.

*Kefsiz*
*"Molla Nəsrəddin", 1911, № 30*

## TAPMACA

Saqqalı uzun, guşi pühən, naqədəhəndir,
Alnı iki barmaq, gözü dar, boynu kərəndir,
Qamətdə uca, əqldə alçaq, döşü gəndir,
Yüzyaşlı, beli əyri, özü piri-kühəndir.

Gamuş nəfəs, gav qədəm, fil bədəndir,
Əfalı fitən, kari hiyəl, hərfi çərəndir,
Rəftarı acı, söhbəti duzsuz, hədərəndir,
Xudbin, xudavəndi-xirəd, sahibi-fəndir,
Ağzına qapaq xəlqin, ayağına rəsəndir,
Yanında iki kəlmə danışmaq qədəğəndir.
Hatif! Bunu bildir mənə, hansı kəsəyəndir?

*Kefsiz*
*"Molla Nəsrəddin", 1911, № 31*



## ORUCLUQ

Açıldı nobəharımız, orucluq oldu aşikar,
Olundu saz karımız, yenə bəzəndi hər kənar,
Behiştdir diyarımız, təmam pullu, maldar,
Behiştlikdi yarımız, bəy ilə xan, mülkədar,
Böyükdür ixtiyarımız bizə durublar intizar,
Səğarımız, kübarımız görsənə gərək nərəvar
Edək gərək bu milləti,
Tüfəng, tir ilə şikar.
Bu mahi-meymənət əsər, olan dəqiqə runəmun,
Bulur nişat qəlblər, sürur, eyşi-dəm füzun,
Gedir məlal, qəm, kədər, dolur fərəhlə dargun,
Plov, əriştədir səhər, təamhayi-gunəgun.
Və qism-qism meyvələr, gavalıdır, üzüm, qavun,
Olunca şam, süfrələr, qəbağımızda bisükun,
Gözəllər, çəkir, tökür,
Kəbab, abi-xuşgüvar.
O dəm ki, söylənir əzan, vururlar təbli gümbəgum,
Kəmali-nazilə həman, axund incidir qüdum.
Dolu yeyinti ilə xan, açım zəmanı cümlə sümm,
Xiyar, sirkəli soğan, qovurma, cürbəcür ləhum,
Edəndə "həmlə" molla can, bütün güruh edir hücum.
Sən ey fəqir! Qal yavan, plov, çığırtma umma, um!
Gözünü ey zəlil, yum,
Belini bağla üstüvar.
Təmami-ehsan, aş, plov bizimkidir, sizin deyil,
Kükü, kərə, kabab, çilo bizimkidir, sizin deyil.
Müridimizdir el hamu, bizimkidir, sizin deyil,
Axı biz "alim"ik, ziba! Bizimkidir, sizin deyil.
Məgər zərafət işdi bu! Bizimkidir, sizin deyil.
Çəkil-çəkil, bero-bero! Bizimkidir, sizin deyil.
Dolan, dilən qapu-qapu.
Ğəmini eylə aşikar.
Əl aç, sızılda kubəku,
Elə dəmadəm ah-zar,
Elə və xuni-dil nisar.

*Kefsiz*
*"Molla Nəsrəddin", 1911, № 32*

## MOLLA ARİFƏ DEYİR...

Sanma getmişdir əlimdən izzətim, şanım mənim,
Bilmə ki, keçmişdir əsrü vəxtü dövranım mənim!

Eylə fikr etmə ki, köhnəlmiş, bucaqda qalmışam,
Kimsə işlətmir, batıbdır həm adım-sanım mənim!

Lovğalanma kim, sənin həmfikrin artır gün-günə,
Əskilir yarım, müridim, bəndəfərmanım mənim!

Çox da şişmə ki, varındır tazə üç-beş məktəbin,
Var hələ mindən də çox köhnə dəbistanım mənim!

Bir-iki jurnal, qəzet, çapxanənə fəxr eyləmə,
Var ikən yüz min dilavər mərsiyəxanım mənim!

Ev mənim, doqqaz mənim, məscid mənim, məclis mənim,
Bağ mənim, bostan mənim, minlərcə heyvanım mənim!

Söz mənim, fərman mənim, fitva mənim, qüvvət mənim,
El mənim, ahil mənim, cahil müsəlmanım mənim!

Pul mənim, paltar mənim, millət mənim, qismət mənim,
Aş mənim, dolma mənim, hər yerdə ehsanım mənim!

Adını arif qoyubsan, yox cibində bir qəpik,
Bax ləbaləbdir qızıl, kağız cibişdanım mənim!

Bu qədər şeylər mənim, sən de, nəyin var, ay lotu,
Şöhrətim var, işləyir dingim, dəyirmanım mənim!

Gözlərin batmış, çöküb ordun, dönüb boynun çöpə,
Sürxdür rəngim, kefim kök, sağdır canım mənim!

Qoy canın çıxsın, tək işlə, var iki-üç arvadım,
İşrətim, eyşim, damağım, qəhvə-qəlyanım mənim!

Əskinasım, saz əsasım, dürrü mərcanım mənim,
Axirətdə cənnətü hur ilə rizvanım mənim!

*Kefsiz*
*"Molla Nəsrəddin", 1911, № 40*



## DEYİRLƏR

Deyirlər ki, İran düzəlmiş, əyandır,
Elə düz, elə düz, deyirsən kəmandır.
Axır qan elə bil ki, abi-rəvandır,
Əcəl badi işbu zəminə vəzandır,
Ölən yox, gülən çox, həmandır, həmandır.

Deyirlər gedir yaxşı kari-hökumət,
Nə cəngü cidalü, nə dava, xüsumət.
Qoyun ilə qurd otluyur bieziyyət,
Deyirlər, fəqət mən inandım, yalandır.
Həmandır, həmandır, həmandır, həmandır.

Həman xəlqi-İran divanəgantək
Cırır bir-birini qudurmuş qabantək.
Bədənlər düşür xakə bərgi-xəzantək
Kəsadi-xirəddir, beyinlər səmandır,
Həmandır, həmandır, həmandır, həmandır.

Deyirlər ki, Bəndərgəz içrə müsəlman,
Müsəlmanı qırmış, edib şəhri viran,
Uşaq, övrət, erkək təmamən hərasan.
Dağılmış biyabanə yeksər dəvandır,
Zarıltı, sızıltı və ahü fəğandır.

Şulux, ərdoluqdur deyir mülki-İran,
Nə Təbriz, Kirman, nə Gilan, Tehran,
Vəkillərdə həycan, vəzirlərdə böhran,
Həman köhnə qapı, həmanca dabandır,
Həmandır, həmandır, həmandır, həmandır.

Nə həngamədir bu, nə halətdi, yarəb.
Nə vəhşət, nə şiddət, xəriyyətdi, yarəb.
Nə qovğa, nə məsnəd, niyabətdi yarəb.
Bitibdir məgər vəqt, axır zəmandır,
Amandır, amandır, amandır, amandır,
Sirişki-dərunim gözümdən rəvandır.

*Kefsiz*
*"Molla Nəsrəddin", 1911, № 40*

## MƏŞRUTƏ

Demə, İranzəmin içrə açıb üz yari-məşrutə,
Edir ərzi-cəmal iranlıya dildari-məşrutə.
Edir abad İran mülkünü ədvari-məşrutə
Açıb bərgi-şükufə, bar verir əşcari-məşrutə,
De kim, təslim edir canın, şuluxdur kari-məşrutə.

Demə, İranda istedada malik kəs firavandır,
Demə, həm talibi-məşrutədir, həm nikxahandır.
De kim, məşrutəyə bunlar, ümumən, sırf düşməndır,
Boyi, xanı, əmiri, seyyidi, mollası şeytandır.
Lisanından çalıbdır cümləsinin mari-məşrutə,
Budur, təslim edir, canın, şuluxdur kari-məşrutə.

Dəmadəm hökmrandır hər tərəfdə qarğaşa, qovğa,
Qoyur saətbəsaət sineyi-mülkə əcanib pa,
Düşüb dəryayi-Qülzüm, eyləyir bu ərzi istila,
Bu istiladan eylər bir təki nə xof, nə pərva,
İçibdir cümləsi, guya olub xumari-məşrutə,
Budur, təslim edir canın, şuluxdur kari-məşrutə.

Deyildir kari-məbusan, vəzarət təsliyətbəxşa,
Səri-karə qonublar cümləsi surət kimi bica.
Əhali sırf cahil, mürdeyi-sədsalə, nabina,
Əcəb bir qitədir, məxluqi yeksər tariki-dünya,
Girər bu başlara asan, demə, əfkari-məşrutə.
Keçər bu başlara, bil ki, çətin, əfsari-məşrutə.

Nə azadi, nə hürriyyət, deyil dər kari-məşrutə,
Düşübdür rəxtxabə, xəstədir sərdari-məşrutə,
O dünyayə tərəf dutmuş yüzün bimari-məşrutə
Saralmış yaprağı, olmuş xəzan gülzari-məşrutə,
Budur, təslim edir canın, şuluxdur kari-məşrutə.

*Kefsiz*
*"Molla Nəsrəddin", 1911, № 43*



## DOLANDI BU İL DƏ...

Dolandı bu il də yetişdi təmamə,
Səbahın həyatı bədəl oldu şamə.
Bütün on iki ayı qanlar axıtdı,
Qızıl qanlı qoydu qılıncın niyamə.

Cəhan qarğaşalı bu ildə sərasər,
Könüllər dolaşıqlı iyza, mükəddər.
Vilayati-İran biyabani-məhşər,
Bu kişvərdə durdu qiyamət qiyamə.

Pədid oldu quyruqlu ulduz səmadə,
Təpik atdı həm gavü mahi səradə,
Əhali qiyam etdi Çinü Xətadə,
Edib şah tərki-məhəlli-iqamə.

Trablisdə qalxızdı dava italyan,
Xəbərsiz yeritdi qoşun, aşdı meydan.
Düşüb "bərkə" o, sonra oldu peşiman.
Utandı qaça, həm nə də yetdi kamə.

Bu il runümun oldu çox iş cahanda,
Xüruc etdi Dəccal Mazandaranda.
Vüquat min-min, o yanda, bu yanda.
Yazılmaqla bitməz, yetişməz xitamə.

Bu il bizdən ayrıldı istəkli Sabir,
Bizi qoydu qəmgin o qiymətli şair.
Fəraqilə qıldı pərişanxatir,
Səhayif qalıb boş, şikəst oldu xamə.

Şəmaxidə bir möcüz oldu nümayan,
Həm açıldı Bakudə darülyetiman,
Nuxu, Gəncə, Dərbənd, Qələ, Dağıstan,
Ediblər tərəqqi, yetiblər məqamə.

Qəzetlər yazıldı müsəlman içində,
Açıldı neçə sirri-pünhan içində,
Məarif yubandı bu heyvan içində,
Ülumi həram etdi molla əvamə.

Bizə verdi Gəncə cəvanları təbşir
Ki, ta olmuyalım küdurətli, dilgir.
Olundu Nizami nişangahı təmir,
Rəvadır müsəlman edə fəxr amə.

Müsəlmanə bu il genə molla Mədum,
Edib nəhy təlimi-nisvanı məzmum.
Güman etdi xəlqin qabağın kəsər şum
Əlində çomağı, başında əmmamə.

Yenə qaldı köhnə işində müsləman,
Zəminə sutək tökdü qafqazlılar qan.
Neçə tifl öksüz, neçə xanə viran,
Həman əski adəm, həman əski camə.

Nə isə, hələ biz xudahafiz etdik,
Bu köhnə ilə biz xudahafiz etdik.
Bir ahəng ilə biz xudahafiz etdik,
Deyil yaxşı çox tul vermək kəlamə.

*Məşədi Sijimqulu*
*"Molla Nəsrəddin", 1911, № 44*



## TAZİYANƏ

Yazdığın nəzm, nəsr yazıləri
Oxuyuram, fəqət mən anlamıram.
Anlamaq güc, ğəliz ibarə təmam,
Beynimə girmir anlayış əsəri.

Türkcə yaz, sadə yazmayırsan, sus!
Hamının yox ərəbcədən xəbəri.
Danışaq doğru, oyləşək əyri,
Saxlayımmı yanımda bir qamus?

Türkcə bir beytdə iki kəlmə,
Farsca üç var, ərəbcə var on üç,
Türk dilin etmə, ey ədibim, puç!
Azı bir azca da sən əsgiltmə!

*Kefsiz*
*"Molla Nəsrəddin", 1911, № 45*

## VƏDƏ

Vədə bizə behişti rövzəxan verir,
Köhnə ölülərə yenidən bir də can verir.
Əvvəl özü süud eyləyir ərşi-minbərə,
Cənnətlər içrə sonra bizə o, məkan verir.
Hurilər ilə eyləyir o, qol-boyun bizi,
Bir kərbəlayıya iki yüz nazlı can verir.
Nazik don içrə ağ bədəni cilvələndirir,
Ağ üstüxan içində ilikdən nişan verir.
Hacıları behiştə sürür o, sürü-sürü,
Mollaları bu kəlləyi-gavə çoban verir.
Bir mömin behiştdə yüz min şəhər satır,
Hər şəhr içində binlər ilə ğəncatan verir.
Fikrincə rövzəxanın, oyunxanədir behişt,
Hər bambılı və bitliyə orda məkan verir.

Hər burnu fırtılıxlını cənnətlik eyləyir,
Hər oğruya, adamcıla izzət və şan verir.
Beş şahıya salır içəri yol kəsənləri,
Pul verməyənlərə neçə föhşü yaman verir.
Hər nə olursan ol, iki pul ver, musurman ol.
Kafir də olsa, qəbzi-behişti nihan verir.
Əlhasil, arzuya yetişmək deyil çətin,
Qırx gün məhərrəmi, diləsən, hər zaman verir.

*Kefsiz*
*"Molla Nəsrəddin", 1912, № 1*

## TAZİYANƏ

Çünki namusun ziyanı var tənə
At onu, qeyrətlilik bihudədir.
Dut, əzizim, bir nəsihətdir sənə
Kim ki binamusdur, asudədir.

*Kefsiz*
*"Molla Nəsrəddin", 1912, № 2*

## ŞƏKİL

Əməlin yox, adın müsəlmandır,
Surətin, batinin yox, insandır,
Sənə insan demək də böhtandır,
Yırtıcısan, yerin neyistandır,
Səndən insan olan gürizandır.

Mütənəffirdi səndən insanlar,
Səni bilmir bəşər müsəlmanlar.
Sahibi-elmü əqlü vicdanlar,
Sənə öz xaliqin də düşmandır,
Səni xəlq etmədən peşimandır.



Yaradıbdır məgər səni Allah
Ki, ola məhv əlində xəlqullah?
Nədi bu zülm ey ədüvvullah?
Laxta-laxta üzü yerin qandır,
Nədi bunca, əcəb, nə tüğyandır?

Özgələr .................. aşına,
Dörd tərəfdən qapazlayır başına,
.......................... yaşına.
Al əvəz qardaşından, asandır,
Xaneyi-din əlində virandır.

Mən bilə bilmirəm nə cövhərsən?
Necə nütfə, zina pesərsən sən?
Töxmi-iblis, mayeyi-şərsən,
Atəşində bilad suzandır,
Bədənim hər dəqiqə lərzandır,
Dağınıq huş, dil pərişandır,
Allah, Allah, bu hansı dövrandır?

*Kefsiz*
*"Molla Nəsrəddin", 1912, № 2*

## TAZƏ İLƏ

Oxu, ey tazə il, bu il bizə lay-lay qucağında!
Doyunca yuxluyub, ta bir deyək oxqay qucağında!

Edək ta uyğudan kami-dili-divanəni hasil,
Beş ildir uyğusuz qaldıq, deyildir yatmamaq qabil,
O kim, yatmır gecə-gündüz, deyil o binəva aqil!
Çalışsın qoy o biqeyrət, bizə ver pay qucağında!
Doyunca yuxluyub, ta bir deyək oxqay qucağında!

Oyanıqlıq bizi bərbad qıldı, eylədi viran,
"Silindir börklü, surtuklu müsəlmanlarda yox iman,
Bəlası onların dutdu bizi, döndü geri dövran,

Gözüm qoy görməsin, gizlət bizi, ey vay, qucağında!
Doyunca yuxluyaq, ta bir deyək oxqay, qucağında!

Soğanlartək soyulduq, qalmadı pul, abru getdi,
Qazet al, məktəbə ver, et ianə, nobənu, getdi,
Döyül, danlan, söyül, dinmə, təharət yox, vüzu getdi,
Yatırt, dincəlt bizi, ta olmayaq rüsvay qucağında!
Doyunca yuxluyaq, ta bir deyək oxqay qucağında!

Nə dəxli var bizə meydanda qaldı təkcə osmanlı,
Və yainki zəhərləndi cəvanmərg oldu iranlı
Və yainki əzir, pamal edir cansızları canlı,
Verir də xod müsəlmanə müsəlman vay, qucağında!
Doyunca yuxluyub qoy biz deyək oxqay, qucağında!

Məarif yox kimi, əxlaqlar pozğun, ticarət yox,
Hünər, sənət, qaçaqlıq, oğruluq, qətl, istirahət yox.
Fəlahət yox, səfalət bol, zəlalət bol, ziraət yox,
Dilənçi, falçı, molla, seyyid on min say, qucağında!
Doyunca yuxluyub qoy deyək oxqay, qucağında!

Suda üzsün, havada uçsun əğyar, almarıq ibrət,
Bizi gər qətli-am etsə əcanib, etmərik qeyrət,
Nə lazım zəhmətə düşmək, nəqədri əldə var fürsət,
Qalaq yanvar, fevral, mart, aprel, may, qucağında!
Gecə, gün, vəqt, həftə, hər zaman, hər ay qucağında!
Doyunca yuxluyub ta ki, deyək oxqay qucağında!

*Kefsiz*
*"Molla Nəsrəddin", 1912, № 3*

## BOŞLA, YAXUD ƏLDƏN QOY

Boşla, məşrutə nədir, ay bala, iranlı nədir,
At kənara, belə sözlər nə, xorasanlı nədir,
Nədi hürriyyət, əhərli nədi, kaşanlı nədir,
Nədi məsləк, nədi təbrizli, damaqanlı nədir,
Hiss, birlik və siyasət nədi, tehranlı nədir.



Altı min ildi ki, İranda bu sözlər yox idi,
İstirahət var idi; qarğaşa yox, şər yox idi,
Yoxsa iranlıda ol vəqt beyin, sər yox idi?
Bilməyir idi ki, izzətli nədir, şanlı nədir?
Boşla, məşrutə nədir, ay bala, iranlı nədir.

Varmı bir ölkə həmin kişvəri-naçiz kimi,
Hanı bir şəhr cahanda belə Təbriz kimi,
Bavəfa xəlqi, qaranlıq özü dəhliz kimi,
Başa baş boşla, həp iranlı nə, məşrutə nədir,
Götür at, çirkli keçəl baş nədi, ağ futə nədir.

Var bir iranlıda, təbrizlidə üç-dörd məslək,
İki yüz məkrü fırıldaq, iki min hiylə-kələk.
Vurdurur başına hər gündə o yüz min dəyənək,
Çıxır hər həftədə ortaya başı qanlı, nədir,
Qanmıram mən, edirəm fikr işi hər yanlı nədir.

İçlərindən gəhi Hac Mirzə Həsənlər qovulur,
Ehtiram ilə gəhi içlərinə daxil olur.
Düzəlir gəh nizamın teli, gəhi pozulur,
Gəh londonlu olurlar, gəhi salyanlı, nədir.

Görür əhvalı pərişan bu cürə Məmmədəli,
Acığından qalır az olsun o biçarə dəli.
Bir bəyannamə yazıbdır ki, onun yox bədəli,
Deyir onda ki: onu mindirələr təxtə yenə,
Bəxt ta onlara, onlar da gülə bəxtə yenə.

Var ümidim o kişi bir də bu mülkə ola şah,
Ola asudə vətən, dincələ ta xəlqi-ilah.
Baisin yıxsın evin, yıxdı necə ki, Allah
Əncümən xəlqi dağıtdı, gədəli, xanlı, nədir,
Oldu puç el hamı, şirazlı nə, zənganlı nədir,
Boşla, məşrutə nədir, ay bala, iranlı nədir.

*Kefsiz*
*"Molla Nəsrəddin", 1912, № 4*

## TAPMACA

Tap görüm hansı vilayətdir o
Ki, səri-karə qonanlar çağadır,
Mədəni-cəhlü cəhalətdir o,
Xanı, mollası ilan-qurbağadır,
Adı məşrutə, özü istibdad,
Amiri, hakimi yeksər cəllad!

*"Molla Nəsrəddin", 1912, № 5*

## DUR

Usandım üstünə gülməkdən, ey divanə millət, dur!
Yoruldum məsxərə yazmaqdan, ey divanə millət, dur!

Yolunda getdi dinim, məzhəbim, ayinü imanım,
Məqamım, abruyim, ehtiramım, izzətim, şanım,
Yanında kafir adlandım, halal oldu sənə qanım,
Səninçün qorxmaram ölməkdən, ey divanə millət, dur!
Usandım üstünə gülməkdən, ey divanə millət, dur!

Gahi babi, gahi mürtəd, gahi kafir adlandım,
Döyüldüm, şaşqalandım, güllələndim, bəlkə odlandım,
Qığılcımlar kimi qopdum, ocaqlartək alovlandım,
Yorul bircə mənə söyməkdən, ey divanə millət, dur!
Usandım üstünə gülməkdən, ey divanə millət, dur!

Sənin üstündə məndən oldu rəncidə Hacı Səfdər.
Mənə bidin, laməzhəb dedilər mollalar yeksər,
Qənim olsun sənə, vursun səni Allah, peyğəmbər,
Evin olsun görüm Şirvan kimi viranə, millət, dur!
Usandım üstünə gülməkdən, ey divanə millət, dur!

Sənə molla çalır lay-lay, yatırdır xabi-qəflətdə,
Səni yar eyləyir hurilər ilə baği-cənnətdə,
Fəqət dünyadəki huriləri kendisi xəlvətdə.



Çəkilmir bircə gün öpməkdən, ey divanə millət, dur!
Usandım üstünə gülməkdən, ey divanə millət, dur!

Ayıl! Bir bunca da yatmaq olurmu, içməmisən ki?
Verib dünyanı düşmənlər əlinə, köçməmisən ki?
Yaman da, yaxşı da birdir yanında, seçməmisən ki?
Utan bir abru tökməkdən, ey divanə millət, dur!
Usandım üstünə gülməkdən, ey divanə millət, dur!

Səni təxrib edir həkimnümalər, hər zaman, hər il,
Dedim pisdir sənə cəhl, anlamırsan anlama, sən bil,
Üzünə özgələr bir gündə min dəfə tüpürsün, sil,
Kədərlənmə tüpürcəklərdən, ey divanə millət, dur!
Usandım üstünə gülməkdən, ey biçarə millət, dur!

*Kefsiz*
*"Molla Nəsrəddin", 1912, № 6*

## ŞƏRAB

Deyir kim, ay dəli, canə verir ziyan şərab?
Edir gülüzlülərin rəngin ərğəvan şərab.
Xərab olur deyir, içdikcə qəlbü can, şərab
O kim, deyir bu sözü, söyləyir yalan, şərab:
Olur kim içsə biri bir piyalə qan, şərab!

Onu zərərli bilən qanmır, anlamır, yanılır,
Qazancı, ləzzəti insaf edilməyir, danılır.
İçən məgər onu bihuşü məst olub ayılır?
Bu nəşədir ki, onu bəxş edir rəvan, şərab!
Xoşa ona ki, içir ta olur piyan, şərab!

Pis olsa idi onu sıxmaz idi insanlar,
Yasağ edərdi hökumət, şah, sultanlar.
İçərdimi onu gər olsa pis, müsəlmanlar?!
Əfəndi, məşhədi, hacı, bəy ilə xan, şərab!
İçir bir onca ki, hətta olur piyan, şərab!

Əlin əsası, dizin təqati, gözün nuri,
Mizin yaraşığı, can qüvvəti, belin zuri.
Açarı eşqin, atı əqlin, istəyin kuri,
Həyatın atəşidir tək bir istəkan şərab,
Xoşa ona ki, içir ta olur piyan, şərab!

İçib doyunca ki, keflənmədin, nə ləzzəti var?
Küpün dibində zibillənmədin, nə ləzzəti var?
Piyan soqaqları vellənmədin, nə ləzzəti var?
Yazıq ona ki, nədir bilməyir cəhani-şərab!
İçərsə bircə içim pir, olur cəvan, şərab!

Odur ləzizü müqəvvi, o gunə bir nemət
Ki, içsə yüksəliyor başı ərşə hər millət.
Səbəb budur irəli getməyə, elə qeyrət,
İç ol qədər ki, elə kəsb namü şan, şərab!
İçir həp intiligent, arif, anlayan, şərab!

Deyil bədəl hələ tiryak, çors qəlyanə,
Bu bəsləyir bədəni, faidə verir canə.
Dönür gəda içə gər, bircə cürə sultanə.
Edir də tülkinü bizzat ərslan, şərab
Bağışlayır belə pəltəklərə lisan şərab
Ürəkdə bircə sözü saxlamaz nihan şərab
Yamanı yaxşı edir, yaxşını yaman şərab!

*Kefsiz*
*"Molla Nəsrəddin", 1912, № 6*

## BAX – GÜL

Bir ayinə al, caninə ayinədə bax – gül!
İr sevgili cananinə ayinədə bax – gül!
Əvvəlcə çevir bir sələvat, atla behiştə,
Huriləri al yaninə ayinədə, bax – gül!
Döndər işığa cəbhəni, bir yaxşı nəzər qıl,
Məxmur iki ceşmaninə, ayinədə bax – gül!



Sil burnunu, eş bığlarını, ordunu qalxız,
Göyçək ləbü dəndaninə ayinədə bax – gül!
Qırxıq başına, qıllı qulaqlarına göz qırp.
Rişü ruxi-əlvaninə ayinədə bax – gül
Qıl xilqətinə, surətü simanə təmaşə,
Əhvali-pərişaninə ayinədə bax – gül!
Titrək təninə, xəm belinə, puç qəfanə,
Səd çaki-giribaninə ayinədə bax – gül!
Qəm-qüssə axıtmaqda olan qaş-qabağınla,
Rüxsari-peşimaninə ayinədə bax – gül!
Min zülm, söyüş eyləməyən zərrəcə təsir,
Namusun ilə qaninə ayinədə bax – gül!
Çəp gözlərin ilə düzü kəc, əyrini düz gör,
Öz eybinə, nöqsaninə ayinədə bax – gül!
Ayinə sənə hər yerini göstərəcəkdir,
Gəncineyi-pünhaninə ayinədə bax – gül!
Keçmişlərini həsrət ilə, ah ilə yad et,
Ağlanmalı avaninə ayinədə bax – gül!
Hürr olmaq üçün bir hərəkət qıl, nə qımılda.
Zəncirinə, zindaninə ayinədə bax – gül!
Öz əlləriniz, həm də əcanib əli ilə,
Qanı axan əxvaninə, ayinədə bax – gül!
İtmiş olan insanlığı çarşablar içində,
Həp cahilə nisvaninə, ayinədə bax – gül!
Qat xuni-dilə əşki-təhəssür qətəratın,
Düz nəzmlə müjganinə, ayinədə bax – gül!
Dil qanma, hesab anlama, kəndini "qoyun" bil,
Dirrəndə nigəhbaninə ayinədə bax – gül!
Ta qan, nə üçün mən gülürəmmiş səni görcək,
İnsafına, vicdanına, ayinədə bax – gül!
İmaninə bax – gül!
İmkaninə bax – gül!
Cəhl ilə ləbaləb,
Ənbaninə bax – gül!
Hər yaninə bax – gül.

*"Sijimqulunamə", 1912*

## ƏŞARİ-NİYAZMƏNDANƏ

*"Molla Nəsrəddin"ə*

Ulduz kimi parlayırdın, süslənirdi yurdumuz,
Hansı qalın buludların arxasında dayandın?
Bais nə şey oldu belə yavaşıdın, yubandın?
Azalırdı, üzülürdü parıltınla dərdimiz.

Arslan kimi kükrəyirdin, işləyirdi nəfəsin,
Həftə-həftə könüllərə işlədirdin qorxunu.
İndi sənin haralardan soruşaq biz sorğunu,
Duyulursan, görülürsən, nə ünün var, nə səsin?

Unutmazdın qəmlərini millətinin bircə gün,
Qatlanırdın zəhmətlərə yol göstərib duraraq,
Gülə-gülə ağladırdın, güldürürdün ağlaraq,
Ey millətin parlaq günü, parla, parla, bir görün!

Az deyilsə millətindən yubanmana, sevinən,
Həm az deyil həsrətkeşin, məsləkdaşın, sirdaşın,
Tətilindən üzülərək kədərlənən yoldaşın,
Həsrətindən saatlarca ürəkləri döyünən.

Ey günəştək göy üzündə buludlara bürünən!
Çox dayanma, yenə doğ sən, silahına sarıl da,
Önündəki buludları qov, ulduztək parılda,
Gözlərimiz yolundadır, yolundadır, yolunda!..

*Kefsiz*
*"İqbal", 1912*

## MİLLƏTİMƏ

Ey ayrılıq zamanları məni anan camaatim,
Zəmanın arslanları, igid, sevimli millətim.
Keçən, dala qalanları, mənim qəyur ümmətim,
Qəmi, kələlı başımın, ürəkdə dərdü illətim,
Gedib dübarə gəlmişəm, ölüb genə dirilmişəm.



O gün ki, sizdən ayrılıb, gedib evə uzanmışam,
Yuxu tutub məni elə, yatıb orada qalmışam.
Zəman keçib, sabah olub, on ay sora oyanmışam,
Çox istirahət eyləyib, dayanmışam, yubanmışam.
Gedib dübarə gəlmişəm, ölüb genə dirilmişəm.

Bu vəqtədək şüarımı atıb, sizi buraxmışam,
Su hər yana ki, meyl edir, o yanə mən də axmışam.
Nə mollaya, nə arifə, bəyə, nə xanə baxmışam,
Nə istəyibsə kefləri ediblər oylə, baxmışam,
Fəqət dübarə gəlmişəm, ölüb genə dirilmişəm.

Orucluğu, məhərrəmi sizi soyubdu mollalar,
Əkinçi, rəncbərləri basıb yeyibdi mülkədar.
Cəhani-bivəfa sizə olub qış, onlara bahar,
Nə qapmış olsalar gedib, vəli dolandı ruzigar,
Ölüb genə dirilmişəm, gedib dübarə gəlmişəm.

Yüzündə bu qara yerin on aydı olmuyıb nələr,
Neçə musurman aləmi oda tutuldu sərbəsər.
Ədalətin qabağına çəkildi bir qalın çəpər,
Yox idi əldə vasitə, sizə verəmmədim xəbər,
Fəqət mən indi gəlmişəm, ölüb genə dirilmişəm.

Qabaqkı məsləki, yolu tutub, genə buraxmaram,
Qaçaq, qoçu və oğrudan çəkinmərəm də, qorxmaram.
Yalançı arif, atvaqat, axundü şeyxilən varam,
Köməkçi sudya, yüzbaşı, müdirə etməm ehtiram,
Birinə tutmayıb tərəf, birinin eybin örtmərəm,
Ölüb genə dirilmişəm, gedib dübarə gəlmişəm.

*Məşədi Sijimqulu*
*"Molla Nəsrəddin", 1913, № 2*

## İDEAL

Qafqazlıyam, əlbəttə, qaçaqlıqdı xəyalım,
Dindar müsəlmanəm, açıqdır pərü balım.
Dünyadə igidlikdə mənim yoxdu misalım,
Öyrənməmişəm elm, ola kim, vizrü vəbalım,
Puç olmağıdır millətin ancaq idealım.

Dünya başabaş elm ilə gər dolsun, işim yox,
Ətfali-vətən elmsizin solsun, işim yox.
Xud millət özü nasıl olur olsun, işim yox,
Qısqanmaram, od düşsə, bütün yansa mahalım,
Puç olmağıdır millətin ancaq idealım.

Yalım ağarıbdır, yetişib yetmişə yaşım,
Düşmən qəməsilə çapılıb min kərə başım.
Rəngin edib ağ saqqalımın qırmızı, yaşım,
Ta hal fəqət olmayıb ağ əqlü kəmalım,
Puç olmağıdır millətin ancaq idealım.

Birlik sözünü atmışam, əsla ona baxmam,
Min pislik ola qatlaşaram, hiç darıxmam.
Artdıqca yamanlıq dözərəm, qəlbimi sıxmam.
Gər olsa bu iş baisi-ifnayü zəvalım,
Puç olmağıdır millətin ancaq idealım.

Kəndimi yəhudilərə oxşatmamışam mən,
Gürcülərə bil ki, özümü qatmamışam mən,
Rus, erməni tək kəndimi aldatmamışam mən,
Məktəb qapısın görməyib a, əhli-əyalım,
Puç olmağıdır millətin ancaq idealım.

Dəxli mənə yoxdur ki, qəzetlər yubanırlar,
Pulsuz qapanırlar, dayanırlar, usanırlar,
Hərçənd ki, odlarə yaxır onları halım,
Mən sevmirəm onları fəqət, ay qadan alım,
Puç olmağıdır onların ancaq idealım.

*Kefsiz*
*"Molla Nəsrəddin", 1913, № 2*



## BEYNİ SAMAN DEYİLMİDİR?

Bir mən ölüm baxın buna, lap malağan deyilmidir?
Bənzəməyir musurmana, çinli, yapon deyilmidir?
Saqqalına, cəmalına, çalca qaban deyilmidir?
Söhbətinə, səvalına... saçma sapan deyilmidir?
Axmağın oğlu axmağın beyni saman deyilmidir?

Bax nə deyir görün mənə, qızlarını oxutgilan,
Onları göndər uşkola, rəhm elə, hallarına yan.
Boylə sözü deyincə ha, razı idim desə yaman!
Çünki bu söz, bu iş, əməl dinə ziyan deyilmidir?
Axmağın oğlu axmağın beyni saman deyilmidir?

Bu genə səhldir, baxın o hələ söylüyür nələr,
Deyir qıza gərək deyil yirmi yaşa gedincə ər.
Uşkolada o vaxtacan yazı, oxu, iş öyrənər,
Bu başıdaşlının bütün sözləri qan deyilmidir?
Axmağın oğlu axmağın beyni saman deyilmidir?

Oğlumuzu apardılar, mürtəd uşağı, məktəbə,
Öyrədib etdilər əduvv adətə, fərzə, məzhəbə
Pisdi bu firqə erməni, urusdan əlli mərtəbə
Qovmağa bu masonları indi zaman deyilmidir?
Yaydı qabağə, qoymayın, bir neçə can deyilmidir?

Babıdımı, masondumu, mən bunu oxşadım kimə,
Hey sataşır, utanmayır, məzhəbə, dinə, alimə,
Öldürəsən ilişdirib başına bir iti qəmə.
Annamır öz dediklərin, məst, piyan deyilmidir?
Axmağın oğlu axmağın beyni saman deyilmidir?

Pozdular etiqadını boylə cəfənglər ümmətin,
Tərsinə iş apardılar, mollaların, şəriətin.
İndi də qızları deyir, gəzsin açıqda millətin,
Böylələri ülum üçün dini satan deyilmidir?
Axmağın oğlu axmağın beyni saman deyilmidir?

Ay keçən əsr hardasan, bir daha gəl qayıt geri,
Bu yeni əsr quyluyur köhnələri diri-diri
Millət işıq gəzir, qapa zülmətin ilə hər yeri,
Köhnə bu yadigarların səndən olan deyilmidir?
Min cürə fəndü məkr ilə xəlqi soyan deyilmidir?
Milləti ha fəlakətə, məskənətə, cəhalətə...
Dərdü əzabü zillətə boylə salan deyilmidir?

*Kefsiz*
*"Molla Nəsrəddin", 1913, № 5*

## NƏZİR

Gümüş əndamlı, durna gərdənli,
Sərv boylu, qılıqlı bir zad ola.
Alagözlü, teli və qaşı qara,
Dodağında, dilində də dad ola!

Ola çox olsa yaşı doqquz-on,
Döşü gen, incə belli, saçı uzun,
Qəmzəli, nazlı, şivəsi uyğun,
Pənbə yüzlü, bəhartək şad ola!

Çağa vəqti atası nəzr eyliyə,
Böyüdə, bəsləyə onu, bəliyə,
Verə Mir Bağır adlı bir dəliyə,
Hamı suçdan, günahdan azad ola!

Gəlib evdə o heyət ilə görə,
Onu Bağır ağa basıb sümürə.
Dönə gül yüzlünün günü kömürə,
Köhnə bir pəhlivanə arvad ola!

Nəzər etdikcə yarının yüzünə,
Şələ saqqalına, yumux gözünə,
Acıya hey, hayıfsana özünə,
Həqqdən, həm həyatdan yad ola!



Atasına "Ağa" əvəz iki yüz
Verə huri, apara cənnətə düz.
Ağa keflər çəkə gecə-gündüz,
Ədlü insafü mərhəmət bad ola!

Günü-gündən zəvallıcıq üzülə,
Qırışa pənbə yüz, dodaq, büzülə,
Qara müjganə qanlı yaş düzülə,
İşi ax-vayü dadü fəryad ola!

*Kefsiz*
*"Molla Nəsrəddin", 1913, № 6*

## EY NÜTFEYİ-ŞEYTAN

Aç ağzını bir az danış, ey piri-süxəndan.
Tök söz yerinə ortalığa ləli-dirəxşan.
Dikmiş, ay əfəndi, sənə göz cümlə müsəlman,
Et qullarını söhbətinə valehü heyran,
Ancaq elə dildə de ki, kəndin də onu qan.

De, kim qalacaqdır bu rəvişdə keçə, dünya?
Qalmadı peyğəmbərlərə də, puç bu məva,
Getdi hamı: İdrisü Şüeybü Zəkəriyya,
Nuh, Adəmü Musa ilə Yəhyavü Məsiha,
Davud və İshaq hamı, Şis, Süleyman.

De boylə: əgərçi qaradağlı yekələndi,
Həp rum elini Serb ilə Bulğar yiyələndi,
Səhralərə küncüd kimi türklər səpələndi,
Türk ailəsi başlarına küllər ələndi,
İncinməməli, dust dutar sabiri sübhan.

De səbr eləsinlər ki, bu miftahi-fərəcdi,
Səbr etsələr, axır düzələr iş, demə, gecdi,
Ləc çəkmə, görəndə ki, qabağındakı ləcdi,

Bir şəhr nədi? Beş araba daş ilə gəcdi,
Üç gündə dikərlər qala sağ əldə əgər can.

Dünya qalacaqdır kimə, de, ay büdələlər.
Bu yer sizin olsun dutalım həpsi sərasər,
Fərqi nədi, məğlub olasan, ya ki, müzəffər,
Kaşanə ola məskənimiz, ya quru məqbər,
Surin nəfəsilə olacaq cümləsi viran.

Nə şanü huququ şərəfü ar ilə namus?
Ölkə çıxacaq əldən, olalım ona məyus?
Birdir, asılar məbədə Ay olmasa, naqus,
Gec-tez vuracaq dəsti-əcəl rəhlət üçün kus,
Ölsən, nə olur ki, bizə beş gün qabaq ondan?

Onları yatırtdın elə ki, oylə əfəndi,
Sonra genə gərdənlərinə bağla kəməndi,
Elmi qoğaraq, sal işə cəhli, elə fəndi,
Başlarına vur noxta, ağızlarına bəndi,
Qoyma danışa elm sözün, kəlmə də ürfan,
Ol xürrəmü xəndan, sud et iki yandan,
İslam alacaqdır, sat lobya, badımcan,
Ey nütfeyi-şeytan!

*Kefsiz*
*"Molla Nəsrəddin", 1913, № 7*

## KÜSMÜŞƏM

Başına and olsun, ay Molla, cahandan küsmüşəm,
İnciyib iyrənmişəm, bu karvandan küsmüşəm.

Köç edib aləm təmamən yetdilər sərmənzilə,
Durmayır andırlara qalmış bizim bu qafilə.
Bir sürü camuş təki dolmuş təmamən bir gölə,
Hərçi qışqırdım çıxan olmadı, ondan küsmüşəm,
İnciyib iyrənmişəm, bu karvandan küsmüşəm.



Çox çağırdım gəlmədilər cüt ikisi bir yerə,
Ağzını bir yanə tutdu hər birisi yeksərə,
Çıxdı dörd çaqqal kiçik bir meşədən birdən-birə,
Ürküdüb qovdu, çıxartdı hər məkandan, küsmüşəm,
İnciyib iyrənmişəm, bu karvandan, küsmüşəm.

Gözləri ilə görürlər əjdahayi-qəfləti
Kim, çəkir kaminə bircə-bircə cahil ümməti,
Çəkməyirlər əl cəhalətdən bu heyvan milləti,
Annamazlar hiç, az-çox anlayandan küsmüşəm,
Başına and olsun, ay Molla ki, cahandan küsmüşəm.

Boynu sınmışlara söz batmır, deyirsən daşdılar,
Lap hacı molla Baba[1] ilə elə qardaşdılar,
Qanmamazlıqda daha molla Babadan başdılar,
Mollaların laylası ilə yatandan küsmüşəm,
İnciyib iyrənmişəm, bu karvandan, küsmüşəm.

Hər biri ağzın açanda əjdahalartək açır,
Üstünə məktəbçi, maarifçilərin odlar saçır,
Əcnəbi bir şapqalı gördümü, şırp rəngi qaçır,
Özgəyə tülkü, bizə aslan olandan küsmüşəm,
Elmsiz, cəhl atəşi ilə yanandan küsmüşəm,
İnciyib iyrənmişəm, bu karvandan küsmüşəm.

*Məşədi Sijimqulu*
*"Molla Nəsrəddin", 1913, № 8*

## TOFİQ FİKRƏTƏ BƏNZƏTMƏ

Dincəlməli, artıq, yetişir bir belə zəhmət,
Rahətlənərək, yuxlamalı bir neçə müddət.
Əlhəq neçə ildir çəkirik xeyli əziyyət,
Oldu dəxi həm elmli, sənətli bu millət.

[1] "Molla Nəsrəddin"in əsas tənqid hədəflərindən biri, qubalı bir mollanın adıdır (*Müəllifin qeydi*).

Həyyilərə, hökmilərə, babilərə nəhlət,
Sən gül bizə, sən gül bizə, ey maziyi-zülmət.

Ey zülməti-mazi, sənə azdır bu təhəssür,
Dünya düzələr, dövran əgər etsə təkərrür.
Saç zülmətini, tazəliyin nurunu söndür,
İstər yaşasın hər lotu, hər bambılı, hər hürr
Məcmuəçi, şair və mühərrirlərə nəhlət,
Sən gül bizə, sən gül bizə, ey növmi-üxüvvət.

*Məşədi Sijimqulu*
*"Molla Nəsrəddin", 1913, № 9*

## YAZIRSAN, YAZIM

Sən yazırsan mənə, ay Molla ki, əşar yazım,
Şəhrimizdə nə əməl, iş, nə xəbər var yazım,
Eyləyim pak müsəlmanlara azar, yazım,
Şeyxi, mollanı, əfəndiləri bədkar yazım,
Mülkədarı, bəyi və xanları xunxar yazım.

Mənə bu qorxulu təklifi edirsən niyə sən,
Deyiləm ki dəli, allammı bunu boynuma mən?
Keçməmişəm ki, salım təhlükəyə, canimdən,
Götürüb mollanı jurnalda bədəfkar yazım?
Eyləyim pak müsəlmanlara azar, yazım?

Eyləyirsən məni bir su yeriməz arxa cuvar,
Həm yarıtmaz da qoyursan adımı, mən zinhar,
Mülkədar ilə olurmu eləmək pis rəftar
Eyləyirsən məni müşkül işə vadar, yazım?
Mallı, pullu kişini zalimü qəddar yazım?

Bəylərə, xanə dolaşmaq da zərafətmi məgər,
Axtarır Qaxqulu bəy müftə adam, atmağa şər.
Danos eylər, bir ölü bəy adını yazsam əgər,
Necə hər gizlini mən eyləyib izhar, yazım?
Qorxmayıb Qaxqulu bəydən elə təkrar yazım?



Tazə fikrə sarı nasıl çəkərəm millətimi?
Söyləsəm qızlar açıq gəzsin, əzərlər ətimi.
Eyləyim onlara izhar necə nifrətimi?
Ya necə bir belə əyriləri həmvar yazım?
Gül kimi pak müsəlmanları murdar yazım!

Sən bu canlara sataşmağı sanırsanmı qolay,
Öylə bir fikrdəsənsə, yanılırsan, hay-hay,
Kim olursa olacaq gündə minər lənət pay,
Mən olummu bu qədər lənə giriftar, yazım?
Kimdi bu ləni götürməkdə mənə yar, yazım?

Yapışıb min dənə şeytan balası hər tükünə,
İstəyirsən məni də lap salasan öz kökünə,
Taylarımdan ayırıb, tay eləyəsən yükünə,
Adətə, dinə sənintək olub əğyar, yazım?
Gav-mahini, göyü eyləyib inkar, yazım?
Ayığı məst, bütün məstləri huşyar yazım?
Haşəlillah, eləyim mən belə rəftar, yazım?
Tövbə-əttövbə ki, mən bu cürə əşar yazım!

*Kefsiz*
*"Molla Nəsrəddin", 1913, № 10*

## BİZ KİMİK?

*Qələm arqadaşım Cüvəllağı bəyə*

Biz kimik ki, bu müsəlmanlara rəhbər olalım?
Biz nəyik ki, bu gözəl canlara sərvər olalım?
Nəçiyik biz ki, bu məxluqa beyin, sər olalım?
Dut ki, bir şairi-xoşguyi-süxənvər olalım!
Bizə kimdir ki, baxan, yüz il əgər şeir yazaq,
Dirilik nəqdini bu işdə, bu yolda uduzaq!

Biz kimik, hansı qoçağıq, qaçağıq, qanlılarıq!
Hansı əmmaməliyiz, müctəhidiz, sanlılarıq?

Ya ki, biz hansı xanıq, pullu və milyonlularıq?
Hankı bəy, sahibi-mənsəb və necə canlılarıq
Ki, bizim sözlərimiz xəlqə ola atlı qazaq?
Bizə kimdir ki baxan, yüz il əgər şeir yazaq?

Zənn edirsənmi sözün millətə təsir eləyir?
Nəsrü şerin bu müsəlmanları təsxir eləyir.
Bəli, təsir eləyir, daşə necə tir eləyir!
Çünki o söz, o yazı mömini təhqir eləyir!
İki dünyadə gəzər mömin o sözlərdən uzaq!
Kimsə uymaz bizə beş min belə jurnal da yazaq!

Müştəbeh olma ki, əfsanəmizə var inanan,
Diksinib hər səsə dadlı yuxusundan oyanan.
Min kərə de: "Səni hamm eylədi, dur, yatma, xuxan"
Çox eşitmişdir uşaqlıqda bunu, etmə güman
Kim, onun nəşəsini bu cürə şuxluqla pozaq,
Bizə kimdir ki, baxan, yüz il əgər şeir yazaq?

Nə kefi istəsə dünyada müsəlman edəcək,
Babası hansı yol ilə ki gedibdir, gedəcək.
Birisi bir kəsə söz söyləsə onu güdəcək,
Başının tüklərini fürsət olanda didəcək.
Əhli-elmə quracaq hər yeri düşdükcə duzaq,
Bizə kimdir ki, baxan, yüz il əgər şeir yazaq?

Nə isə, cümlə əbəsdir bu çalışmaqlıqlar,
Bu tikanlıqları, bu cəbr ilə aşmaqlıqlar,
Cahil ilə söyüşüb, şeyxə dolaşmaqlıqlar,
Eybini konsulun, iranlının açmaqlıqlar,
Paylanıbdır hərəyə bir cür üqulü ərzaq,
Bizə kimdir ki, baxan, yüz il əgər şeir yazaq?
Dirilik nəqdini, bu işdə, yolda uduzaq?!
Zaq-zaq-zaq!

*Kefsiz*
*"Molla Nəsrəddin", 1913, № 13*



## QƏZƏL

Şərabın nolduğun məndən soruşma, xan olandan sor!
Səfasın, ləzzətin mən bilmirəm, sultan olandan sor!

Bunun xasiyyətin hər nabələddən, naşidən sorma,
Gecə-gündüz əlində dopdolu fincan olandan sor!

Hər ahil, cahil annarmı şərabın ləzzətin, dadın?
Sorursan laməhalə, arifü əyan olandan sor!

Əbəsdir elmsizlərlə bu sözdən bəhs edib durmaq,
Ziyalı, elmli bir sahibi-ürfan olandan sor!

Dilənçi anlıyarmı kim, nədir meydə olan nəşə?
Bu nəşə nə yaralıq etdiyin bican olandan sor!

Nə məlumat istərsənsə meydən, al müəllimdən;
Atalar söyləmiş, kəhriz işin kənkan olandan sor![1]

Soruş şairdən əhvalatını bu abi-gülrəngin
Cəvahir nolduğun boylə demişlər: kan olandan sor!

Keyfin məst olmağın həmmaldən, baqqaldən sorma,
Qraxmallı, ədəbli, elmli insan olandan sor!

Şərabın *hər nə isə zövqünü, təsirini ruhə*
Şərab ilə rəvanı cismdə pünhan olandan sor!

Zərərlidir, deyirlər, canə, ancaq eyləmə bavər,
Onun nəfin gedib meyxanədə viran olandan sor!

Deyirlər kim, mənə içmə... Bunu qabilmi tərk etmək?
İnanmırsan əgər, hər aqilü nadan olandan sor!

*Kefsiz*
*"Molla Nəsrəddin", 1913, №14*

[1] *Kitabda:* Müəllimlər əlindən çox gəlir hər kar, ondan sor!

## QIZ VƏ DƏDƏSİ

– Ey mənə dünyada tək, bircə nigəhban dədə!
Həm anamın, həm mənim cismimizə can dədə!
Bığları, saqqalı qıpqırmızı mərcan dədə!
Kuçənin ağsaqqalı, kəndlilərə xan dədə!
Məktəbə göndər məni, can sənə qurban, dədə!

– Ey işığı didəmin, sevgili dilbər qızım!
Bülbülü ağuşumun, telləri ənbər qızım!
Məktəbə qoymam səni, sinəsi mərmər qızım!
Molla Vəli inciyər, söhbəti şəkkər qızım,
Yepyekə qızsan, sənə çox yaraşır ər, qızım!

– Vah, bu nə sözdür, ata, çıxmayır ondan başım,
Annamıram, çün mənim yox hələ səkkiz yaşım.
Var ikən evlənməli yirmi yaşar qardaşım,
Mən hara, söylə, hara ər kimi heyvan, dədə!
Məktəbə göndər məni, can sənə qurban, dədə!

– Məktəb adın dut, əgər istəməyirsən məni,
Məktəbə göndərmərəm, nazlı qızım, mən səni.
Qoy çağırım mollanı, ta oxusun siğəni.
Elçi salıbdır bu gün Məşhədi Qənbər, qızım!
Yepyekə qızsan, sənə çox yaraşır ər, qızım!

– Oy... oy... amandır, dədə, getməyirəm mən ərə!
Vermə, sən allah, məni sən Məşədi Qənbərə!
Rəhm eləməzmi ata nazlı qızı Əsmərə?!
Adını çəkmə ərin, könlüm olur qan, dədə!
Məktəbə göndər məni, can sənə qurban, dədə!

– Qız nədi, məktəb nədi, ay qızım, axmaqlama!
Biz deyilik ki, cuhud, erməni, sarsaqlama!
Gözlərini ovma heç, ağlama, dırnaqlama,
İstəyin olmaz sənə heç müyəssər, qızım!
Yepyekə qızsan, sənə çox yaraşır ər, qızım!



– Qonşumuz Anna, Nina qızları Ter Kəspərin,
Dərs oxusun, olmasın tayı ədəbsizlərin,
Bilməsin ancaq əlif-bey necədir düxtərin,
Qalsın ölüncə belə cahilə, nadan, dədə!
Məktəbə göndər məni, can sənə qurban, dədə!

– Kəs səsini, naxələf, ağzı yekə heyvərə,
Oxşarı verdin məni axırı da Kəspərə.
Anla, dedim, vermişəm söz Məşədi Qənbərə.
Dönməm o sözdən, əgər qopsa da məhşər, qızım!
Yepyekə qızsan, sənə çox yaraşır ər, qızım!

– Ah... nə vəqtimdir, ay tanrı, mənim imdidən,
Arvad olum bir yekə saqqala cəbr ilə mən?
Qıyma, yazıqdır, ola qızcığazın xəstətən.
Rəhm elə, qoyma olum didəsi giryan, dədə!
Qalmayım avarə və halı pərişan, dədə!
Məktəbə göndər məni, can sənə qurban, dədə!
Şah dədə, sultan dədə!
Qoy olum insan, dədə!
Cahilə, insan deyil,
Söyləmə hədyan, dədə!
Qanmadığın bəsdi ta,
Etmə firavan, dədə!
Qəlb evi viran dədə!

*Məşədi Sijimqulu*
*"Molla Nəsrəddin", 1913, № 15*

## BİZİM EYŞ-NUŞ, YAXUD BU GECƏ

Molla, səccadəni atdıq bu gecə!
Mey ilə ülfəti qatdıq bu gecə!

Daha su içməyi etdik qədəğən,
İçkinin təmini daddıq bu gecə!

Düzəlişdirdik işin hər yanını,
Mətləbə, məqsədə çatdıq bu gecə!

İstədik məclisə hər növ şərab,
Ağ dodaqları qızartdıq bu gecə!

Bir-birimizə piyalə, qədəhi
İttihad ilə uzatdıq bu gecə!

Ləbşəkər saqiyi-ziba pesərin
Yadına cam boşatdıq bu gecə!

Ud, ney, tarü kəman çaldırdıq,
Qışqırıb həşr qopartdıq bu gecə!

Hər nə kim, olmalı idi oldu,
Köhnəyə təzə yamatdıq bu gecə!

Başımız doldu, qızışdı aralıq,
Çuxanı, börkü çıxartdıq bu gecə!

Pul da bitdi, kisənin çıxdı dibi,
Başmağı, qurşağı satdıq bu gecə!

Pas basmışdı bütün qəlbləri,
Pak sildik, safalatdıq bu gecə!

Yanmış idi ağacı könlümüzün,
Onu bir gunə sulatdıq bu gecə!

Madmazellər ilə kef eyləyərək,
Dan yerin ta ki, ağartdıq bu gecə!

Gün tülu etdi, ucaldı fələkə,
Onacan biz, demə, yatdıq bu gecə!

Qara dünyanın unutduq qəmini,
Xəstə bir könlü onaltdıq bu gecə!



Nə isə, Molla, boş idi yeriniz,
Eyş dəryasına batdıq bu gecə!

Millətin dərdini atdıq bu gecə!
Əcəmi, türkü oyatdıq bu gecə!

Ərəbi kürdə calatdıq bu gecə!
Qəlbi-məcruhi sağaltdıq bu gecə!

*Kefsi*
*"Molla Nəsrəddin", 1913, № 1*

## ORUCLUQ

Əsən dəmağıma yenə həvasıdır orucluğun,
Dolan xəyalıma yenə səfasıdır orucluğun.

Özümü bu həva mənim yenə özümdən eyləyib,
Dolub fərəhlə can, könül, nişat paltarın geyib,
Müsəlman on bir aydır təmam xuni-dil yeyib.
Təhəssür ilə gözləyib, cüdasıdır, orucluğun,
Əsən dəmağıma yenə həvasıdır orucluğun.

Gəlir iyi məşamimə yenə plov, qovurmanın,
Edibdir ətri hissiz məni çığırtma, dolmanın,
Alıbdır əldən əqlimi qoxusu, həm müsəmmanın,
Əriştə, firni, paldası, yuxasıdır orucluğun,
Əsən dəmağıma yenə həvasıdır orucluğun.

Açılmada yavaş-yavaş ağızları qazanların,
Çəkilmədə qulaqları ğəzet-ğuzet yazanların.
Ucalmada səmalərə həvaləri azanların,
Hər evlidə, hər ovlidə sədasıdır orucluğun,
Əsən dəmağıma yenə həvasıdır orucluğun.

Olan müsəlman eyləməz dirəng, olan zaman sühur,
Durar plov yeməkliyə, başında eşq, ürəkdə şur.

Oxur səhər duasını, alır əvəz behişt, hur,
Yatan bu fikirlərlə hər gədasıdır orucluğun,
Dolan bütün könüllərə səfasıdır orucluğun.

Xoşa ona ki, saxlayır oruc bu isti günləri
Acından əqli puç olur, çürükləyir beyinləri.
Gedir özündən on kərə, gülümsədir görənləri,
Fəda o canə kim, o can fədasıdır orucluğun,
Əsən dəmağıma yenə həvasıdır orucluğun.

Vay ol kəm etiqada kim, ulaşmayıb səadətə,
Nəimi-axirət üçün sarılmayır ibadətə.
Təmuzu dutmayıb oruc, yetişməyir şəhadətə
Ki, min behişti-huri-xoş bəhasıdır orucluğun,
Əsən dəmağıma yenə həvasıdır orucluğun.

Qənilər ilə mollalar bu ayda bəxtiyar olur,
Açımda gündə bir evə, taqım-taqım yürür, dolur.
Yeyər, içər, doyar, qoşar, bu xəlq istəyin bulur,
Fəqət fəqirü yoxsulun dodağı gül kibi solur,
Sühur, açım yavan çörək ğidasıdır, orucluğun,
Fəqirin əski örtüyü, libasıdır orucluğun,
Məni qıcıqlayan fəqət burasıdır orucluğun,
Burasıdır orucluğun,
Burasıdır orucluğun.

*Kefsiz*
*"Molla Nəsrəddin", 1913, № 20*



## ŞAİRDİ, MAŞAALLAH

Qafqaz dolu sərasər, şairdi, maşaallah,
Fənnində həpsi şerin, mahirdi, maşaallah,
Əşarı zövqbəxşi-xatirdi, maşaallah,
Küllən bədiə, şeri-bakirdi, maşaallah,
Gizlin deyil, həqiqət, zahirdi maşaallah,
Zalım uşağı, dersən Sabirdi, maşaallah!

Bu möhtərəmlər ilə... islam müftəxirdir,
Məlumdur ümumə, hər yerdə münteşirdir,
Xəsmin həsəddən eyşi, həm qəlbi münkəsirdir.
Söylər, yazar bədahə, əşarə, müqtədirdir,
Bunlar deyil ki, şair, sahirdi, maşaallah,
Zalım uşağı, dersən Sabirdi, maşaallah!

Nəql eylədi, eşitdim, bir danə hacı oğlan
Kim, var imiş iki-üç növrəs cəvan süxəndan,
Məsti-şərabi-millət, bihuşi-fikri-övtan,
Yekray, qövl, məslək, birdilü birkönül, can
Həp millət ehtiyacın zakirdi, maşaallah,
Zalım uşağı, guya Sabirdi, maşaallah!

Bu vəzndə birər şeir yazsınlar, istəyirlər,
Yürümək başarmırkən, dazsınlar, istəyirlər,
Şerə bununla bir gor qazsınlar, istəyirlər,
İnsaf, ədəb izindən azsınlar, istəyirlər,
Üç-dördü birləşibdir, əlbirdi, maşaallah,
Zalım uşağı, dersən Sabirdi, maşaallah!

Gündən-günə təşair ərbabı çox-çoxaldı,
Xamə yerinə bunlar, cümlə ələ ox aldı,
Şair olan azaldı, hətta belə yoxaldı,
"Xürrəm"lərin aşından millət yedi toxaldı,
Bu iqtidarı şair batırdı, maşaallah,
Əşarı zövqbəxşi-xatirdi, maşaallah!

Qafqazlılar edirdi pul, mal sirqət əvvəl,
Qızlar, qadınlara həm tək-tək atırdılar əl,
Oğlan qaçırtmağa bu, oldu sora mübəddəl,
Var indi də noicad bir oğruluq mükəmməl,
Bu iş də ixtirari-axirdi, maşaallah,
Hər pişədə müsəlman mahirdi, maşaallah!

Bu ixtirai-axir əşar oğurlamaqdır,
"İqbal", "İşıq"çılara yazmaq və yollamaqdır,
Ən, ən böyük cəsarət ənzarı bağlamaqdır,
Binlərlə qareini, ürfanı tavlamaqdır,
Böylə hər işdə nazir, basirdi, maşaallah,
Mədhində bunların dil qasirdi, maşaallah!

Bu işləri görəndən sonra bütün matam mən,
Əl çəkmişəm özümdən, az qalmışam batam mən,
Qət etmişəm ki, daxi şairliyi atam mən,
Dəftər, qələm, kitabı toplaşdırıb satam mən,
Çünki süqutumuz pək zahirdi, maşaallah,
Şairlərin vücudi hazırdı, maşaallah!

Qorxum budur yorulsun təbim atı "yarış"da,
Keçsin qabağə məndən yoldaşlar on "qarış" da,
Onlarə mən müqabil olmam bu qat-qarışda,
Olmaz, dəyildir adət, xudbinlərə "barış" da
Əfkarı onların çün sairdi, maşaallah,
Şəxsiyyətə, dolabə dairdi, maşaallah!

Heyfa, deyil müsaid vəqtü zəmanü əyyam,
Açmağə qoymuyur göz ənduhü dərdü alam
Kim, nuş edib əlindən yarın iki dolu cam,
Sinəmdəki məramı ta eyləyəydim ifham,
Bəzi cəvanlara kim, meydanə çıxdılar xam,
Fəhmə fəqət bu canlar qadirdi, maşaallah,
Biqeydi-ğəm, həmi şən, şatırdı, maşaallah.
Yazmaqda şerü əbyat, gəzmək səma, səməkdə,



Şüərayi-binəvanın şerin bəyənməməkdə,
Sirqətdə mətləin tək mahirdi, maşaallah.
Hər kəs buna desin ki,
Şairdi, maşaallah,
Əhsən və barakallah!

*Kefsiz*
*"Molla Nəsrəddin", 1913, № 23*

## ÇALIŞMA

Çalışma elm üçün, divanə, bir bunca gecə-gündüz,
İpin övrətlərin çox da boşaldıb, vermə artıq üz.
Qalıb öz haqların alsınlar övrətlər, olub azad,
Amandır, noxtasın çək, başını bağla, boğazın üz.
Həzər qıl, məktəbə vermə ki, öyrənsin qızın yazı,
Üzü açıq gəzib naməhrəm ilə oynasın göz-göz.
Deyil oğlan ki, bunlar qurtarıb kurs advaqat olsun,
Vəkillik eyləyib sudlarda görsün faidə yüz-yüz.
Qızın var, vergilən bir varlıya, ya molla, ya seyyid,
Kefincə, ömrün olduqca, yeyib iç, süd gölündə üz!
Məkatib, qız uşağı?! Çadra yox, çəkməli, donlu,
Bu da oldu müsəlmanlıq, bu da ya oldu şərən düz?
Ola doqquz yaşında qız gərək ya ərdə, ya gorda,
Nəinki kuçədə, uşkolda örtüksüz boyun, baş, üz.
Müsəlmanlıq qalıb gör bir nə halə kim, müsəlmanlar
Kitabət öyrədirlər qızlara, ismət gedir, əl üz.
Mənimtək yazmağımla bitməz iş, sən də çalış, Molla!
Mühərrir, yaz, müsəhhih, bax, bir az artır, mürəttib, düz!
Qabağın kəs bunun, ay mömin, ay dindar, ay molla,
Gedir qeyrət, itir ismət, batır hörmət, budur son söz,
Tfu dünya, sənə lənət, necə gör azdı məxluqat,
Ocağında bu gün dindarlığın baqi deyil bir köz!

*Kefsiz*
*"Molla Nəsrəddin", 1913, № 24*

## TƏXMİS

Bir quşam mən qəfəsi-eşqdə, yox abü dənim,
Xəsteyi-dərdi-fəraqəm, yox ianət edənim.
Çünki salmış nəzərindən məni "dürri-Ədənim",
"Pənbeyi-daği-cünun içrə nihandır bədənim,
Diri olduqca libasım, budur, ölsəm kəfənim".

Hər təəşşüqçüyə aşiq deməK olmaz, ey dil,
Aşiqi-sadiq olub, incimək olmaz, ey dil,
Yar bir yol desə öl, ölməmək olmaz, ey dil,
"Canı canan diləmiş, verməmək olmaz, ey dil,
Nə niza eyləyəlim, ol nə sənindir, nə mənim".

Ürəyimdən qopan odlu nəfəsim sövqündən,
Atəşi-eşqim aşar qəmlərimin fövqündən,
Od dutar cismim o gül üzlərinin zövqündən,
"Daş dələr ahim oxu şəhdi-ləbin şövqündən,
Nola zənbur evinə bənzəsə beytül-həzənim".

Ah edib sızlamaq aşiqdə, bil, adətdir,
Vəqti-firqətdə "xəyal" aşiq üçün vəslətdir.
Sanma, sövdazədəyə bəndi-bəla zillətdir,
"Tövqi-zənciri-cünun daireyi-dövlətdir,
Nə rəva kim, məni ondan çıxara zəfi-tənim".

Tiği-əbru çəkilib üstümə, yoxdur səbrim,
Qırılıb kiprigi oxları ilə balü pərim,
Sanki bir zövrəqəm, almış ləpələr dövrü bərim.
"Eşq sərgəştəsiyəm, seyli-sirişk içrə yerim,
Bir hübabəm ki, həvadan doludur pirəhənim".

Bir həzin ovçuyam, ey şux, şikarım sənsən,
Eyşü iqbalü həyatım, hamı varım sənsən.
İşığım, ayü günüm, şamü nəharım sənsən,
"Bülbüli-qəmzədəyəm, bağü baharım sənsən.
Dəhənü qəddü rüxün – qönçəvü sərvü səmənim".



Güc, xilas etmək əlindən ürəyi, dildarın,
Tari-zülf içrədir məvasi bu qəlbi-zarın,
Çətin! Ayrılmaq ondan, o mələk-kirdarın.
"Edəmən tərk Füzuli, səri-kuyin yarın,
Vətənimdir, vətənimdir, vətənimdir, vətənim".

*Ə.Nəzmi*
*"İqbal", 1913, № 472*

## MƏKTƏB UŞAĞI

Sübh açılantək oyanır uyğudan,
Bir güli-gülzari-dəbistan çocuq!
Qalxır ayağə, yuyunur pak olur,
Bülbüli-bağı-ədəbistan çocuq!

Evdə yatıb qalmayaraq kurtək,
Dişrə çıxıb cilvələnir nurtək.
Dərs evinə əzm eləyir hurtək,
Tərbiyəyə, elmə şitaban çocuq.

Məktəbə daxil olur insan kibi,
Dərs oxuyur bülbüli-xoşxan kibi,
Elmi sevir ruh kibi, can kibi,
Fikri gözəl, əqli dürəxşan çocuq!

İştə uşaq dərsinə müştaq olur,
Şüğlü yazı, mayili-övraq olur,
Səyli olduqda yüzü ağ olur,
Eyləyir əhbabını xəndan çocuq!

Cəhd eləyir, etməyərək tənbəli,
Elm oxuyub güldürə müstəqbəli,
Şəni-bəşər elmilədir çün, bəli,
Elm oxuyur nitqi dürəfşan çocuq,
Meyvəyi-bağı-ədəbistan çocuq!

*Əli Nəzmi*
*"Məktəb", 1913, № 6*

## UŞAQLAR

Uşaqlar istərsə seyri-gülüstan,
Nə lazım onlara bağ ilə bostan.
Çiçəklik bu dəbistandır, dəbistan!
Dəbistan bağına girsin, gül olsun,
Özü gül, nəğməsində bülbül olsun.

Bu nüzhətgahə gəlsinlər uşaqlar,
Tamaşasını görsünlər uşaqlar.
Qərənfil, lalə dərsinlər uşaqlar,
Alıb dərsü ədəb, hübbül-bəşərdən,
Məhəbbətli çocuqlar həpsi birdən.

Edib gülzari-elmü fənnə pərvaz,
Oxu, yazı, ədəb etsinlər ağaz.
Oxusunlar həmahəngü həmavaz,
Ötüb bülbül misali yerbəyerdən,
Məhəbbətli çocuqlar həpsi birdən.

Bu gülşəndə bitən sünbül pozulmaz,
Bənəfşə, yasəmən, güllər də solmaz.
Bu gülzarə bərabər gülşən olmaz.
Güli-tər dərməyə gəlsin səhərdən,
Məhəbbətli çocuqlar həpsi birdən.

Uşaqlar ta yetib həddi-kəmalə,
Ala ürfanı ağuşi-vüsalə,
Qonub bülbül kimi bir incə dalə,
Təğənni eyləyə elmü hünərdən,
Məhəbbətin çocuqlar həpsi birdən.



## ALLAHA MÜRACİƏT

*1913-...cü illərdə Gəncə mahalında olan quraqlıq
və bundan naşi çörək
və ot qəhətliyi münasibətilə yazılmışdır*

Nədir bu isti, ilahi, bilad suzandır!
Məhal, kuçə və ev, çöl misali-nirandır!
Ev içrə kölgədə boylə libasım islanmış,
Yağır təpəmdən ərəq, öylə bil ki, barandır!
Mənim kibi oturan kölgədə olar üç-beş,
Günün önündə yananlar beş-altı milyandır,
Yayın günü, gün uzun, isti çox, ağızlar oruc,
Ölüllər ac-susuz, qulların yarımcandır!
Sənin qulundur ümumən bu taifə axır
Deyil məcus, brəhmən, hamı müsəlmandır!
Bulaqları qurudubsan, tapılmır içməyə su,
Quyuların suyu var isə də, nə çəndandır.
Yağış yüzünə beş aydır ki, həsrətik, yağmır,
Su yoxsa göydə də yoxdur, bu hansı dövrandır?
Avuc-avuc bölüşürlər suyu əkinçilər,
Bu nəzr şərbətidir, ya bir özgə dərmandır?
Suyu görən, çevirir içməmiş iki sələvat,
İçən doyunca su, axşamacan sənaxandır.
Hamı nəmazı-su yoxdur – qılır təyəmmüm ilə,
Nə oğru Kabla Məhəmməd, nə Molla Səlmandır.
Yaratdığın bu gözəl xəlq, ayaqyalın yeksər,
Su istəməkliyə, dərgahına şitabandır.
Yetibdir iş o məqamə ki, ermənilər də
Keşişlər ilə müsəlladə didə giryandır!
Nə bais oldu belə baxmamaqda yüzlərinə?
Sənin ki, bəndələrə rəhmətin fəravandır!
Əsirgədin kişilərdən beş-altı damcı suyu,
Dənizlərin nədir acı suyu, məgər qandır?
Alışdı, yandı susuz bitəmam məzrəəcat
Nə səbzəvat, nə pambuq, nə bağ, nə bostandır.
Taxılları doluya döydürüb bitirtmişdin,
O gunə kim, baxan olsa, deyərdi xırmandır.

Bu gunə bir çörəyə qaldı qulların möhtac,
Olurmuş ac yaşasınlar? Bu, daş deyil, candır!
Qarın, bağırsaq acından qurulduyur, qur-qur,
Quri-buri azarı xəlqdə nümayandır!
Bu gunə getsə bütün qulların olur nabud,
Əlində gərçi yaratmaq dübarə asandır.
Kimə açıb əlini istəsin kömək, əkmək?
Yaxın qoyar özünə kim bu xəlqi-bir candır!
Qəniləri özünə vermisən vəkil qərar
Ki, ac əyalinə versin libasdır, nandır.
Niyə, özündə qoyub salğayırsan özgələrə?
Özündə ki, hamıdan mal-pul fəravandır!
Gərək özün qalasan qeydinə yaratdığının
Nə salğamaqdır, o nə loğalıq, nə fərmandır?
Bu imtəhanmı, bəlamı, nədir, necə işdir?
Bu nə iradə və hikmət, nə sirri-pünhandır?
Bu gunə şuxluq olurdu ki, eylədin bizlə?
Ki, bir zərafətinə yüz min evli qurbandır!
Elə iş işlədin axir ki, küsdü səndən xəlq,
Gələndə məscidü məktəb adı gürizandır!
Orucları yedilər pak, yayda qaldı nəmaz,
Nəmazı da yeməyə sözbir, əhd-peymandır.
Qoğub müəllimi, mollanı sürdülər kənddən,
Budur ki, bənzəri yox kəndə, bir neyistandır!
Bu barədə demə ki, təkcə biz zərər çəkdik,
Sənin də, şükr, ziyanın bu il firavandır!
Xülasə, şükr bəlalərinə, şükr nemətinə,
Fəqət vəzifəmiz ifayi-həmdi-şükrandır!

*"Sijimqulunamə", 1913*

## QOXU

Gəlməyir burnuma dünyadə məhəbbət qoxusu,
Yaxşı insanlıq iyi, pak mürüvvət qoxusu.
Bəşəriyyətdə mükəmməl mədəniyyət qoxusu.
Mədəniyyətdə olan rəğbətü ülfət qoxusu!



Bilmirəm bircə mənimmi tıxanıbdır damağım?
Qüvveyi-şamməm itmiş, boşalıb baş çanağım!
Saralıbdır yaşılımmı, qaralıbdırmı ağım?
Ya ki, yox başqa damaqlarda da qüvvət qoxusu,
Gəlməyir burnuma dünyadə məhəbbət qoxusu!

Öylə bir rəngə-libasə bürünüb insanlar
Ki, yaman-yaxşını təşxis eləmək pək düşvar.
Mədəniyyətlisi, vəhşisi, təmamən xunxar,
Sanki yoxmuş yaranışda belə rəfət qoxusu,
Gəlməyir burnuma dünyadə məhəbbət qoxusu!

Həp cəhan əhli: fəqir, ac, ğəni, şah, gəda,
Bivəfa, aldadıcı, yox ki, sədaqət... əbəda!
Gizlənirmi – mənə lütfən de! – dağarcıqda cida!
Bir şeyin olsa vücudi, çıxar, əlbət, qoxusu,
Yox cəhan içrə vəfa, mehr, məhəbbət qoxusu!

Dəm vurur ədlü ədalətdən ümum Avropa,
Sözü düz, bir kişi ancaq edilir istisna,
Yüzdə siddiq alamanlar kibi, düşmən dalıda,
Günə gündən çıxır ortaya həqiqət qoxusu,
Gəlməyir burnuma dünyadə məhəbbət qoxusu!

Nə isə, işləri hər yanda pərişan görürəm,
Durbin ilə baxıb hər yanı asan görürəm.
Fasda, İspaniya, fransız və alman görürəm.
Dönürəm qərbə Trablisdə italyan görürəm,
Çevrilib Şərqə, həm İranda da mehman görürəm!
Hər tərəfdən soxulur burnuma vəhşət qoxusu!
Ayrı fikr, ayrı xəyal, ayrıca niyyət qoxusu!
Gəlməyir rəhm, müdara və məvəddət qoxusu!

*"Sijimqulunamə"*

## MÜXATƏBİM MOLLA NƏSRƏDDİNDİR

Sən idinmi o kim, derdin müsəlmanlarda yox himmət,
Nifaqından şikayətlər qopardırdın, edib nifrət.
Deyirdin onlara vəhşi, sanırdın adəti bidət,
Bilirdin cahil-alim cümləsin aludeyn-qəflət.
Atıb mollalara böhtan, edirdin bunları töhmət,
Qalıbsan indi sən harda, gedibdir gör hara millət!

Dəli dəngişmi deyirdin, nə deyirdin, bilmirəm anı,
Fəqət anı bilirəm ki, bəyənməzdin müsəlmanı.
Qızanda şirtək millət, tökəndə torpağa qanı,
Qılanda qardaşı qardaşlarına təng dünyanı,
Deyirdin bu igit insanlara bədkarü biqeyrət,
Qalıbsan indi sən harda, gedibdir gör hara millət!

Edəndə fərş kəndinə üç arvad, bir müsəlman ər,
Düşəndə daminə bir ixtiyarın bir cavan düxtər,
Əsiri-qeydi-zülm olduqca həmşirə və madərlər,
Verirsən yol ona bu izdivacə şəri-peyğəmbər,
Verirdin xəlqi bundan ötrü sən vəhşiliyə nisbət,
Qalıbsan indi sən harda, gedibdir gör hara millət!

Edirdin hər kəsə: xan, bəy, rəiyyət, şahə istehza,
Əlindən gəldi təngə şeyx, müfti, arifü mirza.
Qalıb kim bu vilayətdə ki, səndən görməsin iyza?
Sözün kəc, işlərin bir dərd, əşarın ələməfza,
Odur ki, bax bu gün qoydu səni bir guşədə ümmət,
Qalıbsan indi sən harda, gedibdir gör hara millət!

Zəmanə dəyişilib indi, beş il əqdəmkilər getmiş,
Müsəlman mollalar səpdikləri töxmi-əməl bitmiş,
Qırılmışdır nüfuzun, etibarın, hörmətin itmiş.
Üzünə baxmamağa qövmi-islam ittihad etmiş,
Buyur, pis bildiyin millətdən öyrən dərs, al ibrət,
Qalıbsan indi sən harda, gedibdir gör hara millət!



Sənə yox ehtiyacı bir müsəlmanın bu gün... amma...
Sənin var ehtiyacın hər müsəlmana, bunu danma!
Səni bundan belə bir taifə, bir də sevər sanma,
Nə hörmət qoydun adamlarda ki, yardım, kömək umma.
Əbəsdir, dutma yüz, yalvarma bica, çəkmə boş zəhmət,
Əvəz cənnət verilsə belə, baxmaz şəklinə millət.

Yemə qəm, eyləmə möhnət,
De va nəfsa, nə va millət!
Əlində var ikən fürsət,
Bax özgə varsa bir sənət
Qəzavət, ya məşixiyyət,
Tilismü tasə sərf et vəqt,
Qazan bir bolluca sərvət.
Oxu kafirlərə lənət,
Oxu, həm də mənə rəhmət!

*Kefsiz*
*"Molla Nəsrəddin", 1914, № 2*

## YEDDİ YAŞINDAKI QIZIMA

Bəndəm sənin ancaq o rüxi-alına, ay qız!
Ol ağ ürəyin ilə, qara xalına, ay qız!

Ey annasının gülşəni-ağuşuna bülbül,
Vey dişləri inci, gözü nərgis, yanağı gül.
Bənzər olamaz qarə ipək saçına sünbül,
Söylər mələk, hər kim baxa şəhbalına, ay qız!
Bəndəm sənin ancaq o rüxi-alına, ay qız!

Lazımdır əgərçi sənə həm tərbiyə, təlim,
Elmü hünər öyrətməyə məktəb və müəllim,
Amma... bunu ata-baba bizlərdə görüb kim?
Kim, mən də baxım surəti-əhvalına, ay qız!
Bəndəm sənin ancaq o rüxi-alına, ay qız!

Zülfün kimi bəxtin də qararsın, nə işim var,
Çöhrən dəyişib rəngi sararsın, nə işim var.
Qəlbin də düşündükcə dararsın, nə işim var?
Yanmaz ürəyim bircə tikə halına, ay qız!
Bəndəm sənin ancaq o rüxi-alına, ay qız!

Doqquz yaşa yetməkliyini gözləyirəm mən,
Bu yaşa çatarsan iki ildən ləri sən.
Onda olacaqsan, bala, bir yaz kimi şən.
Hər yanda xiridar olacaq malına, ay qız!
Bəndəm sənin ancaq o rüxi-alına, ay qız!

On yaşda evimdə edərəm mən səni pünhan,
Evdə ev olur, kuçədə çarşaf sənə zindan,
On birdə olur ər sənə bir sahibi-iman,
Zənciri-təsəttür qoyulur yalına, ay qız
Bəndəm sənin ancaq o rüxi-alına, ay qız.

İstərsən o vəqt ol bağı açmaq, açamazsan,
Qurtarmaq üçün canını, qaçmaq, qaçamazsan.
Azadə uca yerlərə uçmaq, uçamazsan.
Kar etmiş olur bənd pərü balına, ay qız!
Bir sevmədiyin çıxmış olur falına, ay qız!
Qəlbindəki qəm bitmiş olur salına, ay qız!
İştə, daha bir qız çocuq al dalına, ay qız!
Bax yavruna, ah et!
Yan halına, ay qız.

*Kefsiz*
*"Molla Nəsrəddin", 1914, № 6*

## VİRAN ÜÇÜN

Yazmayım bir kəlmə, etmişdim qəsəm, İran üçün!
Etməyib bir parça kağız sərf ona, dərman üçün!
Səpməyib bir damla su, yansa əgər, ehsan üçün!
Etməyir rahət fəqət qəlbim bu vəhşistan üçün!
Bumi-təbim banlayır bu kişvəri-viran üçün!



Fikr qıldıqca, olur bu qəmli könlüm bir də qan,
Nəhs qanından bitir bir zalimin min can alan.
Oldu zalimlər əlində alət Azərbaycan.
Qul yaranmış sanki hər təbrizli bir xan üçün!
Bumi-təbim banlayır bu kişvəri-viran üçün!

Əhli-Təbrizə xudadırmı Şücaüs-səltənə?
Ya ki, zillüllah bir şah, irticaüs-səltənə?
Baisi-ifnayi-İrani Ziyaüs-səltənə.
Düşməni-həqq, hökmfərma firqeyi-şeytan üçün!
Bumi-təbim banlayır bu kişvəri-viran üçün!

Bir qəribə xəlqdir məxluqi-Azərbaycan,
Hankı soy, hansı irqdəndirlər, iştə, bu nihan,
Gəh edər məşrutəyə, hürriyyətə qurbani-can,
Gəh canından keçər bir xani-biiman üçün!.
Bumi-təbim banlayır bu kişvəri-viran üçün!

Eyləyir məclisdən indi əhli-Təbriz ictinab,
Etməyirlər məclisi-Tehranə məbus intixab.
Yekdilü yekrəydir əsnaf, molla, şeyx, şab,
Bir-birin təhrik edir düşmənliyə ixvan üçün!
Bumi-təbim banlayır bu kişvəri-viran üçün!

Halbu kim, təbrizlilər bir neçə il əvvəlləri,
Qarşı durmuşlardı istibdadə, əldə sərləri.
Şanda keçmişlərdi hətta Gaveyi-ahəngəri.
Canfəda olmuşdular el, yurd üçün, vicdan üçün!
Bumi-təbim banlayır bu kişvəri-viran üçün!

Görsənir, qəflətdə imiş ol zəman iranlılar,
Bilməyirmişlər nədir məşrutə, xan, iranlılar,
Anlamışlar indi mənasın həman iranlılar.
Tövbə, istiğfar edirlər: məğfərət, ğüfran üçün!
Axtarırlar bəxşü əfv, etdikləri üsyan üçün!
Ağlayır qəlbi-həzinim milləti-nadan üçün!
Bumi-təbim banlayır bu kişvəri-viran üçün!

*Kefsiz*
*"Molla Nəsrəddin", 1914, № 7*

## O MƏNƏ

Bir quru cisməm uçuq qəlbli, candır o mənə!
Əski, solğun bədənəm, qırmızı qandır o mənə!

O mənə yar deyil isə də, yarəm ona mən,
Tazə bir güldür o xoş ətrli, xarəm ona mən,
İstəsə canımı qurban, yenə varəm ona mən,
Boş, qırıq bir qəfəsəm, ruhi-rəvandır o mənə,
Bir quru cisməm uçuq qəlbli, candır o mənə!

Yıxıq evcikləri ən sevgili kaşanəmdir,
Gözünün yaşı suyum, dərdi-dili danəmdir.
Yuva sevgisi üçün bu dili-viranəmdir,
Bir soyuq yel kimi hər sübh vəzandır o mənə,
Quru bir cismәm uçuq qəlbli, candır o mənə!

Sevgilimdir o mənim, aşiqi-divanəsiyəm,
Bir yaşıl şəmdir o, mən dəxi pərvanəsiyəm.
Saçının, saqqalının, bığlarının şanəsiyəm,
Fəxrdir, şöhrətü ad, izzətü şandır o mənə!
Bir quru cismәm uçuq qəlbli, candır o mənə!

Millətimdir o mənim sevdiyim əla gözəlim,
Nəzərindən fəqət atdığı üçün bibədəlim,
Kuyi başında qalıbdır iki qoynumda əlim,
Eşq divanəsiyəm, gərçi ziyandır o mənə,
Çarə yox, tərk edəməm kuyini, candır o mənə!

Nazı çox, qəmzəsi bol, kibri də var dilbərimin,
Baxmamaq işvəsidir aşiqə, taci-sərimin,
Yox ki, təsiri ona ahü nəva, sözlərimin,
Ta ölüncə səbəbi-ahü fəğandır o mənə,
Bir zəlil adəmiyəm, zülmlü candır o mənə,
Quru bir cismәm uçuq qəlbli, candır o mənə!

*"Molla Nəsrəddin", 1914, № 13*



## BİLMƏDİM

El dedi hər söz, inandım mən, yalandır, bilmədim,
Dəyşilibdir öylə bildim iş, həmandır, bilmədim.

Öylə bildim ki, atıb millət qədim adətləri,
İçlərindən qovluyubdurlar bütün bidətləri.
Sındırıbdırlar töküb dil kəbəsindən bütləri,
Düz yolu, həqqi tapıblar, bu gümandır, bilmədim!
Dəyşilibdir öylə bildim iş, həmandır, bilmədim!

Öylə bildim eyləyibdir şiə, sünni ittihad,
Şeyxü müfti bir, idarə bir, yox iki dürlü ad,
Din bir, məslək, düşüncə bir, siyasət, iqtisad,
İşləyirlər bir məsərrətlə, fəğandır, bilmədim!
Dəyşilibdir öylə bildim iş, həmandır, bilmədim!

Dal-dala vermiş sanırdım cümlə ərbabi-qələm,
Göstərirlər millətin nöqsanların yekrayi-fəm.
Mən düşünməkdə bu xülyalarla biəndaz-cəm?
Ümmətin qəlbi – cərihdarı qandır, bilmədim,
Dəyşilibdir öylə bildim iş, həmandır, bilmədim!

Məhv olubdur ortalıqdan zənn edirdim, qərəz,
"Gövdəsi" sağlamlanıbdır millətin, yox bir mərəz.
Böylə ki, cəhl, iftiraqə ittifaq olmuş əvəz.
Köhnə yolda əksəriyyətlə rəvandır, bilmədim,
Dəyşilibdir öylə bildim iş, həmandır, bilmədim!

Arxalanmışdım xüsusən mən cavan şairlərə,
Can verərlər derdim ali şeirlərlə "türk"lərə,
Gördüm öylə şeirlər, heyfa ki, keçdim yerlərə.
Əğləbi şair adında şarlatandır, bilmədim,
Dəyşilibdir öylə bildim iş, həmandır, bilmədim!

Sərfi-ərbabi-təşairdən mürəkkəb bihünər,
Bir taqım xudbin imişlər, xudfirib, azadəsər.

Bir-birin sevməz, bəyənməz, tən edər, təqbih edər,
Hər biri bir hiç ikən, mənlik satandır, bilmədim,
Dəyşilibdir öylə bildim iş, həmandır bilmədim!
Həp kardandır bilmədim, gənci-nihandır, bilmədim,
Köhnə cavandır, bilmədim, keçmiş zamandır, bilmədim,
Həmrahinə, həmkarinə bir xəsmi-candır, bilmədim!
Bir qəhrəmandır, bilmədim!

*Kefsiz*
*"Molla Nəsrəddin", 1914, № 20*

## VARDIR O

Yuxlayıbdır, bax ona, sanma ki, bidardır o,
Beş pıçıq əsr olur ki, bu qılıqvardır o,
Qeydsiz, rahət, asudə və bikardır o,
Cəhl sərgəştəsi, qəflət qulu, qəmxardır o,
Köhnədən bu mərəzə boylə giriftardır o.

Bu böyük heykəli hər adlıyı diskindiriyor,
Yek nəzərdə ürəyə zərbeyi-xof endiriyor.
Olsa şir, örgədiyor, seyr edəni sındırıyor.
Qorxudur Rüstəmi-Zal olsa da, naçardır o,
Beş pıçıq əsr olur ki, bu qılıqvardır o.

Xəlq bu heykəli xüşgideyi-ziruh sanır,
"Mumiya" olduğunu bilməyərək, daldalanır.
Canlıdır, der ona bəziləri, el də inanır.
Diridir, nə ölüdür, məst, nə huşyardır o,
Beş pıçıq əsr olur ki, bu qılıqvardır o.

Dürtmələ, səslə, qımıldarmı, yəqin eylə ki, yox!
İmtəhan etmək üçün sapla cigərgahına "ox"!
Yıldırımlar şaqıyıb, fırtınalar partladı, çox,
Bilmə ki, böylə birindən də xəbərdardır o,
Beş pıçıq əsr olur ki, bu qılıqvardır o.



Gurlayan toplar açır binlər ilə, odlu məzar,
Kürreyi-ərzimizi titrədiyor vəlvələdar.
"Dirjabillər", "gəmilər", "avtomobillər" səs urar,
Tapdalanmazsa, oyanmaz yuxudan, kardır o,
Beş pıçıq əsr olur ki, bu qılıqvardır o.

Axmayır, donmuş onun rəngləri içindəki "qan",
Sinəsində nəfəsi yox, quru cismində də can.
"Zində kərdə"vü əntiqeyi-bəxaliqi-cəhan
Bir tolambaclı, tühəf xilqəti-sərkardır o,
Beş pıçıq əsr olur ki, bu qılıqvardır o.

Əlqərəz, işbu heyvərəyi bədən sanmamalı,
Güclü, "məfkurəli" insan deyərək, anmamalı
Hali-bihalına qəlbən acınıb, yanmamalı.
Çünki bu hali-qəməfzayə tələbkardır o,
Özü öz canına bir xəsmi-sitəmkardır o,
Evi çiynindəcə, dərvişi-səbəbkardır o,
"Evdə al" düşkünü, iş yorğunu, əhrardır o,
Beş pıçıq əsr olur ki, bu qılıqvardır o.

*Kefsiz*
*"Molla Nəsrəddin", 1914, № 25*

## SAQQAL

Maşaallah, bu deyil riş ki, mərcandır bu!
Yox tükə bənzəri, əbrişəmi-Kirmandır bu!
Dəsti-qüdrətlə xumi-həqqdən əlvandır bu!
Tanrıdan bu kişiyə bir böyük ehsandır bu!
Buna bax, Molla dayı, gör nə dirəxşandır bu!

Buna bir dürlü yaqışmaz belə saqqal deyəməm,
İki yüz rəng çalır, sürx, qara, al deyəməm,
Hər qırışmal desə də, mən ki, buna çal deyəməm,
Sənəti-sanei zi qüdrəti-yəzdandır bu!
Buna bax, Molla dayı, gör nə dirəxşandır bu!

Bax hələ saqqala, simasına düzgün yaraşır,
Nuri-rüxsarına qıldıqda nəzər göz qamaşır,
Saç kimi şəqqələnir, gəh iki çiynindən aşır,
Dami-təzvir deyil, rişteyi-imandır bu!
Buna bax, Molla dayı, gör nə dirəxşandır bu!

Boylə bu çöhrə, bu saqqal məni təsxir eləyir,
Özünə doğru həvəs, sevgimi təkşir eləyir,
Çox böyükdür başı, tək bu məni dilgir eləyir,
Ona çox eyb deyil isə də, nöqsandır bu!
Buna bax, Molla dayı, bir yekə qazğandır bu!

Kimdir, anlat, tanıyırsanmı, axunda, bu kişi?
Matü heyran buraxıbdır məni tövri-gəzişi,
Bənzəyir Zalə boyu, Givə ləvəndin yerişi,
Zuri-bazudə hələ Rüstəmi-dastandır bu!
Buna bax, Molla dayı, gör nə böyük candır bu!

Şəhri-Tiflisdə yox bircə nəfər tay buna,
İşbu saqqal verilib əqlə bədəl pay buna,
Əlli yol rəng urulur həftə buna, ay buna,
Hind əqiqindən ikiqat da rəxşandır bu,
Həfzənallah, elə bil şaxeyi-mərcandır bu!
Rəngmi, ya ürəyimdən süzülən qandır bu?!

*Kefsiz*
*"Molla Nəsrəddin", 1914, № 25*

## İKİCAN "MƏZƏLİ"

Yeni bu şəhrə vürud eyləmişəm,
Baxıram min işə hər an, "Məzəli",
Həmdülillah, necə xoşbəxt imişəm,
Sahibi-xanəvü mehman, "Məzəli",
Həmi aşiq, həmi canan, "Məzəli".

Bu məzə kim, görürəm Bakudə,
Görmüşəmsə, kor olum, Makudə!



Yox ki, hər şəhrdə bu, hər kudə,
Naxçıvan təmli, Şirvan məzəli,
Həmi aşiq, həmi canan, "Məzəli".

Yox deyil Şişədə də böylə məzə,
Qətrə olmaz ki, müqabil dənizə?
Lütf edilmiş bu məzə təkcə bizə,
Baxıram dövrəmə; hər yan məzəli,
Həmi aşiq, həmi canan, "Məzəli".

Türfə bir şəhr, əcəb dadlı məkan,
Duzlu bir guşeyi-xəndani-cəhan.
Nazik əşxas, gözəl şivə-lisan,
Bir təsadüf ki, iki can, "Məzəli",
Həmi evli, həmi mehman, "Məzəli".

Hamıdan Kəblə Cəvadım məzəli,
Seyyidü Molla Nəjadım məzəli.
Surətim, sözlərim, adım məzəli,
Dolanır tərsinə dövran, "Məzəli",
Axmada su yerinə qan, "Məzəli".

Eyləyir torpağı əlvan, "Məzəli",
Xəstəlik gülməli, dərman məzəli,
Elə olsun gərək insan, "Məzəli",
İndi bir qərni-dirəxşan, "Məzəli",
Həmi aşiq, həmi canan, "Məzəli".

*(...O...)*
*"Məzəli", 1915, № 4*

## KİŞİ

Ver bu qədər rəncə nəhayət, kişi!
Qıl dəxi bir xırda fərağət, kişi!

Lap bükülübdür belin əlləşmədən,
Üzdü səni xəlqdəki ğəm, mühən,

Milləti əhya elədin, ta ki sən,
İmdi yox artıq sana hacət, kişi!
Qıl dəxi bir xırda fərağət, kişi!

Hər tərəfi, hər işi səhmanladın,
Məktəbə meyl etməyəni danladın,
Gəh bəyi, gəh mollaları yanladın,
Yordu səni kari-cəhalət, kişi!
Qıl dəxi bir xırda fərağət, kişi!

Etdin atalıq bu yetim ümmətə,
Almadınız pul o qədər zəhmətə.
Ğərq elədin millətini minnətə,
Tey elədin, bunca məsafət, kişi!
Qıl dəxi bir xırda fərağət, kişi!

Sənsən, əvət, imdi bizə qibləgah,
Çünki sən oldun bizə püştü pənah,
Bilməsə də qədrini hər rusiyah
Qəlbinə yol vermə mərarət, kişi!
Qıl dəxi bir xırda fərağət, kişi!

Boylə deyirmiş biri cəmiyyətin:
Məhvinə vabəstə imiş niyyətin,
Anlaşılıbdır hələ mahiyyətin,
Bu necə böhtan?! Nə ədavət, kişi!
Qıl dəxi bir xırda fərağət, kişi!

Tövbə! İnanmam buna mən ki, sənin
Olsun ürəkdə elə hiylən, fənin,
Bu hamu quyraltmasıdır düşmənin
Sən hara, harda bu xəyanət, kişi!
Qıl dəxi bir xırda fərağət, kişi!

Çəkmə soyuq ah ilə odlu nəfəs,
Şanını kəsr eyliyəməz hiç kəs,
Həm əməlindir hamu bax pişü pəs,



Yox ki, bir azadə sədaqət, kişi!
Boylədir islamdə adət, kişi!

Sən dəxi çox çəkmə xəcalət, kişi!
Qıl dəxi bir xırda fərağət, kişi!
Kəndini toxtat, kişi, arı dala at, kişi;
Millətini, dinini bircə pula sat, kişi!
Tövrü ədanı dəyiş, hər kəsi aldat, kişi!
Hər kəsi oynat, kişi!

*(...(*
*"Məzəli", 1915, №*

## TƏĞƏLLÜB

Əzizim! Şimdi bu dövran sənindir,
Səadət, rahət, izzət, şan sənindir,
Sürahi, mey, məzə, fincan sənindir,
Nüfuzü rəy, güc, fərman sənindir!
Yürütdür hökmünü, meydan sənindir!

Gecə boş vəqtini qoyma, şitab et,
Qanın əm, guşti-ümmətdən kəbab et,
Nə qorx, eylə həya, nə ictinab et,
Pıçaq, diş – sıx cismü can sənindir!
Nüfuzü rəy, güc, fərman sənindir!

Qara qəlbində yox zərrə mürüvvət,
Yatır sinəndə ancaq kibri-şiddət,
Pərakəndə, pərişanhal millət;
Yanır; bu ateşi-suzan sənindir!
Nüfuzü rəy, güc, fərman sənindir!

Sana tanrı veribdir malü dövlət,
Edibdir mülkədar, ey bihəmiyyət!
Çəkir kəndli – qapında – ac, üsrət,

Ürək ğəmli, bədən üryan, sənindir!
Səadət, rahət, izzət, şan sənindir!

Gecə-gündüz zavallı rəncbərlər.
Sənin rahətliyindən ötrü işlər!
Yatarsan sən, o, tarlalarda ditrər,
Fəqət zəhmət onun, saman sənindir!
Söyüş, şallaq onun, vicdan sənindir!

Keçərmi boylə? Qanesənmi, dövran!
Kəsilməzmi şu gözlərdən axan qan!
Ola yatmış gərəkdir – onda yezdan,
Deyil haşa belə bir can – sənindir!
Fəqət bir qaç zaman meydan sənindir!

Verər bir intiha bu zülmə davər,
Olar bir gün xilas olmaq müyəssər.
Ümidin hiç itirməz rəncbərlər,
Vəli beş günlüyə dövran sənindir,
Təğəllüb, cəbr, zülm elan sənindir!
Nüfuzü rəy, güc, fərman sənindir!
Hənuz ey mülkədarım, şan sənindir!

(...O...)
*"Məzəli", 1915, № 5*

## YAT!

Axşam nəmazını tələsik qıl, yubanma, yat,
Sol böyürün üstünə uzanıb, qurdalanma, yat!

Uyğu ğəzayi-ruh, quvayi-vücuddur...
Hər kəs zərərlidir, desə, əsla inanma, yat!

Gün çıxdığın sənə çağırıb versələr xəbər,
Yorğanını çəkib başına, doğru sanma, yat!



Dursan, xudanəkərdə, günorta təaminə,
Bozbaşını yeyən kibi, artıq dayanma, yat!

Söksə vücudunu birələr, əmsə qanını,
Alma hesabə, bir ölüsən sanki, qanma, yat!

Röyadə görsən, işdir, oyanıqlığı əgər.
Ondan xilas üçün özünü, daldalanma, yat!

Çoxdur məşəqqəti gözü açıqlığın, inan,
Açsan gözünü, ğəm görəcəksən, oyanma, yat!

Yatmaqdadır səadəti-dünya və axirət,
Durma ayağə, baxma cəhanə, usanma, yat!

Üstündən özgələr iləri keçsin, atlayıb,
Qoy tapdasınlar, olma mükəddər, utanma, yat!

Sənət, ticarət, elm, hünər, yurd, yer, həyat,
Olsun əcanibin hamı, sən faydalanma, yat!

Nabud oluncaya qədər ol payimali-zülm,
Bu hali-pürməlalını hiss etmə, duyamma, yat!

(...O...)
*"Məzəli", 1915, № 7*

## DOĞRU HA?!

Buna derlərmi təməddün? O həqiqət bumudur?!
Doğru ha?! O deyilən nəşəli nemət bumudur?

Söyləyirlər ki, təməddünlə olur mülk abad,
Həm təməddünlü cəmaətdə olur ədl və dad,
Eylənir hər kəsə rəhmət, füqərayə imdad,
İmdi şərh eylə, həman şiveyi-ülfət bumudur?
Doğru ha?! O denilən neşəli nemət bumudur?

Hər tərəfdə sürüyor hökm cəfa, zülm, ğədər,
Mədəni həm, o yaman zülm, yaxan ateşi-şər,
Mədəni iştə, həp ol ğarətgər canilər,
Qövl elə, feil belə, tazə təriqət bumudur?
Doğru ha?! O denilən neşəli nemət bumudur?

Mədəni qövm, o biri qomşusu, qövmü görəməz,
Görməmək istəyər, istəklə onu dindirəməz.
Saf, sadiqliyinə, hər nəsə, qiymət verəməz,
İqtizayi-mədəniyyət, bəşəriyyət bumudur?
Doğru ha?! O denilən neşəli nemət bumudur?

Sevməm a... gər o təməddün, o teali, bu isə!
Etibar etmərəm ol rütbeyi-ali, bu isə!
İstəməm, istəməm ancaq o məali, bu isə!
Ah... o xülya kibi ziba mədəniyyət bumudur?
Doğru ha?! O denilən neşəli nemət bumudur?!

*(...O...)*
*"Məzəli", 1915, № 9*

## AR ETMƏSİN

Hiç kəs qeyrət çəkib ar etməsin!
Boş təəssüf, hüzn izhar etməsin!

Var ziyanı canə arın, qeyrətin,
Sudi yox həm kisəyə bu xislətin.
Güc, qəmin çəkmək böyük bir millətin,
Kimsə kəndisin giriftar etməsin!
Hiç kəs qeyrət çəkib ar etməsin!

Bir pula dəyməz belə qəm çəkməmiz,
Sinələrdə dərd ağacı əkməmiz.
Hər qəzayə yaxşıdır baş əyməmiz.
Başına dünya evin dar etməsin,
Hiç kəs qeyrət çəkib ar etməsin!



Gərçi məskənsiz qalıb minlərlə can,
Gərçi var imdad edən, nə abü nan.
Gərçi getmiş badə ismət, ismü şan,
Bəxt namərdanədir, xar etməsin!
Hiç kəs qeyrət çəkib ar etməsin!

Olsa ya, olsun sitəm, pislik füzun,
Kuhü səhrayi-vətən, dəryayi-kun,
Kəştiyi-namusi-millət sərnigun,
Aləti-təxlis izhar etməsin,
Hiç kəs qeyrət çəkib ar etməsin!

Olsa da hər növi, dövrandır, keçər,
Can təki sağ olsun, asandır, keçər,
Acü üryanlar müsəlmandır, keçər,
Etməyir bu nalələr kar, etməsin,
Hiç kəs qeyrət çəkib ar etməsin!

Qoymasın əldən yerə bir ləhzə cam,
Qılmasın kəndisinə eyşin həram.
Eydi-novruz, iştə olsun şadkam,
Tərki-tiryakü meyü yar etməsin,
Öz-özün pabəndi-iztirar etməsin!
Cayi-təni-yarü əğyar etməsin!
Hiç kəs qeyrət çəkib ar etməsin!

*(...O...)*
*"Məzəli", 1915, № 11*

## PUL

Hər kəsə mayeyi-əməl, hər kəsə zövqü yar, pul!
Hər əmələ, işə təməl, hər ürək içrə nar, pul!
Aşiqə nazü qəmzəli dilbəri-işvəkar, pul!
Qüvvətü şani-məmləkət, sətvətü iqtidar, pul!
Hər şey: ədəb, bilik, hünər, namü nəcabət, ar, pul!
Ah... bu sikkədar pul, hamısı bu zəhrimar, pul!

Vasiteyi-şərəf, fərəc, izzətü abru, məram,
Baisi-mədh, mənqəbət, rəğbətü meylü ehtiram,
Qiblənümayi-mərifət, səcdəgahi-xasü am,
Tək edilir rüku ona, tək verilir ona səlam,
Fəzl, kərəm, səxa, vücud, ismətü etibar, pul!
Ah... bu sikkədar pul, hamısı bu zəhrimar, pul!

Baş-ayaq iltifat qıl, hər quru cismə can budur,
Yer yüzini dutan bütün, sahibü həmkaran budur,
Mürdə cəhaniyan, fəqət zindeyi-cavidan budur.
Amirü şahmir, xan, çin, ləqəb, nişan budur.
Qorxmaz ürək, iti qılınc, qəleyi-iztirar pul!
Ah... bu sikkədar pul, hamısı bu zəhrimar pul!

Yer üzərində şahların başlarına işıqlı tac,
Ac, ğəni, gəda və şah aləti-rəfi-ehtiyac,
Mərhəmi-rişi-əndərun, cümlə mərəzlərə əlac,
İlləti-eşq üçün şəfa, ruh, həyatü izdivac.
Bəxtin uğurlu yıldızı, taleyi-xoşnigar, pul!
Ah... bu sikkədar pul, hamısı bu zəhrimar pul!

Təbi-lətifi şairin, göz bəbəyi mühərririn,
Şeirlərin təəsürü, hissləri süxənvərin,
Fikri ədibi-əzəmin, zaiqəsi müsəvvərin,
Çəmxəmi, ğənci arvadın, labə, təməllüqü ərin,
Nəşə və rəngi badənin, həmdəmi meyküsar, pul!
Ah... bu sikkədar pul, hamısı bu zəhrimar pul!

Şiri qılan gədasifət, etdirən onu payimal,
Susduran adlı natiqi, eylədən ortalıqda lal,
Hürr yigitləri qılan qul yarananlara misal,
Halü dil əhlini edən həmdəmi-ğeyr əhli-hal,
Safdil, ağ yüzlini asi və şərmsar pul!
Ah... bu sikkədar pul, hamısı bu zəhrimar pul!

Bu yüzi qarədir verən adəmə hər məziyyəti,
Məktəbü elmü sənəti, qüdrətü zurü şövkəti.



İşrətü istirahəti, huri-qüsuri-cənnəti,
Vay ona kim, mənim kibi yoxdur onun da qisməti,
Eylər o başı daşlını halına əşkbar pul!
İştə bu nabəkar pul, iştə bu zəhrimar pul!
Ay gidi, sikkədar pul!

*(...O...)*
*"Məzəli", 1915, № 12*

## İRSİ-PƏDƏR

Bizləriz o ki, müsəlman deyəriz adımıza,
İftixar eyləyəriz şöhrəti-əcdadımıza.

Şövkatü şanını əslafımızın söyləyiriz,
Qalibiyyətlərinin sirrini kəşf eyləyiriz,
Hökmrandı hamı millətlərə onlar, deyiriz,
Söz satır, həzz alırız nabələd əfradımıza,
İftixar eyləyiriz şöhrəti-əcdadımıza.

Lovğalıqdır, quru göftardır ancaq işimiz,
Babalar söhbətidir, bir yerə gəlsək beşimiz.
Həp deyir, dinləyiriz: parlaq imiş keçmişimiz,
Bir dönüb baxmayırız milləti-bərbadımıza,
İftixar eyləyiriz şöhrəti-əcdadımıza.

Yox quru fəxr eləməkdən bizə hərçənd səmər,
Karımız yox, əlimizdən nə gəlir özgə hünər?!
Halımız eyləyəcək də deyil irasi-zərər,
Qoysayız irsi-pədər oyləcə övladımıza,
İftixar eyləyəriz şöhrəti-əcdadımıza.

Gündə bir fənn qoyur ərsəyə əfkari-bəşər,
Min qəraib çıxarır əqli-ziyadari-bəşər,
Gül açır, ətr saçır səhneyi-gülzari-bəşər,
Biz fəqət xar əkiriz gülşəni-abadımıza,
İftixar eyləyiriz şöhrəti-əcdadımıza.

İxtiraat, fünun nasıl olur? Bilməyiriz,
Xaki-qəflət qapamış çeşmimizi, silməyiriz.
Baş əyir hər kəsə, ar eyləyib əskilməyiriz,
Bağlayır boyləcə yoxluq suyu bünyadımıza,
İftixar eyləyiriz şöhrəti-əcdadımıza.

Biz hələ etməmişik kəsb özümüz namü şərəf,
Adlı əcdadımıza olmamışıq xeyr xələf,
Büsbütün məstü xərabi-meyi-əyyami-sələf,
Şu yazıq halımızı salmayırız yadımıza,
İftixar eyləyiriz şöhrəti-əcdadımıza.

Əcnəbilər yükü altında bütün kam alırız,
Qəhrəmananə çəkib dərd, böyük nam alırız,
Can verir, uf deməyir, faidə, düşnam alırız,
Tapmayır zərrəcə yol qəm dili-naşadımıza,
İftixar eyləyiriz şöhrəti-əcdadımıza.
Afərin ustadımıza,
Həqmi var iradımıza?
Yox gələn imdadımıza,
Əldə həman əyri qılınc
Bəlkə babalar verə səs
Bir daha fəryadımıza,
Qəhr edə cəlladımıza.

*(...O...)*
*"Məzəli", 1915, № 14*

## DƏYŞİLİR

Gündə, döndükcə, alır bir rəng, dövran dəyşilir,
Öz yerində durmayır bir ləhzə, hər an dəyşilir.
Yol, məişət, etiqad, adatü ünvan dəyşilir.
Ad, üsul, iş, dəb, məslək, söz, süxəndan dəyşilir,
Vəqt edir hətta əsər insanə, insan dəyşilir.

Gəh olur dəb – işlənir xirqə, əba, ləbbadə, şal,
Qırxılır başlar, olur saqqal uzun, gülgun, al.



Gəh bığ, saqqal təraşidə, qafa saçlı və çal,
Ağ yaxalıq, qıssa paltar, köhnə palan dəyşilir,
Ad, üsul, iş, dəb, məslək, söz, süxəndan dəyşilir.

Gəh birçəklər olur rusi, gəhi İran səyaq,
Nalçalı başmaq, gödək dizlik, gəhi zəngəl dolaq.
Baftalı geymə, gümüş həp: vəznə, qəddarə, yaraq,
Baş, ayaq, arxa, qabaq, hər səmt, hər yan dəyşilir,
Ad, üsul, iş, dəb, məslək, söz, süxəndan dəyşilir.

Dəyşilir dünyadə ümmətlər, təbiidir, bu gün,
Şanlı bir millət olur vəhşi olan bir qövm, dün,
Cahil, alim, bəy, mühərrir, xan, şair büsbütün,
Qəhqəra, əksi-tərəqqi, bir müsəlman dəyşilir,
Ad, üsul, iş, dəb, məslək, söz, süxəndan dəyşilir.

Zahirən hər kəs kişi, ancaq nihan mahiyyəti,
Yüzdə millətpərvər, örtü arxasında niyyəti.
Gəh sevir məşrutəyi, gəh istəmir hürriyyəti,
Gündə bin növbə sinir, bin əhdü peyman dəyşilir,
Ad, üsul, iş, dəb, məslək, söz, süxəndan dəyşilir.

Gəh biri hürriyyəti-nisvan yolunda ad alır,
Aldanır miskinə arvadlar, uzaqdan dad alır.
Keçməyir çox, bəy ikinci tazə bir arvad alır,
Görsənir "ruzə" – hilalı, mahi-şəban dəyşilir,
Ad, üsul, iş, dəb, məslək, söz, süxəndan dəyşilir.

Hər "moda", hər nəsnə, hər adəm – ğərəz hər şey ki, var
Fikr, surət, dil və mənsəb, tərzi-əşkal, ixtiyar,
Rənc, rahət, sülh, qovğa, xəndə, girye, dust, yar,
Eyd, matəm, şadi və ğəm, hərb, meydan dəyşilir,
Ad, üsul, iş, dəb, məslək, söz, süxəndan dəyşilir.
İştə bu yirminci qərn, əfkar asan dəyşilir,
Hər kar asan dəyşilir,
Abad-viran dəyşilir.

*(...O...)*
*"Məzəli", 1915, № 15*

## GÜLÜRƏM

Millətin halına bən hey gülürəm,
Xoş gəlir təbimə hər şey, gülürəm,

Fikr, zehn, əql bu gün həp çaşıyor,
Qurtuluş içün üməm uğraşıyor,
Adəm övladı bütün ağlaşıyor,
Söyləyir bən dəxi vaxsey, gülürəm;
Xoş gəlir təbimə hər şey, gülürəm.

Mülki-Daradə alır atəş ara,
Matü heyran, mütəreddid, ümərə.
Dəyşilir gündə rəisül-vüzəra.
Oynayır məmləkəti-Rey, gülürəm;
Xoş gəlir təbimə hər şey, gülürəm!

Üç yüz illər uyuyanlar oyanır,
İskeletlər də durub qurdalanır;
Andır İran da özün zində sanır;
Tərpənir Rəşt, Meyamey, gülürəm;
Xoş gəlir təbimə hər şey, gülürəm.

Bir tərəfdə görürəm qüvvətü zur,
Ol biri yanda bilik, fənn, şüur;
Əhli-İrani də dutmuş yeni şur,
Başlayır imdi əlif, bey, gülürəm,
Xoş gəlir təbimə hər şey, gülürəm.

Gəh gülür, gəhi də ağlamsınıram;
Gəhi pöhrənlənirəm, gəh sınıram,
Qorxmayır, ürküyürəm, diksinirəm,
Çəkirəm ah peyapey, gülürəm,
Xoş gəlir təbimə hər şey, gülürəm.

Xəlq bilməz də deyil qəflətini
Xoşlayır o özü öz zillətini;



Yoxluğa doğru qoyub niyyətini,
Eyləyir mərhələlər tey, gülürəm;
Bənzəyir içmişə o mey, gülürəm;
İlk bahar olmuş ona dey, gülürəm;
Sızlayır bin dil ilə ney, gülürəm,
Xoş gəlir təbimə hər şey, gülürəm.

(...O...)
*"Məzəli", 1915, № 8*

## YORĞUN BİR BAXIŞ

Söylə, nədir bu hali-pərişanın, ay yazıq!
Yorğun nəzərlə ahi-firavanın, ay yazıq!
Solğun üzünlə sineyi-suzanın, ay yazıq!
Dutğun sənin, səvali-qəribanən, ay yazıq!
Qalxızma böylə göylərə əfqanın, ay yazıq!
Bir böylə ağlama ki, çıxar canın, ay yazıq!

Ölmə, bayılma, ağlama, yalvarma, kəndlisən,
Biçarəsən, əkinçisən, aləmdə dərdlisən.
Qaç, mülkədarə gəlmə yaxın, kirli, bitlisən,
Çiyni çuvallı, boş əlli, əli səbədlisən.
Get, nökəri bəyin, qulusan xanın, ay yazıq!
İşlə o qədəri ta ki, çıxa canın, ay yazıq!

Acından ağlayır, demə, ətfalü külfətin,
Yoxdur evində də çörəyin, pişmişin, ətin.
Var nə yavanlığa, yağa kisəndə qüdrətin,
Biçarə! Mülkədarə nədir bunda minnətin,
Olsun sənin də sərvətü samanın, ay yazıq!
İşlə o qədəri ta ki, çıxa canın, ay yazıq!

Olmaz rəva, sızıldama bihudə hacətin,
İsrar qılma, olmaz əsərbəxş halətin,
Ac və susuz dolanmaq olub çünki adətin.

Get-get, çalış qiyamətədək, yox fərağətin,
Daim məşəqqət ilədir avanın, ay yazıq!
İşlə o qədəri ta ki, çıxa canın, ay yazıq!

Qan-tər içində ömrünü sür baqəmü ələm,
İşlə o qədəri ki, götürə sinədə vərəm,
Get, gəl, çalış, oturma, vücudun ola ədəm,
Ək, biç, qazan, gətir ver onu pulluya sələm.
Olmur qoy olmasın quru bir nanın, ay yazıq!
İşlə o qədəri ta ki, çıxa canın, ay yazıq!

Çünki yiyəndi molla və dövlətli, mülkədar,
Onlar üçün çalışmağını müftə, bilmə ar.
Ərzi-itaət eylə hüzurində bəndəvar,
Olma, döyüb, söyəndə səni xarü şərmsar,
Səbr eyləməkdir karı müsəlmanın, ay yazıq!
İşlə o qədəri ta ki, çıxa canın, ay yazıq!

Al boynuna boyunduruğu, baxma zəhmətə,
Əy boynunu öküz kimi, döz dərdə, möhnətə.
Alma qulağə düşməyini fikrə, niyyətə.
Hiss eyləmə bu ğəmlərini, gəlmə qeyrətə,
Açma ölüncə dideyi-giryanın, ay yazıq!
Uy sirqətə olanda da imkanın, ay yazıq!
Bəlkə ola bu, dərdinə dərman, ay yazıq!
İşlə o qədəri ta ki, çıxa canın, ay yazıq!

*(...O...)*
*"Məzəli", 1915, № 23*

## QIZLARIMIZ

Bir qaşıq su gətir arvad, susuzam,
Əqlimi, qalmış idi az, uduzam!
Gəlməyir can yenə dükcə gözümə,
Dur, dur! Əyləşmə, qulaq ver sözümə!



Sıçrayıb başıma qanım, acığım,
Huşumu, su ver içib, başə yığım.
Çıxmışam, lap gödəyi, hövsələdən,
Soyuda bilməyirəm qeyzimi mən.
Əkməyəydi, bəni, ey kaş, atam,
Ya doğeydi – bəni yox – daş, anam.
Daha çox şey görəcək gözlərimiz,
Hər zada öyrəşəcək yüzlərimiz.
Ölmədik də ki, yetək kamimizə,
Düşməmiş boylə "ləkə" namimizə.
Dəyşilərmiş də bu nisbətdə zəman.
Hər əməl başqalaşır, Allah aman.
Razıyam yetsə əcəl canımıza.
Yetməmişkən xələl imanımıza.
Bən bu gün görmədiyim qaldı nələr?
Məzhəbə, malə ziyan, dinə xətər.
Görməyəydi gözüm ey kaş, bənim,
Oldu ağzımda – saman-aş, bənim,
Dörd kərə səkkiz, iki cür gedişim,
"Rahil"in "şərhinə" döndü yerişim.
Durduğum yerdə dilim döndü ətə,
Sallanıb alt dodağım oldu "kətə".
Bərələ qaldı gözüm, üzdəniraq,
Qulağım külqabı, burnum doğanaq.
Düşmüş idim elə bir surətə bən,
Görsə idin tanımazdın belə sən!
Gör nələr görmüşəm, arvad, qulaq as,
Sən dəxi saxla müsəlmanlığa yas!
Görməyirmi ki, bizim Molla Nəbi!
Bir də o Hacı Süleyman, Çələbi;
Tapdayıb hörmətin islamlığın,
Ta çıxıb başına bədnamlığın.
Baxmayıb adlarına, sanlarına,
Qız uşaqların alıb yanlarına,
Başların yırğalaya-yırğalaya,
Kim, aparırlar odur, uşkolaya!
Ey ulu Tanrı, özün dadə yetiş,

Qalmadı xəlqdə pul, faidə, kiş,
Qız nədir, uşkola nə? Bu nə günah?
Boylə bidətmi olur, ah, ah, ah!
Hər biri körpə deyil, yesyekə qız,
Eylədi bu bənə təsir cılız.
Sən böyüklükdə biri, bəndən iraq.
Ondan ol digəri də az qorxaq.
Hər biri arvad olub ev dikəsi,
Ər qəbağında süzüb də səkəsi.
Göstərirlər ki, gedib dərs oxusun,
Halbuki, evdə gərək çul toxusun
Başda nə çadra, nə yüzdə niqab.
Büsbütün tərk edilib şərmü hicab.
Görmüşəm ta ki, olub qüssə füzun,
Qalmayıb bəndə bu gün səbrü sükun.
Dən düşübdürsə də saqqallarına,
Gəlməyir boylə bu iş arlarına,
Yol verir hansı şəriət bu işə,
Ya deyir yaxşımı millət bu işə?
Müxtəsər, işlər əcəb oldu təbah,
Çox yaman əsrdir, Allahə pənah!

*(...O...)*
*"Məzəli", 1915, № 26*

## VERMƏZİK, YAXUD ÜÇ KİŞİNİN SÖHBƏTİ

Yıxdı bizi bu ürəfa firqəsi,
El hamı miskin isə də, verməzik.
Qopdu dəxi kisəmizin həlqəsi,
Cümləsi həmdin isə də, verməzik!

Gündə gəlir, hə, nədir, ehsan verək,
Ərdahanın aclarına nan verək.
Kaş deyil pul, deyələr can verək,



Can daha şirin isə də, verməzik,
Cümləsi həmdin isə də, verməzik!

Puldur, atam, bunsuz əməl aşmayır,
Hər yetənə verməyə tablaşmayır.
Su ki deyil, qaynamayır, daşmayır,
Dərdləri səngin isə də, verməzik,
Cümləsi həmdin isə də, verməzik!

Bizlərə nə, göylərə çıxmış fəğan,
Zülm oxuna qarşılılar olmuş nişan,
Körpələr ac, yaşlarının bağrı qan,
Qartları qəmgin isə də, verməzik,
Cümləsi həmdin isə də, verməzik.

Qanə bələnmiş yaralı çox bədən,
Ağ yumuşaq qardan edinmiş kəfən.
Qarsdə qışın lalə açarmış çəmən,
Möhnə, ğəm anın isə də, verməzik!
El hamı miskin isə də, verməzik!

Bir kərə, bir növbə deyildir, atam,
Vermişəm üç dəfə bununla təmam.
Saldı ələ lap bizi bu firqə, xam,
Rəhm edəsi hin isə də, verməzik,
Cümləsi həmdin isə də, verməzik!

Tacirimiz, o, boşalıbdır cibi,
...Gündə bu çıxmış cibinin lap dibi.
Bax, bu da bən, yoldular ördək kibi,
Adımıza şin isə də, verməzik,
Cümləsi həmdin isə də, verməzik.

Beş kərə verməklə də əl çəkməyir,
Gündə gedir, hey qayıdır, ver deyir.
Lüt hamı, çılpaq geyinir, ac yeyir.
Sayları min-min isə də, verməzik.
El hamı miskin isə də, verməzik!

Xəlq niku bin isə də, verməzik!
Mütrükə zəngin isə də, verməzik!
Acsa da, zəngin isə də, verməzik!
Cümləsi həmdin isə də, verməzik!

(...O...)
*"Məzəli", 1915, № 27*

## AD

Ay keçir, qırxı gəlir, ay kişi, qoy ad uşağa!
Tapmadınmı hələ ad, ay evi bərbad, uşağa?

Get axundun yanına, bir kitab açsın, degilən,
Tas quran, falçıya baxdırmağa qaçsın, degilən,
Hər biri bildiyini ortaya saçsın degilən;
Yaxşı bir ad tapıla bəlkə, nikuzad, uşağa!
Ay keçir, qırxı gəlir, ay kişi, qoy ad uşağa!

Ad qoyarlar ki, doğan gün uşağa, qaidədir,
Qalmağı adsız otuz beş günə bifaidədir,
Bax nə göyçəkcə çocuqdur, elə bil, maidədir.
Heyf, bədbəxt olacaq, qılmadın imdad uşağa!
Ay keçir, qırxı gəlir, ay kişi, qoy ad uşağa!

Doğduğu üç gün olur Molla Tükəzban xalanın,
On gün əvvəl atası adını qoymuş balanın,
Verməyə bircə quruş adqoyana çıxdı canın,
Eyləyər hansı ata bir belə bidad uşağa?
Ay keçir, qırxı gəlir, ay kişi, qoy ad uşağa!

Qonşuya, qövmə məni düşmən edib də yenidən,
Oğluma qoyma fəqət bu dediyim adları sən:
Mustafa, Zeynal, Əsəd, Rüstəməli, Kabla Həsən,
Mürtəza, Tanrıqulu, Hacbaba, Fərhad, uşağa,
Ay keçir, qırxı gəlir, ay kişi, qoy ad uşağa!



Çünki yeznəmdir Əsəd, Zeynal onun qardaşıdır.
Mustafa, Hacbaba mərhum atamın yoldaşıdır.
Mürtəza koxa, Əli qonşu, Həsən yüzbaşıdır.
Qoysayız cümlə küsər, adların azad, uşağa!
Ay keçir, qırxı gəlir, ay kişi, qoy ad uşağa!

Bir dəva, çarə bu gün, durma, dolan, tap bu işə,
Qıl rücu alimə, cindarə, axunda, keşişə;
El qınaq eyləyər, açmış hamı dil sərzənişə
Öyrədək, mən nə deyim bir belə arvad-uşağa!
Ay keçir, qırxı gəlir, ay kişi, qoy ad uşağa!

(...O...)
*"Babayi-Əmir", 1916, № 10*

## EL

Qalxmadı, həm qalxmayacaq da hənuz,
Uyğuya dalmış necə bir səng, el!
Uyğunun o, ləzzətini, nəfini...
Anlayıb, olmaz ona diltəng, el!
Sanki ölübdür, belə olmaz yatış,
Gurlasa, diksindirəməz min atış,
Min də vuruş, minaçılış, patlatış,
Ya mey içib, ya ki, atıb bəng, el!
Uyğuya dalmış necə bir səng, el!

Bax, səbəribdir necə bibak o,
Dersən içib bir lülə tiryak o,
Ax nə gözəl hali-tərəbnak o,
Anlamayır şurü yarış, cəng, el!
Uyğuya dalmış necə bir səng, el!

Lap açılıb qarnınadək sinəsi,
Sadə və saf iç üzü, yox kinəsi.
Pusqudadır düşməni-dərunəsi,

Süngülənir qalxsa əgər ləng, el!
Uyğuya dalmış necə bir səng, el!

Hər nə olur olsun, o hiss etməyir,
İş, əməl ardınca düşüb getməyir.
Yoxluq, əsarət onu ürkütməyir.
Çünki sevir ruzi-siyəhrəng, el!
Uyğuya dalmış necə bir səng, el!

Öyrənib ömrün sürə məfkurəsiz,
Yurdda yabançı kimi, məmurəsiz.
Molla çağır tez, keçinər surəsiz,
Rəhlət üçün eyləyib ahəng, el!
Uyğuya dalmış necə bir səng, el!

Bəlli deyil kim, nə zamandan yatıb,
Ad, qılınc, ar kitabın satıb,
Eşq, ideal, elm ərusin atıb,
Cəhli dərağuş eləyib təng, el!
Uyğuya dalmış necə bir səng, el!

Qalx, səsindən bu il,
Oldu daha dəng el!
Anlamayır xəlq ki,
Qorxusu yox xəsmdən,
Daməni-mollayə çün,
Möhkəm urub çəng, el!

*(...O...)*
*"Babayi-Əmir", 1916, № 11*

## BATMAN QILIC

Getmədi, şükr, boşa zəhməti Batman qılıcın.
Oldu axşam səməri, himməti Batman qılıcın.
Gərçi Avropada çəkdi kişi çox rəncü mihən!



Altı il qaldı qərib ölkədə "mətrudi-vətən"
Dilbəri-taleyi açmış yenidən vichəyi-hüsn,
İsfahan oldu yenə qisməti Batman qılıcın,
Getmədi, şükr, boşa zəhməti Batman qılıcın.

Həqqini millət əlindən o zaman almış idi,
Quyruğundan dutub evdən eşiyə salmış idi.
Ad, məqam, izzəti getmiş, quru can qalmış idi,
Bir riyal olmuş idi qiyməti Batman qılıcın,
Dükcə gəlməzdi gözə heşməti Batman qılıcın.

Mülki-İranda ki, məşrutə qızı açdı üzün,
Zilli-Sultanın o gündən gecə qıldı günüzün,
Söyləyim vaqiənin istəyir isənsə düzün:
Büsbütün itmiş idi isməti Batman qılıcın,
Dükcə gəlməzdi gözə heşməti Batman qılıcın.

Bilmədi qədrini kiçik-böyük iranlı bütün,
Oldu qovlanmağı hər bir lütə bir nəşvəli gün,
Halbu kim, xod bud əgər anlamayan millət üçün
Saysız olmuşdu böyük xidməti Batman qılıcın,
Getmədi, şükr, boşa zəhməti Batman qılıcın.

Hər qəmin bir fərəhi, hər təəbin rahəti var.
Axır azad olur adəm nə qəmə olsa düçar,
Bir gün ağlar, o biri günlər olur xəndə nisar,
Artıyor öylədə bu, hörməti Batman qılıcın,
Getmədi, şükr, boşa zəhməti Batman qılıcın.

Cibdə Moskov pıçağı, ortada London kəməri,
Əldə hökm: İsfahanın hakimi olmaq xəbəri...
Dildə qan içməyə meyl, öndə vilayət səfəri,
El başından yağacaq neməti Batman qılıcın,
Getmədi, şükr, boşa zəhməti Batman qılıcın!

*(...O...)*
*"Babayi-Əmir", 1916, № 27*

## YOX!

Əsməkdə nəsim incə, həva saf, məkəs yox!
İxvan uyuyur naz ilə, bidar iki kəs yox!
Əlhəq deyil insaf, oyanıqlıq bu həvadə,
Əşyadə qımıltı belə, insanda nəfəs yox!
Dalmış sanıyorsan kürə dəryayi-sükutə,
Olmuş dəli qış, inləməz, avazi-cərəs yox!
Çoxdan döyülür el qapısı, sındı ağaclar,
Bir zərrə əsər qılmadı, səd heyf ki, səs yox!
Təhqir ilə hər kəs ona söylər: yuxu əbdi,
Zira ki, həyatə ölü könlündə həvəs yox!
Bazardə yurd, ərz mətai buraxılmış,
Oğru dolu dörd bir yanı, daruğə əsas yox!
Ətraf hərəmiləri varın soyub almış,
Üryandır ayaq, baş, donu yox, qondara, fəs yox!
Xəsm üstünə təyyarə ilə saldırır olsa,
Təxlis üçün ətfalını bir rəs fərəs yox!
Sınmış gəmi girdabdə, həp batmağa məhkum,
Atmağa nicatı üçün əl telcə də xəs yox!
Lüt, ac, ona xoşdur uyusun, qoymayır əğyar,
Bu tərzi-fəcianədə, əxbarqu, səs yox!
Ərbabın uzun zülmünə, ya səbrinə xəlqin,
Bir adil əfəndi ki, çıxıb hayqıra bəs, yox?!

*(...O...)*
*"Tuti", 1916, № 29*

## LEYLAC

Çəkil canım, demə: azuqəsi yox, acdır millət!
Bilincə, söyləmə kim, hər lütə möhtacdır millət!
Qoyub boş əngini, bica, danışma həqqi-millətdə,
Sana yox ki, ziyanı, qalmadı, ya qaldı zillətdə.
Demə, yaxud deyirsən, laməhalə, söylə xəlvətdə.

Əgər görsən də lap min oxlara amacdır millət,
Bilincə, söyləmə kim, hər lütə möhtacdır millət!



Özünü bu ağızla sən də bir adammı zənn etdin?
Sözünü xəlq qəlbi zəxminə mərhəmmi zənn etdin?
Qabaqçılarını yaxud özündən kəmmi zənn etdin?

Yanılma ol qədər, zənn etmə ki, taracdır millət!
Bilincə, söyləmə kim, hər lütə möhtacdır millət!

Demirsənmi ki, iqbal, ömr üçün səy eləyir hər qövm,
Demirsənmi ki, onlar qurtarıb məktəb, alır diplom;
Budur, gəl, pişrəfti bizdə gör, ey bixəbər, əlyövm.

Şeyidbazlıq, qumarbazlıqda lap leylacdır millət!
Bilincə, söyləmə kim, hər lütə möhtacdır millət!

Biri rəssamdır, bir özgəsi dersən mühəndisdir,
Bu sənətkar, o, fabrikçi, bu filosof, o, müdərrisdir.
Yazıq! Bu pişələrdən rövzəxanlıq, falçılıq pisdir?

Təmami kərbəlayı, məşhədi və əlhacdır millət!
Bilincə, söyləmə kim, hər lütə möhtacdır millət!

Müsəlmanlar gəlib sən söyləməklə, Kəsbər olmaz ki,
Müsəlman xud cahan durduqca yatsın, məhşər olmaz ki,
Misə altun suyu vurmaqla ən xalis zər olmaz ki.

Ağarmaz yıxamaqla, bir siyəh sacdır millət!
Bilincə, söyləmə kim, hər lütə möhtacdır millət!

Əbəsdir boşboğazlıq, qılmışam min yol bunu təkrar,
Əhalinin giribanından əl çək, eylə istiğfar,
Olur ruzi-cəzadə, aşikardır, məkanın nar...

O gün lakin görərsən, hər məkanda tacdır millət!
Bilincə, söyləmə kim, hər lütə möhtacdır millət!

*(...O...)*
*"Babayi-Əmir", 1916, № 30*

## QƏLƏMİM

*Bənzətmə*[1]

Sinəm ateşgədə, bir parça şərərdir qələmim,
Mənbəyi-büxl ürəgim, aləti-şərdir qələmim.
Təkcə bir şairi-bivahimeyü pürhünərəm,
Min oxa, süngüyə, şəmşirə dəyərdir qələmim.
Kəndimi xadimi-millət deyə öysəm, yaraşır.
Rəhnümayi-rəhi-əbnayi-bəşərdir qələmim.
El bilir bən nəyəm, artıq nə üçün gizlədəlim,
Dərdi-sər ümmət üçün, xəlqə zərərdir qələmim.
Söyüşüm ərsəsidir səfhəsi məcmuələrin,
Əldə bir hərbeyi-xunrizi-düsərdir qələmim.
Cəhlin issiz qara donlu gecəsi, bayquşuyam,
Çəkməyə hər tərəfə cismimi pərdir qələmim.
Ziri-can, ruhə əza söylədiyim səfsətələr
İntiqad oxlarına qarşı sipərdir qələmim.
Birlik, ülfət və məhəbbət telinin qayçısıyam,
Bixi-nəxli-əməli-qövmə təbərdir qələmim.
Maniə, getməsinə qazəliyin, fikrim, ona
İttihad, əql yolu üzrə çəpərdir qələmim.
Təfriqə şəhri, nifaq ölkəsinin "çotçi"siyəm,
Sərpdiyi töxmi-ğərəz, büğzü kədərdir qələmim.
Dəftərim zülməti-leyli-qüdəma şəbpərəsi,
Həm nevisəndeyi-təhdidi-xətərdir qələmim.
Al oxu şerimi, yansın ciyərin, eylə həsəd,
Söz deyil yazdığı ki, dürrü göhərdir qələmim.
Qoy gözü ağrısın, əşarimi pisdir deyənin,
Tökdüyü hər kəs üçün nuri-bəsərdir qələmim.
Ağzı dönsün dala dahiliyimə şəkk edənin,
Ta həsud anlaya ki, tiği-zəfərdir qələmim.
Hasili-şerimə pəh-pəh deyənin nökəriyəm,
Sıxdığı eylə ağızlara şəkərdir qələmim.
Əyrimə düz deməsin, kim olur olsun, ururam,
Bax, ucu nizə kibi qan ilə tərdir qələmim.

[1] Seyid Zərgərə bənzətmədir.



Dəstəyi zərdir qələmim,
Düşmənə uddurduğu şey
Xuni-ciyərdir qələmim,
Acı bibərdir qələmim.

*Mütəşair*
*"Tuti", 1916, № 38*

## YAXIN KEÇMİŞLƏR SANDIM

Hər yol ki, göstərdin, təriqət sandım,
Hər söz ki, söylədin, həqiqət sandım.
Hər əmrini tanrı göndərmiş bildim,
Hər bir fərmanına yaytək əyildim,
İnsan deyil ki, bu bir mələk dedim,
Hər bir təkfirini şəriət sandım.
Bildim hər qövlünü birər möcüzə,
Bənzətdim bilgini dağə, dənizə,
Əyləşdim yanında bin il diz-dizə,
Hər bir dəqiqəni qənimət sandım.
Bildim bir alim, bən, mötəbər səni,
Dünya, din elmindən baxəbər səni,
Az qaldı zənn edim peyğəmbər səni,
Hər bir kəlamını bir ayət sandım.
Bildim həqqə doğru səni rəhnüma,
Məhəmməd ümməti üstündə, hüma
Getdim ardınca bən göz yuma-yuma,
Hər bir kirdarını hidayət sandım.
Gördüm təkbirini, iman zənn etdim,
Baxdım təqririnə, vicdan zənn etdim,
Fəzlə, təqəddüsə Səlma zənn etdim.
Mütəlla zöhdünü ziqiymət sandım.
Hər qövlü felini bildim biriya
Məsciddə köhnəldim misli-buriya
İnsanlıqdan çıxdım, oldum mumiya,
Həp bunları həqdən bir rəhmət sandım.

Baxdıqca simana qəlbim şadlandı,
Öpdüm ayağını, ağzım dadlandı.
Hər gün adınla bir məzhəb adlandı,
Sən hər xəta qıldın, bən hikmət sandım.
Sonra bir məzhəbə kamildir, dedin,
Digər məzhəbləri batildir, dedin.
Cəhlə elm, alimə cahildir, dedin,
Kəşfü təyinini məharət sandım.
Bir gün bir mollanı təkfir eylədin.
O da səni təkfir etdiyin dedin.
O bir qapaz datdı, sən bir daş yedin,
Qovğa zənn etmədim, bir adət sandım.
Bundan sonra daha qalxdı savaşlar,
Sıyrıldı xəncərlər, atıldı daşlar.
Ayrıldı bir soydan olan qardaşlar,
Bunlar edir dini səyanət sandım.
Hər iş bitdi, yenə çəkmədin ki, əl,
Oldun elm üşşaqi önündə əngəl,
Ümmət qıldı cahil, vəhşi mükəmməl,
Cahilliyin, cəhli dəyanət sandım.
El hər yanə döndü, sən qarşı durdun,
Rahi-təcəddüddə min tor qurdurdun.
Hər bir təşəbbüsdə qolların burdun,
Bən də hər "qulluğu" hürriyyət sandım.
Bir gün eşitdim bən qəlbimdən bir səs,
Hayqırdı, qalx dedi, ta yatdığın bəs!
Diksindim, qorxudan çəkmədim nəfəs,
Lakin yuxu bildim, xəyalət sandım.
Guya ki, yatmışdım, oyandım birdən,
Durdum ki, hücrəndən çıxıb gedəm bən,
Kəsdin qabağımı, qoymayırdın sən,
Eyləyirsən bəlkə zərafət sandım.
Dartıldım bir noi çıxdım çəngindən,
İyrənmişdim çünki ruyü rəngindən
Artıq xilas oldum çubü səngindən
Məhkəmədə qazandım bəraət sandım.



Çıxdıqda hücrədən, bən gördüm nələr,
Qarşımda bir dünya durub münəvvər,
Hər millətdə duyğu, dirilik, hünər,
Süslü məskənlərin bir cənnət sandım.
Baxdım bir nifrətlə daxmana tərəf,
Yüz bin nədamətlə oğuşdurdum kəf
Düşündüm, vəqt, ismət, ömr olmuş tələf,
Vicdan oxur mənə min lənət sandım.
Buldum dəvanızı xaric şəridən
Gördüm girdarını qeyri-müstəhsən
Andım keçmişləri lənətlərdə bən,
Gedər bu nədamətlə, o zəmmət sandım.

*Ə.Nəzmi*
*"Dirilik", 1916, № 365*

## POLİS İDARƏLƏRİ

Gətirmiş aləmi təngə polis idarələri,
Baxır nə arə, nə nəngə polis idarələri:
Dolub qılınca tüfəngə polis idarələri;
Dönüb qabanə, pələngə polis idarələri;
Girib bu xəlqlə cəngə polis idarələri.

Bütün idarələr içrə əgərçi yox məzmun,
Olur baxanda əlif qamətin bükülmüş nun,
Xüsusən, anlamayırlar vəzifə, nə qanun,
Boyaqlı köhnəcə rəngə polis idarələri,
Gətirmiş aləmi təngə polis idarələri.

Görəndə kəndlini bazardə polis nəfəri,
Atır zavallıya hər gunə töhmət ilə şəri,
Qatır dama, alır ondan nə varsa simü zəri;
Nə ari, qeyrəti var, nə vəzifədə dəyəri,
Dönüb dənizdə nəhəngə polis idarələri,
Gətirmiş aləmi təngə polis idarələri.

Gəlibdi canə əlindən biçarə əhli-bazar;
Hər yoxsulü fəqirə etməkdə rəncü azar;
Bircə polisdə yoxdur xalq ilə yaxşı rəftar;
Çünki naçalnik ilə xəlvətdə alveri var;
El sərbəsər talansa ciblər dolur ki, təkrar,
Yeksər Topal Həsənli quldurları polisdir!
Qatillər, oğrulardan murdarları polisdir!
Qalmış əsir əhali – yox zorları – polisdir!

*"Sijimqulunamə", 1916*

## İSTİBDAD HÖKUMƏTİ MƏCMUƏLƏRİNİN MÜNDƏRİCATI

Ey böyük ölkəmizin şanı, yalan!
Səltənət şiveyi-ünvanı, yalan!
Ölkənin çar, qraf, xanı, yalan,
Əsgəri, zabiti, sultanı, yalan!
Qələsi, topları, qalxanı, yalan!

Hankı bir evdə ki, mehman sənsən,
Hankı xəlq içrə ki, xəndan sənsən,
Hankı yurdda ki, nümayan sənsən,
Qaplayar sətvəti hər yanı yalan,
Ey böyük mülkümüzün şanı, yalan!

Sən bizim ölkəmizin zinətisən!
Dövlətin ərlərinin qiymətisən!
Hərb ərkanımızın qüvvətisən!
Həm bütün təbənin imanı, yalan!
Ey böyük ölkəmizin şanı, yalan!

Həp səninlə düzələr işlərimiz,
Qəlbi-ədayə batır şişlərimiz.
Sirr olur ellərə keçmişlərimiz,
Yüz sözün, on düzü, doxsanı yalan,
Ey böyük mülkümüzün şanı, yalan!



Varlığınla basırız düşməni biz,
Qırırız soləti-əhrimeni biz,
Doğrutək xəlqə satyoruz, səni biz,
Oynadır, aldadırız anı yalan!
Ey böyük ölkəmizin şanı, yalan!

İstəriz hərbi, edək ta qələbə,
Gedək İstanbula, Berlin, Hələbə,
Həqliyiz çünki bunu biz tələbə,
Bu qəzet dərdləri dərmanı, yalan!
Ey böyük mülkümüzün şanı, yalan!

Bir dilək, bir qərəzi var hərənin
Bax gəlir gündə biri məxtərənin
Quluyuz bir böyük İngiltərənin,
Veririz oxlar üçün canı, yalan!
Ediriz tərk bu dünyanı, yalan!
Axır ursetlilərin qanı, yalan!
Ey böyük mülkümüzün şanı, yalan!

*"Sijimqulunamə"*

## OLARMIŞ

Vah-vah, adə, Ursetdə də hürriyyət olarmış?
Hürriyyətə bu ölkədə də rəğbət olarmış?

Düşməzdi yada uyquda da bu qılıq işlər
Kim, dəyşilir axır, deyəridi, bu gedişlər?
Xəlqə demiş idi bunu molla, nə keşişlər,
Görsənməmiş aləmdə də bir bidət olarmış?
Vah-vah, adə, Ursetdə də hürriyyət olarmış?

Ondan ki, təmə dişlərimi çəkmiş idim mən,
Derdim ki, cahan dolsa da, düşməz mənə bir dən,
Hürriyyət umardım necə bir evdə ögəykən,
Vallah, nə bilim, müftəcə də qismət olarmış?
Vah-vah, adə, Ursetdə də hürriyyət olarmış?

Bir çömçə dünən qonşu İvan vermiş idi pay,
Pəh-pəh, necə hürriyyət, ona bal olamaz tay!
Bir barmaq alıb ağzıma qoydum, dedim: oxqay!
Dünyada də bu təmidə bir nemət olarmış?
Vah-vah, adə, Ursetdə də hürriyyət olarmış?

Bildim bu gün ancaq ki, haman əski hökumət,
Xalqa nə imiş – verməməyində bunu – hikmət,
Kim dadsa, qəbul etməz imiş qeyri-əsarət,
Çarlar, vüzəra heyəti biqiymət olarmış?
Vah-vah, adə, Ursetdə də hürriyyət olarmış?

Rusiyyəlilərdən belə pis iş də çıxarmış?
Yüz illər ilə ömr edən asarı yıxarmış?
Çarı qovaraq, ovnəsini həbsə tıxarmış?
İnsanda da, matəm, bu qədər qeyrət olarmış?
Vah-vah, adə, Ursetdə də hürriyyət olarmış?

Çarlar üzünə görməmiş idik ola el ağ,
Dünya yaranandan ağı qarə, qaranı ağ,
Qurda göz ağartsınlar, əcəbdir, quzu, oğlaq,
Millətdə, cəmaətdə də bu cürət olarmış?
Vah-vah, adə, Ursetdə də hürriyyət olarmış?

Hərdən düşünürəm, edərək keçmişi mən yad,
Azadı müqəyyəd görərək, qulları azad,
Bixud ürəyimdən ucalır göylərə fəryad,
Taledə də bax, bir bu qədər nikbət olarmış?
Vah-vah, adə, Ursetdə də hürriyyət olarmış?

Kim derdi, bu işlər belə asan olur, olsa,
Hürriyyətin aşiqləri xəndan olur, olsa,
Əşxasi-hökumət hamı heyran olur, olsa,
Hər qüvvətin üstündə də bir qüvvət olarmış?!
Vah-vah, adə, Ursetdə də hürriyyət olarmış?

*Kefsiz*
*"Molla Nəsrəddin", 1917, № 8*



## İNŞAALLAH

Gələcəksənmi dünənki yerə? – İnşaallah!
Olacaqsanmı şərik alverə? – İnşaallah!
Sizdə, derlərdi, qonaqlıq olacaq xeyr iş üçün,
Verəcəksənmi qızı Qəmbərə? – İnşaallah!
Evdə bəs baldızınız da dul idi, onu da həm
Verəcəksənmi yeni bir ərə? – İnşaallah!
Bildir baş tutmadı, derdin ki, qalır, indi bu il
Edəcəksənmi düyün Səfdərə? – İnşaallah!
Tazə, dördüncü bir arvad alacaqsan dedilər,
Çatacaqdırmı əlin dilbərə? – İnşaallah!
Məni də doğrudu: təklif edəcəksənmi toya?
Verəcəksənmi plov, bal, kərə? – İnşaallah?!
Dün yığıncaq olacaq məscid önündə, dedilər,
Rözəxan da çıxacaq minbərə? – İnşaallah!
Küçəkənd mollaları bir tikə insafə gəlib,
Az da olsa, baxacaq işlərə? – İnşaallah!
Əllidən bir uşağın adını bundan sonra,
Laməhala yazacaq dəftərə? – İnşaallah!
İlk bahar açdı üzün dilbəri-hürriyyət ilə,
Açacaq ay dəxi üz bir kərə? – İnşaallah!
Uydu şeytanə müsəlman neçə qərn, indisə də
Baxacaq tanrıya, peyğəmbərə? – İnşaallah!
Bir nizamə düşəcəkdirmi müsəlmanın işi?
*Ya bu gunə gedəcək məhşərə? – İnşaallah!*

*Məşədi Sijimqulu*
*"Molla Nəsrəddin", 1917, № 11*

## HÜRRİYYƏTDƏN KİM NƏ PAY APARSIN?

Ölkəmizdə mövcud olan hürriyyət,
Millətlərə boylə eyləsin qismət.
Fin xəlqinə yırtıq yarım istiqlal,
Polyaklara dolu vədə bir çuval,

Ukraynaya muxtariyyət, su-torpaq
Türküstanlı müslimlərə şapalaq.
Litvalıya istəyincə ixtiyar,
Buxaralı, xivəliyə zəhrimar.
Qazaklara hər zad ilə Quban, Don,
Ləzgilərə, çərkəzlərə "paşol von"!
Latışlara ayrılmalı pay çox az,
Cuhudlara, tatarlara beş qapaz.
Xaxollara yerləşməyə buyuruq,
Krımlıya, qırğızlara yumuruq.
Ruminlərə yurd və yuva, yol, iqbal,
Yerli-yurdlu gürcülərə infial,
Qreqlərə, hər nə desə, çal çəpik,
Azərbaycan türklərinə vur təpik.
Uruslara mümtaziyyat, ağalıq,
Erməniyə imperyada dərğalıq!

*Milyukov ağzından: Məşədi Sijimqulu*
*"Molla Nəsrəddin", 1917, № 21*

## MUXTAR

Molla, bu zəmanə bizi məhzun edəcəkdir,
Pürxəndə olan qəlbimizi xun edəcəkdir.

Bilməm bu bəlalər haradan düşdü cəhanə?
İşlər dəyişildi hamısı, döndü zəmanə.
İnsan kimi fəhlə, kölə də gəldi zəbanə,
Bu hadisə əyanları məğbun edəcəkdir.

Hər yanda mütəntən qurulur birgə qurultay,
Lüt fələ, cırıq kəndli alır həqq, aparır pay.
Bəylər lüt olub, müflis olanlar olacaq bəy,
Əlaləri bu qəhbə fələk dun edəcəkdir.

Hürriyyət oyatmış hamı sinfi yuxusundan,
Yoxsul da, əkinçi də sayır kəndini insan.



Xan, bəy, kölə, muzdur ilə hər həqqdə yeksan,
Azadəlik əhvalı digərgun edəcəkdir.

Mömin kişi dörd arvad ala bilməyəcəkdir,
Bir qız alə o, gündə sala bilməyəcəkdir.
Bir hürr əsarətdə qala bilməyəcəkdir,
Bu tazəlik aqilləri məcnun edəcəkdir.

Hər həqqdə yeksan olacaqdır kişi-arvad,
Hətta olacaq Zalxa da, Məsumə də azad.
Qızlar gedəcək məktəbə, çarşaf olacaq yad,
Qüssə bu əlif qəddimizi nun edəcəkdir.

Qanuni-ədalət sürəcək hökmünü həmvar,
Məzlum eləyə bilməyəcək zalimə azar.
Bir millət olur qul, o biri hakimü muxtar,
Güclü yenə gücsüzləri mədfun edəcəkdir.

Qafqazda müsəlman dəxi muxtar olacaqdır,
Başında nə dəstar, nə əfsar olacaqdır.
Güclülərə də böylə cahan dar olacaqdır,
"O" şerini bunlar ilə mövzun edəcəkdir.

*"Məşədi Sijimqulu"*
*"Molla Nəsrəddin", 1917, № 24*

## TOƏN-KÜRHƏN!

Axır-axır doğdu günü həqqaniyyət, hürriyyətin,
İstibdadın kölgəsini, zülmətini qovaladı!
Mütləqiyyət canilərin, göyçəkəli mürüvvətin,
Xəlqi kəsmək dilədiyi bir anda yaxaladı!

Yüksək səsi ədalətin, ey xainlər, durun! – dedi,
Sonra bir-bir zalimlərin əzlin, həbsin əmr eylədi,
Zalim, xain bir hökumət qalamazdı hic əbədi,
Məzlum ellər nəfəs aldı, həqq, batili xırpaladı.

Adil tanrı diləklərin verdi bütün məzlumların?!
Boğdurtdu öz iti ilə öz övnəsin zalim çarın.
Nəhs ağuşu arasından qurtarıldı yar, əğyarın,
Azədəlik, bərabərlik, birlik günü xoş parladı.

Hər məzulin miləl üçün bir atəşdi vücudları,
Xəlqi, həman odlar ilə yaxmaq idi məqsudları.
Qan içməkdən məzhəbləri, altun idi məbudları,
Dövlət, məsnəd xırsızları millətləri həp taladı.

Ol kəslər ki, məsnədləri, mülkü, təxti qəsb etmişdi,
Pis köklərin məmləkətin hər səmtində bərkitmişdi.
Qanun, adət, insaniyyət, istək, ülfət həm bitmişdi,
Həqq onları, ancaq bu gün yerlərindən yuvarladı.

Ol əllər ki, görükcəyin titrər idi el, millətlər,
Ol əllər ki, qorxur idi ondan şərəf, heysiyyətlər,
Ol əllər ki, hər fərd ondan çəkməkdəydi çox zillətlər,
Ol əlləri, ah oxları – ta dirsəkdən yaraladı!

Əski, şansız idarənin qaldı heykəl, nə təməli,
Cümhuriyyət sədaları alqışlayır müstəqbəli.
Təən-kürhən çar ikinci Niqalayın bədbəxt əli
Öz xəlinin fərmanını, titrəyərək imzaladı!

*"Sijimqulunamə", 1917*

## BƏY

Tək görürəm durur pozuq kuçədə dün səbah bəy,
Müztəribanə eyləyir hər tərəfə nigah bəy.
Əllərin oynadır, qoyur qoynuna gah-gah bəy,
Həsrət ilə çəkir soyuq ah üzərindən ah, bəy,
Mərsiyə söyləyir gahi, gah oxuyur, segah bəy.

Görcəyin onu oylə mən, tez yürüdüm hüzurinə,
Gəlmiş əcəb, dedim, xələl, bəlkə zərər şüurinə.
Gördüm anın zəval irib qəleyi-əqlü zurinə,



Müntəzir o, bu gün, yarın bir yeni qəm zühurinə,
Cayi-pənah axtarır, xud sayılan pənah, bəy.

Söylə, dedim, bəyim, nədir səndə görünməmiş bu hal,
Etmiş əhatə hankı qəm, yüz tərəfə gedir xəyal?
Yoxsa, xudanəkərdə, ol şövkətiniz bulub zəval?
Ağzım əyilsin, olmaya qardaşın etmiş irtihal,
Əymiş o gunə qəddini firqəti-gəc gülah, bəy.

Etmə sual sən, dedi, halımı, pək xərabdır.
İçgim olub gözüm yaşı, bilmə şərabi-nabdır,
Taleyi-nəhs yuxlamış, ömr deyil, əzabdır.
Varlığımın, deyil şuxi, gördüyünüz sərabdır.
İştə fəqət bu nimcan bi zərü bi siyah, bəy,
Sizlərə hər zaman olan ölkədə "xeyrxah" bəy.

Axıradək onun sözün "dörd" qulaq ilə dinlədim,
Kəlmeyi-"xeyrxahə" çox diqqət edib də inlədim.
Ah... bəyim, bu "xeyrxah" olmağınız yalan, dedim,
Adəti idi, o məni tapdamağı minəl-qədim.
Etdi hücum üstümə, çəkdi soyuq silah bəy!
Pürğəzəb oldu şah bəy,
Az qala eyləsin məni,
Qətli-fəna, təbah bəy,
Əqlin itirmiş, ah, bəy
Bulmayacaq fəlah bəy!
Qoyma, gəbərdi, vah, bəy!
Ay getdi rusiyah bəy!

*(...O...)*
*"Tuti", 1917, № 3*

## GÜLMƏLİ MƏZMUN

Güldükcə sənin üstünə mən, sən yeri ah et!
Əflaki həman dudeyi-ahinlə siyah et!
Baxma mənə kim, qəhqəhələr yağdırıram, sən
Get, bax özünün hali-əsəfnakına, vah et!

Namusun əgər varsa, bütün ömrünü ağla:
Hər bir səhəri şam, belə şami sabah et!
Mən bir güləgən adəmiyəm, bax, bu mühitin,
Sən gülmə, düşün, canına diqqətlə nigah et!
Sən baisisən gülməyimin öz əməlinlə,
Bir güzgü alıb bax da, pezirayi-güvah et!
Gülməzdim əgər mən də gülünc olmasa idin;
Anla səbəbin, sonra məni xakeyi-rah et!
Ey şeri-büka içrə olan gülməli məzmun,
Nə ağla, nə gül, səy ilə təftişi-fəlah et!
Meymun kimi hər gördüyünü eyləmə təqlid,
Mən söylədim artıq sənə, xah eyləmə, xah et!
Ya mən demirəm müctəhidi eyləmə təqlid,
İstər elə, al xeyr-cəza, xah günah et!
Yoxdur işim, Allah bilir, alimlərimizlə,
İstərsən əgər onları başında külah et!
Ancaq deyirəm ki, özün ol bir kişi axır,
Qurtar öz əlinlə özünü, ya ki təbah et!
Qulluq, ağalıq fərqi nədir, qan onu, sonra,
Azad elə övladını, ya bəndeyi-şah et!
Ya aç gözünü könlünün, əfsanəmi qıl dərk,
Ya yoxluğa amadə ol, Allaha pənah et!

*(...O...)*
*"Tuti", 1917, № 7*

## "DOSTANƏ GİLEY"

Ey pak, mübarək adı Kəlbayi Məhərrəm!
Vey yadi qaranlıq gecələrdə mənə həmdəm
Ey sevgili məhbubim olan fikrü xəyalı
Canimdən olan canimə yanimdə müqəddəm!
Ey mən olan eyvan-eşiyindən belə məhrum!
Ey molla olan xanəsinə, xaninə məhrəm!
Biganə bilən aşiqini bezmi-vüsalə.
Hörmətlə dutan hiyləgər əğyarı mükərrəm!



Zəhmətkeşü xahanə könül qanı yedirdən
Zalimlərə, xainlərə, bədxahə verən dəm.
Həp köhnə rəqibə, qoxumuş xəsmə olan ram
Üşşaqi-vəfadari-nevinindən edən rəm.
Sənsiz günuzüm tar, yatağım gecələr nar
Bir saniyə mən olmayıram xoşdilü biğəm.
Pabəndəm o səqqali-hənadari-lətifə
Ol damə düşəndən bəri, olmuş kəmərim xəm.
Eşqində nə qaldı, gözəlim, çəkmədiyim mən,
Həm çəkmədəyəm indi də hər an, dəmadəm!
Molla oxudu xütbeyi-təkfirimi gördün,
Lənətlədi hər kəs məni, bildi bunu aləm.
Bəylər susadı qanıma, xanlar bilədi diş,
İtlər də mənə hürmək ilə açdı bütün fəm.
Mən səbr elədim, qaçmadım eşqindən, əfəndim!
Halım dedim eylər əsər ol qəlbinə bir kəm.
Daş qəlbinə bu olmadı, heyfa ki, əsərbəxş,
Yanmaqda səninçin yene əmma dəli sinəm
Ya aşiqə rəhm etməməyi qət elədinmi?
Ey rəhm eləsin halinə ol xaliqi-əzəm!
Bəsdir daha, bir bax mənə, yalvarmamı dinlə,
Bıqdım dəxi, zalim, bu nə işvə, bu nə çəmxəm.
Aç gözlərini, əql ilə, afaqə nəzər qıl,
Qoy indisə də zəxmi-dili-aşiqə mərhəm.
Min boylə ğəm olsa, uğrunda dözərəm mən
Ölsəm belə – adəm olasan – of deməرəm, həm
Yüz dillə çağırdım səni, səs vermədin, ey dost,
Hankı dil ilə bəsləyim indi səni, bilməm!
Hali-dil ilə ərz edirəm dinləməyirsən,
Yazsam qələmi qırmağa əğyari-müsəmməm!
And olsun o bihissü əməl canına, cana!
Əğyar edecək axırı bu eyşini matəm!
Ey kaş, nə bir doxteri-Həvva doğuraydı,
Nə əkmiş olaydı səni bir zadeyi-Adəm!!!

*(...O...)*
*"Tuti", 1917, № 8*

## TOPAL

Nə üçün danışmayırsan, əcəm oğlu, lalsənmi?
Diri cismi həqiqi, bilməm; misalsənmi?
Nə deyir, nə dinləyirsən, nə susur, nə inləyirsən,
Daş, ağac, pəri, əcinnə, bəbə, ya xəyalsənmi?
Məni sıxdı ruyi-zərdin, dilə gəl de, nədi dərdin?
İki aləmin qəmiylə... belə payimalsənmi?!
Bu işə məəttələm mən, çəkirəm böyük ələm mən
Ki, bəni-bəşərmisən, ya bu sifətdə malsənmi?
Səni damlara qatırlar, dalına odun çatırlar,
Həm alıb, həmi satırlar, xəri-bikəmalsənmi?
Biri bax səni minibdir, biri busquda sinibdir,
Birisinə yem bu cüftün, birisinə yalsənmi?
Yuxu bəs, on-əlli yildir, diriliyini qalx, bildir,
Hamı, şirsənmi, görsün səni, ya şəğalsənmi?
Nə varındır etibarın, nə hüquqü ixtiyarın,
Nə adın-sanın, nə arın, quru bir vəbalsənmi?
Qoca şir uyur yolunda, ayı diş bilər söləndə
Quzular kimi aradə hamıya həlalsənmi?
Damarında yoxmudur qan! Bu qəmə dözərmi insan?
Dirilikmi xoşlamırsan, ölümə məyalsənmi?
Yügürür önə miləl həp, yürəgində duyğu, mətləb,
Yürüməz, qımıldamazsan, əcəba, topalsənmi?
Bu qılıqla qalmaq olmaz, yetər intihayə ağaz,
Özünə özün qənimü gəcü bədsəqalsənmi?
Adın ismi-paki-islam, özün ortalıqda bədnam,
Bu müqəddəs ismi-rəsmə... ləkəsənmi, xalsənmi?
Yarar elmü sənətin yox, ona meylü rəğbətin yox!
Elə həm məhəbbətin yox, nədir, əhli-halsənmi?
Yeri, birliyə uzat əl, əcəm oğlu, adəm ol gəl!
Bu qədəmdədir nicatın, baxalım fəalsənmi?!
Gəmisənmi, salsənmi?
Bu cahani-həşrəvəşdə,
Bu fəzayi-keşməkeşdə,
Rüxi-tiz balsənmi?
Quru boş cuvalsənmi?!

(...O...)
*"Tuti", 1917, № 9*



## OYNAYIRAM

Naseha, var, sənə nə mən ki, qumar oynayıram?
Etmişəm canıma bu kari şüar, oynayıram!
Ta ki, bitmişdir atam qoyduğu var, oynayıram!
Uduzur, ya uduram, etməyir ar, oynayıram!
Ya ki, xalq içrə edir bu məni xar, oynayıram!

Mən mənim, mal mənim, var mənimdir, sənə nə?
Ad, şərəf, yer, dərü divar mənimdir, sənə nə?
Satdırır olsa girovdar, mənimdir, sənə nə?
Gedə gecə məst, günüz xəstə-xumar, oynayıram!
Etmişəm canıma bu kari şüar, oynayıram!

Mən müəllim, tələbə, molla, mühərrir deyiləm!
Nüktədan, vaqifi-əsrar, müdəbbir deyiləm?
Keyfsizəm, gülməliyəm, mən mütəfəkkir deyiləm,
Bilmirəm qaidə, əndazə, şümar, oynayıram!
Oynayır xalq hamı, xürdü kübar, oynayıram!

Yandırırmı həsəd atəşləri canü tənini?
Öylə gördükcə soyuq, boş yanını, məskənini!
Tanrı eylər bu bəxalətlə səqər mədfənini!
İsti evlərdə kənarımda da yar, oynayıram!
Udmayır, uddururam, etməyir ar, oynayıram!

Get, nəsihət elə, Allahı sevirsən, özünə!
Yoxsa, axmaq, dəlimi görsənirəm mən gözünə?
Baxmaram, əsrə imam olsan əgər, bir sözünə!
Etməz əfsanələrin başıma kar, oynayıram!
Söylə, canım, sənə nə, mən ki, qumar oynayıram?!

Şamü nahar oynayıram,
Sinəfikar oynayıram,
Tövbə edib sındırıram,
Gündə sebar oynayıram,
Bəddir əlim, bulmayıram,
Bircə – çevir – olmayıram!

Xalqa şikar oynayıram,
Dərdə düçar oynayıram.
Udmaq umar, oynayıram,
Xalqa nə var, oynayıram!

*"Tuti", 1917, № 12*

## İNANMAM Kİ...

Mən müştaqəm hurisinə hürriyyətin,
Dünya xəsmim olsun, bunu mən danmam ki...
Uğrunda o birəhmin, mürüvvətin,
Min bu qədər qəmlər çəksəm, usanmam ki...
Ondan məni usandırmaz firqət, hicran,
Söndürəməz eşqim odun dövran, zaman.
İstər olsun aşikar, istər nihan
Ondan qeyri bir zinəfəs mən anmam ki...
Derlər vəfasızdır işbu gözəl,
Üşşaqə o, verməmişdir, həm verməz əl.
Yox bir dilbər yer yüzündə ona bədəl,
Min desinlər vəfasızdır, aldanmam ki...
Lakin onu sevən gərək candan keçsin,
Canın sevən aşiqnüma, andan keçsin,
Ya canından, ya da başdan-candan keçsin.
Bunsuz təhsil edilir o, sanmam ki...
Hər kəs anı istər, gərək iqdam etsin,
Hər bir müştaq arxasınca özü getsin.
Salmaq üçün anı ələ, at səyirtsin,
Bir özgə əl verir desə, inanmam ki...
Bu gün anı hər millət, hər fərd istər,
Alim, cahil, yoxsul, qəni, bəy, rəncbər,
Ölsəm, ona sevdirəməz kəndimi gər,
Mən nə ondan, nə özümdən xoşlanmam ki...
İşbu gündən qət eylədim, and içdim mən
Kim, ya gərək mənim olsun ol simtən
Yaxud bu ki uğurunda örtüm kəfən,
Öz əhdimdən, ilahimdən aralanmam ki...

*(...O...)*
*"Tuti", 1917, № 13*



## LOĞALAR

Hər tərəfdə yenə qalxır şərəri loğaların,
Fitnədir məhz bu gün, xeyr-şəri loğaların!

İşləyir gəc, durur əyri, çıxıyor suçlu səsi,
İçdirib içməyə qan, fitnəçinin var həvəsi,
Bozdarın çıxmamış imiş, hələ varmış nəfəsi,
Xəlqə hər gündə dəyərmiş zərəri loğaların,
Fitnədir məhz bu gün, xeyr-şəri loğaların!

Sağ cəhanə özünü göstəriyordu mədəni,
Mat edirdi sözünə boylə səni, onu, məni.
Lakin əslində o bir xeyrsiz imiş, tərs, dəni,
Yox imiş bir tikə ondan xəbəri loğaların!
Fitnədir məhz bu gün, xeyr-şəri loğaların!

Yurdda, yurd əhli arasında, dilər kəclik ola,
İstəməz bir qədəm atsın, düzəlib doğru yola,
Getməyir, şıllaq atır gəh sağa, gəh sola,
Lap yorulmuş ulağı, müxtəsəri, loğaların,
Fitnədir məhz bu gün xeyr-şəri loğaların!

O bilir, verməyəcək faidə hürriyyət ona.
Anlayır, keçmişitək olmuyacaq hörmət ona,
Çünki Daşqof, Nikolaylardı verən qiymət ona.
İmdi bir paslı quruşdur dəyəri loğaların!
Fitnədir məhz bu gün xeyr-şəri loğaların!

Etibar, ar, həyası, şərəfi, məsləki yox,
Ölçü şeytanlığına, etdiyi zülmə çəki yox.
İstəyən ədl, müsavati-miləl, bir təki yox,
Hiylədən başqa bütün yox hünəri loğaların!
Fitnədir məhz bu gün xeyr-şəri loğaların!

Hasili, fikrdə digər görürəm loğaları,
Menşiqoflarla bərabər görürəm loğaları,

Xəmri-büxl ilə müxəmmir görürəm loğaları,
Var uzaq, qorxusu çox bir səfəri loğaların!
Çar fəraqında bükülmüş kəməri loğaların!

Sınmış, əfsanə deyil, balü pəri loğaların!
Can alan zəhrə dönübdür şəkəri loğaların!
Can gedib, xərc edilib simü zəri loğaların!
Fitnədir məhz bu gün xeyr-şəri loğaların!

*"Sijimqulunamə", 1917*

## OVQAF[1] VƏ MOLLA QURBAN[2]

Ey sən düşən günahsız böhtanə, Molla Qurban!
Xəlqin olan dilində əfsanə, Molla Qurban!

Ey piri-şəst salə, mollayi-bamürüvvət,
Ey hamiyi-şəriət, darayi-elmü sənət,
Söylə, nə gördü millət kim, səndən etdi nifrət?
Məscidü xəlqə oldun biganə, Molla Qurban!
Ey sən düşən günahsız böhtanə, Molla Qurban!

Sən bir vücudi-pakü yektavü bibədəlsən,
Qıymazsan ürf, şərə tükcə yetə xələl, sən,
Altunla dolsa məscid, vurmazsan əyri əl, sən,
Ya vəqfə, ya ki, nəzrə, ehsanə, Molla Qurban!
Ey sən düşən günahsız böhtanə, Molla Qurban!

Həqqində söyləyirlər çox söz, vəli inanmam,
Etməzsən oğruluq sən, haşa... olur bu, sanmam.
Olmuşsunuz əgərçi bir molla boyda bədnam,
Çıxmış qüsurü eybin meydanə, Molla Qurban!
Ey sən düşən günahsız böhtanə, Molla Qurban!

---

[1] Ovqaf – Moqufat məscidlərin xüsusi gəlir mənbələrinə deyilir.
[2] Gəncənin məscid mollalarındandır. Moqufat heyətinin sədri idi. Moqufat pulundan oğurlayıb özünə ev tikdirmişdi.

Sərp bir uçurum üzrə sərəncam gözümdə.
Qəhr ol, gəbər, ey aclığı, qəhti gətirən div!
Olmuş da səbahi-əməlim şam gözümdə!
Gülməkdə bu gün halimə dün kasə silənlər,
Lakin o daha gülməli, bednam gözümdə!

*1918*

## EY ƏDALƏT!

Ey dünyada kəndisi yox, adı var!
İnsanların dərdlərinə sən əlac!
Ey yolunda hamı gözlər intizar,
Həyat üçün ey ən mübrəm ehtiyac!

Mənsub olan hər məsləkə, hər dinə,
Eylər sənə malikliyin iddia!
Nə yamanlıq, nə zalımlıq, nə kinə!
Lakin hanı?! İddialər, yel, hava!

Ey ədalət, ey mübarək gəlmə, sən,
Var deyilsən varlar kibi, nə də yox,
Olsa idin, bilməyirəm bəlkə mən,
Biri gülməz, ağlamazdı biri çox!

*"Sijimqulunamə", 1919*

## QADIN

Ey hər məkanda sən, səbəbi-etla, qadın!
Hər millətin təməddününə rəhnüma, qadın!

Sən bir zərif sənətisən dəsti-xilqətin,
Cismin misalı, incə həmi qəlbü xislətin.
Sənsiz yüzünə doğdu günəş hankı millətin?
Ey mənbəyi-təali və nurü ziya, qadın!



Sənsən ölü bədənlərə bəxşəndeyi-həyat!
Sən olmasaydın, olmaz idi bəlkə kainat!
Sənsiz nə hüsn, eşq, nə yasü, nə inbisat,
Sənsiz nə şövqi-həzz, nə zövqü səfa, qadın!

Sənsən mələk dedikləri, məxluqi-asiman!
Huri dedikləri, güli-firdövs aşiyan!
Yıldız, qəmər, günəş, şəfəqü ruzeyi-cənan!
Pirayeyi-zəminü nigari-səma, qadın!

Hürriyyətin yeganə misali-mücəssəmi,
Əşar, nitq xaliqəsi, ruh həmdəmi.
El zəxmdar qəlbinin ən nərm mərhəmi,
Hər illətə əlac və dərdə dəva, qadın!

Sərmayeyi-vüqarü həyanın xəzinəsi,
Gəncineyi-nəcabətü ismət əminəsi.
Əxlaq hüsni-tərbiyə, ülfət mədinəsi,
Ey layiqi-sitayişü mədhü səna, qadın!

Ey ən gözəl şükufəsi ziruh gülşənin,
İzhari-arzuları hər qəlbi-rövşənin
Layiqmidir bu halın uca rütbənə sənin?
Ey halına cəmaəti-bietina, qadın!

Şiddətlə, nuri-ruyinə möhtac ikən vətən,
Ey gün, buludlar içrə nihan olmağın nədən?
Yırt ol niqabi-müzləmi, göstər cəmal sən!
Gül, ta gülümsəsin də cəhani-nisa, qadın!

Aç! Dəmdir, ey Məsih nəfəs, gül üzarını!
Saç gülləri, gülüşləri ilə baharını!
Xəlq içrə nəşr qıl əsəri-şahkarını!
Alqışlasın səni, desin el, mərhəba, qadın!

## ÇALIŞQAN CƏMAL![1]

*Hekayə*

On iki yaş bir çocuq,
Bənzi qaçıq, rəng uçuq.
İncə bacaq, qol, fikar
Sanki üfürsən uçar,
Gözlərinin yox fəri,
Bircə sümük, bir dəri.
Örtünüb az cındıra,
Ağ yüzü bənzər qıra.
Yırtıq ayaqqabları,
Örtür ayağın yarı.
Hər baxışı biqərar,
Bir şey üçün intizar.
Halı yaxır insanı.
Sağ umuzunda palan,
Harda görür bir dükan,
Ya ki, xrid eyləyən,
– Ay gədə hambal, – deyən.
Tez yönəlir ol yana,
Göz gələrək cövlana,
"Ver götürüm, ay ağa,
Baxma zəifəm bana.
Hər neçə versən də ver,
Harda sizin kuçədir".

Fəsli-yay idi həman,
Söylənir idi əzan.
Sısqa, çalışqan Cəmal,
Arxada bir zor çuval,
Şeylər ilə dopdolu,
Çox da uzaqdı yolu.
Qolda iri zənbili,
Qapqara yanmış dili.

[1] 1919-cu ildə yazılmışdır.



Yük götürürdü böyük,
Baş əyilib, bel bükük.

Bərkiməmişdən bədən,
Bərk işə girmiş həmən.
Evdə qocalmış ana,
Çıxmaz idi bir yana.
Oğluna dikmiş gözün,
Körpə edir sərf əmək,
Muzduna alsın yemək.
Həm anasın bəsləsin,
Həm özü içsin, yesin.
Atladı bir qaç yoxuş,
Mənzilə çapmaqda tuş.
Ancaq o boş bir xəyal,
Məqsədə irmək məhal.

İsti idi çox həva,
Hər dilək olmaz rəva.
Batmış idi qan tərə,
Büdrədi bir qaç kərə.
Düşmüş idi qüvvədən,
Ac qarın, xəstə tən.
Çəkdi bir atəşli ah,
Etdi həzin bir nigah.
Söylədi bir yol: "Ana!
Bir də qavuşmam sana".
Get-gedə inçəldi səs,
Durdu, azaldı nəfəs.
Döndü kiçik surəti,
Bitdi böyük qeyrəti.
Aldı qərarın ətəş,
Düşdü yerə, etdi ğəş.

Toxtadı şey sahibi,
Oldu onun xaibi.
Dürtmələdi, səslədi:

"Qalx çocuğum, qalx!" – dedi.
Bir qədər uğraşdı o,
Sonra baxıb şaşdı o.
Oldu əlacı hədər,
Artdı üzündə kədər.
Çünki o olmuşdu fövt,
Canını almışdı mövt.

Etmiş idi gün qürub,
Örtülür idi üyub.
Cümlə qaraldı sular,
Gəldi bütün yolçular
Şəhər kənarında bir,
Külbə var idi həqir.
Onda qoca bir qarı,
Örtməyə yox paltarı.
Pürxələcan, iztirab,
Sinədə, nə dizdə tab.
Açmış iki lüt qolun,
Oğlunun gözlər yolun.
Hər yol ötəndən sorar,
Bəklər idi biqərar.
Yoxdu fəqət ehtimal,
Gəlməyəcəkdi Cəmal.

*Əli Nəzmi*
*"Maarif və mədəniyyət", 1926, № 9*

## MİNACAT

"Dünyaları yoxdan yaradan, ey ulu Tanrı"![1]
Saxlar ağalar boyləmi, söylə, qulu, Tanrı?!

Artdıqca təməddün, sönüyor şöleyi-məzhəb,
Nabud oluyor din ilə təqvavü vərə həm.

[1] Baş misra H.Cavidindir.



Yoxsa gedəcək boyləmi bu halı mürəbzəb?
Öldür məni qurtar, üzü barı sulu, Tanrı!
Saxlar ağalar boyləmi, söylə, qulu, Tanrı?!

Keçmiş geri gəlməzmi, dirilməzmi ölənlər?
Buyruqlarını eylədilər dəfn sərasər,
Oldu kişilər həqqdə arvadla bərabər.
Şeyxin də, şərifin də alındı çulu, Tanrı!
Saxlar ağalar boyləmi, söylə, qulu, Tanrı?!

Min il olur allahlıq edirsən, daha çoxdur,
Səndə deyilən xariqələr bəs niyə yoxdur?
Qanın nə üçün qullarına qarşı soyuxdur?
Bağlandımı ecazınızın ya yolu, Tanrı?
Saxlar ağalar boyləmi, söylə, qulu, Tanrı?!

Sən, qaldığını məscidinin boş görüyorsən,
Möminlərinin həpsini naxoş görüyorsən,
Din aləmini pərt, siyəhpuş görüyorsən.
Yağdırsana göydən yerə sən daş, dolu, Tanrı!
Saxlar ağalar boyləmi, söylə, qulu, Tanrı?!

Hürriyyəti-nisvan yenə bir mərəkə saldı,
İsmət və həya getdi, hicabın adı qaldı.
Məktəb və məarif işi hər yanda ön aldı,
Azdı izin arvad, qızı, yaxud dulu, Tanrı.
Saxlar ağalar boyləmi, söylə, qulu, Tanrı?!

Bu vaqiənin almayacaqsanmı qabağın?
Qət etməli bu nəhs ağacın rişəvü sağın,
Bu iş yıxacaqdır evinin ərşdə tağın,
İş başına qoydun niyə hər yoxsulu, Tanrı?
Saxlar ağalar boyləmi, söylə, qulu, Tanrı?!

*"Sijimqulunamə"*

## BƏXTƏVƏR

Hər başə "silindir" qoyan əhli-hünər olmaz,
Hər oğru, nəmaz etmək ilə mötəbər olmaz.
Erkək sanılar, börk geyinər olsa, qadın da,
Lakin bu açıqdır ki, həqiqətdə ər olmaz.
Vurmaqla yəhər eşşəyə, ya atlara palan,
Eşşək at olub, at dəxi bilzat xər olmaz.
Tunc öysə də min yol özünü, dursa da möhkəm,
Fulad qədər onda mətanət, dəyər olmaz.
Top pişinə toxmaq ilə çıxmaq dəlilikdir,
Kəskin qılıca qarşı, başa əl sipər olmaz.
Dərk etməli ki, yandırıcı od qabağında,
Qorunmaq üçün xar ilə xəsdən çəpər olmaz.
Vəhşət mədəniyyətlə olurmu ki, boy ölçə?
Dəryadə qırıq təknədə seyrü səfər olmaz.
Zülmati-cəhalət boğamaz nurini elmin,
Hər göstəriş ilə, demək, işdə zəfər olmaz.
Yüz min mədəni millətə vəhşi, qara bir xəlq
Üstünmü olur? Olsa da milyon nəfər, olmaz!
Hər kəs inanır, tək inana bilməyiriz biz
Kim, cahil olan ailə, el bəxtəvər olmaz!
Bıqdım, dəyişər olmadı millət cərəyanın,
Səd heyf ki, əfsanələrim kargər olmaz.

## QƏZƏL

Ruyin kibi Gün dilbəri-rəxşən ola bilməz,
Alnın kibi Ay ənvərü taban ola bilməz.

Matəm, nə deyim mən sənə, hurimi, mələkmi,
Hərgiz belə bir hüsndə insan ola bilməz.

Təsvir eləmiş bir elə surət yədi-qüdrət
Kim, bir daha tərsim anı imkan ola bilməz.



Gülzari-məlahətdə dodağınla boyuntək,
Bir qönçeyi-gülşən, sərvi-xuraman ola bilməz.

Kirpiklərini oxlara təşbih xətadır,
Bu cəzbə, bu təşvirdə peykan ola bilməz.

Zülfün nə qədər olsa da pürpiç, pərişan,
Halım kimi, ey şux, pərişan ola bilməz.

Basma belə min daği-siyəh bağrıma, lalə,
Haşa, yürəgimtək yenə al-qan ola bilməz...

Candadeyi-hicranın ilə xəsteyi-aşiq,
Vəslindən əlavə daha dərman ola bilməz.

Pərvanə də yanmaqdadır odlarə və lakin,
Pərvaneyi-qəlbim kimi suzan ola bilməz.

Hər qəm çəkilir sinədə bir növ ilə məxfi,
Mümkün deyil, eşqin qəmi pünhan ola bilməz.

Aşiq çox olur hüsnünə, ey mahvəş, əmma
Nəzmi qədər aşüftəvü heyran ola bilməz.

## ÖRNƏK

*Ə.Cavada*

Göstərdi baharın qızı bir surəti-dilbər, rüxsari-münəvvər.
Firuzə kibi, daldı yaşıl nurə çəmənlər, həp məskənü məbər.
Min çəm-xəm ilə eylədi bir nim təbəssüm, ruh etdi təcəssüm.
Bir quş kibi çırpındı, qanadlandı yürəklər, oldu dolu əxgər.
Ərvahdə, əşyadə təğəyyür, hamu, hər yan, pürnəşvəvü xəndan.
Oxşar yürəyi zövqlü qumru kibi səslər, canbəxş nəfəslər.
Sərgərm meyi-eşq ediyor şur ilə bülbül, gülşəndə təğəzzül.
Naz ilə, ğürur ilə baxar halına güllər, məstanə gülümsər.

Əlvahi-qəraiblə dolu səhneyi-gülzar, hər pərdə füsunkar.
Oynar, uçuşar şövqlə əlvan kələbəklər, səyyar çiçəklər.
Qaqmış kibi, mərmər döşə bir dəsti-bülurin, pirayeyi-zərrin.
Parlar sarı gül qönçələri üzrə səhərlər, inci kibi şehlər.
Küskün duruşu ilə verir rəng bu nəqşə, məhbub bənöfşə.
Nakam, bəzəksiz, bir utancaq qıza bənzər, dildadə mükəddər.
Vermiş çəmənə min qələmü rəng ilə ziynət, nəqqaşi-təbiət.
Hər guşə behişt örnəyi, hər səmt müəttər, ətraf müənbər.
Pək şux, bükülmüş yaşıl ətləslərə topraq, parlaq hamı oymaq.
Tək "Ardahanı" tapdalamış qırmızı sellər, vurmuş qara yellər!

*"Sijimqulunamə"*

## CİB XƏSTƏLİYİ

Qarışıb bir para əmrazə də cib xəstəliyi,
Böyüyür ən böyük əndazədə cib xəstəliyi.

Öskürək, qolrə, boğaz ağrısı, sancı, yatalaq,
Səpmə, qızdırma, sətəlcəm, cilə, vurğun, xorazaq,
Vardı bir çox daha istəkli azarlar bu sayaq,
Çıxmış ortalığa bir tazə də cib xəstəliyi,
Böyüyür ən böyük əndazədə cib xəstəliyi.

Dün götürdüm cibimi doktora, çözdüm ipini,
İstədim çarə, açıb göstərərək lap dibini.
Açdı doktor da qabağımda mənim öz cibini,
Dedi: – Yox səndə bu avazədə cib xəstəliyi,
Böyüyür ən böyük əndazədə cib xəstəliyi.

Dərdimə, doktor edə bilmədi vəqta ki, dəva,
Çıxdım artıq küçəyə, çox soyuq olmuşdu həva,
Küçədə çox var imiş xəstəli məndən də səva,
Yoluxub baqqala, aşbazə də cib xəstəliyi,
Böyüyür ən böyük əndazədə cib xəstəliyi.



Bir zərif arxadaşım tutdu dünən sübh məni,
Dedi: – Kefsiz! Bu azar öldürəcək bil ki, səni.
Bez ucuzkən gedib al, saz elə sidrü kəfəni,
Boşlamaz qalsan əgər yazə də cib xəstəliyi,
Böyüyür ən böyük əndazədə cib xəstəliyi.

Çünki var isə də hər xəstəliyə bir dərman,
Almayır çarə bu cib xəstəliyinə tutulan.
Aptekar bir resepə istəyir on yüz milyan.
Harada? Ay dəli, sərmazədə cib xəstəliyi,
Böyüyür ən böyük əndazədə cib xəstəliyi.
Əsər etmiş neçə qomazə də cib xəstəliyi,
İşvəyə, qəmzəyə də, nazə də cib xəstəliyi,
Çox qumarbazə, şəyidbazə də cib xəstəliyi!

*Kefsiz*
*"Molla Nəsrəddin", 1923, № 17*

## TƏRBİYƏT[1]

Halın İranın, qələm təhrirdən oldu şikəst,
Etmədi huşyar, qıldı intiqad, ol qövmi-məst.
Keçdilər İran üçün "candan" da çox iranpərəst.
"Pərtovi-nigan nəgirəd, hər ke bünyadəş bədəst,
Tərbiyət naəhlra çün girdəkan bər günbədəst".[2]

Olmalıydı dövlət əşxasində qeyrət cövhəri,
Cümlə zatı mənfəət, şəxsi qərəzlərdən bəri.
Halbuki xəlq anlamaz xain hökumət ərləri.
Müctəhid də, molla da, seyyid də həp əxlaqi-pəst
"Tərbiyət naəhlra çün girdəkan bər günbədəst!"

Bindirən öz boynuna xanları, şahı qardaşım!
Xud, deyilmi öz gücü xalqın? Demə, çıxmır başım!

[1] "Molla Nəsrəddin" jurnalının 13-cü nömrəsində Qazi Cahaninin şerinə cavabdır.
[2] Əzəldən əsası pis olan düzəlməz. Naəhli tərbiyə etmək günbəzin üstünə qoz qoymağa bənzər (Sədi).

Vaqifəm iranlının mazisinə, çoxdur yaşım,
Şahə qulluq xoyi etmiş təbi xunində nişəst,
"Pərtovi-nikan nəgirəd hər ke bünyadəş bədəst".

İş başında varis olsun yüz "yezidüs-səltənə",
Ol Yezidin qüvvəti-bazusi əldəndir yenə.
Bir "yüz"ün milyonlar içrə ya olar təsiri nə?
Dönsə: el, "sərbaz" həp, dolsa məlain ilə bəst,
"Tərbiyət naəhlra çün girdəkan bər günbədəst".

Söz-söyüş vəqti keçib, gəlmiş zəmani-inqilab,
Vəqtdir, boynundan əhrarənə el açsın tənab.
Qorxmaz ezm ərbabı, yol üstündə hürsün bin kəlab,
Həqqini yutdurmasın qoy əğniyayə təngdəst,
"Tərbiyət naəhlra çün girdəkan bər günbədəst".

*Kefsiz*
*"Molla Nəsrəddin", 1923, № 17*

## ŞƏM VƏ PƏRVANƏ

Moldayı, Gəncəni meyxanə, şərab etdi xərab!
Baxınız hər yerə, hər yanə, şərab etdi xərab!
Evlərə, kuçəyə, meydanə, şərab etdi xərab!
Cahil, alim, yeni bəy, xanə, şərab etdi xərab!
Qoydu aqil, nə də divanə, şərab etdi xərab!

Bir zəman vardı ki, içki qədəğəndi hamıya,
İşbu içki sözü bir lafi-dəhəndi hamıya,
İçki almaq qədəğən, dərdü mihəndi hamıya,
Verdi qonqurda pərişanə, şərab etdi xərab!
Moldayı, Gəncəni meyxanə, şərab etdi xərab!

Madmazel yox bu dağılmışda, beçə az bulunur,
Bunda şadlıq könülə təkcə şərab ilə qonur.
Arşaq, Albert, Aruşan bizlərə hey badə sonur?
Cümləmiz veyl, hamı məstanə, şərab etdi xərab!
Moldayı, Gəncəni meyxanə, şərab etdi xərab!



Uydular içkiyə tiryak çəkənlər də bütün,
Mübtəladır hamı, məsciddə səkənlər də bütün,
Cənnətin töxmünü yerlərdə əkənlər də bütün,
Axdı doldu hamı gülxanə, şərab etdi xərab!
Moldayı, Gəncəni meyxanə, şərab etdi xərab!

Arifə, şairə məxsus idi əvvəl bu əməl,
Hiç bir tacirə, ya hakimə verməzdi də əl.
İmdi amir mənə, tacir dəxi məmurə bədəl,
Cümlədə haləti-rindanə, şərab etdi xərab!
Moldayı, Gəncəni meyxanə, şərab etdi xərab!

Çıxmış idim bazara dün, hamı müslüm kefli,
Həm Bumündün salonu xəlq və Bim-bum kefli,
Mən də, onlar da və bir qaç da müəllim kefli,
Şəmi o, biz dəxi pərvanə, şərab etdi xərab!
Moldayı, Gəncəni meyxanə, şərab etdi xərab!

Saqi yox, saqiyə yox, qar-quru var, mütrübü yox,
Azvinin çanlarının qərq ol içində, dibi yox,
Gərçi hər millət içir badə, fəqət biz kibi yox,
Yaraşır təkcə müsəlmanə, şərab etdi xərab!
Moldayı, Gəncəni meyxanə, şərab etdi xərab!

*Kefsiz*
*"Molla Nəsrəddin", 1924, № 1*

## DİL MƏSƏLƏSİ

Dil var ikən, gəlin lisan deməyək,
Döndərib farscaya, zəban deməyək.
Hər kəsin var sözü, dili, ağızı,
Ağıza, and içək, dəhan deməyək.
Ərəbi göndərək öz evlərinə,
Farsa, qal bizdə mehman, deməyək.
Göz dururkən yazaq nə eyn, nə çeşm,
Gizlini gizlədib nəhan deməyək.

Var ikən türklərin oxu, yayı,
Kirpiyə tir, qaşa kəman deməyək.
Ya günə ruz, ruzigar yelə,
Gecələr söyləyək, şəban deməyək.
Buğdaya kəndüm, arpaya dəxi co,
Əkməyə, suya ab, nan deməyək.
Təzə bir kəlmə çıxmış, istismar,
Türkcədir cılxa lap, yalan deməyək.
Rüx yüzə, sər başa, zənəx çənəyə,
Burma altun saça ilan deməyək.
Şeir yazdıqda türkcəyi gözədək,
Mu tükə, ortaya miyan deməyək.
Bir neçə qafiyə düzəltmək üçün,
Yuvamız vardır, aşiyan deməyək.
Ya bu kim, bir rədif uğrunda,
Yerə ərz, göyə asiman deməyək.
Saət olsun hövür, dəqiqə çimir,
İsnişək, əsnəşək, yaman deməyək.
Gülməyə xəndə, giryə ağlamağa,
Bəkçiyə heç də pasiban deməyək.
Birliyə ittihad, bilgiyə elm,
Qızlar, arvadlara zənan deməyək.
Kişitək söz verək hamı birdən,
Kim dönüb qaçsa, pəhlivan deməyək.
Dilçilər gülməsin bu təsfiyəyə,
Pozulub Kefsizin də başı, deyə.

*Kefsiz*
*"Molla Nəsrəddin", 1927, № 5*

## BİZİM ARVAD

Əfsus, pisi-yaxşını qandı bizim arvad!
Kursa, kluba, sirkə dadandı bizim arvad!

Üç il iləri o, nə şəhər, bağ tanımazdı,
Nə kurs, nə məktəb, nə meşə, dağ tanımazdı.



Anlardı tiyatro, nə fırıldağ tanımazdı,
Birdən-birə bunlarla calandı bizim arvad,
Kursa, kluba, sirkə dadandı bizim arvad!

Əvvəlləri o, bir kərə çıxmazdı evimdən,
Gündüz-gecə oynardı uşaqları ilə şən,
İndi o, olubdur həm evə, həm mənə düşmən,
Azdı cığırından, yavalandı bizim arvad,
Kursa, kluba, sirkə dadandı bizim arvad!

Mən hürr, o əsirimdi, nə iş görsə sezərdim,
Kəc qoysa ayağın, bədənin, başın əzərdim,
Məsciddə gəhi, gəhi də şantanda gəzərdim,
Yatmışdı, fəqət heyf, oyandı bizim arvad,
Kursa, kluba, sirkə dadandı bizim arvad!

Keçmişdə mağıl saqqalıma rəng yaxardı,
Qoymazdı yaxam kirlənə, bitlərdi, baxardı,
Göz mıncığı daim bəzəyi idi, taxardı,
Sanki bu bəzəklərdən usandı bizim arvad,
Kursa, kluba, sirkə dadandı bizim arvad!

Düşməzdi ki, həmzad duası sağ çiyinindən,
Rahət bulamazdım hələ tasilə cinindən,
İndi qalıb az-maz, çıxa lap köhnə dinindən.
Getdi oxudu, yaxşı qazandı bizim arvad,
Kursa, kluba, sirkə dadandı bizim arvad!

Qoymur xına öz yalına da, bomboz olubdur,
Daim əl olurdu xınalı, indi solubdur,
Qırx yaşı keçib, başına elm eşqi dolubdur,
Kəndin yenidən körpəmi sandı bizim arvad?
Dəftər, qələmə, dərsə dadandı bizim arvad!

Gündə deyirəm: eybdir arvad, bunu boşla,
Getmə üz açıq kursa, utan, at bunu, boşla,
Sal çarşavı, ört başına çarqat, bunu boşla,

Nə qorxdu, qızardı, nə utandı bizim arvad!
Ayati-hicabı belə dandı bizim arvad!

Bais, balan ölsün! Bu nə aləm, nə əməldir?
Yox anlağınızmı ki, bu iş dinə xələldir?
Dinsizliyə bunlar hamı bir yerdə təməldir.
Birdibli cəhənnəmlərə yandı bizim arvad!
Ey vah!.. Hicabı belə dandı bizim arvad!

*"Sijimqulunamə"*

## BİZİM QIZ

Xandostu, düşübdür yeni sövdayə bizim qız!
Düz qəddimi döndərdi mənim yayə bizim qız!

Bildir açılıb şəhrdə bir danə fakültet,
Qalsın görüm, Allah, belə viranə fakültet,
Qıldı balamı bir dəli-divanə, fakültet,
Getdi ora, saldı məni qovğayə bizim qız!
Baxmaz nə o dünya, nə bu dünyayə bizim qız!

Bir il o dağılmışda qalıb var-yoxu qandı,
Az vəqtdə fikri dəyişib, rəyi dolandı,
Azğınladı lap, *dini, yolu, Allahı dandı.*
Birdibli inanmır hələ üqbayə bizim qız!
Baxmaz nə o dünya, nə bu dünyayə bizim qız!

Başmaqları atdı, geyinər zivni, nə çəpkən,
Yarəb, gəbərəydi bu, o rabfaka gedərkən,
Don, qofta, batinka, deyir al, hər səhər erkən,
Oynatdı məni həm dəfə, həm nayə bizim qız!
Baxmaz nə o dünya, nə bu dünyayə bizim qız!

Der, indi də Bakuyə gedirlər neçə yoldaş,
Bir daş doğuraydım, doğurunca bunu, ey kaş!



Çarşaf atılıb, dikcə daban, çəkmə, açıq baş...
Haxçıx kimi çıxmış belə ortayə bizim qız!
Xandostu! Düşübdür yeni sövdayə bizim qız!

Miskin atası əlləri qoynunda qalıbdır,
Baxmır sözünə qız, kişi dərddən saralıbdır,
Saç-saqqal ağarmış, namusundan qocalıbdır,
Anlar nə ata, nə ana, həmsayə bizim qız!
Xandostu! Düşübdür yeni sövdayə bizim qız!

Ərlik yekə qızdır, deyirəm: get ərə, getmir,
Şərbaf Qasıma, bəzzaz ağa Qənbərə getmir,
Dərdindən ölür, molla Əliəsğərə getmir,
Mayil nə o dünya, nə bu dünyayə bizim qız!
Xandostu! Düşübdür yeni sövdayə bizim qız!

Bakuyə gedir etməyə təhsilini ikmal,
Getməm, deyir əsla ərə, naqqal qızı, naqqal,
Olmaz qınamaq, anlamayır çünki könül, hal,
Hər gün qapılır bir yeni xülyayə bizim qız!
Hala deyil, agah müəmmayə bizim qız!

Cindar Gözəlin də buna kar etmədi tası,
Tiryaki Məhəmməd də yazıb əql duası,
Bu illətin Allaha qalıb bircə davası,
Uğratdı bizi büsbütün ifnayə bizim qız!
Xandostu! Düşübdür yeni sövdayə bizim qız?

## DİLİMİZ

Kəsildi başımıza bir bəla bizim dilimiz,
Düzəldi, düşdü nə bir düz yola bizim dilimiz.
Baxanda diqqət ilə hər bucağa, hər tərəfə,
Dama və töyləyə, ya taxça-boğçaya, irəfə,
Gedir xəyalın o dəm Ərdəbil, Əhər, Nəcəfə...
Kələf kimi dolaşıb labəla bizim dilimiz,
Kəsildi başımıza bir bəla bizim dilimiz.

Biri dilərsə yaza türkcə[1] əlli-qırx kəlmə,
Çıxır araya özü bilmədən otuz kəlmə.
Gəlir dilə, nə qədər sən bağır ki, get gəlmə!
Qalıbdır az, bizi dildən sala bizim dilimiz,
Kəsildi başımıza bir bəla bizim dilimiz.

Adım Həsən, babamın da adı Məhəmməddir.
Əmim Əli, dayımın adı Kəblə Əhmməddir,
Nənəmki Xeyrənisə, qardaşımki Əsəddir.
Açıbdı mərəkeyi-Kərbəla bizim dilimiz.
Kəsildi başımıza bir bəla bizim dilimiz.

Evimdə varsa nə miqdardə ev əşyası,
Ərəbcə, farsıcadır adları: misi, tası;
Bir az da rusca qarışmış gedib bütün pası.
Bulub bu növilə artıq cila bizim dilimiz,
Kəsildi başımıza bir bəla bizim dilimiz.

Məkatib içrə olan dərs üçün kitablarımız,
Ərəbcə, farsca deyil, anlarıq fəqət yarımız,
Hələ çoxalmadadır gün-günə bu cür varımız,
Qalaq, bizi buraxarmı, dala, bizim dilimiz,
Kəsildi başımıza bir bəla bizim dilimiz.

Hələ bütün dilə dair olan pozu-yazımız,
O dildədir ki, həmin tez başa düşər azımız,
Yeni hava çala bilmir, çox əskidir sazımız.
Olur səbəb yenə qiylə-qala bizim dilimiz.
Kəsildi başımıza bir bəla bizim dilimiz.

*1924*

[1] Azərbaycancaya işarədir.



## BİR MÜLKƏDARIN TƏHƏSSÜRÜ

Göz atarlardı keçən dəmlərdə yıldızlar mənə,
İmdi görsə halımı, hər bir könül sızlar mənə!

Yadıma saldıqca mən, ah, ey gözəl günlər səni,
Ayrılıq, məhrumluqlar dağidar eylər məni,
Bəxti-dunim üstümə güldürdü dostu-düşməni,
Lağ edirlər dəmbədəm, lağlağı, mızmızlar mənə,
Göz atarlardı keçən dəmlərdə yıldızlar mənə!

Malik idim bir deyil, onlarla yaxşı atlara,
Bir, iki, üç, dörd nəfər göyçək, gözəl arvatlara.
Fatmalar altda, çıxardı Sonyalar üst qatlara,
Bənd idi ya şəhr, ya köydə bütün qızlar mənə,
İmdi görsə halımı, hər bir könül sızlar mənə!

Mülkədardım, istəsə dünya bütün olsun xərab,
Əskik olmazdı yanımdan güldodaq, gülgün şərab
Məncə ən sadə yeməkdəndi plov, yaxud kəbab,
Bəs hanı? İmdi həram olmuş da cızbızlar mənə,
İmdi görsə halımı, hər bir könül sızlar mənə!

Fatmalar küsdü, qoyub qaçdı məni Marfuşalar,
Başıma, saqqalıma yağmış apağdır sanki qar.
Var nə badə, gül dodaq, nə şəşəə, miknət, vüqar,
Külbəmi, röyalarım uyğumda yaldızlar mənə,
İmdi görsə halımı, hər bir könül sızlar mənə.

Boylə artıq ixtiyar oldum, büküldü qamətim,
Gəncliyi andıqca artar hər dəqiqə həsrətim.
Var bu halimlə yenə bir məhrəmanə niyyətim,
Qoy baxım bir yol da, ram olmazmı baldızlar mənə.
Bənd idi ya şəhr, ya köydə bütün qızlar mənə!

*"Sijimqulunamə", 1924*

## FACİƏ MEYDANI

*Məxluqdan xaliqə*

Bilmirəm mən yeri, dünyanı yaratdın nə üçün?
Dağları, bağı, gülüstanı yaratdın nə üçün?
Quş, cücü, yırtıcı heyvanı yaratdın nə üçün?
Sənə qurban olum, insanı yaratdın nə üçün?

Bir cəhənnəm olacaqdı buna dünyası bunun,
İndi ki, bitməyəcəkdi ağısı, yası bunun,
Qeyri-qabil olacaqdı, hələ əhyası bunun,
Bəs bu məfluc, yarımcanı yaratdın nə üçün?
Söylə, yahu! Bu müsəlmanı yaratdın nə üçün?

Keçməyir gün ki, o bir guşədə qan eyləməsin,
Hədəf öz gülləsinə bir neçə can eyləməsin.
Etdiyi cümlə ticarətdə ziyan eyləməsin.
Bunca qatilləri, qurbanı yaratdın nə üçün?
Söylə, yahu! Bu müsəlmanı yaratdın nə üçün?

Olduğun adəm o, bir gunə gətirməz yadına,
Atmaq əl qarət üçün sənəti erkək, qadına,
Baxmamış elm, təməddün nədir, əsla dadına,
Mötəqid, tabeyi-Quranı yaratdın nə üçün?
Söylə, yahu! Bu müsəlmanı yaratdın nə üçün?

*Xaliqdən məxluqə*

Onu dünyaya mən zinət yaratdım!
Onunçün böylə ziqiymət yaratdım!

Yerin çox nöqtəsi boş qalmış idi,
Cahanı küfr, vəhşət almış idi,
Kürə yeksər zülamə dalmış idi,
Bütün azmışdı hər millət, yaratdım.
Onu dünyaya mən zinət yaratdım!



Böyük bütlərlə dolmuş idi Kəbəm,
Tanınmaz olmuş idim xud özüm həm.
Yaratdım bir sürü aqil müəmməm,
Bəşər qansın nədir xilqət, yaratdım!
Onunçün böylə ziqiymət yaratdım!

Yaranmış olmasaydı bəs müsəlman,
Olarmıdı keçəl beş milyon insan?
Ey əbdim, olma asi, hikməti qan!
Burada var ki, bir illət, yaratdım!
Onu dünyaya mən zinət yaratdım!

Əgər bu olmasa, ey qafil abdal
Olardı harda milyonlarla hammal?
Kimin çiynində xəlq oynardı xoşhal?
Onu insan üçün ibrət yaratdım!
Onunçün böylə ziqiymət yaratdım!

Kimin boynunda eylərlərdi cövlan,
Firəng, İngiltərə, Holland, İspan?
Hələ dərviş, molla, şah, bəy, xan...
Tapardı harda bir qismət?.. Yaratdım!
Bunu onlar üçün nemət yaratdım!

Qalan kimdir bu fani məqbərəmdə?
Bütün xülya olan bağı-İrəmdə?
Olar yüz hur hansı bir hərəmdə?
Xüsusi onlara cənnət yaratdım!
Gözəl qılmanları xəlvət yaratdım!

Edib rəhmət yaratdım,
Tapıb fürsət yaratdım,
Verib şərbət yaratdım,
Çəkib zəhmət yaratdım,
Qoyub minnət yaratdım,
Quruş da verməmişlər
Mənə rüşvət, yaratdım!

*1925*

## QADINLARIMIZ

Yox idim ortada, yalnız bəni zahir edən sənsən,
Həyatı anlamazdım, lütf edib mahir edən sənsən.
Xüsusən, fikrimi salim, yeni, tahir edən sənsən.
Cahanı sevməyə irşad, ən axır, edən sənsən.

Sən olmazdınsa, olmazdı, həyatü eşq də məlum,
Bəşər nəsli olub məfqud, olardı etila mədum.
Birinci məktəb ağuşundur, ey həmşireyi-məzlum!
Acı, övladına, öz tərbiyəndən eyləmə məhrum.

Fəqət artıq düşün, olmaz tərəqqi bu kəmalinlə,
O yüksək dağları aşmaq çətin hazırkı halinlə,
Çıxıb meydanə ali elm, təhsilü cəmalinlə,
Burax qoy parlasın yurdun, elin, fikrin, məqalinlə.

Yetişdi vəqt, axır sən də oldun hürr, sər azad,
Dəxi yetməzmi ummaq başqalardan mərhəmət, imdad,
Qanad aç, uç səmayi-mərifət, ismətdə şadaşad.
İnan kim, səndə var hər gunə, hər cür qüvvə, istedad.

O gün nuri-rüxünlə parlayar güllər də, gülşən də,
Gülümsər həp vətən də, el də, əbnayi-bəşər, mən də
Kəmali-məfxərətlə xud bu halı seyr edib sən də
Saqın, ey gövhəri-yekta, çıx artıq, qalma məxzəndə,
Çıx artıq, qalma mədfəndə!

*Ə.Nəzmi*
*"Maarif və mədəniyyət", 1925, № 3*



## MƏZMUN-MƏZMUN

*Bəzi ziyalılarımız kitabxanadan istifadə üçün götürdükləri kitabları mənimsəyib, bir daha kitabxanalara qaytarmırlar...*

Dün yolum düşdü kitabxanəyə məcnun-məcnun,
Gördüm ol dairəyi həp dolu məzmun-məzmun.

Düşmüş idi oraya bir də keçən il güzərim,
Bir sevinc ilə açılmışdı həvalərdə pərim.
Uçmaq istərdim o gün, qalmamış idi kədərim,
Məndə bir nəşə yaratmışdı ogünkü səfərim.
Dönmüş idim o məkandan evə məmnun-məmnun.

Çünki görmüşdüm onu başdan-ayağə rəngin,
Dopdolu dürlü kitablar, münəzzəm, zəngin.
Bəxş qılmışdı onu xəlqimizə dövri-nəvin
Dün fəqət gördüm itirmiş o lətafət, o fərin,
Əzdi küskün nəzər ilə məni məğbun-məğbun.

Sordum ondan ki, nə olmuş sənə, ey dari-ədəb.
Oldu kim gül yüzünün solmağına boylə səbəb?
Səndən almaqda idi nur, ziyalılar həp.
Bir acı güldü, həman açdı bəyan etməyə ləb
Şərhi-hal eylədi bu növ ilə məhzun-məhzun!

Mən, dedi: köksümü açdım bu qraxmallılara,
Qıymadım qalmaların elm yolunda avara.
"Həpsi övladi-vətəndir" dedim, etməz ki, para,
Vurdu bəziləri bu sinəmə yüzlərlə yara,
Çaldılar xeyli kitablarımı məlun-məlun.

Bilmədim, bunda suçum varmı, fənasın, eyisin,
Səhv olub, anlamadım, əqillisin, "hey-heyi" sin!
Var qulağı-başı, insan ona baxsın, nə desin,
Heç görünmüşmü, kitab-kağızı insan da yesin?

Sarmaşırlardı dolablarıma məftun-məftun,
Oldu rəngim o ağ əllərləcə mədfun-mədfun?

Söyləyirmiş biri bir yerdə fəxarətlə dünən
Ki, aşırmış bir-iki ildə kitab, əlliyəcən.
Var, inanmazdım, iki, ya üçayaqlı kəsəyən.
Qafiləmmiş, bu gün öyrətdi mənə elmü fənn.
İndi mən nəzmə çəkim, sən oxu məznun-məznun.
Dün yolum düşdü kitabxanəyə məcnun-məcnun.

*Kefsiz*
*"Molla Nəsrəddin", 1927, № 13*

## MÜSTƏZAD

### ÇOBAN VAR

Bakı, nə qədər səndə bu gün sevgili can var, can, həm də rəvan var.
Əta edilən tək sana min sirri-nihan var, min cani-cahan var.
Bir bax özünə, sənə nə elm, nə zəman var, nə eyşü, nə şan var.
Sən ölkəmizin mərkəzisən, əmin-aman var, çox yaxşı-yaman var.

Bir yanda fünun, elm, o biri yanda cəhalət, yahu, bu nə halət.
Bir yanda kobudluq, o biri yanda zərafət, sirqət və əmanət
Bir guşədə rahət, o biri səmtdə qarət, yüzlərlə rəzalət.
Minlərlə mühafiz, həmi yüz-yüz xuliqan var, həm su, həmi qan var.

Getdi iki doktor kişinin börkü başından, sən etmədin iman.
Bir əski mühərrir dəxi qaldı başi üryan, börksüz yaşar insan?
Əmma edilir hər gecə bir guşədə talan, ya yoxmu nigəhban?
Qız yavruları söyməyə də çoxlu cəvan var, həm çox söz atan var.

Sabunçuda məktəbli döyənlər də azalmır, heç kəs vecə almır.
Hətta Şamaxı cadəsi ondan geri qalmır, bu xəstə onalmır.
Bilməm ki, milisya buna bir göz niyə salmır? Güclü zopa çalmır?
Hər küncdə bir cib kəsici oğru, piyan var, bir qıllı qaban var.



Bakı, gözəlim, bu ləkə bu hüsnə yaraşmaz, bir gunə iş aşmaz.
Qoynunda yatan minlər ilə kütleyi-dəmsaz, etsin sənə qoy naz.
Sən qov bütün alçaqları, ey bəldeyi-mümtaz, ey şəhri-sərəfraz.
Ətrafidən övzaimizə doğru baxan var, yatmaqda ziyan var.

Doğru!, daha doğru!
Vermə pis işə yol!
Qorxmaz sürü "qurd"dan,
Vəqta ki, çoban var!

*Kefsiz*
*"Molla Nəsrəddin", 1927, № 16*

## QOYMAYIN

*"Molla Nəsrəddin"in 47-ci nömrəsində İmam Musa Kazımın şəkli getdiyinə görə bazar əsnafı və bəzi yarımziyalılar "Molla Nəsrəddin"i görmək istəməyib ona etiraz edirlər.*

Qoymayın, ay kişilər! Molla azıbdır izini,
Saplayır qəlbimizə gündə bu minkir bizini.

Dini, imanı, yolu, məzhəbi yox, məsləki yox!
Tay buna, həqqi atanlar arasında, təki yox!
Dinə endirdiyi zor zərbəyə ölçü, çəki yox!
Bükməmiş bircə yol Allah qabağında dizini,
Saplayır qəlbimizə gündə bu minkir bizini.

Adını molla qoyub, saqqalı, əmmaməsi var,
Abası, qurşağı, nəleyni, uzun caməsi var.
Tanımır Allahı, bu bəhsdə həngaməsi var,
Bəzəmiş, baxma ki, təfsirlər ilə mizini
Saplayır qəlbimizə gündə bu minkir bizini.

O çəkib şəklin imamın da qoyur məsxərəyə,
Bir cürə həcv yazır, kim olur olsun, hərəyə,

Bu yolun axırı bilməm çıxacaqdır nərəyə?
Bəs kim islah edər o mollaların dinsizini,
Saplayır qəlbimizə gündə bu minkir bizini.

Museyi-Kazimin o, şəklini çəkmişdi o gün,
Səbr edir, bilmirəm, allahlar, imamlar nə üçün?
Ləğv olunmuş məgər ecaz, kəramət bütün,
Ənbiya yoxsa itirmişdir evin dəhlizini,
Saplayır qəlbimizə gündə bu minkir bizini.

Almayın, bayqot edin bircə dənə jurnalını,
Axtarın düşə ələ, yolmalayın saqqalını,
Salın əmmaməsini boynuna, yırtıb şalını,
Sındırın qarşınıza vurduğu dik məhmizini,
Qoymayın, ay kişilər! Molla azıbdır izini!

*Kefsiz*
*"Molla Nəsrəddin", 1927, № 49*

## NƏ ÜÇÜN?

Ağlayır, bəllidir artıq, başı ağlar nə üçün,
Ağlayır bəs bu qalın başlı ulaqlar nə üçün?

Ağlayır başları ağlar hələ bir məqsədi var,
"Pişrəv"dir, yedəyində neçə min məşhədi var.
Azarı, xəstəliyi, məqsədinin məbədi var,
Ağlayır onları təqlid ilə sağlar nə üçün?

Şadlığından adam ağlar, bunu bilmirmi hamı?
Ağlayır, aldadacaq çünki bununla avamı.
Oynadır pul, nə ki, mollaları, hətta adamı,
Bilməyirsənmi bu meymun qara bağlar, nə üçün?

Qalmış ağlaşmaya bir ay hələ, o diş biləyir,
Süpürür təkyəyi, məscidlərə zəmzəm çiləyir.



Kül atıb gözlərə, yoxsul cibi kəsmək diləyir,
Uymuş o qırmızı cibgirlərə lağlar nə üçün?

Soymağa kəndliləri kənddə də bazar açacaq,
Olmayan "cənnət alan, gəl" – deyə hədyan saçacaq,
Çox çürük söz satacaq, başları qırxıb çapacaq,
Qırxdırır başlarını qıssa qulaqlar nə üçün?

İşçi-kəndli yalana indidəmi aldanacaq?
Min il ötdü, yenəmi səfsətəyi-söz satacaq?
Öyrədirkən bu gün əsr itlərə anlaq, qanacaq,
Ulasın ölkədə bayquş, yapalaqlar nə üçün?

Ənbiya, Allah, imam bayqot edilsə, nə olur?
Xəlqimiz məscidi yox, məktəbi bilsə, nə olur?
Matəmə, təziyəyə əks gedilsə, nə olur?
Yamanıb canına xəlqin bu yamaqlar nə üçün?

Dəyməsin köhnə xurafata çomaqlar nə üçün?
Oynamırlar yumuruqlar, şapalaqlar nə üçün?

*Kefsiz*
*"Molla Nəsrəddin", 1928, № 22*

## BİLMƏ Kİ, ALƏM NƏDİR

Baxma işə, pişəyə
"Tök şərabı şişəyə"
"Ver özünü guşəyə"
"Bilmə ki, aləm nədir"
"Qüssə nədir, qəm nədir".

Uymayıb əsirligə,
Bax kefinə bir tikə.
Kim dağıda, kim dikə,
Vur küpü, cəm-cəm nədir,
Bilmə ki, aləm nədir.

İstəyir Allah vara
Zalxa geyinsin qara,
Sən hara, onlar hara,
Fizzə nə, Ədhəm nədir,
Bilmə ki, aləm nədir.

Bir yekə xidmətçi ol,
Firqəçi, ya komsomol.
Arvadına vermə yol,
Elm nə, Məryəm nədir,
Bilmə ki, aləm nədir.

Oldun o gün ki, müdir,
İşlə nə əqlin kəsir.
Sevgilən, et qız əsir,
Ar nə, adəm nədir,
Bilmə ki, aləm nədir.

Köhnə qadın, qız yetər,
Versə sənə dərdi-sər,
Ağzına vur, sənsən ər,
Naz nə, çəm-xəm nədir,
Bilmə ki, aləm nədir.

Meyvələri düz mizə,
Tök meyi çıxsın dizə.
Ver bir atım Kefsizə,
İçmədi Əkrəm nədir,
Anla ki, həmdəm nədir,
Bilmə ki, aləm nədir.

*Sijimqulu*
*"Molla Nəsrəddin", 1928, № 38*



## DABANI ÇATDAX XALAYA

Ay qoca kaftar xala!
Bir tikə qıl ar, xala!

Ol yekə arvad daha,
Bircə qırıq yat daha.
Xan qızını at daha,
Var neçə dindar, xala!

Batsın uğursuz adı,
Çox da öyüb arvadı,
Pisləmə mir Damadı,
Çıx ona qəhmər, xala!

Arvada arvad, məgər
Yan basar, ay dəngəsər.
Arvada lazımdır ər,
Olsa belə "çar", xala!

Var bizim evdə biri,
Gömdü məni dipdiri.
Gövdəsi var ipiri,
Əqli, gözü dar, xala!

Qoymadı yüz qonşuda,
Qaldı nə dost, nə quda.
Oldumu arvad, bu da?
Lap sənə oxşar, xala!

Hər kəsə donquldanır,
Hökm onundur sanır.
Həqqimi mütləq danır,
İstəmir əfsar, xala!

Qonşuda var bir gəlin,
Öpmüşəm üç yol əlin.
Yox fəqət (ömbul) də din,
Qoymadı murdar, xala!

Ölkədə yox inzibat,
Arvad olub köhlən at.
Ölsün o çirkin Nabat,
Etdi məni xar, xala!

Həpsi atıb çarşafı,
Lam oxuyurlar kafı.
Arvadın olmaz safı,
Söyləmə ki, var, xala!

Vallah, "adamdır" kişi,
Qurdalamır çox işi.
Ax, bu imansız dişi,
Hər şeyi çalxar, xala!

Sən olalı arvadım,
İtmədimi hər zadım.
Batdı müqəddəs adım,
Oldu günahkar, xala!

Quşlarının yox dəni,
Qurdalama çox məni.
Tas deyə çalsın səni,
Bir yekə şahmar, xala!

Gəl yaşayaq yan-yana,
Mən hələ bəndəm sana.
Çıxma fəqət meydana,
Faili-muxtar, xala!

Sazla çığırtma, kabab,
İstəkana tök şərab.
Çox qocalıb Kamiyab,
Olma ona yar, xala!

Gəl yaramı sar, xala!
Ah, riyakar, xala!

*Sijimqulu*
*"Molla Nəsrəddin", 1928, № 40*



## BALACA FELYETON

*Əhməd şah bir neçə il Avropada veyillən-dikdən sonra qayıdıb yenə İrana gəlir.*
(*Qəzetlərdən*)

Baxəbərsənmi, dadaş? Şah genə İranə gəlir!
Mülkünü qoymamağa olmağa viranə, gəlir!

Gəzdi Avropada çox, yadına düşmüş vətəni,
Sən görən şah deyil o, indi olubdur mədəni,
Qurtarıb xəstəliyi, lap sağalıbdır bədəni,
Buraxıb Londonu, öz məsqəti Tehranə gəlir,
Baxəbərsənmi, dadaş? Şah genə İranə gəlir?

Varlı Avropada şahanə əlamət çoxdur,
Kimya, elm və texnik... qiyamət çoxdur,
Gülyanaq, qönçə dəhənlər, uca qamət çoxdur,
Şah, görək ovcu dolu, yoxsa fəqiranə gəlir,
Baxəbərsənmi, dadaş? Şah genə İranə gəlir!

Nasirəddin babası Londona etdikdə səfər,
Sərgidən almış idi çox pula bir surəti-xər,[1]
Əcəba bilməli, Əhməd gətirir bəs nə xəbər?
Təcrübə, fikrmi? – Ya bir dişi dürdanə gəlir
Baxəbərsənmi dadaş? Şah genə İranə gəlir?

Boylə derlər ki, bitibdir şahın artıq parası,
Kisəsi boşluq olur hər kəs üçün yüz qarası,
Tez gedər hər yara, getməz bu yaman dil yarası,
Bu acı sözdən adam lap usanıb canə gəlir!
Baxəbərsənmi, dadaş? Şah genə İranə gəlir!

[1] ...Londonda ümumi sərgiyə tamaşaya getmişdik. Birdən bir eşşək surəti (surəte xərira didim) gözümə sataşdı. Dedim bu eşşək burada nə qayırır? İngilislər gülüb dedilər ki, bu eşşək deyil, lakin eşşəyin surətidir. Yaxına baxdım (həqiqət besyar xub saxtə budənd), "vəziri" hüzura dedim: "Satın alıb İranə göndərdi". Çünki İranda eşşək, görülən heyvanatdan deyilmiş (*Nəsrəddin şahın özü yazdığı səyahətnamədən*).

Bax hələ sən bu bizim naxələf iranlılara,
Derlər o gəlməsin İranə... dolansın avara,
Anlamırlar ki, çəkərlər adamı qanlı dara.
Dayamış dal o da bir səmtə, delirane gəlir,
Mülkünü qoymamağa olmağa viranə, gəlir!

Mülk, öz mülküdür, insafilə baxsaq düzünə,
Təbəəsi yaxşı deyil ağ ola şahın üzünə.
Qürbət ellərdə qarışmış gecəsi gündüzünə,
Görsə əhvalını kafir belə imanə gəlir!
Baxəbərsənmi, dadaş? Şah genə İranə gəlir!

Bax gəlir, əmma nə gəlir!
Tullana-tullana gəlir,
Sallana-sallana gəlir.
Bir daha əyləşmək üçün
Təxti-Süleymanə gəlir!

*Kefsiz*
*"Molla Nəsrəddin", 1925, № 43*

## MƏDƏNİ İNQİLAB

Ax, mədəni inqilab, ax, mədəni inqilab,
Döndərib əhvalımı, işləri etdin xərab.

Biz dəxi dünya görüb, ömr elədik çox zaman,
Kim eşidib ismini, indiyəcən ver nişan!
Var nə Quranlarda bu, nə buyurub rövzəxan,
İncili, Tövratı aç, bax bu risalə, kitab,
Ax, mədəni inqilab, ax, mədəni inqilab.

Bu necə söz! Olmasın arvadımın çadrası,
Atsın əzadarlığı, məscidi, matəm, yası,
Səhldir atmaq məgər, cənnəti, dua, tası!
Yoxmu qiyamət günü, yoxmu tərazu, hesab?
Ax, mədəni inqilab, ax, mədəni inqilab.



Gepka götür, şapqa qoy, geymə deyirlər papaq,
Kuçəyə çıxsın qadın, həpsi açıq qol, bacaq.
Çadrasız arvadlara söymək edilsin yasaq,
Yemə sarımsaq, soğan, içmə əraq və şərab,
Ax, mədəni inqilab, ax, mədəni inqilab.

Ölkədə derlər hələ, qalmamalı bisəvad,
Çöldə çobanlar dəxi etməlidir ictihad.
Həp dəyişilsin həyat, əsl-nəsəb, rəsm, ad,
Tazə əlifba ilə əsər oxusun Kamyab,
Ax, mədəni inqilab, ax, mədəni inqilab.

Var yeniliklə aram, min əyri çağrım, mənim,
Bıqdım, üzüldüm bütün, çatdadı bağrım mənim.
Bu mütəğəlliblərin ağzına ağrım mənim,
Heç biri kəsb etməmiş bircə qəpiklik savab,
Alma iki-üç qadın; siğədən et ictinab.

Çək əbədi iztirab,
Ax, mədəni inqilab,
Ax, mədəni inqilab.

*Kefsiz*
*"Molla Nəsrəddin", 1928, № 44*

## DİLİMİZ DÜZƏLMİR

Dildən-dilə düşdük, dilimiz bulmadı islah,
Biz hankı yana yüz çevirək, ay aman, Allah!

Ey tanrı və peyğəmbərim, ey dürlü imamlar!
Ey məscid, imamzadə və onlardakı şamlar!
Ey minlər ilə pirlər, ocaqlar və hamamlar!
Sizdən olacaq, olsa kömək, əşhədübillah!
Dildən-dilə düşdük, dilimiz bulmadı islah!

Ey göyləri, ayı, günü yoxdan yaradanlar!
Ey gündə günahları çiyinlərdə yazanlar!

Ey cəhl uğurunda çəkilən güclü ziyanlar!
Siz qoymayınız, işlərimiz yaxşı deyil vah...
Dildən-dilə düşdük, dilimiz bulmadı islah!

Göndər bizə qaimləri[1], dünyanı düzəltsin,
Bir möcüzə kim, iş bu müəmmanı düzəltsin,
Bir gündə dili, dinləri, mənanı düzəltsin,
Ol gunə ki, kim görsə desin ay bərakallah,
Dildən-dilə düşdük, dilimiz bulmadı islah!

Qaç qomsiyə, qaç danə də dərnəklərimiz var,
Söz söyləməyə faidəsiz, ənglərimiz var,
Kəndimizi oynatmaq üçün hənglərimiz var,
Kim baxsa iraqdan, deyəcək bizlərə pah-pah!
Dildən-dilə düşdük, dilimiz bulmadı islah!

Ya həll olunur olmadımı işbu müəmma?
Hər şəhrdə bir şivə, birər ləhcə, bir iyma
Hər kənddə bir imla, yazı, bir ism, müsəmma,
Bir gunə xörəkdir yeyəriz xah və naxah,
Dildən-dilə düşdük, dilimiz bulmadı islah!

Yardım bizə var məncə, yığıncaq, nə qələmdən,
Nə söyləmə, nə yazma, nə də dərdü ələmdən,
Saxlanmalı eynilə, nə qalmışsa dədəmdən,
Gül sən bizə ey köhnə lisanı yaradan şah!
Dildən-dilə düşdük, dilimiz bulmadı islah!

*"Sijimqulunamə"*

## BƏHANƏDİR

*Şura seçkiləri və mövhumatçılar ilə qolçomaqlar*

Köhnəliyin fənalığı əldə bəhanədir fəqət,
Bunlara büsbütün səbəb dövr, zəmanədir fəqət.
Bəxti yatıb "böyüklərin", tərsinə işləyir təkər,

[1] Guya qaim olan on ikinci imama işarədir.



Çıxdı bəyin, xanımların başlarına kəniz, nökər.
Vurdu axundu, taciri bir-birinə fəqət qədər.
Köhnə əba, əmmamələr sadə məşanədir fəqət.
Bunlara büsbütün səbəb dövr, zəmanədir fəqət.

Oktyabr dəyişməsi oynadı öylə bir oyun
Kim, yekə qurda göstərir buynuzunu keçi, qoyun.
Kənddə qoçu, qulaqlara rəncbər əyməyir boyun,
Bu hərəkatı onların həqq şənanədir fəqət
Bunlara büsbütün səbəb dövr, zəmanədir fəqət.

Seçkilər indi başlamış kənddən eşitmişəm xəbər
Məclisə qoymamış girə öz-özünü çopur Yetər,
Şahqulunun səsin alıb rəncbəri keçəl Səfər,
Halbuki varda, qüvvədə kənddə yeganədir, fəqət
Bunlara büsbütün səbəb dövr, zəmanədir fəqət.

Gör nə günə qalıb bizim dairə, sədr olub qadın,
Girmiş işə, batırdı lap qövm, qəbilənin adın.
Seçki üçün gələn qadın, qız-gəlin atdı çarqatın
Kəndlərə çadralı gedən bir neçə danədir fəqət,
Bunlara büsbütün səbəb dövr, zəmanədir fəqət.

*Kefsiz*
*"Molla Nəsrəddin", 1926, № 52*

## OLMADI

Millətə əfsanəmiz faidəmənd olmadı,
Fikrimizi anlayan bircə həpənd olmadı.

Biz bu müsəlmanların türkü ərəb, farsinə,
Hər nə dediksə, bütün, işlədilər tərsinə.
Ağlamayın, söylədik, açdı hamı tər sinə.
Qəsdimizin qarmağı bir yana bənd olmadı,
Fikrimizi anlayan bircə həpənd olmadı.

Biz dedik iranlıya, ölkəni abad qıl!
Məkkəyə getmə, iki yoxsulu dilşad qıl!
Xanlara quldur elin, onları azad qıl!
O yenə həcc axtarır, qabili-pənd olmadı,
Fikrimizi anlayan bircə həpənd olmadı.

Getdi dünən fikrimin atlısı Türküstana,
Gəzdi o ətrafı həp, döndü dübarə bana.
Söylədi: onlar belə həp ölü, gəlməz cana,
Əl çək, əzizim, dedi, qənd hələ qənd olmadı,
Fikrimizi anlayan bircə həpənd olmadı.

Atladım ayroplan, seyr elədim Qafqazı,
Ləzgi, noğay, türk, tatar, bir toyuğun çolpası.
Cümləsi din düşkünü, həpsi həyatın pası,
Sözlərim oldu ağu, heç kəsə qənd olmadı,
Fikrimizi anlayan bircə həpənd olmadı.

On iki ildir olub şanlı, böyük inqilab,
Hər yana saçmaqdadır elmü ədəb, abü tab.
Şərq qadını indi də çadralı, yüzdə niqab.
Boynuma azad, açıq zülfü kəmənd olmadı,
Kənd, oba, dağ, şəhər həp dopdolu xənd olmadı,
Fikrimizi anlayan bircə həpənd olmadı,
hissi bülənd olmadı.

*Kefsiz*
*"Molla Nəsrəddin", 1929, № 15*

## ƏHMƏDİ-BİĞƏM

*Dabanı çatdax xalaya*

Danma nemətlərini, canına həmdəmdi kişi,
Atadan da irəli, arvada məhrəmdi kişi.
Naqisül-əql qadındandamı ya kəmdi kişi?



Necə olsa işə səndən yenə ələmdi kişi.
Demə ki, bir yaramaz Əhmədi-biğəmdi kişi.

Nankorluq biçilib cinsi-lətifin boyuna,
Ər deyilmi dözən arvad çıxaran hər oyuna?
Bənzər arvad iki buynuzları düşmüş qoyuna.
Bax ki, Quranda və hər yanda müqəddəmdi kişi
Demə ki, bir yaramaz Əhmədi-biğəmdi kişi.

Varmıdır bircə nəfər, söylə, qadından da imam?
Ənbiyamız kişilərdir, nə qədər varsa tamam.
Yox tutan bircə qadın da komisarlıqda məkan
Yerdə də, göydə də hər halda mükərrəmdi kişi,
Demə ki, bir yaramaz Əhmədi-biğəmdi kişi.

Əlli yol çadranı, həm çalmanı atsan da belə,
Şəltəni, çəpgəni, başmaqları satsan da belə,
İrz, namusu həyasız yerə bassan da belə,
Börkü atmaz! Hələ namusi-mücəssəmdi kişi,
Demə ki, bir yaramaz Əhmədi-biğəmdi kişi.

Qıcıdırsan mənə qarşı nə üçün dişlərini,
Duymayırsanmı dözülməz hərəkət, işlərini.
Salıram yadə yeyilməz, koba bişmişlərini,
Yenə də dərdinə hər barədə mərhəmdi kişi
Demə ki, bir yaramaz Əhmədi-biğəmdi kişi
Yenə dərdindən ölür, gözləri pürnəmdi kişi.

*Sijimqulu*
*"Molla Nəsrəddin", 1929, № 6*

## O MALIN HANI?

Halın çox ağrıdır məni, ay molla!
Söylə, keçmişdəki cəlalın hanı?
Nüfuzun, təsirin, hökmün, fərmanın,
Şövkətin, dəbdəbən, iqbalın hanı?

Məskənin məsciddi, məkanın minbər,
Yardımçın allahlar, imam, peyğəmbər,
Söylərdin yerdən yox, göylərdən xəbər.
Mehrabın, azanın, Bilalın hanı?

İndi orucluqdur, yanmır qəndillər,
Yoxdur o keçmişki şükuhlu əllər,
Ancaq tənqidinə açılmış dillər,
Cavabın, təkfirin, əmsalın hanı?

Hər il bu günlərdə pilov bişirdi...
Yeyirdin mal kimi qarnın şişirdi.
Dodağın örtülməz, hey irişirdi,
Heç solmaq bilməyən cəmalın hanı?

Ac xəlqi məscidə maltək qatardın,
Cənnətlər, qəsrlər, qızlar satardın,
Kütlə avam idi, tez aldadardın,
Nəğdə dəyişdiyin o malın hanı?

Duymuşmu yoxsullar fırıldağını,
Qırmışmı kəndlilər tuman bağını,
Kəsmişmi qız, qadın qaymaq, yağını,
Daim dolu olan çuvalın hanı?

Artıq tutulmuşdur yalanın başı,
Getmiş damaqlardan dinin xaşxaşı,
Tapmazsan işçidən bir nəfər naşı,
Sevmir haramını, halalın hanı?

Bəsdir məscidlərdə saldın rəxtixab,
Tüksüz qucağında meyl etdin şərab.
Sən hansı pislikdən etdin ictinab?
İnsanlıq, mərifət, kamalın hanı?
Artıq bunlar yetər, məsciddən rədd ol!
Haydı, yeyin tərpən, gəlir komsomol!

*Kefsiz*
*"Molla Nəsrəddin", 1929, № 7*



## TÜRK QIZINA

*Aprel inqilabının 10 illiyi münasibətilə*

Baxmadı min il bütün
Qardaş, ata, ər sana.
Vermədilər çünki həqq
Məscidü mənbər sana.

Əzdi, gəmirdi səni
Din və müqəddəs kitab.
Boğdu, bitirdi bütün
Dərdü ələm, iztirab,
Qaldı qadınlıq iyi
Səndə, nə də abü tab.
Etmədi bir mərhəmət
Xaliqi-əkbər sana,
Baxmadı min il bütün
Qardaş, ata, ər sana.

Olduğunu əqlsiz
Söylədi din taciri.
Halbuki bu söz fəqət,
Bir qələt idi iri.
Tərbiyənə baxmadı
Bu həşəratın biri,
Olmadı azadəlik
Böylə müyəssər sana,
Baxmadı min il bütün
Qardaş, ata, ər sana.

Anlamaya, anlaya
Tapdaladı el səni.
Qəsdı-qovurdu yaman
Zəhərli bir yol səni.
Gəldi, xilas eylədi
Tək böyük Aprel səni,

Verdi ucalmaq üçün
Qırmızı bir pər sana.
Bir də hüquq, imtiyaz
Ərlə bərabər sana.
Elmü ədəb, tərbiyə
Fikri-münəvvər sana.

Apreli alqışla sən,
Gənc eli alqışla sən.

*Sijimqulu*
*"Molla Nəsrəddin", 1930, № 15*

* * *

*Ə.Vahidə*

Verməyir bir belə qulluq mənə heç əl, Vahid!
Bu edir şairi avarə, məəttəl, Vahid!
Dirilik sürməyi, zövqü daha çox anlar ikən,
Sübhümüz oldu nədən şamə mübəddəl, Vahid!

*12 aprel 1930, Azərnəşr*

*Cavab*

*Ustadım Nəzmiyə*

Mən fəqət sadə ilə badəpərəstəm, Nəzmi!
Bir xərabatiyəm, hər ləhzədə məstəm, Nəzmi!
Bir fəqirəm, nəmə lazım təhəmi-dövləti-Cəm
Qəsri-Daranı sevərsəmsə də, pəstəm, Nəzmi!

*27 iyun 1930, Azərnəşr*



Nə köpəkdir qata qəm nəşənə əngəl, Vahid!
Versə saqi bir əyağ ilə sənə əl, Vahid!
Məstlik, ərəqdə deyil isə mətlub, fəqət,
Cam edər məsələni həlli-müəffəl, Vahid.

*29 iyun 1930*

Mən nə divanə, nə əyyaş, nə pəstəm, Vahid!
Nə rəyasət, nə də kaşanəpərəstəm, Vahid!
Təkcə bir qönçə dodaqdan süzülən qətrə ilə
Boylə sərgərmü sərəfgəndəvü məstəm, Vahid!

## HİTLERİN ALLAHLA İTTİFAQI

Bizə hücumundan üç-dörd gün əvvəl,
Papadan təminat alıb mükəmməl,
Hitler hüzuruna getdi Allahın,
Dedi: "Ey dünyanı var edən yoxdan,
Fikrim hüzurunda aydındır çoxdan.
Yoxdur səndən gizlin bir sirrim mənim,
Sənin düşməninidir mənim düşmənim.
Sovetlər ölkəsi məlumdur sənə,
Onlar düşməndirlər sənə, həm mənə,
Nə səcdə eləyir, nə vururlar xaç,
Deyirlər: "Deyilik Allaha möhtac".
Hüzura gəlməkdən məqsədim bu gün
Allahsan, bəllidir sənə büsbütün.
İndi bilirsən ki, mən çoxdan acam,
Bir parça ət, çörək yoxdur, möhtacam.
Var bolşeviklərdə çoxlu ət, çörək,
Vermirlər... onlarla vuruşam gərək.
Gəl bir müqavilə bağlayaq bu gün
Biz də bir müttəfiq olaq büsbütün.
Tüfəng, top, tank, qoşun, təyyarə məndən,
Kəramət, ruhani ecazlar səndən.

Vuraq dinsizləri, allahsızları,
Hər nə qapıb alsam, bölək tən yarı.
*Lakin bir şərtim var, ey pərvərdigar!*
Ki, bizdən kim ölsə gizlin, aşikar,
Bir marşal, komandan, general, əsgər,
Beş nəfər, on nəfər, ya yüz min nəfər
Onlardan keçmişi etmədən sual,
Qoyasan növbətsiz behiştə dərhal.
Allah bu təklifdən çox razı oldu,
Doqovor yazıldı, imza qoyuldu.
Hitler edilmişdi cənnətlə təmin,
Doqovor qoynunda arxayın, əmin.
Etdi Sovetlərə ansızın hücum,
Vuruşma, toqquşma hər kəsə məlum.
Keçmişdi sazişdən iki, ya üç gün,
Allah xəbərdardı işlərdən bütün.
Mələklər, küləklər vermişdi xəbər
Ki, Şərqdə qınından çıxmışdır xəncər.
Allahın qapısı döyüldü birdən,
Qapını açdıqda mələklər həmən
Qoca – on min ildən daha çox yaşı –
Cənnətdə işləyən bir odabaşı
İçəri girərək səcdəyə düşdü,
Çənəsi titrəyib, alnı bürüşdü.
Qoca yığışdırıb sonra özünü,
Burnunu çəkərək, silib gözünü
Allaha dedi ki: "– Bu gün cəbhədən
Gəlmiş dörd min ölü, necə edim mən?
Onların hamısın edimmi qəbul?
Maşallah, çox yetkin, həm boldur məhsul.
Hamısı deyir ki, göndərib Hitler,
Şəhidik, lap əla cənnətdə yer ver!"
Allah ona dedi: "– Durma, qayıt get,
Onlardan dörd ölü saxla, qəbul et!
Qalanın qov getsin qapından bütün,
Sonra da kim gəlsə, mənə de hər gün".
Götürüb dörd mindən ancaq dörd nəfər,



Verdi, qalanlara dalandar xəbər
Ki, gedin, durmayın, məndə yox günah,
Cənnətdə yer yoxdur – buyurdu Allah.
Ölülər başların dikərək yerə,
Qayıdıb açdılar dərdi Hitlerə.
Hitler qəzəbləndi bu sarsaq işdən,
Allahın yanına gedərək həmən
Dedi: "– Ey hər işdən xəbərdar Allah!
Yaraşmaz şəninə böylə bir günah,
Doqovor bağlayıb, qol çəkmişik biz,
Lakin bu gün şərti pozursunuz siz.
Behiştə qoymayıb bəs şəhidləri
Nə üçün üstümə qaytardın geri?
Mən bu cür işlərə dözə bilmərəm,
Göstər səbəbini, anlaq, et kərəm...
Ölülər çəkirlər çöldə iztirab,
Doqovor pozulmuş olunur hesab.
Allah gülüb dedi: "– Ay cənab Hitler!
Rahətsiz olmağa yoxdur heç də yer...
Əsla pozulmamış şərt, müqavilə,
Bu sözü eyibdir gətirmək dilə.
Doqovor pozmaqda məşhursan özün,
Yoxdur düzgün çıxmış bir əhdin, sözün.
Adın olmuş bütün dünyada bədnam,
Sənə heç kim vermək istəmir salam.
Müqəssir sizsiniz, əzizim, yenə,
Sizin informasiya höccətdir mənə.
Hər bir məlumatı yoxlayıram mən,
Bilirəm, olursa nə qədər ölən.
Birinci günündə vuruşmanın siz,
Ancaq dörd nəfəri qeyd etmişdiniz.
Lakin o gün ölü gəlmişdi dörd min,
Olar böylə səhvə inanmaq çətin.
Mən də qəbul etdim ancaq dörd nəfər,
Versin informasiya qoy düzgün xəbər".
Hitler dedi: "– Baxma informasiyaya,
Ancaq inan fakta, ölüyə, saya.

Ölülər etməzlər rəqəmi alt-üst,
Faktı ancaq onlar göstərər dürüst!
Gəlsə bir milyon da götür, yerləşdir,
Baxma məlumatda üçdür, ya beşdir".
Allah bu sözlərə etdi etiraz
Dedi: "– Cənnətdə yer çox azdır, çox az!
Bəlkə sən milləti qırdırdın bütün?
Onu yerləşdirmək olmaz ki, mümkün.
Cənnət cəhənnəmtək çox böyük deyil,
Sığmaz Ərafə də qurbanların, bil!
Dostum, hətta bir gün özün də gəlsən,
Böylə bir böhranda yer tapmaram mən,
Dalanda qalmağa olarsan məcbur,
Həqiqət böylədir, tut məni məzur".

*Əli Nəzmi*
*"Ədəbiyyat qəzeti", 1941, 1 avqust*

## HİTLERDƏN ƏLALTILARINA

Şərqdə işlər ayrı bir rəng aldı, yardım göndərin!
Şöhrətim, yüksək adım alçaldı, yardım göndərin!
İş, komandan olduğum gündən gəlir hər yerdə nəhs,
Qoymayır alsın sovet əsgərləri, ordum nəfəs,
Qovhaqovdur, qırhaqırdır, vurhavurdur, kəshakəs,
Cəbhədə səngərlərim boş qaldı, yardım göndərin!
Şərqdə işlər ayrı bir rəng aldı, yardım göndərin!

Antonesku

Səndəkindən az deyildir indi məndə iztirab,
Dostluğundan el xarab, ölkə xarab, işlər xarab,
Yaxşıdır olsa adam bir az utancaq, xudhesab,
Yox vətəndə ət, çörək, yağ, qalmamış millətdə tab,
Hitlerə layiq şeyim yox, incimə, əfv et, "cənab"!



Mussolini

Hər nə ki, vardı italyanlarda sən verdin bada,
Bir qarış torpaq əlində qalmamış Afrikada,
Yox Eritrey, yox həbəş, sal bunları bir-bir yada.
Möhtacam mən də böyük bir möcüzə, bir imdada,
Məhvə məhkumuq əgər çatmazsa Allah fəryada!

Xorti

Cəbhədə məhv oldu az müddətdə qırx beş min macar,
Adlı, şöhrətli, səvarilər edilmiş tarımar.
Ordular möhkəm deyil, zabitlərə yox etibar,
Yardıma bizdən, əbəsdir, olma artıq intizar,
Şərqdə qalib gəlməyə kimdə inam, ümmid var?

Mannerheym

Mən bütün fin xalqını satdım, fəda etdim sənə,
Onları min dillə aldatdım, fəda etdim sənə.
Bir oyuncaq qıldım oynatdım, fəda etdim sənə,
Qanlara, torpaqlara qatdım, fəda etdim sənə,
Tanrımı, insafımı atdım, fəda etdim sənə.
İndi artıq yardıma yox iqtidarım, əl götür!
Qalmamış millət yanında etibarım, əl götür!

*Hitler*

Ey böyük tanrım, mənə yox müttəfiqlərdən kömək,
Qoyma dinsiz bolşeviklər "dostuna" vursun kötək!

*Əli Nəzmi*
*"Ədəbiyyat qəzeti", 1942, 10 fevral*

## TÜLKÜ HƏCCƏ GEDİR

Uçdu pozuldu planı Hitlerin,
Çox qaradır indi qanı Hitlerin,
Şərqdə ona hərb oturur çox baha,
Şuğlu bu gün ah calamaqdır aha,
Gəh sığınır millətə, gəh Allaha,
Öfkəsi çəkmir havanı Hitlerin,
Çox qaradır indi qanı Hitlerin.

Məhv edilir bandaları cəbhədə,
Tankları, tanketkaları, cəbhədə,
Qaçmadadır Qərbə sarı cəbhə də.
Düşdü belindən palanı Hitlerin,
Heç yerə dəymir dabanı Hitlerin.

İndi "fürer", həm də komandandır o,
Lakin işində hələ heyrandır o,
Son dərəcə qəmli, pərişandır o,
Yox halına ağlayanı Hitlerin,
Çox qaradır indi qanı Hitlerin.

Ordulara hər nə qədər "dur" – deyir,
"Qoyma gəlir, bolşeviki vur!" – deyir.
"Qaçma dayan, rusları durdur!" – deyir,
Yox duranı, durduranı Hitlerin,
Çox qaradır indi qanı Hitlerin.

Etdi bu günlər yenə o bir çıxış,
Sıxmış onu anlaşılır xeyli qış.
Heç deyil əvvəlki qədər xoş naxış,
İşləməz olmuş kotanı Hitlerin,
Çox qaradır indi qanı Hitlerin.

Öz çıxışında o demişdir ki: "Mən –
Bir adamam sülhü səlah istəyən!"
Sonra demiş: "Mən sevənəm səy, əmək,
İstəmədim hərb, dilənirdim çörək!"



Xalqlara bəlli yalanı Hitlerin,
Çox qaradır indi qanı Hitlerin.

Həccə gedir tülkü, həzindir səsi.
Qəm gətirir "sümsüsünün" nəğməsi.
Aldada bilməz bu kələk heç kəsi,
Dəydi daşa ox-kamanı Hitlerin,
Qarəti, qətli, talanı Hitlerin,
Qurtarıb arpa-samanı Hitlerin,
Molla çağır, çıxdı canı Hitlerin,
Çox qaradır indi qanı Hitlerin.

*Əli Na*
*"Ədəbiyyat qəzeti", 1942, 31 yan*

## CANAVARIN ALLAHA ETİRAZI

Tanrım, adamda məgər rəhm, ədalətmi yox?
Ya işə onda dəyər verməyə diqqətmi yox?

Oxşadır onlar mənə, gündə yazıb, Hitleri,
Halbuki, heç də bunun yox hala uyğun yeri.
Qalmışam, aləm bilir, mən o köpəkdən geri.
Yırtıcı o, ya mənəm? Hər kəsə qiymətmi yox?
Tanrım, adamda məgər rəhm, ədalətmi yox?

Ağzı qara, dörd ayaq, boz canavardır adım,
Yırtıcı, vəhşi bütün, danmayıram, əcdadım.
Lakin Adolf atdığı addımı mən atmadım.
Məhkəmə, hakim, qazı, qayda, şəriətmi yox?
Tanrım, adamda məgər rəhm, ədalətmi yox?

Bir ananın gənc oğlu, ya qızını ver nişan,
Öz qucağında qanın şişəyə tutdum haçan?
Məndə bu vəhşiliyi görmədi haşa zaman!
Üstümə yıxdıqları çirkə nəhayətmi yox?
Tanrım, adamda məgər rəhm, ədalətmi yox?

Zülmünə qoymuş bütün aləmi heyran faşist,
Körpə qanından arar dərdinə dərman faşist,
Dörd ayağı yox onun, ya deyil insan faşist?
Ya ki, o insanda qəlb, üz suyu, qeyrətmi yox?
Tanrım, adamda məgər rəhm, ədalətmi yox?

Mən, mədəni bir bina, abidə yandırmadım,
Qız, qadın öldürmədim, körpə, qoca qırmadım.
Bircə ədib, alimin yazdığını cırmadım.
Bunları Hitler edir, bilməyə hacətmi yox?
Tanrım, adamda məgər rəhm, ədalətmi yox?

Qoydu nişanə oxa gəncləri hitlerçilər,
Dinc, əliboş xalqları eylədilər dərbədər.
Yırtıcı heyvan deyil rəhmsiz onlar qədər,
Hər şeyi təfriq üçün rəhm, fərasətmi yox?
Tanrım, adamda məgər rəhm, ədalətmi yox?

Marnupolu qoydu kim öylə xaraba tamam?
Etdi əhalisinin kirt yarısın qətli-am?
Çox edəcəksənmi, de, səbr eləməkdə davam?
Zalimi məhv etməyə səndə kəramətmi yox?
Varlığını göstərə bilməyə cürətmi yox?

Mən belə haqsızlığa etməliyəm etiraz,
Bəndə sənindir, onu danla, öyüd ver bir az.
Qoy mənə oxşatmasın Hitleri, bir hökm yaz!
İzzəti-nəfsə məgər zərrəcə hörmətmi yox?
Tanrım, adamda məgər rəhm, ədalətmi yox?

*Əli Nazmi*
*"Ədəbiyyat qəzeti", 1942, 21 aprel*



## MİNACAT

Eşit, varsan əgər pərvərdigara!
Danış, yoxsan məgər pərvərdigara!

Deyirlərdi ki, var səndə ədalət,
Qəzəb, rəhmət, bəla, möcüz, kəramət,
Yox indi lütf, qəhrindən əlamət,
Yalan çıxdı xəbər, pərvərdigara!
Eşit, varsan əgər, pərvərdigara!

İşarənlə olurmuş məhv zalim,
Bunu min il dedi nitqində "alim",
Səni danmaq deyil haşa xəyalım,
Tutub dünyanı şər, pərvərdigara!

Qapansın ağzım, olsun pis dilim lal,
Yox indi səndəki əski kərəm, hal.
Dolub zülm ilə yer, göy, bir nəzər sal,
Gedir əldən bəşər, pərvərdigara!
Eşit, varsan əgər, pərvərdigara!

Edir allahlıq indi yerdə Hitler,
Onu qaldır göyə, döy, söy, cəza ver,
Belə bir nanəcibi istəmir yer,
Yetər artıq, yetər, pərvərdigara!
Eşit, varsan əgər, pərvərdigara!

Onu qəsdən yaratmışsan özünmü?
Ya səhv etdinmi, görmürmüş gözünmü?
Cavab ver!.. Yox bizə yaxud sözünmü?
Xəta başdan törər, pərvərdigara!
Eşit, varsan əgər, pərvərdigara!

Deyil insan, o bir insan yeyəndir,
Libası, eybin örtməkçin geyəndir,
"Gərək hökm etsin ancaq kin" deyəndir,

Yer olmuş qanla tər, pərvərdigara!
Eşit, varsan əgər, pərvərdigara!

Uşaq, arvad, qoca, xəstə, cavan yox,
Qılınc, oddan xilasa yol tapan yox,
Əsir olsun, şikəst olsun, aman yox,
Əhali dərbədər, pərvərdigara!
Eşit, varsan əgər, pərvərdigara!

Bütün elmi və tarixi əsərlər,
Kitab, məktəb, muzey, kəndlər, şəhərlər,
İbadət evləri, mehrabü mənbər,
Yanır üzdə kədər, pərvərdigara!
Eşit, varsan əgər, pərvərdigara!

Sən Allahsan, yatıbsansa, oyan bir,
Yorul səbr etmədən artıq, usan bir,
Bu pis məxluqunu rədd et, utan bir,
Yetər bunca xətər, pərvərdigara!
Eşit, varsan əgər, pərvərdigara!

De, Əzrayil o sinəyə tüpürsün,
Bu mikrobdan yeri silsin, süpürsün,
Buraxma, çox şişib, artıq köpürsün.
Vurur xalqa zərər, pərvərdigara!
Eşit, varsan əgər, pərvərdigara!

Edər ordum onu sənsiz də bərbad,
Qazanmazsan fəqət sən, onda bir ad,
Əlimdə, bax, yarımcandır bu cəllad,
Dəbər bir müxtəsər, pərvərdigara!
Eşit, varsan əgər, pərvərdigara!

*Əli Nəzmi*
*"Ədəbiyyat qəzeti", 1942, 10 may*



# VƏTƏNİM

Azərbaycan doğma, müqəddəs vətənimdir,
İstəkli anam, bəsləyənim, süd verənimdir.

Bir irs olaraq qaldı bu torpaq babamızdan,
Lakin ona şən Oktyabr verdi hüquq, şan.
Al bayrağın altında işıqlandı bu dövran,
Nemətli bu torpaq da, bu bayraq da mənimdir,
Azərbaycan doğma, müqəddəs vətənimdir.

Azadlıq, ədalət sevən ürfanlı bu torpaq,
Tarix, ədəbiyyatı böyük, şanlı bu torpaq,
Qorxmazlar, igidlər yetirən canlı bu torpaq
Ömrüm boyu ev-yurdum, öləndə kəfənimdir,
Azərbaycan doğma, müqəddəs vətənimdir.

Rahət yaşayır xalq onun isti qucağında,
Bir odlu məhəbbət duyulur hər bucağında,
Sönməz alovu, atəşi vardır ocağında,
Qələ, qılıncı, qalxanı köksüm, bədənimdir,
Azərbaycan doğma, müqəddəs vətənimdir.

Mədənləri, ovlaqları, yaylaqları xoşdur,
Pambıqlı, taxıllı çölü, göy dağları xoşdur,
Ormanları şən, bağçaları, bağları xoşdur,
Boz torpağı sürməm, dikəni yasəmənimdir,
Azərbaycan doğma, müqəddəs vətənimdir.

Sən çox yaşa, ey nazlı vətən, çox yaşa, yüksəl!
Parla, gələcək Şərq üçün ol ayinə, məşəl.
Qoymam sənə doğru uzana hər qaba, nəhs əl,
Hər xırda daşın bir baha dürri-Ədənimdir.
Azərbaycan doğma, müqəddəs vətənimdir.[1]

*Əli Nəzmi*
*"Ədəbiyyat qəzeti", 1944, 30 may*

---

[1] Qəzetdə şeir belə bitir:
Məbəd, mağarım, dəfn yerim, əncümənimdir,
Qoymaz toxuna köksünə çirkin, qara, yad əl,
Nəzmi vətənin dostudur, əğyarə qənimdir.

## GÜLÜR ALƏM BU GÜN

Min fərəhlə, min sevinc ilə gülür aləm bu gün,
Bir alın, bir üzdə yox asari-möhnət, qəm bu gün!

Bəxtiyarlıqla səadətlər içində el, vətən,
Nurə, ətrə, hüsnə, ruhə, zövqə qərq olmuş çəmən.
İncə, şaqraq səslə bülbül də ötür gülşəndə şən,
Çevrilibdir toylara, bayramlara aləm bu gün,
Min fərəhlə, min sevinc ilə gülür aləm bu gün.

Bir gülüstandır sanırsan doğma el, Azərbaycan,
Gül dodaq, qönçə ağızlarda təbəssüm hər zaman.
Nəşəli, şad, mehriban istər qoca, istər cavan,
Bir alın, bir üzdə yox asari-möhnət, qəm bu gün,
Min fərəhlə, min sevinc ilə gülür aləm bu gün.

Qarşımızda taleyin dilbər qızı açmış camal,
Yırtıcı düşmən edilmiş qüvvəmizlə payimal.
Qalibiyyətlə sona çatmış vuruş, qovğa, qital,
Diz çöküb cəllad, qüdrətli xalq önündə tam bu gün,
Min fərəhlə, min sevinc ilə gülür aləm bu gün!

Böylə parlaq bir zəfərdən verməyir əsla xəbər
Hadisat ilə dolu ömründə tarixi-bəşər.
*Partiya dövrü yaratdı tək belə bir şah əsər,*
Partiya dühasilə yüksəldir bizi hərdəm bu gün,
Min fərəhlə, min sevinc ilə gülür aləm bu gün!

Qalibiyyət bayramı evdən çıxarmış hər kəsi,
Yüksəlir meydan, küçə, bağda zəfər, şan nəğməsi.
Titrədir aydın havanı vətənə alqış səsi,
Qalib əllərdə gəzir hər yerdə cami-Cəm bu gün,
Min fərəhlə, min sevinc ilə gülür aləm bu gün!

*Əli Nəzmi*
*"Ədəbiyyat qəzeti", 1945, 10 may*



# Felyetonlar və məqalələr

## ZƏRAFƏTDƏN BƏHRƏ

Bu avqust ayının 12-ci günündə Gəncə uyezdinin Kuran adı ilə adlanan kəndində iki nəfər oğlan bir-birilə zərafət elədikləri halda birinin əlində tapança olar, bərabərlərində olan bir alma ağacına atmaq istəmiş, o biri yoldaşı: atıb ağacı xərabzədə eyləmə dediyi halda həmin əlində tapança olan tapançanı patrondan xali olmağını güman edib zərafətyanə öz yoldaşının yürəyinin başından atmış və təhlükəli surətdə yaralamış, yaralanan oğlan bir gün qalıb ölmüş, ata-anasının bir tək nuri-didəsi olmağını söyləyirlər.

*Əli Məhəmmədov (S.)*
*"Şərqi-rus", 1904, № 137, səh. 3*

## CÜRBƏCÜR ƏHVAL

Gəncə yaylağının Xaçbulax adlanan daçəsində Kiçəkli adlı bir qəryədə bir övrət hamiləlik müddətini tamam edəndən sonra bir qız uşağı doğub ki, həmin uşaq əcayibi-məxluqatdan imiş. Məzbur uşağın qurşaqdan (kəmərdən) yuxarısı, yəni əlləri, döşü (sinəsi), başı, burun-qulağı və ağzı hamısı tüklü donquz surətində və qurşaqdan aşağısı insan sifətində imiş. Ayaqları və bağları və digər yeri insan şəklində imiş. Həmin əcayibin valideyni balasını bu halda görəndə xəlq içində xəcalət və rüsvay olduq deyə böyük təziyə qurmuşlar.

*Əli Məhəmmədov (S.)*
*"Şərqi-rus", 1904, № 137, səh. 4*

## ÖZ MÜXBİRİMİZDƏN

*Gəncə uyezdindən*

Bu avqust ayının 26-cı gecəsi havanın yüzü açıq olub və göydə yıldızlar parlarkən şimal-şərq tərəfdən gözəl nəsim əsməkdə idi ki, cəmi ruhlara səfa bağışlardı. Kəndimizdə ogünkü günün hərarətindən, istisindən bulaşan gözlər və patlıyan ürəklər – dünyadə ən sərin və ləzzətli olan rahətbəxş yuxunun arzusunda idi ki, bir belə sərin və xoş havada uyquya gedib rahət olsunlar. Gecədən bir neçə saət keçmiş hamu gözlər uyquya varıb və heç kəsin dünyadan xəbəri olmayan halda... bizim müsəlman qardaşlarımızın igid tərrarları və oğruları bu cür gözəl gecəni yatmaq və böylə əsməkdə olan nəsimdən fərəh və qəşəng ağaclarımızın yarpaqlarının xışıltısından ləzzət aparmaq istəmirlər!!! Yerlərindən qalxıb gözlərini ovalıyıb onun-bunun üstə hücum edirlər. Kəndimizdə bir fəqir İsmayıl var. Məzkur İsmayılın dolanacağı nə növdür və nə fəqrü faqəliq ilə rüzgar keçirdir xudayə əyandır – beş il müqəddəm biçarə İsmayılın tək vahid bir inəyi vardı. Bu biçarə bu inəyə nə növ mütəvəccöh olub üstündə əsə-əsə və arxasında şələ ilə ot daşıyaraq ab, ələf yedirdib saxlayıb ta bir müddətdən sonra bu inək bir bala doğub İsmayıl kişinin uşaqlarına süd və qatıq verən dəmdə bunlar üçün bir yekə bayram oldu, o müddətdən imdiyə kimi biçarə İsmayılın bu inəkdən və bu inəyin balasından doğub artıb altı-yeddi baş heyvan əmələ gəlmişdi. Həmin igid oğrular biçarə İsmayılın gözlərini xabi-ğəflətdə görüb başlarının üstündə cəmi sirləri bilən və cəmi feilləri görən Allah-təalanı kor olmuş gözləri görməyib, biçarə İsmayıla rəhm eləməyib həman 6-7 baş heyvanın hamısını ev həyətindən dışarı çıxarıb apararlar, lakin kənddən çıxan vaxt həmin əvvəlki inək ki, İsmayılın balalarına süd verirdi, kəndin kənarında qalıb mabeqisini yığışdırıb apararlar! Çün haman gözəl gecə gedər, səbah olar, biçarə İsmayılın balaca oğlu durar ki, mallarını sağdırıb otarmağa aparsın. Malları – heyvanları həyətdə görməz, heyran bu yana, o yana qaçar, nə qədər cöstcu edər və sorar isə də bir xəbər bulamaz. Qayıdıb öylərinə dədəsinin yanına gələr, çağırar, səslənər: "Dədə, ay dədə, belə vallah mallarımızı, heyvanlarımızı aparıb öyümüzü yıxdılar, nə qədər gəzdim heyvanlarımızı tapammadım". "Yox, a bala, iraq candan ki, malımızı aparalar, inşaallah aparmazlar. Əlbət heyvanlar özləri çıxıb gediblər. Yoxsa biz bir fəqir adam, bizim malımızı kim aparar?" "Yox, ay dədə,



elə bilmə sən indi bu zəmanədə zalimə heç kim dəymir. Qorxar, amma bizim kimi fəqirlərin malını aparıb yeməyə nə var. Bizim çığırmağımız və bağırmağımıza kim baxar, kim rəhm edər, kim qorxar? Mənim ürəyimə damıb, yəqin bilirəm ki, mallarımızı oğrular apardılar. Əlavə birdən yüzbaşıya şikayət eləsək, əvvəlcə bizdən pul istəyəcək". Atası dedi: "A bala, ay oğul, bir az səbir elə, ağlama, görək Allah nə istəyib". Biçarə İsmayıl ayağə durub çomağını götürüb acqarına oğlu ilə özü, oğlu kəndin bir tərəfindən düşüb və özü bir tərəfindən, ta gün ortayə qədər gəzib aləmi axtarıb bir şey tapmadılar, məyus evlərinə qayıdıb gələr, görər ki, əvvəlki qoca inək qapıdadır. Pərvanə kimi inəyin başına fırlanarlar ki, ay Allah sənə bərəkət versin, bəs balaların hanı, harada qoydun, necə oldular? Mən sübhdən sizi gəzirəm. – Biçarə heyvan nə bilir ki, nə desin? Biçarə İsmayıl ayağə durub gəlir kəndin bir neçə mütəşəxxis qolçomaq adamlarının hüzurinə, söylər: "Mənim bu gecə mallarımın hamısını yığıb aparıblar, axı mən fəqir, kasıb adamam. Allah rizasüyçün mənim malımı axtarıb tapdırın. Gəzməkdən ötrü nə qədər xərci də olsa, bir adamdan borc alıb verərəm, ta malım gələndə birini satıb pul sahibinə verərəm". "Nə mal gəzməkbazlıqdır, maldı getdi, getdi bir də qayıdarmı?" – deyə bir mütəşəxxis cavab verdi. Üzün dutar o birinə: "Sən nə deyirsən, mənim mallarım getdi, uşaqlarımın boğazı qurudu, itən malın birisin mana ver, gedim tapıb gətirim". Digər qolçomaq dedi: "Ağsaqqal sən nə deyirsən, mənim malımı tapdırın ki, sabah, ya o biri gün məndən padşah xərci istəyəcəksiniz, o vəqt mən haradan bulub verməliyəm? Barı, malım olsa, birin satıb xərcimə, habelə borcuma verərəm". Ağsaqqal dedi: "Sağ ol, sənin malın olmamaqla səndən kim əl çəkər, səni döyə-döyə alacaqlar. Heyvanını yaxşı saxlayardın aparmayaydılar... Fəqirəm, fəqirəm... Nə fəqirbazlıqdır, fəqir malını bərk yerdə saxlar". Biçarə İsmayılın bu növ sözlərlə dərdi və xiyalatı artdı və malının həm sorağına gedən müstəğriq fikr-xiyal və mat sərgərdan qaldı. Bəs xudaya, biz müsəlmanlar da nə vəqt qeyri millətlər kimi təsibkeş və ədalətli olacağız ki, təəssüb nisfi-imandır, nə vəqt bir-birimizə səbəb olub fəqirlərimizə kömək verib və zalimlərə nəsihət və cəza edib zülm eyləməkdən qaytaracağız? Haçan bu pis əməllər bizim ortamızdan götürüləcəkdir. Nə vəqt bu qarə bəxtlərimiz ağaracaqdır?

*Əli Məhəmmədov (S.)*

*"Şərqi-rus", 1904, № 153, səh. 3-4*

## GƏNCƏ UYEZDİNDƏN

Avqust ayının 30-cu gecəsi, saat on birə iyirmi dəqiqə işləmişdi. Öz xanəmizdə oturub gözəl və göyçək olan "Şərqi-rus" cərideyi-fəridəsinin ogünkü gündə gələn nüsxəsini qabağə qoyub artıq dərəcədə kəmali-məsərrət ilə göz önündən keçirməyə məşğul idim və hər bir kəlməsindən bir rahatlıq və bir əmniyyət bəndəyə hasil olur idi. Nagah bu halda bir kərə qulağıma dəhşətli və vəhşətli beş-altı tüfəng sədası gəldi. Sərasimə olub filhal dışarıya çıxıb qulaq asmağa başladım bir dəfə də genə əvvəlkindən ziyadə tüfənglər atılıb və qışqırıx-haray sədası kəndimizi səslə doldurub (Allah sən saxla) deyə vəqə məhəllinə yügürüb gördüm: cəmi kişi cəm olub danışmaqdadırlar ki, ağız deyəni qulaq eşitməyir. Bir nəfərdən sual elədim ki, nə hadisə yüz verib? Cəvab verdi ki, həmin saət Əli Məşhədi Fətəli oğlunun üç rəs madyan atlarını üç nəfər oğru adamlar gəlib və atları minib darvazadan çıxan halda məzkur Əli Məşədi Fətəli oğlu xəbərdar olub əli silahsız, atların dalınca yüyürüb oğrulardan geri almaqdan ötrü haray edib, çığırır, bağırır isə də fəqət oğrular dayanmayaraq atları tünd sürüb qaçışmışlar. Ona görə xəlq cəm olub tüfəng atırdılar ki, çox adam gəlsin ta ki, oğrulanan atların dalınca getsinlər bəlkə tez ələ gətirələr...

Xudaya, nə vəqtə qədər insanlar vəhşi canavar və qurd kibi olub və qabiliyyəti-elm və mərifətdən və qanacaqdan uzaq və həmişə fikirləri qan tökməyə və oğurluğa və rahzənliyə və mömin qardaşlarımızı incitməyə həris olub, bu qəbih əməllərindən, bu namərbut işlərindən əl çəkib Allah-təalanın müqəddər buyurduğu ruziyə qənaət edib və həlal kəsb edib elmi-mərifət ilə, düzlük ilə və doğruluq ilə yaşayacaqlar. Qulaqlarımız gündə, saətdə min dəfə müsəlman qardaşlarımızın böylə qəbih işlərini eşitməkdədir. Və qonşu olan qeyri millətlərin min cürə tərəqqisini eşidib və gözlərimiz görməkdədir.

* * *

Sentyabr ayının 2-ci gecəsi Dəliməhəmmədli vağzalında ot bağlayan maşınlar var ki, ot bağlayıb Bakıya və Batuma göndərirlər. Həmin maşınlarda işləyən İran təbəəsindən İbrahim adında bir adam həmin gecə öz işlədiyi maşının yanında yatıb uyquya gedib, gecədən bir neçə saət keçmiş iki nəfər adam əllərində berdanka tüfəng, öldürmək qəsdilə məzkurun başı üstə gəlirlər. Və tüfəngləri rast bunun başından gözətlərlər atarlar. Lakin hər nə cürsə məzkurun başından dəyməz. Sol qolunu güllələr tamamilə qırar, qatillər bunun ölməyini yəqin edib qaçallar. Sora orada olan adamlardan bunun harayına yetib və qeyri mənzilə nəql edərlər.

* * *

Bu sentyabr ayının 6-cı günü Gəncə uyezdində olan qaçaq dəli Əli öz dəstəsi ilə Ağasıbəyli adlı kənddən bir neçə at qovub Qur çayı adlanan bir çay var oraya sarı apararlar və Qurçay deyilən çay bir bərk və qamışlıq olan yerdir. Haman çayda düşüb dincəlib və bir qoyun kəsib ət yeməyə başlarlar. Bu tərəfdən at sahibləri həmin qəryədə olan on iki nəfər istrajnik ilə bərabər atların rəddini (izini) götürüb dopdoğru Qur çaya sürüb gəlib qəflətən dəli Əlinin üstünə çıxırlar. Dəli Əli və adamları əhvalı bu növ görəndə əl-ayağə düşüb hər kəs tüfənglərini götürüb və gələn istrajniklərin üzərinə çığırıb tüfəng atmağa başlarlar. İstrajniklər də bunları gülləyə basıb şiddətli güllələşmişlər, bu əsnadə Qaramusalı və Hazırəhmədli və Suçu kəndlərində postda olan istrajniklərə xəbər yetirmişlər. Bunlar da iyirmi beş istrajnik imişlər, bunlar da orada olan istrajniklərin imdadına çatmışlar. Dəli Əlilər də həm özlərinə bir münasib mövqe işğal edib yarım saət peydərpey atışmışlar. Dəli Əlilər işin axırında qorxub ki, dübarə qoşun gəlib bunları dəxi də əhatə edib öldürərlər. Öz mövqelərindən çıxıb qaçmaq istəmişlər, bu halda istrajniklər onları gülləyə basanda onlardan üç nəfəri atdan əl çəkib piyadə qaçmışlar. Və bunlardan bir istrajnik ölmüş. Və bir at yaralanmış. Aralıq bir az sakit olanda qaçaqlar hamısı səkkiz nəfər qəmişlik ilə başıaşağı səlamət getmişlər. Qaçaqlardan qalan üç atdır və bir neçə yapunçu və xurcun, bu cür şeylər.

*Əli Məhəmmədov (S.)*
*"Şərqi-rus", 1904, № 164, səh. 3*

## ELMMİ, HİYLƏKARLIQMI?

Hörmətli mühərrir əfəndi, zeyldə yazılan bəndi möhtərəm cəridənizə səbt etməyinizi rica ediyorəm. Həmin gün bir yerdə bir nəfər şəxsi – bir alim və fazil qırmızısaqqal, mömin müttədin molla ilə mükalimədə gördüm, bunların mükalimısini faidədən ədə etdiyim üçün – Ayineyi-geytinüma "Şərqi-rus" vasitəsilə kəşf etməyi lazım bildim. Gördüm həmin şəxs cənab mollaylə söhbət edir bu günə.

Şəxs. A molla dayı, qurbanın olum, sənə bir işim düşübdür, əl mənim, ətək sənin, mənim bircə gümüş kəmərim (toqqa) var idi, neçə gündür ki, oğurlanıbdır, Allah rizası üçün ona bir əlac.

Molla. A bala, sən məni hələ yaxşı tanımayıbsan! Cəmi cinlər mənim əlimdədir, bu saət əmr edərəm, lap yerini göstərərlər.

Şəxs. Molla dayı, balana qurban olum, bir elə iş elə ki, mənim malım tapılsın və oğru da rüsva olsun, ax... x... x...

Molla. Bəs elədə, bala, bir çuval buğda bu saət arabayə qoy və kirayəsini də ver göndər bizim evə; onda gör nə görərsən.

Şəxs. A molla dayı, bacım oğlunun da bir saəti oğurlanıb, onu da gətirdimmi?

Molla. Niyə durursan, göndər bu saət çağırsın.

Şəxs. A gədə, (*nökərinə*) Cəfər, get Qasımı buraya çağır, tez, tez, tez!!!

Cəfər gedib Qasımı da gətirdi.

Qasım. A məni niyə çağırıbsan?

Şəxs. A gədə, bu molla dayımı görürsənmi, deyir ki, şeylərinizi tapacağam!!!

Qasım. A molla əmi, təsəddüqün ollam, eylədirmi?!

Molla. A yazıqlar, siz dünyadə nə görübsünüz ki, nə biləsiniz, bax gör indi molla əmin nə edəcək.

Qasım. A molla ağa, başına dönüm, de tez ol.

Molla. A bala, sən də bircə çuval buğda qabaqca arabayə qoy göndər bizim evə, ta ki, mən arxayın öz işimdə olum.

Şəxs. A Qasım, molla dayı doğru deyir, mən də vermişəm.

Qasım. Çox yaxşı, a Cəfər, a bala, get bizdən də bir çuval hazır elə sizinki ilə bərabər göndər.



Cəfər (*gedib bir azdan sonra gəlib*). Ağa, ikisini də arabaya qoyub göndərdim.

Şəxs. Çox yaxşı, a molla dayı, xatircəm oldunuzmu, di tez ol!

Molla. Həman saət bir cam su qoyub və yanında bir balaca uşaq oturdub başladı dodağının altında pıçıldamağa.

Molla (*uşağa*). Gəldimi?

Uşaq. Gəldi, gəldi, o dur a! Odur a, bir yaşılpaltar adamdır.

Molla. Əlində nə var?

Uşaq. Bir ağ uzun şeydir!

Molla. Kimlərdir...

Uşaq. A molla ağa, qaçdı, qaçdı.

Molla (*oxuyur*). Gəldimi?

Uşaq. Gəldi, gəldi, vay bir ağ paltar adamdır, əlində bir yumuru şey var.

Molla. Saətdir, saət, yəqinən!

Uşaq. A molla ağa, genə qaçdı...

Molla. Zərər yoxdur, bildim.

Molla. Mən gedirəm, qonşularınıza deyin ki, onlara bir həftə möhlət verirəm, bir həftədən sonra gələcəyəm və bir qız var ki, həmişə cinlər ilə gəzir, onu da gətirəcəyəm. On beş manat da onun həqqülqədəmidir, onu da onlardan alacağam. O şeylər də ki, haraya basdırıblar tapıb çıxardacağam, onlar biabru və rüsvay olacaqlar ha, məndən deməkdir, hər kəsin vəbalı öz gərdəninədir. (*Molla durub getdi. Dışarı çıxanda ahəstə*) "Əhməqlər! Mənə buğda lazımdır, aldım... sizə şey tapacağam? Əgər tapsam, tapa bilsəm öz dədə-babam itirdiyi şeyləri taparam!"

Pərvərdigara, nə vəqt əql sahibi olacağız, nə vəqt qəflət yuxusundan oyanıb bu sahibi-əba və qəba qüttaültəriqlərin hiylə və məkrindən xilas olacağız? Bir belə kəməql bifikr, əhməq olmağımıza səbəb nədir, əcəba?!

Etiqadıma görə səbəb bunlardır: cəhl, nadanlıq, elmdən qaçmaq, qəzetə oxumamaq – dünyanı və dünyadə olanların əhvalını və fərasətini bilməmək. Böylə yolkəsən mollaları övliyayi-Allah sözləri kimi vəhyimünzəl dərəcədə bilmək.

*Əli Məhəmmədov (S.)*
*"Şərqi-rus", 1904, № 167, səh. 3*

## ÖZ MÜXBİRİMİZDƏN

Xadimi-millət, mühərrir əfəndi!

Hər dərdimiz və əskik günlərimiz olanda şikayətimizi cənabınızın xaki-payinə ərz ediyoruz. Kəndimizdə on il bundan müqəddəm yaxşı alimlərimiz və yaxşı-yaxşı kişilərimiz var idilər ki, bu şəxslərin himməti ilə həmişə bir müəllim kəndimizdə saxlanıb və lazımi dərəcədə həmin müəllimə məvacib verib və otuz-qırx nəfər şagird öz kəndimizdə olan şəxslərin balalarından müəllimin ziri-dəstinə verilir idi və müəllim balalara az-az köhnə üsul ilə Qurani-şərifdən, bəzən də "Gülüstan", "Tarixi-Nadir"dən dərs oxudub xırda-xırda qandırıb öyrədir idi. Bir neçə il bu minval ilə gedib və bir neçəsi bu balalardan yazı yazmağı və fars lisanında məktub oxuyub yazmağı ki, bu da bizim üçün zəmanəmizə və kəndli olmağımıza görə kifayət edirdi. Elə ki, bir neçə il bundan keçdi. Haman yaxşı alimlərimiz və yaxşı kişilərimiz getdilər. Həmin ufaq mədrəsəmiz günbəgün rövnəqdən düşdü və bir azdan sonra dəxi qapandı. Müəllim öz yerinə övdət etdi, biçarə balalar genə irəliki halları kimi küçələrdə avarə və sərgərdan qaldılar və nə ki, müəllimdən öyrənmişdilər – cümləsini yaddan çıxartdılar.

O müddətdən indiyə kimi yerdə qalan alimlərimizdə, kişilərimizdə, dövlətlilərimizdə himmət və qeyrət olmadı ki, həmin ufacıq mədrəsəyi qapanmağa qoymayalar və balaları çöllərə dağıtmayalar, barı genə həmin minval ilə işi aparalar və əlavə günü-gündən tərəqqi verələr və tazə üsul ilə balalara dərs oxutduralar və yaxşı müəllim gətirələr ki, çocuqlarımızı təlim edib öyrətsin ta ki, bunlar da özlərimiz kibi nadan, cahil və kor olmasınlar ki, elm həm dünya və həm axirət üçündür. İndi hal-hazırda kəndimizdə 70-100-dək balalar var ki, küçələrdə veyil-veyil gəzməkdən, oynamaqdan qeyri bir işləri yoxdur. Bu veyil-veyil gəzmək və elmsiz böyümənin nəticəsi axırda bu çocuqlar üçün nə olacaq? Adam öldürmək, oğurluq eləmək, ev dağıdıb yandırmaq və buğda-arpa dərzləri oğurlamaq olacaq. Çünki gözlərini açıb bunları görür, nəinki elm. Bəs həqiqətdə bu vəqtə kimi nadan, cahil kor-koranə ömrümüzü elmsiz, mərifətsiz keçirtmişik, lazımdır indisə də – xüsusən ki, iki il olaraq möhtərəm "Şərqi-rus" cərideyi-mübarəkimizin sütunlarında yaddan çıxartmayaraq hər nüsxəsində bizi elmə, tədrisə təhris və təşviq buyururlar – biz də gərək gözümüzü açıb dörd tərəfimizə baxıb ibrət götürək, bu biçarə balaları özlərimiz kimi pis günlərə qoymayaq. Heyhat, bizlər ibrət götürəsi adammıyız? Əgər kəndlərimizdə birinə desən ki, ağa filankəs, gəlin himmət edək bir müəllim gətirək çocuqlarımıza dərs verib elm öyrətsin ki, dünya və axirətdə lazımdır. "A kişi, Allahı sevirsən qoy oturax, nə müəllim, nə molla, nə dərs, hər kəs öz başını, cibini qoruya bilmir! Gedib bir molla da gətirdik və uşaqları da verdik ona ki, oxutsun, bəs malı, atı kim otarsın və molla da kim bilsin üç, ya dörd ilə onu oxudub yazı öyrədəcəkmi, ya yox, bəlkə o vəqtə kimi özüm də öldüm, ondan mənə nə şey hasil oldu və nə səmərə yetişəcəkdir. Oxumasa acından ölməz ki, əgər ölsəydik bizlər ki, heç əlif bey deməmişik, biz ölərdik", – deyir.

Xülasə, əcinnə tayifəsi ayati-Qurandan qaçan kimi bizim kəndli müsəlman qardaşlarımız elmdən o növ qaçırlar. Bəs nə vəqtə kimi nadanlıqda, cəhalətdə davam edəcəyik, Allah bilir.

Oktyabr ayının 3-cü günü Fəxrəli adlı bir qəryədə bir neçə cavan şəxs ki, sinni iyirmidir və özü də mütəəhhildir, həmin gün qonşusu olan bir adamın evinin qabağından (önündən) keçərkən məzkur ev sahibi əcələ, həmin saət tüfəngini götürüb qafildən səssiz-səmirsiz həmin oğlanı gülləliyib öldürür! Bu halda neçə nəfər adam tüfəng açılan məhəllə yügürüb həmin şəxsin nəşini görürlər ki, üzüquylu düşüb. Bunların əqli şaşmış, bunu kim öldürdü deyə soruşarlar! Cavablarında həmin evin sahibi atıb öldürdü deyəllər. Səbəbini sorarlar ki, nə bais oldu? Ev sahibinin hərəm namöhtərəmilə cəvan məqtulin münasibəti-qeyri-məşruəsi kəşf olunubdur.

*Əli Məhəmmədov (S.)*
*"Şərqi-rus", 1904, № 188, səh. 3*

## GƏNCƏDƏN YAZIRLAR

İran təbəəsindən Məşədi Dadaş və Hüseyn namında iki kişi Gəncə uyezdinin Fəxrəli adlı qəryəsində neçə ildir ki, ticarətlə məşğul idilər, bir ay bundan müqəddəm bu iki şəxs şərik olub və şərakətlə mayə qoyub güclü alış-veriş başladılar. Yaxşı kar və nəf edirdilər. Keçən noyabr ayının 25-ci günündə bunlar hesablaşıb ayrılmaq istərlər. Lakin nə cür olur isə bunlar hesab üstə bir-birilə vuruşarlar. Hüseyn xəncəri çəkib yoldaşı Məşədi Dadaşın budundan soxar.

Məşədi Dadaş o dəqiqə də vəfat edər. Bu əsnada Məşədi Dadaşın qardaşı İsmayıl gəlib qardaşını bu növ ölmüş görəndə əcələ xəncərini çəkib qardaşının qatilinə hücum edib başından və qolundan təhlükəli surətdə yaralar. İsmayıl Hüseyni öldürmək istəyirsə də, orada olan adamlar mümaniət edərlər. Bunun da yarası çox olmağa görə sağalmağına ümid yoxdur.

Genə həmin zikr olunan qəryədə bu dekabr ayının üçüncü gecəsində kəndi mühafizə edən 4 nəfər qaravulun üstünə xapaxapdan dörd nəfər silahlı səvarı oğrular tökülür. Qaravulların başlarının üstünü kəsib onları tərpənməməyə məcbur edirlər. Bədəhu bunları qabaqlarına qatıb kənddən kənarə çıxarıb orada biçarələrin hər nələri var isə hamısını alıb getmişlər.

*Əli Məhəmmədov (S.)*
*"Şərqi-rus", 1904, № 245, səh. 2*

İdarədən: təmam cəhalət, qəflət və səfalət bəlası...

## ELAN

Gəncədə iyirmi nəfərdən ziyadə dua yazan var. Hər bir cür dua yazırlar. Məhəbbət, şirinlik, zobanbənd, həmzad, əcinnə, kəllədimnə, hətta tasa da baxırlar və fal da açırlar. Xahiş edənlər buyursunlar.

*"Molla Nəsrəddin", 1906, № 4*

## GƏNCƏ

Neçə gündür ki, Bəşir Hacı Hüseyn oğlu 17 yaşında çıxıb çinar ağacına dolaşa düşürsün, quşu tutub cibinə qoyandan sonra ağacdan yıxılıb qılçası sınıb. Aparıblar evə. Atası gəlib deyib: oğul necəsən? Quş cibində ölmüyüb ki, sağdırmı? Deyib sağdır. Atası çox şükürlər edib ki, nə yaxşı quş ölmüyüb sağdır.

*Əz tərəfi Əlidəyənəkli*
*"Molla Nəsrəddin", 1906, № 11*



## GƏNCƏDƏ KİTABFÜRUŞDAN

Ay Molla Nəsrəddin, kişi bəs deyil bu qədər mərdüməzarlıq? Ay kişi, sən mənim bazarımı kəsad eyliyibsən. Üç aydır ki, məndə olan kitablar heç satılmır, qabaqda mağıl yaxşı satırdım, imdi bir neçə cild kitab var mənə cərimə olubdur. "Cameyi-dəvat" 50 cild, "Təbiri-xab" 30 cild, "Gülsüm nənə" 270 cild, "Qırx sual" 160 cild. Əgər bunların pulunu göndərdin xub, göndərməsən gedərəm Marağadan Molla Şükürün falaqqasını gətirrəm Tiflisdə sənin ayaqlarını falaqqayə qoyub o qədər döyərəm ki, ölərsən. Bəsdir bu qədər mərdüməzarlıq.

*Məşədi Kərbəlayı Hacı*
*Tamahkar kitabfüruş Təbrizi*
*"Molla Nəsrəddin", 1906, № 14*

## GƏNCƏ

A Molla Nəsrəddin! Belə ki, görürəm səndə çox işlər vardır. Sənin əlindən hər iş gəlir. Desən ki, yox, mən inanmayacağam. Mən bildiyimi bilirəm. Heç vaxt bildiyimi babama verməyəcəyəm. Sən kaşifimüşkülatsan. Özün də çıxıbsan meydana bu yolda çalışırsan, imdi bizim də bir müşkülümüz var, gəlsənə onu da həll edəsən; müşkülümüz budur:

"İrşad"ın 143-cü nömrəsində Hatif imzalı bir məqalə var idi. Gəncə məktəbi-ruhanisinin illik imtahanı barəsində söyləyirdi. Məqalənin məzmunu oxuyanlara məlumdur. Dübarə təkrar etməyəcəyəm. Hər nə isə, məqalə məktəbin müəllimlərinə xoş gəlməzdi. Ona cavabi-rədd yazmaq istədilər. Amma bacarmadılar... nə qayırsınlar, kişiləri qınamaq olmaz, adam bacarmayanda bacarmaz, güc ki, deyil. Hər kimə üz tutdularsa da kimsə cavab yazmağa razı olmadı. İndi müəllimlər qərar qoyublar ki, hər kəs o məqaləyə cavab yazsa, ona hər birisi bir abbası versin.

İndi gəlsənə əvvəl Allahın rizasını və ikinci millətin nəfini mülahizə edib o məqaləyə bir cavab yazasan. Canım nə üçün yazmayasan. Kişilər bir abbası pul verirlər və bundan əlavə yekə məktəbi-ruhaninin müəllimlərini müşküldə qoymaq olmaz. İndi özün yazmasan laməhalə orasını göstər görək ki, məqaləyə cavabı necə yazmaq olar. Qərəz, Allah xatiri üçün biçarələri müşküldən qurtar.

*Cüğallağı*
*"Molla Nəsrəddin", 1906, № 14*

## GƏNCƏ

A Molla Nəsrəddin! Allah səni bizə çox görməsin, düşmənin çoxdur isə dostun da tək-tək tapılır. İrandan dutmuş osmanlıya kimin müsəlman bəy, xanlarını, mollalarını rahat qoymayası olsanız da Qafqazın ana dilində olan hamı müşkülünü açırsan:

Sən allah, mən biçarənin də müşkülünü aç: lap mətəl qalmışam. Özüm də bilmirəm nə eliyim!

Ağdaşdan Ağa Hüseyn Nağıyev öz müştərilərinin birinə bir kağız yazıbdır. Alış-verişlərinə dairdir. Həmin kağızda bir belə şəkil çəkilibdir:

Biçarə tacir bu məktubu əl-əl gəzdirib heç bir kəs oxuya bilmiyibdir. Gəncədə də ki, savadlı molla tapmaq mümkün deyildir. Axırı gətirdi mana... mən də neçə gündür, zərrəbin və nə bilim nələr vasitəsilə nə qədər edirəm oxuya bilmirəm.

Tacir yazıq da qalıbdır beləcə mətəl. Nə eyləsin? Nə hesabını başa düşə bilir, nə kitabını, nə mayəsini qana bilir, nə də qazancını, yazıqdır. Gör buna rəhm eyliyib oxuya bilərsənmi?

*Qanacaqsız*
*"Molla Nəsrəddin", 1906, № 15*

İdarədən:
Məktubda çəkilən şəkli biz oxuduq və oxumaq çox asan imiş: yazılıb: "Müsəlman hürufatını icad eliyənə beş min rəhmət".

## SÖHBƏT

### CAVAN VƏ HACI AĞA

C a v a n. Hacı Ağa, məhəllə tələbələri üçün məscid hücrəsində qiraətxanə kimi bir şey qayırmaq istəyirik ki, qəzetdən-zaddan gətirib onları əhvali-zamandan xəbərdar edək, siz nə qədər mərhəmət edərsiz?

H a c ı a ğ a. Necə? Mən hələ çərən-pərənə pul-zad verməmənəm, rəhmətlik uşağı, qəzeti küçədə oxuyanlardan mənim zəhləm gedir, sən hələ gətirib məscidül-hərəmə soxmaq istəyirsən? Təzə məssəb çıxarmısız?..



C a v a n. Neynək bu dursun, yetim uşaqların məktəb xərcini verməyə qərar qoyublar, o cümlədən bizim məhəlləyə yeddi uşağın xərci düşübdür, onların birisinin xərcini siz verin hacı, səvabdır!..

H a c ı a ğ a. Mənciyəz qələt elərəm... səvab olan işi mən yaxşı bilirəm. Yetim oxumağı-zadı neyliyir? Əgər təmiz uşaqdı gəlsin mənim evimə. Qulluq eyləsin yemək-içmək verim, vəssalam... Get əqlini başına cəm eylə!..

*"Molla Nəsrəddin", 1906, № 19*

## ATA VƏ OĞUL

*Tərbiyəmizdən*

A t a. A gədə, ağıllı oyna, dinc dur.
O ğ u l. Ata, nə qayırıram ki?
A t a. A gədə, düz otur demirəmmi?
O ğ u l. Ayşi, nə var ki?
A t a. A qodux, vallah, durub qulaxlarını qopardaram.
O ğ u l. Qodux özünsən. Gəl qopart görüm, necə qopardırsan?
A t a. A heyvan oğlu heyvan, sənə demirəmmi dinc dur.
O ğ u l. Heyvanın səsi gəlir.

A t a. Xa, xa, xa, xa, xa, xa, hi, hi, hi, hi, adə bu bijnən mən nə qayırım dayna, bilmirəm nə gündə əmələ gəlib, bu çəharşənbə toxumu məni lap təngə gətirdi, heç öhdəsindən gələ bilmirəm. Elə evdə də belədi, bazarda da belə.

*"Molla Nəsrəddin", 1907, № 18*

## AY MOLLA NƏSRƏDDİN ƏMİ

A kişi, sən allah bir insaf elə, vallah, heç insaf eləmirsən, kişi, həyə mənim yazdıqlarıma inanmırsan, and içim səni inandırım ki, birin də yalan yazmıram, bu başım üçün, yalan yazmıram. Həyə başıma da inanmırsan, and olsun bizim kəndimizdə olan cindar Məşhədi Şaravanı xalanın tasına ki, tamamən sənə hər nə ki,

yazıram biri də yalan deyil! Kişi, yoxsa sən də duymusan ki, mən kəndliyəm, tərəkəməyəm, qanacaqsızam, heyvanam, elmsizəm, nə olar, belə olanda, bunların eybi yoxdur. Səni and verirəm mənim bir dılqır başıma – mənim bu kağızımı çap elə!!!

A kişi, mənim bu Gəncə şəhərində bir rəfiqim var adı da yadımdan çıxıb, amma onu bilirəm ki, müəllimdir. Özü də mənim ilə həmşəridir, özü də gedib rus uşqolasında dərs verir, bir həylə urusun, ermənının, gürcünün içində! O, onlar ilə əl-ələ verir və onlarnan hələ çay da içir, daha nə bilim hələ rusca da danışır, adını qoyub müəllim, heç bir zaddan ictinabı yox, bununla belə mən biçarə peşman oluram şəhərə gedirəm ya o bizim kəndə gəlir vay ola məni görə, yavaşca dutur əlimdən (xoş gördük) deyirəm: sağ ol deyib başlayır mənə ki, ay rəfiq sizin kəndiniz böyük kənddir və həmi də şəhərə yaxındır və həmi də kəndinizdə yaxşı kişilər də var və pullu adamlar da var və yüzə qədər məsum balalar da var ki, veyil-veyil küllüklərdə günlərini keçirdirlər. Haman pullularınız pullarını qumarə uduzub və cərimeyə və qaçaq qonaqlığına və həvayı nəfsə xərc edincə niyə bir məktəb açıb haman balaları məktəbdə oxutmursunuz ki, elmli ola və hansı dini-məzhəbə qulluq edir onu bilə və müsəlman ola. Sizin kimi olmaya ki, adınızdan qeyri və libasınızdan başqa heç bir əməliniz, rəftarınız müsəlmanə, islamiyyətə oxşamır! Və həmi də kəndinizə bir strajnik gələndə təmamən ağsaqqal, qarasaqqal – əməlli, əməlsiz ayağə durub ona səcdə eləməyəsiniz və o da sizi belə heyvan kimi görüb atının başını bir az gec dutanda qamçının qabağına salıb püküm-püküm eləmiyə?! Dedim rəfiq nə məktəb? Dedi mən dərs verdiyim uşqolanı görübsənmi? Dedim bəli. Dedi elə məktəb, dedim mən ölüm gəlib bizim o məktəbdə yalandan-palandan ay bu təzə üsuldur, bu da təzə musuldur deyib aydaca 40-50 manatı alıb sala bilərsənmi cibinə? Rəfiq biz nə ayda o 40-50 manatı vermirik, nə də məktəb istəmirik. Biz bundan sonra saqqalımızın bu vaxtında gedib yazı öyrənməyəcəyik ha, qaldı uşaqlar, eh biz öləndən sora canları çıxsın həlbət genə Allah qoyar İrandan bir yaxşı molla gəlib çıxar, oxudar, uşaq bir Quranı bildi, kifayətdir. Rəfiqim mənim bu sözlərimə gülüb dedi: dəsxoş Məşhədi. Rəfiqim genə başladı ki: "Hələ bir mana de görüm, sən allah, ay Məşhədi, niyə siz tərəkəmələr günün gün ortası kəndin içində mərəkəyə gələndə də, qonaqlığa gedəndə də, çəpər dibində yatanda da, məscidə gedəndə də hamınız mükəmməl müsəlləh tüfəng-patron çiyninizdə və qəmə piştov kəmərinizdə olur?



Buralarda ki, adam öldürmək yox, dana qovmaq yox, yol kəsmək yox, qız götürüb qaçmaq yox, erməni daşnaqsaqanı yox, bir fağırın taxılın otarmaq yox, bir yazığın suyunu kəsmək yox, bir çərçinin 10 manat pulunu əlindən almaq yox, tüfənginizi göstərməyə bir yad adam yox!!! Mən ölüm, lotu-lotuyanə məni bu işdən başa sal!". Rəfiq çox müşərrəf oldum, sən bu uştel uruslarnan çox durub-oturubsan, sənə dil yetirmək olmaz. Poyezdin vəqti keçir, məni boşla gedim, xudahafiz.

Doğrudan da çox uzun müşərrəf olduq, Molla əmi, bağışla!

*Kənd xəbərçiniz Məşədi Sijimqulu*
*"Molla Nəsrəddin", 1907, № 22*

## ÖLÜ TUTMAQ

Molla əmi! Biz müsəlmanlar nə qədər ki, diriliyimizdə mərdüməzar oluruq, iki o qədər də öləndən sonra mərdüməzar oluruq. Səndən də ayıb olmasın, mənim bir balaca oğlum var, sənin nökərin. Neçə gündür bərk naxoş idi. Nə qədər dava-dərman elədiksə, yaxşı olmadı. Axır bu neçə günlərdə atasına Allah rəhmət eləmiş mənim bibim gəldi bizə çıxdı. Oğlumu naxoş görüb, anamdan sual elədi ki, ay qız Mələknisə, bu uşağın azarı nədir?

Anam dedi: "Ay Xanbacı, vallah bilmirəm". Bibim dedi: "Ay qız, baxıram uşağın gözləri saralıb, kirpikləri quş-quş olub və başının tükləri biz-bizdir. Yəqin uşağın bir ayrı azarı yoxdur, ancaq uşağı ölü tutub! Ya rəhmətlik babası, ya nənəsi, ya da bizim rəhmətlik Bədircahan bacım tutubdur. Dur, bunu apar Qızxanım bacının yanına, bir iy falına baxdır. Hər kəs, ya hansı ölü tutmuş olsa, bilsin və desin görək ölü nə istəyibdir". Anam da gedib Qızxanım bacını gətirdi evimizə uşağın yanına. Qızxanım xala əlinə bir iy alıb və bir ələk qabağına qoydu və ələyin üstünə iki parça çörək və iki qırıx kömür qoydu və iyi bir nazik sap ilə tutdu ələyin üstə ortasında... və dodağının altında başladı mırıldamağa. On dəqiqədən sonra iyi yerə qoyub üzünü tutdu bibimə və dedi: "Ay qız, uşağı rəhmətlik Bədircahan bacın tutubdur. Və özü də yuxa ilə halva istiyibdir. Tez olun bir qazan halva bişirib paylayın yeddi evli qonşuya, yoxsa uşaq iki günə kimi qalmaz, ölər!"

Molla əmi, həman saət anam dirəndi üstümə 4 girvənkə yağ, 20 girvənkə un, 6 girvənkə şəkər, 2 misqal zəfəran məndəncə aldı və həman saət bişirib payladı yeddi evli qonşuya və qalanın da özləri

Orada da uşaqlara sataşardım, Molla Haşım da ayaqlarımı qoyardı falaqqaya döyərdi, yenə qaçıb gələrdim evə. Anam nə qədər hirslənərdi, mənə söyərdi ki, gedim məktəbə, getməzdim. Ona görə də anam məni çox döyərdi...

Genə bir gün gedib qonşumuz Kərbəlayı Süleymanın bacasından evinə düşüb və evdə olan alma, nar, heyva, yumurta, qənd və bəhməzlərini oğurluyub oradaca yedim və istədim genə çıxıb gedəm, gördüm qapı eşikdən bağlıdır və bacadan da nə qədər çalışdım çıxa bilmədim. Bu halda Kərbəlayı işi duyub gəldi və məni evdəcə tutub o ki varsan kötəklədi. Və sora da gəlib anama şikayət elədi, anam da mənə hirslənib istədi tutub genə döysün! Dəxi mən durmuyub qaçdım nənəmgilə, nənəmgilin qapısını qorxulu-qorxulu açıb hövlnak içəri girdim: gördüm nənəm və babam ikisi də oturublar və babamın su qabağından olan xor-xor qəlyanını doldurub çəkirlər. Nənəm məni belə görəndə dizinə vurmuş ayağa durdu məndən xəbər aldı ki, nə var, belə eliyirəm. Mən əhvalatı dedim, nənəm anamın dalınca bir az söyləndi, sora gördü ki, mən çox bərk qorxmuşam! O saət şəhadət barmağını ağzıma salıb damağımdan üç dəfə qalxızıb muşqurdu və ondan sora məni gətirib yerə uzandırdı və çarşovunu üstümə sərib bir girvənkə pambuğu löləliyib düzdü başımdan ayağıma kimi və plitkanı yandırıb dodağının altında söylənə-söylənə üstümdəki pambığı yandırıb qorxuluğumu götürdü!..

Babam da ayağa durub beli əlinə alıb yeri qazıb yerdən bir balaca dəmək kimi şey qayırdı və məni məcburən o balaca tülkü dəməyi kimi yerdən 3-4 dəfə o tərəfə-bu tərəfə keçirdib cəmi qada və bəladan xilas eylədi! Və dedi ki, dəxi bundan sonra əgər it oğurluğuna da getsən və əgər əjdahalar da üstünə hücum eyləsə, genə qorxmazsan...

Həqiqət, mənim də bu dərmanlardan sonra ürəyim yerinə gəldi! Babam genə xor-xor qəlyanı çəkə-çəkə başladı mənə bu cür nəsihət eləməyə ki, oğul, sən hələ uşaqsan, ancaq 16 sinnin olar: atalardan qalma məsəldir ki, oğurluğa gedəndə dayın evinə get, dutanda da döyməsin! Və bir də oğurluq eliyəndə elə elə ki, şeytan da bilməsin: sən baxma o zorba qaçaqlara, oğrulara ki, xalqın malını görə-görə aparır və pristav da heç bir söz demir (olarınkı Allah vergisidir).

Sən baxma Kərbəlayı Vəliyə, Məşhədi İmana, Kərbəlayı Dəliyə, Usta Zamana, Kərbəlayı Məhəmmədə və və və və...

*Məşədi Sijimqulu*
*"Molla Nəsrəddin", 1908, № 32*



## GƏNCƏDƏN

Hörmətli Molla Nəsrəddin əmi!

Türkdə bir məsəl var ki deyərlər, qolumuzdan tutan gəlməz, qılçamızdan qaldıran gələr. Hə, keçən erməni-müsəlman iğtişaşı münasibətilə Tiflisdə Sumbatov küçəsində əyləşən istəkli rəfiqlər pərakəndə olub biçarə Tiflisin müsəlman qardaşlarımızı avarə və sərgərdan qoyan kimi, indi ondan böyük bir müsibət də biz yazıq gəncəlilərin başına gəldi! Tiflisdəki əzizləri pərakəndə edən erməni-müsəlman davası və daşnaqsaqanların qorxusu oldu! Amma bizi küçələrə salan və istəkli məhbubələri dağıdıb pərakəndə edən tək bircə nəfər evi yıxılmış bir adam oldu. Bu adam özü rusdur, adı da Canibəyovdur və həmi də adını qoyub ki, mən doxduram və halanke nə Təbrizi görüb, nə Ərdəbili və nə də Mazandaranı, nə də həkimliyi məlumdur. Çünki bu şəhərlərin hansında təhsil edibdir ki, doxtur ola. Məhz bijlik ilə başlayıb müsəlmanları ələ salmağa və yağlı dillər ilə müsəlmanları özünə ram eliyib soymağa. Müsəlmanlar da xah qoca, xah cavan hər kəs naxoş olanda müsəlman həkimlərini qoyub buna müraciət edirlər. Bu öyü xarab doxtur baxıb görür ki, bunun yanına nə qədər ki, naxoş gəlir istər qoca, ortabab, istər cavan və uşaq hamısı azarlıdır... Doxtur ağanın müsəlmanlar ilə əlaqəsi olduğundan bir müddətdən sonra hesab eliyib baxır görür ki, Gəncədə təmam 28 min adam müsəlman bu bəlayə giriftardır. Ay yalan (mən təmiz söz verirəm ki, Gəncədə adı bir nəfər Məşhədi də azarlı ölmüyübdür və doxturun hesabı başdan-ayağə yalan-palandır).

Bəli, bu öyü yıxılmış doxtur bu hesab ilə götürüb hökumətə bir ərizə verir ki, gərək müsəlmanların içindən fahişəxanalar götürülsün, yoxsa iki aya kimi Gəncədə bir müsəlman da qalmaz, hamısı qırılıb qurtarar! Ay yalanına od düşsün, bir belə adam da qırılıb qurtararmı? Dərənin axmağı özü azarın əlacını, dərmanını bilmir, o səbəbə bilmir nə danışsın. Nə olub müsəlman qırılır. Odu həkim Ağa Məhəmmədtəği iyirmicə manat alır, adamı bircə il yarımadək lap anadan doğma kimi eliyir!!! Bu utanmaz həyasız öyü yıxılmış hökumətə gündə bir ərizə verə-verə axırı məqsudinə çatdı və Əttarlar küçəsində olan fahişəxanələri bağlatdı və bir taqım ayaqsız, atasız-anasız qərib qonaqları saldı çöllərə! Adamın yazığı bu qonaqlardan artıq Gəncənin cavanlarına gəlir ki, bunlar nə növ tab edəcəklər o istəkli rəfiqələrinin fəraqinə, çünki məhəbbət bir bəla şeydi! Bir də Gəncə bir

elə yer deyil ki, adam qüssə edəndə bir yer ola gedib bir az ürəyini açα, məsələ, Bakı kimi, Tiflis kimi. Bakıda qüssə əl verəndə adam gedir dərya kənarına və dəryada çimənlərə-zada tamaşa eləyib dərdini dağıdır, Tiflis də həmçinin. Amma Gəncə xeyr, əgər məşğuliyyət üçün istəsən qastinə gedəsən, gedib görəcəksən ki, üç nəfər müsafirə var, leykin 20-25 nəfər qəribnəvaz mehman, dost müsəlman qardaşlar kəsiblər bunların yanını növbət gözləyirlər. Xülasə, Allah baisin öyünü yıxsın, qapısını onların qapısı kimi bağlı qoysun ki, xəlqi avarə qoydu. Bu gün görürəm axırı cavanların bir parəsinin əlacı kəsilib gedib küçədə 8-9 yaşında uşaqlar ilə gildirim parç oynuyurlar.

Xülasə, Allah baisin öyün yıxsın!

*Məşədi Sijimqulu*
*"Molla Nəsrəddin", 1909, № 33*

## VƏSVƏSƏ

Hərdənbir Allah lənət eləmiş şeytan gəlir durur başımın üstündə başlayır mənə vəsvəsə eləməyə ki, sən gəl bu müsəlmanlara sataş! Deyirəm ay məlun əl çək məndən, müsəlmanlara mən niyə sataşım? Başlıyır ki, sən götür yazginən ki, Gəncədə kəlisa karvansarasında olan "Pələ Yusif" (tün həmamında) iyirmiyə qədər balaca məsum uşaqların gözünün qabağında fütəsini... bir dəlləyə iki şahı pul verib... həyasız... həyasız! Deyirəm ay məlun, açıl başımdan, mən nə eliyim ki, "Pələ Yusif" Amerika və Afrika vəhşilərindən də vəhşi və alçaqdır!..

Məlun genə əl çəkmir, başlıyır ki, indi də yazgilən ki, Hacı usta Bağır ağa mənbərdə, o pak mənbərdə öylə murdar sözlər danışır ki, hətta Marağanın dümbək çalan lotuları da öylə sözləri danışmağa utanar... cümləsindən ağa minbərdə bu cür nifrin eliyir! Pərvərdigara, sən cəmi oruc yeyənləri... naxoşluğuna düçar elə əlx. Peyğəmbərlər dua elərdi ki, Allah bəndələrini belə-belə naxoşluqlardan uzaq eyləsin! Amma vərasətülənbiyalar indi əksinə dua eyliyirlər... (amma öz aramızdır, deyəsən ağalar dərd əhlidirlər)... Burada başımı yuxarı qaldırıb deyirəm: ay sənə Allah lənət eləsin, bu cür sözləri mənə yazdırtma, ayıbdır; məndən rəncidəxatir olarlar; deyir sən yaz, nə işin var, qorxma! Deyirəm nə yazım, deyir yaz ki, Gəncə



qazılığına Fəxrəli kəndinin mollası Molla Abdullah da ərizə verib, Danabaş kəndinin yüzbaşısı da, Qarabağdan bir bəy, Bakıdan bir qoçu, Nuxudan bir möcüzə-nüma şeyx, Ordubaddan bir qırmızısaqqal, Gəncədən də bir neçə baqqal, çaqqal... genə deyirəm ay məlun, cəhənnəm ol get, məni tovluyub xataya salma! Deyir xata-mata yoxdur, sən yaz! Deyirəm axı daha nə yazım? Deyir yaz ki, Gəncədə qulluqdan kənar olunmuş bir bəy əlində 3-4 yüz manat pul, girməyə yer axtarır. Deyirəm yox-yox bunu yaza bilmərəm. Deyir, yaxşı bunu yaza bilmədin! Di bunu yaz ki, Molla Məsum müctəhid tamam iki min hədis və nağıl hazırlayıbdır ki, bu orucluqda camaata söyləsin və hədislərin hamısı siyasi məsələlərə dairdir. Əksər hədisləri bu mənanı verir ki, cəmi yeniyetmələr laməzhəbdir, bidindir və cəmi qəzetəyə və jurnala yazıçılıq edənlərin qətli vacibdir... Və genə yaz ki, usta Bağır gələndən bəri Molla Məsum ağanın bazarı bir az kasaddır... axırı görürəm bu məlun şeytanın sözü qurtarmayacaq! Acıq ilə qələmi tulluyub deyirəm: Allah sənə lənət eləsin, vallah daha ölsən də yazmayacağam.

*Kefsiz*
*"Molla Nəsrəddin", 1909, № 35*

## KƏNDLİLƏRİN MƏİŞƏTİNDƏN

Allah keçənlərinizə rəhmət eləsin, rəhmətlik babam sağlığı, otuz il bundan irəli ki, buğdanın putu bizim yerdə beş manata gedirdi, o vəqt mən 12-13 yaşında balaca çağa idim, bizim qazma damda cəmi külfətimiz rəhmətlik babamın başına yığılmışdıq, qış fəsli olmağa görə qazma adamın yarma buxarısını o gün rəhmətlik dədəm dalında şələ ilə gətirdiyi, qara tikan odunu ilə doldurub, alışdırıb, alovlandırmışdıq, buxarı hamam kaxamı kimi dəm verirdi, altmış yerdən dəlik-deşiyi olan qara qazma Gəncənin tün və xas hamamlarından da isti olmuşdu, eşikdə o günü yağmış olan yarım arşın qalınlığındakı qarın və Qarabağ tərəfdən əsməkdə olan (şiddətli) ruzigarın insan dondurucu savuqu bizim külfətimizə əsla əsər etmiyirdi... Buxarının sağ tərəfində rəhmətlik babam, sol tərəfdə rəhmətlik nənəm, nənəmin yanında rəhmətlik anam, anamın yanında iki bibim və səkkiz yaşında olan məndən dörd yaş kiçik bacım (ki,

o günlər də qonşumuz Məşədi Qulam Hüseynə kəbin eləmişdik) oturmuşdu, babamın yanında rəhmətlik dədəm və onun yanında əmilərim Məşədi Mikayıl ilə Cəfərəli oturmuş idilər və iki gün ondan irəli kiçik əmim Məşədi Hümmət öz kəndlimiz Kəblə Haqverdi Tanrıqulu oğlunun qapısından gecə vəqti oğurluyub gətirdigi, iki yaşar bir inək düyəsini öldürüb, ətindən bir yekə xəmir tabağı kabablıq doğruyub, duz, turşu və soğan vurub, qabağımızda şişlərə çəkib verirdik rəhmətlik babama və babam da ocağın üstünə qoyub, ağzının, burnunun, gözünün suyu bir-birinə qarışa-qarışa (Sağ ol Məşədi Hümmət! Elə mənim yurdumu sən tutacaqsan!) deyə-deyə bişirib verirdi bizə yeyir idik. Və hərdənbir də bir yağlı yekə tikə babam öz ağzına qoyurdu və iki saətə kimi ağzında o tərəfə-bu tərəfə aparıb güc-bəla ilə ötürürdü içəri! Çünki ağzında bir dənə də dişi yox idi...

Kabab yeyilib qurtarandan sonra babam namazı qılıb və Allahın verdiyi nemətlərə şükr edib, genə oturdu öz yerində və ocağa bir neçə kötük qoydurub, başladı cahıllığından və cavan vəqtdə başına gələnlərdən bizə bu cür söhbət eləməyə:

Babam o gecə bu sözləri bizə nəql elədi... ki oğullarım! Mən nə qədər dünyada yerlər gəzmişəm və kəndlər, şəhərlər görmüşəm və qeyrətli-himmətli adamlara rast gəlmişəm, nə qədər qaçaq və quldurlar ilə oturub-durmuşam, nə qədər imandar kişilər ilə yoldaş olmuşam, bir yanı Araz və bir yanı Kür çayları, nə qədər kəndlərə diqqət ilə göz gəzdirib baxmışam, mən hələ ömrümdə indiyə kimi Alası bığlı, Yabı kürd və Fartdaxlı kəndlərinin adamları kimi imandar, himmətli və sədaqətli-sağlam camaət görüb və eşitməmişəm. Sizin yadınıza gəlməz, o vəqt siz uşaq idiniz. Bir gün "Alası bığlı"dan mənim köhnə dostum Hacı Gözəlinin nökəri gəldi ki, ağam səni toya dəvət eliyibdir, mən də haman saət durub qarabinə tüfəngi çignimə salıb və əyri qılıncı aşırıb, barıt dəbbəsini toqqamdan asıb atı yəhərləyib minib yola düşdüm, getdim düz Hacı Gözəlinin evinə yetişdim, Hacının oğulları atı tutdular və bağladılar, içəri girdim, gördüm bir neçə ağsaqqal və molla və dostum əyləşiblər. Salam verdim, mana yer göstərdilər, əyləşdim və bir qəlyan doldurub çəkə-çəkə dostumdan xəbər aldım ki, qardaş, toyu qardaşınamı eliyirsən? Yainki oğlunamı? Dostum qımışmış üzümə baxıb dedi: xeyr a... a kişi sən bilmirsənmi ki, mənim evdə ancaq üççə dənə arvadım var? Bular da lap qocalıb əldən düşüblər. İndi ona görə ki, bunlar iş görə bilmirlər, bizim Kabla Hüseynqulunun qızını özümə kəbin eləmişəm ki, işi bir növ girliyə bilsinlər!.. Dedim: Allah çox-çox xeyir versin və Allah sənin imanını kamil eləsin ki, şəriəti əmələ gətirirsən. Bizim dağılmışda bir arvaddan artıq arvad almaq olmur. Xanpərilər başımızı kəfgir ilə yarırlar. Orada olan mollalardan biri mənə məlum elədi ki, buralarda birarvadlı kişi tapılmaz.

Xüsusən bu Alası bığlı kəndində. Bəlkə kasıb-kusublar və əlindən qız qaçırmaq gəlməyənlər bir arvada qənaət eliyə... mən ki, kənd mollasıyam, üç arvadım var... babam bir ah çəkib dedi: oğullarım, mən belə müsəlman adamlar hələ heç yanda görməmişəm. Məgər İranda...

*(dalısı olacaq)*

*Məşədi Sijimqulu*
*"Molla Nəsrəddin", 1909, № 50*

## KƏNDLİLƏRİN MƏİŞƏTİNDƏN

*Keçən nömrədən sonra*

Babam nəql eliyir ki, o günü orada qalıb sabah tezdən atı minib getdim Yabı kürd kəndinə ki, burada da genə mənim dostlarımdan biri toy eliyirdi. Atı sürdüm düz dostumun qapısına, nökər atı tutub çəkdi töyləyə, özüm də atın dalıyca töyləyə girib gördüm ki, töylədə əcəb həngamədir: töylənin bir tərəfində Gəncə şəhərindən və qonşu kəndlərdən gələn əməlli qonaqlar və xud kəndin bəyləri və dövlətliləri, koma-koma bağdaşqurma oturub qumar oynayırlar və bunların səslərindən, qışqırıqlarından – "Sən öl! Elə deyil! Belədir!" – dеmələrindən töylədəki heyvanlar da rahət ələf yeyə bilmirlər. Nə isə töylənin qaranlıq tərəfinə sarı getdim ki, atıma baxım görüm necədir! Gördüm oğlan! Burası Qarapet kirvənin meyxanəsindən daha yaxşı meygidandır, cavanlardan bir neçəsi burada heyvanlar ilə bir yerdə yatırlar və bir neçəsi də bir küncə qısılıb bir şişə arağı paylaşdırırlar. Xülasə, çıxdım eşiyə gördüm zurnaçı çalır və yabıları yəhərli olan oğlanlar da ortalıqda çıplaq yallı gedirlər. Təmaşadan sora getdim ağsaqqalların mərəkəsinə, oturdum gördüm söhbət eliyirlər ki, bir məktəb açsınlar və haman kənddə olan bir həkimnümanı da müəllim

qoysunlar, söhbət gəldi yetişdi pul məsələsinə, biri dedi ki, pəh! Pul nəmənədi – beş manat mən verərəm, olmasın toyda qumardan udduğum yüz manatın beş manatı!! Biri dedi pəh, olmasın oğurladığım pambıqların pulunun on manatı!! Biri dedi olmasın filan, biri dedi behman... babam burada üzünü mana tutub dedi ki, oğul Allah qoysa o məktəb açılanda səni o məktəbə qoyacağam!..

Rəhmətlik babam söylərdi ki, mən bu himmətdə və bu keyfdə camaət hələ bu vəqtə kimi görməmişəm, xüsusən, belə bəyləri nə görmüşəm, nə də eşitmişəm, bəlkə bircə Salahlı və Azaramdəli bəyləri bunlara bərabər ola!!! Rəhmətlik kişi bu cür söhbətlərdən çox elədi və genə dedi ki, bir gün getmişdim "Fartdaxlı" kəndinə, gördüm camaət bir yerə yığılıb və kəndin əfəndisi də buradadır. Bir-iki ağsaqqal da ortalıqda adamlardan pul yığır. Əfəndidən xəbər aldım ki, əfəndi usta! Bu pul nə puldur? Əfəndi cavab verdi ki, bizim Qara çaqqal kəndinin qazısı, oğlunamı, qardaşınamı, toy eləyir! Bizə də nəmər göndəribdir ki, onun toyuna gedib pul verək. İndi qazı əfəndinin nəmər pulunu yığırıq ki, bir neçə adamdan göndərək qulluğuna. Qara çaqqal kəndinə...

Rəhmətlik babam gözlərini bərəldə-bərəldə, ağzını-gözünü oynada-oynada təəccüblü-təəccüblü söylərdi: və Allaha, peyğəmbərə and içərdi ki, gözünün qabağında Fartdaxlı camaəti altı yüz manat pul və iyirmi dənə də qoyun elə oradaca hazırlayıb göndərdilər "Qara çaqqal" qazısının xidməti-şəriflərinə.

Rəhmətlik kişi ölənə kimi elə Fartdaxlı kəndinin adamlarının əfəndilərə bu gunə ehsan, itaət və sədaqətlərini min zəban-sitayişlə söylərdi. Mənim uşaqlıqdan elə bu cür söhbətlərə çox meylim var idi! Babama yalvardım ki, ay baba sən Allah bir gün də öz kəndimizin adamlarından bir az söhbət elə, sən elə hey özgə kəndlərdən danışırsan, məgər bizim kəndimizin camaəti batmış imiş ki, heç olardan söhbət eləmirsən? Rəhmətlik babam güldü və mənim dalıma döydü! Pəh, pəh, pəh, oxudu, güləndən sonra burnunun və gözünün suyunu kürkünün qolu ilə silib hədisə başladı.

Mən də altdan yuxarı gözlərimi zillədim babamın ağzına (necə ki, iki min müsəlman bir yalançı dərvişin ağzına gözlərini və qulaqlarını dikirlər).

*Məşədi Sijimqulu*
*"Molla Nəsrəddin", 1909, № 51*



## 51-ci №-dən MABƏD

Rəhmətlik babam Sarımsaqlı kəndindən söhbət açıb nəql elədi ki, bir əlli, on bir il bundan irəli bizim bu kənd bir yaxşı abad kənd idi və yaxşı keçmiş və gələcəyi bilən, öz camaətinin və övladlarının gələcək dərdlərini çəkən kişilər var idi. Səxavətli, mərhəmətli, istiqanlı, rəhmdil və dünya malına bənd olmayan adamlar idilər. Günlərin bir günü kəndimizə bir molla gəlib çıxdı, özü də İran əhli və mərsiyəxan idi. Məhərrəmlikdə bizə mərsiyəxanlıq eləməyə gəlmişdi. Kəndimizin ağsaqqallarından biri bu mollanı evinə qonaq apardı. O günü və o gecəni mollaya yaxşı hörmət, əkram, plov, çay, ılıq yumurta, filan qonaqlıq elədi və gecə də nümunədən ötrü... bir az mərsiyə oxudu, bəyəndik, gecə orada yatdı, elə ki, sabah oldu, biçarə ev sahibi baxdı gördü ki, cibində altmış manat pul yoxdur. Yazıq kişi başladı pulları gəzməyə. Nə qədər bu yana, o yana axtardısa da, pullar tapılmadı. Dəxi güman eləmirdi ki, nəuzübillah, molla oğurluq eliyər? Bəli, tapılmadı, ama bu tərəfdən molla əl-ayağa düşüb bir rah giriz gəzirdi ki, qaçıb pulları bir yana çıxarda bilsin, xülasə bir hiylə ilə evdən əkilir. Babam sözünü bu məqamə yetirəndə mən hirsli-hirsli baxdım babamın üzünə və dedim: baba! Bu necə sözdür sən utanmıyıb mollanın haqqında deyirsən! Məgər sən müsəlman deyilsən, nəuzübillah, mollanın da eybini açıb qiybətini eləmək olar? Səni müsəlmanlıqdan çıxardarlar? Bu nə böhtandır?

Rəhmətlik kişi gülümsünüb dedi: "Oğul sarsaqlama, mən yalan danışmaram, hərgah sözümə inanmırsan, bircə get Gəncə şəhərinə, gör bir molla qazılıqdan ötrü neçə yüz manat rüşvət verir, bircə gör ki, xəlqin əqlini oğurlamaqdan ötrü (hərçəndi ki, əql yoxdur) bir molla toy məclisində özü otura-otura, toyda nə üçün tar, qaval və xanəndə var?" – deyib bir hacını təhqir edir və toyda hacı ilə əl-ələ qalxır və qalan söhbəti gələn həftə.

(*mabədi yoxdur*)

*Məşədi Sijimqulu*
*"Molla Nəsrəddin", 1910, № 7*

## MAŞALLAH

Maşallah, Gəncənin cəmi əsnaf və sənətkarları da bicləşib və ustalaşıbdır, maşallah, cuhuddan da bicdirlər, maşallah cümləsində asari-intibah görünməkdədir, ələlxüsus bu şəhərin dəmirçiləri lap artıblar. Maşallah eləsi var ki, yaman gözdən saxlasın. Məsələ: dəmirçi Hacı Bala ağa kimi lap tərəqqi edib, çox qanacaqlı adamdır, maşallah, danışdığı mənalı sözlər, elə özünün də zəkavəti-xaruqüladəsinə dəlalət edir. Maşallah, həmişə öz sənəti kimi qızğın və kəskin danışdığından ətrafında olan bir neçə adamları cəhənnəm əjdahası kimi qavalamaqdadır, maşallah onun şagirdlərindən məşhur Çəbəli də dalda qalmayıbdır, bu cənab da ittihayi-xəbasət və xuliqanlığında bir mərtəbəyə çatıbdır ki, indi onu kəlisa karvansarasında senzor təyin ediblər, belə ki, hər kəs o karvansarada qazet, jurnal oxusa Hacı Bala ağanın fitvası ilə haman qazet oxuyan təhqir edilib qazet də Çəbəli tərəfindən cırılıb parça-parça olunur. Maşallah, maşallah, maşallah... Gəncənin hər bir zadı tərəqqi edib, əllaflar, baqqallar da... On dörd şahılı əllaflar meydanın əyağında bir yerə yığılıb İran, Osmanlıda olan arvadların məşrutə olmağına görə hamısı bihəya olub bazarda, küçədə naməhrəmlər ilə qol-boyun gəzmələrini, ağızları köpüklənə-köpüklənə danışıb kəmali-bihəyalıq ilə təsdiq edirlər. Maşallah, maşallah, afərin belə mömin kişilərə, mərhəba!!

*Şəmşir*
*"Zənbur", 1909, № 9*

## DAHA DÜZƏLDİ

Bəli, daha işlər düzəlib getdi! Daha cəmi əyrilərimiz düzəlib, sınıqlarımız bitdi! Daha müsəlman vilayətlərində azadlıqlar olub, məşrutələr verildi! Daha hamı əmələndi, hər yerdə, hər şəhərdə, hətta Danabaş kəndində məktəb-mədrəsələr açıldı! Müsəlman balaları aşıqları tullayıb məktəblərə doluşdular! Daha mollalar, əfəndilər, xəfiyyə və casus, xuliqanlar da məşrutə tərəfinə keçməyə məcbur oldular!! Daha kimlərə məsxərə eliyəcəyik?! Kimin eybini yazacayıq, daha Xorasanda siğəbazlıq olmayacaq, biçarə məşədilərin işi nə günə olacaq? Xorasanın boynuyoğun müftəxorları acından naziklənəcəkdilər. Daha Qafqaz zəvvarlarını qaz sürüsü kimi aparıb bir dama qatıb tüklərini yolmayacaqlar. Daha bundan belə Qafqaz mollaları oğurlanmış qızlara kəbin kəsmiyib və zor ilə onları iqrar etməyə məcbur etməyəcəklər! İranda və Türküstanda tiryak və şirəxanələr bağlanacaqdır. Küçələrdə divar dibində əl qabına getmək qadağan olacaqdır, mollalar və əsnaflar küçələrdə və arxların üstündə çömbəltmə oturub istibra eləyə bilməyəcəklər!! Bakıda qoçular və uşaqbazlar, Qarabağda oğrular, tülüngülər və moqufat siçanları, Səlyanda hacılar və mollalar, pəzəvənglər, Şirvanda şeyxlər və möcüzənümalər, Şəkidə sadə və surətpərəst və inhitat tənəzzül cəmiyyəti! Gəncədə təzə kərbəlayılar və üsuli-təfriqə tərəfdarları, İrəvanda möminlər, Naxçıvanda köhnəpərəstlər və Ordubadda qırmızısaqqal əmilər, Culfada mütrübbazlar, Batumda kisəbirlər, Tiflisdə Şeytanbazar müsəlmanları və sudəzdeyi yar olan alış-verişçi cəvanlar daha öz günahlarından və xilafi-insaniyyət olan əməllərindən tövbə eliyəcəklər! Və bundan sonra milliyyət və mədəniyyətə köməklər eliyəcəklər, daha bundan sora biz nə yazacağıq? Daha Gəncədə Ağasıbəyli kəndinin ruhanisi Molla Qəmbərlər və təzə Xorasandan ziyarət eliyib gəlmiş olan Məşhədi Məhəmmədlər, – evlərində övrətləri qoşa-qoşa qoyub yeddi dəfə ərə gedib 14 dəfə təlaq almış bir ismətsiz dul övrətdən ötrü boğuşmayacaqlar, işlər belə olanda daha biz nəyə lazım olacağıq? Jurnalçılar və qazetçilər daha şələ-pələlərini yığışdırmalıdırlar, daha bundan sora Bakıda mömin məşədilər rus uşaqlarını tovlayıb evlərinə aparıb namusuna toxunmayacaqlar, Yevlax tacirləri müsəlman qulluqçularını qoyub qılman kimi olan gürcü uşaqlarını saxlamayacaqlar. Daha heç gün çıxana cənəb qalıb namazını qəzayə qoymayacaqlar. Vəssalam.

*Şəmşir*
*"Zənbur", 1909, № 10*

## ŞƏRAB İÇMƏK

Biz deyə bilmərik ki, şərab pis şeydir! Və bizə köməkçi olaraq çox müsəlman deməz ki, şərab içmək pis işdir. Bəlkə müsəlman aləminin üçdən iki payı deməz ki, şərab içmək pis işdir!.. Doğrudan elə biz də deyirik ki, şərab pis şey deyil! Çünki onda olan ləzzət və mənfəət heç bir şeydə yoxdur! Qoymur insan fikrə, xəyalətə düşüb ruhunu incitsin və tülkünü aslan edir, qorxağı igid eliyir, nökəri ağa ilə, gədanı əyan ilə, adnanı əla ilə, rəiyyəti xan ilə bir yerdə, bir

süfrədə əyləşdirir! Hərçənd bu neçə sifətlər elə qumarbazlıqda da var ki, rəncbəri mülkədar ilə bərabər qoyub müsavi edir! Ama şərab lap özgə bir şeydir.

Bəli, şərab pis şey deyil, amma burası pisdir ki, adam bir az çox içəndə görürsən kefləndi: kefləndən sonra da Allah bərəkət versin, nə çoxdu piştov, görürsən bayax qoburdan çıxdı, çıxan kimi də açıldı, açılanda da – görürsən yoldaşın əlini, ayağını qırdı, burası pisdir...

Şəraba pis demək olmaz, adamın ağzı əyilər, ama şərabı içəndən sonra adam özünü və sözünü bilmir və başlayır rus qızlarına sataşmağa, müsəlman uşaqları ilə zərafət eləməyə.

Mən özüm qabaqlarda şərab içərdim. Ama indi tövbə eləmişəm, dəxi şərab içmirəm, ancaq pivə, əraq içirəm, çünki bunlardan tövbə eləməmişəm. Və həmişə də mənzilimdən əraq əskik deyil, dükanın dalındaca qoyuram, hər yarım saətdə bir rumka gedib içirəm. Bala qardaşım dükanda saxlamağa razı olmayanda qonşunun mənzilində saxlıyıram.

Cəmi Yuropa həkimləri şərabın müzirr olmağın yazıblarsa da, ama biz elə-elə sözlərə aldanıb şərabı pisliyə bilmərik. Bəli, biz şərabə pis dəmərik və demirik də. Hərçənd ki, şəriətimizdə də nəhydir, ancaq yuxarıda Allah var, o bilir və görür ki, müsəlmanə şərab içmək çox yaraşır, çünki içən kimi gözləri qızarıb özü də igidə dönür.

*Məşədi Sijimqulu*
*"Molla Nəsrəddin", 1910, № 13*

## MƏNİ SAYANI QURD YESİN

Bizim küçələrdə gündüz axşama kimi söyüşüb savaşmaqda olan tərbiyəli uşaqlarımız bir yerdə yığılıb oynayanda bir özgəsi istəsə ki, bu tərbiyəli uşaqların sayıb hesabını bilsin?! Onda görürsən ki, həman uşaqlar barmaqlarını tıxadılar qulaqlarına və bağıra-bağıra başladılar deməyə: məni sayanı qurd yesin, səni sayanı qurd yesin.

İndi adam gözünü açıb İranə, İran şəhərlərinə, Tehranə, Tehran küçələrinə baxanda görür ki, öküz boyda mollalar, heyvan boyda kişilər, qatır boyda arvadlar, üç çərək uzunluğunda olan saqqallı hacı və kərbəlayılar, qurbağalar, tısbağalar atılıblar küçələrə, Tehranın küçələrinə və başlayırlar bağırmağa ki, bizi sayanı qurd yesin!.. Yəni necə qurd yesin?.. Yəni Mədəli kimi, Rəhim xan kimi, Mirzə Hüseyn kimi, daha bir çox əmsalı kimi qurdlar gəlib məşrutənin qoyunlarını



darbadağın eləyib ata-baba qaidəsincə yesinlər... niyə? Və nədən ötrü!.. Ondan ötrü ki, hökumət məşrutə təyin elədiyi təhrir-nüfus komissiyası, viranə İranın, lüt, bambılı, bitli, sirkəli, yastıqulaq tatlarının hesabını-sayını bilmək istəyirlər.

Məni sayanı qurd yesin: bu məsəl, bu söz dədə-babadan qalma söz və məsəldir... dədə-baba, yəni kim? Və kimlərdən ibarətdi? Dədə-baba, yəni köhnə molla.

Bir nəfər molla, Seyid Abdullah adlı, bilmirəm hansı mütrübxanədən qavalı tulluyub çıxıb gəlib Tehranə və Tehranda yeməyə çörək tapa bilməyib, başlayıb özünə çörək və nüfuz qazanmaqdan ötrü avam camaatı tovlatmağa ki, təhrir nüfuz üsuli-şəriətə müxalif və həramdır. Ona görə Tehran uzunqulaqları da tökülüblər küçələrə bağıra-bağıra deməyə ki, bizi sayanı və bizim sayımızı yazanı Mədəli qurdu yesin. Bəli, belə imiş! Bir dədə-baba ki, bu bizim gözümüzün qabağında olan mollalar və köhnələr kimi imişlər?! Daha öylə dədə-babanın bundan artıq zibilləri ola bilməz imiş ki, yerin üzünə töküb gedə idilər.

Nə isə, ürəyi sıxmamaq lazımdır.

*Şəmşirək*
*"Zənbur", 1910, №18*

## MOİZƏ

"Məkkə yolunda hacılar faciəsi münasibəti ilə təqrir buyurulmuşdur".

Zəmani ki, həzrət İbrahim əla nəbiyyena və əleyhissəlam beytüllahi, yəni Allahın evini tikib qurtardı.

Allah tərəfindən həzrət İbrahimə səs gəldi ki, "Ey mənim Xəlilim! Çıx bir uca yerə və çağır dünyada, yer üzündə yaşayan cəmi müsəlmanları gəlsinlər mənim evimin ziyarətinə!" Həzrət Xəlil minacat eylədi ki, pərvərdigara! Hanı mənim səsimdə o qüvvət ki, bütün dünyanın müsəlmanlarını buradan çağırmağım ilə xəbərdar edəm, onlar mənim səsimi necə eşidərlər?! Səs gəldi ki, "Ya İbrahim! Sən elə bu səsin ilə səslə! Mən onu müsəlmanların qulaqlarına yetirərəm!"

Odur ki, həzrət (yalan olmasın bilmirəm vallah Mina dağının başınamı, yainki bir ayrı hündür yerəmi) çıxıb səsləndi: Ey yer üzündə olan müsəlman kişilər! Gəlin Allahın evinin ziyarətinə (qorxmayın, hərçənd ki yollarda ac qurddan daha yırtıcı çox müsəlman ərəb

qardaşlarınız varsa da, o sizi dutub qoyun kimi boğazlayıb ətinizi kabab etsələr də qorxmayın) bu məhz imtahandan ötrüdür, sizi sınamaqdır, zahirdə sizi öldürürlər, lakin batində əsil arzu elədiyiniz cənnəti – əla illiyinə sizi nəql eliyirlər, həman etiqad etdiyiniz molla naqqallar bunlardır.

Bu nidayı yer üzündə olan bütün müsəlman kişilər eşitdilər! Ondan sonra həzrətin arvadı (vallah genə yaxşı yadımda deyil, Hacər idimi, yoxsa Sara idimi) dedi ki, ya Xəlilullah, sən çağırdın ancaq müsəlman kişiləri. Bəs necə olar ki, möminə müslimə arvadlar bu nemətdən binəsib olsunlar, ha mənə də izin ver arvadları çağırım. Həzrət izin verdi (görəsən nə onuz həzrət izn verib?! Arvadın səsi də naməhrəm deyilmi?!) Cənab Sara, yainki Hacər hündür yerə çıxıb səsləndi: ey yer üzündə olan müslimə arvadlar, gəlin Allahın evini ziyarətə ki, sizə vacib buyurulubdur (etibarlı, namuslu, qanacaqlı arvadlara zülm eliyən kişilərinizdən ayrılmayın, onlar ilə bərabər siz də Ərəbistanın qumlarının üstündə al-qanlarınıza bələnin, o arvadlar necə vəfadar olduqlarını o vəfasız kişiləriniz ilə o canavar ərəblərə göstəriniz!). Bu səsi də Allah-təala cəmi müslimə arvadların qulaqlarına yetirdi, hamı eşitdilər! Həzrət İbrahimin oğlu Həzrət İsmayıl o vəqt balaca uşaq idi, atasına dedi: ata, mən də uşaqları çağıracağam. Nə isə o da çağırdı. Onun da səsini cəmi uşaqlar eşitdilər.

Bunlardan sonra Allah lənət eləmiş kor şeytan məşriq tərəfində uca səs ilə səsləndi ki, ey müsəlmanlar! O səslər ki, eşitdiniz, onlara inanmayın (nəuzübillah), onlar doğru demirlər, hər addımınıza bir şəhid səvabı və hər mənzilinizə cənnətdə bir qəsr, 200 huri verməyəcəklər.

Bu məlunun səsini də bütün müsəlmanlar eşitdilər! İndi hər kəs ki, o zaman Həzrət İbrahimgilin səsinə inanıb, o adam, şübhəsiz, Məkkəyə gedəcəkdir. Hər kəs ki, şeytanın səsi gələndə onun sözünə inanıb, o getməyəcəkdir. Şeytanın səsinə inananlar ilə müqəddəs səslərə inananları aramızda indi bu saətdə seçmək, tanımaq o qədər çətin bir şey deyildir. O zaman "bəli" deyən ruhlar indi milyon ərəb yırtıcıları da olsa və özü də yəqin eləsə ki, onu doğrudan öldürəcəklər, genə o səsin dalınca gedəcəklər.

Vaizi: *Axund Molla Əlfikar Xoyi* – adam dilinə tərcümə edən Məşədi Sijimqulu

*"Molla Nəsrəddin", 1914, № 8*



## MÜHÜM SÖHBƏT

Məşədi. Kabla Həsənqulu, bu biyabanda, şəhərdənkənar yerdə bu dikili nədir?

Kablayı. Məşədi, hankı dikilini deyirsən?

Məşədi. Bax, bu dikili, bax! Bu dərənin kənarındakı, həmi də nə gözəl tikişdir, lap məscidə oxşuyur, üstündə də aypara var, bu nədir?

Kablayı. Məşədi, gözüm seçmir, hankı tərəfdədir, bir qolumdan yapış, barmağını da uzat, səmtini görüm, bəlkə biləm.

Məşədi. A kişi, bir bəri dur! Bax, bax, bax! Odur Gəncə şəhərindən üç-dörd verst kənarda o daşlı-dikənli səhranın içində, o boyda evi görmürsənmi? Hələ ətrafında dikili dəmirdən hasar çəkilib, hasarın içində bir neçə ağac əkilibdir. Pəh, pəh, pəh, nə gözəl evdir. Allahın altında o ev mənim olaydı. Özü də Yuropa üsulu üzrə dikilib. Kablayı, sən allah de görüm, orası nədir?!

Kablayı. Hə, hə gördüm, Məşədi! Bəs orayı bilmirsən nədir?

Məşədi. Yox, nə bilirəm, indiyə kimi burada mən belə şey görməmişəm ki!

Kablayı. Vay, eyib olsun sənə, Məşədi! Bəs bu vəqtədək onu bilmirsən ki, nədir?

Məşədi. Yox vallah!

Kablayı. O belə Şeyx Nizaminin türbəsidir!

Məşədi. Mən, ölüm necə?

Kablayı. Bu sən öləsən!

Məşədi. Sən öl, inanmaram!

Kablayı. Başın üçün doğru deyirəm.

Məşədi. Degilən vallah!

Kablayı. Vallah!

Məşədi. Degilən Həzrət Abbas haqqı!

Kablayı. Həzrət Abbas haqqı!

Məşədi. Bəs onun ki, günbədini dağıtmışdılar, bunu kim tikdirdi?

Kablayı. Gəncənin ürəfa və əyanı.

Məşədi. Elə təkcə ürəfa ilə əyan o qədər pul xərclədilər ha?!

Kablayı. Yox, bir dəfə də cavanlar tiyatro qoydular, kitab satdılar, əlli min qəpikdən artıq pul da yığıb banka qoydular, bu saətdə bankda durur, yerdə qalanını da Gəncə pulluları verdilər.

M ə ş ə d i. Pəh, pəh, pəh, afərin, afərin, qurban olum himmətinizə, Kabla Həsənqulu. Bəs indi niyə elə tiyatrolar qoyub pul yığmırlar ki, bir xeyir işə sərf olunsun?

K a b l a y ı. Vallah, Məşədi! İndi Sidqinin əlində macal tapa bilmirlər ki, bir tiyatro qoysunlar.

M ə ş ə d i. A kişi, necə Sidqi?

K a b l a y ı. Artist Sidqi.

M ə ş ə d i. Eşqabaddakı?

K a b l a y ı. Yox!

M ə ş ə d i. Tiflisdəki?

K a b l a y ı. Yox!

M ə ş ə d i. Bəs hardakı?

K a b l a y ı. Gəncədəki, Gəncədəki, tanıdınmı?

M ə ş ə d i. Hə...

K a b l a y ı. Eləsə xudahafiz.

*Məşədi Sijimqulu*
*"Molla Nəsrəddin", 1914, № 12*

## ÜZRÜM VAR

Hörmətli oxucular başdakı ünvana baxıb deyəcəklər ki, görəsən Məşədinin genə nə fırıldağı var ki, əvvəlini əldə "üzrüm var" deyə ağzını açır.

Təvəqqe eliyirəm oxucuların ürəklərinə gəlməsin ki, guya mənə gün çıxmağa yarım saat qalanda ğüsl vacib olubmuş və sübh namazı da keçirmiş, bir az qol-qabırğam ağrıdığına görə guya ki, kələk gəlib ğüsl eləmiyib namazı təyəmmüm ilə qılmışammış və ona görə üzr şərim olduğunu bəhanə edərək "üzrüm var" deyirmişəm.

Xeyr a! Məbadə bunu xəyallarına belə gətirələr. Belə deyil, üzrüm var deyirəm, elə doğrudan da üzrüm var və özü də qəbul edilə biləsi üzrlərdəndir.

Herçəndi burada arvad-uşaq da var, bunların yanında bəzi söhbətləri eləməli deyil, ancaq əlac yoxdur, keçib.



Bir də ki, elə arvad-uşağa da hər sözü eşitmək lazımdır, çünki bilmədiklərini bilər, öyrənər, məlumatlarını artırarlar. Mən deyirəm ki, "mənim üzrüm var", ancaq siz bilmirsiniz ki, mən nə üçün "üzrüm var" deyirəm.

Allah ölənlərinizə rəhmət eləsin, rəhmətlik nənəm məni 18 yaşında evləndiribdir, indi bu saət düz tamam-kamal otuz üç yaşım var, yəni mən on üç il bundan qabaq gözümü açıb, Kabla Pirməhəmmədin qızını öz evimizdə görmüşəm. Tamam bu on üç ildə gecə-gündüz Səkinə ilə bir yerdə olmuşuq.

Bağışlayın, yanınızda bir az utanmazlıq eliyirəm, üzrüm var. Səkinə ilə bir yerdə o qədər olmuşuq, o qədər olmuşuq ki, indi daha məsələ ayıb da olmasın, gecənin bir vəqti öskürək dutub yuxudan oyadanda ki: ayıb da olmasın, əlim Səkinəyə sürtüşür, əsla ürəyimə gəlmir ki, yanımda yatan arvaddır. Əksinə, elə xəyal eliyirəm ki, həlbət qardaşım Həsənqulu yorğan tapmayıb gəlib girib mənim yanımda yatıbdır. Məsələn, yəni demək istəyirəm ki, mənim üçün indi yataqda, ya qardaşım Həsənqulu, ya Səkinə birdir, neçə illərdir ki, bir yerdə yatırıq ha-a-a-a.

Bağışlayın, üzrüm var, doğrudan insan arvad ilə o qədər bir yerdə yaşayır ki, lap doyur, lap gözü yorulur, axşam yat Səkinə ilə, sabah dur Səkinə ilə, danış Səkinə ilə, dalaş Səkinə ilə, bozbaş ye Səkinə ilə... Əlbəttə, axırda adam belə olar. Bəlkə siz təcrübə eləməmiş olasınız. Ancaq mən bunu çox təcrübə eləmişəm. Məsəla: görürsən bir atadan-bir anadan olan iki qardaş bir yerdə, bir evdə yola getmirlər. Yainki iki müsəlman bir-biri ilə siğə qardaş olub dost olurlar, çox çəksə bu dostluq çəkir altı ay. Və yainki müsəlman qardaş ortaq olurlar, yenə həmçinin, beş gün çəkmir ki, ayrılırlar. Mən əvvəllər elə bilirdim ki, kim bilsin bunlar bir-birlərinə xəyanətmi eliyirlər, filanmı eliyirlər, behmanmı eliyirlər ki, ayrılırlar. Xeyr a, sonra gördüm, qandım ki, belə deyil. Məhz ondan ötrüdür ki, bir yerdə o qədər yaşayırlar ki, axırda bir-birindən iyrənirlər. Bunu mən özüm də təcrübə eləmişəm. Vallah, bayaq da dedim, Səkinə elə mənim yanımda ya bir ağac, ya bir daş, ya bir qardaş... belə... Hə, xəbər al ki, Səkinə ilə elə əvvəldənmi beləsiniz? Yox, yox, o vaxtlar ayrı idi, oralarını hamı bilir. Bağışlayın, üzrüm var, mənim sözümü qəribliyə

salmayın, insan təcrübə ilə kamil olar. İndi mən öz təcrübəmlə belə tapmışam ki, əgər kişinin iki arvadı olsa, iş daha yaxşı olar. Dörd olsa ki, elə bil daha behiştdəsən, çünki niyə? Ondan ötrü ki, məsələn, gedib bir həftə birinin, bir həftə də o birinin i.a....

(*mabədi var*)

*Dostunuz Məşədi Sijimqulu*
*"Molla Nəsrəddin", 1914, № 25*

## TƏRBİYƏ, YAXUD "ZƏVALLI MƏMİŞ"

Keçənlərdə bizim kəndimizdə Kəbla Qulam adlı bir kişi var idi. Yekə qarın, kələ peysər bir adamdı. Bunun Məmiş adlı bir oğlu da var idi. Kəblə Qulam hər yana getsə idi, Məmiş də onun yanında olardı. Məmiş 11 yaşında idi...

Çox vaxtlar Kəblə Qulam bizim evin dalındakı doqqazda, Qəribə Həsənin, çaxça ğeylin ağzında kəndlilər yığılıb mərəkə qurduqları yerdə olardı. Çünki bura heç adamsız olmazdı, həmişə qoca kişilər burada yığılıb söhbət edərdilər. Kəblə Qulam kişi çox qocalmışdı, ancaq düşkün deyil idi, saz idi. Və həmişə balaca uşaqları bir-biri ilə dalaşdırmağa və güləşdirməyə həvəsi və xoşu var idi, hələ bir gün olmazdı ki, öz oğlu Məmişi Qəribə Həsənin oğlu Sarı ilə görüşdürməsin!! Qəribə Həsənin oğlu da 9 yaşında idi, cüssədə də Məmişdən çox-çox kiçik idi. Görürdün Kəblə Qulam kişi ikisini də çağırdı yanına və tutaşdırdı bir-birinə... özü də başladı kəmali-ləzzət ilə tamaşa eləməyə, camaat da hamı söhbətdən əl çəkib başlayarlardı uşaqların görüşmələrinə baxmağa. Məmiş ilə Sarı ortalıqda xoruz kimi didişərlərdi.. Məmiş tənumənd idisə də, Sarı çox ləvənd idi. Onda görərdin Məmişi ortaladı, qaldırdı yerə elə vurdu ki, zıqq elədi! Məmiş yerdən bir az qızarmış durub, qalxardı. Kəblə Qulam başlardı ki, yox, bu hesab deyil, Məmişin ayağı daşa ilişdi, onun üçün yıxıldı.

Yenə dübarə tutaşdırardı, yenə Sarı, Məmişi vurardı yerə. Yenə Kəblə Qulam başlardı ki, yox, o mənim oğlumu yıxa bilməzdi. Sarı



indicə evdən gəlib, əlləri ip-istidir – amma Məmiş sabahdan burada mənim yanımdadır, soyuq əllərini dondurubdur, yaxşı tuta bilmir. Nə isə, çağırıb Məmişin əllərini alardı öz əllərinin içinə, bir az hovxurub nəfəsi ilə uşağın əllərini qızdırıb yenə tutaşdırardı, yenə Sarı onu qalxızıb salardı yerə, yenə Kəblə Qulam başlardı ki, yox, bu səfər də yaxşı yıxa bilmədi, yerə bərk vura bilmədi, həm də Sarı hündür yerdə, ancaq Məmiş alçaq yerdə durmuşdu. Xülasə, bu dəfə də tutaşdırardı, yenə Sarı yıxardı. Axırda rəhmətlik lap pərt olardı. Bir az da biçarə Qəribə Həsənin oğlunu danlardı ki, sən çox bicsən, haramzadalıq eliyirsən, badalaq vurursan, hiylən-fəndin çoxdur – ləmsədən də qatırsan, səndə bijlik olmasa, Məmiş boyda uşağı yıxa bilərsən?! Zavallı uşağa bu sözlər çox ağır təsir edirdi və hətta ağlamsınırdı. Çünki onun sözünü danışıb hünərini təqdir eliyən olmurdu. Kəblə Qulam uşağın, yəni Sarının ruhunu öldürüb, ürəyini sındırandan sonra yenə tutaşdırardı, birdən bu dəfə iş bir cür gətirərdi ki, görərdin Məmiş Sarını bir balaca bir yanı üstə yıxan kimi oldu və özü də tez qalxdı ayağa, başladı üst-başını çırpa-çırpa: – Bax mən yıxdım, bax mən yıxdım, – deyə dədəsinin üzünə baxmağa, dədəsi də çox şadlanandan sonra üzünü camaatə tutub başlardı ki, bax, yıxmaq belə olar, əsil yıxmaq budur, siz öləsiniz, elə yıxdı ki, can kimi, görmürsünüzmü uşaq yerindən də qalxa bilmir, tərpənə də bilmir? Yerə çox bərk vurdu, uşağın qolunun biri sınıb, o biri də zədələnibdir, yox bu zərbə pək mühümdür. Orada olan adamlar da qoca kişidir, bunun qəlbi sınmasın deyə, bunun sözlərini əlacsız təsdiq edirlərdi. Ancaq nə fayda ki, bir də görürdün gözlərinə döndüyüm Sarı bir tərəfdən birdən-birə soxulub yenə Məmişi ortalıyıb qalxızdı çaldı yerə və oturdu qarnının üstündə...

Bir gün olmazdı ki, Kəblə Qulaməli kişi oğlu yedəyində kəndi dolanıb hey doqqazda oğlunu bir-iki uşaq ilə görüşdürməsin. Rəhmətliyə deyəndə ki, a kişi, bu uşaq heyifdi, bunu belə veyil öyrətmə, sabah bunun peşmançılığın çəkərsən, bunu qoy Molla Vəlinin yanında oxusun elmli olsun, yazı-pozu öyrənsin... Gülümsünüb deyərdi ki, ağrın alım, mən uşaq böyütməmişəm ki, verəm mollanın əlinə dəvə kimi xıxırdıb dizinə döysün?! Mənim oğlum elə belə yaşayacaqdır. Elm nəmənədir? Elm küçük yanında asıla-asıla gedir!

Sonradan eşitdim ki, həman Məmişi bir özgə canlı uşaq güləşəndə yerə elə bərk vurubdur ki, uşağın başı dağılıb və bir neçə gündən sonra vəfat edibdir. Bu xəbəri eşidəndə dedim: "İnna lillahi və inna ileyhi raciun". Allah Kəblə Qulama insaf və qanacaq versin. Budur müsəlman, övladını bundan yaxşı tərbiyə edə bilməz!!!

(...O...)
*"Məzəli", 1915, № 6*

## ŞEYXİN PİŞİYİ

Bir neçə il bundan iləri Urmiya vilayətinin bir kəndində bir nəfər yarım tələbə papağının yarısına bir az ağ sarıyıb özünü salıb Qafqaziya ölkəsinə dolana-dolana gəlib çıxır Şəki mahalına. Buralarda bir neçə gün fırlanıb əhalinin əhval-ruhiyyə və məişətinə nəzər salıb görür ki, buralar şəbədəbazlıq üçün yaxşı meydanlardır. Xüsusən, şeyxlik mətaı pək rəvacdır. Camaat şeyx olan və hər şeyxlik cildinə girən tülkülərə sitayiş edərcəsinə ehtiram edirlər. Və əhvalı duyan hərif qaxırmır. Özünü verir Uzunqulaqlı adlı bir kəndə və adını da qoyur Şeyx Səfyan, başlıyır şeyxliyini burada kəndlilərə bildirməyə və bir həftəyədək kəndlilərin hamısını bir neçə kəlmə ilə özünə eyliyir qul. Şeyx Səfyan Uzunqulaqlı kəndinə getdiyi gün yoldan bir balaca pişik balası tapıb götürübmüş. Şeyx kənddə mıxı bərkitdikdən sonra camaatdan gələn mədaxildən başqa yavaş-yavaş alış-veriş eləməyə də başlayıbmış. Kəndistan hər yerdə çəki daşı olmadığına görə, hər evdə görürsən ki, ya bir su camıdır, bir girvənkəlik daş əvəzinə işlənir, ya bir kəfgirdir, yaxud bir qablama. Şeyx bir gün beş-on nəfər kəndlilərlə oturub söhbət elədiyi halda deyir: "Camaat! Mənim mənzilimdə bir qab yoxdur ki, onu çəki daşı qayırım, ancaq mənim bir pişiyim var, bazarda da çəkmişəm düz bir girvənkədir, təvəqqe eyləyirəm bir çəkili qab gətirəsiniz, burada bunu yenə çəkək və siz də görüb şahid olun ki, düz bir girvənkədir. Daha mənə hər daş lazım olanda qonum-qonşuya zəhmət verməyim". Nə isə, bir nəfər gedib bir çəkili qab gətirir, şeyxin pişiyini



çəkib görürlər ki, doğrudan da elə bir girvənkədir, hələ bir az da yüngül kimidir. Ondan sonra kəndə və ətrafda hamıya məlum və məşhur olur ki, şeyxin pişiyi bir girvənkədir. Gözünə döndüyüm şeyx gecə-gündüz pişiyə tumar verir, yemləyir-yedirdir, kökəldir. Və təbiidir, pişik də gündən-günə böyüklənəcəkdi. Beş-altı il üç-dörd para kəndin əhalisinin yağı-pendiri, düyüsü, fındığı-filanı gəlir şeyxin mənzilinə, çəki daşı da ki, məlumdur. Daha özgə yerdən daş gətirmək nəyə lazımdı. Uzunqulaqlı kəndinin on nəfər ağsaqqalları şahid edirlər ki, şeyxin pişiyi bircə girvənkədir. Pişik bu beş-altı ildə ancaq-ancaq səkkizcə girvənkə ağırlığında olmuşdur.

*(mabədi var)*

(...O...)
*"Məzəli", 1915, № 15*

## ARVAD MƏSƏLƏSİ

Doğrudan da insanın qulağı dolar imiş, hanı o keçən günlər ki, qəzetlərdə bir kəlmə arvad məsələsi yazılan kimi dünyalar dəyərdi bir-birinə. Lənət dəyənəyi, təkfir topu, qarğış bombası tökülürdü qəzetə və məcmuələrin və hürriyyəti-nisvan tərəfdarlarının üst-başlarına, hanı o günlər ki, bir hərf qızların təlimi barəsində yazılanda Bakı qoçuları piştovları götürüb "nöşün-nöşün" deyə-deyə düz sürüb gəlirdilər Tiflisə "Molla Nəsrəddin" idarəsini dağıtmağa. Hanı o günlər ki, hicab məsələsinin üstündə Gəncədə Seyid Bağır az qalırdı minbəri vurub sındırsın və altdan-yuxarı ağanın ağzının köpüyünə mat-mat baxan məscid qoyun-keçilərini qırım-qırım qırsın. Qubadan Hacı Molla Baba tayqulaq yabanı çiyninə qoyub ağzını ayırmış əjdaha kimi gəlirdi Bakı şəhərinə ki, Tağıyevin qız məktəbini dağıdıb hacını da "aqaruzlasın". Hanı o günlər ki, "Din və məşəqqət" məcmuəsinin qorxusundan Orenburq-Kazan-Krım qəzetləri dillərini tərpədə bilmirlərdi. Doğrudan elə insanın qulağı dolarmış. Bu həyasız qəzetlər üzlərinə salıb, boyunlarını qızarıb, lənətləri, nifrinləri qəbul eyliyib

o qədər yazdılar, o qədər dedilər, danışdılar ki, daha biçarə adamcığazlar cavab verməkdən, rəddiyyə yazmaqdan, söyüb-söylənib atılıb-düşməkdən lap yorulub, təngə gəlib kiriyib yorğun mal kimi gözlərini lap-lap döyməyə başladılar.

Keçən həftə Bakı qəzetlərinin biri möhtərəm "Vəqt"dən iqtibas elədiyi bir məqaləni dərci-mətn eləmişdi ki, Krımdan müharibə münasibətilə Sibiriyəyə sürgün edilən müsəlmanların və onların ailələrinin hallarını təsvir ediyor idi. Bizə o məqalənin acınacaqlı və fəci lövhələri lazım deyil, istər müsəlmanlar ondan da yaman halda olsunlar, onun bizə dəxli yoxdur. Bizə dəxli olan məqalənin ancaq bir neçə cümləsidir. Məqalədə deyilən müxtəsəri bu idi ki, Krım və Qafqaziyyə müsəlmanlarına bir elə müsibət əl verəndə onlara çox bərk təsir edir. Qəzetənin rəyinə görə guya Qafqaziyyə və Krım müsəlmanlarının arvadları kordurlar, dilsizdirlər, ölüdürlər. Onların ərlərinin başına bir belə iş düşəndə, həman evlərdə olar hazır yeməyi yeyib qurtarandan sonra əllərindən bir iş gəlməzmiş!! "Vəqt"in sözündən belə anlaşılır ki, guya Rusiya türklərinin arvadları rus arvadları qədər olmasa da, onların yarısınca da iş bilən və fərasətlidirlər. Yəni Krım və Qafqaziyyə arvadları kimi çarşab altında canları çıxmır. Özü göz açıq hər yerə gedir və hər kəsə dərdlərini deyir, eşidir, başlarının çarəsini axtara və məza tapa da bilirlər. Böylə, elə, filan, bəhmən i.a.

Bu qəzetənin vəzinə və sözlərinə bizim daha deyəcək bir sözümüz qalmıyıb, ğeyr əz inke bir ah çəkib əllərimizi bir-birinə vurub deyək: Vay dünya, səni bərbad olasan, gör işlər nə qədər dəyişilib ki, "Vəqt" arvadların üzü açıq gəzib hər naməhrəm ilə üzləşib qonuşmaqlarına fəxr eliyir: gorun çatdasın din və məşəqqət, harada ölübsən, ay bivəfa zəmanə, haradan alım Xalid Xürrəmi, Həqqi əfəndini və düjinlər ilə Bakı və Qarabağ yazıçılarını və onların naşiri-əfkarı olan vərəq parələrini yenə ittihad ilə saldıra idilər "Vəqt"in üstünə, olanlar olub, gedənlər gedib, yerdə qalanların da qulağı dolub, Allah axırını xeyir eləsin, gələcəkdən gözüm heç su içmir...

*(...O...)*
*"Məzəli", 1915, № 16*



## MÖCÜZAT

Bən o vəqt kiçik idim. Bir gün şəhərdə səs düşdü ki, cəmaəti məscidə çağırırlar. Cümə günü idi. Çocuğun yadından heç söz çıxmaz, bütün əhali məscidə tərəf hücuma başladı. Bən də getdim. Bir molla minbərə çıxıb cəmaətə elan etdi ki, əyyühənnas! Sizə məlum olsun ki, Kərbəladə İmam Hüseynə öz qoşunu ilə köməyə gəlmiş olan Çin padşahı Zəfər cin mərhum olmuşdur. Ona görə biz şiələr gərək o həzrətə həm əza saxlayaq, həmi də ona xeyrat və ehsan verək! Cəmaət bu sözləri eşidən kibi başladılar hay-hay ilə ağlaşmağa və ağlıyıb doyandan sonra hamı vədə verdi ki, axund nə buyursa, əməl etməyə borcludurlar. Əvət, Zəfər cinin xeyratından qırx gün yedilər... Deməк, Zəfər min iki yüz ildir ki, yaşayırmış, zəhi səadət.

* * *

Buradan bir haşiyə çıxaq, bu il neçə ildir ki, Kərbəlayə gedən yoxdur; başlar qarışmışdı, lakin bu il Azərbaycan şura qulluqçularının bərəkətindən Kərbəla səfəri bir çoxlarına qismət oldu (Allah cəmi arzusunda olanlara dübarə bən rusiyah ilə belə qismət eləsin). Nə isə sözüm burada deyil. Bu il Kərbəladən gələnlər, neçə ildir ki, həsrət qaldığımız möcüz xəbərlərini də bizlərə gətirdilər. Möcüzələrdən birisi budur ki, Kərbəladə bir alim müctəhid yatıb aləmi-röyada Dəccalı görübdür. Dəccal azarlı imiş... Dəccal müctəhidə deyibdir ki, ay ağa, vallah, bən də azarlamışam, qorxuram ölüm bəni tapa, müsəlmanların istədikləri gözlərində qala, həmi də eşşəyimin də palanı dağılıb, pulum yoxdur ki, təzə palan alım, laməhalə, sən Əli ibn Əbutalıbın xalis şiələrinə ki, Mehdi Sahibzamanı gözlüyürlər, xəbər ver mənim eşşəyimin palanına heç olmasa yamaq üçün 5-6 min danə xalçadan, palazdan göndərsinlər ki, palanı yamıyıb bəlkə birtəhər xüruc edə biləm. (Səhih rəvayətlərə görə, Dəccalın eşşəyinin iki qulağının arası yeddi mildir; təxminən 29 verst). İndi fikir edin, bu boyda bir eşşəyin palanına neçə bin xalı lazımdır ki, yamaq qayırılsın, hə,

Allah şəkkakə lənət eləsin, indi ağayi-müctəhid yüzünü dutub müsəlman qardaşlara deyir ki, ay müsəlmanlar, Dəccalın xatiri üçün yox, təkcə o məlunların üzünü yerə sürtmək üçün hansılar ki, deyirlər Mehdi çoxdan ömri-təbiisini keçirib və vəfat edib qurtarıb gedibdir – indi hər kəsdə nə qədər xalça-palaz mümkünsə göndərsin. Kərbəlayə (haman müctəhid ağayə) ki, o da bir yol ilə yetirsin Dəccalə, o da eşşəyinin palanını yamasın, bəlkə Dəccal xüruc eliyə ki, onun dalınca da Mehdi zühur edə.

Məsələ məlumdur, ağa müctəhid Dəccalı yuxuda görə bilər, lakin ona palazları bilməyinə mən şəkk eliyirəm! Hə... Zəfər cinin xeyratı yadıma düşür, sən xalça-palazı göndər, daha nə işin var!

* * *

İkinci möcüzə də budur ki; Şişə şəhərindən Kərbəlayı Mustafa adlı bir kor kişi bu il Kərbəlayə gedib və orada ağayə dəxil düşüb möcüz olub, Kərbəlayı Mustafanın gözləri açılıb anadan doğulma olubdur. Ona görə də qayıdıb Qarabağa gəlmiyibdir, Şişədə iki müsəlmanı bir yerdə görsən görərsən ki, elə möcüzə inanmıyanların atalarına lənət oxuyurlar, bu heç, oxusunlar, ama sonra məlum olubdur ki, xeyr! Kərbəlayı Mustafanın atı yolda gəberib, qalıb piyadə, zəvvar da ki, ağzı evinə doğru düşdü atasını da tanımaz, Kərbəlayı Mustafanı qoyub çıxıb gəliblər, nəinki yazıq Kərbəlayının gözləri açılıb bəlkə dərdinin üstünə bir müsibət də artıbdır. O da Təbrizdə dilənçilik etmək. Bu da məlumdur ki, İranda müstəhəqqə ehsan edən olsa, daha bu qədər kor, şil, keçəl-küçəl zibil kibi Qafqaza tökülməz. Kərbəlayı Mustafanın əhvalatı bu gunədir, nə ki, Kərbəladən tazə gəlib heç yalan danışmayan bəzi kərbəlayılar söylədiyi kibi. Allah oxuculara Kərbəla qismət eləsin.

*Məşədi Sijimqulu*
*"Molla Nəsrəddin", 1923, № 17*



# ƏZİZ DOSTLARIMIZ

Atalar sözüdür, deyərlər: "Əl əli yuyar, əl də tutub üzü yuyar".

Bizim dünyada çox yaxın dostlarımız var ki, iyirmi ildir bizim başımız dura-dura, ayağımıza daş dəyməsinə razı olmayıb və bu gün də elə həmən sədaqətlərində baqi qalıblar. Ancaq bu minlərlə olan dostlarımız arasında seçilmə (müstəsna) oyləri vardır ki, nə biz onları bir dəqiqə olsun yadımızdan çıxarırıq, nə də onlar bizim haqqımızda xeyir-duadan fariğ olurlar. Bu kimilərə biz "əziz dostlarımız" deyirik.

Bu əziz dostlarımızdan Qrozna şəhrində üç nəfər vardır. Bu üç nəfərin biri üləmalarımızdan cənab müstəqab Axund Molla Əli Dərbəndidir. Bu fəzilətməab əfəndi bir gün olmaz ki, minbərdə, məsciddə bizi yadından çıxartsın, həmişə "Molla Nəsrəddin"in rəvaci-intişar və yaşaması üçün çalışmaqda və cəmaəti bu məcmuəyi oxumağa tərğib və təşviq etməkdədir.

Hələ bu yaxınlardan bəri bir az da damağı kök olduğuna görə (çünki bu günlərdə ömrünü tazələmək üçün 17 yaşında Allahın əmri ilə cəvan bir qız alıbdır) daha da təbliğ və təşviqatını artırmaqdadır.

İkincisi məşhur Avara Fərəcdir. Bu möhtərəm vücud ömrünün əvvəlindən indiyə kimi bircə gün də bir işlə məşğul olmuyub, ancaq dostumuz axund kibi şəxslərin quyruğu kibi həmişə onun arxasında olub və həqqimizdə axund ilə bərabər çalışıb bizə kömək etməkdədir. Belə ki, əlində dəyənək gəzib xəlqi döyə-döyə "Molla Nəsrəddin" almağa vadar edir və "Molla Nəsrəddin"in vəkillərindən qorxub məcmuə gətirdib satdırmayan olanda əlindəki dəyənək ilə onu təhdid edir ki, gərək Mollanın rəvacına çox çalışasan.

Üçüncü dostumuz: çayçı Məşədi Novruz İsmayılovdur. Bu da ki, məlumdur. Çayçı dükanına Allahın mömin bəndələri çox gəlir. Bu kişi də həqqimizdə əlindən gələni əsirgədiyi yoxdur.

Bu əziz dostlarımızın bərəkətindən Qroznıya göndərdiyimiz məcmuələrimizin hamısı oraya gedən kimi qapış-qapış olub satılır və neçə aylarla orada yığılıb qalıb bir də üstümüzə qayıdıb gəlmir. Xaliqi əhəd bizim bu əziz dostlarımızı yerin-göyün bəlalarından mühafizə eyləsin.

*"Molla Nəsrəddin", 1926, № 42*

## İYİRMİ İKİNCİ İL

Biz 1927-ci ilə qədəm qoyuruq, bu 1927-ci il bizim üçün çox əzizdir. Çünki əvvəla, "Molla Nəsrəddin" iyirmi iki yaşına girir, ikinci də ölkəmizin şuralaşdığının yeddinci ili olur. Biz dönüb arxamıza baxanda iyirmi iki il bundan qabaqkı halımızı yadımıza salırıq, "Molla Nəsrəddin" ortalığa çıxıb xalqın övzainə gülməyə başlayandan sonra özünə bir çox dost və tərəfdar qazandığı kimi bir çox da düşman qazandı. "Molla Nəsrəddin"in dostları özü kimi yoxsul kəndlilər, muzdurlar, işçilər və ziyalılardan, düşmanları da çarlardan, sultanlardan, şahlardan, mülkədar, bəy, xan, qoçu, qarnı yoğunlardan, xüsusən, müctəhid, müfti, molla və seyidlərdən ibarət idi.

"Molla Nəsrəddin" uşaqların əlində oyuncaq, evlərdə ocaq alışığı, aşxanalarda xörək süfrəsi, dükanlarda şor, pendir qabı, məscidlərdə ayaq altı ola-ola xəlqin bulaşıqlı gözünü açması zorbalara xoş gəlmədi, etiraz edildi, mübarizə başlandı.

Bu uzun illərdə həbslər, mənfalar, ölümlər, lənətlər və söyüşlərə düçar olan kütlə, xalq bunların hamısına dözdülər.

Məktəbsiz, maarifsiz, hüquqsuzluqlara köks gərdilər, hər nə istədilər vermədilər, hər nə dedilərsə eşitmədilər, lakin xəlq ilə bərabər "Molla Nəsrəddin" də naümid olmadı.

Hər axşamın bir sabahı olacaqdı,
Gecə gedib günəş parlaq doğacaqdı.

Bu gün "Molla Nəsrəddin" iyirmi iki yaşında 1927-ci ilə qədəm basdıqda nə görür. O görür ki, uzun illər xəlq maarif və hürriyyəti qabağının çəpərləri olanlar ortadan təmizlənmiş, silinmiş, qaldırılmış və əzilməkdə, tapdalanmaqda olan xəlq ayağa qalxmışdır.

"Molla Nəsrəddin" indi qabağında keçmiş xərabəliklərin yerində xəlqin öz əməyi ilə, qabarlı əlləri ilə əmələ gəlmiş maarif, sənaye, təsərrüfat və xeyriyyə müəssisələri görür. "Molla Nəsrəddin", illərlə əsirlik zənciri ilə bağlanmış qadınların bugünkü halını görüb, özünün çəkdiyi zəhmətlərini unudur və özünün apardığı mübarizədə qalib çıxdığı üçün fəxr edir. "Molla Nəsrəddin" öz dostu olan xəlqin gələcəkdə daha da məsud olmasını səmimi olaraq arzu edir.

*Məşədi Sijimqulu*
*"Molla Nəsrəddin", 1927, № 1*



## MƏTBUAT

Hərdənbir bikarçılıq olanda qəzetləri tökürəm qabağıma baxıram ki, görüm müsəlman aləmində nə kimi yeniliklər vardır. Doğrudan da bəzən bizim nəzərimizi cəlb edəcək əhvalatə də rast gəlirik. Məsələn, qəzetlərdə bu günlər İrandan bir belə xəbər oxuduq.

"İran hökuməti İranın müxtəlif yerlərində kənd təsərrüfat banklan açmaq üçün tərtib edilmiş nizamnaməni məclisin təsdiqinə veribdir. Bankın əsas sərmayəsi 25 milyon tümən olacaqdır. Bu pul da ancaq vəqf mülkləri satmaqla əldə ediləcəkdir!" Mən bu xəbəri oxuyanda o saət keçmişdə İranda hər belə-belə işlərin qabağına çıxan İran müctəhid və mollaları gəldilər durdular gözümün qabağında, hə, necə yəni moqufat mülkləri satılıb, o müqəddəs pullar kəndli-məndlinin ehtiyacı üçün banklara verilsin! Bu necə ola bilər? Buna İran üləmaları necə razı olarlar? Hələ kənardakı mollalar dinmirlər. Çünki gözləyirlər ki, görsünlər məclis buna nə deyəcək. Axı elə məclisdə əyləşən ağaların da çoxusu molladır, seyiddir. Hələ əvvəlcə görək onlar buna mane olub məclisdə böyük bir gurultu qoparsınlar. Haşa, sümmə haşa, birdən məclis nizamnaməni təsdiq etdi, sən onda gəl gör ki, İranda analar necə mollalar doğubdur. Məgər o bütün İranın ikiayaqlı sahibləri qırılıbdırmı ki, yol versinlər... Heç vəqt bu ola bilməz. Müqəddəs moqufat hər lütün, bambılının ehtiyacı üçün satılıb kənd təsərrüfat bankı kassasına qoyula bilməz. Bu bidətdir, buna məclisi-millidə olan mollalarla bərabər bütün İran müctəhidləri də qarşı çıxıb yol verməməlidirlər. Bu bidətdir, ziddi-şəriətdir.

*Məşədi Sijimqulu*
*"Molla Nəsrəddin", 1927, № 20*

## MƏTBUAT

Biz, "Molla Nəsrəddin" məcmuəsinin intişarından bu günə kibi həmişə mollaların və şəriətin tərəfdarı olmuşuq. Biz heç bir dəfə də razı olmamışıq ki, dinimizin, şəriətimizin qoyduğu qanunlara xələl gəlsin, hər daim çalışmışıq ki, oruc, namaz, qurban, məhərrəmlik rövnəqlənsin, hələ arvadlar məsələsində biz lap ayrı bir yol dutub,

onların məktəblərə getməməsinə, dünya işlərindən xəbərdar olmamasına, üzüaçıq küçəyə çıxmamasına, ərlərinin üzünə ağ olmamasına səy eyləmişik. Biz həmişə demişik ki, bu dünya beşgünlükdür, beşgünlük dünyadan ötrü həmişəlik olan axirəti əldən buraxmaq olmaz. Ancaq bizim bu sözlərimizi və işlərimizi müsəlmanlar tərsinə başa düşüblər. İndi arvadlar yavaş-yavaş da olsa bizim nəsihətlərimizə baxmayıb adam kimi meydanə çıxmağa başlamışlar. Hələ bəzi qəzetələrimiz arvadların çarşavı atıb yeni həyata keçmələrini sevinə-sevinə qeyd edirlər. Məsələ, rəfiqimiz "Qızıl Türküstan" qəzetəsi yazır: "Səmərqənd əski şəhərində qadınlar hərəkatı gündən-günə artır və möhkəmlənir. O cümlədən Səmərqənddə təkcə Xoca Zəvalmurad məhəlləsində açıq gəzən xanımların sayı yüz faizə yetdi. Çarşaf və rübəndi atan xanımlar apreldə 253 nəfər olmuşdur. Bunların arasında 7 nəfər domla, imam, işan və mütəvəlli arvadları da çarşaflarını atmışlar".

Rəfiqimiz "Qızıl Türküstan"ın bu sevincinə biz şərik olmuruq, bir halda ki, arvadların üzüaçıq gəzmələri xilafi-şərdir və buna nə Allah, nə peyğəmbər, nə Quran, nə din razı deyil, pəs buna və bu kimi işlərə sevinmək yersizdir. Bundan başqa da "Qızıl Türküstan" öylə xəyal eyləməsin ki, din tərəfdarı olan cahil qocalarımız və fitnəkar işanlarımız daha yoxdur. Arvadlar çox da həyasızlıq eləsə, Cəzzəkdə (Cəzzək Səmərqənd yaxınlığında bir qəsəbədir. Məsqal Aykərim qızı fəal bir işçi qadın imiş ki, xuliqanlar öldürmüşlər) öldürülüb boğazından asılan "Məsqal Aykərim qızını" ibrət üçün onlara göstərərək "Qızıl Türküstan" rəfiqimiz, tez sevindiyindən şitlik eyləməsin.

*Məşədi Sijimqulu*
*"Molla Nəsrəddin", 1927, № 22*



# MƏHƏRRƏM YAXINLAŞIR

Bəli, Məhərrəm ayı gəlib çatmaq üzrədir, fəqət bu mübarək ayın yaxınlaşması çox soyuq qarşılanır. Biz xalqımızda olan bu soyuqluğu təəssüflə qeyd edirik.

Yəni bu nə deməkdir, necə olar ki, müsəlmanlar bu "dini" təziyə mərasiminə kəmetina olsunlar. Yəni doğrudanmı müsəlmanlar lap mövhumatçılığı atıblar? Ax, keçən günlər, hanı o günlər ki, hələ məhərrəm ayına on-on beş gün qalmış Gəncədə, Bakıda, Qarabağda, Qubada məscidlər, təkiyələr silinib, süpürülüb işə başlanardı. "Allahın vəkilləri" sayılan və xəlqin gözünü bağlamaq, özlərini dindar və müsəlmanların xeyirxahı göstərmək istəyən qarnıyoğunlar, öz evlərində hər gün axşam büsat qurub qəhvə, çay, yemək verməklə xəlq yanında bununla öz eyiblərinin üstünü örtmək və xəlqi yenə il başından özlərinə isnişdirmək üçün fədakarlıq göstərərdilər.

Hərçənd ki, indi yenə də mayeyi-iftixari-millət sayılan molla və dindarlarımız vardır. İndi yenə on gün məhərrəmi minbərdən xəlqə moizə edib tasura və aşura günü məscidin qapılarını müridlərinə bağlatdırıb "hər kəs məsciddən çıxsa və hər kəs imam təziyəsinə pərxaşlıq qatsa bu minbər sahibi ona qənim olsun" – deyib isti məsciddə xəlqi ta son qəpiyinə qədər soyan mollalarımız vardır. Ancaq o vaxt hara, indiki zaman hara.

Doğrudan, xəlq o qədər dünyagörmüş olubdurlar ki, bu cür "müqəddəs" vəzifələrinə yaxşı baxmırlar? İnsan dünyada nə qədər yaşasa, axırda öləcək və öləndən sonra da ona axirət lazım olacaq. Necə insafdır ki, bütün ili get oğurluq, əyrilik elə, daşdan, tərəzdən kəs, özgələrin irz-namusuna təcavüz et, adam öldür, ev yar, gəlib bu on gündə bir qətrə göz yaşı töküb bütün nəslinlə bərabər günahlardan azad olma. Mollanı və onun cənnətini beş-üç manata alma. Həqiqət Molla Nəsrəddin də molla olduğu üçün müsəlmanların bu soyuqluğuna darıxır, onların bu hərəkətlərindən küsür. Bir səlavat xətm elə.

Molla Nəsrəddin ümid edir ki, yenə din aşiqi və qeyrəti olan qoca və cavanlarımız bu il də Bakıda, Şuşada və Gəncədə keçən illərdə olduğu kibi, gedib xəlvətcə bağda, bağçada, töylələrdə öz nəzirlərini əda edəcək və imam yolunda heç bir yaramazlıq yapmaqdan çəkinməyəcəklər. Molla Nəsrəddin bunu ümid edir.

*Məşədi Sijimqulu*
*"Molla Nəsrəddin", 1927, № 25*

## KİM DOĞRU DEYİR?

Əlbəttə, qəzetə və məcmuələrdə yazılan yazıları hamı oxuyur və oxuyandan sonra da fikirləşir ki, görəsən birinin haqqında yazılmış bir tənqid doğrudurmu, doğru deyilmi. Əlbəttə, bunu düşünməklə bilmək olmaz. Sən nə bilirsən ki, biri götürüb Gəncədən birinin haqqında bir şey yazıb doğrudurmu, yalandırmı. Hər halda bunu bir yazan bilir, bir yazılan. Müxbirlərimiz tənqid ediləcək şəxsləri istər xidmətçi olsun, istər kənar adam olsun – tənqid edirlər və onların rəftarını, hərəkətini görüb məcmuəmiz vasitəsilə onun üstünə gülürlər ki, o kişi özünü bir az yığışdırsın. Ancaq elə ki, Molla Nəsrəddin bir "böyük" adamın haqqında bir şey yazdı və onun hərəkətini tənqid etdi, gəl sən indi bax gör nə qədər cavablar gəlir. Məsələn, Şəkidən bizim inandığımız müxbirlərimiz birinin eybini yazır, biz də çap edirik və bilirik ki, müxbirimiz doğru da yazıbdır. Bundan sonra haqqında yazılan vətəndaş bütün qüvvəsi ilə başlayır cavab verib özünün güldən gözəl, güzgüdən pak və sudan təmiz olduğunu isbat eləməyə...

...Bir də müxbirlərimiz özlərini gözləmirlər. Bəziləri olur ki, böyük adamlara dolaşır, əlbəttə, adam gərək böyük-kiçik tanısın. Yoxsa axırda başına bəla gətirər. Vay bir müxbirin halına ki, ola Danabaş kəndində və kənd ispalkomunun oynadığı oyunlardan yaza. Onda gərək həman müxbir qabaqca kəfənini alıb başının altına qoysun. Necə ispalkom? Heç ispalkomun eybini yazmaq olar? Onun əlində ixtiyar var, müxbiri kənddən də qovar, hələ şəhərdən də. Bircə burası var ki, ğeybi Allahdan başqa heç kəs bilə bilməz. Ona görə biz də lap Allah kimi doğrusunu bilmirik ki, kim doğru deyir.

*Məşədi Sijimqulu*
*"Molla Nəsrəddin", 1927, № 30*

## ÜMUMİ DƏRDLƏRDƏN

Bu gün baxıb görürəm ki, şəhərlərdən gələn yoldaşlar hamısı giley-güzar edirlər. Deyirəm: ay oğul, bu nə giley-güzardır, deyirlər ki, necə biz giley etmiyək, görürük Şirvanda aptekada dərmanı bu



qiymətə satırlar. Şəkidən gələn də deyir ki, orada bir başqa qiymətə satırlar. Gəncədən gələn birisi deyir ki, mən Gəncədə bir dərmanı altı qəpiyə aldım, ancaq Bakıda üç qəpiyə verirdilər.

* * *

Biz indi həm qənaət ilə mübarizə aparırıq, həm də qiymətlərin hər yerdə bir dərəcədə olmasını istəyirik.

Çox yaxşı, vəqta ki, biz bunu istəyirik, bəs nə üçün həyatə keçirə bilmirik. Bunda bir çox səbəblər vardır.

1) Biz hər gün qəzetlərdə oxuyuruq ki, filan kooperatifin sədri, yaxud filanı filan qədər kooperatif parəsini mənimsəmişdir.

2) O biri günü oxuyuruq ki, filankəs filan yoldaşları ilə əllərində tapança gəlib kooperatif dükanını qarət edibdirlər, bəs bunun axırı nə olsun?

* * *

Şeylərin ucuzlaşması və dərman məsələsi oylə bir məsələdir ki, onu mütləq danışmaq və söyləmək lazımdır? Necə yəni bizim işlərimiz o qədər ağır gedəcəkdir ki, Gəncədə alınan bir dərman Bakıda ucuz və Şəkidə Bakıdan baha olsun.

Hər halda Molla Nəsrəddin qocalmışsa da, o yenə hər bir şeyi görür və onu dərk edir. Bəs biz nə yapmalıyıq ki, bu işləri düzəldək, hər halda biz özümüzü düzəltməliyik.

*Məşədi Sijimqulu*
*"Molla Nəsrəddin", 1927, № 32*

## ƏZADARLIQ

Doğrudan biz dünyayə gəlmişik beş günlüyə, bu beş gün keçəndən sonra axirətə təşrif aparmalıyıq. Bəs bu beş günü burada biz nə ilə məşğul olmalıyıq. Əlbəttə, bir dünya ki, fanidir, ona o qədər bənd

olmaq lazım deyil. O ki qaldı axirətə, yəni aləmi-bəqa ki, o həmişəlik olacaqdır, oranı abad etməlidir. Oranı, yəni darülbəqanı nə ilə abad etmək olar? Əlbəttə, imamlara ağlamaqla. Sabah ərbəindir, bunu bilməyən gərək bir müsəlman olmasın. Bu gündə göz yaşı tökməyən bir Məhəmməd ümməti qalmamalıdır. Bizim Azərbaycanda hərçənd ki, yersiz bu yaşı tökmənin qabağını kəsiblər, amma sən bu balaca Azərbaycana baxma, sən bax qonşuda altı min illik bir məmləkət olan və 26 milyon nüfusi olan İranə, gör İranda nələr olur. Məhərrəmin birindən ta bu günə kibi İranın hər yerində ağlaşmadır. Hətta hökumət dairələrində, hətta parlamendə belə, hətta gələcəyi parladacaq İran qəzetələri belə məhərrəm girəndən bəri ağlayırlar. Bunu biz özümüzdən toxumuruq, budur qabağımızda İranın paytaxtı olan Tehranda nəşr olunan "Tofiq" qəzetəsi. Yazıq "Tofiq" o qədər ağlamış, o qədər başına döymüş ki, lap bildiyini də itirmişdir. 22-ci nömrəsinin birinci səhifəsinin birinci sütununda "Tofiq" həzrətləri gözəl yazılmış bir mərsiyəsində deyir:

Emsal-həqiqət həmeca Kərbəla bud,
Ta çərx bərin zümzəme və şur o nəva bud
Mahü fələkü əncümü xurşid əzadar
Əz matəme fərzənd rəsuli dusəra bud.

Heyif ki, bu şeri axıra qədər oxucularımıza yazıb göstərə bilmədik. Çünki həmi fars dilindədir, həmi məcmuəmiz balacadır, "Tofiq" bu şerində bir qiyamət qoparmışdır. Bütün əsnafın əzadarlığını bu şerində göstərmişdir. Yuxarıdakı iki beytin mənası müxtəsər belədir: bu il İranda həqiqətən hər yer Kərbəla olmuşdu. Ağlaşmanın səsi göyə çıxmışdı. Ay, fələk, yıldızlar, günəş hamısı əzadar idi. Kimə? İki dünyanın göndərilmişinin oğluna, yəni İmam Hüseynə.

* * *

"Tofiq" İranın ağlar gündə olan fəhlə və kəndçilərinə üzünü dutub bu şərqini də oxumalı idi:

Səni minsin xanlar, şahlar,
Ürəyindən sən çək ahlar.



Bağışlanar həp günahlar,
Sən ağlama, mən ağlayım.

Bəli, əzizim, doğrudan da İranın və iranlıların dünya və axirət səadəti elə bu ağlamaqda olacaqdır. Bunu kim inkar edə bilər? Bu fani dünyada olan elm, sənət, tərəqqi, mədəniyyət hamısı puç və bimənə şeylərdir. Əvvəl-axır insanə axirət qalacaqdır. Axirət evini burada tikməli və ora üçün hazırlaşmalıdır. Axı bu dünyada bir əziyyətdən başqa nə var ki?

Ağna qardaşım ağna, ağnamalı günündür. Ühü... ühü... ühü... Allah əcr versin!

*Məşədi Sijimqulu*
*"Molla Nəsrəddin", 1927, № 34*

## ÜZÜNÜ AÇMA!

To ze əğyar rüxi-xiş bepuşan zinhar
Nərəsəd meyvə dər an bağ ke divarəş nist.

*"Tofiq" qəzetəsindən*

Türkcəsi: sən öz üzünü əğyardan gizlət ki, divarsız bağda meyvə yetişməz. Pəh, pəh, nə gözəl kəlam, nə pürmənə şeir. Doğrudan indiyə kimi kim görübdür ki, divarsız bağda meyvə yetişsin?

Bir bağın ki, dörd ətrafının divarı bir qələ divarı kibi divarlı olmadı, o bağda meyvə yetişməsi qeyri-təbii olar.

Bir bağın divarı, bütün müsəlman və İran arvadlarının yaşadığı evlərin divarı kibi uca və küçədə, evdə büründüyü çarşaf kibi qalın olmasa, oradakı meyvələr də bu arvadlar kibi yetişməz, kal qalar.

Min illərlə İran qadınlarını bu kibi laylalarla yatırdanlar, qəribə budur ki, indi də bu nəğmələrini dəyişmək istəmirlər. Əlbəttə, bir məmləkətin ki, "Tofiq"i tədiyədən və məclisi-millidə mərsiyə oxumaqdan bəhs edələr, onda divarsız bağda meyvə yetişməz.

* * *

Biz bu günə kibi heyran qalmışdıq, başa düşə bilmirdik ki, nə üçün üzüaçıq gəzən, "bağlarının divarı olmayan" Yevropa qadınları dalda qalıb, elmsiz və qabiliyyətsiz olub kal qalmışlar. Ancaq İranın dörd divar arasında qalın səyyar zindanlar içində gəzən arvadları bu qədər tərəqqi edib, bu qədər yetişmişlər. Biz ancaq indi başa düşdük ki, "divarsız bağda meyvə yetişməz". Allah "Tofiq" kibi "əsri" və "maarifpərvər" qəzetələrin atasına min rəhmət eləsin ki, onların köməyi və göstərməyi ilə biz də bilmədiyimiz mühüm bir məsələni öyrəndik.

* * *

Biz buraya qədər "Tofiq"in fəlsəfəsinə "pəh-pəh" deyə-deyə gəldik. Ancaq biz gözümüzün qabağında edilən minlərlə təcrübələri də görmüşük. Görürük ki, günəş və hava görməyən yerlərdə, üstü-örtülü məhəllələrdə nə bitki bitir, nə meyvə yetişir. Hail olmayıb, günəşin ziyası çarpan yerlərdə hər şey daha yaxşı əmələ gəlir.

İran qadınlarının gözləri aydın olsun, müctəhidlərin, mollaların laylası bəs deyilmiş, İran qəzetəsinin onlar üçün çaldığı düdüyü də eşitsinlər.

To zc əğyar rüxi-xiş bepuşan zinhar,
Nərəsəd meyvə dər an bağ ke divarəş nist.

Üzünü açma!
Görəsən İran qadınları bu kibi şeirlərə nə deyirlər?

*Məşədi Sijimqulu*
*"Molla Nəsrəddin", 1927, №35*



## "FƏRYADİ-AZƏRBAYCAN"

Məqaləmizə sərlövhə qərar verdiyimiz "Fəryadi-Azərbaycan" İran Azərbaycanında nəşr olunan bir qəzetənin adıdır.

Biz bu cümləni, yəni "Fəryadi-Azərbaycan" cümləsini məqaləmizə ünvan götürməkdən məqsədimiz odur ki, doğrudan da "Fəryadi-Azərbaycan" elə azərbaycanlıların fəryadıdır. Necə də olmasın, həqiqətdə də onun mündəricatı elə Azərbaycan xəlqlərinin fəryadından ibarətdir.

Hərçənd mən istəmirəm ki, İrandan bir kəlmə olsun belə yazım, lakin bu məmləkətin qəzetələri adamı rahat qoymur.

Sən allah, bir qulaq as gör sənə "Fəryadi-Azərbaycan"dan nə iqtibas edib göstərəcəyəm.

"Fəryadi-Azərbaycan" 505-ci nömrəsində belə bir hekayə yazır. Əlbəttə, bütün Əli şiəsi buna inanır və inanacaqdır. Çünki Təbriz kibi "mədəni" bir şəhərdə çıxan "Fəryadi-Azərbaycan" yalan söyləməz və o çünki "əsri" bir qəzetədir və daima mövhumat ilə uğraşır. Və mövhumi şeyləri (yazıları) öz səhifəsində çap etmir. Hekayə belədir:

"Səhih xəbərlərə görə "Əcəbşir" qəsəbəsindən "Mehr" kəndinə bir qadın gəlmiş, bu qadın Nəsir Şişvanı adlı bir şəxsin qızıdır. Adı da Gülşən bəyimdir. Bu qadın "Mehr" kəndinə varid olduğu gün aşura axşamına təsadüf etdiyindən küçələrdə və məscidlərdə əzadarlığa məşğul olan adamlara rast gəldikdə "istehza" edərək: "Nə vaxta kimi "ya Abbas", "ya Hüseyn" çağırıb bu kibi mövhumi işlərdən əl çəkməyəcəksiniz" – dediyi zaman boğazı tutulub, ürək ağrısına mübtəla olmuşdur.

Bəzi qadınların izharatına görə hətta üzü arxasına çevrilmişdir. Bu böyük əzabə mübtəla olan Gülşən bəyim 24 saətdən sonra dünyanı tərk etmişdir.

Artıq Marağa şəhərində çürümüş "Heydəri", "Neməti" məsələsi üstündə bir çoxlarının ölüb yaralandığını yazmağa dəyməz...

Oxucularımız bu "Fəryadi-Azərbaycan" və "Təbriz" qəzetlərinin nə qədər azərbaycanlılar üçün yazıb çalışdıqlarını özləri bu yuxarıdakı mündəricatları ilə isbat edirlər. Ümidvaram ki, oxucularımız bu qəzetələri özləri təqdis edərlər. Çünki bu yazılar təqdisə layiqdirlər.

*Məşədi Sijimqulu*
*"Molla Nəsrəddin", 1927, № 37*

## BÖYÜK ZÜLMDÜR

Dağıstanda Mahaçqala şəhərində nəşr olunan "Yoldaş" rəfiqimiz 81-ci nömrəsində Mahaçqala islahxanəsindən bəhs edib yazır ki, indiki islah evləri dustaq evi deyil, islah evidir. Habelə islah evində dustaqları islah üçün məktəb, krujoklar, qəzetə, jurnal, yoldaşlıq məhkəməsi olduğunu yazandan sonra ustaxanələr də olduğunu yazır və rəqəmlər ilə göstərir ki, filan sənətdə bu qədər, behman sənətdə də şu qədər dustaqlar işləyib həm parə alır, həm də sənət öyrənirlər.

"Yoldaş" yoldaşımız eylə bilir ki, bu iş elə təkcə Mahaçqala islahxanəsində belədir, daha bilmir ki, bütün Azərbaycanda da belədir. Bakıda belə, Gəncədə belə, Şəkidə belə, Şirvanda da belədir. Yoldaşımız, şura hökumətinin dustaqlara elm, sənət və ictimai həyatın yollarını öyrətdiyinə çox sevinir. Ancaq bunu unudur ki, sənət və elm öyrənməkdən qaçıb həmişə dağda-bağda quldurluq və qaçaqlıq ilə özgələrin zərərinə yaşamaq istəyən müsəlman qardaşları "öz azadlıqlarından" (?) məhrum edib gətirib elm və sənət zəhmətlərinə salmaq bu özü doğrudan da böyük zülmdür və bundan artıq zülm olmaz.

*Məşədi Sijimqulu*
*"Molla Nəsrəddin", 1927, № 52*

## YENİ ƏLİFBA VƏ İDARƏÇİLƏRİMİZ

Bizim hamımızda dədə-babadan bir azar vardır, bu azar da başqa mühüm azarlarımız kimi birinci yer tutan azarlardandır. O da budur ki, bir sözü, bir işi yoldaşımıza, qonşumuza deyərik ki, işləsin, fəqət özümüz əməl eləmirik. Biz çalışırıq ki, bütün savadsızlarımızı yeni əlifba ilə savadlandıraq, yeni əlifbanı idarələrimizdə möhkəmləşdirək, bunun üçün də yeri düşdükcə məruzələr oxur, nitqlər söylər, hamıya nəsihət edərik. Öylə ki, növbə özümüzə gəldi və idarəmizdə bunu həyatə keçirmək zamanı çatdı, onda o atəşin nitqlər, özgələrin əməl etməsi üçün söylənmiş bir misal məqamında qalır.

İdarəmizdə iş kağızlarının arasında, rusca və ərəb əlifbası ilə yanyana yeni əlifba ilə yazılı bir məşruhə, bir təlim bir ərizə gözümüzə sataşdıqda yavaşca onları itələyib o biri yazıların altına soxuruq ki, bizə əziyyət eləməsin.



Buradan bir haşiyə çıxaq. Sizə bir nağıl söyləyim: mənim Məşhədi Xoruzəli adlı bir dayım var, bolşeviklər meydanə çıxandan bəri yazıq kişi xeyli qocalıb və geriləyibdir, alış-veriş və başqa işləri əlindən çıxdığına görə yoxsullamış, özü də savadsız olduğundan indiyə qədər özünü bir qulluğa da sala bilməmişdir, bir gün dayım fikirləşir ki, belə yatmaq ilə iş aşmaz, gərək nə olur olsun mən də bir çoxları kimi hökumət hesabına yaşamaq üçün özümə bir yol tapam və əvvəlcə də bunun üçün zəhmət birjəsinə yazılmalıyam. Məşhədi Xoruzəli tanışlarından birinə yeni əlifba ilə bir yaxşı ərizə yazdırır və zəhmət birjəsinə qəbul olunması üçün ərizəsini "dərkənar" etdirməkdən ötrü gedir böyük idarələrimizin birinə, sədrə təqdim olunur, yoxsulluğunu və qocalığını söyləyib, zəhmət birjəsinə qəbul edilməsi üçün ərizəsinə "rezalyutsiya" qoymalarını rica edir və sağ əlini uzadıb sol qoltuq cibindən bir ərizə kibi bükülmüş kağız çıxarıb qoyur sədrin qabağına.

Sədr yoldaş da kağızın baş tərəfində (ərizəni oxumamış) qırmızı mürəkkəb ilə rezalyutsiyanı qoyur, katibmi, küqəyyədmi, o da qeydini qoyandan sonra (yenə oxumamış) ərizəni verir Məşhədi Xoruzəliyə. Məşhədi Xoruzəli "Allah iqbalınızı yeyin eləsin" duasını eliyə-eliyə çıxır bayıra.

İndi qulaq as: məzə burasındadır – oxumamışam məgər bu fərddən ötrü.

Məşhədi Xoruzəli bayıra çıxandan sonra özünü verir bir xəlvətə, ərizəni açır ki, həmən "rezalyutsiya" qoyulan yerdən bir öpsün, fəqət birdən-birə baxıb görür ki, yeni əlifba ilə yazdırdığı ərizə qalıb cibində, ancaq o günlərdə 700 manata icarəyə verdiyi evlərinin rusca yazılmış daqovorunu səhvən verib sədrə. Nə yaxşı ərizəni oxumamışdır, yoxsa işin üstü açılacaqmış. Sədr də, katib də heç bir kəlmə oxumadan daqovorun kəlləsində "rezalyutsiya" qoyublar. İndi təsəvvür et ki, Məşhədi Xoruzəli nə vəziyyətdə qalıbdır.

Qurban getdi, məhərrəmlik yaxınlaşır, rəhmətlik oğlu göylərdə əzab büsatı çidə olunur. Allah-təala həzrətləri o təziyələrdə özü də başına döyüb ağlayacaq. Fikrini oralara ver, qəlbini at Kərbəlayiməalayə nə yeni əlifbabazlıqdır, nə zəhmət birjəsi, nə "rezalyutsiya", nə 700 manatlıq daqovor, nə ərizə, belə iş olmaz ki, sən ha de ki, vallah olub, mən ki inanmaram.

*Məşədi Sijimqulu*
*"Molla Nəsrəddin", 1928, № 23*

## MƏTBUAT

Mənim ümumən islam aləmində və xüsusi olaraq İranda çıxan qəzetələri oxumağa böyük həvəsim var. Çünki bu zəhrimar, dinsiz, Allahsız şura qəzetələrini oxuya-oxuya lap dindən-dondan çıxmışam. Adam məscidə gedib mollanın movizələrinə vaxt tapa bilmir, ona görə mən İran qazetəsini əlimə alıb oxuyanda oylə bilirəm ki, oturub məsciddə Şeyx Qəni həzrətlərinin moizəsinə qulaq asıram.

Doğrudan yenə din təəssübü, musurmanlıq qoxusu təkcə bu qəzetələrdə qalıbdır.

Budur – qabağımda Məşhəddə çıxan "Bahar" qəzetəsinin 150–151-ci nömrəsi durur. Bu qəzetə Rəştdə təb olunan "İrani-kəbir"in bir məqaləsini dərc etmişdir. Məqalədə böylə yazılır: "Bakıda və şuraların başqa yerlərində kommunistlərin din əleyhinə olan təbliğatı bir təsir buraxmır, bərəks kəlisa və məscidlər get-gedə dindarlar ilə dolmaqdadır: "Habelə qəzetə: Bakıda və Minski şəhərində uşaqbaz keşiş və mollaların işlərini yalan hesab edib yazır ki, yenə musurmanlar və xaçpərəstlər uşaqbaz keşişlərin və Molla Əliqulunun tərəfində olub onların feli-şənində bulunmağına inanmırlar".

Bax! Görürsən nə qədər dindarlıq? Hətta bu musurman dindarlar din xadimi olan və öz dinlərinin düşməni olan keşişlərin də tərəfini saxlayıb onları da müdafiə edirlər.

İndi sən mənim İran qəzetələrinə nə üçün mayil və aşiq olduğumu bilərsən. Yenə İran mətbuatı, yenə "Bahar", yenə "İrani-kəbir". Yaşasın mənim ruhimə qaşov çəkən dindar qəzetələr.

*Sijimqulu*
*"Molla Nəsrəddin", 1929, № 17*



# Xatirələr

# Keçmiş günlər

İyirmi kilometro şərqdə Gəncədən
Öz torpağı, suyu, havasıyla şən.
Bir kənd var adına deyirlər Sərab
Keçmişlər yurd üçün etmiş intixab.
Hər yanı meşələr, bağlarla mühat,
Görkəmi qəlblərə verir inbisat.
Sürülər, naxırlar, ilxılar, quşlar...
Mələmə, kişnəmə, incə oxuşlar.
Tarlalar, bostanlar, otlaqlar, çəmən
Yamyaşıl atlaztək gözəl bir məskən.
Kəpəzdən, Mirabdan[1], xassə, Göygöldən
Minlərlə çeşmədən toplaşıb enən
Quraqçay[2] kəndə də uzatmış bir qol
Nuş edir canlılar, tarlalar bol-bol.
Durmadan dadlı su çağlayır parlaq
Canlanır bununla bitirkən torpaq.
Qoy qalsın tarixim yadigar sizdə
Bir min səkkiz yüz yetmiş səkkizdə.
Bir yoxsul külfətdə, bu kəndə həmən
Gəldim qəm çəkməkçin bu dünyaya mən.
*Bəsləndim* mən necə, böyüdüm necə? –
Bunlar mənim üçün qaranlıq gecə.
Lakin mən çatmamış səkkiz yaşıma
Bir sual girmişdi körpə başıma:
"Neçin bizim evdə süd, qatıq yoxdur?
Halbuki, hər kəsdə bu şeylər çoxdur.
Vardır çox kəndlinin camış, inəgi,
Qoşqu heyvanları, xışı, minəgi.
Çig kərpic evləri, davarı, malı
Atı, öküzləri, pis deyil halı.

[1] Kəpəz, Mirab – Gəncə dağlarından
[2] Quraqçay – Göygöldən başlayan çay

Hər kəs əkin əkir, heyvan saxlayır,
Hər yan qoyun, keçi, otlaq, çöl-çayır.
Yoxdur nədən bizdə bir öküz, bir xış?"
Gün keçir qazmada, yaz, payız, yay, qış.
Əppək yeyir biz də – qalmayırıq ac,
Lakin çox vəqtlər özgəyə möhtac.

## ANAMIN HEKAYƏSİ

Uşaqdım söylərdi masal tək anam
Bir erkək övlada həsrətmiş atam.
Yalvarmış Allaha, eyləmiş niyaz
Bir çox oruc tutmuş, qılmışdır namaz.
Çox dua yazdırmış, mollaya getmiş,
Pirlərə pul vermiş, nəzirlər etmiş.
Demiş ki, Allahım versə bir övlad,
Qəlbimi edərsə bu lütf ilə şad,
Hər şeyi yolunda mən fəda edib,
Satıb var-yoxumu Məşhədə gedib,
Eylərəm ziyarət Xorasan şahın,
Ödərəm borcunu böyük Allahın.
Bu nəzirdən sonra mən doğulmuşam,
Ölməmiş, külfətdə bir yer bulmuşam.
Bəslənib çatmışam ta ki bir yaşa
Nəzirlər çatmalı olmuşdur başa.
Satmışdır hər nə var bəxtəvər atam
Allahın borcunu verməkçin tamam.
Almışdır əvvəlcə bir palan, bir at,
Vermişdir çavuşa otuz-qırx manat.
Baxmamış külfətin hərcü mərcinə.
Götürmüş çoxlu pul öz yol xərcinə.
Almaqçın oğlunu imamdan satın,
Sürmüşdür Məşhədə doğru Qıratın.
O zaman Qafqazda dəmiryol yoxmuş,
Böylə at, eşşəkli zəvvarlar çoxmuş.
Çəkmiş Məhəmmədin səfəri beş ay



Keçmiş əkin-biçin mövsümü: yaz-yay.
Girmiş də "qış gəlir" – söyləyən payız
Yeməksiz qalmışlar arvad, oğul, qız.
Yolda müsafirin gəbərmiş atı,
Olmuş bu zərbə çox tutarlı, qatı.
Öndə uzaq yol var, cibdə az para,
Bu halla, piyada gedilir hara?
At almış, düşmüşdür borca on tümən,
Qazmışdır oğluna bir quyu erkən.
Çəkmişdi çox zəhmət bu dindar bəndə
Yoxmuş bir bəstisi kəndə dönəndə
Bu Allah bəndəsi, imam aşiqi
Almışdı Məşhəddən şərbət qaşığı.
İki daş qrafin, iki mis kasa,
Badamça adlanan bir də bir əsa.
Bir az xurma, möhür, bir az da təsbih,
Bunlar o yanlışı edərmi təshih.

## KƏNDDƏ TORPAQ VƏZİYYƏTİ

Çar ordusu Şərqə yürüyən zaman
Gəncənin zəbtində yararlıq yapan,
General Maksimoviç edilmiş təltif
Etmirəm bu sözlə tarixi təhrif.
Nəsildən-nəsilə söylənib gələn
Tarixi sözləri nəql edirəm mən.
Genrala verilmiş böyük bir torpaq
Dərəsiz, təpəsiz, düz, münbit, parlaq.
Bizim kəndin dəxi yarısı o gün
Genrala keçmişdi, sözsüz, büsbütün.
Genraldan başqa da qulluq göstərib
Bəy olmaq fikrilə hərbdə döş gərib,
Bütün nəsli ilə mükafat alan,
Erməni varlısı – Kamtsar Ağamyan
Kənddə təmamilə olmuş mülkədar

Keçmişdi bəylərə yer, həm ixtiyar.
Bütün bir kənd ona edilmişdi qul
Varlı olanlar da düşmüşdü yoxsul.
Kənddə yaşardı türk, həm də erməni
Bir yerdə sıx, yaxın tarla, xərməni
Kəndli çox az torpaq almışdı "nadel"
Sıxıntı çəkməyə başlamışdı el.
Kəndli azadlıqdan keçmiş qulluğa,
Məhkum edilmişdi tam yoxsulluğa.
Kəndli toxum qoyur, həm öküz, həm can,
Əkib, biçir, döyür, sovurur haman,
Doldurur bəylərin anbarlarını
Daim çuvalı boş, acdı qarını.
Ödəyə bilməyir artıq "gəl, ver"i,
Çünki bəylərdədir mədaxil yeri.
Onlar sorur, əmir xalqın qanını,
İstismar eyləyib alır canını.
Borclu mülkədara yüzdə doxsanı,
Yoxdur qurtarmağa bundan imkanı.
Birdən toxum bitməz, yağmazsa yağış,
Göylər edərdisə yerlərə qarğış,
Bir il verilməzsə borc, basır sələm,
Bəyin əlindədir dəftər, həm qələm.
Bir kəndli oldumu borclu yüz manat,
Sanma ki, qurtarar bu tordan... heyhat!
Kəndlərdə köhnədən vardır bir məsəl
Söylənmiş çox haqlı, münasib, gözəl:
"Borcun ki olmuşdur, əkinçi, bir yüz!
Artıq çıxammazsan, gir içində üz!"

***

Böylə bir hal içrə el zəifləşir
Bəylərsə əksinə ilbəil şişir.
Kənddə bəy quyruğu üç-beş qolçomaq
Boğub yoxsulları olsun hər sayaq.
Olmuşdu bunlar da xırda mülkədar



Muzdur, yoxsullara kənd uçuq məzar.
Yoxsul bağ-bağçası bir-bir satılır
Bəydə olan böyük mülkə qatılır.
Kəndlinin çox qismi nökər, rəncbər,
Yaşardı ac, çılpaq, yolçudan betər.

***

Atam yardımçısız, həm də yoxsulmuş
Ziyarətdən sonra lap müflis olmuş.
Satmış əlindəki bir gözəl bağı,
Əkmək bacarmamış az bir torpağı.
Məhv olmuş, getmişdir bir təsərrüfat,
Nə toxum, nə xış var, nə öküz, nə at.
Əkir ildə ancaq xırda bir bostan,
Kəndə də çıxmır ki, çox gəlir bundan –
Beş baş bir ailə dolansın bir il
Ac, çılpaq qalsa da, olmasın səfil.
Yalqız dirrik yerin bel ilə təpir
Təkcə lək hazırlar, tək toxum səpir.
Təkcə suvarmada, təkcə alaqda
Ta ki, xiyar, qovun yetişir tağda.
Əsla dinc olmadan daim əlləşir,
Dırnaq, alaqkeşlə ləkləri eşir.
Ancaq çıxarmaqçün bir tikə əppək,
Böylə gündüz-gecə çarpışırdı tək.
Bir il, anam deyir, fəsli-bahardı
Yenə çox yaxşı bir dirriyi vardı.
Xiyar, qovun, qarpız açırdı çiçək,
Hər bitki ümidbəxş, hər lək şən, göyçək...
Çox məhsul almağa ümidi vardı,
Hər gün o tağları ögüb, oxşardı.
İrandan çox güclü çəyirtkə gəldi,
Kişi bərk çaşmışdı, işi əngəldi.
Dirriyi yeyəcək çəyirtkə tamam
Külfət qalacaqdı yemsiz, vəssalam.
Qəhrəman dirrikçi baxıb durmadı,

Boynunu ümidsiz büküb burmadı.
Kənddə hər kəsdə ki, var idi səbət,
Dirriyə daşıdı var ikən fürsət.
Tağların üstünü örtdü səbətlə,
Yırtıq, deşikləri tutdu diqqətlə.
Bir yarpaq qoymadı qalsın eşikdə,
Gecə də, gündüz də durdu keşikdə.
Çəyirtkə hər şeyi yeyib məhv etdi,
Qarnını doydurub uçub da getdi.
Dirriyi etmişdi bəladan xilas
Evdən, bunun ilə, qalxmış idi yas.

* * *

Hər yerdə yoxsulluq aşmış həddini
Kəndli aça bilmir bükük qəddini.
"Dəh yek" xərc altında ərir, inləyir,
Lakin əninləri kimlər dinləyir.
İndi, bu gün belə xatırımdadır
Hala göz önündə o gün canlanır.
Bir il hökumətdən gəlmişdi naloq,
Ancaq on dörd manat – deyildi də çox.
İmkan yoxdu versin bu xərci atam,
Dama qatılmışdı otuz kəndli tam.
Hamı cır-cındırda, altmış beş yaşlı
Hamı ağ saqqallı, hamı ağ başlı.
Sarmış dörd yanların on beş yasavul
Döyüb şallaqlarla istəyirdi pul.
Atamın boz, yırtıq kürkünə o gün
Vurdu yasavullar qırx qamçı düzgün.

* * *

O lap avam deyil, savadı vardı,
Kənddə bu az savad işə yarardı.
Təməssük yazdırmaq, ya ki, şərtnamə
Lazım gəlirdisə hansı adama.
Hər kəs rücu edir atama mütləq



Yazdırıb, verirdi cüzi də bir həqq.
Vardı qadınlardan müştərisi çox
Ondan söz gizlədən bir gəlin, qız yox.
Kimin xəstələnmiş oğlu, ya qızı,
Hər kəsin qəlbində vardırsa sözi,
Hər kəsin ağrısa boğazı, gözü,
Yainki sancıdan pozğunsa özü,
Məhəbbət etmirsə hansının əri,
Ya yoxsa hansının eşqinin fəri,
Açılmır ya hansı bir qızın baxtı,
Ya keçmir bir cavan arvadın "vaxtı",
Olmursa hansının bir oğlu, qızı,
Nəhs isə hansının tale ulduzu,
Həpsinin atamda çarə, dərmanı.
Sirrini gizlədən bir qadın hanı?
Dualar yazdırır, əlaclar gəzir,
Verirdi hər biri az-çox da nəzir.

* * *

Mərhum yoxsulsa da, çox mollabazdı
Öylə mollapərəst kəndlərdə azdı.
Məni yeddi yaşda oxutdururdu,
Həm də dirrikçilik edib, dururdu.
Lakin güc-qüvvəsi artıq bitmişdi,
Parlaq göz nuru da sönüb itmişdi.
Hər şeydən hirslənir, acıqlanırdı,
Xoş söz də söylənsə, yaman sanırdı.
Bilxassə, incikdi evdə anamdan
Çünki onda yoxdu səliqə-sahman.
Dadsız hazırlardı daim bişmişi,
Bundan pərt olurdu ixtiyar kişi.
Əsla unutmadım: bayramdı bir gün,
Bişmişsiz keçmişdi həftə büsbütün.
Kişi ət, yağ, düyü etmişdi daşbaş
Ki, bayram axşamı bişsin yaxşı aş.
Axşam külfət hamı evdə yığıldı
Mərhum əvvəl qalxıb namazı qıldı,

Əmr etdi arvada ki, çəksin aşı,
Lakin işləmirdi ................
Qalxdı, çəkib aşı ortaya qoydu,
İndi deyil bayram, bu evdə toydu...
Mərhumun al üzü oldu yamyaşıl,
Çünki plov deyil, bişmişdi xaşıl.
Həm xərc, həm iştəha getmişdi bada,
Sükut beş saniyə gəzdi ortada,
Mərhum dikələrək birdən yerindən
Qalxızıb xonçanı ortadan həmən,
Bütün qüvvəsiylə çölə fırlatdı,
Sonra da kəfgiri, qazanı atdı.
Dedi: – Ay...., sən nə vəqtəcən
Aş nə, xəşil nədir – bilməyəcəksən?

## ATAMIN VƏFATI

Hərgah yaransa da daşdan, dəmirdən,
Bunca zəhmətlərə dözməz bir bədən.
Bıqmaz bu qəhrəman, yenilməz nəfər,
Artıq döyüşməkdən olmuşdu müztər.
Möhlik bir xəstəlik olmuş da ariz,
Birdən yıxılmışdı qoca mübariz.
Evdə xəstə yatmaq uzun sürmədi,
Bir gün vidalaşdı bizlə əbədi.
Bitmək bilməz işdən, yer belləməkdən,
Bu əppək verməyən ağır əməkdən,
"Dəh yek"dən, "gəl, ver"dən, xərcdən, "biyar"dan,
Şallaqdan, qamçıdan, damlardan, dardan,
Arvad qaxıncından, qız şıltağından,
Əppək kəməndindən, paltar "bağ"ından,
Dadsız bozbaşlardan, xaşıltək aşdan,
Sacda hazırlanan, sactək lavaşdan,
Vicdan əzabından, qəlb ağrısından,
Əfsun, dua, cin, fal, şeytan tasından –
Biryolluq dincəlib, qurtarıb getdi,
Yesi, məsərrəti, zövqü tərk etdi.



***

Mərhum edən zaman dünyadan rəhlət,
Qoymuşdu beş başdan ibarət külfət.
Arvad, bir cüt oğul, iki körpə qız,
Dörd pud soğan, bir bel, bir qırıq margiz[1]
Artıq nə bostan var, nə bostançı var,
Sıxdı fəna halda bizi ruzigar.
İndi çalışmağa girişmiş anam,
Bir ərtək işləyir bütün gün tamam.
Qorxurdu ac qalsın bir gün körpələr,
Hətta düzəldirdi çay, qatıq, şəkər,
Həm etdirir məni məktəbə dəvam,
Derdi: deyil yaxşı, qalmağın əvam.

## MOLLADAN QURAN OXUYURUQ

Məktəbdə biz əvvəl oxurduq Quran,
Əsla mən qanmırdım bir kəlmə bundan.
Quranı çıxmağım çəkdi il yarım
Ondan, çox istərdim qaçıb qurtarım.
Lakin alır molla ayda bir manat
Mümkünmü bir şagird əskilsin?.. Heyhat!
Qurandan sonra da gəldi "Gülüstan",
Bundan qurtarmamış "Əbvabül-cinan".
Həzm etmək olmayır, dərs dönüb daşa
Girmirdi fars, ərəb sözləri başa.
Zatən bir şey bilmir mollanın özü,
Çeynərdi yüz dəfə bir yüngül sözü.
Öyrətmək sənəti hərifdə yoxdu,
Kürkündə elmindən bit, sirkə çoxdu.
Öyrənmək çox çətin onlardan bir şey,
Təkrar edilmişdi on yol "əlif-bey".

[1] Margiz – iki adam tərəfindən işlədilən bir əkin aləti (*müəllifin qeydi*)

## EV İŞİM

Hər gün dərsdən sonra vardı vəzifəm –
İçmək, yemək kimi ifası əlzəm.
Qışda isinməyə, yayda bişmişə,
Evdə odun yarar daim hər işə…
Hər gün bir zor şələ bağlardan, çöldən
Mütləq odun, çırpı gətirirdim mən.
Belə bir qaydada keçirdi günlər,
Gedirdi ilk gənclik dövranı hədər.
İslamı gözləyir bir yövmi-səid
Hətta sağ qalmağı etmirdim ümid.

## NECƏ OLDU Kİ, MƏN BUXARAYA GETDİM

Səksən, doxsan faiz ac-yoxsuldu el
Kənddən köçüb-qaçan təşkil etdi sel.
Böylə pis günlərdə kənddən bir nəfər
Atmış köçkülfətin, etmişdi səfər.
Borclu təzyiqindən çıxıb qaçmışdı,
Xəzəri – yelkənliyə minib aşmışdı.
Çar yeni tutmuşdu Türkmənistanı,
Abad edirlərdi indi hər yanı.
Şəhrə çevrildiyi zaman Aşqabad
Bizim qaçqın kəndli açmış qol-qanad.
Tənbəllik etməmiş, qalmamış geri
Düşmüş baş küçədə bir həyət yeri.
Çəkmiş ətrafına palçıqdan hasar.
Olmuş bizim kəndli kiçik mülkədar.
Çarpışmış, işləmiş, rahat etməmiş
Eyş-işrət dalınca axıb getməmiş.
Həm də çox keçmədən artmış Aşqabad
Qafqazda, İranda səs salmış bu ad.
Başlanmış hər yandan bu şəhrə axın,
Olmuşdu səknəsi on minə yaxın.
Yüksəlmiş qiyməti mülkün, torpağın,



Eyləmiş müştəri cəlb axın-axın.
Satmış öz mülkünü kəndli çox pula,
Olmuşdu bənzəməz sabiq yoxsula.
Sonra Buxaraya edərək səfər,
Bir tacir olmuşdu məruf, mötəbər.
Çox çəkmiş olsa da, əvvəllər zəhmət
Kəndli dincəlmişdi sonunda fəqət.

* * *

Keçmiş bu işdən düz otuz beş sənə,
Kəndli öz yurduna dönmüşdü yenə.
Vardı öz kəndində yoxsul qardaşı,
Hicran çəkmiş ana – çox keçgin yaşı.
Bundan çox şadlandı kənd əhli bütün,
Sanki gəlmiş kəndə bir bayram, dügün.
Kəndli gördükləri el, ölkələrdən
Söhbətlər etdikcə həzz alırdım mən
Mən də yad yerləri görmək istərdim,
Bir dəfə görsəydim, olmazdı dərdim.
Kəndli Buxaraya döndüyü zaman,
Açıb öz fikrimi eylədim bəyan:
"– Mən də, – dedim, – sənlə getmək istərəm,
Şagird ya xidmətçi, yoxdur bunda qəm".
"– Sonra ismarlaram", – deyə vəd etdi,
Böylə bir söz verib, vətəndaş getdi.
Keçmiş bu söhbətdən səkkiz ay bütün,
Bir məktub almışdım postadan bir gün.
Kəndlim yazmışdı ki, "artıq durma, gəl!"
Gənclik sevinciylə güldüm, çaldım əl.
Qardaş-bacıların təqdiratını,
Bəslənmək istəyən tifl övqatını,
Tapşırıb ixtiyar anamın işlək,
Mehriban əlləri ümidinə tək,
Çox məmnun bir halda mən çıxdım yola,
Gələcək – pis, ya yaxşı – nə olȧ, ola.

* * *

Gəncədən üç yoldaş etmişdik səfər,
Köhnə bir tacirdi dəstəyə rəhbər.
Çatmışdıq Bakıya bir səhər erkən,
Çaşmışdım gördükdə böylə şəhri mən.
Sanmışdım minlərlə vışkanı orman,
Mədənlərdən qalxan tüstünü duman.
Bir kənddən kor kimi qalx da, şəhrə gəl
Verməzmi hər kəsə heyrət böylə əl?
Küçədə yol tapmır keçməyə adam,
Hər yanda gurultu, səs-küy, izdiham...
Axşama az qalmış hazırdı gəmi,
Düşmüşdü üstümə dünyanın qəmi.
Körpü, göyərtədə insan qaynaşır,
Dərya zənn edirdim coşmuşdur, daşır.
Tez-tez fısıldayır div kimi vapor,
Qırmaqçın kəndiri sanki vurur zor.
Tüstü bacasının bir yanından ağ
Mahlıc kimi bir buğ qalxdı bir qalaq.
Birdən qorxunc səslə gəmi hayqırdı,
Elə bil, qəlbimin telini qırdı.
Artıq ayrılmışdı gəmi sahildən
Mat-mat bu övzanı seyr edirdim mən.
Kəndi – bundan əvvəl bilirdim dünya
Dünyanı indicə görürdüm guya.
Beynim çox yorğundu, kəlləni atdım
Xülyalar, heyrətlər içində yatdım.

## BUXARAYA VÜRUD

Mayis, min səkkiz yüz doxsan səkkizdə,
Çatdıq Buxaraya qürubla biz də.
Üç gün dükanda mən gic tək dolandım,
Günəş qərbdən tülu eyləyir, sandım.
Sonra bu ürkəklik rəf oldu məndən,



Girdim iş görməyə çox həvəslə, şən.
Çox az bir müddətdə ticarətxana
Ram oldu bir tanış tarla tək mana.
Məkulat şöbəsi, un, dən, xoşgüvar
Metal, qalantereya, zürufat, siğar.
Rəftar, şey bağlamaq, tərəzi çəkmək,
Kimsədən olmadan ciddi bir kömək,
Öyrənib səyimlə tez mənimsədim,
Bunlar bütün mana oldular təslim.
İşlərkən əllərim, verirdim qulaq,
Rusca söz söylənir nə cür, nə sayaq.
Bir kəlmə bilməzdim kənddən gələndə,
Lakin çox hafizə var idi məndə.
Rusca bir çox sözlər söylərdim indi
Dilim nazikləşdi, qəlbim isindi.
Bir miqdar artırdı hər gün anlağım,
Bir də dönərmi ya, o gözəl çağım?!
Xidmətçi bir qadın saxlamır dayı,
Özüm hazırlardım bişmişi, çayı.
Bıqmaz, yorulmazdım çəkməkdən əmək,
Gündə on beş saat işləyərdim tək.
Məndə öyrənməyə coşmuş iştiyaq,
Daim, gündüz-gecə edərdim maraq.
Vardı dəmiryolda bir rus məktəbi,
Axır sahibkara açdım mətləbi.
Yalvarıb-yaxardım: "– Et, – dedim, – kərəm.
Qoy rusca dərs alım, ver dəftər, qələm".
"– Kəndim, yavrum, – dedi, – sənsiz iş aşmır,
Məktəb həmişə var, oxumaq qaçmır.
Sən getdin məktəbə, nə olsun dükan?
Qulluqla dərs tutmaz söyləmə hədyan".
Onda düşündüm ki, mən xidmətçiyəm,
Beynim dumanlandı, hücum etdi qəm.

Lakin məni sonra bu inkisardan
Qurtardı elmli bir qabil insan.
Yəhudi bir qoca mühəndis vardı,
Ticarətxanaya sıx-sıx uğrardı.
Xidmət edirdi bu mühəndis-memar,
Əmir Buxaraya – deyildi bikar.
Əmirə tikmişdi ali bir saray,
Onda çalışmışdı memar əlli ay.
Saray şən, parlaqdı bir yıldız kimi,
Oxşardı ənzarı süstlü qız kimi.
Qiymətli mərmərdən qırmızı, sarı,
Çox xoş işlənmişdi bu rənglər yarı.
Zövqə alqışladır sənətkarını
Söylərdi memarın iqtidarını.
Biz məktəb haqqında söhbətdə ikən
Gəlib salam verdi, gülərüzlə, şən.
Biz susduq, ortada söz-söhbət bitdi,
Lakin son cümləni o da eşitdi.
Məndən xoşnud olub verdi təsəlli,
Məktəb mümkün deyil, məsələ bəlli.
Mühəndis göstərib xırda bir kitab.
"– Artıq dəyməz, – dedi, – çəkmə iztirab.
Asudə vaxtında al, oxu, öyrən.
Hər gün yeni kitab gətirərəm mən".
Mən bu kitabları oxurdum bir-bir
Onlar gənc ruhuma yapırdı təsir.
Lakin bunlar elmi məktəbçün deyil,
Dini təbliğati kitablardı bil.
Memar "müqəddəsmiş" heç yeməzdi ət,
Çox sərf edərdi o xoşgüvar, fəqət.
Kütlə Tolstoyçu bilirdi onu,
Tacirlər babiyə döndərdi sonu.
Ən son dəfə mənə etdiyi ehsan,
Çıxmışdı doğrudan "Kitabül-bəyan".





Qonşu tacirlərdən vardı bir nəfər
İranlı türklərdən, maarifpərvər.
Vardı məktəb görmüş bir gənc oğlu həm,
Fürsət düşdükcə biz olurduq həmdəm.
Rəqabət insanda fitri mərəzdir,
İstər varlı olsun, istərsə fəqir.
Yoxdu tacirlərdə çox gediş-gəliş,
Uğrardım onlara düşərsə bir iş.
İranlı tacirin əlində bir gün,
Görmüşdüm bir kağız yazılı bütün.
Dəftər-kitab deyil, kağız çox geniş,
Məni təəccübə sövq etdi bu iş.
Gəh farsca, gəh türkcə oxurdu tacir,
Atdım utanmağı mən axır-axır.
Sordum: "– Nə şeydir o?" – tacir oğlundan,
Döndü, baxıb mana o güldü bundan:
"– Yoxsa, heç görmədin? Qəzetdir" – dedi,
Bir nüsxə göstərib mərufluq etdi.
Mən ancaq indicə görürdüm qəzet,
İstər məzur tut, istər töhmət et.
Sonra qəzetlərdən, dostumdan hər gün
Alır, həm diqqətlə oxurdum bütün.
"Sürəyya" adlanır qəzetin biri,
Zəngin, dolğun, gözəl, həcmcə iri.
Farsca, siyasidir, – Misirdə çıxır
Tehran hakimlərinin qəlbin sıxır.
Şiddətli bir dillə tənqid edirdi,
Mana bu tənqidlər çox xoş gedirdi.
"Hikmət"dir digəri, istanbulludur
Yıldızdan[1] qorxur o, çox üsulludur.
Çoxca bəhs edirdi elm, iqtisaddan,
Çünki Əzraildən qorxuncdu sultan.
Lakin müəmmadır şairin dili,

[1] Yıldız – Sultan Əbdülhəmidin sarayı

Həll edə bilmirdi o bu müşkili.
"Hikmət" müəmmalı şeirlər yazır,
Zalım hökumətə məzarlar qazır.
Xalqı hürriyyətə dəvət edirdi,
Gizli mübarizə axıb gedirdi.
Ceridələr məndə çox təsir yapdı,
Ruhim qidasını bunlarda tapdı.
Gündə hər ikisin mütləq oxurdum,
Məslək, məfkurəcə bir əsas qurdum.

## BİRİNCİ DƏFƏ ŞEİR YAZMAĞIM

Kənddən ayrıldığım olmuşdu bir il,
Ağlım keskinləşib, sığallanıb dil.
Fikrim açılmışdır, düzgündür sözüm
Təəllim edirdim – özümü özüm.
Artıq mən məktəbdən olmuşdum məhrum,
Öksüzlük, yoxsulluq bir haldır – məşum.
Hərdənbir ruhumu sardıqca qürbət
Qəlbimdə axdıqca incə bir riqqət.
Keçdikcə xatirdən ev, ana, bacı,
Məyus düşünürdüm mən acı-acı,
Tez-tez anam üçün yazırdım məktub
Onun xoşhallığı, sağlığı mətlub.
Üç-dörd ildən bəri kənd məktəbindən,
Bir dostum var – onu çox sevirəm mən.
Bir gün bu dostumdan bir məktub aldım,
Ruhum qanadlandı, çox məmnun qaldım.
Dostum əşara da uzatmışdı əl,
Yazmışdı əhvala uyğun bir qəzəl.
Məndə birdən-birə bir fikr oyandı,
Təbim bir ateşin rəngə boyandı.
Yazdım məktubuna qarşı bir cavab,
Könlüm dolu həsrət, hicran, iztirab.



Uydurdum həsb-hal yollu bir qəzəl,
Gənclik gülşənindən bir quru xəzəl.
Şair olacaqdım sonra, bilir kim?
Böylə yazılmışdı ilk şerim mənim.

***

"Salam ola sənə, ey cism içrə can əxəvi!
Məni çıxarma yadından, aman-aman, əxəvi!"

***

Əl qatdım yazıma bundan sonra mən,
Lakin yazımda var nə rəng, nə rüğən.
Həpsi qırıq-sökük, məzmunsuz, sadə,
Qeydindən – qafiyə, vəznin – azadə.
Könlüm məmnun olsun, yaxud pürkədər
Bir şey yazırdım mən gündə müxtəsər.

## ƏSKİ BUXARA ŞƏHƏRİNİ ZİYARƏT

Yeni Buxarada yaşayırıq biz,
Bu bir şəhərcikdir planlı, təmiz.
Yerli əhl adına söyləyir Kakan,
Ruslar bina etmiş bunu son zaman.
Dəmiryol xətti həm keçir içindən,
Vardı ticarətçin çox gedib-gələn.
Əski Buxaranı görmədim hələ,
Çünki heç bir fürsət düşmədi ələ.
Qışdan çıxmış hamı, bayramdı bir gün –
Tətil etmişdilər tacirlər bütün.
Kəndlim açıqüzlə mana yanaşdı,
Bezdən bir torbanın ağzını açdı.

Verdi bundan mana on dörd təngə pul[1]
Etsin ehsanını Babüddin qəbul[2]
Get şəhrə söylədi bir az gəz-dolan.
Dostun Rza[3] bəklər səni hər zaman.
Verdim altı təngə bir adnajkaya[4]
Mindim, dedim: "– Baba, sür Buxaraya!"
Çəkdi şilxor ata bir şallax tatar,
Dartıldı kəndirlər, çevrildi çarxlar.
Düşdü – cırıldayıb adnajka yola,
At dartır sağ yana, çarx gedir sola.
Uydurmuş çarxlara öz çatlağ səsin,
Sürücü bir şərqi oxurdu həzin.
Şəhrə yetişmişdik lap axşamçağı
Süzdüm çox heyrətlə mən solu-sağı.
Əyri, dar küçələr insanla dolu
Araba güclüklə seçirdi yolu.
Hər kəs əmmaməli: gənc, ya ixtiyar
Sordum sürücüdən: "– Nə çox molla var?"
Güldü sualımdan ixtiyar tatar:
"– Bunlar geyməz, – dedi, – başqa cür paltar".
Həpsi selləli, al-yaşıl çapan,[5]
İstər avam olsun, istərsə işan.[6]
Palto, kostyum, papaq, silindr geyən,
Dolma, qovurmanı çəngəllə yeyən,
Cümlə istisnasız kafirdir mütləq.
Sürücü: "– Bax, – dedi, – bir sürü axmaq".
Artıq bir az getdik, araba durdu
"– Çatdıq, – dedi tatar, – "dəhəni se su"[7]
Silkib toz-torpağa üstümdən, düşdüm,
Dərhal rəfiqimi tapıb görüşdüm.
Dostum virudimdən artıq şad oldu,

[1] Təngə – 15 qəpik qiymətində gümüş pul
[2] Babüddin – buxaralıların sitayiş etdiyi bir övliya, ziyarətgah
[3] Gəncəli Rza – mənim dostum və yaşıdım
[4] Adnajka – bir adam götürən araba
[5] Sellə – əmmamə; çapan – əbaya oxşar bir geyim
[6] İşan – böyük molla
[7] Dəhəni se su – üç yolun ağzı



Mənzil söhbətlərlə, gülüşlə doldu.
Oldu hər cür söhbət qürbətdən, eldən,
Bəzən təhəssürlə, bəzən ruhlu, şən.
Sübhə az qalmışdı başları atdıq,
Məmnun bir ruh ilə uzanıb yatdıq.

* * *

Biz erkən qalxmışdıq uyğudan səhər,
Sağlam, kəsalətsiz, ruhlu, təzə-tər.
Çaydan sonra qalxıb çıxdıq seyr üçün,
Gəzdik Buxaranın nisfini... çirkin...
Vardı hər döngədə bir ocaq, bir pir,
Min övliya qəbri edilmiş təşhir.
Xəlqin cüzam, iflic otuz faizi
Hər tin, hər guşədə Əzrail izi.
Doldurmuş yolçular bütün yolları,
Qalxmış sual üçün çılpaq qolları.
Yoxdu bu mərkəzdə beş məşru palan,
Salmış yuva – torpaq evlərdə – ilan.
Küçələr, meydanlar, bazarlar zibil,
Hər yanı doldurub azarlı, kor, şil.
Sular hovuzlarda saxlanır açıq,
Ətrafı murdarlıq, töküntü, palçıq.
Xəlq həmin sulardan işlədir, içir
Əmraz əhalini ot kimi biçir.
Hər həftə bir misri xəstəlik doğur,
Dərman yardımçısız kütləni boğur.
Səhiyyə tədbiri, ya doktor hanı?
Can vermək xəstənin ən son dərmanı.
Tədavi etməkçün yox mərizxana,
Varsa da sarayda – məxsusdur xana.
Halbuki bu şeylər rus şəhrində var,
Əmir, qazı kəlan bunlardan kənar.
Mədəni işləri görməz gözləri
Mikrobdur xəlq üçün çünki özləri.

Kütlənin əksəri əfyunkeş, naskeş
Sağ canlı tapılsın bəlkə yüzdə beş.
Əxlaqsız, beçəbaz yüzdə doxsanı,
Bunların cümləsi şeyxin nöqsanı.
Fitva var işandan – deyildir günah,
Şəriət bilir xor bu işi mübah.
Lakin görmək olmaz açıq bir qadın,
Hətta məmnudur söyləmək adın.
Dustaqdır evlərdə – səyyar zindanda,
Çox vəhşi qaydalar var müsəlmanda.
Bunlarla bərabər fahişəlik çox,
Beçəbaz ərlərdə çünki ərlik yox.
Doğrusu, kor idi bulağın gözü,
Şansızdı həm qazi, həm əmir özü.
Bir şəhvətxanadır qəzəvat saray,
Üzvdür orada beş-on pullu bay.
Soyurlar birlikdə zəhmətkeş eli,
Düzəlmir işçinin, dehqanın beli.
Qul, kəniz kütlənin oğulu, qızı,
Hiss etməz alçaqlar vicdanən sizi.
Xoşgillər[1] – oğul, qız bir alver malı
Bir güc yox qaldırsın bu iyrənc halı.
Xanlıqda məfquddur məarif, məktəb
Mövcuddur əksinə, onlarla məzhəb...
Yeni üsul üzrə məktəblər yasaq,
Bir çox mədrəsə var: yaramaz, sarsaq.
Yoxdur saray içrə öylə bir kişi,
Bilsin, az olsa da, siyasət işi.
Əfyunla, əsrarla, meylə nəşəli,
Həp axmaq, sərsəri, həp səfeh, dəli.
Dönmüşdük mənzilə, düşündüm uzun,
Nitqə deyil idi, natiqəm məzun.
Təməddün nurundan nəsibsiz ellər,
Məhv olur yurdunda, əsəcək yellər.

[1] Xoşgil – gözəl-göyçək



## ŞİRBUDDİN

Qalxıb Şirbuddinə getdik səhərdən
Bu bir sərgi idi, görməli, çox şən.
Novruz bayramında açılır hər il,
Ancaq on beş gündür, ömrü çox deyil.
Edilir burada böyük ticarət,
Kəndlilər olunur burada qarət.
Buxara dərisi idi baş mətah,
Nə qədər gözəldir, nə qədər dilxah.
Çox diri quzu da gətirmişdilər,
Göyçək, nəzərrüba, həpsi dilbər.
O yerə məxsusdur ancaq bu nemət,
Onu Buxaraya vermiş təbiət.
Quzudan əl çəkmək istəmir insan,
Bu qüdrət insanı eyləyir heyran.
Qara, ağ, darçını, şahpaluti, çal,
Hətta üç-dörd rəngli quzu var, nə hal?
Əfqanıstanda da dəri olur çox,
Lakin Buxaranın əsla misli yox.
Rza şəhrə döndü, mən də Kakana,
Çox təsir etmişdi quzular mana.

## SƏMƏRQƏND SƏFƏRİ

Alver gündən-günə kasadlaşırdı,
Məxaric əksinə başdan aşırdı.
Artıq ödəmirdi çıxarı gəlir,
Lazımdı mütləqa başqa bir tədbir.
Keyfini pozmuşdu ticarət işi,
Artmışdı kəndlinin fikri, təşvişi.
Axırda olmadan çox da intizar,
Verdi Səmərqəndə köçməyə qərar.
Köçdük Səmərqəndə, Səmərqənd gözəl,
Xassə, yekxassə, müstəsna məhəl.
Küçə, bina düzgün, yox köhnə üsul

Zəngin təbiəti, boldur hər məhsul.
Klub, xəstəxana parlaq, şıq, təmiz.
Məktəblər, çocuqlar saxlanır əziz.
Hər an bir təzəlik qarşılar günü,
Gündə min əks edir rus təməddüni.
Səmərqənd ruhumu oxşadı mənim,
Çünki bənzər buna doğma vətənim.
Hər yan zümrüd tək ağaclı, sulu
Enli xiyabanlı, geniş çarsulu.
Ucsuz-bucaqsızdır zəngin bağları,
Hər yandan görsənir yüksək dağları.
Keçmiş cahangirlər, fatehlər yurdu
Tarixdən indi də bir fəsl oxurdu.
Yüksək minarələr, həşəmətli tağlar,
İndi Teymurların qəbrinə ağlar.
Elmi mədrəsələr, cəsim günbədlər,
Tarixi asarlar, məqbərlər, sədlər,
Qovğalar şahidi zəxmdar bürclər,
Onlarla saxlanmaq istəyən əsər.
"Uluğ bəy", "Şahzində", "Teymur" məqbəri
Daha bir çox asar ki sönmüş fərri.
Qoymuş xaraba üz, dəhşətlə inlər,
Lakin əninini kim duyar, dinlər.

***

Səmərqənddə qaldıq işsiz iki ay
Gəzdik, gözəl meyvə yedik, çıxdı yay.
Sahibkar mövqifdə dükan qayırdı,
Lakin öz işimdən məni ayırdı.
Ciddi işdən alıb mətbəxə saldı,
Sabiq bir dostumu yerimə aldı.
Mətbəxdə mən bir şey öyrənəməzdim
Bundan qurtarmağa bir çarə gəzdim.
Alçaq rəftarından küsmüş, bıqmışdım,
Atmış hər bir şeyi, işdən çıxmışdım.



Olmaz sərvətlidə, məlumdur, vicdan,
Etdim həyatımda yüz yol imtahan.
Əsla dinc olmadan bir saat qış-yay
Xidmət göstərmişdim igirmi beş ay.
Verdi əmək haqqı yetmiş beş manat,
On beş manat nəqdən, altmışı barat.
Baxın Səmərqənddən Gəncəyə qədər
Dəniz, dəmir yollar, yemək, çay, şəkər.
Kafimi bunlara bu on beş manat
Daim vicdansıza gülümsər həyat.

***

Döndüm Buxaraya bir müddət qaldım
Evə məktub yazdım, həm cavab aldım.
Anam göz yaşları etmişdi nisar
Qalmış çalışmaqdan, olmuş ixtiyar.
Kəndə qayıtmama varmış ehtiyac,
Artıq bundan başqa yox imiş əlac.
Kənddə kəsb eyləyə bilməzdim bilik
Həm də başarmırdım mən dirrikçilik.
Kənd daim insanı arxaya dartır
Bilik, həzz ancaq şəhərdə artır.
Anam çox olsa da əziz, müqəddəs,
Kəndə qayıtmağa yoxumdu həvəs.
Lakin hər gün gəlir məktub, teleqram
Olmuş yemək, içmək, işləmək haram.
Axır məcbur olub dönmüşdüm kəndə
Düşmüşdüm .......... dübarə bəndə.

## KƏNDDƏN QAÇMAQ İSTƏYİRƏM

Kənddə beş-altı gün qaldım, usandım.
Kəndimdə kəndimi qürbətdə sandım.
Kəndin həyatına əsla uymuram,
İşsizlik, boşluqdan ləzzət duymuram.

Maldarlıq etməyə yox atım, malım,
Ya xış, ziraətə imkanım halım.
Baxıb becərməyə otlağım, bağım
Ancaq iki hektar vardı torpağım.
Mən atmaq hər şeyi qaçmaq istərdim
Hər növ olur olsun, oxuyum dedim.
Çünki mən duymuşdum elmsiz adam,
Sərvətdar olsa da, insan olmaz tam.
Heyfa məqsudimə yetişmədim mən
Duymuşdu əqrəba fikrimi erkən.
Döndüm gəzintidən evə bir axşam
Gördüm qohumları toplamış anam.
Dəmlənmiş yaxşı çay, doğranmış çörək
Baxdım, dedim: sonu nə olur görək.
İçdi qonaqlar çay, həm çörək yedi
Hər kəs öz əqlincə bir misal dedi:
"– Vardır, – dedilər, – bir çətən külfət,
Getmək başqa səmtə degil məsləhət.
Sən də bizim kimi kəndində çalış,
Külfət dolandırmaq dərdinə alış.
İndi düşün, evdə tək sənsən böyük,
Düşmüşdür boynuna bu təklif, bu yük.
Hərgah oxumamaq olsa da acı
Düşməz ələ bir də həm qardaş, bacı.
Evlən, el adəti üzrə arvad al,
Boşla dartınmağı, el içində qal".
Axırda bir az da təhdid etdilər,
Kürkü, çomaqları alıb getdilər.

## MƏNİ EVLƏNDİRDİLƏR

Sanmayın bitmişdi bunlarla masal,
Hər gün üz göstərir başqa dürlü hal.
Kəndə bənd etməkçün lap möhkəm məni,
Əqrəba birlikdə qeyri-mədəni,



Əsla razılığım, rəyim olmadan,
Yaşım igirmiyə çatıb-dolmadan,
Ruhi, təbiəti, siması, halı
Məlumum olmayan – məchul, xəyali,
Bir qızla məcburən evləndirdilər,
Gənc, məsum qəlbimə güclə girdilər.
Oldum ev sahibi istər-istəməz,
Eldə bu adətlər əski bir mərəz.
Susmaqdan başqa yox – baxdım – bir əlac,
Qoydu yoldan məni külfət, ehtiyac.
Mən qaldım avara məktəbdən kənar,
Qəlbim bu gün belə həsrət, dağidar.
Ancaq təhsil ikən aruzum, eşqim,
Oldu külfətdarlıq məktəbim, məşqim.
Böylə mədfun olmuş şən əməllərim
İşdən yapışmışdı zəif əllərim.

## "TƏRCÜMAN"[1] QƏZETƏSİ OXUYURAM

Hərdənbir iş düşür – uğrardım şəhrə,
Mən daim şəhərdən umurdum bəhrə.
Türkcə bir gündəlik gəzdim çox zaman
Axırda rast oldu mənə "Tərcüman".
Bundan əski – yeni beş-on nüsxə mən,
Toplar, alır kəndə, oxurdum çox şən.
Çünki Buxarada etmişdim adət
Mənə mütaliə verirdi ləzzət.
Bir gün mütaliə etmədən qalmam
Qəlbim bulur ancaq bununla aram.
Böylə aylar keçir, illər dönürdü
Artıq eşqim, şövqüm nə ki, sönürdü.
Məndə fəqət bir şey çatmır, əskikdi
O da məndən itmiş ali bilikdir.

[1] "Tərcüman" – Krımda Baxçasaray şəhərində çıxırdı. İmtiyaz sahibi və müdiri İsmayıl bəy Qasprinski idi.

## “ŞƏRQİ-RUS” QƏZETƏSİNİN NƏŞRİ

Min doqquz yüz üçdür məsihi ili
Yox türkün Qafqazda mətbuat dili.
Çıxmış, qapanmışdı “Əkinçi” çoxdan
“Kəşkül”dən, “Ziya”dan yoxdu bir nişan.
Tiflisdə “Şərqi-Rus” gəldi meydana
Həftədə iki yol gedir hər yana.
Verirdi hər yerdən məlumat, xəbər
Olurdu məqalə, əşar müxtəsər.
Bir nüsxə göndərmiş bir dost Gəncədən
Olmuşdum müştəri çox şadlıqla mən.
Artıq mənə məxsus bir qəzet gəlir,
Mətbuat görməmiş kəndim yüksəlir.
Verirdi o bizə dünyadan xəbər,
Oxurdum, dinlərdi ruhla kəndlilər.
Mən də müxbirliyə onda başladım,
Əvvəl mövhumatı vurdum, daşladım.
Kənddən hər hadisə, hər bir vəqəni
Yazmaq, çap etdirmək şad edir məni.
Həm də məktublarım çıxır dalbadal
Vadar edir məni çox yazım – bu hal,
Qəzetdə “Xüsusi müxbirimizdən” –
Sərlövhə getdikcə bayılırdım mən.
Böyləcə etdikcə yazmaqda davam,
Xəttim, yazımda da artır intizam.
Duyğum genişlənir, açılır gözüm,
Aydınlaşır idi ifadəm, sözüm,
Günlər yek-digərin təqib edirdi,
Öz-özün tərbiyə daim gedirdi.

## RUS-YAPON SƏFƏRİ

Bir gün teleqraflar yaydı bir xəbər –
Qalxmış Uzaq Şərqdə kinli bir səfər.
Ruslar yaponlarla başlamışdı hərb,
Yəni toqquşmuşdu möhkəm Şərqlə Qərb.



Axmış səhralarda qanlar sel kimi,
Dolmuşdu cəmdəklə dəryanın dibi.
Hərbdən sarsılmışdı qoca məmləkət,
Söhbət ibarətdi bu hərbdən, fəqət.
Artmış mətbuata kütlədə həvəs
“Şərqi-Rus” az çıxır, etməyirdi bəs.
Qırğın meydanından indi kütlələr,
Vaxtında gündəlik məlumat dilər.
Duymuş bu istəyi, əlbəttə, müdir
Görmüşdü vaxtında bu işçün tədbir.
Başlamış çıxmağa “Şərqi-Rus” hər gün
Bundan sevinmişdim mən də büsbütün.
Çünki düşmüş böylə bir münasibət,
Götür-qoy etmişdim xeyli, aqibət.
Şairlik qüvvəmi etmiş imtahan
Bir təbrik yazmışdım nəzmən ol zaman.
Qoy qare gülməsin üsluba, dilə
Təbrikim başlayır həmin beyt ilə:
Eylədi çün şəhri-Tiflis içrə səkna “Şərqi-Rus”
Saldı sayə aləmə çün nəxli-tuba “Şərqi-Rus”.
Təbriki eynilə dərc etmişdilər,
Bundan həzz almışdım dünyalar qədər.

## YALANÇI HÜRRİYYƏT ELANI

Port-Artur mövqedən toplar gurlayır?
Yanırdı atəşdə şəhər, çöl, çayır.
Qəti bir vuruşma eyni zamanda
Sınmış Kuropatkin, Liyauyanda.[1]
Məğlub edilmişdi ordusu çarın,
İtmişdi hörməti ağ cəzaların.

[1] Kuropatkin – baş komandan idi. Bu vuruşmadan sonra onu vəzifədən kənar etmişdilər. Liyauyan – Mancuriyada şəhərdir. Həmin ad ilə böyük bir çay bu şəhərin içindən keçir. O zaman qəzetlərdə belə bir xəbər yazılmışdı: Çar ordusu bu şəhəri tərk etdiyi zaman şəhərdə olan bütün qənd və başqa ərzaq ehtiyatını bu çaya tökmüşdülər. Bu ehtiyat o qədər çox imiş ki, bu böyük çayın qabağını kəsmiş və suyun yatağından kənara çıxmasına səbəb olmuşdu.

Rükni sarsılmışdı zalım dövlətin,
Hərbdə davam etmək olmuşdu çətin.
İşlər tamamilə aldı başqa rəng
Artıq qərz vermirdi ingilis, firəng.
İşçilər, kəndlilər soyulur bütün,
Ölürdü arxa, həm cəbhədə hər gün.
Çörək Rusiyası çörəyə möhtac,
İşçi külfətləri yüz minlərlə ac.
Şişməkdə əksinə hər gün varlılar,
Artmışdı ən alçaq, qansız ehtikar.
Həqsizlik, pisliyin yox əndazəsi
Dolmuşdu işçinin səbr kasası.
Girmiş sosialistlər hər yanda işə,
Tutmuşdur yoxsullar canını dişə.
Fabrik, zavodlarda başladı tətil,
Hətta dəmir yollar dayandı təkmil.
İşçi tələb etdi azadlıq, hüquq
Göstərdi qüvvətli bir müdhiş yumruq.
Vurdu, vuruldu həm, öldü, öldürdü,
O öz varlığını irəli sürdü.
Alçaq və hiyləgər vəzirlər qorxdu,
Onlarda ömr etmək ümidi yoxdu.
Lakin ətrafını od sarmış ilan,
Söylər, əlbəttə ki, min dürlü yalan.
Salmaqçın sonralar elə fürsəti
Ömr etmək qəsdilə o, müvəqqəti
Ancaq aldatmaqçın, degil həqiqət,
Elan etmişdilər xəlqə hürriyyət.
Lakin mən almışdım olduğu zaman
Şüursuz bir təsir bu inqilabdan.
Məqsəd, mənasını belə bilməmiş,
Sanmışdı qovğadan doğulmuş bir iş.
Çünki rəhbər yoxdu bir fikr öyrənəm,
Haqqında işlədə bilməzdim qələm.



## TÜRKLƏRDƏ ASARİ-İNTİBAH

Rus-Yapon hərbinin müdhiş zühuru
Tez söndürülmüş gənc inqilab nuru.
Xəlqlər, millətləri bərk diksindirdi
Hətta dinsizləri belə dindirdi.
Mətbuata malik olan millətlər,
İndi açmışdılar böyük balu-pər.
Türklər də açmışdı bir az gözünü
Göstərmək istərdi o da özünü.
Bir qəzet verməyə təşəbbüslər var,
Lakin yoxdu ona yeni ixtiyar.
Hürriyyət varsa da, qüvvəsi çox az,
Müşküldü türklərə almaq imtiyaz.
Çünki türk xalqları ögey oğuldu,
Guya imperiyada alınma quldu.
İndi "Şərqi-Rus"un dövrü bitmişdi
"Məhəmməd ağa xətti" ölüb-itmişdi.
Düşdükcə istibdad, çarlıq nüfuzdan
Düşürdü "çarçı" da hörmətdən hər an.
Bakı arifləri imtiyaz arar,
Şahtaxtlıda da bu kimiya var.
Bir gün edilmişdi şura, məsləhət
Böylə bulunmuşdu bir çarə fəqət:
Ki gəlsin Bakıya Məhəmməd ağa
Vardır imtiyazı, düşsün qabağa,
Ta çıxsın Bakıda türkcə bir qəzet
Ögey orqanlardan kəsilsin gəl-get.

## "Molla Nəsrəddin" - "Şərqi-Rus"un varisi

### YENİ RƏNG SƏRGÜZƏŞTLƏR

CƏLİL MƏHƏMMƏDQULUZADƏ

Birinci təhsili gənc zamanında
Qurtarıb mövhumat Naxçıvanında.
Qori semnarını bitirib təkmil,
Kəndlərdə xidmətlə məşğuldu Cəlil.
O gəh müəllimdir, gəh də bir məmur,
İnsanı dövr edər hər işə məcbur.
Gəh inzibatçıdır, xəlq ondan qaçır,
Gəh nursuz kəndlərə ziyalar saçır.
Mirzəni bənd etmiş gəh Nehrəm kəndi,
Gəh də Borçalıda molla, əfəndi.
Gəh məşğul etmişdir onu Naxçıvan,
Məzlum, muzdur, yoxsul, zalım bəy və xan.
Rəftarı varlının, halı kəndlinin
Əfsunu mollanın, əfyunu dinin.
Etmişdi Mirzəni hər yanda heyran,
Xəlqdəki səfalət, cəhalət, nöqsan.
Baxmış rəiyyətə, görmüş mülkədar
Acİıqlar, çılpaqlıq, zillət, inkisar.
Gəh olmuş İrəvan, gəh Ordubadda
Bir çox uyğunsuzluq görmüş həyatda.
Hakim, hökumətdə dəhşət, istibdad,
Alimnümalarda qupquru bir ad.
Mirzənin aldığı bir çox intibah
Təşkil etmişdilər onda bir icma.
Bir xana on kəndin olması əsir,
Onda buraxmışdı çox böyük təsir.



Mirzə Borçalıda olduğu zaman,
Onun həyatında qopur ilk tufan.
Bir gün azarlayır ən ilk arvadı,
Qaçır təmamilə ağzının dadı.
Kənddə tapılmayır xəstəyə əlac,
Şəhrə aparmağa olur ehtiyac.
Tiflisə gətirir çarəsiz onu,
Tibbin də faydası olmayır sonu.
Eyləyir Tiflisdə xəstəsi vəfat,
Nə etmək, belədir daima həyat!
Mirzə haman gündən Tiflisdə qaldı,
Bir yeni yol tutub, yeni ad aldı.

ÖMƏR FAİQ NEMANZADƏ

Gürcüstanın Axısxa mahalında
Kürün sol böyründə, cənnət halında,
Bir kənd var, ətrafı bağlarla mühat,
Yaşıllıq hər qəlbə verir inbüsat.
Türkdür əhalisi, acara adı
Hər cür meyvəsinin məşhurdur dadı.
Yaşar həmin kənddə nemanzadələr,
Hər fərdi xeyirxah, maarifpərvər.
Etmiş İstanbulda ikmali-təhsil
Faiq səyahətlə yapmış dörd-beş il.
Nəşri-maarifçin gəzmiş hər yanı,
Xassə, gözdə tutmuş Azərbaycanı.
Getmişdir Gəncəyə, Göyçay, Ağdaşa,
Oradan Nuxaya aşmış birbaşa.
Qurmuş son üsulda əski məktəbi,
Ancaq ziya saçmaq məqsəd, mətləbi.
Lakin o uğramış çox təərrüzə,
Molla, kulaklarla gəlmiş üz-üzə.
Çarpışmış onlarla heç yorulmadan
Açmışdır ürfana Nuxada meydan.
Cızmış təməddünə doğru şahrah,

Eldə oyatmışdır fikri-intibah.
Açmışdır ruhani sinfin iç üzün,
Göstərmiş kütləyə yolların düzün.
Getmişdir Bakıya, sonra Şirvana,
Görmüş Şamaxını mövhumatxana,
Şeyxin, əfəndinin həmarlığını
..... müridlərin kor-karlığını.
Ödərmiş xalq şeyxin hər buyruğunu,
Öpərmiş itinin yal-quyruğunu.
Faiq bu hallara baxıb tüpürmüş,
Süxtə əfəndini vurub hürdürmüş.
"Cəzb"in, "zövc-axər"in bilmiş sirrini,
Tənqidə başlamış məzhəbi, dini.
Ərzəl ibadəti, yol, təriqəti
Söymüşdür qorxmadan vəhşi adəti.
Xalqı çağırmışdır elmə, ürfana
Lakin "diri meyit" gəlməmiş cana.
Faiq edər-etməz böylə etiraz,
Şeyxlər ad qoymuşlar ona: binamaz.
Etmiş dinsizliklə hətta ittiham,
Hətta nə almış, nə vermişlər salam.
Bərk sıxmış Faiqi dini məngənə,
Dönmüşdü Şirvandan yurduna yenə.
Sonralar bu mənfur həyatdan Ömər
Jurnalda çox verdi gülünc rəsmlər.

* * *

Xəstədir Faiqin bir həmşirəsi,
Rahatsız etmişdir evdə hər kəsi.
Kənddə nə doktor var, nə dərmanxana,
Ancaq Allah verir şəfa insana.
Lakin Faiqdə də yoxdur etiqad,
Gözləmir ecazdan, Allahdan imdad.
Kafi deyilsə də, çox xərcə kisə,
Xəstə həmşirəni almış Tiflisə.



Doktorlar cəlb etmiş qabil, müqtədir,
Lakin olmamışdır dərd dərmanpəzir.
Axırda göndərmiş xəstəni kəndə,
Düşmüşdür kəndisi Tiflisdə bəndə.
Sonra vəfat etmiş kənddə xəstə qız,
Son doktor Əzrail olmuşdur yalnız.

## MƏHƏMMƏD AĞA ŞAHTAXTİNSKİNİN MƏTBƏƏSİ

Açmış Şahtaxtlı yeni çapxana
İşlər yeni-yeni düşür sahmana.
Şahtaxtlı ilə tanışdır Cəlil,
Tanışlıq istəməz başqa bir dəlil.
Bikardır, tapmamış Tiflisdə hələ,
Heç bir münasib iş, heç bir məşğələ.
Tiflisdə qalmağa verməmiş qərar
Öylə tərəddüdlə keçir ruzigar.
Gedir çapxanaya gündüzlər hər gün,
Vaxtını sərf edir orada bütün.

* * *

Faiq də işsizdir, məşğələ arar,
Lakin iş olmalı mədəni, yarar.
Cəlb etmiş Faiqi dəxi çapxana
Getmir ondan başqa o da bir yana.
Hər gün mətbəəyə bu iki adam
Getmək, görüşməkdə edirlər davam.
Ən sonu böyləcə sadə, müxtəsər,
Tanış, dost olmuşlar Cəlillə Ömər.

## "POÇT QUTUSU"

Yazıb "Poçt qutusu"n bitirmiş Cəlil,
Lakin deyil bəlli kimsəyə təfsil.
Onun ilk yazdığı bu mərğub əsər
Həqiqət gözəldir, öyməyə dəyər.
Satirik bu əsər o gün doğrudan
Özünə hər kəsi edirdi heyran.
Bir gün Mirzə ilə Məhəmməd ağa
Birlikdə gəzməyə çıxırlar bağa.
Bir yerdə edirlər müxtəsər nahar,
Tiflisdə pis olmur zatən ilk bahar.
Mirzə "Poçt qutusu"n çəkir qoynundan,
Onun məzmununu edərək bəyan,
Fəxr ilə məclisdə oxuyur tamam.
Hər kəs alqışlayıb edir ehtiram.
Bilxassə, məclisdə Məhəmməd ağa
Gülüşlər yağdırır sola, həm sağa,
Bundan çox həzz alır, çıxır özündən,
Gülməkdən yaş axır, hətta, gözündən,
Əmr edir versinlər yenidən şərab
Masalar örtülür, çəkilir kabab.
İçir müəllifin yadinə badə,
Həm də təqdir edir həddən ziyadə.
Deyir: "– Artıq kəndə buraxmam səni,
Sən də buraxmazsan bir daha məni".
Cəlb edir qəzetdə Mirzəni işə,
Ehtiram eyləyir ona həmişə.
Dərhal əsər dəxi verilir çapa,
Sözlər inci kimi düzülür sapa.
Qəzetdə girmişdi Faiq də işə,
İstiqbal faiqdir daim, həmişə.



## BAKI ZİYALILARININ ÇAĞIRIŞINA GÖRƏ MƏHƏMMƏD AĞA TİFLİSDƏN GEDİR

"Şərqi-Rus" etdikcə nəşrində davam
Onda əməkdaşdı bu iki adam.
Elan edildikdən sonra hürriyyət,
Məhəmməd ağada qalmadı qiymət.
Artıq "Şərqi-Rus"un işi axsadı,
Qaldı yüksəltməkdən onun qanadı.
Çünki istibdaddı onun şahpəri,
Hürriyyət dövründə olmazdı fərdi.
İndi o şahpərə dəymişdi bir daş,
Süqut edir idi o yavaş-yavaş.
Həm də bakılılar çağırmışdılar,
Olmazdı onları qoymaq intizar.
"Şərqi-Rus" nəşrini artıq tərk edir,
İmtiyaz sahibi Tiflisdən gedir.
İndi Şahtaxtlı hər şeyi atır,
Mətbəə dəstgahın büsbütün satır.
Tapdı da gəzmədən müştəri buna,
İşləri tezliklə saldı yoluna.
O bunu Mirzəyə təklif eylədi:
"– Kiçik mətbəədir, sən götür, – dedi, –
Pulun yoxdur, yəqin bunu bilirəm,
Nisyə – vəqt ilə götür, çəkmə qəm".

## MİRZƏ CƏLİLLƏ ÖMƏR FAİQİN "ŞƏRQİ-RUS" MƏTBƏƏSİNİ SATIN ALMALARI

Cəlil Faiq ilə olaraq şərik,
Bir neçə yoldaş da edərək təhrik,
Millətə etməkçün mədəni xidmət,
Durmadan düzəldib xırda bir şirkət.
"Şərqi-Rus" dəstgahın aldılar satın
"Qeyrət" mətbəəsi qoydular adın.
Etmiş Şahtaxtlı çox böyük güzəşt,

Şirkətə həm ağır gəlmədi qiymət.
Əvvəllər bir müddət sabah və axşam,
Çap edib satdılar xəbər, teleqram.
Xırda sifarişlər qəbul edirlər,
Heç də görmürlərdi bu işdən zərər.
Bəzən istiqbalı bilmədən kişi,
Mühit təsiriylə yaradar işi.
Axmış Rusiyada çox işçi qanı,
Bu qan nurlatmışdı müzlim dünyanı.
Ölkədə hürriyyət yoxdusa da tam,
Bir az sərbəst idi mətbuat, kəlam.

## RUSCA "KUKUREKU" JURNALI

Tiflisdə bir jurnal çıxmışdı rusca,
Azad, inqilabi, məzmunca uca.
Adı "Kukureku", gülməli söylər,
Bunlar, sübh olduğun verirdi xəbər.
Əski qanunları edərək tənqid,
Yaltaq mətbuatı etmirdi təqlid.
Ruhlarda gizlənmiş əsrarı açır
Ətrafa mənəvi təsirlər saçır.
Qərq edir səhnəni çiçəyə, gülə,
Ağlardı dərdləri şən, gülə-gülə.
İlk inqilab oğlu, bu xalq jurnalı
Deyildi mənadan, məzmundan xali.
Həm şeri, həm nəsri ruhu oxşardı,
Çara, vəzirlərə məzar qazardı.

## "KUKUREKU" "MOLLA NƏSRƏDDİN"İN ÇIXARILMASINI YADA SALMIŞDI

Görmüş bu jurnalı Cəlillə Ömər
Artıq təsir almış, düşünmüşdülər.
Müsəvvər, tənqidi, bir məzhək jurnal
Türkcə nəşr eyləmək deyildir məhal.



Olur bu barədə çox mübahisə,
Məcmuə lazımdı – bəlli hər kəsə.
Yoldaşlar etdilər bəhsi ixtisar,
Artıq nəşr etməyə verdilər qərar.
Sonra jurnal üçün axtardılar ad,
Tarixi bir ad, həm tapdılar çox şad.
Duzlu söhbətlərlə şöhrətdar olan,
Hər türkdə sözləri yadigar olan,
Şərqin zərif dostu Molla Nəsrəddin
Etmişdi jurnalın adını təmin.
Lakin qorxur Mirzə işin sonundan,
Deyir, razı qalmaz dindarlar bundan.
Almaz, oxumazlar, iş yaxşı getməz,
Jurnal verilsə də, mənfəət etməz.
Lakin qara xülya, qorxu, əndişə,
Mane olamamış bu dilxah işə.
– Faiq, göstərməli, – demişdir, – səbat,
Bizdən tələb edir bunu gün, həyat.
Mirzə həm etməmiş inad, etiraz,
Bununla alınmış izn, imtiyaz.
Faiq olacaqmış jurnalda müdir,
Lakin sərdar vermiş bu işə təğyir.
Çünki Türkiyədə oxumuş Ömər,
Hökumət bilməmiş onu mötəbər.
İzacə verməmiş, demiş: "Bu, olmaz!"
Mirzə müdir qalmış, yoxdur etiraz,
Doqquz yüz altıncı ilin apreli
"Molla Nəsrəddin"lə güldürdü eli.
Jurnal ilk nömrədən toptək partladı,
Məhfəllər titrədi, məscid çatladı.
Mollalar yıxıldı hündür mənbərdən,
Dinin ərkanında başladı şivən.
İndi yazmaq üçün meydan genişdi,
Döymək mövhumatı müqəddəs işdi.
Dini, hökuməti lazımdı yıxmaq,
Xalqı əzənlərin başına çıxmaq.
Dili söz, barmağı qələm tutanlar,

"Molla"ya yardımdan qalmadı kənar.
Birinci nömrədə nə varsa, bütün
Ancaq Mirzə özü yazmışdı o gün.
İştirak etməmiş orada heç kəs
Mirzədə var idi belə bir həvəs.

## MİRZƏ CƏLİL VƏ FAİQLƏ TANIŞLIĞIMIZ

O zaman Tiflisə mən çox gedərdim,
Səyahət, həm xırda alver edərdim.
Əxbar yazırdım həm "Şərqi-Rus" üçün,
Şahtaxtlı ilə tanışdıq... Bir gün
Yenə idarəyə getmişdim səhər
Konddən yazmış idim bir neçə xəbər.
Məhəmməd ağaya verib onları
Qayıtmaq istədim Pesqaya[1] sarı,
Məni Şahtaxtlı döndərib yoldan
Dedi: "– Dostum, getmə, bir azca dayan".
Cəlil və Faiqlə eylədi tanış
Onda bahar idi, çıxmış idi qış.
O gün iki böyük sima ilə mən,
Dost oldum, gözlərim oldu çox rövşən.
Bu dostluq etdi həm çox illər davam
Daim aramızda oldu ehtiram.
Meydana çıxdıqda "Molla Nəsrəddin",
Mən də istiqbaldan olaraq əmin.
Yazdım cəhalətdən, seyyid, molladan,
Keçdi qələmimdən dövlətli, bəy, xan.
Məndə yaratmışdı bu munis jurnal,
Sanki uçmaq üçün yeni pərü bal.

[1] **Pesqa** – Tiflisdə bir küçənin adıdır.



* * *

Gəncədə işləyən dost, aşnam çoxdu,
Mollanı sevməyən bir arif yoxdu.
"Hatif" Mirzə Məhəmməd Axundzadə.
Yaxşı bir şairdi – fikri azadə.
Jurnal, qəzetlərə o da yazardı,
Həm də özündə çox istedad vardı.
Məni çox yazmağa edərdi təşviq,
Yazdıqlarımı da xoşlardı rəfiq.
Təəssüf, etdi o vaxtsız vəfat
Böylədir təbiət, böylədir həyat.
Adbulla Tofiqlə dəxi yaxındıq,
Görüşüb, söhbətlər edərdik sıx-sıx.
Hansı bir yazımdan xoşlanırdısa,
Deyərdi: "Yaz, ancaq dadlı, həm qısa".
Etmiş İstanbulda ikmali-təhsil,
Var idi onda çox incəlmiş bir dil.
Bu gənc ədib dəxi öldü çox erkən,
Yazdım bir nohə də onun üçün mən.
Fikri gənc Tofiqin çox-çox genişdi,
Bu gənc ölən zaman böylə demişdi:
– "Dinsiz" deyərdilər mənə mollalar,
Lakin yanlışdılar, mənim dinim var.
Dinlə, dəyanətlə dolsa da afaq,
Mənim dinim, tanrım türklükdür, ancaq.

## KƏNDİMİZDƏ İLK ÜSULİ-CƏDİD MƏKTƏBİ

Kənddə çoxdandı ki, bir məktəb yoxdu
Məktəbyaşlı çocuq, qız-oğlan çoxdu.
Çoxdan düşünürəm – olmalı məktəb,
Bunu bizdən zaman, vəqt edir tələb.
Məsəl var: səs çıxmaz – derlər, tək əldən
Çıxarmırdım bir səs buna görə mən.
Vardı bizim kəndin bir ağsaqqalı,

Zorlu, sözü ötən, varlı, arxalı.
Onunla hər bir iş görmək olardı,
Onun köməyinə ehtiyac vardı.
Bir gün yaxınlaşıb, açmışdım söhbət,
Demişdim: "– Bax, kordur, avamdır millət.
Kənddə başdan-başa hamı savadsız,
Ya gənc, ya ixtiyar, ya oğlan, ya qız,
Sən xalqın halını bir dəfə düşün,
Əvamın heç keçməz işləri düzgün.
Oğlun, qızın vardır, bir düşün özün,
Kənddə iki olmaz, hətta bir sözün.
Bir məktəb açmaqçın yardım qıl mana,
Kəndin uşaqları göz dikmiş sana.
Bunlar oxumazsa, deyirəm sizə,
Min yol söyəcəklər öləndə bizə".
Ağsaqqal çox razı qaldı söhbətdən,
Dedi: "– Düşünürdüm bunu çoxdan mən,
Edək kəndlilərlə bir yol məsləhət.
Yaxşı olmaz bu cür işləmək xəlvət".
Məscid qarşısında camaat bir gün
Toplaşmış, söhbətlə məşğuldu bütün.
Biz açdıq məclisdə hamıya işi,
Heç yoxdur bir razı olmayan kişi.
Sonra tamamilə üz tutub mana,
Dedilər: "– İş olur həvalə sana.
Get şəhrə, bir yaxşı alim molla tap,
Hər iş ki lazımdır, özün işlə, tap.
Bir molla saxlamaq deyildir çətin,
Həm puldan, həm evdən edərik təmin.
Mərsiyə oxuyar, ölü götürər,
Orucluq, Qurban var, heç çəkməz zərər".
Dedim: "– Molla olmaz, kəndli qardaşlar,
Yaramır təlimə o köhnə başlar.
Kənddə aldıq biz də molladan təlim,
İndi öz adını yaza bilir kim?
Məktəbə molla yox, müəllim gərək,
Gərək bu işdə biz cürət göstərək.



Lazımsa, molla da başqa saxlanar,
Bir İran mollası tapmağa nə var?!".
Beş-altı xər-mürid əsnədi, susdu,
Bir peyğəmbər oğlu bu sözü qusdu:
"– Yox, – dedi, – mollacıq bəs edər bizə,
Nə üçün düşməli dağa, dənizə?
Molla həm uşağa oxudar Quran,
Həm başqa işlərə yarar hər zaman.
Xərci iki şəxsin olar çox ağır,
Olmuş yük çəkməkdən belimiz yağır".
Bir az dedi-qodu olsa da sonu,
Ağsaqqal qolçomaq susdurdu onu.

### HƏM MOLLA, HƏM MÜƏLLİM

Axtardım Gəncədə, gəzdim hər yanı,
Molla – itinə tök, müəllim hanı?
Məsciddən ayrılmış bir nəfər vardı,
Məktəb, maarifə çox tərəfdardı.
Çoxdan buraxmışdı o mollalığı,
Tamam dəyişmişdi xuyu, qılığı.
Rusca da öyrənmiş bir rus qadından,
Çıxmışdı tısbağa əski qınından.
Həm də məktəbdarlıq etmişdi az-çox,
Kişi yeniləşmiş – "şəkk-şübhə yox".
O, saatsazlıqla məşğuldu indi,
Getdim görüşdüm də, qəlbim sevindi.
Hər gün qəzet alır, oxuyur jurnal,
Sakit, təvazöli, xoşsöhbət, xoş hal.
Dedim: "– Bu sənətdən kar çıxmaz sana,
Matqab, xırda beyni burax bir yana.
Gəl səni götürüm kəndə müəllim,
Bizim uşaqlara verərsən təlim".
Dardı məişəti, çox məmnun oldu,
Çay istəkanları dübarə doldu.

### SABİQ MOLLA MÜƏLLİMLİKDƏ

Kəndə gətirmişdim onu müxtəsər,
Tez-tez yoluxurdum axşam, həm səhər.
Ona edir hörmət çox sevə-sevə,
Qonaq gətirirdim həm sıx-sıx evə.
Hər gün qurtardıqda o vəzifəni,
Mütləq tapacaqdı axtarıb məni.
Qazet, jurnal oxur, edirdik söhbət,
Qəlbim tamamilə olurdu rahət.

### "BAZƏM BE TÖVLE"

Etdi bu vəziyyət ay yarım davam,
Lakin mən çıxmışdım öz fikrimdə xam.
Hər həftə seyrəlir sıx gediş-gəliş,
Hərif tapmış imiş yeni karlı iş.
Edirmiş məktəbdən sonra mollalıq,
Dönmüşdü əslinə bu köhnə qalıq.
Nahaq inanmışdım mən bu həpəndə,
Bir gün şəhrə gedib dönmüşdü kəndə.
Gördüm papaq, kostyum, çəkməni atmış,
Getmiş də həmmamə, kisəyə yatmış.
Qoymuş dırnağına, bığına xına,
Girmişdi tısbağa tam əski qına.
Dün, başmaq geymişdir, çiynində əba,
Bir az yaxınlaşıb dedim: "– Mərhəba!
Dostum, artıq yada salmırsan bizi,
Qurşaq, əmmamə nə, azdınmı izi?!"
Dedi: "– Çox bənd olma, qardaşım Əli,
Bil ki, nə əhməqəm, nə səfeh, dəli.
Qaçar öz nəfindən bu dünyada kim?
İndi həm mollayam, həm də müəllim.
Kəndlilər deyirlər, oxuma jurnal,
Bizə hədis söylə, tapdıqda macal.



Deyirlər, Əlinin evinə getmə,
O babımənsəbdir, yaxınlıq etmə.
İndi əziz dostum, olma mükəddər,
Sizə heç gəlməsəm, heç çəkməm zərər".
Artıq söz bitmişdi, ayrıldım, getdim,
Səhvimçün kəndimi məzəmmət etdim.

### MƏN "MOLLA NƏSRƏDDİN"İN BİRİNCİ İLİNDƏ NƏ ÜÇÜN NƏZMƏN İŞTİRAK EDƏ BİLMƏDİM

Kəndlər... türk kəndləri, islam aləmi,
Şadlıqdan məhrumdu, sevirdi qəmi.
Hər yanda sürməkdə vəhşət hökmünü,
Cəhlin buludları sarmış üstünü.
Türklər yek-digərin yırtır, öldürür,
Kənddə bayquş ular, şeytanlar gülür.
Kənddə bir hadisə düşdü başıma,
Zəhr atdı qəflətən dadlı aşıma.
Doqquz yüz altıda – iyunda – birdən,
Qaldım bir vaqiə qarşısında mən.
Bir gün qardaşımla yeznəm tarlada
Kəndli bir gənc ilə etmişlər qovğa.
Gənc altmış üç dillə bizimkilərə,
İsabət etməmiş lakin bizlərə.
Gəncə bir güllə də vurmuşdu yeznəm,
Düşmüşdü üstünə böyük dərdü qəm.
Dustaq edilmişdi yeznəm, qardaşım,
Onlarla məşğulkən şəhərdə başım,
Quldur Dəli Alı – Gəncədə məşhur,
On beş atlı ilə – hamısı quldur,
Məqtul kəndli gəncə tərəfdar çıxmış
Kənddə nəyim varsa, qarətlə yaxmış.
Heç bir şey qoymadan aparmışdılar,
İndi mən bir pulsuz qalmışdım təkrar.
Qəza naçalnikinin yanına getdim,

Vəqəni söyləyib, şikayət etdim.
Alçaq siyasətli, qorxaq hökumət
Bu işdə susmamı görüb məsləhət,
Dedi: "– Quldurları təqib edərsək,
Tutmaqçın – ya qoşun çəkib gedərsək,
Qafamız rahatsız olacaq mütləq.
Sən razı olma ki, qan axsın nahaq,
Həm də öldürərlər quldurlar səni".
Deyib, qorxutmuşdu naçalnik məni.
Artıq şikayətdən mən də vaz keçdim,
Beşgünlük ömr üçün mən şəhri seçdim.
Məhbəsdə qətl etdi düşmən yeznəmi,
Məni dildən saldı bu gəncin qəmi.
Suçsuzdu qardaşım, zaminə aldım,
Pis halda bir müddət Gəncədə qaldım.
Kənddə ölən gəncin qohum-qardaşı,
Hansı ki, var əqli, şüuru, başı,
Toplaşıb ta şəhrə gəldilər, mana:
"– Düşmənlik etmərik, – dedilər, – sana.
Bizdən ol arxayın, qayıt, kəndə gəl,
Verməz kənd əhlinə şəhər yeri əl".
Kəndə qayıtmışdım bundan sonra mən,
Lakin pulum yoxdu, olsun bir tümən.
Çıxmış hər şey əldən – hətta ip ucu,
Yenə mən olmuşdum bir susuz suçu.
Bunca fəlakətlər, əngəllər, dərdlər,
İnsanda hal qoyar, ya həvəs məgər?
İl yarım bilmədim gün, həyat nədir,
Deyildim şeir üçün əsla müqtədir.
Bunlarla birlikdə lakin mən yenə,
Qoymadım boş keçsin tarixü sənə.
Nəsrən məqalələr, xəbərlər yazdım,
Ağa Mir Bağırın qəbrini qazdım.[1]

[1] Ağa Mir Bağır – Gəncədə müctəhidlik iddiasında olan mürtəce bir axunddur.



## BAKIDA OT SATIRAM

Qəlbim əvvəldən də kənddən sınıqdı,
Məni indi daha şiddətlə sıxdı.
Qoymuş məni müflis məlum hadisə,
Dən yox çuvallarda, bomboşdu kisə.
Vardı öz kəndimdən bir ot taciri,
Bakıda alveri olurdu iri.
Girdim yanında mən xidmətə onun,
Bəklərdim gənc ikən həyatın sonun.
Ən az bir maaşla, taleyim bu ya,
Doqquz yüz yeddidə gəldim Bakıya.
Üç ay yay fəslini Bakıda qaldım,
Bir çox iş öyrəndim, məlumat aldım.
Yazmaq məcmuəyə çıxmır yadımdan,
"Molla" hey məktubdur alır adımdan.
Həm də məcmuədə çıxıb əksəri,
İmza "Sijimqulu", ya ki "Sərsəri".

## "BƏHLUL" JURNALI

Çıxırdı Bakıda "Bəhlul" jurnalı,
Lakin zarafatdan büsbütün xalı.
Bir gün bir mənzumə yazdım "Bəhlul"a,
*Almazdım mən özüm onu bir pula.*
Çünki bədiilik, vardı nə dəyər,
Lakin məcmuədə dərc etmişdilər.

## MÖHTƏRƏM SABİRİN "MOLLA NƏSRƏDDİN"DƏ İŞTİRAKI NECƏ BAŞLANMIŞDI

Jurnal üç-dörd nömrə çıxıbdır hələ,
Lakin bir şey vardı – gəlməmiş ələ.
Bir gülgü jurnalı ruhuna uyar,
"Molla" üslubunda duzlu, mənadar.

Həzli əşar yazan bir şair gərək
Ki, versin ruhlara bədii xörək.
Molla bu nöqsanı çoxdan sezirdi,
İncə bir həcvgu şair gəzirdi.
Lakin o günlərdə böylə şairin
Böylə kəmyab olan bir cəvahirin
Yoxdu vücudundan Tiflisdə xəbər.
Onu tapmamışdı "Şərqi-Rus", "Məzhər",[1]
Bunu tapdı ancaq "Molla Nəsrəddin",
Açdı ədəbiyyatda bir dürri-noin.

NAMƏLUM POSTAÇI

Bir gün tərtibatla məşğulkən Ömər
Postaçı gəlməyin verirlər xəbər.
Lakin deyildi bu adi postaçı,
Vardı nə mundiri, nə saqqal, saçı.
Sadə bir oğlandı, qaş-gözü qara,
Bənzərdi naməbər mahir quşlara.
Bağlı bir məktubcuq təqdim etdi o,
Dərhal, dayanmadan çıxıb getdi o.
Faiq bu qasidnən maraqlanmadı,
Məktubu qiymətli bir şey sanmadı.
Ancaq qurtardıqdan sonra hər işi,
Faiq xatırladı yaxın keçmişi.
Dərhal çocuq verən məktubu açdı,
Şadlandı, hər yana gülüşlər saçdı.
Apardı məktubu Mirzə Cəlilə,
Təriflər sığmırdı ağıza, dilə.
Məktub ibarətdi gülən şeirdən,
Oxuyub güldülər, dedilər, əhsən!
Lakin məktubda var nə ünvan, nə ad,
Haradan..., kim yazmış..., ay dad-bidad?
Faiq buraxmışdı qasidi nahaq,

[1] "Məzhər" – Tiflisdə çıxan həftəlik türkcə qəzet



Ondan sirri bilmək mümkündü mütləq.
Yoldaşlar edirdi təəssüf izhar,
Lakin çıxardılar böylə bir qərar
Ki, lazım gəlsə də çəkmək çox əmək,
Naməlum postaçı tutulsun gərək.
Söz yox gələn həftə gələr bir daha,
Tez-gec ələ keçər, ucuz, ya baha.
Mənzumə hörmətlə verildi çapa,
Sanki dürdanələr düzüldü sapa.
"Hop-hop" yazıldı həm şairin adı,
Sonra bu munis ad aytək parladı.

NAMƏLUM POSTAÇI İZİNDƏ

Faiq çapxanada işləyir yenə,
Onda çalışmaq bir istək, ənənə.
Bulmada işlərlə məşğulkən özü,
Naməlum qasidi gəzirdi gözü.
Görsəndi eyvanda bir gün naməbər,
Ətrafa gəzdirib şübhəli nəzər.
Çıxarıb bir məktub tez təqdim etdi,
Bir an yubanmadan qayıdıb getdi.
Faiq tez təqibə başladı onu,
Qasid bir dükana girdi ən sonu.
Onunla Faiq də girdi dalbadal,
Sanki bir müştəri axtarırdı mal.
Gördükdə Faiqi dükan sahibi,
Onu qarşıladı bir qardaş kimi.
Tacir Salamovdu, məşhur, mötəbər,
Şamaxı əhlindən maarifpərvər.
Faiqlə dost idi, tanışdı çoxdan,
Çox məmnun oldular görüşən zaman.
Faiq öz dostuna açdı keçmişi,
Sordu postaçını, şeri, hər işi.
Dostu gülümsəyib sirri söylədi:
"Şair, şamaxılı Sabirdir", – dedi.

Şamaxı mövhumat yurdudur, fəqət,
Sabir adlanmağı bilmir məsləhət.
Məktubu düz sizə yaza bilməyib,
Poçtada açarlar, bilərlər deyir.
Nə yazsa, göndərir o ancaq bizə,
Bizdən rica edir ki, verək sizə.
Çünki şübhələnməz molla, tacirdən,
Bunu da bildiyi halda müəyyən.
Yenə hər məktubda yazar, yalvarar,
Adının gizlində qalmasın arar.
Çünki Sabir bilir Məcid əfəndi,[1]
Duysa Sabir yazır – qıracaq bəndi.
Təkfirlə, şallaxla edəcək hücum,
Onda da Sabirin son günü məlum.
Biz dəxi Sabirin xatiri üçün,
Sirri açmamağa etmişdik əmin.

* * *

Faiq əhvalatı öyrənib tamam,
Nəql etdi Mirzəyə təfsilən axşam.
Mirzə bu kəşfdən çox məmnun oldu,
Mənzil gülüşlərlə, fərəhlə doldu.
Məktub da yazdılar sonra Sabirə,
Pul da göndərdilər böyük şairə.
Sabir bundan sonra yüksəldi hər gün,
Ondan təsir aldım mən də büsbütün.
Mən həm az oxumuş, həm rəhbərsizdim,
Kənddə yol göstərən olacaqdı kim?
Heç kəs bir şerimi etməmiş təshih,
Bir söz öyrətməmiş fəsih, ya qəbih.
Bir ustad deməmiş böylə-şöylə yaz,
Olsaydı böylə şəxs, edərdim niyaz.
Mən bunlara rəğmən işlədim, fəqət,
Şair yaratmışdı çünki təbiət.

[1] Məşhur mürtəce Hacı Məcid Əfəndi (şamaxılı)



## YAZIÇILARIN "MOLLA NƏSRƏDDİN" ƏTRAFINA TOPLANMASI

"Molla" alqışlanır çox gurultulu,
Çünki həm məsləki, həm yolu ulu.
Hər yanda söylənir xoş, məruf adı,
Nəzminin, nəsrinin nəşəsi, dadı.
Bir hiss oyandırır hər məzhək sözü,
Şəkillər açırdı hər zəif gözü.
Hamıda görməyə iştiyaq, həvəs,
Alır, məmnun-məmnun oxurdu hər kəs.
Hər gün çox yerlərdə artırdı tələb
Oldu məcmuəmiz el üçün məktəb.
Oldu o bir güzgü Şərq üçün tamam,
Arvad, kişi, ........, alim, ya avam.
Hər kəs öz əksini görürdü onda,
Yaxşı, yaxşı donda, pis də pis donda.
Molla, bəy, xan belə onu alırdı,
Duzlu tənqidlərə heyran qalırdı.
Onlar gülürdülər haqlı söyüşə,
Lakin başlardılar yenə döyüşə.
Kütlə məcmuənin qədrini bildi,
İlk nömrə bir daha təbə verildi.
Hər yanda ariflər, nöqtəşünaslar,
Nə ki tək erkəklər, hətta ünaslar.
Qələm silahını aldılar ələ,
Köhnə yığıncağa düşdü vəlvələ.
İlk dövrdə Həqqi,[1] Həbib,[2] "Naümid",
Sabir,[3] Nəzmi,[4] Razi,[5] Məhəmməd Səid,[6]
Məhzun,[7] Haqverdiyev,[8] həm Salman Mümtaz,[9]

[1] İsmayıl Həqqi (Tiflis)
[2] Məşədi Həbib Zeynalov (şamaxılı – Tiflisdə olardı)
[3] Sabir – Mirzə Ələkbər Tahirzadə (şamaxılı)
[4] Əli Nəzmi Məhəmmədzadə (Gəncə-Sərab)
[5] Əli Razi Şamçizadə (Gəncə)
[6] Məhəmməd Səid Ordubadi
[7] Əli Məhzun Rəhimov (İrəvan)
[8] Əbdürrəhim bəy Haqverdiyev (Qarabağ)
[9] Salman Mümtaz Əsgərov (Şəki-Aşqabad)

Şövqi,[1] Əsgərzadə,[2] Hatif,[3] "Binamaz",
Sidqi,[4] Hacınski,[5] Nemət,[6] Qəmküsar,[7]
Rüstəm,[8] Məhəmməd Səid,[9] Xuraman,[10] Memar,
Hətta qocalardan Mirzə İsmayıl,[11]
Olmuşdu şadlıqla orduya daxil,
Bizləndi mollalar, sancıldı xanlar.
Onlar ki, yıxmışdı çox xanimanlar,
Müftilər, qazilər, şeyxülislamlar,
Axundlar, seyyidlər, keşiş, xaqanlar.
Cümlə söyüldülər: çar, soltan, şahlar,
Təsirdən düşdülər dinlər, allahlar.
Türk işçi kütləsi, kəndli, rəncbər,
Tutdu bundan sonra həyatdan xəbər.

## MİRZƏ CƏLİLLƏ FAİQİN TƏQİB EDİLMƏLƏRİ

Kütlə bütün razı, məmnun Molladan
Ancaq bir yan ovuc quldur, şarlatan,
İstibdad quyruğu, şəriət qulu
İstismar edənlər: işçi, yoxsulu.
Beş gün yallanmaqçın axtaranlar yer
Daim xəyanətlə edənlər alver,
Torpaq malikləri, anbar sahibi,
Jandarma casusu, xəfiyə naibi,
Qadın cəlladları, qız dəllalları,
Cənnət gəzən üç-beş arxiv malları.

[1] Əli Şövqi Şeyxzadə (Gəncə)
[2] Cabbar Əsgərzadə (İrəvan)
[3] Mirzə Məhəmməd Axundov Hatif (Gəncə)
[4] Məhəmmədəli Sidqi Səfərov (Ordubad)
[5] Mehdi bəy Hacınski "Dəmdəməki" (Bakı)
[6] Nemət Bəsir Hacıyev (Bakı)
[7] Əliqulu Nəcəfov (Qəmküsar) (Naxçıvan)
[8] Rüstəm ... (Gəncə)
[9] Məhəmməd Səid Axundzadə (Gəncə)
[10] Xuraman müəllimə (Gəncə)
[11] Mirzə İsmayıl (Gəncə, əslən iranlı)
Bunlar "Molla Nəsrəddin"ə az-çox yazanlardandırlar ki, mən ancaq onları tanırdım (*müəllifin qeydi*).



Qəlbdən düşməndilər Mollaya bütün
Danoslar yazdılar yüzlərlə hər gün,
Söndürmək fikriylə nur saçan şəmi
Dağıtmaq qəsdilə ruh verən cəmi,
Düşdükləri üçün qorxu, təşvişə
İblistək girmişdi hamısı işə.

## TİFLİS CÜMƏ MƏSCİDİNDƏ

Gündəlik məsələ olmuşdu hicab
Ölkəyə salmışdı böyük iztirab.
Dəymiş bir-birinə cəmi məscidlər
Lənət sədasından titrirdi mənbər.
Mollalar sahibsiz ittək ulayır,
Bir çox xər müdirlər meydan sulayır.
Min arvad dəllalı, yüz uşaq qulu,
Qəflət avarası, əql yoxsulu.
Yüz oğru, yüz cibgir, beş yüz şarlatan,
Yüz tacir, yüz cakeş, yüz millət satan,
Bütün Mir Bağırla olmuş həmnəfəs[1]
Hamı verib onun pis səsinə səs.
Dibdən tərpənmişdi tam Şeytanbazar
Bütün vermək üçün "Molla"ya azar,
Bir gün toplandılar Came məscidə
Etmiş Hacı Axund[2] məclisi çidə[3]
Demişlər, "Molla"dan gəlsin bir adam
Ta bəhsi məsciddə edək biz tamam,
Hərgah Quran desə yox çadra, hicab
Artıq biz etmərik bir sual-cavab.
Yox əgər, Quranda varsa örtünmək,
"Molla" jurnalını bağlasın gərək.
Çatdı Mir Bağırın əmri "Molla"ya,
Olmaz quduzları almamaq saya,

[1] Mir Bağır – məşhur mürtəce Tiflis müsəlmanlarının mollası
[2] Hacı Axund – yenə Tiflis mürtəce mollalarından biri
[3] Çidə – yığılmış (*farsca*)

Bir belə məclisə lakin kim gedər –
Kim getsə, özünü şəksiz, məhv edər.
Lakin hər hay-küydən qorxmazdı Ömər,
Qorxaqlar heç yerdə qazanmaz zəfər.
Verdi bu məclisə getməyə qərar:
"Qoy, – dedi, – haqq batil olsun aşikar".

### GƏNCLƏR VƏ TƏLƏBƏLƏRİN ÖMƏRİ MÜDAFİƏ ETMƏLƏRİ

Gənclər, məktəblilər duymuşdu işi
Getmişdi məclisə qırx-əlli kişi.
Hamı götürmüşdü silah gizlicə
Bəlkə rast gəldilər əyriyə-gicə.
Mənbər ətrafında tutmuşlar məkan,
Hər yerdə huşiyar olmalı insan.
Mir Bağır dırmaşıb, qalxıb minbərə
.......... müridləri süzdü bir kərə.
Oxudu Qurandan beş-altı ayə,
Salavat səsləri qalxdı səmayə.
Etdi ayətləri fikrincə təfsir,
Jurnal yazanları eylədi təkfir.
..............., söylədi təkbir
Tapmışdır onların rəngləri təğyir.
Söz üçün yetişmişdi növbət Ömərə,
İstədi nitq üçün çıxsın minbərə,
Birdən xumurdandı mollapərəstlər
Yüksəldi hər yandan qeyzli səslər:
"Ay dinsiz, ay yolsuz, çıxma, düş yerə,
Murdar ayağını vurma minbərə!"
Deyib, Faiq səmtə etdilər hücum
Əldə xəncər, bıçaq... məqsədlər məlum.
Vurmaq, əzmək üçün onlar Faiqi,
Minbər ətrafına sardılar sıxı.
Məktəbli gənclərdən on-on beş nəfər,



Çəkib tapançanı, sıyırıb xəncər,
Azğın köpəklərlə qarşılaşdılar,
Onlar işi böylə görüb şaşdılar.
Düşdü Ömər Faiq ortaya dərhal,
Artıq buraxmadı olsun qalmaqal.
Mir Bağır ortadan durmayıb cırdı,
Sanki qorxaq ....... kəmsiyi qırdı.
Hacı Axund dəxi dinmir, susmuşdu,
Görüb cavanları, ödün qusmuşdu.

### FAİQİN HƏBSİ VƏ TİFLİSDƏN SÜRGÜN EDİLMƏSİ

Zahirdə sakitdi bir qədər ara
Lakin tez sağalır, deyildi yara.
Dindarlar hər zaman tapdıqca fürsət
Vururdu arxadan "Molla"ya zərbət.
Bir min doqquz yüz və yeddinci il
Faiq buraxmışdı böylə bir şəkil.
İmperatorlardan bir-iki nəfər,
Küçə tamaşası qurmuş müxtəsər.
Meymun surətində olan sultanı
Oynadıb-gülürlər, süzüb hər yanı.
Bundan ibarətdi şəklin məzmunu
Dindarlar bir fürsət bilərək bunu,
Bir cəsus dəstəsi çıxdı məsciddən
Hamı dilbir, sözbir, bir can, bir bədən,
Şəkli apardılar düz canişinə
Ərz etdilər jurnal ziddir dinə.
Bir də sultanları edənlər təhqir
Hərgah edilməzsə, şiddətli tədbir,
Böylə təhqir edər sabah da çarı,
Rədd etmək lazımdır bu massonları.
Edildi həddindən çox hiylə, təzvir,
Axırda etdi də danoslar təsir.

Susdurdu istibdad Nemanzadəni,
Qul etmək istədi bir azadəni.
Vurdular Faiqin ağzına qıfıl,
Dedilər: çar, sultan söymə, tövbə qıl.
Lakin umulmaz ki, susmaq Ömərdən
Qorxur nə çar, Allah, nə Peyğəmbərdən.
Axır bu suç üstə tutdular onu,
İki ay həbsə də tıxdılar sonu.
İkinci əmr ilə canişin bir gün
Hətta Tiflisdən də eylədi sürgün.

## BAKIDA JURNALIN HƏBSİ

Doqquz [yüz] yeddidə Bakıdayam mən,
Olmuşdur mənzilim bir beytül-həzən.
Canişin əmr etmiş qapanmış jurnal,
Etdi bu iş məni çox pərişanhal.
Lakin on beş gündən sonra "Molla"mız,
Çıxmışdı küçəyə qırmızıyanız.
Polis bu qırmızı rəngdən qorxmuşdu,
Tutub "Molla"mızı dama soxmuşdu.
Lakin laxlamışdı çarın hər işi
Sınmışdı jandarmın, polisin dişi.
Jurnal edilmişdi qanunsuz dustaq,
Polis anladı ki, yoxdur onda haqq.
Bir gün yarım sonra yenə buraxdı,
Jurnal küçələrdə yürüdü, axdı.
Lakin "müsəlmanlar" çıxıb özündən
Söyüb deyirdilər: "– Pah, evinəcən!
Yazır, zalım oğlu, yenə hicabdan
O xalis kafirdir, degil müsəlman".
Bunu qulağımla eşidirdim mən
Deyirdim: əhsən, ay "müsəlman", əhsən!



## MİRZƏ CƏLİLİ ÖLDÜRMƏYƏ QƏSD

Öldürtmək qəsdilə Mirzə Cəlili
Dibindən kəsməkçün söyləyən dili.
Fitvaları ilə ruhanilərin
Təbliğ, təhrikiylə ərbabi-şərin,
Bakıda toplaşıb üç-beş şarlatan,
Mərd, igid bir qoçu seçirlər pünhan
Ki, "din əldən gedir", Tiflisə getsin,
Cihaddır, Cəlili tapıb qətl etsin.
Aldanıb şeytana, uyub iblisə,
Mərd igid durmadan gedir Tiflisə.
Lakin Tiflisdə o, düşünür bir az,
Edir öz fikrinə özü etiraz.
Öz yurdu uğrunda axıtmış çox qan,
Vermiş azadlıqçın yüzlərlə qurban.
Göyçək Gürcüstanın azad havası,
Silir damağında birikmiş pası.
Salır açıq gözlə hər yana nəzər
Görür qarşılaşmış xeyir ilə şər.
Lakin Gürcüstanda şəri söyürlər
Şəriri, xaini açıq döyürlər.
Özü də xainmi? – düşür təşvişə
Tüpürür uyduğu bu alçaq işə.
Olur gəldiyindən qoçu peşiman,
Əstəğfir söyləyib sahibi-iman,
Yazır idarəyə xırda bir məktub
Şərh edir məktubda nə isə mətlub,
Əttövbə söyləyib, qayıdır geri,
Olsun lap cənnətdə qoçunun yeri.

## BƏZİ ARİFNÜMALARIN YALTAQLIQLARI

Bəzi ariflər də söydü "Molla"nı
Çünki bəslənmişdi din ilə qanı.
"Molla" hicab sözü atdı ortaya
Dedi: çadra deyil abi-ru, həya.

Bilikdir arvadın örtü, isməti,
Çadranın ismətçün yoxdu qiyməti.
Əsla gözləmədən Haşım bəy Vəzir
Etdi məsələni axund tək təbir.
Onda "Səda"nın[1] da mühərrirləri
Molla, axund idi, səfeh, sərsəri.
"İşıq" müdirəsi Xədicə xanım[2]
Öylə şit söydü ki, qaraldı qanım.
Xanım özü bilməz nə şeydir hicab,
Sinə, qollar açıq, firəngiməab.
Gülərdi hər kəsə kirşanlı üzü,
Gəzirdi azadə gecə-gündüzü.
Lakin o çadraya çıxdı tərəfdar
Qoçu, ruhanitək eylədi rəftar.
Tiflisdə ikən o çox incəlmişdi
Fəqət o, Bakıya indi gəlmişdi.
Bakıda mollalar, qoçular vardı,
Təməllüq etməsə, dalda qalardı.
*Möhkəm tənqid etdim mən Xədicəni*
Yəqin söyür dostum, indi də məni.
Hətta Şuşadan da bəzi məşahir,
Başda olmaq üzrə İbrahim Tahir[3]
Cəlili həcv etdi, "Molla"ya söydü
Zurna-qaval çaldı, nağara döydü.
Açdı səhifə həm onlara "İrşad"
Çünki edilmişdi söz, kəlam azad.
Arifnümaların pozuqdu başı,
Çıxmışdı meydana ustad yanaşı.
Keçmiş Qarabağda bir qayda vardı,
Xanların, bəylərin gözləri dardı.
Rəiyyət sinfinə qız verməzdilər,
Gərək bəy qızına bəy olaydı ər.
Palto, çəkmə geymək xəlqə yasaqdı,

[1] "Səda" – Haşım bəy Vəzirovun imtiyaz və müdirliyi ilə çıxan bir qəzet idi.
[2] Xədicə xanım Əliboyova – "İşıq" adlı qadın məcmuəsinin müdirəsi idi.
[3] İbrahim Tahir – məşhur şuşalı şair. Onun hərəkətləri barədə Mirzə Cəlil özü mənə təfsilən təkrar söyləmişdi. Mən ancaq adını və işini xatirə salmaqla kifayətləndim.



Kim ki rəiyyətdi, işi axsaqdı.
Dəllək, dəmirçilər palto geyəmməz,
Çəkməni bəy geyər, bu-o geyəmməz.
Boz palto geysəydi kəndli, ya çoban,
Bəylər tən bölərdi onu ortadan.
Cəlil rəiyyətdi, həm də qırmızı
Lakin almışdı o gedib bəy qızı.
Bundan da qızmışdı qarabağlılar,
Başlar qalınlaşıb, börk olmuşdu dar.[1]

## MİRZƏNİN MƏSLƏKİ

Keçmişdi çox illər bunun üstündən
Məcmuə Bakıda çıxan gündən şən,
Cəlillə keçmişdən edirdik söhbət
Bu hallar düşdükcə yada həqiqət,
*Gülür, Mirzə edib fikrində davam*
Deyirdi: qoy söysün bizə hər əvam.
Biz də onlar kimi küsüb qaçmarıq,
Onları söyməyə ağız açmarıq.
Bir çox həqiqətlər görmüşkən, Cəlil
Əslən məsləkini etmirdi təbdil.
Hətta idarəyə gəldikdə Tahir
Heç də narazılıq etmirdi zahir.
Onun yazısına yer də verirdi:
– Nəzmi, sən keçmişə baxma, – deyirdi.
Bizim məcmuəmiz xalq üçündür bil
Bizə söyənlərə söymək düz deyil.

[1] Mirzə Cəlil "Şərqi-Rus"da işlədiyi zaman möhtərəmə Həmidə xanım Cavanşirski öz mülki işlərindən ötrü Tiflisə çox gedərdi və Məhəmməd ağa Şaxtaxtınskinin qardaşı (adını unutmuşam) evində qalardı. Orada Mirzə ilə Həmidə xanım Məhəmməd ağanın vasitəsi ilə tanış olmuşlar və sonra da evlənmişlər. "Molla Nəsrəddin"in maliyyə cəhətdən axsadığı günlərdə Həmidə xanımın çox kömək və yararlığı olmuşdur. Həmidə xanım oxumuş bir qız olduğu üçün açıq gəzərdi. Gəncəyə də çox gələrdi, açıq geyimli bir türk qadını görən gəncəlilər məəttəl və heyran qalardılar.

* * *

"Şəlalə" ilə də çox vuruşduq biz[1]
Yoxdu bu jurnalda türk dilindən iz.
Yarı ərəbcəydi əşar, məqalə
Gülmək lazım idi bu qəmli halə.
"Qonağa hörmət"i atıb, unutduq
Səbribəyzadəni atəşə tutduq.[2]
Həqqiyə heç vermək olmaz idi həqq[3]
Ona dil öyrətmək lazımdı mütləq.

"MOLLA NƏSRƏDDİN" İDARƏSİNDƏN İLK MƏKTUB

Bunca çətinliyə, hücuma rəğmən
"Molla" öz nəşrində davam edir şən.
Doqquz yüz səkkizdir, kənddəyəm, bir gün,
Yaydır, kənd işiylə məşğulam bütün.
Poçt ilə Tiflisdən bir məktub aldım,
Zərfi yırtıb ona tez nəzər saldım.
Yazmış idarədən məktubu Faiq,
Həm də bilmiş məni təqdirəlayiq.
Jurnal yayılırmış artıq çox geniş,
Daha çox yazmamı etmişdi xahiş.
Jurnal bizə para vermədiyindən,
Məzərət yazmışdı – heyran qaldım mən.
Qəzet yazılara verərmi para?
Bunu bilmirdim ki, mən bəxtiqara.
O vaxt dirçəlmişdim, bir azca sazdım
Məktuba cavab da mən böylə yazdım:
"Faiq! Nə sözdür bu, pul nədir məgər?
İncirəm pul adı çəksəniz əgər,
Eyibdir bu sözlər, qardaşım, gözüm,
Pul nədir? Qurbanam "Molla"ya özüm".

---

[1] "Şəlalə" – Bakıda çıxan ədəbi bir jurnal
[2] Səbribəyzadə – çox qəliz yazan türkiyəli şair
[3] "Həqqi" – "Şəlalə"nin sahibi İsabəy Aşurbəyov



Canım tək sevirdim bu məcmuəni
Doğrusu, lap aşiq etmişdi məni.
Faiqin məktubundan sonra lap coşdum
Müxəmməslər yazdım, qoşmalar qoşdum.
Bir gün də məxsusən, Tiflisə getdim
Tapıb rəfiqləri ziyarət etdim.
Rəssam Rotterlə də görüşdüm o gün,
Mahir bir ustaddı, hər kəsdən üstün.

ÜNSİZADƏ KAMAL ƏFƏNDİ İLƏ TANIŞLIQ

Bu dəfə Hatiflə Tiflisdə ikən
Ünsizadə ilə tanış oldum mən.
Vardı kiçik, gözəl bir mətbəəsi
Çoxdu təmizliyə onun həvəsi.
Maşınlar, kassalar par-par parlardı
Hər künc, hər bucaqda səliqə vardı.
Burada çıxırdı həftəlik "Məzhər"
Bu qəzet yaşadı çox az, müxtəsər.

PROFESSOR ƏLİ BƏY HÜSEYNZADƏ İLƏ TANIŞLIQ

Doqquz yüz yeddidə Gəncədə bir gün
Bəzi rəfiqlərlə görüşmək üçün
Hatiflə keçirdik bazar başından,
Birdən Hatif durdu verərək nişan.
– Bax, – dedi, – o gələn Əli bəydir, dur,
Türklərdə yeganə alimdir məşhur.
Hatif Əli bəylə tanışdı çoxdan
Mən indi tapmışdım görüşə imkan.
Əli bəy yetişdi, salamlaşdılar,
Görüşüb, məhəbbət etdilər izhar.
Hatif ona etdi məni də təqdim,
Əl verib görüşdük, şad oldu qəlbim.
O, mehmanxanada etmişdi mənzil,

Mehmanxana bizdən çox uzaq deyil.
Ədib bizi etdi mənzilə dəvət,
Getdik, hər tərəfdən edildi söhbət.
Hicabdan, qızların oxumasından,
Maraqlandığımız çox işdən haman
Biz professora suallar verdik:
"Din – elmə, ürfana ziddmi?" – dedik.
Əli bəy dedi ki, bütün dinlərdən
İslam dini elmə yaxındır hökmən.
Həm oğul, həm qızı oxutmaq gərək,
Maarif uğrunda sərf edin əmək.
Əli bəy "Kaspi"nin müdiri ikən
Şuşa qəzasının naçalnikindən
Şikayət məktubu çap etdiribmiş,
İndi məhkəməyə verilmişdi iş.
Ədib məhkəmədə bulunmaq üçün,
Bakıdan Gəncəyə gəlmişdi o gün.
Məhkəmə müxbirə verdi bəraət,
Düzdü naçalnikdən olan şikayət.

## SABİRİN VƏFATI

Rövnəqli, rövşəndi jurnalın işi
Artıq axundların sınmışdı dişi.
Bizi edirdilər yenə də təkfir
Lakin buraxmırdı təkfirlər təsir.
Get-gedə həyatda hal dəyişirdi,
Maarif, məktəbə xəlq isnişirdi.
Çərxlər qonulmuşdu dəmir üstünə
Sürətlənir idi iş gündən-günə.
Aylar bir-bir keçir, ötürdü illər,
Xeyli azalmışdı söyüşlü dillər.
Gəldi şeamətli on birinci il,
Bizimlə davrandı qeyri-mötədil.
Təqdir edilməyən həyatda ikən
Bir hörmət görməyən el tərəfindən.



Yoxsulluq atəşi üzrə qovrulan
Varlığı ehtiyac içrə sovrulan,
Sabun tiyanının yanında bişən
Ömründə bircə il, gün görməyən, şən,
Daim qoltuğunda olmayan para,
Dərddən ciyərləri, ürəyi yara,
Lakin bu hal ilə elçin ağlayan
Axır böyük qəlbi vərəm bağlayan
Yurdun tək şairi möhtərəm Sabir,
Güc-qüvvəti bitmiş bu böyük şair
Bərk xəstə halında Tiflisə gəlmiş
Mirzənin evində qalıb dincəlmiş,
Həkim çağırtdırmış, işlətmiş dərman
Lakin sağalmağa tapmamış imkan.
Sidqi etmişsə də ona çox xidmət
Hər gün çəkmişsə də fiziki zəhmət,
Bir dürlü olmamış dərd, dərmanpəzir
Dərman da, doktor da etməmiş təsir.
Dönmüş Şamaxıya, etmişdir vəfat,
Bitmişdi böylecə bu qəmgin həyat.
Mana bu hadisə çox təsir etdi,
Çünki əldən böyük bir şair getdi.
Yazdım bir mərsiyə, ona ağladım,
Ağlar misralardan əklil bağladım.
Sağkən eləməzdim mən ona yardım,
*Çünki ondan bədtər hala düçardım.*
Lakin "Hophopnamə" çap ediləndə
Etdim kömək ona bir azca mən də.
Bir az özüm qoydum, bir az topladım,
Atdım bu yolda mən mədəni addım.
Göndərdim Bakıya əlli dörd manat
Sabir xatirəsinə kiçik bir sovqat.[1]

[1] O vaxt mən bu pulu "Şəlalə" məcmuəsi idarəsinə göndərdim. İsa bəy Aşurbəyli bu pulu yetirib, özümə də məktubla xəbər vermişdi. Pulun siyahısı "Tərəqqi"dəmi, "Tazə həyat"damı dərc edilmişdir.

## MİRZƏ CƏLİLİN ETİRAFI

Mirzə özü etdi mənə etiraf
Dedi: – Həyatımda vurmadım boş laf.
Sabirə mən pul sərf edə bilmədim,
Çünki sərf etməyə yoxdu qüdrətim.
Lakin möhtərəmə Həmidə xanım[1]
Demiş ki: var buna mənim imkanım.
Göstərmiş Sabirə xeyli iltifat,
Etmişdi xərc ona üç-dörd yüz manat.[2]
Mən əsla deməm ki, pisdir qənaət,
Lakin qənaəti Mirzə, nəhayət,
Sıxıb xəsisliyə çevirmiş idi
Bu da sevilməyən bir dadsız işdi.
Evdə yatır xəstə, çay lazım ona,
Tez-tez qatıq, ya süd, ya ki pərzana,
Lakin israf etməz bir pul da Cəlil
Bir gün çaysız qalıb Sabir, açmış dil.
Özgə bir evdədir xəstə, həm qonaq,
Bir də çay istəmək olmazmı çox ağ?
Şair ən sonunda gəlmiş də təngə
Salmış ciddi sözü məzhək bir rəngə,
Etmiş zərifanə bircə beyt inşad,
Mirzəyə etmiş o, bu dildə fəryad:
"Molla, səmavərindən dərda, həzar dərda,
Bir istəkəni indi, bir istəkəni fərda".

* * *

Belə xəsisliyi Mirzə Cəlildən
Sabirdən on dəfə artıq gördüm mən.

[1] Həmidə xanım – Mirzə Cəlilin həyat yoldaşı. Qarabağlı Əhməd bəy Cavanşirskinin qızı.

[2] Bəzi yoldaşların dediyinə görə, Sabirə xərclənən pul bu qədər deyil, az miqdarda imiş. Bu söz də həqiqətə yaxındır.



## BAKIDA ÇIXAN JURNALLARDA İŞTİRAKIM

"Molla"nın nəşrindən sonra bir zaman
Aldı – jurnal vermək, – Bakıda meydan.
Nəinki kütləni etməyə təmin,
Xüsusi mənfəət, məqsədlər üçün
Çıxdı bir az müddət "Bəhlul", "Kəlniyyət",
Lakin qazanmadı heç biri şöhrət.
Sonra "Zənbur"[1] adlı çıxdı bir jurnal,
Bu da olammadı "Molla"ya misal.
Doktor Axundovdu sahibimtiyaz
Olmadı bunda da iştirakım az.
Doktor Əbdülxalıq yazmış bir məktub.
Bilmişdi "Zənbur"da yazmalı mətlub,
Mən də bu məcmuə etdikcə davam
Yazmışdım nəzm-nəsr, il yarım tamam.
Lakin doktordan da bir sürtük şaha
Bunca işə qarşı görmədim baha.
Ancaq Əzimzadə, ya ki Mürtəza[2]
Yaxşı məktub yazar, atar xoş imza,
Çox-çox edərlərdi yazmamı rica.
Allah məqamların eyləsin uca.

* * *

Bakıya gəlmişəm bir işçin yenə
Deyil xatirimdə zaman-ay, sənə
Bir gün Qafur Rəşad görərək məni[3]
Dedi: "Doktor görmək istəyir səni.
Olardı çox yaxşı mümkün etsəniz,
Bir gün idarəyə doğru getsəniz".

[1] "Zənbur"un sahibi-imtiyazı və müdiri: doktor Əbdülxalıq Axundov

[2] Əzim Əzimzadə – rəssam, məcmuənin katibi idi. Əzim vəzifədən çıxarılandan sonra Mürtəza bəy Palavandov onun yerinə keçmişdir.

[3] Qafur Rəşad – kiçik mətbəəsi olan və doktorun yaxınlarından yeni tanıdığı bir sima.

Düzü, idarəylə yox idi aram,
Son aylar düz yoldan çıxmışdı tamam.
Məcmuə olmuşdu elə bir alət
Şəxsi məqsədlərçin çıxırdı, fəqət.
Şəxsi bir alət ki, oldu mətbuat
Artıq ondan xəlqə fayda umma, at.
Çoxdandı kəsmişdim, vermirdim yazı,
Çünki idarədən deyildim razı.
Bununçun olsa da bir fayda mana,
Dəvətə etmədim əsla etina.

## "MƏZƏLİ"DƏ YAZIRAM

"Səda"nın sahibi Haşım bəy Vəzir,
Bir jurnal verməyi etmişdi təbşir.
Məshək, müsəvvər, həm "Məzəli" adı,
Doğrusu, az idi məzəsi, dadı.
Vermişdi məktubla mana da xəbər,
Mən də edilmişdim, sözsüz, səfərbər.
Həm nəzmən, həm nəsrən verirəm yazı,
Salmır Haşım bəyi az yazı razı.
Doqquz yüz on dörddə iş getmiş şuluq,
Yenə lap pulsuzdum, etmirəm şuxluq.
İyundan başlamış yayda quraqlıq,
Taxıl xarab olmuş, yanmışdı pambıq.
Borcları verməyə yox idi imkan,
Kəndli rəncbərlər ağlayırdı qan.
Yazdım pul haqqında bir mənzumə mən,
Haşım bəy qalmışdı çox məmnun məndən.
Qılmışdı şeir ona olduqca təsir,
Həddindən çox artıq etmişdi təqdir.
Müfəssəl bir məktub yazmış o zaman,
Etmişdi fikrini o böylə bəyan:
"Türk, fars, ərəbcə də – pul haqqında mən,
Gördüm çox mənzumə gözəl müstəhsən.
Lakin sənin "Pul"un həpsindən gözəl,



Bunda bir fəlsəfə vardır bibədəl.
Parlaq istiqbala maliksən, düşün,
İşlə, öz üstündə istiqbal üçün.
Əcdad tənbəlliyi tutmasın, sakın,
Təqdir ediləcək günlərin yakın".

* * *

Məktubla birlikdə iyirmi manat,
O, pul da etmişdi poçt ilə bərat.
Bu ilk pul idi ki, yazıdan aldım,
Fikr etdim bir müddət, həm məmnun qa

## ƏLİ RAZİ VƏ CƏFƏR BÜNYADZADƏNİN XAHİŞ

Buraxmış çoxdandı əski bəyazi,
Bakıda "Tuti"də[1] işləyir Razi.
Bir məktub göndərib bu əski rəfiq,
"Tuti"də yazmağa etmişdi təşviq.
Həm də Bünyadzadə[2] qeyd edib salam.
Yazmaqçın etmişdi o da istirham,
Yazmış bir məktub da Müznib Əliabbas
Etmişdi "Dirilik"də yazmaq iltimas,
Bir də verirdi o, "Babayi-Əmir".
Bunlar edirdilər virani təmir,
Mən də verilsəydi hayandan "zakaz",
Yazırdım həpsinə, etmirdim "atkaz".
Kağız, marka, boş vaxt olurdu məndə,
Paraya çox da bənd deyildi bəndə.
Mən ancaq ağlardım ümumi dərdi,
Şəxsi-qərəzçin heç söymədim fərdi.
Bunlar ömr etdilər gərçi az zaman,
Lakin qələm, xəncər, çəmil oldu qan.

[1] "Tuti" – Bakıda çıxan şəkilsiz bir gülgü məcmuəsi
[2] "Tuti"nin müdiri Cəfər Bünyadzadə

Durdu bu jurnallar dimdik-dimdiyə,
Hər biri Bakıda bir "mənəm!" deyə.
Ümumi cəbhəni tam unutdular,
Ədiblər ədəbsiz bir yol tutdular.
Cəfər də, Müznib də çoxlu söyüldü,
Axırda ortada Razi döyüldü.[1]
Böylədir Bakının keçmişi, halı,
Füruşə getməyir qəribin malı.

* * *

"Babayi-Əmir"də də, "Tuti"də də mən,
"O" imzası ilə yazardım həmən.
Görüb imzaları bir çocuq ədib
Bu "qanunsuz işi" etməmiş təsvib.
Demişdi: "Heç dözmək olmaz bu hala
Nəzmi bu hər iki düşmən jurnala.
Eyni imzalarla göndərir yazı,
İdarələr necə olurlar razı?
Ya "Babayi-Əmir", ya "Tuti"ni seçsin
Bunların birindən mütləq vaz keçsin!"
Lakin qanmırdı ki, bu çocuq ədib
Bunu o etmirsə, etməsin təsvib.
Mən xidmət etmirdim bir şəxsiyyətə,
Xadiməm millətə, insaniyyətə.

## SALMAN MÜMTAZLA İLK GÖRÜŞ

Doqquz yüz on iki sənədə Salman,
Aşqabaddan Tiflisə getdiyi zaman.
Dəli Məhəmmədli stassionundan
Kəndə bir məktubça etmişdi rəvan.

[1] "Tuti" ilə "Babayi-Əmir", doğrusu Cəfərlə Əliabbas arasında başlanan qələm müharibəsi axırda çomaqla mübəddəl oldu. Əliabbas, qardaşları ilə "Tuti" idarəsinə hücum edib Əli Razini (çünki...) yaxşıca kötəklədilər.



Yazmışdı: "Vəqtiniz müsaid isə
Gəzmək, görüşməkçin gəlin Tiflisə.
Mümkün olmadıqda – mən dönən zaman
Taparıq görüşə Gəncədə imkan".
Yaydı – getmək mana deyildi mümkün,
Kəndli ayrılamaz işindən bir gün.
Keçdi bu məktubdan sonra ay yarım,
Bir dəfə Gəncəyə düşdü güzarım.
Tanış bir dükana tez-tez gedərdim,
Orada işimi təmin edərdim.
Getdikdə bir yol da bu dükana mən,
Gördüm ki, bir cavan əyləşibdir şən.
Onun tanış gəldi siması mənə,
Təsadüf etmişəm sandım Salmana.
Çünki idarədə bir əksi vardı,
Həmin bu gənc sima ona oxşardı.
Edirdi çox yardım "Molla"ya Salman,
Açar abunəyə geniş bir meydan.
Həm də verərdi çox şeirlər, yazı,
Vardı bir məktubu həftədə, azı.
Derdik idarədə – "Odlu türk" ona,
Dedim, əlbət, bənzər insan insana.
Bir söz soruşmadım, utandım fəqət,
Tanış dükançıyla başladım söhbət.
İş bitdi, döndüm mən, atdım beş addım,
Məlum olmuş imiş Salmana adım.
Bir əl qucaqladı məni arxadan,
Dönüb baxdım – haman əyləşən cavan.
– "Kefsiz", qaçma, – dedi, – tapmışam səni,
Neçin tanımadın əvvəl sən məni?
Böylə tanışlıqdan biz olduq çox şad,
Sanki qovuşmuşdu Gəncə-Aşqabad.
Çox gəzdik, dolaşdıq, yetişdi axşam,
Yoxdu elektrik, yandı çıraq, şam.
Yaxın yoldaşlardan beş-altı nəfər,
Bir-bir toplaşdılar vermişdim xəbər.
Etdim hamısını Salmanla tanış,

Söhbət səmimiyyət, iltifat, alqış.
O vaxt evim yoxdu Gəncədə mənim,
Bütün kənddə idi külfət, məskənim.
"Avropa" adlı var bir mehmanxana,
Yemək ləzzət verir orada cana.
Çəkdim bu dəstəni düz "Avropa"ya,
Girdik hazırlanmış sərin odaya.
Verdim Salman üçün yaxşı qonaqlıq,
Yeməklər yeyildi, içildi sağlıq.
Saat iki idi, başları atdıq,
Rahat bir ruh ilə uzanıb yatdıq.
Ertəsi gün axşam çıxdıq Gəncədən,
Dəliməhəmmədlidə durduqda trən.
Saldım, vidalaşıb yola Salmanı,
Getdim payan kəndə, at, fayton hanı?...

* * *

Nəşriyyat işinə doğru o zaman,
İlk addım atmışdı cürətlə Salman.
"Hatif İsfahani"nin tərcibəndin
Tərcümə haliylə, qabığı zərrin,
Kitabça şəklində çap etdirmişdi,
Mənə də bir nüsxə pay gətirmişdi.

## MƏHƏMMƏD ƏLİ SİDQİ MÜVƏQQƏTİ MÜDİR

Mirzə Qarabağa gedirdi sıx-sıx,
Kənddə əkirdi o taxıl və pambıq.
Bəzən adamsız da qalırdı jurnal,
Çıxırdı ortaya istənilməz hal.
O vaxtlarda Sidqi Məhəmməd Əli,
Oxumuş bir gənc idi, həm səliqəli.
Mirzə cəlb elədi onu jurnala,
Son qoymaq istərdi bu axsaq hala.
Sidqi müvəqqəti olmuşdu müdir,
İşi tərpətmişdi bir az bu tədbir.



Bu hal da etmədi lakin çox davam,
Dönməzdi bir daha keçmiş – ilk əyyam.
Sidqi on birinci ildə getmişdi,
Bakıda başqa yer işğal etmişdi.
Birdən min doqquz yüz on ikinci il,
Məcmuə düz dörd ay eylədi tətil.

## ƏLİQULU NƏCƏFOVUN (QƏMKÜSAR) JURNALA ŞƏRİK OLMASI

Pozulmuş Culfada ticarət işi,
Artıq doğrultdamır parlaq keçmişi.
Yoldaş Əliqulu, şair Qəmküsar
Tiflisə getməyə vermişdi qərar.
Olmuşdu jurnala Cəlillə şərik,
Biz də bu təşriki etmişdik təbrik.
Nəşrə əvvəlkitək başladı jurnal,
Halbuki yox idi buna ehtimal.
Mən də o dəmlərdə boş deyil kisə,
Gedirdim gəzməyə sıx-sıx Tiflisə.
Bir iş üz vermişdi o günlər həmən,
Getmişdim Tiflisə bir yoldaşla mən.
Getdim idarəyə hər işdən əvvəl,
Verdik – tanış olub – Qəmküsara əl.
O, şən bir şəxs idi, həm dərviş məşrəb,
Dostluq bir rəsmiyyət etmədi tələb.
Olduq az müddətdə "sənli-mənli" biz,
Öymə, təriflərmə, intiqad, təqriz.
Söhbətdə ikən biz, Mirzə də gəldi,
Məclis genişləndi, sözlər incəldi.
Vardı Qəmküsarda geniş hafizə,
Əski, yeni çox şeir oxudu bizə.
Vəqti keçirdik xoş, qalxdım ki, gedim,
Üzr istəyib, "vacib işim var", – dedim.
"Yox-yox, belə olmaz, – dedi Qəmküsar,
Əyləş, çörək yeyək, bozbaşımız var".
Nəşrindən jurnalın keçir yeddi il,
Cəlil bir dəfə də açmamışdı dil

Ki, əyləş çay içək, ya çörək yeyək,
Bir az məşğul olaq, danışaq, deyək.
Biz ondan ummurduq bir qəpik para,
Öyrənməmişdik də heç qanarara.
Lakin, heç olmazsa, bir quru təklif
Olsa, pis olmazdı, edərdik tərif.
Hər nə isə, əyləşdim, gəlmişdi bozbaş,
Xırda bir boşqabdı, iki-üç lavaş.
Cəlil, Rzaqulu, Qəmküsar, Əsəd.
Vurduq bu bozbaşı, deyildi az bəd,
Bu ilk bozbaşdı ki, Molladan yedim,
Hər bir tikəsinə min şükür dedim.
Deyildi çay vəqti, Mirzə tez getdi,
Məni Qəmküsara tövsiyə etdi.
Kəndli yeyir gündə azı üç çörək,
Onu doydurmazdı beş loğma çörək.
Bu beş loğma bozbaş məni çox sıxdı,
Qalxdım, Qəmküsar da mənimlə qalxdı.
Maydı, şən bağların birinə getdim,
Dərhal yaxşı yemək sifariş etdim.
Yolda Qəmküsarla doyunca vurduq,
Onca pivə içdik ki, lap düz durduq.
Saat ondu gecə, çıxdıq bağçadan,
Doldu məsərrətlə, gülüşlə hər yan.
Qolovinskiyə keçdik Veradan,[1]
Bir az seyrəlmişdi küçədə insan,
Gecdi, istəyirdik gedək mənzilə.
Birdən biz rast gəldik Mirzə Cəlilə,
Mirzə oldu yenə çox əhvalpürsan.
Dedi: "– Aclığınız olsa, var imkan,
Mən də tək qalmışam, buyurun gedək,
Bir yerdə əyləşək, yemək meyl edək".
Böylə bir təklifə kim qulaq asmaz?!
Çünki həyatda bu, üz verir çox az.
Biz də naz etmədən verdik qol-qola,
Düşdük Mirzə ilə sevinclə yola.

[1] Qolovinski və Vera – küçə adıdır.



Mirzənin dəvəti etmiş mat bizi,
İndi götürmüşdü xəyalat bizi:
"Mirzə aparacaq bizi bir bağa,
Qonaq edəcəkdir yumurta, yağa.
Əlbəttə, olmaz ki, içkisiz yemək,
Pivə gətirəcək yəqin bir çəllək".
Mirzə ağır-ağır yol tutub gedir,
Ətrafı dinləyir, gəh söhbət edir.
Qolovinskidən aşdı Veraya,
Yahu, Mirzə gedir böylə haraya?!
Mirzə birdən-birə çevrildi sola,
Karvan düzəlmişdi başqa bir yola.
Girdi bir iranlı aşxanasına,
Od vurdu "Kefsiz"in lap babasına.
Dükanda bir bölmə vardı taxtadan,
Bir miz, iki səndəl yerləşir haman.
Mirzə bu bölməyə yönəlmişdi düz,
Biz də onu təqib etmişdik, sözsüz.
Mayın son günləri havalar sıcaq,
Qıjqırmış bir qoxu verir qab-qacaq.
Bölmə dar, bürküdür, hər yan çirkli, yağ,
Ölgün işıq verir bir kiçik çıraq.
Hər nəysə, yerləşdik bu dar bölmədə,
Nəşə, xəyalplov tamam ölmədə.
Mirzə ismarladı bir çölmək piti,
Səkkiz qəpik idi onda qiyməti.
Bir rüb yarım çörək, bir bardaq da su,
Bizim redaktorun qonaqlığı bu.
Bir çirkin döşlüklü aşbaz şagirdi,
Əlində bir peysər içəri girdi.
Düzdü sifarişin Mirzənin mizə,
Mirzə təklif etdi yeməkçün bizə:
" – "Kefsiz", buyur, – dedi, – Qəmküsar, buyur,
Gördün yemək vardır nə çəkin, nə dur".
Biz etdik razılıq, "yemişik" – dedik,
Lakin israr etdi, biz dəxi yedik.
Məxləs, yemək bitdi, çıxdıq bölmədən,
Bizdə ılıq tərdi tam paltar, bədən.

### 1914 – AVROPA MÜHARİBƏSİ

Gəldi qanlı, qorxunc on dördüncü il,
Nə tərifə söz bəs, nə təqrirə dil.
İyulda başladı Avropa hərbi
Bir yanğın qapladı Şərq ilə Qərbi.
Dünya jandarmalıq rolu oynayan
Çar dövləti ilə qürurlu alman.
Dəhşətlə girdilər bu qanlı hərbə
Sarsıdır dirliyi bir ağır zərbə.
Əsgər alındılar milyonlarla can,
İşçi qanı ilə qızardı meydan.
Qaldı şən tarlada kəndlinin xışı,
Gəldi fəlakətli hərbin ilk qışı.
Qaldı əkilməmiş kəndlərdə zəmi,
Xalqa üz göstərdi səfalət dəmi.
Hər səmtə yağmaqda şiddətli bir od,
İşdən bir-bir düşdü fabrika, zavod.
Başladı ölkədə bir ağ ehtikar
Dövlət də, kütlə də oldu tar-mar.
Makulat qıtlaşdı, qalxdı qiymətlər,
Minlərlə ailə oldu dərbədər.
Hərbə qarışmışdı büsbütün cahan,
Oldu çox şəhərlər, ölkələr viran.

### "MOLLA NƏSRƏDDİN" MÜDİRLƏRİNİN SƏYAHƏTƏ ÇIXMASI

Hərbdən az çəkmədi "Molla" da zərər,
Etmişdi maliyyə işinə əsər.
Kağız, daş mətbəə olmuşdu baha
Başqa çətinliyə yoxdu intəha.
Axsaqdı hər üzdən jurnalın işi,
Tutmurdu haliylə parlaq keçmişi.
Bundan qurtulmaqçın Mirzə, nəhayət,
Yapsın – düşünmüşdü – o bir səyahət.



Doqquz yüz on beşdə qalxdı Tiflisdən,
Gəldi Qəmküsarla Bakıya ilkən.
Bakı arifləri şad qucaq açdı,
"Molla Nəsrəddin"ə hörmətlər saçdı.
Onillik bir yubiley tərtib etdilər,
Onu alqışladı qadınlar, ərlər.
"Ölülər" ilk dəfə səhnəyə çıxdı,
Dinin, şəriətin rüknini yıxdı.
Bu qəbul Bakıda keçdi çox parlaq,
El varlıq göstərdi indicə ancaq.

***

"Molla" səyahəti etdirdi davam,
Böylə Türküstanı gəzdilər tamam.
Keçib Rusiyadan döndü Qafqaza,
Həm ruhən, həm cismən sağlam, tap-taza.
Lakin Aşqabadda tutmamışdı iş,
Dindarlar təbliğat aparmış geniş.
Vermiş qubernata danos babilər,
Ortaya atmışlar iblisanə şər.
"Ölülər" səhnəyə qoyulmamaqçın
Şikayət etmişlər qəlblərində kin.
Tamaşa hazırkən qubernatordan
Oynamamaq üçün gəlmişdi fərman.
Şəhri tərk etmişdi Mirzəgil dərhal,
Bəhanın boynunda qalmışdı vəbal.

### Ə.QƏMKÜSAR SƏRAB KƏNDİNDƏ

Bir gün iş vaxtından sonra evdəyəm,
Məşğulam, qarşımda iş, dəftər, qələm.
Birdən astanadan girdi bir uşaq
Ölmüş, qorxmuş kimi, al üzü ap-ağ.
Dedi: "– Bir rus börklü, çiynində əba

Gözündə çeşmək var, əlində əsa,
Məni göndərdi ki, çağırım səni
Lakin çəp-çəp baxır, qorxutdu məni".
Çıxdım ki, rus börklü böylə kim ola?
Düşmüş nə yerdən o, bu kəndə yola?
Çıxdıqda doqqaza gördüm Qəmküsar,
Əsla deyildim mən buna intizar.
Əvvəl inanmadım mən öz gözümə,
Sonra toxdaq verib bir az özümə
"– Xoş gəlmisən, – dedim, – sən bu diyara,
Söylə, bəs sən hara, bu yerlər hara?"
Qaynar məhəbbətlə çox sevə-sevə
Əski rəfiqimi apardım evə.
Dostum səyahətdən bəhs etdi uzun
Hər sözdə tənqidi, tərifdən əfsun.
Ən sonda şərh etdi əsl məqsədi.
"– Gəlməkdə mətləbim bax, budur! – dedi.
"Ölülər" oynamaq lazım Gəncədə
Təşəbbüs zənnimcə xoşdur, səncə də.
Lakin yox Gəncədə bir dostum, aşnam,
Təkbaşa olar bu çox çətin tamam.
Gəldim ki, bu işdə edəsən kömək,
Çünki bu yerlərdə, dostum, sənsən tək".
"– Dostum, bunlar, – dedim, – düzələr bütün,
Səbr eylə, rahatlan sən hələ üç gün.
Kənddə gözəl yemək, təmiz su, hava,
Şəhrə çox tələsmək, deyildir rəva".
Zatən Kəhrizlidə[1] qalmış Qəmküsar,
Xeyli kökəlmişdi, etdi ehtizar.
Mümkün olduqca qoy şəhrə tez gedək,
Teatro işlərin yerbəyer edək.
Kənddə payız gəlmiş, başdan aşmış iş,
Qızğın bir çarpışma, meydanı geniş.
Vardır mane hər gün, hər an ehtiyac
Lakin bu da vacib… qaldım naəlac.

[1] Kəhrizli – Həmidə xanımın kəndidir.



Üç gün bundan sonra getdik şəhrə biz,
Mənzil tutub qoyduq səndəllər və miz.
Çoxdan var Gəncədə dram krujoku,
Dostumdu sədr həm, üzvdür çoxu.
Qismən sənətkardı, qismən həvəskar,
Eylərdi səhnədə ləyaqət izhar.
Hamısı toplaşdı verdikdə xəbər
Əsər başlandıqda məşqə mötəbər
Vacib işim vardı etiraz etdim,
Dostumdan ayrılıb, mən kəndə getdim.
Tapşırdım dostlara Qəmküsarı mən,
"Hörmət edin, – dedim, – çox artıq məndən".
Keçdi on səkkiz gün, gəldi bir xəbər,
Mən şəhrə getməyə olmuşdum müztər.
Dostlar deyirdilər: "Rəhbər Qəmküsar,
Dəstəni çox qoyur işsiz, intizar.
O, bir gün ya gəlmir, ya gəlib gedir,
Həftədə beş dəfə məşqi tərk edir.
Hər yeri axtarır, tapmırıq fəqət.
Yoldaşlar inciyir, iş gedir səqət
Şeyx Nəsrullah rolunu götürmüş özü,
Boş qalır məşqdə hər dəfə sözü.
İndi də üç gündür ortada yoxdur,
Dəstədə narazı qalanlar çoxdur.
Oynansın vaxtında hər oyun gərək,
Elan da verilmiş… Bu, deyil hənək.
Eyibdir bu oynun olammaz sonu,
Sən allah, tap gətir krujoka onu".
Başladıq etməyə məxfi axtarış
Axtardıq hər yeri biz qarış-qarış.
Nömrələr, aşxana, çayçı, meyxana
Baxırdıq diqqətlə hər yer, hər yana.
Birinci hissədə tapmadıq bir iz,
İkinci hissəyə keçdik sonra biz.
Bağ-bağça, meyxana, keyf, işrət yeri –
Nə varsa dolaşdıq, qoymadıq geri.

Nəhayət, bir hücrə izsiz küçədə
Tapmışdım dostumu bir dinc guşədə.
Burası torpaq bir kiçik zirzəmi
Mey vardı, dostumun yox idi qəmi.
Meyxana ən sadə, həm kasıb bir yer,
Kəndlilər uğrarlar, çox azdır alver.
Yox orda şişədən qayrılmış bir şey
Saxsı bardaqlarda saxlanırdı mey.
Fincanlar, boşqablar bütün saxsıdan
Bir lampa şüşəsi müstəsna bundan.
Nə şıq bir səndəl var, nə rəngli bir miz,
Taxtadır kürsülər, piştaxta təmiz.
Satıcı ağsaqqal bir nay erməni
Bir türkdən az bilmir heç də türkcəni.
Məşğuldur dostuma xidmətdə fəqət,
Gəh ocaq yandırır, gəh edir söhbət.
Tək-tənha əyləşmiş başda Qəmküsar,
Dünyanın hər dürlü dərdindən kənar.
Çox artıq şadlandı gördükdə məni,
– Heç, – dedi, – bu yerdə anmazdım səni.
Hər nəysə, bişmişdi üç-dörd şiş kabab,
Erməni vermişdi bir bardaq şərab.
Kababı biz yedik şən, gülə-gülə
Dönmüşdü Qəmküsar bağda bülbülə.
Qurtardıq yeməkdən, gəldik mənzilə
Söz açdım krujokdan mən bilə-bilə.
Dedim ki, məşqdə olursan çox az,
Yoldaşlar edirlər buna etiraz.
Bilirsən, tək sənsən bu işdə rəhbər
İşrəti beş-on gün eylə müxtəsər.
O güldü – hazırdır – söylədi, rolum,
Hər zaman açıqdır səhnəyə yolum.
Mənim əzbərimdir tamamən bu rol,
Mən bunu oynadım yeddi-səkkiz yol.
Qoy onlar öyrənsin kəndi rolunu
Mən kəsmiş olmaram işin yolunu.



* * *

Mən döndüm dübarə kəndə şəhərdən
Çünki çox məşğuldum kənd işiylə mən.
On beş gün keçmişdi afişa aldım,
Oyun indi gedir? Lap donub qaldım.
Qareə vermirəm artıq dərdi-sər
"Ölülər" qırx gündə çıxdı, müxtəsər.
Özüm tamaşaya gedə bilmədim,
Dostumla son söhbət edə bilmədim.
Teatr işini tamam etmişdi,
Vidasız Tiflisə çıxıb getmişdi.

## SƏRABDAN GƏNCƏYƏ
## (KƏNDDƏN ŞƏHƏRƏ)

Hərbin təsiriylə hər şey dəyişdi,
Qarətlər, qətllər adi bir işdi.
Kəndlərdə qolçomaq, molla, mülkədar.
Əfitək hər yana səpir zəhri-mar.
Dünya başdan-başa qorxu, iztirab
Millətlər qan töküb çəkir haqq-hesab.
İstər torpaq, hüquq, işçi, rəncbər
Oynar oyuncaqtək taclar, təxtlər.
Ancaq… müridlər, iblis mollalar
Məsciddə, məclisdə bayquştək ular.
Qəzetdən, jurnaldan, yazıçılardan
Əl çəkməz bircə gün, bir an, bir zaman.
Daim mənbərlərdən edirlər təkfir,
Bu da avam xalqa edirdi təsir.
Təkfir etmiş məni Molla Həmdullah,
Olmuşdu kəndlilər haqqımda bədxah.
Rəncbər yoxsullara xeyirxah ikən,
Baykot edilmişdim hətta kənddə mən.

## ERMƏNİ BƏYİ ƏVƏZİNƏ, MÜSƏLMAN MÜLKƏDARI

Qurtara bilməmiş rəncbər əməyi
Mülkü uduzmuşdu erməni bəyi.
İndi malik kəndə bir müsəlmandı
Müsəlman bir vəhşi, qorxunc heyvandı.
Çoxdan bu heyvanla pozğundu aram
Çünki heç etməzdim ona ehtiram.
Vəhşi rəftarını söylər, yazardım,
Zülm etldiyi şəxsə, edərdim yardım.
Su-torpaq qovğası əskik olmazdı,
El üçün ağlayan yoxdu, ya azdı.
Həm də birləşmirdi kütlənin sözü
Tək-tək yedirirdi özünü özü.
Mülkədar bəslərdi mənə qarşı kin,
Bir gün göndərmişdi mana bir peyğam
Demişdi: "Etmirəm ona ehtiram.
Lakin o gücsüzdür, yazığım gəlir,
Yoxsa bir qurşunla düşür, dincəlir.
Qalmaq istəyirsə salamat beş gün
Kənddə təbliğatı kəssin büsbütün".
Mülkədar bu sözü doğru demişdi,
Çünki o, kənddə çox başlar yemişdi.
Kənddə bir az bundan əvvəl bu şeytan
Etdi bir hiylə ki, oldu səkkiz qan.
Nahaq dörd xaniman olmuşdu xərab
Ondan çox lazımdı etmək ictinab.
Düzü, bu təhdiddən qorxmuşdum da çox,
Çünki eldə birlik, məndə də güc yox.
Onundu güc, qüvvə, həm də hökumət,
Hökumət onlara edirdi xidmət.



## BİR MİSAL

Bir il yer-su üstdə qalxmış məsələ
Mülkədar heç yaxa vermirdi ələ.
Bir yandan zorlayıb suvarır, əkir
Heç kəndi saymayır, quş kimi səkir.
Kəndlilər həycana gəldilər bir gün
Şəhrə şikayətə getdilər bütün.
Onlar naçalnikə edib ərzi-hal
Dedilər: "– Qalmadı bizdə mülkü mal.
Satdıq hamısını, verdik "gəl-ver"ə
Şərikiz biz dəxi bu suya, yerə.
Mülkədar zorlayıb əkmiş torpağı,
Suyu da kəsmişdir bu alçaq yağı.
Qalmışdır yüz evli bir kənd əkinsiz
Naçalnik! Bu işə nə deyirsiniz?".
Naçalnik ertədən bilirdi işi,
Almışdı qırx tümən bir rüşvət kişi.
Dedi: "– Ağa ilə eyləyək rəftar
Bir nəcib adamdır sizin mülkədar.
Ağaya qarşı siz etsəniz üsyan,
İşiniz olacaq sonra çox yaman.
Şikayət qazanmaz bir şey adama
Qorxun ki, axırda basarlar dama".
Səsləndi bir kəndli: "– Rüşvətmi aldın?
Yüz evli bir kəndi nəzərdən saldın?
Edirsən moizə, deyirsən hədis,
Bir hal ola bilməz daha bundan pis.
Ərzə baxmırsanmı? Səndən böyük var!
Qubernator etməz bizi böylə xar.
Haydı, ay kəndlilər, qubernatora,
Düşsək də qoy düşək, orada tora".
Camaat, yüz kişi döndülər birdən
Sarsıldı otaqlar, eyvan, pilləkən.
Naçalnik qışqırdı... istiraj... kazak...
Bunlar üsyançıdır, ediniz dustaq.
Bağlandı darvaza tutuldu yollar,

Durdurdu kütləni silahlı qollar.
Həycanlı kəndlilər çox hayqırdılar,
Nahaq, çox söyləyib, çənə qırdılar.
Yoxdu bir söz duyan, dinləyən qulaq
Hamı baş türməyə sürüldü dustaq.
Onlar dustaq qaldı düz on altı gün
Mülkədar torpağı əkdi büsbütün.
Suvardı arpanı, buğdanı, bağı
Əridi yoxsulun qəlbinin yağı.
Sonra üsyançılar əfv edildi həp
Artıq edən yoxdu su, torpaq tələb.

* * *

Molla təkfir edir, mülkədar təhdid
Əlbir olmuşdular Şümr ilə Yezid.
Casusdu kəndin öz qolçomaqları
Vardı yoxsuldan da çox yaltaqları.
Doğdu bundan başqa daha çox səbəb
Hər sirrin izahı edilməz tələb.
Bunlarla birlikdə artıq kənddə mən
Qalmaq başarmazdım, qət etdim həmən.
Sərabdan Gəncəyə – on altıncı il
Köçmüşdü, etmədən fikrimi təbdil.
Əski bir dostuma açdıq bir dükan
Can məndən, bir az da sərmayə ondan.
Baxmadan istiqbal, hala, keçmişə
İndi də bununla başladım işə.

* * *

Üç ildi ölmüşdü zavallı anam
Zəhmətdən başqa o, almamışdı kam.
Yaxşı köçürmüşdüm qızları ərə
İndi bir ailə qurmuşdu hərə.
Yeganə qardaşı evləndirmişdim



Çox yaxşı toy edib kamə irmişdim.
Vardı dolanmaqçın mayası, yeri
Bir az çalışarsa, qalmazdı geri.
Artıq çatmaz ona köməyim mənim
Başqa canlarçındı əməyim mənim.
Çünki yetişmişdi bir yeni nəsil
Onlarçın işləmək lazım müttəsil.
Vardı iki oğlum, iki də qızım
Həyat meyvələri ayım, yıldızım.
Bunlar istismara başlamış məni
İndi də bunlara mən yem mədəni.
Hazırda lazımdı çox çəkib əmək
Böyütmək, oxutmaq, ögub-bəsləmək.
İndi yaşayırdım onlarçın fəqət
İşçin yaratmışdı məni təbiət.
Bir ay, ya bir həftə rahatlıq hanı?
Birdən yıxar zəhmət, bilməzdim canı.

### "MOLLA NƏSRƏDDİN"İN DƏVƏTİ

Gəncəyə köçdükdən bir az sonra mən
Bir məktub almışdım Mirzə Cəlildən.
Qeyd etdikdən sonra iltifat, salam
O, böylə etmişdi ədayi-kəlam:
"Qələm arkadaşım, ağırlaşmışam,
İş başdan aşmışdır, yalqız çaşmışam.
Jurnala çox yaxşı baxa bilmirəm.
İdarə, mətbəə, haqq-hesab, rəqəm
Kənd işi, hey get-gəl, yormuşdur məni
Tiflisdə çox görmək istərdim səni.
Gəl, götür, mümkünsə, işləri ələ
Jurnalı idarə, asan məsələ.
Hər dəm eyləyərəm mən dəxi kömək
Hər halda məcmuə yatmasın gərək".
Düşündüm, nə edim, gedim, getməyim?
Dəvəti mən qəbul edim, etməyim?
Gəncədən Tiflisə altı baş külfət

Get yer tap, iş dəyiş – bir yığın zəhmət.
Nə olur bunlardan sonra da sonu?
Yaxından, çox yaxşı tanımam onu.
Daimi qalmadı jurnalda Ömər
Sidqi də yoldaşlıq etdi müxtəsər.
Qəmküsar nə oldu? Heç yazmır Cəlil!
Bunlar düşündürür məni müttəsil.
Heç də verəmmirəm bir qəti qərar,
İstəməm Mirzə də qalsın intizar.
Fikr etdim, bir aydır gəlmişəm kənddən
Yenidir iş, yoldaş, həm mənzil, məskən.
Olmuşdur dostum da xatircəm mana
İşləri ataraq başlı-başına
Etsəydim Gəncədən Tiflisə səfər
Görərdi, əlbəttə, dostum da zərər.
Həm çoxdu külfətim, deyiləm əmin
Edərmi ya Mirzə xərcimi təmin.
Qət etdim getməyim, yazdım bir məktub
Üzrlər istədim olaraq məhcub.
Yazdım ki, möhtərəm qardaşım Cəlil!
Mən kənddə olarkən olsaydın dəlil
Yazsaydın bir məktub, etsəydin dəvət
Gələrdim mən mütləq, etməzdim qəflət.
Mən ancaq bir aydır çıxmışam kənddən
Pırtdaşmış işlərim, pozğundur hökmən.
Bir daha Gəncədən köçmək Tiflisə
Çox çətin bir işdir, saz deyil kisə.
İstədim xidməti "Molla"da candan
Verməyir vəziyyət heyf ki, imkan.
Həyatda hər şəxsə mümkün yüksəliş
Bilirdim yüksəldər məni də bu iş.
Gəl başar indi sən, bir qarış yüksəl!
Mümkünmü? Yaxamdan tutmuşdu on əl.
Atanın, ananın bir kiçik səhvi
Çox olur övladın səbəbi-məhvi.
Vəqtsiz payibənd etmişdi anam
Zəif can zəhmətdə [olmuşdu] tamam.





"Diki diviziya" (Vəhşi firqə)
Qafqazda, qovğanın əvvəlində çar
Könüllü bir firqə etdirdi əxzar.
Firqə piyada yox, atlı idi, həm
Libası faxirdi, silahı möhkəm.
"Vəhşi firqə" idi firqənin adı,
Onda molla idi Məhəmməd Hadi.
Ölən müsəlmanı dəfn etmək üçün,
Hökumət etmişdi xidmətə təyin.
Hərbi durdurduqdan sonra inqilab
Firqə də Qafqaza etmişdi şitab.
Döndükdə Gəncəyə hərbə gedənlər,
Hadi də onlarla gəlmiş bərabər.
Etmişdi Gəncədə bir müddət məskən,
Tapdım, bu şairlə tanış oldum mən.
Həm də tapşırdım ki, tez-tez gəl bizə,
Qürbətdir, keçməsin dəmlər pis, sizə.
Gəlməyi vəd etdi, lakin ay yarım,
Keçdi bu söhbətdən, gəlmədi yarım.
Bir gün bir küçədə rast gəldi mana
Yolu gedirdi o, hər iki yana.
Onu öz evinə çəkmək istədim,
"– Hadi, mənziliniz harada?" – dedim.
"– Mənzilimmi? – dedi, – Qəbristandadır!
Artıq nə Gəncədə, nə Şirvandadır".
Yalvardım: "– Gəl gedək, – dedim, – mənzilə",
"– Yox, – dedi, – çox sağ ol, heç tutma dilə.
Getmirəm mənzilə, bənd olma mana,
Get özün, öz kefin istər hər yana".
Keçdi bu söhbətdən iki, ya üç ay,
Köynəyi al, yaşıl, gəldi gözəl may.
Bir gün oturmuşdum dükançamda tək,
Gördüm Hadi keçir, geymiş ağ köynək.
Bir çox kağızlarla qoltuğu dolu,

Düzgün addımlarla ölçürdü yolu.
Haman kağızlardan, bilmirəm, nəysə,
Satmaqçın göstərir bir-bir hər kəsə.
Gəlib bu hal ilə yetişdi bizə
Dedi: "– Lazımmıdır bunlardan sizə?"
Baxdım, üç-dörd parça şeirdir gözəl
İnsafən hər biri bir dürrə bədəl.
Hadi çap etdirmiş bunları, satır,
Sanki cəvahiri palçığa atır.
Kimdir təqdir edən şeri, şairi,
Çünki savadlıdır əllidən biri.
"– Hadi, buyur, – dedim, – əyləş, çay içək,
Çox gəzdin, yorğunsan bir siqara çək!"
Keçmiş ilk görüşdən payız ilə qış,
Şairlə olmuşuq üç-dörd yol tanış.
Lakin Hadi yenə tanımır məni –
İspirt, hafizənin müdhiş düşməni!
"– Hadi, – dedim, – məni unutdunmu, ya?"
Baxdı təkrar, mana göz qıya-qıya:
"– Əfəndi, kütləşmiş, – dedi, – hafizəm
Üzünü bilsəm də, adını bilməm".
Güldüm, o da güldü: "– Məhv oldum, – dedi,
Parlaq şüurumu ispirto yedi!"
Mən də deyim bunu gəlmişkən yeri,
İndi heç qalmıram Hadidən geri.
Axşam çıxır yaddan səhər yediyim,
Bu gün bir mazidir, dünən dediyim.

"CEYRAN SÜDÜ"

Artıq günortadır, söylənir azan
Manqal sönüb, düşmüş qaynardan qazan.
Bişmiş ədviyyəli, ətirli piti
Mədə acımışdı, iştəha iti.
Alıb gətirmişdi Rüstəm ağ çörək.
"– Hadi, buyur, – dedim, – meyl edək xörək".



Hadi, yoxdur, – dedi, – əsla etiraz
"Bozbaş müəttərdir, əkmək bəmbəyaz.
Ancaq yetişməyir bir ceyran südü[1]
Hərgah o da olsa, heç olmaz üstü".
Hadi nə istəyir bilmişdim dərhal
Uşağa pul verdim, dedim, konyak al!
Nahar edib içdi konyakı Hadi,
Sanki açılmışdı qolu-qanadı.
Bozbaş və konyakdan təşəkkür etdi,
Qalxdı, mətaini satmağa getdi.

* * *

İndi Hadi mana çox sıx-sıx gəlir,
Bəzən nahar edir, bəzən dincəlir.
Dostluq möhkəmləşir həm addım-addım,
Artıq yadından da çıxmayır adım.
Qonaq çağırırdım, getmirdi evə,
Gəlirdi dükana çox sevə-sevə.
O günlər Mümtaz da Gəncədə idi.[2]
"Məni Hadi ilə tanış et!" – dedi.
Görüşmək, şairlə o vaxta qədər
Salmana olmamış imiş müyəssər.
Verdim bu söhbətdən Hadiyə xəbər
Hadi xoşhal olub, dedi yox zərər.
Çatmışdı o günlər Qurban bayramı
Bayram tətilinə çıxmışdı hamı.
Hadini Mümtaza mərufluq üçün
Əvvəldən etmişdi bu günü təyin.
Hadi, çıxarmadan bir başqa əngəl
Verdiyi vədəyə etmişdi əməl.
Saat düz on birdə gəlmişdi bizə
Çox şad oturmuşduq evdə diz-dizə.
Vardı "ceyran südü", həm elə şərab

[1] Ceyran südü – Hadi konyaka deyərdi.
[2] Mümtaz – Salman Mümtaz Əsgərov

İsmayıl qurbanı ətindən kabab.
Bir az təxir ilə Salman da gəldi
Məclis genişləndi, söhbət incəldi.
Məmnun əl verdilər Mümtazla Hadi
İndi müsahibə deyildi adi.
Hadi İstanbuldan edirdi söhbət
Hər kəsdən görməmiş orada hörmət.
Ancaq Rza Tofiq filosof, müdam
Etmişdi Hadiyə artıq ehtiram.
"Uyğunsuzluqları" atmış keçmişə
Hadini düzəltmiş yüngül bir işə.
Həm də müdafiə etmişdir daim,
Bunu ondan başqa etməmiş heç kim.
Hadi sitayişlə bəhs edir ondan:
– Təkdir İstanbulda, – derdi, – bu insan!
Hadi birdən-birə dəyişdi sözü
Mümtaza zilləndi məstana gözü.
Qalxmış, dirənmişdi kirpiyi qaşa
*Süzdü o, Salmanı ayaqdan-başa.*
Dedi: "– Heç etmirdim mən böylə güman
Çox vaxt öz fikrində səhv olur insan.
Şairlər çox nəhif olsunlar gərək
Bunda alimlərin çoxu müştərək.
Lakin şairlərin içində yalnız
Mümtaz əfəndi, siz çox şişmansınız!"
Deyib bu cümləni çox etdi təkrar,
Oldu müsahiblər dilxor, dilfikar.
Sarmışdı beynini şərabın sisi
Pozdu həm nəşəni, həm də məclisi.
Çox kökdü halbuki Hadinin özü,
Racedi özünə dəxi öz sözü.
Hər nəysə məclisdən həzz alınmadı
Qaçdı gözəl yemək-içməyin dadı.
Yaslı olduğumdan o günlərdə mən
Bir damcı da içki içmirdim şəxsən.
Əslən xəstə idi Hadi son zaman
Bir də sağalsın o, yoxdu heç güman.



Bazar əhalisi əksəri əvam
Kəndlilər, bağbanlar dindardır tamam.
Var izdihamlı bir "Bağban bazarı",
Onda şəhrin bütün mərdüməzarı.
Hadinin bir işlə iştiğalı yox,
Həmin bazarda o dolaşırdı çox.
Gündə bir bağbanla söz-sözə durur,
Heç bir iş olmadan mərəkə qurur.
Savaşır bağbanla, özünü öyür,
İslamı zəmm edir, Allaha söyür.
Qızdırır kəndlini, vəhşiləşdirir
Hər oğru, quldurla söz güləşdirir.
Çox küfr söyləyib, çox edirdi səbb,
Layiqsiz işlərə olurdu səbəb.
Öldürmək istərkən üç yol kəndlilər
Tutmuş fənalıqdan bir arif xəbər.
Etmiş kəndliləri çox-çox məzəmmət
Demiş ki, şairdir, eləyək hörmət.
Güc-bəla ölümdən etmişdi xilas
Hadinin şüuru edirdi iflas.
Böylə bağışlanmaz halları vardı
Bais də ispirto – o, zəhrimardı.

## HADİYƏ 200 MANAT

On doqquzuncu il – kasaddır bazar
Dolmuşdur qarnıma min dərd, min azar.
Alver yox, ortaqla cüt əyləşmişik,
Girmir dükənçəyə hətta bir pişik.
Hadi birdən-birə eylədi zühur
Olduq xəyalatı atmağa məcbur
"– Hadi, əyləş, – dedim, – göstərdim səndəl.
"– Sağ ol, oturmağım, – dedi, – verməz əl.
Mühüm bir iş üçin gəlmişəm sana,
Təcili bir az pul lazımdır mana.
Getmək zəruridir bu gün Göyçaya

Gec yox, qayıdaram mən yarım aya".
Fikr etdim, yol xərci etməz çox para,
On-on beş manatla sağalar yara.
Neçə lazım? – dedim. "– İki yüz manat!"
Artıq mən donmuşdum, baxırdım mat-mat
Çünki yoxdu bizdə bu qədər para.
Mən kimə əl açım, üz tutum hara?
Dəxildə var ancaq doxsan beş manat
Bu da lazım olur hər an, hər saat.
Əsla üzüm gəlmir boş qaytarmağa
Burnum?.. – balıq kimi – keçmiş qarmağa.
"– Az olsa yetməzmi – mən sordum. "– Yetmə
Borcum var, mətbəə az qəbul etməz.
Əşar çapdan çıxıb, lazımdır almaq,
Əsla mümkün deyil təxirə salmaq.
Göyçayda satmaqçın aparmaq gərək
Bunsuz, bilirsən ki, çıxmayır çörək".
Cavan, mərd bir gəncdi ortağım Rüstəm
Oldu bu halımda zəxmimə mərhəm.
Qalxdı, borc pul tapıb aldı qonşudan
Bir gün pulsuz qalsın, dedik qoy dükan.
Düzəltdik Hadiyə iki yüz manat
Hadi bir quş kimi açdı qol-qanad.
Almış da pulları əlvida etdi,
Bir də heç dönmədən yoluyla getdi.
Hadini bir aydan sonra uzaqdan
Gördüm tramvayda getdiyi zaman.
Əsla görünmədi bir daha mana
Pul üçün yad olur insan insana.

## HADİNİN VƏFAT XƏBƏRİ

Son bahar girmişdi – iyirminci il.
Hər şeydə, hər işdə yenidir şəkil
Gəncədə çıxmışdı kiçik bir qəzet
Oraya edirdim mən dəxi gəl-get.



Müdir Ağahüseyn Rəsulzadədir
Bir də işləyirdi qəzetdə Nasir[1]
Bir gün idarədə olduğum zaman
Nasir yaxınlaşıb eylədi bəyan:
Ki, vardır Bakıdan gəlmiş bir nəfər
Gətirmiş bir məktub, verilir xəbər:
Ki, "Hadi Göyçaydan dəlirmiş halda
(Çünki, yaxşı doktor yoxmuş mahalda)
Üsyandan bir həftə, ya on gün qabaq,
Gəncəyə yollanmış çox ağır naçaq.
Lakin o müddətdən indiyə qədər
Məhəmməd Hadidən yoxdur bir xəbər
Lütfən siz axtarın Gəncədə onu
Öyrənin nə olmuş şairin sonu".
Məktubdan verdikdən sonra izahat
Nasir mana dedi: "Sən yığ məlumat,
Qəzet, fiqrə işi, məşğələm çoxdur,
Əsla bu işlərə məcalım yoxdur".

* * *

Sordum tanıdığım şirvanlılardan
Onu görüb-bilən yardan-əğyardan
Gəncədə olurdu öz həmşirəsi
Axtardım, yox idi heç ünü-səsi.
Vardı şəhrimizdə beş xəstəxana
İstintaq etməkdən gətirdim cana.
Tökdürdüm, axtartdım dəftərlərindən
Səthi yox, təhqiqat yapdım dərindən.
Dörd xəstəxanada bir iz tapmadım,
Keçdi səkkiz həftə bir iş yapmadım.
Qalmışdı ən kiçik bir xəstəxana
Çıxsın bir iş, dedim, bəlkə meydana.
Bir gün fürsət tapıb ora da getdim,

[1] Nasir – Məhəmməd Əli Nasir İrəvani

Tapdım müdirini, çox söhbət etdim.
Müdir söylədi ki, "üsyan zamanı,
Dağılmış hər bir şey, məlumat hanı?
Lakin şamaxılı bir sanitar var,
Bəlkə bir şey bilir, soruşmaq olar".
Həkim Mirzəyev də orada imiş[1]
O mənim dostumdu, yaxşı oldu iş.
Çağırdım, gəldilər bu iki nəfər,
Aldıq biz Hadini onlardan xəbər.
Onlar dedilər ki, "üsyandan qabaq,
Hadi oradaca yatırmış naçaq.
Lakin başlandıqda şəhərdə üsyan
Hamı qaçmış, yoxdu xəstəyə baxan.
Bir yandan döyüşdən yaralı gələn,
Bir yandan həyətdə, küçədə ölən,
Bir həftə almamış xəstələr yemək
Acından ölən çox olmuşdur, demək.
Etmişdir Hadi də o günlər vəfat
Kimdi ölənlərə edən iltifat?"
"Qəbri məlumdurmu?" – deyə sordum mən,
Onlar dedilər ki, "Nə məzar, kəfən?
Bitdikdən az sonra şəhərdə üsyan
Hər yerdən meyitlər toplanan zaman
Bizdə ölənlər də arabalara
Yığılıb, atıldı xarabalara
Seçmək, ayırd etmək, qılmaq ehtiram
Əsla deyil idi mümkün. Vəssalam".
Onlar böylə dedi, mən də eşitdim
Qalxıb, vidalaşıb, işimə getdim.
Lakin – düzmü, yoxmu, bilmirəm – onlar,
Təsdiq edirdilər təkrar və təkrar,
Onlar deməzdilər hər halda yalan.
Çünki tanırdılar Hadini çoxdan.

[1] Həkim Kazım Mirzəyev, gəncəli





Milli çarpışmalar nəticəsində
(Getsin qayıtmasın – vəhşət də, kin də!)
Vurmuş Şamaxının gülşənini yel,
Qaçmış, dağılmışdı tamamilə el.
Ariflər, şairlər, edib vətəni,
Dahilər, ediblər, şöhrət məxzəni,
Çirkin ayaqların altında qalmış,
Xalqı səfil olmuş, qismən yoxalmış.
Bir qisim xəlqi də bu göyçək yurdun
Qurtara bilmiş də ağzından qurdun.
Köçmüş, gətirmişdi Gəncəyə pənah
Sanki tapmışdılar bir istinadgah.
Qaçqınlar içində bir də müqtədir
Qiymətli, möhtərəm şairi-şəhir.
Abbas Səhhət dəxi var imiş o gün
Qövm-əqrəbalarla bir dəstə bütün,
Gəncəyə gəlibmiş xəstə pərişan
Onun gəldiyini eşidən zaman,
Bir neçə yoldaşla yanına getdik,
Yataqda idi o, ziyarət etdik.
Görüşməmiş idik biz bundan qabaq
Bu da birinci, həm sonuncu oldu, ancaq.
Gəncəyə gəldikdən sonra da Səhhət,
Xəstəlik getməyib, etmişdi şiddət.
Müvafiq düşmədi havanı təbdil
Bir min doqquz yüz on səkkizinci il.
Gəncədə daimi qaldı müsafir,
Qismət bu, qürbətdə can verdi axır.
Biz də cənazəsi üstünə getdik,
Kədər, təəssüflə onu dəfn etdik.

## QƏMKÜSARIN ÖLÜM XƏBƏRİ

On doqquzuncu il yenə bir xəbər:
Gəlmiş, çox etmişdi məni mükəddər.
Edilmiş Tiflisdə qətl Qəmküsar,
O da gizlin deyil, açıq-aşikar.
Gecə mənzilinə girdiyi zaman,
Menşevik polisi atmışdı daldan.
Guya yad bir oğru zənn etmiş onlar,
Bəhanə ancaq bu – uyar, nə oxşar.
Sonra bir dost mənə etdi kəşfi-raz
Mən də heç etmədim buna etiraz.
Malikdi çox açıq fikrə Qəmküsar,
Dargöz hökumətlə etməzdi rəftar.
Kəskin bir dil ilə edər intiqad
İstərdi kütləni büsbütün azad.
İçdikdə bilxassə, söz gizləməzdi,
Hər sirri faş etmək onda mərəzdi.
Tiflisdə guya o, gizlin işlərmiş,
Ta menşeviklərə bəlli olmuş iş.
Yayırmış kommunist nəşriyyatı həp,
Guya qətlinə də bu olmuş səbəb.
Qəmküsar hürriyətpərvər bir zatdı,
Əski hərəkəti buna isbatdı.
Təbriz inqilabında oynatmışdı at,
Ona sərf etmişdi neçə min manat.

## OKTYABR İNQİLABI

Günlər bir-bir keçir, aylar adlayır,
Toplar guruldayır, bomblar partlayır.
Dünya başdan-başa od alıb yanır,
Hər yanda atəşlə, qanla oynayır.
Məğlub edilmişdi çar Rusiyası,
Qalxmışdı hər yanda ixtilal səsi.
İşçi milyon-milyon batmışdı qana,
Kəndli tamamilə gəlmişdi cana.



Ölkə seçilmirdi bir viranədən,
Əsgərlər bıqmışdı sallaxxanədən
Vəqti yetişmişdi üsyan patlasın,
Zülmi hifz eyləyən qüllə çatlasın.
Vəqti yetişmişdi düşsün hökmdar,
Keçsin şuralara torpaq, ixtiyar.
Vəqti yetişmişdi mülkədar, qraf
Rədd olsun, salmasın gündə ixtilaf.
Vəqti yetişmişdi, qeyzlər, kinlər
Daşsın da, məhv olsun məbədlər, dinlər.
Girmişdi bərk işə işçi firqəsi,
Etmişdi üsyana dəvət hər kəsi.
Xariclə sülh etmək istərdi firqə,
Yoxdu həm firqədə fikri təfriqə.
Gəldi qanla əlvan on yeddinci il
Hər yanda minlərlə axsaq, şil, səfil.
Hala dəhşətlərlə hərb edir davam,
İnsanlıq vəhşətlə olurdu bədnam.
Mübariz kommunist firqəsi lakin
Bəslərdi vəhşətə, həm də hərbi kin.
Lenin, Stalinin rəhbərliyiylə,
Səmimi, el vətənpərvərliyiylə,
Hər yerdə azadlıq sevənlə təkmil
İşçi, həm kəndlilər edildi təşkil.
Ta Oktyabrın parlaq günləri
Gəldi, məhv oldular, qan düşkünləri.
Qaçdı Yevropaya kerenskilər
Oldu vəzarətlər bütün dərbədər.
Qaldı monastırlar, nə knyaz, nə çar
Nə din xadimləri, nə sərmayədar.
Aldı hökuməti işçilər ələ,
Firqə zərbə çaldı bütün əngələ.
Xariclə sülh etdi, hərbi durdurdu,
Hər yanda şuralı hökumət qurdu.
Qovuldu kolçaklar, Vrangel qaçdı,
Denikin Qafqazdan məğribə aşdı.
Hər səmtə nurunu saçdı inqilab,
Parlaq bir şahirah açdı inqilab.

Lakin yetişmədən iyirminci il,
Qafqaz uyuşmağa tapmadı bir dil.
Daim çarpışmalar, milli hərb, qan
Sərmayədarlarçın geniş bir meydan.
Ta oktyabrın yavrusu aprel,
Gəldi, xilas oldu zülmlərdən el.
Bütün şuralaşdı Azərbaycan,
İşçi, yoxsul, kəndli oldu hökmran.
Artıq kommunistlər düzəltdi yurdu,
Kəsdi qovğaları, dinc həyat qurdu.

## MİRZƏ CƏLİLİN TİFLİSDƏN TƏBRİZƏ KÖÇMƏSİ

Şuralaşan gündən Azərbaycan
Tiflis, İrəvanda qalxmışdı həycan,
Varlılar titrəşir apreldən bəri,
Sarmışdı inqilab menşevikləri.
Qurtarmaqçın onlar öz canlarını,
Xalqın tökürdülər al qanlarını.
Daşnaklar qan tökmək istəyir yenə,
Edirlər xəyanət xəlqə, vətənə.
Qızıl Ordu ilə vuruşmaq üçün,
Hazırlıq görürdü İrəvan hər gün.
*Tiflis hazır ikən döyüşə, hərbə,*
Varlılar qaçırdı durmadan Qərbə.
Qərbə qaçanlardan alaraq təsir,
Bilərək bu işi münasib tədbir,
Mirzə xudahafiz etmədən bizə,
Köçmüşdü Tiflisdən birbaş Təbrizə.
Təbrizdə qaldı da Mirzə bir müddət,
"Molla"nı neşrə də tapdı o fürsət,
Halbuki, Şuramız sevir jurnalı,
Hətta təxəttürdən qalmırdı xali.
Hökumət axtarıb tapdı da sonu,
Təbrizdən cəlb etdi Bakıya onu.



## GƏNCƏDƏ ÜSYAN

Şura hökuməti gələndən bəri,
Olmuşdu mülkədar, tacir sərsəri,
Gəlmişdi onların indi son günü,
Almışdı Əzrail, ölüm üstünü.
Dekretlər çıxdıqca fısqırıb durur,
Əfi tək yalmanır, qalxır, qovrulur.
Şəhərdə bir atəş yandırmaq dilər,
Bilirdi ki, xəlqi aldada bilər.
Bir taqım əqilsiz, dinsiz, boş qafa,
İrs qoyub bir töhmət suçsuz ixlafa,
Bir ovuc əxməqi qatdılar işə,
Bir ləkə oldular xalqa həmişə.
Mülkədar, quldurlar qaldırdı üsyan,
Minlərlə əməkçi, yoxsul verdi can.
Alçaqlar atəşi yağdıqdan sonra,
Nahaq qan çay kimi axdıqdan sonra,
Özləri qaçdılar, el çəkdi zərər,
Suçsuzlar, məsumlar oldu dərbədər.
Söndürdü yanğını Qırmızı Ordu
Atəşlə oynayan əlləri vurdu.
Getmişdi taraca bizim ev, dükan,
Altı baş külfətlə qalmışdım heyran.
Məhv oldu bir gündə topdan var-yoxum,
*Qaldı nə əppək, nə əkməkçin toxum.*
Dördüncü dəfə mən lüt qaldım yenə,
Başladı sıxmağa əski məngənə.

## QAÇQINLARA BAXAN İDARƏDƏ XİDMƏT

Üsyan yatırdılmış, sakitdir ara,
Aclıq, səfalətdir baxırsan hara.
Küçələr, meydanlar aclarla dolu,
Çiplaqlıq, xəstəlik, yox ümid yolu.

Şura hökuməti görmüşdü tədbir,
Öylə bir tədbir ki, etdi çox təsir.
Mərkəzdən – Bakıdan komisyon gəlmiş
Təcili yardımçın, həm görmüşdü iş.
Təşkil edilmişdi bir müəssisə,
Yardım başlanmışdı böylə hər kəsə.
Aldı müəssisə xidmətə məni,
Doydurmaq, geydirmək lazım kütləni.
Açdıq hər küçədə yemək nöqtəsi,
İndi eşitmirdik artıq ac səsi.
Kişmiş, şirni, düyü, parça, paltar, ət
Küçələr arasında edilir qismət.
Mən də bir küçədə işlədim bir ay,
Çox vaxt götürməzdim özüm üçün pay,
Çünki, çox müdhişdi xəlqdə ehtiyac,
Vardı məndən daha möhtac, laəlac.
Şirni, ya kişmişi bölərdim düzgün,
Aşsız heç bir adam qalmadı bir gün.
Bəzi xidmətçilər vardı nəfsi pis,
Ət, şirni, ya düyü çalardı xəbis.
Bunlardan bir neçə alçağı qovduq,
Böylə bir tənbihlə burnunu ovduq.
Bir gün dəyişildi sədr, mühasib,
Gəlmişdi Bakıdan sədr – Təhmasib[1]
Etdi müəssisə işimi təqdir
Gördülər həqqimdə yeni bir tədbir.
Çünki məntəqədə ağırdı zəhmət,
Mana idarədə verdilər xidmət.
Lakin mən müəllim olmaq istədim,
Bunlar müvəqqəti işlərdir, dedim.
Təhmasib iltifat göstərdi mana,
Dedi: "Kassirliyi verirəm sana.
Sən bizdən ayrılma, yaxşı işçisən".
Lakin oxumağa aşiq idim mən
Özüm vicdanımla məsləhət etdim
Çıxdım bu xidmətdən təhsilə getdim.

[1] Rza Təhmasib – aktyor



Çıxdım, qorxdum, çünki, budur doğrusu
Mən də el malının olam oğrusu.
Fikrim düz çıxmışdı sonra bu oldu:
Bir çox alçaqların cibləri doldu.
Bir rus vardı bizim işin başında
Olardı ən azı otuz yaşında,
Gəncədən Bakıya getmişdi bir gün,
Demə, oğru imiş bu başçı düşkün.
Bakıda tutmuşdu onu hökumət
Çünki, heç çəkmədən zəhmət-əziyyət,
Qızıl pul çalmışmış on beş min manat.
İpək, şal parçası var imiş qat-qat.
Sonra nə etdilər bilmədik ona,
Gündə girirdi o, başqa bir dona.
Mən əvvəl baxdığım zəngin isklad
Olmuşdu çox az bir müddətdə bərbad.
Mən öz həyatımda bu gunə qədər,
Bir fərdə bir quruş vermədim zərər.
"Acda iman olmaz" – demişdir əcdad,
Bu zərbül-məsəli edərdim çox yad.
Deyirdim: hazırda mən dəxi acam,
Birdən nəfsim mana yedirdər haram.
Düzdür, bəzi işdə nöqsanlarım çox,
Vicdan hüzurunda lakin suçum yox.

MÜƏLLİMLİK ÖYRƏNİRƏM

Belə çox keçmədi, günlər düzəldi,
İndi yeni həyat, yeni iş gəldi.
Şura hökuməti kurslar açırdı,
Hər səmtə mərifət nuru saçırdı.
Bir də müəllimlər hazırlamaqçın
Həm də məvaciblə edərək təmin,
Üç aylıq bir kurs da tərtib etdilər,
Mən də həmin kursa getdim bir səhər.
"Çox bərkə salırlar" – verdim imtahan

Sinifdə mən dəxi tutmuşdum məkan.
Həmin ilk kurslarda qadın ilə ər,
İlk dəfə əyləşdi sinifdə bərabər.
Malikdim onda mən düz qırx beş yaşa,
İndi dərs anla sən, kəsri düş başa.
Dərddən dönübdür baş bir dəyirmana,
Mən dərsdə, fikrimsə gedir yüz yana.
Arvad "Bejatdel"dən şorba aldımı?
Yoxsa çoluq-çocuq yavan qaldımı?
Az-çox bu gün kənddən un-dən gəldimi?
Körpə qızdırmışdı, ya dincəldimi?
Doktordan, aptekdən kinə tapdımı?
Evdə çırpı yoxdur, əppək yapdımı?
Qənd yox, kömür yoxdu, qoyacaqmı çay?
Kənddən qatıq gəlsə, iş olar qulay.
Bunlar və bunlardan başqa min xəyal
Etmiş təmamilə beynimi işğal.
Zahirdə göz baxır düz müəllimə
Lakin çatır sözü onların kimə?
Dərslər mürəkkəbdir: dil, riyaziyyat,
Fizik, təbiiyyat, həndəsə... heyhat.
Onlardan heç biri girməyir başa,
Sanki deyirdilər dərsləri daşa.
Dərsdə davam etdim hər nəysə üç ay,
Gəldi soyuq payız, getdi isti yay,
Artıq müəllimən, vardır vəsiqəm
Keçir çocuqlarla gün, çəkmirəm qəm.
Təyin edilmişdim yaxşı məktəbə,
Çatmışdım böyləcə əsl mətləbə.
Əlif-bey müəllimi olmuşdum gözəl,
Şagirddən çəkməzdim öyrətməsəm əl.
Üç il müəllimlik eylədim tamam
Sinifdə daima oldu intizam.
Lakin maaş azdı təmin etmədi,
İşlər məramınca düzgün getmədi,
Günlər çox zövqsiz edirdi mürur,
Oldum bu sənətdən qaçmağa məcbur.



## "YENİ GƏNCƏ"DƏ XİDMƏT

Yerli qəzetədə müdirdi Razi,
Qələm arkadaşı, rəfiqi-mazi.
Lakin raykomda da işləri çoxdu,
Ona qəzetədə köməkçi yoxdu.
Raykom, icrakomda razı oldular,
Artıq verilmişdi müsaid qərar.
Girdim mən xidmətə "Yeni Gəncə"də
Bu yaxşı, layiqli işdi məncə də.
Katib, sonra oldum texniki müdir,
Verdi vəziyyətə bu xidmət təğyir.
Çalışdım böylə mən beş aya qədər,
Lakin çıxdı bir gün qara bir xəbər.
Mərkəz yazmışdı ki, bağlansın qəzet,
Ver təhvil işləri, rəfi-zəhmət et.
Çalışdıq buxqalter, xadimlə üç gün
Aldıq siyahıyə hər nə var, bütün.
Verdik komisyona əskiksiz təhvil,
Əvvəldən xidmətdə yoxduq eylə bil.

## ƏRZAQ İDARƏSİ

"Ərzaq idarəsi" adlı o zaman
Vardı bir idarə – vergi toplayan.
Həm kənd təsərrüfat gəlir vergisi
Onda toplanırdı hər şeydən cinsi.
Həmin idarədə oldum kargüzar,
Yoldaşlar çox etdi məhəbbət izhar.
Çünki, deyildim mən işdən baxəbər,
Hər nə bilmirdimsə, öyrədirdilər.
Keçindik çox yaxşı böylə yarım il
Sanki bir ailə etmişdik təşkil.
Oldu səmimiyyət, şadlıq hər zaman,
İşdə, yoldaşlıqda heç yoxdu nöqsan.

Lakin ləğv edildi bu müəssisə,
Ağır təsir etdi bizdə hər kəsə.
Səmimi yoldaşlar heç gözlənmədən
Hamısı ayrıldı, işsiz qaldım mən.

## ŞƏHƏR TƏSƏRRÜFAT ŞÖBƏSİNDƏ

Əmlak ölçülməyə başlanmış tamam
İndi kommunxoza çox lazım adam.
İş – torpaq ölçməkdir, çün səkkiz saat
Ayda məvacib var düz otuz manat.
Bir köhnə erməni çinovniklə mən,
Yerölçən zənciri aldıq dinmədən.
Çinovnik çox kökdür, tərpənir ağır,
Yaydır, əndamından daim tər yağır.
Avqustun istisi bişirir qora,
Yoxdur heç düşdüyü böylə bir tora.
Bir bağ ölçüldümü, kölgə axtarır,
Arxda su gördümü, camıştək yarır,
Köynəkli, şalvarlı ağnayır suda,
İşçi yoldaşlara keyf verir bu da.
Qoymurlar yatmağa, dartırlar işə,
Heç yoxdu örtülmək dodağa, dişə.
Əl-hasil, işlədik bunda ay yarım
Getdi dikənlərdə çəkməm, şalvarım.
Bitdi kommunxozun ölçü işləri,
Qaldım sebarə mən işsiz, sərsəri.

## ƏRİZƏNƏVİSLİK KONTORU

Dəryada qərq olan qurtarmaq üçün
Çör-çöp də rast gəlsə əl atır, yəqin.
Bir kontor açmışdır sadə, mündəris,
Olmuşdum indi də ərizənəvis.
Keçdi bir müddət də böyləliklə gün



Hər şey mənim üçün – hər bir şey ölgün.
Zövqim, istedadım məhv olub gedir,
Eşqim, ümidlərim məni tərk edir.
Sanki röyadayam, durmuşdur həyat
Çox-çox uzaqdadır məndən kainat.

## "YENİ GƏNCƏ"NİN YENİDƏN NƏŞRİ

Bir gün kontordayam, fikr içrə qərqəm
Sarmış ətrafımı bulud tək dərd, qəm.
Hiss etməz olmuşdum özümü-özüm,
Seçmirdi dostları yadlardan gözüm.
Gəldi bir neçə səs, söylədi salam,
Birdən səksənmişdim, eşitdim qiyam,
"Kimsən?" soruşmuşdum, mən məcnun-məcnun
Gördüm gülür mana şən Əli Məhzun.[1]
Söydü, zarafatla, söylədi: "Nə var?
Dəymiş nə dərd sənə, məstsən, xumar?
Qalx, bağla kantoru, iş çıxmış sana,
Gəlmiş "Yeni Gəncə" bir də meydana.
Məktub düzəldərsən, beş çervon maaş
Hərdənbir felyeton yaz da çıxsın aş".
Mən bu bəşarətdən öylə şadlandım
Guya qaranlıqmış, gün doğdu sandım.
Sabiq yoldaşlarla girmişdim işə
Bu iş canlandırır məni həmişə.
Müdir Razi idi qəzetdə əvvəl
Sonra Məhzun oldu Raziyə bədəl.
Aldım beş-altı ay mən geniş nəfəs
Artdı fəaliyyət məndə, həm həvəs.
Lakin bu günlər də etdi az davam
Zəhr oldu qarşımda cami-ləli-fam.
Vardı idarədə uyğunsuz hallar
Səfinə halına gəlmişdi sallar.

[1] Əli Məhzun Rəhimov, irəvanlı

"İcrakom" vermədi qəzetə para,
Oldu bu məsələ sağalmaz yara.
Axır pulsuzluqdan durdu həftəlik,
Düşdüm mən küçəyə əlimdə çəlik.

## 20 İLDƏ 40 MANAT

"Molla"mız Bakıda çıxandan sonra
Mənə dərdlər, qəmlər yağandan sonra,
Mirzə Nəzmisini salaraq yada
Əl atmış kağıza, qələm-davata.
Hörmətlə, səmimi surətdə haman
Jurnalda vermişdi böylə bir elan:
"Gəzirik ikinci Sabirimizi
Nəzmi, "Sijimqulu", yoldaş "Kefsiz"i.
Çoxdandır bilmirik biz ondan xəbər
Bildirsin, başına gəlmişdir nələr?
Harda olduğundan versin məlumat
Jurnal əşarını gözlər hər saat".
Bu elan vermişdi mənə bir təkan
Əvvəlki səngərdə tutmuşdum məkan.
İndi də keçmişdə olduğu kimi,
Əsla gətirmədən xatirə cibi
Etdim məcmuədə təkrar iştirak
Fikrim səmimi, düz, vicdanım da pak.
Sabiqki eşqimlə yazırdım ona
İyirmi beşinci il irmişdi sona.
İyirmi altıncı il yarı olmuşdu,
Mənim gülşənimin kökü solmuşdu.
Olurdu bir yarım, ya iki sənə
Jurnaldan almırdım mən bir pul – yenə.
İşsizdim, gəlmirdi bir yandan para
Münasib bir iş yox, gedirəm hara.
Yox çarə, ən sonu mən gəldim dilə,
Xüsusi bir məktub yazdım Cəlilə.
Yazdım ki, bir miqdar pul göndər mana



İmkanım olduqda qaytarram sana.
Qırx beş gün keçmişdi qəlbi bir barat
Mirzə göndərmişdi ancaq qırx manat.
Mətbuat qanunu ilə lakin mən
Almalı idim düz iyirmi beş tümən.
Bu az pul öz haqqım olsa da, fəqət
Mirzə göstərmişdi böyük mərhəmət.
İgirmi ildə qırx manat, azmı bir para?
Bundan da az olsa gəlməzmi kara?

## MƏNİM BAKIYA GƏLMƏYİMİN SƏBƏBİ

Hələ "Yeni Gəncə" edirkən davam
Mən onda işlərkən sabah və axşam
Yoldaş Xudadadov, Müseyib Şahbaz.[1]
Bakıya gəldilər çıxmamışdı yaz.
"Yeni Gəncə"mizdə bu iki yoldaş,
İşə baxırdılar almadan maaş.
Şahbazov başçıydı heyətimizdə
İti bir yoldaşlıq var idi bizdə.
Yoldaşlar Bakıda olduğu zaman
Qəzet işi üçün tapılar imkan.
Gedirlər "Kommunist" idarəsinə,
Baxıb da bir dostun işarəsinə
"Kommunist" müdiri Cəbiyev Həbib,
Olmaq xəyalıyla dərdimə təbib
Şahbazov ilə Xudadadovdan
Necə mətbuatçı, necə qədirdan
Məni istəmişdir "Kommunist" üçün
Etmiş yoldaşlar da Həbibi təmin
Ki, ezam edərlər Bakıya məni
Lakin düzəlməyir "xətti-münhəni".

[1] Müseyib Şahbazov o vaxt Gəncədə firqə komitəsi katibi, Əsəd Xudadadov isə mahal məhkəməsinin sədri idi. "Yeni Gəncə"də rəhbərlik edirdilər.

* * *

Yoldaşlar Bakıdan çoxdan dönmüşlər,
Lakin verməyirlər mənə bir xəbər.
Keçmiş bundan uzun bir müddət hələ
Qalmışdır Gəncədə gizlin məsələ.
Yazmışdır "Kommunist" bir məktub daha
Şəxsən öz adıma, etməmiş bəha.
Yox olmuş məktub da "Yeni Gəncə"dən
Yoldan qoyulmuşdum böyləliklə mən.
Keçmiş bu işlərdən ay yarım tamam,
Oynanmış həqqimdə böylə bir dram.
Mən hələ bunlardan məlumatsızam
Yoldaşlar atlıdır, mən qanadsızam.
Birdən bu gizlini eyləmişdi faş,
Mətbəə müdiri İsrafil yoldaş.
Şahbazov yoldaşdan eşitmiş işi
Açmışdı sonra da mənə keçmişi.
Demişdi: "Getməli olsan Gəncədən
Sonra çıxa bilməz "Yeni Gəncə" şən".
Bunu eşitdikcə oldum çox məyus,
Gəncə bir həbs evi, mən dəxi məhbus.
Sanki "Yeni Gəncə" çıxmazmış mənsiz,
Guya saxlanmışam bununçun "əziz".
Şahbazov yoldaşın yanına getdim,
Özündən özünə şikayət etdim.
Dedim: "Bilirsiniz vəziyyətimi?
Əlli manat maaş bəsləyər kimi?
Pul görmür nisfini çörəyin, çayın
Qoy gedim Bakıya mane olmayın!".
Dedi: "Nəzmi yoldaş, heç darıxma sən
İşlə, maaşını artıraram mən.
Vətən qəzetində işləmək gözəl,
Bakı bəlkə sənə verməzdi heç əl.
Çünki, bahalıqdır, ev tapmaq çətin
Maaş çox olsa da, edəməz təmin".
Etdim müraciət Əsəd yoldaşa



O da, bu dillərlə salırdı başa.
"Getdimmi Bakıya, mən düzəldərəm
İşlə qəzetmizdə, heç də çəkmə qəm".
Kəndin məndən getməz iki irsi var:
İnanmaq, utanmaq – heç deyil yarar.
İnandım, artmadı inamla maaş
Utandım, olmadı utanmaqdan aş.
Məlum olduğutək, qapandı qəzet
İndi keyfin hara istəyirsə, get!

## BAKIYA SƏFƏR

Qəzet tətil etmiş, böyləliklə mən:
Məhrum edilmişdim hər bir cəbhədən.
Bakı söhbətindən keçmişdi üç ay,
Sürürdü hökmünü hərarətli yay.
Artıq rahatlanmır qəlbim Gəncədə,
Zövq almır söhbətdə, ya əyləncədə.
Əski dəftərləri bir gün topladım,
Kiçik balaları öpdüm, oxşadım.
Baxmadan arvadın qalmaqalına
Bir cavab vermədən beş sualına.
Bir daha dönməmək qəsdilə daha,
Atılıb faytona, gəldim vağzala.
Doqquz yüz igirmi altı, bir iyul
Etmişdim sübh erkən Bakıya nüzul.
Bakıda gəncəli tanışlar çoxdu
Lakin adresləri yanımda yoxdu.
Saxlanca tapşırdım şeyi vağzalda
Mənzil yox, yersizdi gəzdirmək dalda.
Mehmanxanalara getmək olmazdı
Çünki pasportum yox, param da azdı.
O günlər Mümtazın vardı dükanı
Həm də məlum idi mana ünvanı.
Tapdım üç-dörd saat sonra Salmanı
Görüşdük, çox səssiz axırdı qanı.

Dedim: "– Bir az şey var: çamadan, yorğan
Dükanda saxlardın olsaydı imkan.
Çünki, bəlli deyil dostların yeri
Mütləq götürərəm sabah mən geri".
Dedi: "– Bağlanacaq dükanlar indi
Ancaq saat dörddə gətir". – İkidi indi.
Yanında mən kimi, məndən də ağbaş
Bir-iki şair də var idi nimdaş.
Yaykən üzlərində görsənirdi qış
Edildik buz kimi əllərlə tanış.
Gətirdim şeyləri mən saat üçdə
Dükan bağlı idi, qoydum bir küncdə.
Oturdum üstündə mən çamadanın
Lakin yanındadır fikrim – Salmanın.
Saat beşi keçdi, altı yetişdi,
Yol gözləməkdən lap gözlərim şişdi.
Batdı parlaq günəş, qovuşdu axşam,
Dükan açılmadı, ta ki, yandı şam.
Verdim dübarə mən şeyi hambala
Peşiman bir halda qaytardım dala.
Bazar küçəsində bir tanış vardı,
Yüngül zəhmətlərdən qaçmaz, yarardı.
Tapşırdım şeyləri həmin rəfiqə,
Məncə keçir bir il hər bir dəqiqə.
Gəncə üsyanına olana səbəb
Min lənət oxudum, min yol etdim səbb.
Lakin qınamadım əsla Salmanı
Çünki, o gördüyü arkadaş hanı?
Dönüb, az müddətdə oldum ixtiyar,
Əynimdə boz kömlək, yamaxlı şalvar.
Çallanmış başımda bir qirtəs papağ
Saqqal tirim-tirim, nə qara, nə ağ.
Ürkürdü, baxdıqda cin cındırımdan
Yoxdu bu hal ilə qəbula imkan.
Qorxmuşdu ki, birdən qalaram qonaq,
Fikrim, şeylərimi qoymaqdı, ancaq.



* * *

Çıxaraq bazardan "Sabirə" gəldim
Bir müddət əyləşdim dindim, dincəldim.
İndi saat səkkiz olmuşdu tamam
Birdən tanış bir səs söylədi: Salam.
Baxdım, tanışlardan İskəndərzadə[1]
Gördükdə şad oldum həddən ziyadə.
Hallaşdıq, sonra bir gəziş yapdıq,
Bir də rəfiqlərdən Əmiri tapdıq.
Gəzdik, Olqinski adlı caddəni
Saldıq Əmirgildə son səccadəni.
Söz-söhbət qurtardı, başları atdıq
Boldu taxtabiti, sanma ki, yatdıq.
Onlar hücum edir dörd yandan bizə
Biz də aparmırdıq pis mübarizə.
Etdik mütarikə doğduqda günəş
Lakin üz-~~göz bizdə~~ həp köpəş-köpəş.

"KOMMUNİST" QƏZETİ İDARƏSİ

Həmin gün dərdlərlə dopdolu sinə
Getdim mən "Kommunist" idarəsinə.
Keçmiş söhbətləri açdım, söylədim
Mənimçin bir xidmət düzəldin, dedim.
Tutmuş Əhməd Bədi burnunu dimdik
Katibdi, edirdi indi müdirlik.
Dedi ki, xəstədir Cəbiyev Həbib
Yoldaşı, Krıma göndərmiş təbib.
Çünki, yox hazırda burada müdir
Görmək mümkün deyil səninçin tədbir.
Katib yeni işçi edəməz qəbul,
Hərgah qəbul etsə, tutarlar məsul.

[1] Əli İskəndərzadə – müəllim, gəncəli

* * *

Dostum Məmmədəli Sidqi çox "mahir",
Deyirdi: "Qulluğu nə edir şair?
Getsin zavodlara, kolxozu gəzsin
Ayağın sındırsın, başını əzsin".
"Dad yarımçıq əlindən" – demiş atalar
Bunlar yarımçıqdı, edirəm təkrar.
Bizdə bir ümumi xəstəlik vardır,
Gənclərin çoxu da buna düçardır.
Bilir hər kəs özün bir professor
Ya çox dadsız – şitdir, ya da artıq şor.
Özündən başqaya heç qiymət verməz
Çox səsli bir təblə tut onu əvəz.
Nə isə, bunlardan vaz keçək getsin,
Hər necə istəyir, öylə də etsin.
Tarixlə istiqbal eyləyir diqqət
Verəcək vəqtində hər kəsə qiymət.

***

Burada xidmətdən mən məhrum qaldım
Özümü "Molla"nın yanına saldım.
Görüşdük, dərdləşdik, mətləbi açdım
Bütün əkdarımı ortaya saçdım.
Dedim: "– Mümkünsə, həm, olsa məsləhət,
Mana idarədə verin bir xidmət".
Mirzə kədərləndi söhbətlərimdən
Dedi: "– Sənə xidmət düzəldərəm mən.
Lakin indi, – dedi, – çox istidir yay
Məzuniyyət aldım, gedirəm bir ay.
Bir növ sən dəxi bu ayı dolan
Darıxmaz dünyada hər şeydən insan.
Dönəndən sonra mən düzələr işlər,
Həyatda acından ölən var məgər?
Məqalə, şeirlər yaz ver jurnala
Onlar edər yardım bu yanan hala".



Mirzə bu sözlərlə dil-ağız etdi
Ertəsi gün çıxıb Barjoma getdi.
Məcmuə Bakıda çıxandan bəri
Hesaba almadan nəşri, xəbəri.
Əvvəl də demişdim, deyil doqquz-on
Yazmışdım qırx-əlli qitə, felyeton.
Bundan göndərmişdi mənə qırx manat,
İndi də edərək mərdliyin isbat,
Versəydi əllicə manat borcundan
Onun heç çəkməzdi cibi bir ziyan.
Fəqət, o, bunu da edə bilmədi
Etmədi... Təsəlli dərdi silmədi.
Öz zəhmət həqqimi istəyəmədim
Kəndliyəm, utandım – qına! – nə edim?
Halbuki cibimdə bir manat yoxdu,
Əksinə, Cəlildə çervonlar çoxdu.

## MƏNZİL MƏSƏLƏSİ

Bir mənzil lazımdı hər şeydən əvvəl
Qalmaq küçələrdə verməz idi əl.
Yazmaq bir felyeton, ya başqa əşar
Bir yerə – mənzilə möhtacdı naçar.
Mütləq müəllimə dinc almaq gərək
Hər kəsə – nəinki, bir Əmirə tək.
Əmir yay fəslidir, gedir Gəncəyə
İndi ümid edim mən kimə, nəyə?
Yeni bir tanış var, Qurbanov Qurban,
Lənkəran əhlindən yaxşı bir insan.
Məni öz evinə apardı yoldaş,
Oldu həqiqətən bir doğma qardaş.
Şən işə girişdim gecə və gündüz
On səkkiz saat mən işləyirdim düz.
Əski yazıları köçürdüm tamam,
Yeni dəftərlərə, verdim irtizam.
Hər gün bir felyeton edirəm hazır,
İndi mən fəhləyəm, deyiləm şair.

"Molla Nəsrəddin"ə verirəm yazı,
Həftədə ikisi çıxırdı azı.
"Kommunist" ilə də düzəltdik işi
Dəyişdi dövranın əski gərdişi.
Tez-tez əşarımı buraxırdılar,
Üzümə get-gedə xoş baxırdılar.
Lakin bu işciklər olsa da asan
Bunlarla çıxmazdı Fatıya tuman.
Əsərim getməsə çapa, müxtəsər
Bu günüm dünəndən olardı bədtər.

## CƏLİL MƏHƏMMƏDZADƏ VƏ BÖYÜKAĞA TALIBLI İLƏ GÖRÜŞ

Bir neçə söz dəxi qalmasın pünhan
Mən "Yeni Gəncə"də işləyən zaman
Gəncəyə gəlmişdi Məhəmmədzadə
Orada salmışdı məni də yadə.
(Narkomprosdaydı o zaman Cəlil
Lakin vəzifəsi yadımda deyil.
Narkom müavini olaydı gərək
Bir kommunist idi mövqeyi yüksək).
Məxsusən görməyə yanıma gəldi
Bu iltifat ilə ruhim yüksəldi.
Olduq tanış edib artıq iltifat
Dedi: "– Çox qəmgindir Gəncədə həyat.
Şairlər mərkəzdə olmalıdırlar,
Xüsusiylə, sənin yazıların var.
Topla yazıları, çıx Bakıya gəl
Orada mən sənə uzadaram əl.
Sənin əsərini çap etdirərəm,
Yaxşı dolanarsan, heç də çəkmə qəm".
Talıblı yoldaş da böylə buyurdu,
O da bu söhbətin üstündə durdu.
Yardım edəcəyin o da vəd etdi,
Məni şad edərək Cəlillə getdi.



* * *

Bakıya gəldikdə ilk əvvəlcə mən
Məhəmmədzadəni axtardım şəxsən.
Narkomprosda mən Cəlili tapdım
Fikrimi söylədim, təqdimat yapdım.
Fikrim yazıları çapa verməkdi
Mətləb və arizum buna irməkdi.
On gün gedib-gəldim, bir şey çıxmadı
Lakin bu hal məni əsla sıxmadı.
Çünki ümidsiz yox, ümidvar idim,
Mümkün deyildi ki, görməyim yardım.
Cəlil deyirdi ki, ver materyalı
Özün get Gəncəyə boş, əli xali.
Hərgah iş baş tutsa, yazarıq sana,
İtməz materyallar əmin ol mana.

* * *

Talıblının da mən yanına getdim,
Çox-çox çətinliklə ziyarət etdim.
Düzəldin bir xidmət siz mana, dedim
Var qəsdim Bakıda iqamət edim.
Böylə cavab verdi Talıblı yoldaş:
"Münasib bir zaman oleydi, ey kaş!
Əsirgəməzdim mən yardımı sizdən.
Lakin yay vaxtıdır, nə edim ki, mən?
Qayıt, get Gəncəyə, son baharda gəl
O vaxt uzadaram sana yaxşı əl".
Lakin mən Gəncəyə nə üzlə gedim?
Öz yurdum olsa da, gedim, nə edim?
Məcburəm Bakıda qalmağa mütləq
Getsəm, sıxacaqdır Gəncə mühəqqəq.
Hər halda dərdlərə dözmək gərəkdir,
İşlər çox keçmədən düzələcəkdir.

## "KƏNDLİ QƏZETƏSİ" İDARƏSİ

Bir gün də qalxaraq "Kəndli"yə getdim
İbrahim Əminbəylini ziyarət etdim.
İbrahim müdirdi "Kəndli"də çoxdan
Görüşdük, dərdimi söyləyib haman.
Əsərim haqqında tədbir istədim,
Mənə bu barədə kömək et, dedim.
"Kəndli"də, mümkünsə, düzəlt bir xidmət
İşsiz dolanmağım deyil məsləhət.
Yaxşı qəbul etdi məni İbrahim,
Qalsın el dərdinə gərək müəllim.
Müvəqqəti xidmət düzəltdi əvvəl
Mənimçün oldu bu hər şeydən gözəl.
Gəncədə ailə pulsuzdu, acdı,
Ongünlük ruziyə belə möhtacdı.
Xidmətdən aldığım onlara çatar
Hələlik özümün Qurbanovum var.
O məni bəsləyir, yenə də dözər
Dünya, həyat için müdhiş, rəhgüzər.
Başladım "Kəndli"də sevinclə işə
Vermişdim intəha fikrə, təşvişə.
Aldım on beş günə səksən beş manat
Sanki bağışladı mana bir həyat.
Çox şad bir surətdə postaya getdim,
Bu pulu arvada tez barat etdim.
Bir az sakit oldu qəlbim, vicdanım
Duruldu çox qara, bulanıq qanım.
Gördüm böylə mərdlik mən İbrahimdən
Bunu unutmaram ta ölüncə mən.

## PULSUZ GÜNLƏR

"Kəndli"də tutduğum vəzifə lakin
Tək bircə aylıqdı, deyildim təmin.
Çünki bu xidmətə deyildim təhkim
Bir məzun işçinin yerində idim.



Cəlil səyahətdən hələ dönməmiş
Düz, rahat bir yola düşməmişdi iş.
"Molla Nəsrəddin"dən, ya "Kommunist"dən
Çox seyrək-seyrək pul alırdım mən.
Olmur bəzi günlər Qurbanın pulu
Dolana bilmirdik biz üzü sulu.
Var idi qonşuda bir dükançı mərd
O, çox zaman bizə olurdu həmdərd.
Bizə verirdi o, nisyə ət, çörək,
Hazırlayırdıq biz özümüz xörək.
Lakin dükançıda olmurdu paprus
Paprussuzluq bizi edirdi məyus.
Paprus "Bakzayuz" yox, "Qornyak" olur
Mənfur bir dumanla ev-eyvan dolur.
Ən əla paprusdur deyib "Qornyak"
Çəkirik satanın üzü olsun ağ.
Çünki, bir çocuqdu bu paprus satan
Nisyə də verirdi, edirdi ehsan.
Şagirdi idi o, bizim Qurbanın
Hörmət müəllimə borcu, sibyanın.
Biz də pul tapdıqda çox bəklətmədən
Papros pullarını ödərdik erkən.
Dükançının dəxi borcunu tamam
Əda edərdik biz, olurdu xoşkam.
Başlardıq yenidən nisyə almağa
Qarın andırda yox tab ac qalmağa.
Günlər bu hal ilə edirdi mürur
Bir həftə çox dərdli, bir həftə məsrur.

## "BAKI FƏHLƏ KOOPERATİV NƏŞRİYYATI" İDARƏSİ. RUHULLA AXUNDOV YOLDAŞLA GÖRÜŞ

Məhəmmədzadədən olmadı yardım
Yazımın nəşrini mən çox umardım.
Əminbəylidən çox edirdim xahiş
Deyirdim ki, düşür təxirə bu iş.
Mənə mütləq səndən olacaq yardım

Buna səmimi də ümidvardım.
Bir gün o, dedi ki, vəqtim var, gedək
Ruhulla yoldaşı ziyarət edək.
Ancaq Ruhulladan görərsən kömək
Sana çox vacibdir o zatı görmək.
Lakin "Fəhlə nəşri"n haman günəcən
Çünki görməmişdim, tanımırdım mən.
Ruhulla ilə də tanış deyildim,
Bu adları ancaq mən bu gün bildim.
Getdik idarəyə, hər nə isə biz
O gün unudulmaz ömrümdə hərgiz.
Birdən məni görcək qalxdı Xuluflu
Səsləndi: "– Xoş gəldin, ay "Sijimqulu"!
Gəlin, ay uşaqlar, tanış olunuz
"Sijimqulu" ilə birdir yolunuz".
Gəldi əməkdaşlar başıma uşdu
Ən sonra Ruhulla gəlib görüşdü.
Söz verdi çap etsin "Sijimqulu"nu
Həm də çap etdirdi, aldım pulunu.
Ruhulla göstərdi böyük iltifat
Onu unutmaram daiməl-həyat.
Bir olduğu kimi verdiyi sözü
Ən sadiq, qədirdan bir zatdır özü.
Ruhulla olmasa – bunu mən yazdım
"Sijimqulunamə"yə sahib olmazdım.
İlk işin pulunu düz beş yüz manat
Aldıqda şənləndi məndə gün, həyat.
Üç yüz manat etdim arvada irsal
Yazdım ki, get indi yaylıq, başmaq al.
Aldım özüm üçün çox yaxşı paltar
İndi həm qış, həm də yay paltarım var.
Bir gün idarədə görüb Ruhullah:
"– "Kefsiz", bəzənmişsən, – dedi, – maşallah".
Dedim: "– Sayənizdə oldum müəssər".
Gülüb, dedi: "– Allahdır sayəgüstər".
Məni çox şad etdi bu xoş zərafət
Qürur, dargözlüyə, kibrə nə hacət?!





Mirzə səyahətdən qayıtdığı gün
Oldu mənim üçün bayramdan üstün.
Görüşdük, hər yandan edildi söhbət
Vardı o gün onda gülər bir sifət:
"– Necə dolandınız, – dedi, – iki ay?
Sizi çoxmu sıxdı işsizlik və yay?"
"– Dolandım bir gunə, sağ olsun, – dedim,
Lap az qalmışdı ki, Gəncəyə gedim".
Sonra "Kəndli"dəki bir aylıq işdən
Ruhullahla olan görüş, keçmişdən...
Qəbul etdiyini yazılarımı
Ödədiyi bütün arzularımı
Həm də alacağım nəqd "pişin"dən
"Kommunist", "Kəndli"yə yazmaq işindən
Cəlil Məmmədzadə və Talıblıdan
Qaldığımdan – Qurbanın evində mehman
Daha bir çox işdən verdim məlumat
Mirzəyə üz verdi şadlıq, inbisat
Mirzə mənə dedi: "Meylin var həyə
İndi işləməyə gəl idarəyə".
Etdim təklifini Mirzənin qəbul,
Lakin vəzifəmdə çox az idi pul.
Mirzə altmış manat kəsmişdi maaş
Hərçənd ki, azdı, bu etməzdi aş.
Yoxdu bir özgə yol, bir əlac fəqət,
Bildim işləməyi yenə məsləhət.
Sevdiyim jurnalda işə başladım

. . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .

Aldım az müddətlə hər işi ələ
Məni yormayırdı yeni məşğələ
Mirzə işlərimi edirdi təqdir
Görmək istəyirdi yeni bir tədbir.

MİRZƏ MƏNİ KATİBLİYƏ QALDIRDI

Süleyman Məlikov katibdi bizdə
Lakin işləyirdi özü "Azgiz"də.
Sidqi də kənardan müsəhhih idi,
Yoxdu heç birində "Molla"nın qeydi.
Sidqi "Kommunist"in mütərcimidir,
Bizim idarəyə o, yad kimidir.
Onlar idarəyə heç gəlməzdilər,
Bu kiçik mövqeyə əyilməzdilər.
Yaxşı hörmətləri, işləri vardı,
"Molla"nın maaşı kənardan "kar"dı.
Süleyman alırdı yüz səksən manat
Sidqi altmış manat – quşdan bir qanad.
Bizim xidmətçimiz Axundov Hacı
İşləyir ölçüsüz, halı çox acı.
Gedir idarədən əvvəl "Azgiz"ə
Hazır materialı gətirir bizə.
Sonra mətbəəyə alır yenidən
Qoşur "Kommunist"ə həm mətbəədən.
Sidqi oradaca bir fürsət tapır,
Çox ləngə salmadan təshihi yapır.
Hacı mətbəəyə götürüb qaçır,
Mürəttib qeydsiz səhifə açır.
Hacı səhifəni gətirir yenə
Sidqiyə – "Kommunist" idarəsinə.
Sebarə qaytarır verməkçin çapa
Dönür, yazıq Hacı nazilib, sapa.
Hələ daş mətbəə, rəssama getmək
Yoldaşı etmişdi bu işlər həlak.
Bu beş müəssisə arasında o,
Qaçmaqdan yırtmışdı beş çəkmə, palto.
Hətta yoldaşların maaşlarını
Daim boş olaraq cibi, qarını
Aparır onların hüzurlarına
Hazırlaşırdı o işçin yarına.
Yazıq Hacı üçün "Qlavlit" hələ
Təşkil edirdi bir uzun məsələ.
Mirzə xoşnud deyil bu vəziyyətdən
Bir tədbir görməyə başladı şəxsən.
Verdi yoldaşların hesablarını
Bağladı onların kitablarını.
Məni katibliyə eylədi təyin
Dedim öz qəlbimdə: "Edildim təmin".
Mirzə verər mənə iki yüz əlli,
Çünki yoldaşların aldığı bəlli.
Lakin etmiş idim mən çox xam xəyal
Böylə xəyallar həp olarmış məcal.
Mənim müsəhhihlik, həm katibliyim
Şerim, nəsrim, xatad, müxatibliyim
Şəkil, daş mətbəə, buraxıcılıq.
Məktubları seç, yaz, yazdırt, dur, gir-çıx
Mirzə cəmisinə etmiş iltifat
Maaş düzəltmişdi – yüz igirmi manat.

"SİJİMQULUNAMƏ" HESABINA YAŞAYIRAM

"Sijimqulunamə" mətbəədədir,
"Azgiz"dən pul gəlir yenə hərdənbir.
Yoxsa, bu donluqla külfət dolanmaz,
Mirzə həqiqətən verirdi çox az.
Axır, bir qanun var, bir də insaf var
Buna dinilməzmi bir ağ istismar?
Belə tutaq ki, mən lap çarəsizdim
Böylə bir rəftarda bulunardı kim?
Başqa sahələrdə iş yeri çoxdu
Lakin o yerlərə rəğbətim yoxdu.
Kooperativdə dolanardım şən
Lakin bunu etmək istəmədim mən.
"Kəndli"də də gecə işlərdim az-çox,
Dolanmaq lazımdır, başqa çarə yox.
Doqquz yüz igirmi yeddinci ildə
Oktyabr bayramı böyük tətildə

"Sijimqulunamə" çıxdı, pullandım
Bakıdan Gəncəyə doğru yollandım.
Külfəti götürüb Bakıya gəldim,
Ailə içində yaxşı dincəldim.
Bir-bir çocuqları qoydum məktəbə,
Çatmışdım ancaq mən indi mətləbə.

## "MOLLA NƏSRƏDDİN"İN MÜŞTƏRİLƏRİNİ ARTIRIRAM

"Molla"da xidmətə girdiyim zaman
İki min nüsxədə çıxırdı inan!
Mirzə tiraj ilə maraqlanmırdı,
Gəlir, tiraj ilə artar, sanmırdı.
Mirzə deyirdi ki, "çap etsək də çox,
Bundan əsla bizə artıq fayda yox".
Qoyur qabağına tez isçotkanı
Deyirdi: "Bax, bizə faydası hanı?
Kağıza, rəssama, xidmətçilərə
Çap, həm daş mətbəə – bir al nəzərə.
Vermək lazım gəlir bu qədər para
Gör, vurur xərcimiz yüksəlir hara?
Abunə toplayan istəyir faiz
Yox-yox, bu faizi verəmmərik biz".
Özgəyə bir fayda verməmək üçün
Salırdı jurnalı dəyərdən hər gün.
*Mirzə hər işçinin haqqından kəsir,*
Hər qəpik üstündə yarpaqtək əsir.
Yaşatmaq istərdi böylə jurnalı
Deyildi o, Şura dövrünün malı.
Yaxşı yazıçıya verməz qanarar
Ancaq pulsuz yazan sərsəri arar.
Jurnalı kol-kosla doldurur idi
Rəng, həm rövnəqini soldurur idi.
Məhəmməd Səiddən, Haqverdiyevdən
Yazmağı çox xahiş edirdim hər an.
Deyirdilər: axı, pul vermir Cəlil
(........................) deyil.



Baxmadım Mirzənin dediyi sözə,
Jurnalı yaymağı aldırdım gözə.
Abunə toplayan tapdım bir neçə,
Onlar çalışdılar gündüz, həm gecə.
Bir az müddətdə pul minlərlə axdı,
Mirzə bu işlərə diqqətlə baxdı.
Pullar çoxaldıqca o da sevindi,
Nə mane oldu o, sonra nə dindi.
Jurnalı altı min nüsxə çap etdik,
İndi keçmişdən çox irəli getdik.

## MİRZƏ YENƏ MAAŞIMI AZALDIR

Mirzə verir mana yüz iyirmi manat
Bu çox az bir puldu, ağırdı ovqat.
Lakin mən edirəm buna qənaət
Etmirdim Mirzəyə artıq şikayət.
Mirzə xəyal edir: "Ayrı gəliri var!"
Edir maaşımı daha ixtisar.
Bir gün mənə dedi: "Ay Nəzmi yoldaş,
Pul heç yetişməyir, ağırdır maaş.
Artıq səksən manat verirəm sana
Bundan ziyadəsi əl vermir mana".
Hökumətdən yardım almaq vermir əl
Kəndi başımıza dolanmaq gözəl.
*Jurnal öz-özünü idarə edər*
Qənaət edərik iş önə gedər.
Şura ehkamına sanma ki, xamdı
Ancaq xüsusiyyətsevər adamdı.
Bakı Şurasından var idi yalnız
Ayda beş yüz manat datatsiyamız.
Mirzə bu pulları almırdı bəzən
Derdi: "Yardım pulu istəmirəm mən.
İdarə edərəm özümü özüm.
Özgənin əlində olmasın gözüm".
İşçinin muzdundan kəsirdi ancaq
Bu kəsməklərlə də dolmurdu çanaq.

Əsri elmlərdən məhrum idim mən
Onunçun dözməyə məcburdum hökmən.
Bu söz böylə qaldı yarımçıq o gün.
Həyat qararmışdı gözümdə bütün.
Kəsdi maaşımdan qırx manat Cəlil
Bilməm bunu edim mən necə təhlil?

## SİYASİ CƏHƏTDƏN GERİDƏ QALDIM

Qəbul etsə idi "Kommunist" işə
Gedərdim mən önə sözsüz həmişə.
Rusca savadsızdım, firqədə yoxdum,
Özümü çarəsiz "Molla"ya soxdum.
Mühitim Gəncədə dəxi yamandı
Yalançılar məni yabançı sandı.
Külfətim ağırdı, çapalayırdım,
Özümü böyləcə xırpalayırdım.
Sırtıq, aldadıcı əsla deyildim
Dərdlərə dözməyi daha xoş bildim.
Sevirdim həddindən artıq jurnalı
O qoydu axırda əlimi xali.
"Molla" siyasətcə geriləmişdi,
Bu gizli olmayan aydın bir işdi.
Şura zamanıyla ayaqlaşmırdı
Yeni həyat onu əsla açmırdı.
Bu hal mənə dəxi etdi çox təsir
Əsla verəmədim yerimə təğyir.
Qaldım nahaq yerə firqədən kənar
Bununçun azaldı məndə etibar.
Qaldım yoldaşlardan, tay-tuşdan geri,
Geridə qalmağın yoxdur heç yeri.
İnqilabdan əvvəli demirəm hələ
Hər kəsə bəllidir həmin məsələ.
Məcmuə Bakıda nəşr edilərkən
Bir çox çətinliyə baxmayaraq mən.
Çalışdım "Molla"da altı il tamam
Nə haqqım haqq oldu, nə namım bir nam.



## ŞƏKİYƏ SƏYAHƏTİM

Çoxdandı çıxmırdım məzuniyyətə
İyirmi doqquzda düşdüm niyyətə.
Məmnun deyil idim həm idarədən
Ruhum çox düşkündü, zəifdi bədən.
Mirzənin son işi çox incitmişdi
Səbrim-təhəmmülüm bütün bitmişdi.
Şəkili dostlarım edirdi israr
Şəkiyə getməmi təkrar və təkrar.
Lakin səyahətçin yox idi param,
Pulsuz səyahətlər olurlar haram.
Səmimi dostlardan hörmətli Rəşid
Etdi bu barədə xüsusi təkid.
Dedi: "Sən ancaq gəl Şəkiyə qədər
Pul heç lazım deyil, olma mükəddər.
Toplarıq "Molla"ya abunəçi çox,
Sənə faiz çıxar, bir bəhanə yox.
Yeməkçin, mənzilçin pul gərək deyil,
Bunlar tamamilə edilir təshil".
Şəkiyə getməyə vermişdim qərar
Deyildim başqa bir şeyə intizar.
Söylədim fikrimi Mirzə Cəlilə
Qəsdən söyləyərək mən bilə-bilə.
Dedim, idarənin xərcinə gedim!
Hər nə qazanc olsa, sana tərk edim.
Səfərdə də xərcim çox olmayacaq
Məni aparırlar Şəkiyə qonaq.
Dedi: "İdarənin xərcinə olmaz,
Bəlkə abunəçi toplandı çox az.
Deyil idarəmiz böylə mötəbər
Dözəməz, çəksə lap az belə zərər.
Diqqət edərsiniz daha artıq siz
Get öz hesabına, alarsan faiz".
Bəzi yoldaşlara iyirmi beş faiz
Sözsüz verir idik, qayda idi, biz.

Mirzə ayağını dirədi yerə
Bunda da başladı köhnə alverə.
Dedi: "Sən deyilsən, gəlsə də dədəm
İyirmidən artıq faiz vermənəm".
Onun kirdarına heyrətdə qaldım
Məzuniyyət pulu istəyib-aldım.
Çıxmışdım Bakıdan Şəkiyə tərəf
Lakin hər dəqiqə edərək əsəf.
Deyirdim: adlı bir jurnalist adam
Neyçün xeyirxaha bədxahdır tamam?
Fikrə qərq olmuşdum mən birdən-birə
Əski zərbül-məsəl düşdü xatirə:
"Yaxşı igidlərin adını eşit,
Lakin özlərini görmə, uzaq get!"
Ertəsi gün axşam, çatdım Şəkiyə
Şəki bənzəyirdi yaşıl səkiyə.
Əli Vəlibəyli etmişdi pişvaz,
Həqqimdə göstərdi ehtiram, ezaz.
Saat hələ beşdi, axşama vardı
Mən – çox yorğun idim – evə apardı.
Çırpdım üst-başımı, yuyundum təmiz,
Əvvəldən hazırmış – görünürdü – miz.
Çay gəldi, iştahla, ləzzətlə içdik,
Şəkidən, Bakıdan sözə girişdik.
Şəkinin ruhəfza abü havası
Sildi sinəmdəki birikmiş pası.
Yaxşı yemək vardı, yedik nuşi-can
Əla şərab içdik bir neçə fincan.
Mən çox yorulmuşdum, başımı atdım
Hava əmə-əmə rahatlə yatdım.
Ertəsi gün axşam Rəşid də gəldi.
Getdik Əligilə, o da dincəldi.
Rəşid öz evinə apardı məni
Dedi: "Başqa evdə qoymaram səni".
Səhər Rəşid ilə işə başladıq
Abunə toplanır hər yerdə, şadıq.



Firqəçi yoldaşlar işçi, komsomol
Açdı abunəyə hər zavodda yol.
Beş-on gün ərzində min beş yüz manat
Etdim idarəyə poçt ilə barat.
Şəki, şəkililər mehmannəvazdır
Kəmetina insan burada azdır.
Rəşid Vəlibəyli, qardaşı Əli
Məcmuənin sadiq dostudur, bəli!
Unudulmaz Rəşid böyük iş gördü,
Qəlbimin o uçmuş divarın hördü.
Bir çox dostlar etdi qonaqlıq bizə
Plov çıxır idi hər axşam dizə.
Rəşid buraxmadı məni on beş gün.
Hava, yemək gözəl, kökəldim bütün.
Rəşidin hörməti heç unudulmaz
Öylə Rəşid yoldaş tapılar çox az.

## ZAKATALA

Sonra Zakatala eylədim səfər
Orada da hava gözəl, müəttər.
Burada da dostlar şəkililərdi
Hər kəs qüvvəsincə yardım göstərdi.
Yazdıq abunəçi burada da bir az
Bu yer edəməzdi Şəki tək pərvaz.
Dörd-beş gün seyr etdimmi, Şəkiyə gəldim
Bir neçə dostları görüb dincəldim.
Ertəsi hər kəslə mən vidalaşdım
Minib avtobusa dağları aşdım.
Axşama az qalmış çatdım Yevlaxa
Getmək fikrindəyəm mən Qarabağa.
Vardı Yevlaxda da bir neçə rəfiq
Məcmuənin dostu, rəfiqi-şəfiq.
Tapışdıq, gecəni yaxşı keçirdik,
Yeyib, içib, sonra yatağa girdik.

## AĞDAM

Yevlax çox istidir, tər silə-silə
Səhər tezdən mindim avtomobilə.
Saat bir olmuşdu çatdım Ağdama,
Etdim təsadüf bir tanış adama.
Varmış mehmanxana – oraya getdik,
Bir mənzil istədik çox israr etdik.
Lakin tapılmadı heç bir boş otaq
Nömrələr dolmuşdu lap qalaq-qalaq.
Yusif Bədəlovu axtardım, tapdım,
Əhvalpürsan oldum, zarafat yapdım.
İşdən çıxmaq vaxtı yetişməmişdi,
Buraxmaq olmazdı, iş vacib işdi.
Verdi açarını otağın mana
Dedi: "Lazım deyil heç mehmanxana.
Külfət yaylaqdadır, mən evdə təkəm
Get aç, otur beş gün olarıq həmdəm".
Bir gənc oğlan vardı, düşdü qabağa
Apardı hörmətlə məni otağa.
Yaxşı otaqlardı, qapını açdıq,
Şeyləri buraxıb suya yanaşdıq.
Toz-torpaq basmışdı, başımı yudum
Sərin sudan içdim bir neçə udum.
Əyləşdim, gənc dəxi bir az dincəldi,
Keçdi saat yarım Bədəlov gəldi.
Qalxdım heç düşmədən fikrə, təşvişə
Vəqti ötürmədən başladıq işə.
Yazdıq abunəçi səkkiz-on nəfər,
Yusif: ac deyilsən – deyirdi, – məgər?
Həqiqət çox acdım, yeməyə getdik,
Ağaclar altında bir nahar etdik.
Vardı müxbirlərdən üç-dörd komsomol
Bunlar işə girib, çırmadılar qol.
Verdim hərəsinə bir kiçik dəftər,
Abunə toplamaq üçün getdilər.
Kooperativlər sədrini tapdıq,
Abunə haqqında çox söhbət yapdıq.



Beş yüz manatlıq da "Molla"dan yaydıq
Adresləri yazdıq, pulları saydıq.
Artıq üçüncü gün beşcə yüz manat
Etdim poçta ilə Mirzəyə barat.
Artıq dördüncü gün çıxdım Ağdamdan
Çatmışdım Yevlaxa çox keçmiş şamdan.
Bir dosta rast gəldim yerlilərimdən
Onu görmək ilə çox şad oldum mən.
Üstümdən, başımdan toz silə-silə,
Apardı həmşəhrim məni mənzilə.
Üç ildən çoxdu ki, görmürdüm onu
Böylə tapışmışdıq indi ən sonu.
Qatarın vaxtına üç saat qalmış,
Rəfiqim kabablıq yaxşı ət almış.
Yaxşı doğramışdı, şişlər sazlandı,
Kömür çox bol idi, manqal da yandı.
Rəfiqlə əyləşdik doğru üz-üzə,
Gəlmişdi Gəncədən şərab bir kuzə.
Mümkün bir hal ilə yeyilib kabab
Bitmişdi kuzədə yaquti şərab.
Qatar gəldi, rəfiq bilet də aldı,
Məni çox hörmətlə yola da saldı.

## SƏLYAN

Səlyana gedəcəkdim Hacıqabuldan
Bu yolu görmədim mən heç bir zaman.
Soruşdum, – dedilər – bir avtobus var
Gündə bircə dəfə buraya uğrar.
Beş saat gözlədim avtobus gəldi,
Hərgah gəlməsəydi, işim əngəldi.
Çayxana, mövqufda yatmaq olmazdı,
Çox da darıxmışdım, axşama azdı.
Hər nəysə əyləşib gəldim Səlyana,
Vardı kiçik, təmiz bir mehmanxana.
Qapı bağlı idi, hər yana çapdım
Müdiri axtarıb bulvarda tapdım.

Xırda, səliqəli bir otaq verdi
Otaq tək özümə məxsusdur, dedi.
Bulvar çox gözəldi, xoşa gəlirdi
Hər kəs bura gəlir və dincəlirdi.
Yemək üçün salon dəxi var idi,
Lakin küçə səmti pərdədar idi.
Sordum: "Bəs bu pərdə neyçindir, yahu?.."
Dedilər: "Salyanda bir adətdir bu,
Görsənməsin deyə qızlar, qadınlar
Çəkmək lazım gəlmiş pərdədən hasar".
Şura zamanında belə bir işə
Rast gəlib düşmüşdüm fikrə, təşvişə.
Çox bərk acımışdım, bathabatdı gün
Masaya yaxlaşdım mən yemək üçün.
Bir gənc müəllim var, adı Ələkbər.
Bizə ara-sıra yazardı xəbər.
Zühur etmişdi o, salonda birdən
Tanış tapdığımdan çox sevindim mən.
Bir yana baxmadan yanıma gəldi,
Salam və əl verdi, halı gözəldi.
Dedi: "Xəbər tutdum gəldiyinizdən
Gəldim, çünki nigran qalardım sizdən".
Oturdum, birlikdə eylədik nahar.
"– Sabah gəlin, – dedim, – baxaq nə olar.
Şükürbəylini[1] də tapmalıyız biz
Lakin gecikməyək, tez gəliniz siz".
*O getdi, mən yatdım öz mənzilimdə*
Lakin bir ağırlıq vardı əqlimdə.

* * *

Səhər Şükürbəylini tapdıq, görüşdük
Abunə toplamaq işinə düşdük.
Az-çox Salyanda da toplanıldı pul
Dördüncü gün etdim pulları qəbul.
Kürün körpüsündə qəlbimiz açıq

[1] Məhəmməd Əli Şükürbəyli – "Molla Nəsrəddin"in dostlarından idi.



Müəllim dostlarla biz vidalaşdıq.
Bilet alınmışdı səhərdən erkən
"Səlyan" gəmisinə rakib oldum mən.
Gəmidə səfəri sevərəm artıq
Lakin qismət olmur bu mana sıx-sıx.
*Səhər* Kür *nəhrindən çıxdıq dənizə*
Bir zövqi-ruhani verdi bu bizə.
Günortadan sonra çatdıq Bakıya
Evə tələsirdim dincəlim deyə.
*Əsəf... altı yaşlı oğlumuz Tələt*
On gün bundan əvvəl edibmiş rəhlət.
Çıxdı dincəlmək də, şadlıq da yaddan
Görmək övlad dağı deyildi asan.
Anası ağlardı, təsəlli verdim
Həyatın, övzaqın sonu bu, dedim...

* * *

Gecə dərd-kədərlə evdə dincəldim,
Səhər idarəyə işimə gəldim.
Mirzə gülər üzlə qarşıma gəldi
Əhvalpürsan oldu, xeyli incəldi.
Çünki gətirmişdim mən yaxşı para
Para, bu şoğərib sağaldır yara.

* * *

Mirzə oğlum Tələt vəfat edən gün
Bizə gedib imiş təsəlli üçün.
Pul da veribmiş, iyirmi beş manat
Bunu tələb edir, insanlıq, həyat.
Onun bu insani hərəkətindən
Dünya qədər razı, məmnun qaldım mən.
Hansı gün gərəkdi yoldaş yoldaşa?
Bunu hər kəs bilib, düşməli başa.

* * *

Avqust girmiş idi, Mirzə gedəcək,
Barjomda bir müddət rahat edəcək.
(Bu dəfə Polina xanım[1] da getdi
Mirzəyə yoldaşlıq, rəfaqət etdi).
İki-üç gün sonra o çıxdı yola
Aldım mən işləri yenidən qola.

* * *

On beş gündən sonra bir məktub yazdı
Mirzənin Barjomda keyfi çox sazdı.
Yazmışdı: "Kefsiz"i çox sıxır həyat
Qoy olsun maaşı yüz səksən manat".
Demək, son günlərdə artdı maaşım
Evdə bol olacaq əppəyim, aşım.

## İKİNCİ KİTABIM

### *"Bəlkə bu yaxşı oldu"*

Gəlib yetişmişdi otuzuncu il,
Ərzaq bahalığı heç bilmirdi dil.
Gəlir məxaricə çatmırdı əsla,
Dolanmaq olmuşdu böyük bir bəla.
Hər gün məktubları araşdırarkən
Qanlı göz yaşları tökür idim mən.
Quba kəndlərindən gələn xəbərlər
Etmişdi lap yemək-içməyi zəhər.
Aclıqdan ölürdü yüzlərlə adam
Kəndlər məhv olurdu çörəksiz tamam.
Verdim "Azərnəşr"ə bir az materyal
Düzələr vəziyyət, dedim, – ehtimal.
İlin axırında çıxmışdı kitab

[1] Polina xanım – Mirzənin qeyri-şəri rəfiqəsi və idarənin hesabdarı idi.



Üç yüz otuz manat almışdım hesab.
Yazım edilmişdi yarı ixtisar
"Kefsiz" çox pul alsa, olar çox xumar!

## MİRZƏNİN XƏSTƏLİYİ

Otuzuncu il, – noyabr, – Mirzə xəstədir
Deyil idarədə işə müqtədir.
Böyük müalicə lazımdı ona
Yoxsa həyatı lap irirdi sona.
Bizdə qiymətlənir həmişə əmək
"Sovnarkom" göstərdi Mirzəyə kömək.
Midhəd Kislavodskiyə aldı Mirzəni
Tək qoymaq olmazdı çünki xəstəni.
Bir ay qalıb sonra qayıtdı Mirzə
Lakin heç yardımı çatmırdı bizə.
Mirzənin azarı qorxulu idi
Bir gün söhbətində o, böylə dedi:
"Doktor mən yaylaqda olduğum zaman
Başımdan qan aldı bir böyük fincan.
Qan alandan sonra başım dincəldi,
On gün sonra ağrım dübarə gəldi.
Doktor da ikinci dəfə aldı qan
Bu qan almaq saldı lap məni candan".
Mirzə xəstələndi sonra bir daha
Bizə bu xəstəlik durdu çox baha.
Semaşkoda yatdı 25 gün
Lakin əsəbləşdi Mirzə büsbütün.
Yanına getmişdik, yaxşı deyildi
Yatdığı mənzil də çox pis mənzildi.
Dedi: "Burada heç baxmırlar mənə
Məni aparın siz evimə yenə".
Evə gətirdilər uşaqlar onu
Evdə daha rahat olurdu sonu.
Uzun müddət sonra bir az sağaldı,
Lakin işlərimiz başqa rəng aldı.
Daim tapdıqda biz söhbətə imkan
Şikayət edirdi baş ağrısından.

Otuz birinci il jurnal dayandı
Onun həyatına indi payandı.
İyirmi beş illik bir mübarizə
Artıq xudahafiz edirdi bizə.
İdarə bağlandı, örtüldü kitab
Biz işçilər dəxi aldıq haqq-hesab.
Çəkildi yoldaşlar hərə bir yana.
İşə keçməliyik başqa meydana.
Artıq nə jurnal var, nə onun izi
Ancaq yaşadırdı şuralar bizi.

* * *

Hələ bağlanmamış "Molla Nəsrəddin"
Qoca həyatımı etməkçin təmin
Vermişdim təqaüd üçün istida
Düzəldi jurnaldan sonra müddəa.
Qoca bir şairi etməkçin təmin
Etdi hökumətim təqaüd təyin.
Şura öz şairin daim yaşadar
Məndə buna böyük bir etimad var.

## "YENİ YOL" QƏZETƏSİNDƏ XİDMƏTƏ GİRDİM

Bir yüz otuz altı manat maaşla,
Girdim "Yeni yol"a dava-dalaşla.
Kənd şöbəsində mən başladım işə
Yazardım əvvəl də ona həmişə.
Həyatım, ruhumdur mənim mətbuat
Bir də bu sahədən ayrılım… heyhat.
Əlli yeddi ili keçirmiş yaşım
Ölmüş, getmişdir çox yarım, yoldaşım.
Mənim də xəstədir qəlbim, ciyərim
Getmişdir qüvvətim, sınmışdır pərim.
Yaşaram az, ya çox bunu kim bilir
Bəlkə bu gün yellər izimi silir!





Fürsət tapdıqca mən yenə hər zaman
Mirzəni çıxarmır əsla yadımdan.
Yanına görüşə evə gedərdim
Onunla əyləşib söhbət edərdim.
Şikayət edir hey baş ağrısından
Deyirdi: "Mən buna tapmadım dərman".
Mirzəni məcmuə edirdi məşğul
İndi o bir xidmət etmirdi qəbul.
Deyirdi: başqa iş gəlmir əlimdən
Hansı idarəyə işə girim mən?
Lakin işsiz dəxi çox darıxırdı
Evdə tək oturmaq onu sıxırdı.
Otuz ikinci il, qışdı, bir səhər
Xəstəyəm, uşaqlar gətirdi xəbər
Ki, Mirzə edibdir ficətən vəfat.
Gözümdə qaraldı bütün kainat
Böyük bir yazıçı dünyadan getdi,
Həsrəti dağları dağidar etdi.
Sındı həmişəlik o zərif qələm
Susdu, o söhbəti qəlbaçan həm.
Ağladı el dərdin o gülə-gülə
Göz yaşı şeh olub, can verdi gülə.
Ağladı xalq üçün iyirmi beş il
Oldu maarifə doğru bir dəlil.
Gözəl satiraçı bu şanlı ustad
Həyatda göstərdi böyük istedad.
Xəlqimiz unutmaz Mirzəni hərgiz
Ona həmişəlik minnətdarıq biz.
Bizdən ona olsun daima salam
Bizdən ona olsun daim ehtiram.

*1944*

# LÜĞƏT

A

*Abü tab* – təmtəraq
*Adat* – adətlər
*Adəmxar* – adamyeyən
*Afaq* – üfüq, aləm, dünya
*Afiyətbaxş* – şəfa verən
*Ağaz* – başlanğıc
*Aqibətəndiş* – gələcəyi düşünən
*Alimnüma* – yalançı alim
*Amac* – hədəf, nişan
*Amadə* – hazır
*Amal* – arzular
*Ariz* – baş verən
*Asiman* – göy, səma
*Aşiyanə* – yuva
*Ati* – aqibət, son
*Avan* – zamanlar
*Avazə* – şöhrət
*Ayəndə* – gələcək
*Azadiyi-kəlam* – söz azadlığı
*Azürdə* – incik

B

*Bab* – qapı
*Bad* – yel
*Bak* – qorxu
*Baqi* – qalan
*Bal* – qanad
*Bala* – uca
*Barbər* – yük daşıyan, hambal
*Basir* – gözlü, görən
*Baziçə* – oyuncaq
*Beçə* – uşaq
*Beçəbaz* – uşaqbaz
*Behbud* – sağalmaq
*Bero* – get
*Beytül-həzən* – qəm evi
*Beyzə* – yumurta
*Bədavət* – vəhşilik
*Bədiqbal* – bədbəxt
*Bədsəqal* – bədrəftar
*Bədvi-xilqət* – yaranışın başlanğıcı
*Bəhcəd* – şadlıq
*Bəndə* – qul, nökər
*Bəng* – həşiş
*Bərat* – müxtəlif vasitələrlə göndərilən pul və ya başqa qiymətli şey
*Bərg* – yarpaq
*Bərhəm* – qarışıq
*Bəsdədəm* – ağzıbağlı
*Bəşarət* – müjdə, muştuluq
*Bətalət* – vecsizlik
*Bəyazi* – kiçik dua kitabı
*Biar* – arsız, qeyrətsiz
*Bibak* – qorxmaz
*Bibar* – barsız
*Bibədəl* – əvəzsiz
*Bican* – cansız
*Bidad* – zülm
*Bidar* – ayıq
*Bidət* – yeni, qayda, pis qanun
*Bidirəng* – dayanmadan
*Bidvar* – söyüd kimi
*Biəmsal* – taysız
*Biguş* – qulaqsız
*Biiman* – imansız, kafir
*Bilmürur* – tədricən, getdikcə
*Binan* – çörəksiz
*Binəngü ar* – arsız, həyasız



*Biniza* – davasız
*Binur* – işıqsız
*Bipayan* – sonsuz
*Birüdət* – şaxta, soyuq
*Bisərü pa* – avara, yoxsul
*Bişü-kəm* – az-çox
*Borid* – kəsdi
*Bum* – bayquş
*Buriya* – həsir
*Buyi-ittifaq* – birlik iyi
*Büxl* – paxıllıq
*Büka* – ağlamaq
*Bülənd* – uca
*Bünyad* – əsas, özül
*Bürna* – cavan

C

*Caddə* – böyük yol
*Cadunəvis* – cadu yazan
*Cahilfərib* – cahil aldadan
*Camə* – paltar
*Can* – cinlər
*Cannisar* – canını qurban verən
*Cari* – axar
*Cəbhə* – alın
*Cəbr* – zor
*Cəmad* – cansız
*Cərahət* – yara
*Cərəs* – zəng
*Cəridə* – qəzet
*Cərihədar* – yaralı
*Cibal* – dağlar
*Cifə* – dəyərsiz şey
*Cinan* – behişt
*Cinsi-lətif* – lətif, cins, qadın
*Cövhər* – cisim olmayan
*Cud* – səxavət
*Cühəla* – cahillər, anlamazlar
*Cürm* – günah
*Cüzam* – yoluxucu və sağalmaz dəri xəstəliyi

Ç

*Çadürşəb* – çarşab
*Çah* – quyu
*Çak* – yarıq
*Çak etmək* – yırtmaq, parçalamaq
*Çar-çahar* – dörd
*Çarsu* – dörd tərəfi küçə olan meydan
*Çeşm* – göz
*Çəsb etmək* – yapışdırmaq
*Çidə* – toplanmış
*Çors* – nəşələndirici bir ot
*Çub* – ağac

D

*Dad* – ədalət
*Dadgər* – ədalətli
*Dam* – tor, tələ
*Damən* – ətək
*Dami-təzvir* – hiylə toru
*Dana* – bilici, ağıllı
*Dar* – ev
*Dari-şəfa* – sağalmaq evi
*Dari-üqba* – axirət evi
*Daru* – dərman
*Daruğa* – darğa, gözətçi
*Davər* – Allah, hakim
*Dehat* – kəndlər
*Delirənə* – cəsarətlə

*Dəbistan* – məktəb
*Dəğa* – dəcəl
*Dəhən* – ağız
*Dəhr* – dünya
*Dəhyek* – ondabir, keçmişdə kəndlilərin mülkədara verdikləri məhsul vergisi
*Dəman* – qızğın
*Dənaət* – alçaqlıq
*Dəndan* – diş
*Dəni* – alçaq
*Dənizadə* – alçaq oğlu
*Dər cib etmək* – cibə salmaq
*Dərmanpəzir* – əlacı olan, dərmanı olan
*Dərun* – içəri
*Dəsais* – hiylələr, bicliklər
*Dəsisə* – hiylə, qurğu
*Dəst* – əl
*Dəstar* – ətək
*Dəstgir* – əsir
*Dəvan* – qaçan
*Didar* – görüş
*Dideyi-bidar* – görən göz
*Didə* – göz
*Didətər* – gözü yaşlı
*Dil* – ürək
*Dilazar* – könül incidən
*Dilfikar* – könlü pərişan
*Dilxah* – ürək sevən, könül oxşayan
*Dilxun* – ürəyi qanlı
*Diliran* – cəsarətlilər
*Dilkəş* – könül çəkən
*Dilşad* – qəlbi şad
*Dirəng* – gözləmək, ləngimək
*Divanəgan* – dəlilər
*Divanəvar* – dəli kimi
*Döhül* – nağara
*Dud* – tüstü
*Duxtər* – qız
*Dun* – alçaq, aşağı
*Dur* – uzaq
*Duzax* – cəhənnəm
*Dümbəvar* – quyruq kimi
*Dün* – dünən
*Düşvar* – çətin
*Düzd* – oğru

## E

*Ehtikar* – məhsulu ucuzluqda alıb bahalıqda satmaq
*Ehzar* – hazır etmək
*Eybguluq* – eybi söyləmək, qeybət
*Eyd* – bayram
*Eymən* – arxayın
*Ezaz* – əzizləmə, hörmət etmə

## Ə

*Əbd* – qul
*Əbnayi-bəşər* – bəşər övladı
*Əbru* – qaş
*Əcaib* – qəribəliklər
*Əcanib* – əcnəbilər, özgələr
*Əcdad* – babalar
*Əcsam* – cismlər
*Əcuzə* – qarı
*Ədəm* – yoxluq
*Ədna* – daha alçaq
*Ədüvvullah* – Allahın düşməni
*Ədüvv* – düşmən
*Ədvar* – dövrlər
*Əfal* – işlər
*Əflakiyan* – göydəkilər
*Əfrad* – fərdlər, adamlar



*Əfyunkeş* – tiryəkbaz
*Əğniya* – varlılar
*Əğyar* – özgələr, düşmənlər
*Əhanət* – təhqir
*Əhbab* – dostlar
*Əhəd* – tək
*Əhibba* – dostlar
*Əhrar* – azadlıq istəyənlər
*Əhrimən* – əhrimən, şeytan
*Əxbar* – xəbər
*Əxbarqu* – xəbər deyən
*Əxəvi* – qardaş
*Əxgər* – qığılcım, şərarə
*Əqdi-üxüvvət* – qardaşlıq yığıncağı
*Əqval* – sözlər, söhbətlər
*Ələm* – alimraq
*Əlhac* – hacı
*Əlyövm* – bu gün
*Əlzəm* – vacib, daha lazım, çox gərək
*Əmiri-ümərə* – əmirlər əmiri
*Əmrəz* – xəstəliklər
*Əmri-məaş* – yaşayış işi
*Ənbiya* – peyğəmbərlər
*Əncüm* – ulduzlar
*Əndəlib* – bülbül
*Əndərun* – içəri
*Əndində* – yanında
*Əndişə* – düşüncə
*Əndu* – qəm
*Ənin* – inildəmə, inilti, zarıma
*Ənvar* – işıqlar
*Ənzar* – nəzərlər, gözlər
*Əpmək* – çörək
*Əraf* – behiştlə cəhənnəm arası
*Ərbabi-şər* – şər əhli
*Ərəq* – tər
*Ərəz* – cism
*Ərğəvan* – qırmızı
*Ərsə* – meydan
*Ərus* – gəlin
*Ərz* – yer
*Ərzəl* – ən rəzil, çox alçaq adam
*Əsəf* – təəssüf
*Əsəfnag* – əsəfli
*Əsərbəxş* – təsirli
*Əskinaz* – kağız pul
*Əslaf* – keçmişlər
*Əslahə* – silahlar
*Əstər* – qatır
*Əşcar* – ağaclar
*Əşg* – göz yaşı
*Əşgbar* – gözüyaşlı
*Əşxas* – şəxslər, adamlar
*Əşrar* – şərur adamlar
*Əşyax* – şeyxlər, qocalar
*Ətfal* – uşaqlar
*Ətrak* – türklər
*Ətşan* – susuz
*Əvan* – yoldaşlar
*Əyan* – aşkar
*Əyyami-sələf* – keçmiş günlər
*Əzakar* – əzalı
*Əzl* – düşmək
*Əzm* – iradə, meyl

## F

*Faxir* – qiymətli
*Faiq* – üstün
*Fasiq* – pis əməlli
*Faş* – aşkar
*Feil* – iş
*Faxri-üzma* – böyük iftixar
*Fəlah* – qurtuluş
*Fəm* – ağız
*Fəramuş* – unutmaq
*Fəravan* – bol

*İsrar* – üz vurmaq
*İstida* – ərizə
*İstiğfar* – bağışlamaq
*İstiqbal* – gələcək
*İstiraham* – rica, xahiş
*İştibah* – yanılmaq, səhv etmək
*İştiğal* – məşğul olma
*İştihar* – şöhrət qazanmaq
*İştiyaq* – arzu, həvəs, istək
*İttihad* – birlik
*İyma* – işarə
*İza, iyza* – əziyyət
*İzdiyad* – artım

J

*Jendə* – yırtıq

K

*Kala* – mal, əmtəə
*Kan* – mədən
*Kardan* – iş bilən
*Kargər* – fəhlə, kəsərli
*Kəcnüma* – əyri göstərən
*Kəlal* – qəm
*Kələbək* – kəpənək
*Kəmyab* – aztapılan
*Kənkan* – quyuqazan
*Kəsalət* – kefsiz, yorğun
*Kəsbi-ülum* – elmləri kəsb etmək
*Kəşukəş* – çəkhaçək
*Kəşfi-raz* – sirri açmaq
*Kəşti* – gəmi
*Kisəbər* – cib kəsən
*Kiş* – din, məzhəb
*Kişvər* – ölkə
*Kodən* – anlamaz
*Kövkəb* – ulduz
*Kövkəbi-bəxt* – bəxt ulduzu
*Kövnü məkan* – kainat
*Ku* – məhəllə
*Kubəku* – məhəllə-məhəllə
*Kuhənlər* – köhnələr
*Kübar* – böyüklər
*Kühənsal* – yaşlı, qoca
*Külah* – papaq

Q

*Qaç* – neçə
*Qadiri-həyy* – diri, qüdrətli Allah
*Qafilə* – karvan
*Qare* – oxucu
*Qasib* – qəsb edən
*Qasir* – qüsurlu, aciz
*Qeyri-məqul* – ağlasığmaz
*Qəba* – paltar
*Qəbahət* – abırsızlıq, pislik
*Qəbih* – pis
*Qəbz* – bağlamaq
*Qədrdan* – qədirbilən
*Qələndər* – dərviş, lotu
*Qəlladə* – bənd, zəncir
*Qəmküsar* – qəmi silən
*Qəndil* – çilçıraq
*Qəni* – varlı
*Qəraib* – qəribəliklər
*Qərn* – əsr
*Qərүə* – kənd
*Qəsavət* – rəhmsizlik, sərtlik
*Qəsəm* – and
*Qətərat* – damcılar



*Qəti-ümid* – ümidi kəsmək
*Qəyur* – qeydlər
*Qəzəvat* – din yolunda aparılan müharibə
*Qolay* – asan, yaxşı
*Qolrə* – vəba, xolera
*Qövl* – danışıq, söz
*Qusfənd* – qoyun
*Qüdsiyyət* – paklıq
*Qüvayi-vücud* – bədənin qüvvələri
*Qüvveyi-şamma* – iybilmə duyğusu

L

*Lacərəm* – əlacsız
*Lafzən* – yalançı, boy deyən
*Latayilat* – boş sözlər
*Leylac* – qumarbaz
*Leylü nəhar* – gecə və gündüz
*Ləcacət* – tərslik
*Ləhi* – avaz
*Ləim* – alçaq
*Lən* – lənət
*Lisan* – dil
*Lölövü lala* – iri mirvari

M

*Mahi* – balıq
*Mahliqa* – ayüzlü
*Mahvəş* – ayüzlü
*Maidə* – azuqə
*Maqtab* – maqqaş, pinset
*Malidə* – sürtülmüş
*Manənd* – tay
*Mar* – ilan
*Masonlar* – mason təşkilatının üzvləri
*Mavəra* – o tərəf
*Mazi* – keçmiş
*Məal* – arzu, məqsəd
*Məbər* – keçid, yol
*Məbərra* – pak
*Məbhut* – heyran
*Məbud* – Allaha ibadət olunan yer
*Məbus* – vəkil
*Məcruh* – yaralı
*Mədaxil* – gəlir
*Mədfən* – qəbir, məzar
*Mədfun* – basdırılmış
*Mədhuş* – dəhşətli
*Mədum* – məhv olmuş
*Məəhaza* – bununla birlikdə
*Məfqud* – yox, olmayan
*Məgəs* – milçək
*Məğfərət* – bağışlamaq
*Məğrib* – qərb, günbatan, Afrikanın (Misirdən başqa) şimal sahilindəki ölkələr
*Məğşuş* – qarışıq
*Məhcub* – utancaq
*Məhd* – beşik
*Məhfil* – məclis
*Məhzun* – qəmli
*Məxaric* – xərclər
*Məxrəc* – çıxış, çıxan yer
*Məxrubə* – xarab olmuş, xərabə
*Məxzən* – xəzinə
*Məkan* – yer
*Məkani-bum* – bayquş yeri
*Məkkarə* – məkirli qadın
*Məkulat* – yeyinti məhsulu
*Məqal* – söz, söhbət
*Məqhur* – qəhrə gəlmiş, məğlub

*Məqtul* – öldürülmüş
*Məlamət* – məzəmmət
*Mələkülmövt* – ölüm mələyi
*Məmat* – ölüm
*Məmnu* – qadağan olunmuş
*Məmur* – abad
*Mən* – qarşısını almaq
*Mənazil* – mənzillər
*Məndil* – yaylıq, dəsmal
*Mənhus* – pis, nəhs
*Mənqəbət* – tərif
*Mərarət* – aclıq
*Mərg* – ölüm
*Məruf* – tanınan, məşhur, məlum
*Məsərrət* – sevinc
*Məskənət* – yoxsulluq
*Məsnəd* – taxt, xalça
*Məsrur* – şad
*Məşahir* – məşhurlar
*Məşixiyyət* – təriqət başçıları
*Məşrəb* – xasiyyət
*Məşruə* – şəriətçilər
*Mətlub* – istənilən
*Məva* – sığınacaq, ev
*Məzərət* – üzrxahlıq
*Məzhək* – məzəli
*Məzid* – artıq
*Məzmum* – pis
*Məzul* – çıxarılmış
*Məzur* – üzrlü
*Miftahül-fərəc* – nicat açarı
*Minbəd* – bundan sonra
*Minəl* – qədimdən-qədim
*Mirat* – güzgü
*Mordeyi-əhya* – diri ölü
*Movquf* – müvafiq
*Möhlik* – öldürücü
*Möhnətəfza* – qəm artıran
*Mötədil* – mülayim
*Mövqüfat* – vəqf əmlakı
*Mur* – qarışqa
*Mübah* – izn verilmiş
*Müdəbbir* – tədbir tökən
*Müdərris* – dərs verən
*Müəmməm* – əmmaməli
*Müənbər* – ənbərli
*Müəttər* – ətirli
*Müftəxər* – iftixar edən
*Müham* – əhatə olunmuş
*Mühən* – qəmlər
*Mühərrir* – redaktor, publisist
*Müxatib* – söz deyən
*Müjgan* – kirpiklər
*Mükəddər* – kədərli
*Mükəssər* – sınıq
*Müqərrəb* – yaxın
*Müqəvvi* – gücləndirən
*Müqtədir* – qadir
*Münadi* – carçı
*Müncəmid* – dönmüş
*Münci* – nicat verən
*Münəqqəş* – naxışlı
*Münəvvər* – nurlu
*Münqad* – müti, itaətkar
*Münsəlib* – alınmış
*Mürdə* – ölü
*Mürəbbi* – tərbiyəçi
*Mürtəd* – yoldan dönmüş
*Mürur* – ötmə, keçmə
*Müsaid* – münasib
*Müsavati-miləl* – millətlərin bərabərliyi
*Müsəffa* – təmiz, səfalı
*Müsəhhih* – korrektor
*Müsəmməm* – qərara gəlmiş
*Müsəvvər* – şəkilli, təsvirli



*Müslüm* – müsəlman
*Müstəhsən* – gözəl, xoşagələn
*Müstövcibi-iza* – əziyyətə bais
*Müşəvvəş* – qarışıq
*Mütə* – müvəqqəti siğə
*Mütəğəllib* – zorakılıq edən
*Mütəkəllim* – danışan
*Mütxəriat* – ixtiyarlar
*Mütrübə* – rəqqasə
*Mütrükə* – irs
*Müttəsil* – daima
*Müzlim* – qaranlıq
*Müztərr* – aciz, çarəsiz, təngə gəlmiş

## N

*Nabəkar* – yaramaz
*Nabina* – kor
*Nafilə* – əldən getmiş
*Nağədəhən* – dəvəağız
*Naxun* – dırnaq
*Naqus* – kəlisa zəngi
*Namdar* – adlı-sanlı, məşhur
*Namabər* – məktub çatdıran
*Namərbut* – yersiz, dəxli olmayan
*Nami-nik* – yaxşı ad
*Nan* – çörək
*Napak* – murdar
*Nar* – od
*Nari-səğər* – cəhənnəm odu
*Naseh* – nəsihət verən
*Naşad* – qəmli
*Neveşt* – yazı
*Neyistan* – qamışlıq
*Neyrəng* – hiylə
*Nəbi* – peyğəmbər
*Nədamət* – peşmançılıq
*Nədar* – yoxsul
*Nəf* – mənfəət, qazanc
*Nəfsi-əmmarə* – əmr edən nəfs
*Nəğməpərdaz* – nəğmə yazan
*Nəhif* – arıq, zəif
*Nəhy* – saqındırmaq
*Nəxl* – xurma ağacı
*Nəxli-tuba* – behişt bağının xurma ağacı
*Nəng* – eyib, abırsızlıq
*Nərm* – yumşaq
*Nəsbeyləmək* – yapışdırmaq, qoymaq
*Nəvin* – təzə
*Nəyabət* – vəkillik
*Nəzərrübə* – nəzərəçarpan
*Nigah* – baxış
*Nigahban* – gözətçi
*Nihan* – gizli
*Nikxah* – yaxşılıq istəyən
*Niku* – gözəl
*Nikuzad* – yaxşı doğulmuş
*Nimxiz* – yarı qalxmış
*Nisa* – qadınlar
*Nisf* – yarı
*Nisvan* – qızlar
*Niş* – tikan
*Niyam* – qın, qılaf
*Niyran* – yanar od, cəhənnəm
*Nəmaslək* – təzə əqidəli
*Nosal* – gənc, uşaq
*Nöh* – doqquz
*Növmid* – ümidsiz, naümid
*Növpərəstan* – insanpərvərlər
*Növrəstə* – yeniyetmə
*Nuri-beyza* – işıqlı dairə
*Nuri-bəsər* – göz işığı
*Nümayan* – görünən
*Nüzhətgah* – gəzmək yeri

## O

*Obaş* – alçaqlar, tərbiyəsizlər
*Ovqaf* – vəqf olunmuşlar
*Ovnə* – kömək

## Ö

*Övrad* – dualar, virdlər
*Övraq* – vərəqlər

## P

*Pa* – ayaq
*Pabənd* – ayağı bağlı
*Payan* – son, axır
*Payidar* – davamlı
*Pedər* – ata
*Pesər* – oğul
*Peyapey* – dalbadal
*Pənd* – nəsihət
*Pərivəş* – pəriüzlü
*Pərü bal* – qol-qanad
*Pərva* – qorxu
*Piçideyi* – dərdə mübtəla
*Piraya* – bəzək
*Piş* – qarşı, qabaq
*Pişinə* – qabaqkı
*Pişi-nəzər* – göz qarşısında
*Pişrəft* – irəliləmə
*Pişü pəs* – dal-qabaq
*Pişva* – başçı
*Pürəməl* – arzu ilə dolu
*Pürxun* – qanla dolu
*Pürkədər* – çox kədərli
*Pürqeyrət* – qeyrətli
*Pürnəm* – yaşlı
*Pürpiç* – burulmuş
*Pürşərar* – odlu
*Püşt* – arxa

## R

*Race* – aid olan
*Rah* – yol
*Rahi-ahən* – dəmiryolu
*Rəaya* – rəiyyətlər
*Rəbb* – Allah
*Rəfət* – yüksəliş
*Rəfiqi-mazi* – keçmiş dost
*Rəfi-zəhmət* – zəhməti uzaqlaşdırmaq
*Rəhlət* – ölmək, köçmək
*Rəhmətüllah* – Allahın rəhmətliyi
*Rəhnüma* – yolgöstərən
*Rəhzənlik* – yol kəsmək
*Rəxşan* – parlaq
*Rəxt* – paltar
*Rəxtxab* – yorğan-döşək
*Rəisül-vüzəra* – vəzirlərin rəisi
*Rəm* – hürkmək, qaçmaq
*Rəncbər* – zəhmətkeş
*Rəs* – baş
*Rəsən* – ip
*Riyazət* – əziyyət
*Rövşən* – işıq
*Rubah* – tülkü
*Runümun* – üzünü göstərmək
*Ruzə* – oruc
*Ruzi-cəza* – qiyamət günü
*Ruznamə* – qəzet
*Ruzü şəb* – gecə-gündüz
*Rüb* – dörddəbir
*Rücu* – müraciət
*Rüx* – üz
*Rüsxət* – icazə



## S

*Sail* – dilənçi
*Sal* – il
*Salü mah* – il və ay
*Samiə* – eşitmək
*Sariq* – oğru
*Sayə* – kölgə
*Sebarə* – üç dəfə
*Səbb* – söymə, söyüş
*Səbyan* – uşaqlar
*Səccadə* – xalça, canamaz
*Sədsalə* – yüzillik
*Səfid* – ağ
*Səhab* – bulud
*Səhl* – asan
*Səid* – xoşbəxt
*Sələf* – keçmiş
*Səma* – göy
*Sənaxan* – şükür deyən
*Səng* – daş
*Səngin* – ağır
*Sərd* – soyuq
*Sərəfraz* – başıuca
*Sərhəng* – alay başçısı
*Sərkar* – başçı
*Sərkəş* – dikbaş
*Sərmazədə* – soyuq vurmuş
*Sərnigun* – başıaşağı
*Sərriştə* – ipin ucu
*Sərtapa* – başdan-ayağa
*Sərzəniş* – məzəmmət
*Sətvət* – iqtidar
*Səyanət* – qorumaq
*Səyanət* – qorumaq
*Səzavər* – layiq
*Sibyan* – yeniyetmələr
*Siminbədən* – gümüş bədənli
*Sirab* – doymuş
*Sirişk* – göz yaşı
*Sirişt* – təbiət, xilqət, yaradılış
*Sirqət* – oğurluq
*Sitəm* – zülm
*Siyəhpuş* – qara geyən
*Siyəhrəng* – qara rəngli
*Soqaq* – küçə
*Solət* – sərtlik
*Sövq* – meyil
*Sövt* – səs
*Su* – tərəf
*Suç* – təqsir
*Sud* – mənfəət
*Suzan* – yanan, yandıran
*Suziş* – ürək yanğısı
*Süflə* – alçaq
*Süfuf* – sıralar
*Sükna* – sakinlər
*Sürx* – qırmızı
*Sürur* – şadlıq
*Süturan* – dördayaqlılar
*Süud* – yüksəliş

## Ş

*Şab* – cavan
*Şahrah* – əsas yol
*Şairi-şəhir* – şöhrətli şairlər
*Şanə* – daraq
*Şantan* – meyxanə
*Şayəstə* – layiq
*Şəamət* – uğursuz
*Şəbi-yelda* – ilin ən uzun gecəsi
*Şəbpərə* – gecəquşu
*Şəğal* – çaqqal
*Şəibel* – iri qanad
*Şəqaiq* – laləgülü, xoruzgülü
*Şəqavət* – rəhmsizlik

*Şəmatət* – məzəmmət
*Şərarə* – qığılcım
*Şərir* – şər iş
*Şərir* – şər işlər görən
*Şərməndə* – xəcalətli
*Şərmsar* – xəcalətli
*Şəstr salə* – altmış yaşlı
*Şətarət* – çeviklik
*Şina* – üzmək
*Şitab* – tələsmək
*Şitaban* – tələsik
*Şövhər* – ər

## T

*Tədad* – saymaq
*Təali* – yüksəliş
*Təbah* – heç, puç
*Təbdil* – dəyişdirmək
*Təbər* – balta
*Təbərra* – uzaqlaşmaq
*Təbşir* – müjdə vermək
*Təcdid* – yeniləşmə
*Təcəddüd* – yenilik
*Təcəlla* – cilvə etmək, parlamaq
*Təcil* – tələsmək
*Təərrüz* – sataşma, hücumetmə
*Təfriqə* – ayrılıq
*Təğəllüb* – zorbalıq
*Təğənni* – nəğmə oxumaq
*Təğəzzül* – qəzəl oxumaq
*Təğyir* – başqalaşma
*Təhdid* – hədələmə
*Təhəmmül* – dözmək
*Təhəssür* – həsrət çəkmək
*Təhtindən* – altından
*Təhtülhənək* – əmmamədən çiyinə sallanan şal
*Təhzib* – paklamaq
*Təxəmmür* – turşuma, xəmir halına gəlmə
*Təxəttür* – xatırlama
*Təxlis* – xilas etmə
*Təxrib* – xarab etmə
*Təkbir* – çağırış, "Allahü əkbər" – "Allah təkdir"
*Təkdir* – pisləmək
*Təksir* – artırmaq
*Təqdir* – qədərincə, bəyənmə, qədr-bilmə
*Təqrir* – danışmaq
*Təqriz* – rəy, resenziya
*Təlafişan* – qızıl saçan
*Təlxkam* – ağzı acı, arzuya çatmamaq
*Təməddün* – mədəniyyət
*Təməllüq* – yaltaqlıq
*Tən* – bədən
*Təng* – dar
*Tənü şəmatət* – məzəmmət və istehza
*Təraşidə* – yonulmuş
*Tərcih* – üstünlük
*Tərd* – qovmaq
*Təriq* – yol
*Təriqət* – sekt, yol
*Tərsim* – rəsm etmək, cızmaq
*Təsəttür* – örtmək
*Təsfiyə* – saflaşdırmaq
*Təsxir* – almaq
*Təstir* – örtmək
*Təsvib* – qəbul etmək
*Təşair* – şeirləşmə, yalançı şair
*Təşrik* – şərik olma
*Təşvir* – şurə gəlmə
*Təthir* – paklamaq
*Təzib* – əzab vermək
*Təzvir* – hiylə



*Tifl* – uşaq
*Tirə-tar* – qaranlıq
*Toən, kürhən* – istər-istəməz
*Tula* – uzun
*Tülu* – doğma, çıxma

## U

*Uhəfza* – ruhoxşayan

## Ü

*Üdəba* – ədiblər
*Üxüvvət* – qardaşlıq
*Üqba* – axirət
*Üməm* – millətlər
*Ümərə* – əmirlər
*Ümmül-fəsad* – pis işlərin anası, şərab
*Ünas* – qadınlar, qızlar
*Ürəfa* – arifiər
*Üstüxan* – sümük
*Üstvar* – möhkəm

## V

*Vajgun* – başıaşağı
*Vaqiə* – əhvalat
*Validə* – ana
*Vəfaq* – dostluq
*Vəxim* – qorxulu
*Vələd* – oğul
*Vəzan* – əsən
*Vükəla* – vəkillər
*Vüquat* – hadisələr
*Vürud* – girmək

## Y

*Yekrəy* – rəyi bir
*Yeksək* – birbaşa
*Yeksüxən* – sözü bir olan
*Yəd* – xatir, şan, şərəf
*Yədi-beyza* – işıqla əl
*Yədullah* – Allahın əli
*Yəğma* – talan
*Yəm* – dəniz
*Yəzdan* – Allah
*Yövmi-üqba* – axirət günü
*Yövmi-səid* – uğurlu gün

## Z

*Zəbun* – alçaq
*Zəğ* – qarğa
*Zəğən* – qarğa
*Zəxm* – yara
*Zəxmdar* – yaralı
*Zəmin* – yer
*Zəmm* – həcv etmək
*Zən* – arvad
*Zənan* – qadınlar
*Zər* – qızıl
*Zərd* – sarı
*Zi iqtidar* – qüdrətli
*Zib* – bəzək
*Ziba* – gözəl
*Zibh* – kəsmək
*Zinəfəs* – nəfəs çəkən
*Ziraət* – əkinçilik
*Ziruh* – canlı
*Ziyadar* – işıqlı
*Zöhd* – zahidlik
*Zövcə* – arvad, övrət
*Zülmət* – qaranlıq

## KİTABIN İÇİNDƏKİLƏR


*Həqiqi "Molla Nəsrəddin" şairi* .....4
*Redaktordan* .....18


ŞEİRLƏR


Fələkdən giley .....25
Şikayət .....26
Kəndə ibtida .....27
Hürriyyətin lüzumu .....28
Atanın oğluna vəsiyyəti .....29
İstibdad .....31
Qəzəl .....32
Cavab .....32
Molla .....34
Kişilərimiz .....36
İstixarə .....38
Beyt .....39
Kişilərimiz .....42
Məsləhət .....43
Bir qızın Molla Nəsrəddinə ərzi-halı .....44
Məktəb .....46
Nə idi? .....47
Kefimdi .....48
Evlənməz idim .....49
Sizə nə .....50
Zindan .....51
Əşari-məhzunanə .....53
Şah .....55
Yazım, yazmıyım? .....56
Orucluq .....57
Allahə təvəkkül .....58
Acıdır .....59
Olacaqmı? .....60
Çək daşa .....61
Qızlarımız .....62





Ağaya cavab .....63
Arvadlarımız .....64
Bakı .....65
Gimnaziyada .....67
Evlənmərəm .....68
Əlvida .....69
Həsəd .....71
Mənəm .....72
Füqəra .....73
Ey füqəra .....74
Lalsən .....75
Dabanı çatdax xalaya .....76
Əcəb .....77
Əttövbə .....79
Köhnələr .....80
Aldanmayın .....82
Əbəsdir ahın... .....83
Olmuşam .....84
Rəcəz .....86
Məmədəlinin vidaı .....88
Məhəmmədəli şahın Tehrandan Rəştə tərəf hərəkəti .....90
Hiss, zövq yox .....91
Ehsan .....94
Dilsuzdan .....95
Urra .....97
İnan .....98
Tazələr .....99
Keç qabırğa .....100
Vəssəlam .....102
Tərifi-Gəncə .....103
Bu nədir? .....104
Xudahafiz .....106
Qəzələ bənzətmə .....108
Qorxuram .....108
Nəsihət .....110
Uyma dünyayə... .....111
Od tutub odlandı vətən .....112

Olsun ....................................................113
Hənuz ....................................................115
Almasa gər qızlarımız tərbiyə ....................................................117
Miftahülfərəc ....................................................118
Qazet yazanlar ....................................................119
Biarsən ....................................................120
Ey mütrübeyi-dövri-təcahil ....................................................121
Mədəli ....................................................123
Bizimki deyil ....................................................124
A qızlar ....................................................125
Əlhəmdülillah ....................................................126
Ədəbiyyat, yaxud minacat ....................................................127
Viran görürəm ....................................................128
Lövhi-məkatib ....................................................129
De ....................................................131
Amali-hürriyyət ....................................................132
Bu da bir bahar ....................................................134
Amandır ....................................................135
Vaizlərə bax ....................................................137
Nisgil ....................................................138
Rəhimxanın Məhəmmədəliyə ərzi-halı ....................................................139
Gülməyim gəlir ....................................................140
Qocaldım ....................................................142
Ay kişi! ....................................................142
Qoyma ha! ....................................................143
Mənim sevdiyim ....................................................145
Bax! ....................................................146
Nəzm ....................................................148
Yorğunlamışıq ....................................................149
Vəqtdir ....................................................151
İranlıdır ....................................................152
Taziyanə ....................................................153
İki səs ....................................................154
Gülüşmə ....................................................155
Dabanı çatdax xalaya! ....................................................156
Seyid Əzimə bənzətmə ....................................................157



Taziyanə ....................................................158
Qumarın ləzzəti ....................................................158
1910-cu ilə vida ....................................................159
Annamıram ....................................................161
Olur olsun ....................................................162
Etiraz ....................................................163
Yadi-mazi ....................................................163
Mənəm ....................................................165
Dirhəmü dinardən özgə ....................................................166
Ey baxanlar... ....................................................167
İşə keçməz ....................................................167
Tapmaca ....................................................168
...Axundun şərhi-halı ....................................................169
Dadı yoxdur ....................................................170
Əzrailə xitabi-rəbbani ....................................................171
Keçərmiş ....................................................171
Tapmaca ....................................................173
Müxtəsər ....................................................173
Ey könül ....................................................175
Müsəlmanı yaratdın ....................................................176
Bir dövlətli qoçuya ....................................................177
İzhari-qədrdani ....................................................179
Bəxtəvər Gəncə ....................................................181
İran ....................................................182
Nümuneyi-mazi ....................................................183
Fəxriyyə ....................................................185
Tapmaca ....................................................186
Orucluq ....................................................187
*Molla arifə deyir* ....................................................188
Deyirlər ....................................................189
Məşrutə ....................................................190
Dolandı bu il də... ....................................................191
Taziyanə ....................................................193
Vədə ....................................................193
Taziyanə ....................................................194
Şəkil ....................................................194

Tazə ilə ....195
Boşla, yaxud əldən qoy ....196
Tapmaca ....198
Dur ....198
Şərab ....199
Bax – gül ....200
Əşari-niyazməndanə ....202
Millətimə ....202
İdeal ....204
Beyni saman deyilmidir? ....205
Nəzir ....206
Ey nütfeyi-şeytan ....207
Küsmüşəm ....208
Tofiq Fikrətə bənzətmə ....209
Yazırsan, yazım ....210
Biz kimik? ....211
Qəzəl ....213
Qız və dədəsi ....214
Bizim eyş-nuş, yaxud bu gecə ....215
Orucluq ....217
Şairdi, maşallah ....219
Çalışma ....221
Təxmis ....222
Məktəb uşağı ....223
Uşaqlar ....224
Allaha müraciət ....225
Qoxu ....226
Müxatəbim Molla Nəsrəddindir ....228
Yeddi yaşındakı qızıma ....229
Viran üçün ....230
O mənə ....232
Bilmədim ....233
Vardır o ....234
Saqqal ....235
İkican "Məzəli" ....236
Kişi ....237



Təğəllüb ....239
Yat! ....240
Doğru ha?! ....241
Ar etməsin ....242
Pul ....243
İrsi-pədər ....245
Dəyişilir ....246
Gülürəm ....248
Yorğun bir baxış ....249
Qızlarımız ....250
Vermezik, yaxud üç kişinin söhbəti ....252
Ad ....254
El ....255
Batman qılıc ....256
Yox! ....258
Leylac ....258
Qələmim ....260
Yaxın keçmişlər sandım ....261
Polis idarələri ....263
İstibdad hökuməti məcmuələrinin mündəricatı ....264
Olarmış ....265
İnşaallah ....267
Hürriyyətdən kim nə pay aparsın? ....267
Muxtar ....268
Təən-kürhən! ....269
Bəy ....270
Gülməli məzmun ....271
"Dostanə giley" ....272
Topal ....274
Oynayıram ....275
İnanmam ki... ....276
Loğalar ....277
Ovqaf və Molla Qurban ....278
Aclıq ....279
Ey ədalət! ....280
Qadın ....280

Çalışqan Cəmal! .....282
Minacat .....284
Bəxtəvər .....286
Qəzəl .....286
Örnək .....287
Cib xəstəliyi .....288
Tərbiyət .....289
Şəm və pərvanə .....290
Dil məsələsi .....291
Bizim arvad .....292
Bizim qız .....294
Dilimiz .....295
Bir mülkədarın təhəssürü .....297
Faciə meydanı .....298
Qadınlarımız .....300
Məzmun-məzmun .....301
Müstəzad .....302
Qoymayın .....303
Nə üçün .....304
Bilmə ki, aləm nədir .....305
Dabanı çatdax xalaya .....307
Balaca felyeton .....309
Mədəni inqilab .....310
Dilimiz düzəlmir .....311
Bəhanədir .....312
Olmadı .....313
Əhmədi-biğəm .....314
O malın hanı? .....315
Türk qızına .....317
Verməyir bir belə qulluq .....318
Hitlerin Allahla ittifaqı .....319
Hitlerdən əlaltılarına .....322
Tülkü həccə gedir .....324
Canavarın Allaha etirazı .....325
Minacat .....327
Vətənim .....329
Gülür aləm bu gün .....330



## FELYETON VƏ MƏQALƏLƏR

Zərafətdən bəhrə .....333
Cürbəcür əhval .....333
Öz müxbirimizdən .....334
Gəncə uyezdindən .....336
Elmmi, hiyləkarlıqmı? .....338
Öz müxbirimizdən .....340
Gəncədən yazırlar .....341
Elan .....342
Gəncə .....342
Gəncədə kitabfüruşdan .....343
Gəncə .....343
Gəncə .....344
Söhbət .....344
Ata və oğul .....345
Ay Molla Nəsrəddin əmi .....345
Ölü tutmaq .....347
Gəncədən .....348
Mərsiyəxanlar .....349
Tərbiyə .....349
Gəncədən .....351
Vəsvəsə .....352
Kəndlilərin məişətindən .....352
Kəndlilərin məişətindən .....355
51-ci №-dən məbəd .....357
Maşallah .....358
Daha düzəldi .....358
Şərab içmək .....359
Məni sayanı qurd yesin .....360
Moizə .....361
Mühüm söhbət .....363
Üzrüm var .....364
Tərbiyə, yaxud "Zəvallı Məmiş" .....366
Şeyxin pişiyi .....368
Arvad məsələsi .....369
Möcüzat .....371

Əziz dostlarımız ....... 373
İyirmi ikinci il ....... 374
Mətbuat ....... 375
Mətbuat ....... 375
Məhərrəm yaxınlaşır ....... 377
Kim doğru deyir? ....... 378
Ümumi dərdlərdən ....... 378
Əzadarlıq ....... 379
Üzünü açma! ....... 381
"Fəryadi-Azərbaycan" ....... 383
Böyük zülmdür ....... 384
Yeni əlifba və idarəçilərimiz ....... 384
Mətbuat ....... 386

XATİRƏLƏR

Keçmiş günlər
(*ərəb əlifbasından transliterasiya edəni Elmira Qasımova*)
Anamın hekayəsi ....... 390
Kənddə torpaq vəziyyəti ....... 391
Böylə bir hal içrə el zəifləşir ....... 392
Atam yardımçısız, həm də yoxsulmuş ....... 393
Hər yerdə yoxsulluq aşmış həddini ....... 394
O lap avam deyil, savadı vardı ....... 394
Mərhum yoxsulsa da, çox mollabazdı ....... 395
Atamın vəfatı ....... 396
Mərhum edən zaman dünyadan rəhlət ....... 397
Molladan Quran oxuyuruq ....... 397
Ev işim ....... 398
Necə oldu ki, mən Buxaraya getdim ....... 398
Keçmiş bu işdən düz otuz beş sənə ....... 399
Gəncədən üç yoldaş etmişdik səfər ....... 400
Buxaraya vürud ....... 400
Kitab məşğuliyyəti ....... 402
Birinci dəfə qəzetə görürəm ....... 403
Birinci dəfə şeir yazmağım ....... 404
Salam ola sənə, ey cism içrə can əxəvi! ....... 405



Əl qatdım yazıma bundan sonra mən ....... 405
Əski buxara şəhərini ziyarət ....... 405
Biz erkən qalxmışdıq uyğudan səhər ....... 407
Şirbuddin ....... 409
Səmərqənd səfəri ....... 409
Səmərqənddə qaldıq işsiz iki ay ....... 410
Döndüm Buxaraya bir müddət qaldım ....... 411
Kənddən qaçmaq istəyirəm ....... 411
Məni evləndirdilər ....... 412
"Tərcüman" qəzetəsi oxuyuram ....... 413
"Şərqi-rus" qəzetəsinin nəşri ....... 414
Rus-yapon səfəri ....... 414
Yalançı hürriyyət elanı ....... 415
Türklərdə asari-intibah ....... 417

"Molla Nəsrəddin" – "Şərqi-Rus"un varisi
Yeni rəng sərgüzəştlər ....... 418

*Lüğət* ....... 520

Buraxılışa məsul: *Əziz Güləliyev*

Texniki redaktor: *Rövşən Ağayev*

Tərtibatçı-rəssam: *Nərgiz Əliyeva*

Kompyuter səhifələyicisi: *Aslan Almasov*

Korrektorlar: *Pərinaz Musaqızı*
*Fəridə Səmədova*

**Yığılmağa verilmişdir 07.06.2006. Çapa imzalanmışdır 28.08.2006.**
**Formatı 60x90 $^{1}/_{16}$. Fiziki çap vərəqi 34. Ofset çap üsulu.**
**Tirajı 25000. Sifariş 116.**

Kitab "Şərq-Qərb" mətbəəsində çap olunmuşdur.
Bakı, Aşıq Ələsgər küçəsi, 17.